

*Mən tam səmimiyyətlə deyə bilərəm,*
*özümüzü tərifləmək üçün yox, sadəcə olaraq, həqiqəti dilə gətirmək üçün, Azərbaycan dünyanı birləşdirir.*
*Birincisi, milli zəmində, yəni, ölkə ərazisində görülən bütün işlər, tədbirlər nümunəvi xarakter daşıyır.*
*Sosial-iqtisadi paket adambaşına düşən xərclərə görə dünyada bəlkə də birincilər sırasındadır.*
*Beynəlxalq müstəvidə özünü məsuliyyətli üzv kimi aparıb və yenə də ümumi daxili məhsula görə bizim qədər donor ianəsi verən olmayıb.*

**İLHAM ƏLİYEV**

*Azərbaycan Respublikasının Prezidenti*

ISSN 2309-1347

Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası

# DÖVLƏT İDARƏÇİLİYİ:
## NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ

**2020**
**2 (70)**

**DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**
**BAKI – 2020**

*Demokratik cəmiyyətdə dövlət idarəçiliyinin, yerli özünüidarəetmənin nəzəriyyəsi və təcrübəsi üzrə tədqiqatlar*


**REDAKSİYA ŞURASI:** ***Samir Nuriyev*** *(sədr)*

***Anar Ələkbərov, Fərəh Əliyeva, Kərəm Həsənov, Zeynal Nağdəliyev, Fuad Ələsgərov, Hikmət Hacıyev, Şahmar Mövsümov, Natiq Əmirov, Ramiz Mehdiyev, Urxan Ələkbərov***

**REDAKSİYA HEYƏTİ:** ***Urxan Ələkbərov***
*(redaktor)*

***Əlikram Abdullayev***
*(redaktor müavini)*

***Elman Nəsirov***
*(məsul katib)*

***Əli Nuriyev, Etibar Nəcəfov, Ziyafət Həbibova, Elçin Əhmədov, Xatirə Hüseynova, Gülnarə Qurbanova, Rəcəb Rəhimli, Sevil Məmmədova, Fəxrəddin Nağıyev, Firdovsiyyə Əhmədova***



*Elmi-nəzəri jurnal 2003-cü ildən nəşr olunur. İldə dörd dəfə çıxır.*

*Jurnal AAK-ın rəsmi qeydiyyatdan keçirilmiş və elmi nəşrlər siyahısına daxil edilmişdir.*

*Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə.*
*Elmi-nəzəri jurnal. 2020, №2(70).*
*Bakı, Dövlət İdarəçilik Akademiyasının (DİA) nəşri, 2020, 336s.*



*© Dövlət İdarəçilik Akademiyası, 2020*

ISSN 2309-1347

The Academy of Public Administration
under the President of the Republic of Azerbaijan

# PUBLIC ADMINISTRATION:
## THEORY AND PRACTICE

2020
2 (70)

ACADEMY OF PUBLIC ADMINISTRATION

BAKU – 2020

*Research Dedicated to the Theory and Practice of Public Administration and Application of Decentralized Governance in Democratic Society*

**EDITORIAL COUNCIL:** ***Samir Nuriyev*** *(chairman)*

***Anar Alakbarov, Farah Aliyeva, Karam Gasanov, Zeynal Naghdaliyev, Fuad Alasgarov, Hikmat Hajiyev, Shahmar Movsumov, Natiq Amirov, Ramiz Mehdiyev, Urkhan Alakbarov***

**EDITORIAL BOARD**: ***Urkhan Alakbarov***
*(editor-in-chief)*

***Alikram Abdullayev***
*(deputy editor)*

***Elman Nasirov***
*(executive secretary)*

***Ali Nuriyev, Etibar Najafov, Ziyafet Habibova, Elchin Ahmadov, Khatira Huseynova, Gulnara Gurbanova, Rajab Rahimli, Sevil Mammadova, Fakhraddin Naghiyev, Firdovsiyya Ahmadova***

*Journal of Public Administration: theory and practice is published since 2003. Quarterly.*

*The journal is officially registered at the Supreme Attestation Commission (SAC) and is included in the register of national scientific publications.*

*Public Administration: theory and practice*
*Scientific and theoretical journal. 2020, №2(70)*
*Baku, Publication of Academy of Public Administration (APA), 2020, 336p.*

*© Academy of Public Administration, 2020*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FƏALİYYƏTİNİN QISA XRONİKASI

*Aprel – may – iyun 2020-ci il*

## Aprel

**3 aprel**

- Bakı-Sumqayıt yolunun genişləndirilməsi çərçivəsində görülən işlərlə tanış olmuşdur.
- Sonra Moskva prospekti ilə 20 Yanvar küçəsinin kəsişməsində tikilən yerüstü piyada keçidinin açılışında iştirak etmişdir.

**6 aprel**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışında iştirak etmişdir.
- Müəssisə ilə tanışlıqdan sonra Azərbaycan xalqına müraciət etmişdir.

**10 aprel**

- Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri kimi onun təşəbbüsü nəticəsində keçirilən və koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr olunan Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşündə çıxış etmişdir.

**14 aprel**

- 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan və videokonfrans şəklində keçirilən müşavirəyə sədrlik etmişdir. Müşavirədə giriş və yekun nitqi söyləmişdir.

**15 aprel**

- Gürcüstan tərəfinin təşəbbüsü nəticəsində Prezident Salome Zurabişvili ilə videobağlantı formatında danışmışdır.

**17 aprel**

- Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev və İqtisadiyyat naziri Mikayıl Cabbarovun iştirakı ilə videobağlantı formatında keçirilən iclasda çıxış etmişdir.
- Müqəddəs Pasxa bayramı münasibətilə Azərbaycanın pravoslav xristian icmasını təbrik etmişdir.

**20 aprel**

- Bakıda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin yenidən qurulan Baş idarəetmə, elm, tədris və laboratoriya kompleksinin açılış mərasimində iştirak etmişdir.
- Sonra "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin bir qrup əməkdaşı ilə görüşmüş və görüşdə çıxış etmişdir.
- İran İslam Respublikasının Prezidenti Həsən Ruhani ona telefonla zəng edərək, müqəddəs Ramazan ayının gəlişi münasibətilə ona və xalqımıza ən xoş arzularını çatdırmış, eyni zamanda, pandemiya dövründə ölkələrimiz arasında tranzit-nəqliyyat sahəsində əməkdaşlıqdan, eləcə də yükdaşımaları, o cümlədən "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi üzrə daşımaların davam etdirilməsindən məmnunluğunu ifadə etmiş, bu istiqamətlərdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparmışdır.

**22 aprel**

- Albaniya Respublikasının Prezidenti İlir Meta ona telefonla zəng edərək, Azərbaycanla Albaniya arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə inkişafından məmnunluğunu ifadə etmiş, eyni zamanda, koronavirus pandemiyasına qarşı mübarizə ilə bağlı məsələləri müzakirə etmiş, eləcə də Trans-Adriatik qaz boru kəməri layihəsinin uğurla reallaşdırıldığını bildirərək, bunun həm ölkələrimiz arasında əlaqələrin, həm də beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi işinə töhfə verdiyini vurğulamışdır.

**24 aprel**

- Abşeron rayonunun ərazisində Xızı rayonunun Ağdərə kəndindən Sumqayıt şəhərinə çəkilən magistral qaz kəmərinin açılış mərasimində iştirak etmişdir.
- Sonra Sumqayıt şəhər ictimaiyyətinin bir qrup nümayəndəsi ilə görüşmüş və görüşdə çıxış etmişdir.
- Sumqayıt şəhərindəki yataqxanalarda müvəqqəti məskunlaşan 3042 məcburi köçkün ailəsi üçün Abşeron rayonu ərazisində yaşayış binalarından ibarət məhəllələrdə tikinti işlərinin gedişi ilə tanış olmuşdur.

**25 aprel**

- Azərbaycan ədəbi-ictimai fikrinin görkəmli nümayəndəsi, tanınmış maarifçi və yazıçı-publisist Əli bəy Hüseynzadənin qızı Feyzavər Turan Alpsarın vəfat etməsi xəbərini dərin kədər hissi ilə qarşılamışdır.

**27 aprel**

- Litva tərəfinin təşəbbüsü ilə Litva Respublikasının Prezidenti Qitanas Nauseda ilə videobağlantı formatında danışmışdır.

**28 aprel**

- Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabartinin təşəbbüsü ilə videokonfrans keçirmişdir.

**30 aprel**

- Baş prokuror vəzifəsində səlahiyyət müddəti başa çatmış Zakir Qaralovla telefonla danışmışdır.
- Polşa Respublikasının milli bayramı – Konstitusiya günü münasibətilə Prezident Andjey Dudanı təbrik etmişdir.

## May

**1 may**

- Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevi videoformatda qəbul etmişdir.

**4 may**

- Qoşulmama Hərəkatının sədri kimi onun təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda keçirilən Zirvə görüşündə giriş nitqi söyləmişdir.

**7 may**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Bakıda modul tipli ilk xəstəxana kompleksinin açılışında iştirak etmişdir.
- Modul tipli xəstəxana kompleksi ilə tanışlıqdan sonra tibb işçiləri ilə görüşmüş və nitq söyləmişdir.
- "Mir" televiziya kanalına müsahibə vermişdir.
- Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana eksklüziv müsahibə vermişdir.
- Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ona telefonla zəng edərək, koronavirus pandemiyası ilə mübarizədə Azərbaycanın ölkəsinə göstərdiyi yardımı yüksək qiymətləndirmiş və indiki çətin dövrdə bunu qardaşlıq münasibətlərinin bariz nümunəsi kimi dəyərləndirmişdir.

**8 may**

- Pakistan İslam Respublikasının Prezidenti Arif Alvi ona telefonla zəng edərək, Azərbaycan Respublikasının Prezidentinin təşəbbüsü ilə bu yaxınlarda Qoşulmama Hərəkatının koronavirusla mübarizəyə həsr olunmuş videokonfransının keçirilməsi münasibətilə təbriklərini çatdırmış, konfransın pandemiya ilə mübarizə sahəsində səylərin gücləndirilməsi baxımından önəmini qeyd etmiş, eyni zamanda ikitərəfli münasibətlərin perspektivləri, o cümlədən iqtisadi və ticarət əlaqələrinin inkişafı ilə bağlı fikir mübadiləsi aparmışdır.

**9 may**

- Faşizm üzərində tarixi Qələbənin 75 illiyi münasibətilə Birinci xanım Mehriban Əliyeva ilə birlikdə iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri qoymuşdur, müharibədə həlak olan bütün Azərbaycan övladlarının xatirəsini ehtiramla anmışdır.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edərək. Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi münasibətilə Rusiya Prezidentini və dost Rusiya xalqını təbrik etmiş, eyni zamanda Azərbaycanla Rusiya arasında strateji tərəfdaşlıq münasibətlərinin gələcək inkişafı ilə bağlı məsələləri müzakirə etmişdir.

**10 may**

- Xalqımızın xilaskar oğlu Heydər Əliyevin doğum günündə Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Fəxri xiyabana gələrək Ümummilli Liderin məzarını ziyarət etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ümummilli Lider Heydər Əliyevin məzarı önünə gül qoymuş, Ulu Öndərin xatirəsini ehtiramla anmışdır.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla anaraq məzarı üzərinə gül dəstələri qoymuşdur.
- Daha sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzmüşdür.
- Ulu Öndər Heydər Əliyevin doğum günü münasibətilə Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Bakının Suraxanı rayonundakı keçmiş yod-brom zavodunun ərazisində ağac əkmişdir.

**12 may**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Sumqayıtda "Gilan Tekstil Park" Məhdud Məsuliyyətli

Cəmiyyətinin tibbi maska fabrikinin və tikiş fabrikinin nəzdində fəaliyyət göstərən qoruyucu kombinezonların istehsalı müəssisəsinin açılışında iştirak etmişdir.

- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə müəssisələrin bir qrup işçisi ilə görüşmüş və görüşdə çıxış etmişdir.

**13 may**

- Azər Qocayevi Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul etmişdir.

**15 may**

- CISCO şirkətinin təşəbbüsü ilə bu şirkətin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramer, vitse-prezidenti Qay Ditrix və CISCO rəhbərliyinin digər nümayəndələri ilə videokonfrans keçirmişdir.

**18 may**

- Moldova tərəfinin təşəbbüsü ilə Moldova Respublikasının Prezidenti İqor Dodon ilə videokonfrans formatında görüş keçirmişdir.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ona telefonla zəng edərək, koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən işlərdən danışıb, bu istiqamətdə ölkələrimizin sərhəd-keçid məntəqələrində qarşılıqlı əlaqələndirmə şəraitində həyata keçirilən tədbirlər barədə fikir mübadiləsi aparmışdır.

**19 may**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Bakının Nizami rayonunda yerləşən 3 saylı DOST mərkəzinin açılışında iştirak etmişdir.
- Yeni istifadəyə verilən DOST mərkəzi ilə tanışlıqdan sonra Azərbaycan Televiziyasına müsahibə vermişdir.

**21 may**

- Seymur Orucovu Ağstafa Rayon İcra Hakimiyyətinin, Elçin Rzayevi isə İmişli Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar videoformatda qəbul etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə İordaniyanın Kralı Əlahəzrət II Abdullah ibn Al Hüseyni təbrik etmişdir.

**22 may**

- Müqəddəs Ramazan bayramı münasibətilə Azərbaycan xalqını və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı təbrik etmişdir.
- “Signify” (əvvəlki adı “Philips Lighting”) şirkətinin təşəbbüsü ilə bu şirkətin baş icraçı direktoru Erik Rondolat, MDB üzrə baş meneceri Erik Benedetti və “Signify” rəhbərliyinin digər nümayəndələri ilə videokonfrans keçirmişdir.
- Karaçi şəhəri yaxınlığında Pakistan Beynəlxalq Hava Yollarına məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar Pakistan İslam Respublikasının Prezidenti Arif Alviyə başsağlığı vermişdir.

**24 may**

- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ona telefonla zəng edərək, Azərbaycanın dövlət başçısını və xalqını Müqəddəs Ramazan bayramı münasibətilə təbrik etmiş, eləcə də Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da bütün istiqamətlərdə uğurla inkişaf edəcəyinə əmin olduğunu bildirmişdir.

**25 may**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şamaxı rayonuna səfərə gəlmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Şamaxı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şamaxı şəhərində Pirsaat Baba ziyarətgahının yenidən qurulması çərçivəsində görülən işlərlə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Pirsaat Babanın məzarını ziyarət etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Heydər Əliyev Fondu tərəfindən Şamaxı şəhərində inşa edilən 2 nömrəli körpələr evi-uşaq bağçasının və rayonun Meysəri kəndində əsaslı təmir olunan körpələr evi-uşaq bağçasının açılışlarında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şamaxı şəhərində istismar müddəti başa çatmış binalarda yaşayan vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün tikilən 51 mənzilli binada olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şamaxı rayonuna ayrılan nəqliyyat vasitələri və xüsusi texnikalara baxmışdır.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şamaxıda Pir Ömər Sultan ziyarətgahında olmuşdur.

**27 may**

- Ukrayna Prezidenti Vladimir Zelenski ona telefonla zəng edərək, koronavirusla mübarizə ilə bağlı Azər-

baycanın Ukraynaya göstərdiyi humanitar yardıma görə minnətdarlığını bildirmiş, bunu bu ağır dövrdə dostluq münasibətlərinin təzahürü kimi dəyərləndirmişdir.

**28 may**

• Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə Bakının İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə ziyarət edərək, abidə önünə gül dəstəsi qoymuşdur.

• Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Bakının Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu Park-3" yaşayış kompleksinin açılışında iştirak etmişdir.

• Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə məcburi köçkünlərlə görüşmüş və görüşdə çıxış etmişdir.

**29 may**

• Ölkəsinin milli bayramı – Dövlətçilik Günü münasibətilə Xorvatiya Respublikasının Prezidenti Zoran Milanoviçi təbrik etmişdir.

• Dost İtaliya Respublikasının milli bayramı – Respublika Günü münasibətilə İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanı təbrik etmişdir.

## İyun

**1 iyun**

• Asiya İnkişaf Bankının təşəbbüsü ilə bankın prezidenti Masatsuqu Asakava, vitse-prezidenti Şiksin Çen və bankın rəhbərliyinin digər nümayəndələri ilə videokonfrans keçirmişdir.

**3 iyun**

• Tərtər rayonuna səfərə gəlmişdir.

• Ümummilli Lider Heydər Əliyevin Tərtər şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.

• Tərtərdə Dövlət Rəmzləri Muzeyinin açılışında iştirak etmişdir.

• Tərtər rayonunda yenidənqurmadan sonra istifadəyə verilən Buruc-Gülabatlı-Xoruzlu-Kəbirli-Bayandurlu-Qaradağlı avtomobil yolunun açılışında iştirak etmişdir.

• Tərtər Olimpiya İdman Kompleksinin açılışında iştirak etmişdir.

• Əvvəl kompleksdə yaradılan şəraitlə tanış olmuşdur.

• Komplekslə tanışlıqdan sonra rayonun bir qrup idmançısı ilə görüşmüş və görüşdə çıxış etmişdir.

• Yenidənqurmadan sonra istifadəyə verilən 110/35/6 kilovoltluq "Tərtər" elektrik yarımstansiyasının açılışında iştirak etmişdir.

• "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Tərtər filialının açılışında iştirak etmişdir.

• Ağdam rayonu ərazisində yerləşən "N" saylı hərbi hissədə olmuşdur.

• Sonra Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi Müdafiə Nazirliyinin rəhbərliyi ilə operativ müşavirə keçirmişdir.

• Ağcabədi rayonunda səfərdə olmuşdur.

• Ümummilli Lider Heydər Əliyevin Ağcabədi şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.

• Ağcabədi rayonunun Hindarx qəsəbəsində fermer təsərrüfatında olmuşdur.

• Əkin sahəsində taxıl biçininə başlanması mərasimində iştirak etmişdir.

• Ağcabədi rayonunda dənli bitki toxumlarının emalı müəssisəsinin açılışında iştirak etmişdir.

• Ağcabədidə "ASAN Həyat" kompleksinin açılışında iştirak etmişdir.

• Mərkəzlə tanışlıqdan sonra ASAN könüllüləri ilə görüşmüş və görüşdə çıxış etmişdir.

• Ağcabədi şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin açılış mərasimində iştirak etmişdir.

• Yenidənqurmadan sonra istifadəyə verilən 110/35/10 kilovoltluq "Ağcabədi-2" elektrik yarımstansiyasının açılış mərasimində iştirak etmişdir.

• İsveç Krallığının milli bayramı münasibətilə İsveçin Kralı XVI Karl Qustavı təbrik etmişdir.

**8 iyun**

• Portuqaliya Respublikasının milli bayramı münasibətilə Prezident Marselu Rebelu di Souzanı təbrik etmişdir.

**9 iyun**

• Birinci xanım Mehriban Əliyeva ilə birlikdə üç modul tipli xəstəxananın açılışında iştirak etmişdir.

• Sonra həkim kollektivi ilə görüşmüş və görüşdə çıxış etmişdir.

• Rusiya Federasiyasının dövlət bayramı – Rusiya Günü münasibətilə Prezident Vladimir Putini təbrik etmişdir.

**10 iyun**

- Ölkəsinin milli bayramı – Təvəllüd Günü münasibətilə Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası Ülyahəzrət II Elizabeti təbrik etmişdir.

**11 iyun**

- Bakı şəhərinin Xətai rayonunda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kilovoltluq "Əhmədli" yarımstansiyasının açılışında iştirak etmişdir.

**16 iyun**

- "Microsoft" şirkətinin təşəbbüsü ilə şirkətin vitse-prezidenti Filip Roq, Mərkəzi və Şərqi Avropa bölgəsinin korporativ əlaqələr və hüquqi məsələlər üzrə rəhbəri Nanna-Luize Linde və "Microsoft" şirkətinin digər nümayəndələri ilə videokonfrans keçirmişdir.

**17 iyun**

- Dünya Bankının təşəbbüsü ilə bankın Avropa və Mərkəzi Asiya regionu üzrə yeni təyin olunan vitse-prezidenti xanım Anna Byerde, Cənubi Qafqaz üzrə regional direktoru Sebastian Molineus və bankın digər nümayəndələri ilə videokonfrans keçirmişdir.
- Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel ona telefonla zəng edərək, sabah Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçiriləcək Sammiti ilə bağlı fikir mübadiləsi aparmışdır.

**18 iyun**

- Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitində iştirak və çıxış etmişdir.
- Qardaş Türkiyə Respublikasının nümayəndəsi Volkan Bozkırın Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının Sədri vəzifəsinə seçilməyi münasibətilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı təbrik etmişdir.
- Birləşmiş Millətlər Təşkilatının yaranmasının 75 illik yubileyi ərəfəsində Baş Assambleyanın Sədri vəzifəsinə yeni seçilməsi münasibətilə Volkan Bozkırı təbrik etmişdir.

**19 iyun**

- Ölkəsinin milli bayramı münasibətilə Lüksemburqun Böyük Hersoqu Əlahəzrət Anrini təbrik etmişdir.

**22 iyun**

- Bakının Xətai rayonu, Neapol küçəsində yeni yerüstü piyada keçidinin açılışında iştirak etmişdir.
- Ölkəsinin milli bayramı – Dövlətçilik Günü münasibətilə Sloveniya Respublikasının Prezidenti Borut Pahoru təbrik etmişdir.

**24 iyun**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Gəncə şəhərinə səfərə gəlmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ümummilli Lider Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Gəncədə "NB Satınalma və Ticarət" MMC-nin süni mərmər və qranit istehsalı zavodunun açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Gəncə şəhəri ərazisində Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) tərəfindən inşa edilən yaşayış kompleksinin tikintisi ilə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə 1 saylı Gəncə Şəhər Xəstəxanasının modul tipli infeksion xəstəliklər korpusunun açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə yeni tibb müəssisəsində yaradılan şəraitlə tanış olmuşdur.
- Modul tipli infeksion xəstəliklər korpusu ilə tanışlıqdan sonra bir qrup tibb işçisi ilə görüşmüş və görüşdə çıxış etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Gəncədə "Şah Abbas" və "Uğurlu Xan" karvansara kompleksinin bərpadan sonra istifadəyə verilməsi mərasimində iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Gəncə Dövlət Dram Teatrının yeni binasında tikinti işlərinin gedişi ilə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Gəncəçay çayı üzərində eyni vaxta bərpa olunan beş körpüdə görülmüş işlərlə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Azərbaycan Dövlət Aqrar Universitetinin yeni tədris korpusunun açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə yeni tədris korpusunda yaradılan şəraitlə tanış olmuşdur.
- Gəncə İdman Sarayının tikintisi ilə tanış olmuşdur.
- Samux rayonuna səfərə gəlmişdir.
- Ümummilli Lider Heydər Əliyevin Samux şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- Samux rayonunun ərazisində məcburi köçkün ailələri üçün inşa edilən yaşayış kompleksinin tikintisi ilə tanış olmuşdur.
- Samuxdakı "Aqro Dairy" MMC-nin aqroparkının fəaliyyəti ilə tanış olmuşdur.
- Sonra burada çalışan xarici mütəxəssislərlə söhbət etmişdir.
- Daha sonra taxıl biçininə və qarğıdalı səpininə start vermişdir.

- Dost Cibuti Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident İsmail Ömər Gellehi təbrik etmişdir.

**25 iyun**

- Mingəçevir şəhərinə səfərə gəlib.
- Ümummilli lider Heydər Əliyevin Mingəçevir şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- Əsaslı yenidənqurmadan sonra "Azərbaycan" İstilik Elektrik Stansiyasının 330 və 500 kilovoltluq açıq paylayıcı qurğuları, 8 enerji bloku, İdarəetmə Dispetçer Mərkəzi, stansiyanın əsas və köməkçi sahələri, bina və qurğularının açılış mərasimində iştirak etmişdir.
- Sonra elektromobillə stansiyanın ərazisini gəzmişdir.
- Daha sonra "Azərbaycan" İstilik Elektrik Stansiyasını işə salmışdır.
- Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışında iştirak etmişdir.
- Sonra Müdafiə Nazirliyinin rəhbər işçiləri ilə operativ müşavirə keçirmişdir.
- Daha sonra qərargah binasında yaradılan şəraitlə də tanış olmuşdur.
- Hərbi hissə ilə tanışlıqdan sonra hərbçilərlə görüşmüş, görüşdə nitq söyləmişdir.
- Mingəçevirdə Dövlət Rəmzləri Muzeyinin açılışında iştirak etmişdir.

**29 iyun**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunun bir hissəsində aparılan bərpa-konservasiya işləri ilə tanış olmuşdur.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə 2016-cı ildə Qoşa Qala qapıları yaxınlığında aparılan arxeoloji qazıntılar zamanı aşkar edilən XVII əsrə aid Yeraltı hamama baxmışdır.
- Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədova telefonla zəng edərək, onu ad günü münasibətilə təbrik etmiş, ona möhkəm cansağlığı və Türkmənistanın firavanlığı naminə fəaliyyətində yeni-yeni uğurlar arzulamışdır.

**30 iyun**

- BMT-nin Ümumdünya Turizm Təşkilatının təşəbbüsü ilə bu təşkilatın Baş katibi Zurab Pololikaşvili ilə videokonfrans keçirmişdir.
- Yubileyi münasibətilə Rusiya Elmlər Akademiyasının akademiki, dünya şöhrətli alim və istedadlı həkim xanım Alevtina Brovkinanı təbrik etmişdir.
- 1 İyul – Kanada Günü münasibətilə Kanadanın General-Qubernatoru xanım Jüli Peyeti təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Ruanda Respublikasının Prezidenti Pol Kaqameni təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonu təbrik etmişdir.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RƏSMİ QƏBULLARI

***Baş prokuror Kamran Əliyevin videoformatda qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevi videoformatda qəbul edib.

Prezident İlham Əliyev dedi:

- Siz bu gün Azərbaycan Respublikasının Baş prokuroru vəzifəsinə təyin edilirsiniz. Ümid edirəm ki, bu yüksək etimadı doğruldacaqsınız. Siz prokurorluq orqanlarında 30 ildən çoxdur ki, işləyirsiniz. Hələ sovet dövründən bu işə başlamısınız və son 6 il ərzində Azərbaycan Respublikası Baş prokurorunun müavini vəzifəsində çalışırsınız. Ümid edirəm, əldə olunmuş təcrübə sizə imkan verəcək ki, prokurorluq orqanlarının işinin təkmilləşdirilməsi və islahatların dərinləşməsi istiqamətində nəticələr əldə edilsin.

Bütün sahələrdə olduğu kimi, prokurorluq orqanlarında da daha genişmiqyaslı islahatlara ehtiyac var. Bu gün Azərbaycanın hər sahəsində islahatların nəticələri vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. İslahatlar yeniləşmə, yeni yanaşma, müasir şəraitə uyğunlaşma deməkdir. Biz islahatlar aparmaqla ölkəmizi gücləndiririk və ölkəmizin gələcək dayanıqlı inkişafını şərtləndiririk. Tərəqqi islahatlarsız mümkün deyil. Ona görə hüquq mühafizə orqanlarında da digər sahələrdə olduğu kimi, islahatlara böyük ehtiyac var. Ümid edirəm ki, Azərbaycan Respublikasının Prokurorluğu bu islahatların aparılmasında uğurlar qazanacaq.

Bu gün siyasi sahədə çox genişmiqyaslı islahatlar aparılır. Deyə bilərəm ki, müstəqillik dövründə miqyasa və nəticəyə görə bu günə qədər islahatların bu səviyyədə aparılması müşahidə edilmirdi. Hakimiyyət tərəfindən təklif edilmiş siyasi dialoq demək olar ki, baş tutur və biz artıq bu dialoqun ilkin müsbət təzahürlərini görürük. Demək olar ki, ölkəmizin bütün əsas siyasi qüvvələri bu dialoqa qoşularaq buna öz müsbət münasibətini bildirmişlər. Beləliklə hesab edirəm ki, növbəti illərdə siyasi sistemin təkmilləşdirilməsi, müasirləşdirilməsi, Azərbaycanda siyasi münasibətlərin sağlam zəmində qurulması işində önəmli addımlar atılacaqdır. Bir daha bildirməliyəm ki, Azərbaycanda heç kim öz siyasi baxışlarına, siyasi mənsubiyyətinə, siyasi fəaliyyətinə görə təqib edilməməlidir.

Eyni zamanda, iqtisadi islahatlar aparılmadan ölkəmizin dayanıqlı inkişafı mümkün deyil. Mən hələ bir neçə il bundan əvvəl demişdim ki, biz postneft dövrünə hazırlaşmalıyıq və əslində postneft dövrü artıq göz qabağındadır. Çünki neft bazarlarında müşahidə olunan böhran demək olar ki, neftlə zəngin olan bütün ölkələrin gəlirlərinə çox mənfi təsir göstərmişdir. Ona görə bizim əsas məqsədimiz qeyri-neft sektorunun inkişafıdır və bu istiqamətdə əldə edilmiş nəticələr məhz islahatlara söykənir, aparılan islahatların nəticəsidir. Məhz şəffaflıq, dürüstlük və islahatlar nəticəsində keçən il büdcə daxilolmalarının həcmi proqnozdan əlavə bir milyard manat artmışdır və bu vəsait böyük dərəcədə imkan vermişdir ki, bir çox sosial layihələr icra edilsin. Bu ilin birinci rübünün yekunları göstərir ki, pandemiyaya baxmayaraq iqtisadi artım var. Düzdür, çox kiçik rəqəmlərlə ölçülür - 1,1 faiz. Ancaq bu yaxınlarda Avropa Yenidənqurma və İnkişaf Bankının rəhbərliyi ilə keçirdiyim görüş əsnasında məlum oldu ki, bir çox ölkələrdə indi iqtisadi tənəzzül müşahidə olunur. Bizdə də bu, istisna edilmir, çünki pandemiya ölkə iqtisadiyyatına çox böyük mənfi təsir göstərmişdir. Ancaq hər halda birinci rübün yekunları göstərir ki, iqtisadiyyat 1,1 faiz, qeyri-neft iqtisadiyyatımız isə 3 faizdən çox artmışdır. Bütün bunların əsas səbəbi aparılan islahatlardır və bu, bizə imkan verir ki, sosial sahədə çox genişmiqyaslı proqramlar icra edilsin, o cümlədən keçən il 4,2 milyon insanın sosial vəziyyəti yaxşılaşmış, minimum əməkhaqları, minimum pensiyalar, müavinətlər əhəmiyyətli dərəcədə artmışdır. Koronavirusa görə bu il bu istiqamətdə əlavə addımların atılması təmin edilmişdir. Bu addımlar bir daha göstərdi ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Prokurorluq orqanları üçün də bu əsas məqsəd, həmişə, bütün işlərdə əsas amil kimi dəyərləndirilməlidir.

Kadr islahatları aparılır və bu islahatlar imkan verib ki, yeni peşəkar, bilikli, müasir kadrlar önə çəkilsin. Onlara önəmli vəzifələr həvalə edildi və hesab edirəm ki, bu da zəmanənin tələbidir. Çünki bu gün müasir dünyada siyasi, iqtisadi sahələrdə, beynəlxalq müstəvidə müasir yanaşmalar olmalıdır. Yüksək keyfiyyətli təhsil almış gənc kadrların həm hökumətdə, həm Prezident Administrasiyasında, parlamentdə və digər qurumlarda təmsil olunması bizim şüurlu seçimimizdir. Təbii ki, təcrübəli kadrlar da öz biliklərini gənc nəsillə bölüşməlidirlər. Belə olan halda təbii ki, hüquq mühafizə orqanlarında da daha genişmiqyaslı islahatların aparılması başlıca şərtdir. Burada sizin üzərinizə böyük vəzifə düşür və ümid edirəm ki, siz bu vəzifənin öhdəsindən gələcəksiniz. İlk növbədə, qanunun aliliyi tam təmin edilməlidir və ədalətli cəmiyyətin qurulması üçün qanunun aliliyi başlıca şərtdir. Əfsuslar olsun ki, biz istədiyimizə hələ də tam nail olmamışıq, o cümlədən hüquq mühafizə orqanları tərəfindən qəbul edilmiş qərarlar bəzi hallarda qanunlara ziddir, sosial ədaləti pozur,

insanları haqlı olaraq narazı salır və beləliklə ümumi işimizə böyük ziyan vurur. Bunun səbəblərindən biri qeyri-peşəkarlıq ola bilər, ancaq bəzi hallarda bunun arxasında hansısa maraqlar, şəxsi təmənna dayanır. Bu gün bütün hüquq mühafizə orqanlarının əməkdaşları və rəhbərləri məni eşidirlər. Mənim sözlərim onlar üçün əsas göstəriş olmalıdır ki, Azərbaycanda hüquq mühafizə sistemində islahatlar dərinləşsin və qanunun aliliyi təmin edilsin.

Kadrların peşəkarlığı da daim diqqət mərkəzində olmalıdır və siz bu məsələ ilə ciddi məşğul olmalısınız. Həm bu gün fəaliyyətdə olan kadrların peşəkarlığının təkmilləşdirilməsi üçün əlavə tədbirlər görülməlidir, prokurorluq orqanlarına yeni qəbul olunacaq işçilər yüksək peşəkarlığa malik olmalıdırlar, eyni zamanda, bu vacib amillə bərabər, dövlətçiliyə sədaqət prinsipləri də həmişə üstün olmalıdır. Çünki bu gün müstəqil dövlətimizin uğurlu yaşaması və möhkəmlənməsi, ilk növbədə, dövlətçiliyimizin möhkəmləndirilməsi ilə bağlıdır. Biz elə etməliyik ki, Azərbaycan bundan sonra da uğurla inkişaf etsin, müstəqilliyimiz daim möhkəmlənsin. Əlbəttə ki, istənilən sahədə kadrlar dövlətə, xalqa bağlı olmalıdırlar, vətənpərvər olmalıdırlar və onlar üçün dövlət maraqları hər şeydən üstün olmalıdır.

Digər vacib vəzifələrdən biri korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədir. Hesab edirəm ki, prokurorluq orqanları bu istiqamətdə daha fəal iş aparmalıdırlar. Bu xoşagəlməz hallara qarşı Azərbaycanda çox ciddi mübarizə aparılır. Mən bu məsələ ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişdim. Bütün dövlət məmurlarını xəbərdar etmişdim və hətta demişdim ki, əgər hansısa dövlət məmuru öz işində düzəlişlər edə bilmirsə, yaxud da ki, istəmirsə, qoy özü könüllü şəkildə dövlət işindən istefa versin.

Amma əfsuslar ki, mənim sözlərim bəziləri üçün dərs olmadı və bunun nəticəsində indi Dövlət Təhlükəsizliyi Xidməti bir neçə əməliyyat keçirərək rüşvətxorları, yüksək vəzifə sahiblərini ifşa etdi və onlar artıq cinayət məsuliyyətinə cəlb edilmişlər. Ağstafa, Biləsuvar, Yevlax, Neftçala rayonlarının icra başçıları həbs edilmişdir, ictimaiyyətə bu məsələ ilə bağlı ətraflı məlumat verilmişdir və bundan sonra da ətraflı məlumat veriləcəkdir.

Eyni zamanda, bu yaxınlarda Binəqədi qəsəbə bələdiyyəsinin sədri saxta icazə sənədi satmaqda ittiham olunub və əşyayi-dəlillə saxlanılıb. İsmayıllı rayonunun şəhər üzrə icra nümayəndəsi yardımın mənimsənilməsi ilə məşğul olmuş, kasıb adamlara göndərilən yardımı özünə götürmüşdür. Həbs edilmiş icra başçılarının istintaqı gedir. Ancaq bu gün nümayiş etdirilən videokadrlar onu göstərir ki, rüşvətxorluq bu adamlar üçün əsas prinsip olmuşdur. Yəni, bütün aidiyyəti qurumlar bir qayda olaraq hər ay icra başçılarına və icra hakimiyyətinin digər nümayəndələrinə rüşvət verməli olmuşlar. Əfsuslar olsun ki, belə xoşagəlməz hallar digər rayonlarda da vardır. Bu haqda məlumat var və bir daha demək istəyirəm ki, heç kim məsuliyyətdən boyun qaçıra bilməyəcək. Heç kim qanundan üstün deyil və əgər kim fikirləşir ki, onun yaxınları, tanışları, qohumları, yüksək vəzifəli dostları ona kömək edəcəklər, səhv edir. Qanun qarşısında hamı bərabərdir, Azərbaycan cəmiyyətində korrupsiya və rüşvətxorluq olmamalıdır. Hər halda biz çalışmalıyıq ki, korrupsiya və rüşvətxorluq üçün meydanı həm inzibati yollarla, həm də institusional üsullarla daraldaq. Eyni zamanda, cəza tədbirləri də tətbiq olunur və tətbiq ediləcəkdir.

Ona görə bu dörd rayonda hansı ki, icra başçıları həbs olunub, orada işlər geniş təhlil edilməlidir. Artıq dünən mənə məlumat verildi ki, Biləsuvar rayonunun həbs edilmiş icra başçısı bir neçə insanın torpaq sahəsini əllərindən alıb. Bu vətəndaşlar mənə açıq şəkildə müraciət etmişlər və dərhal göstəriş verildi ki, bu məsələ araşdırılsın. Əgər bu siqnal özünü təsdiqləsə, bu torpaqlar həmin vətəndaşlara qaytarılmalıdır. Ona görə prokurorluq orqanları bu işlərdə fəal olmalıdırlar. Bu gün bu ağır dövrdə verilən ərzağı oğurlamaq, fəhlələrə nəzərdə tutulmuş maaşı öz cibinə qoyaraq mənimsəmək həm cinayətdir, həm böyük vicdansızlıqdır. Bu vəsaiti ayırırıq ki, bu gün özünə iş tapa bilməyən insan heç olmasa minimum əməkhaqqı səviyyəsində işlə təmin edilsin. Bunlar ictimai işlərdir və biz bu yolla insanları işlə təmin edirik. Əgər birinci mərhələdə təqribən 30 min iş yeri yaradılmışdırsa, hazırda mən göstəriş vermişəm ki, onların sayı 90 minə çatdırılsın. Ancaq birinci mərhələdə bu vəsaitin paylanılması icra başçıları tərəfindən həyata keçirilirdi. Burada mövcud olan nəzarətsizlik və korrupsiya halları bir çox insanları dövlət tərəfindən verilən bu yardımdan faktiki olaraq məhrum etmişdir. Bu, vicdansızlıqdır, buna başqa ad vermək olmaz. Artıq bu gün biz nəzarəti gücləndirmişik. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə də tapşırıq verildi ki, onlar bu işlərə də nəzarəti gücləndirsinlər. Ancaq buna baxmayaraq, həbs edilmiş icra başçılarının, icra nümayəndəsinin iş otaqlarından, onların ciblərindən yenə də həmin o kasıb insanlara çatacaq kartlar çıxır. Ona görə bu və digər hallara qarşı mübarizə çox ciddi olmalıdır.

Pandemiya ilə əlaqədar bu gün Azərbaycan dövləti bütün resursları səfərbər edib, ilk növbədə, vətəndaşları, onlara həyatını, sağlamlığını qorumaq üçün əlindən gələni edir. Operativ Qərargah, bütün aidiyyəti qurumlar gecə-gündüz işləyirlər. Hər gün bizim birinci və günün axırında sonuncu əsas işimiz bu məsələ ilə məşğul olmaqdır. Nə qədər adam xəstələndi, nə qədər adam sağaldı, neçə nəfər xəstəxanalara yerləşdirildi, onların vəziyyəti necədir, ağır vəziyyətdə olan vətəndaşların durumu, onların sağalma şansları necədir – biz gecə-gündüz bununla məşğul oluruq. Dövlət, ictimai təşkilatlar, ilk növbədə, Heydər Əliyev Fondu, ayrı-ayrı sahibkarlar, ayrı-ayrı imkanlı adamlar öz təşəbbüsləri ilə gedib kasıb insanlara əl tuturlar. Bu yardımı mənimsəməyə nə ad vermək olar?! Bu yaxınlarda Heydər Əliyev Fondu

tərəfindən göndərilmiş ərzaq paylarını da aparıb öz qohumlarının evlərində saxlayırlar ki, sonra onları satsınlar. Biz buna gözmü yumacağıq? Belə adamlar ən ciddi cəzaya layiqdirlər.

İndi dünya liderlərinin bir çoxu qeyd edir ki, pandemiya müharibədir. Bəli, mən bu tezislə razıyam. Əgər indiki şəraitdə bunlar özlərini belə aparırlarsa, bundan daha ağır vəziyyət yaranarsa, onda bunlar nə edəcəklər? Bunun bir adı var – vicdansızlıq və xəyanət. Ona görə bundan sonra bu ünsürlərə qarşı mübarizə daha ciddi aparılmalıdır.

Biz dövlət sektorunda işləyən 900 min insanın əməkhaqqını tam ödəyirik. 600 min özəl sektor nümayəndəsinin, o cümlədən mikrosahibkarın, – hansı ki, onların çalışdıqları sahələr pandemiyaya görə daha çox zərər çəkib, - əməkhaqqının əhəmiyyətli hissəsini ödəyirik. Aztəminatlı təbəqəyə aid olan 600 min insanın, o cümlədən işsizlərin və qeyri-formal məşğul olanların vəsaitini ödəyirik. Biz hər bir vətəndaşa kömək etmək istəyirik, hər bir vətəndaşa! İcra başçılarının, digər mərkəzi və yerli icra orqanlarının rəhbərlərinin vəzifəsi budur. Hər bir icra başçısı vəzifəyə təyin olunanda ona mənim əsas sözlərim odur ki, get, vətəndaşlara xidmət et, get, vətəndaşlarla bir yerdə ol, təmiz işlə, rüşvət alma, vətəndaşları incitmə, kömək göstər, eyni zamanda, sahibkarlara kömək göstər, onların malını əlindən alma, onların fəaliyyətindən özünə pay istəmə. Hər birinə bu sözləri deyirəm. Bu məsələ ilə bağlı bizim mövqeyimiz birmənalıdır. Korrupsiyaya və korrupsionerlərə qarşı amansız mübarizə aparılacaq. Onu da bildirməliyəm ki, bu hallar təkcə yerli icra orqanlarında müşahidə edilmir, mərkəzi icra orqanlarında da belə hallar, belə siqnallar var və bu siqnallar araşdırılır. Verilən məlumata görə, bəzi mərkəzi icra orqanlarında, bəzi nazirliklərdə, – hələ bu siqnallar araşdırılır, – vəzifəyə təyin olunmaq üçün insanlardan bəzi hallarda rüşvət tələb edilir. Bu, cinayətdir, bu, bizim cəmiyyətimizin əsaslarını sarsıdan addımlardır, çirkin addımlardır. Pul verib vəzifəyə gələn adam ilk növbədə neyləyəcək? Çalışacaq ki, o pulun əvəzini çıxsın. Bunu haradan çıxaracaq? Ya haradansa dövlət malını oğurlayacaq, ya da ki, əgər imkanı olacaqsa, insanlardan pul tələb edəcək.

Biz bunu dəfələrlə görmüşük. Sadaladığım bu rayonlarda səhiyyə, təhsil, mədəniyyət sahəsində kütləvi şəkildə vətəndaşlardan, valideynlərdən, hər məktəb direktorundan pul yığılır. Rayon mərkəzi xəstəxanasının baş həkimindən icra hakimiyyətinə pul verilir. O da öz növbəsində bütün şöbələrdən hər ay haqq yığır. Bütün bələdiyyələr icra hakimiyyətinə aylıq pul verir. Biz bu hallara qarşı amansız mübarizə aparacağıq. Haqq da, xalq da bizim tərəfimizdədir. Bütün bu ifşaedici görüntülər hər bir Azərbaycan vətəndaşında haqlı olaraq ikrah hissi doğurur. Eyni zamanda, mənə ünvanlanan yüzlərlə, minlərlə məktubda bizim bu addımlarımıza böyük dəstək göstərilir. Ona görə prokurorluq orqanları bu işdə ön sıralarda olmalıdır və qanunun aliliyini təmin etməlidir.

Ümid edirəm, sizin iş təcrübəniz və peşəkarlığınız imkan verəcək ki, mənim bu göstərişlərimin icrası təmin edilsin. Prokurorluq orqanlarının işçiləri bundan sonra da Vətənə ləyaqətlə xidmət etsinlər və bütün hüquq mühafizə orqanları elə çalışsınlar ki, həm vətəndaşlar, ictimaiyyət onların işindən razı olsun, eyni zamanda, dövlətin maraqları və qanunun aliliyi təmin edilsin.

Mən bu gün Sizi təyin edirəm və ümid edirəm ki, Siz bu yüksək etimadı doğruldacaqsınız.

* * *

Baş prokuror Kamran Əliyev dedi:

– Çox sağ olun, möhtərəm cənab Prezident. İcazə verin, əvvəlcə Sizə mənə böyük etimad göstərdiyinizə, məni bu mühüm dövlət postuna layiq gördüyünüzə, bu vəzifəyə təyin etdiyinizə görə dərin təşəkkürümü bildirim.

Prokurorluq orqanları doğrudan da dövlət quruculuğunda, dövlət idarəçiliyində çox mühüm bir orqandır. Prokurorluq orqanlarının dövlət idarəçiliyində yerini ulu öndər Heydər Əliyev müəyyən etmişdir. Ulu öndər Heydər Əliyev qeyd etmişdir ki, prokurorluq dövlətin əsas sütunlarından biridir. Bu, doğrudan da belədir. Prokurorluq orqanları ulu öndər Heydər Əliyevin diqqət və qayğısı ilə daim əhatə olunmuşdur. Onun rəhbərliyi ilə müstəqil Azərbaycanın prokurorluğu mühüm inkişaf yolu keçmişdir. Məhz onun müvafiq Sərəncamı ilə prokurorluq orqanlarının – müstəqil Azərbaycan Prokurorluğunun peşə bayramını – 1 oktyabr gününü biz hər il qeyd edirik.

Möhtərəm cənab Prezident, Siz 2003-cü ildə Azərbaycan xalqı tərəfindən Prezident seçildikdən sonra prokurorluq orqanları yenə də daim diqqət və qayğınızla əhatə edilmişdir. Prokurorluq orqanlarında bu gün doğrudan da kifayət qədər çox peşəkar kadrlar, Vətənə, dövlətə xidmət edən, dövlətə sədaqətli kadrlar var. Bu, Sizin rəhbərliyinizlə prokurorluq orqanlarında həyata keçirilmiş mühüm islahatların nəticəsidir.

Sizin rəhbərliyinizlə digər sahələrdə həyata keçirilən islahatların prokurorluq orqanlarında da aparılması çox zəruridir. Siz ötən il məhkəmə-hüquq islahatları barədə müvafiq Fərman imzalamısınız və bu istiqamətdə işlər davam edir. Bu baxımdan hesab edirəm ki, məhkəmə-hüquq sisteminin tərkib hissəsi olan prokurorluqda islahatların aparılması xüsusi önəm kəsb edir.

Siz tamamilə düzgün qeyd etdiniz ki, hazırda - postneft dövründə həyata keçirilən islahatlar birinci növbədə əhalinin rifahının, hər bir Azərbaycan vətəndaşının gündəlik həyatının yaxşılaşmasına xidmət edir.

Prokurorluq orqanlarının fəaliyyət dairəsi doğrudan da genişdir. Prokurorluğun əsas fəaliyyət istiqamətlərindən biri də təbii ki, ağır cinayətlərə, dövlətə, dövlətçiliyə qarşı yönələn bütün daxili və xarici təhdidlərə qarşı amansız mübarizə aparmaqdır. Bu sahədə təbii ki,

prokurorluq orqanları digər dövlət qurumları ilə – həm Dövlət Təhlükəsizliyi Xidməti, həm Daxili İşlər Nazirliyi və digər müvafiq dövlət qurumları ilə birbaşa sıx əlaqədə işləməlidirlər.

Möhtərəm cənab Prezident, Siz korrupsiyaya qarşı mübarizə ilə bağlı xüsusi olaraq qeyd etdiniz. Azərbaycan Prezidenti seçildikdən sonra korrupsiyaya qarşı mübarizə Sizin həyata keçirdiyiniz islahatların, siyasətin ən mühüm tərkib hissəsi olmuşdur. Məhz həmin dövrdən Azərbaycan Respublikası bu sahədə bütün beynəlxalq təşəbbüslərə, həm Avropa Şurasının, həm Birləşmiş Millətlər Təşkilatının bu sahədə bütün mövcud konvensiyalarına qoşulmuş və bu sahədə institusional tədbirlər həyata keçirilmiş, müvafiq qurumlar yaradılmışdır. Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi də bu sahədə ixtisaslaşmış cinayət təqibi orqanı kimi yaradılmışdır. Sizin 2013-cü ildə prokurorluğun peşə bayramı günü ərəfəsində Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin yeni tikilmiş binasının açılışında iştirak etməyiniz tam əminliklə deyirəm ki, prokurorluq orqanlarında xüsusi olaraq ruh yüksəkliyi yaratmışdır. Sizin həmin vaxt gənc prokurorluq əməkdaşları qarşısında çıxışınız hər bir prokurorluq əməkdaşının bu gün də xatirindədir və onlar bunu daim böyük fərəh, qürur hissi ilə qeyd edirlər.

Biz prokurorluq orqanlarında islahatları davam etdirməliyik. Kadr islahatları doğrudan da çox vacib məsələdir və biz bu sahədə fəaliyyətimizi davam etdirəcəyik. Əgər zərurət yaranarsa təbii ki, prokurorluğun, həmçinin struktur qurumlarının fəaliyyəti təhlil edilməlidir. Hesab edirəm ki, biz bu sahədə də mütərəqqi addımlar atmalıyıq.

Sizin tapşırığınız və göstərişinizlə prokurorluq orqanları beynəlxalq qurumlarla daim əməkdaşlıq etmişdir. Həm beynəlxalq qurumlar və eyni zamanda, digər ölkələrin prokurorluq və antikorrupsiya orqanları ilə mütəmadi əlaqələr saxlanılmışdır. Təbii ki, bu iş Sizin siyasi iradənizə uyğun həyata keçirilmişdir. Siz prokurorluq orqanlarının əməkdaşları qarşısında çıxışınız zamanı qeyd etdiyiniz kimi, biz fəaliyyətimizdə ən qabaqcıl təcrübəni yalnız öyrənməklə kifayətlənməməli, eyni zamanda, gündəlik fəaliyyətimizdə tətbiq etməliyik.

Cənab Prezident, Siz koronavirus pandemiyası ilə bağlı qeyd etdiniz ki, bu, bir müharibədir. Azərbaycan dövləti Sizin rəhbərliyinizlə, Mehriban xanımın gündəlik diqqət və qayğısı sayəsində digər qabaqcıl ölkələrlə müqayisədə demək olar ki, bu böyük problemi artıq arxada qoymaq üzrədir. Ümid edirik ki, bu istiqamətdə işlər belə də davam edəcəkdir.

Möhtərəm cənab Prezident, icazə verin, məni bu çox məsul dövlət vəzifəsinə layiq bildiyiniz üçün Sizə bir daha dərin təşəkkürümü bildirim. Sizi tam əmin etmək istəyirəm ki, prokurorluq orqanları bundan sonra da daim Heydər Əliyev prinsiplərinə, dövlətə, dövlətçiliyə, öz xalqına xidmət edəcəkdir. Bir daha təşəkkür edirəm.

Prezident İlham ƏLİYEV: Sağ olun, sizə uğurlar arzulayıram.

Kamran Əliyev: Çox sağ olun.

## *Azər Qocayevin Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Azər Qocayevi Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edib.

Videoqəbulda çıxış edən Prezident İlham Əliyev dedi:

– Siz bu gün Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin edilirsiniz. Bu, sizə göstərilən böyük etimaddır. Siz bu etimadı doğrultmalısınız. Siz gəncsiniz, cəmi 34 yaşınız var. Sizin təyinatınız, eyni zamanda, onu göstərir ki, gənclərə bu gün çox böyük imkanlar yaradılır, onların fəaliyyəti üçün bütün şərait yaradılıbdır və gənclər məsul vəzifələrə təyin edilirlər.

Son vaxtlar, xüsusilə bu sahədə daha ciddi addımlar atılır. Gənc nəslin nümayəndələri mərkəzi və yerli icra orqanlarının rəhbərliyinə gətirilir. Hesab edirəm ki, bu, düzgün addımdır. Çünki gənclər cəmiyyətimizin fəal təbəqəsidir. Bizim gənclərimizin mütləq əksəriyyəti milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə alıb və bu gün ölkəmizin hərtərəfli inkişafı üçün öz biliklərini ortaya qoymağa hazırdırlar.

Ümumiyyətlə, gənclər son illər ərzində ictimai həyatda çox fəal rol oynayırlar. Mən xüsusilə könüllüləri qeyd etmək istərdim. Bu il mənim Sərəncamımla “Könüllülər ili” elan edilmişdir. Mən çox şadam ki, qısa müddət ərzində Azərbaycanda çox böyük, çoxminli könüllülər ordusu yaradılıb və könüllülər öz işi, öz əməlləri ilə cəmiyyətdə çox böyük rəğbət qazana biliblər, bizim ümumi işimizə çox böyük töhfə verirlər. Könüllülər hərəkatı ASAN könüllülərdən başlamışdır. Bu gün ASAN könüllüləri, sözün əsl mənasında, Azərbaycan gəncliyinə xas olan ən gözəl xüsusiyyətləri özlərində birləşdirirlər, o xüsusiyyətləri təcəssüm etdirirlər. Hazırda digər sahələrdə də könüllülər kifayət qədər geniş fəaliyyət göstərirlər. Mən daim onların fəaliyyətini izləyirəm və onların fəaliyyətinə yüksək qiymət verirəm. Mənim göstərişimlə mərkəzi və yerli icra orqanlarında da könüllülər işə cəlb edilməlidirlər. Siz də icra hakimiyyəti başçısı kimi bu məsələyə diqqət yetirin ki, həm ictimai nəzarət baxımından işlər daha yaxşı getsin, həm ictimai fəallıq artsın və bu gün insanları narahat

edən məsələlər öz həllini tapsın. Buna nail olmaq üçün əlbəttə ki, ilk növbədə, mərkəzi və yerli icra orqanları səmərəli fəaliyyət göstərməlidirlər, eyni zamanda, ictimai nəzarət yüksək səviyyədə olmalıdır. Ona görə sizin təyinatınız həm sizə göstərilən etimaddır, eyni zamanda, gənclərə göstərilən diqqətdir. Bir daha demək istəyirəm ki, siz bu yüksək etimadı öz işinizlə doğrultmalısınız.

Kəlbəcər Azərbaycanın ən gözəl diyarlarından biridir. Kəlbəcərin füsunkar təbiəti, gözəl meşələri, dağları, çayları, tarixi abidələri Azərbaycan xalqının milli sərvətidir. Əfsuslar olsun, erməni vandalları tərəfindən Kəlbəcərdə və işğal edilmiş digər torpaqlarda yerləşən tarixi abidələrimizin mütləq əksəriyyəti, demək olar ki, hamısı dağıdılıb, yaxud da yarıdağılmış vəziyyətdədir. O cümlədən Kəlbəcər rayonunun ərazisində Azərbaycan xalqına məxsus qədim tarixi abidələr dağıdılıbdır. Amma gün gələcək biz işğal edilmiş bütün torpaqlarda hazırda dağılmış vəziyyətdə olan bütün abidələri, bütün infrastrukturu bərpa edəcəyik. Azərbaycan öz suverenliyini bərpa edəcəkdir və bunu deməyə əsas verən bir çox amillər var. O cümlədən bizim beynəlxalq mövqelərimizin möhkəm olması, ölkəmizin ərazi bütövlüyünün bütün dünya tərəfindən qəbul edilməsi və son illər ərzində bütün aparıcı beynəlxalq təşkilatların qərar və qətnamələrində ölkəmizin ərazi bütövlüyünə birmənalı şəkildə dəstək ifadə edilir. O cümlədən bu yaxınlarda separatçılar tərəfindən keçirilmiş qondarma seçkilərin dünya birliyi tərəfindən tanınmaması və aparıcı beynəlxalq təşkilatların bu məsələ ilə bağlı yekdil fikri bir daha bizim mövqeyimizi gücləndirmişdir və separatçılara, onların havadarlarına, işğalçı Ermənistana vurulan növbəti zərbə olmuşdur. Bununla bərabər, əminəm ki, bizim artan iqtisadi potensialımız, hərbi gücümüz və bölgədə artan nüfuzumuz – bütün bu amillər Azərbaycan dövlətinin suverenliyinin tam bərpa olunmasına gətirib çıxaracaqdır. Hər bir Azərbaycan vətəndaşı öz işi ilə bu günü yaxınlaşdırmalıdır və bu istiqamətdə çox fəal iş aparılır.

Kəlbəcərin işğal altına düşməsinin səbəbkarı xəyanətkar AXC-Müsavat hakimiyyətidir. Məhz onların xəyanətkar və yarıtmaz fəaliyyəti nəticəsində 1993-cü ilin aprel ayında Kəlbəcər işğal altına düşmüşdür, vətəndaşlarımız həlak olmuşdur və Kəlbəcərdən olan bütün soydaşlarımız məcburi köçkün şəraitində yaşamağa məcbur olmuşlar. Bu cinayət AXC-Müsavat hakimiyyətinin birinci cinayəti deyildi. Şuşanın və Laçının işğal altına düşməsində də AXC-Müsavat tandeminin çox böyük mənfi rolu olmuşdur. O vaxt onlar Azərbaycanda hakimiyyət davası aparırdılar. Onların əsas məqsədi nəyin bahasına olursa-olsun hakimiyyətə gəlmək idi. Bu gün özünü radikal müxalifət adlandıran, əslində, indiki şəraitdə çox aciz durumda olan marginal qruplaşma nəyin bahasına olursa-olsun Azərbaycanda vəziyyəti pisləşdirmək istəyir. Təbii ki, onların buna nə gücü, nə də ağlı çatır. Ancaq onların niyyəti məhz budur: Azərbaycanı ləkələmək, ölkəmizin imicinə zərbə vurmaq, pandemiya dövründə apardığımız uğurlu siyasətə kölgə salmaq, xarici havadarlarının maraqlarını təmin etmək, satqın, xain təbəqə, "beşinci kolon" kimi xarici dairələrin əmrlərini yerinə yetirmək.

1992-ci ildə Şuşanın və Laçının işğal olunması AXC-Müsavat cütlüyünün gənc müstəqil Azərbaycan dövlətinə qarşı etdiyi satqınlıq, xəyanət və cinayətdir. Bir daha demək istəyirəm ki, o vaxt onların əsas məqsədi hakimiyyətə gəlmək idi. Hakimiyyət də kifayət qədər zəif idi, ona görə Şuşanın təhvil verilməsi, Laçının müdafiəsinin lazımi səviyyədə təşkil edilməməsi bilavasitə AXC-Müsavat hakimiyyətinin, o vaxt o partiyaların rəhbərliyinin və onların üzvlərinin cinayətidir. O vaxt guya ki, Şuşanın müdafiəsini təşkil edən bir ünsür, xain, satqın, başına papaq qoyan, ancaq Şuşanı qorxaq kimi tərk edib qaçan demişdi ki, əgər Şuşa işğal altına düşsə, başıma güllə vuracağam. Bu günə qədər müxtəlif dairələrdə fırlanır. Bax, onların əməli budur. Onlar Şuşanı təhvil veriblər ki, Azərbaycanda vəziyyət gərginləşsin, xalq ayağa qalxsın, hakimiyyət devrilsin və onlar hakimiyyətə gəlsinlər və belə də oldu. Bundan istifadə edərək, öz doğma torpaqlarını ermənilərə təhvil verərək AXC-Müsavat satqın cütlüyü 1992-ci ildə Şuşanın və Laçının işğalından sonra hakimiyyətə gəldi. Ancaq bir il ərzində ölkəmizi elə bərbad vəziyyətə qoydular ki, xalq ayağa qalxdı, onları süpürüb zibil yeşiyinə atdı və yeganə nicat yolunu Heydər Əliyevin simasında gördü. O vaxta qədər onlar Kəlbəcəri ermənilərə təhvil verməklə böyük cinayət törətmişdilər. Çünki Kəlbəcərin işğal altına düşməsi coğrafi baxımdan Dağlıq Qarabağla Ermənistan arasında bağlantı yaratdı və artıq bu, dəhliz deyildi, işğal altına düşmüş böyük bir ərazi idi. Bu, əlbəttə ki, ölkəmizə, gənc Azərbaycan dövlətinə vurulmuş böyük zərbə idi. Azərbaycan xalqı bunu unutmamalıdır, xalq düşmənlərini unutmamalıdır. Mən onları öz adları ilə çağırıram. Belə də olmalıdır. Çünki xalqa, dövlətə xəyanət edən xaindir. Xaricin maraqlarını burada təmin etmək istəyən, öz xalqına, öz xalqının, dövlətinin maraqlarına zərbə vurmaq istəyən düşməndir. Bunun başqa adı yoxdur. Hamı da bunu bilməlidir.

Siz gənc kadr kimi, ilk növbədə, məcburi köçkünlərə böyük diqqət göstərməlisiniz. Dövlət xətti ilə məcburi köçkünlərə çox böyük diqqət göstərilir. Fəaliyyətimizin bu istiqaməti 2003-cü ildə mənim Prezident kimi fəaliyyətə başladığım dövrdən əsas xətt kimi davam edir. Mən o vaxt demişdim ki, beş il ərzində Azərbaycanda bir dənə də olsun çadır şəhərciyi qalmayacaq. Ancaq biz buna dörd il ərzində nail ola bildik. 2007-ci ildə artıq Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmamışdı. Onu da bildirməliyəm ki, çadır şəhərciyi, o acı mənzərə də AXC-Müsavat hakimiyyətinin məhsulu idi. Ondan sonra biz köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun təmin edilməsi istiqamətində daha fəal işlər apardıq. Bu gün

300 mindən çox məcburi köçkün evlərlə, mənzillərlə təmin edilib. Təkcə keçən il 5 min köçkün ailəsi üçün mənzillər tikilibdir. Bu il isə bu rəqəm 7 minə və ola bilər 8 minə çatacaq. Ona görə dövlət öz üzərinə düşən bütün vəzifələri icra edir. Keçən il mənim Sərəncamımla məcburi köçkünlərin maddi təminatı da yaxşılaşdırılmışdır. Onlara verilən müavinətin həcmi 50 faiz artmışdır.

Siz daim xalq içində olmalısınız, vətəndaşlarla bir yerdə olmalısınız, onların problemlərini təhlil etməlisiniz. İlk növbədə, əlbəttə ki, vəziyyəti tam təhlil etməlisiniz və xalqın, məcburi köçkünlərin problemlərinin həlli işində fəal olmalısınız. Elə məsələlər ola bilər ki, yerli icra orqanlarının buna gücü çatmasın, onda siz mütləq mərkəzi icra orqanlarına müraciət etməlisiniz. O məsələlər ki, sizin səlahiyyətinizdə olacaq, təbii ki, bütün bu məsələlər imkan daxilində öz həllini tapmalıdır.

Əlbəttə ki, sosial ədalət prinsipləri üstünlük təşkil etməlidir. Ədalət hər bir sağlam cəmiyyətdə aparıcı ideya, aparıcı tezis olmalıdır. Çünki ədalətsizlik insanları incidir, ədalətsizlik insanlarda inamı qırır. Ədalətsizlik nəticə etibarilə böyük problemlərə gətirib çıxarır. Ona görə hər bir sahədə ədalət prinsipi bərqərar olmalıdır. Məsələn, bu il köçkünlərə 8 minə yaxın mənzil veriləcək. Bu mənzillərin verilməsində tam şəffaflıq olmalıdır. Həm Dövlətqaçqınkom və eyni zamanda, yerli icra orqanları burada birgə işləməlidirlər. Köçkünlərin dəqiq uçotu aparılmalıdır. Əfsuslar olsun ki, əvvəlki illərdə bu uçot lazımi səviyyədə aparılmırdı. Belə məlumatlar var ki, bəzən qəsdən aparılmırdı. Çünki dəqiq uçotun olmaması müxtəlif manipulyasiyaya yol açırdı. İndi biz araşdırma, təftiş aparırıq, görürük ki, köçkünlər üçün tikilmiş evlərdə bəzi hallarda heç köçkün statusuna aid olmayan insanlar yaşayır. İndi biz bəzi ictimai binaları boşaldırıq, köçkünləri yeni mənzillərə köçürürük, sonra da görürük ki, - məsələn, bu yaxınlarda mənə məlumat verildi, - bir binada yaşayanların 20 faizi heç köçkün deyildi. Necə gəliblər oraya? Kim onları yerləşdirib? Kim onları qeydiyyata alıb? Dövlət orqanları. Nəyinsə müqabilində bunu ediblər. Yoxsa necə ola bilər ki, köçkünlər üçün nəzərdə tutulan binada başqa insanlar yaşayır. Belə hallar var. Mənzillərin bölgüsündə mənfi hallar kifayət qədər çox idi. Mənə verilən məlumata görə, bəzi hallarda köçkünlərdən pul alırdılar. Halbuki, dövlət onları pulsuz mənzillərlə təmin edir. Bu faktlar da araşdırılır. Ona görə, ilk növbədə, dəqiq uçot aparılmalıdır. Dövlətqaçqınkoma bu məsələ ilə bağlı göstərişlər verilib. Aidiyyəti yerli icra orqanlarının rəhbərliyi bu məsələdə çox diqqətli olmalıdır və bu işlər birgə tənzimlənməlidir.

Xoşagəlməz hallara qarşı ciddi mübarizə aparılmalıdır. Bu mübarizə bu gün öz nəticələrini verir. Mən bunu bir neçə dəfə demişəm ki, xoşagəlməz hallara, rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə amansız olacaq. Bugünkü mənzərə bunu göstərir. Artıq beş icra hakimiyyəti başçısı həbs olunub və bütün o videomateriallar, ondan sonra istintaq materialları göz qabağındadır. Yəni, kasıb insanın çörəyini kəsmək, ona çatacaq vəsaiti mənimsəmək ən böyük cinayət sayıla bilər. Pandemiya dövründə aztəminatlı təbəqəyə nəzərdə tutulmuş yardımı vəhşicəsinə mənimsəmək vicdansızlıq və cinayətdir. Tutulan o beş icra hakimiyyəti başçısının beşi də bu çirkin əməllərlə məşğul olub. Biz bu vəsaiti ona görə ayırırıq ki, bu gün özünə iş tapa bilməyən adam heç olmasa minimum əməkhaqqı səviyyəsində əməkhaqqı alsın, evinə çörəkpulu aparsın. Bunlar ona da göz dikiblər. Yəni, gözləri doymur. Bu, bir xəstəlikdir və bu xəstəliyin müalicəsi artıq işə salınıb. Mən bir neçə dəfə xəbərdarlıq etmişəm, açıq demişəm ki, əgər əyri yoldan düz yola dönməsəniz, sonunuz pis olacaq, cəza tədbirləri tətbiq ediləcək. Ancaq bəziləri hesab edirdi ki, bu, onlara aid deyil. Bəziləri hesab edirdi ki, onlar qanundan üstündür. Yaxud da hesab edirdilər ki, kimsə onlara kömək göstərəcək, onların havadarları, onlara uzun illər ərzində dəstək verən yüksəkvəzifəli şəxslər. Mən demişəm ki, bu, olmayacaq. Həyat da bunu göstərdi. Ödəniş kartlarının, sosial yardımın oğurlanması bu cinayətin hələ cüzi bir hissəsidir.

Bir çox rayonlarda yararsız vəziyyətə düşən çoxmərtəbəli binaların sökülməsi və onların yerində yeni binaların tikilməsi üçün mənim Sərəncamımla milyonlarla manat vəsait ayrılıb, milyonlarla. Amma sonra bəlli olur ki, o binalarda dövlət tərəfindən mənzillərlə təmin edilən insanlardan pul alınıb. Dövlət pul ayırır, rayon icra hakimiyyəti tikinti ilə məşğul olur. Tikintilərdə də nə qədər pozuntular var, nə qədər pul mənimsənilir, bütün bu faktların hamısı üzə çıxır. Ondan sonra da o mənzillər ki, pulsuz verməlidirlər həmin insanlara, onlardan da rüşvət tələb olunur. Hər addım cinayət, hər addım rüşvət. Buna son qoyulacaq! Heç kimdə şübhə olmasın! Bizim iradəmiz möhkəmdir, heç kim bizim iradəmizə təsir edə bilməz. Xalq da cinayətkarları, rüşvətxorları, gözü doymayanları yox, bizi dəstəkləyir. Mən bu dəstəyi hər gün hiss edirəm.

Mən, eyni zamanda, demişdim ki, xoşagəlməz hallar təkcə yerli icra orqanlarında deyil, mərkəzi icra orqanlarında da var, siqnallar var, məlumatlar daxil olub. Demişdim, xəbərdarlıq etmişdim, əl çəkin bu işlərdən, əl çəkin! Hesab edirdilər ki, bunlara aid deyil. İndi isə bunun acı nəticələrini yaşayırlar. Ona görə siz gənc kadr kimi icra başçısı vəzifəsində bu amilləri daim nəzərdə saxlamalısınız. Dürüstlük, şəffaflıq, ədalət hər bir dövlət məmurunun iş prinsipi olmalıdır. İş prinsipi bu olmalıdır, rüşvət yox, yalan yox, talançılıq yox, saxtakarlıq yox, vicdansızlıq yox! Dürüstlük, şəffaflıq, xalqa xidmət, ədalət – budur, prinsiplər! Bir daha deyirəm, əgər kimsə hələ də hesab edir ki, kimsə onlara kömək edəcək, səhv edir. Tutulan dövlət məmurlarının acı həyatını yaşamaq istəmirlərsə, düz yola qayıtsınlar.

Mən bir daha demək istəyirəm ki, sizə böyük etimad göstərilir və siz öz işinizlə bu etimadı doğrultmalısınız. Mən göstəriş vermişəm ki, bütün icra hakimiyyəti başçılarının və mərkəzi icra orqanlarının rəhbərlərinin fəaliyyəti ilə əlaqədar müntəzəm olaraq təhlillər aparılsın, onların əldə etdikləri nəticələr təhlil edilsin. Çünki hər bir rayonun inkişafı böyük dərəcədə rayona rəhbərlik edən şəxsdən asılıdır. Mən demişəm ki, bizim bütün rayonlarımız artıq dotasiya sistemindən çıxmalıdır. Bu istiqamətdə böyük işlər görülüb. Əvvəllər bütün rayonlarımız dotasiya ilə dolanırdı, dotasiyasız öz tələbatını ödəyə bilmirdi. İndi bir çox rayonlar artıq özləri-özlərini təmin edirlər, bu proses davam etdirilməlidir. Yerli vergilərin yığılması ilə əlaqədar şəffaflıq olmalıdır, dövlət vəsaitinin xərclənməsində tam şəffaflıq olmalıdır və rayonların sosial-iqtisadi inkişafı təmin edilməlidir. Onsuz da regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarında, – indi dördüncü proqram icra edilir, – bütün bu məsələlər təsdiq edilib, bütün infrastruktur layihələri, bütün əsas tikintilər, bütün sosial infrastruktur layihələri dövlət tərəfindən həyata keçirilir. Ona görə yerli icra orqanları bu istiqamətdə öz səylərini göstərməlidirlər. Bir daha demək istəyirəm, artıq tapşırıq verilib ki, vəzifəli şəxslərin fəaliyyətinin səmərəliliyi və buraxılan nöqsanlar ilə bağlı təhlillər aparılacaq və məlumat nəzarətdə olacaq. Eyni zamanda, ictimai nəzarət olmalıdır. Mən vətəndaşlara üz tutub deyirəm, ictimai nəzarət olmayan yerdə adətən pozuntular da olur. Ona görə siz də ictimaiyyəti bu işlərə cəlb edin, xalqla bir yerdə olun, xalqın problemləri ilə yaşayın və elə işləyin ki, vətəndaşlar da sizdən razı olsunlar, hakimiyyət də. Əgər vətəndaşlar sizin fəaliyyətinizdən razı olsalar, mən də razı olacağam. Sizə uğurlar arzulayıram, əminəm ki, öz işinizlə bu etimadı doğruldacaqsınız.

Azər Qocayev: Çox sağ olun, cənab Prezident. Biz gənclərə göstərdiyiniz dəstəyə və böyük etimada görə Sizə dərin təşəkkürümü bildirirəm. Mən də, öz növbəmdə, Sizi əmin etmək istəyirəm ki, göstərdiyiniz yüksək etimadı doğrultmaq, yüksək nəticələr, nailiyyətlər əldə etmək üçün dayanmadan çalışacağam. Sizə minnətdarlığımı bildirirəm, cənab Prezident.

Prezident İlham Əliyev: Sağ ol, sənə uğurlar.

***Seymur Orucovun Ağstafa, Elçin Rzayevin isə İmişli rayon icra hakimiyyətlərinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar videoformatda qəbullar***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Seymur Orucovu Ağstafa Rayon İcra Hakimiyyətinin, Elçin Rzayevi isə İmişli Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar videoformatda qəbul edib.

Dövlətimizin başçısı videoqəbulda çıxış edib.

Prezident İlham Əliyevin çıxışı

– Mən sizi bu gün Ağstafa və İmişli rayonlarının icra hakimiyyəti başçısı vəzifəsinə təyin edirəm. Sizə böyük etimad göstərilir. Siz bu etimadı öz işinizlə doğrultmalısınız.

Ağstafa və İmişli rayonlarının icra hakimiyyəti başçıları həbs olunub. Bu barədə ictimaiyyətə məlumat verilib. İndi istintaq gedir və hüquq mühafizə orqanları hər şeyi müəyyən edəcək. Artıq ictimaiyyət məlumatlandırılıb. Ağstafa və İmişli rayonlarında icra hakimiyyəti başçıları tərəfindən edilmiş bu pozuntular digər rayonlarda da mövcud olub və bir neçə icra hakimiyyəti başçısı artıq istintaqa cəlb edilib. Bu, bir daha onu göstərir ki, Azərbaycanda korrupsiyaya, rüşvətxorluğa, talançılığa qarşı mübarizə sözdə yox, əməldə aparılır və bu mübarizə bundan sonra da aparılacaq. İndi həm yerli, həm də mərkəzi icra orqanlarının fəaliyyəti araşdırılır və yol verilmiş bütün pozuntular üzə çıxacaq.

Azərbaycanda korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə amansız aparılmalıdır. Bu məsələ ilə bağlı mən öz fikirlərimi bildirmişdim, bir daha demək istəyirəm ki, Azərbaycanın uğurlu inkişafı, ölkəmizin dayanıqlı inkişafı üçün xoşagəlməz hallara son qoyulmalıdır. Siz də rəhbərlik edəcəyiniz rayonlarda bütün xoşagəlməz hallara qarşı öz işinizlə ciddi mübarizə aparmalısınız. Korrupsiyanın, rüşvətxorluğun, talançılığın kökü kəsilməlidir. Bu sahədə sizin dövlət tərəfindən böyük dəstəyiniz olacaqdır, eyni zamanda, geniş ictimaiyyəti də bu işlərə cəlb edin. Çünki ictimai nəzarət xoşagəlməz hallara qarşı mübarizədə çox önəmli amildir. Mən şadam ki, son müddət ərzində ictimai nəzarət mexanizmləri təkmilləşir. Birinci növbədə siz vəziyyəti təhlil etməlisiniz və insanları narahat edən problemləri həll etməlisiniz. Sizin həll etməyə gücünüz çatmayan məsələlər barədə müvafiq mərkəzi icra orqanlarına məlumat verin ki, bu məsələlər operativ şəkildə öz həllini tapsın.

Bizim bölgələrdə gördüyümüz işlərin mənbəyi xalqın iradəsidir. Bildiyiniz kimi, artıq regionların dördüncü sosial-iqtisadi inkişafı Dövlət Proqramı icra olunur. Bütün proqramların tərtibatında yerlərdən gələn təkliflər üstünlük təşkil edir. Mənim bölgələrə, rayonlara çoxsaylı səfərlərim və səfərlər əsnasında vətəndaşlarla görüşlərim bu proqramların hazırlanmasında xüsusi rol oynayır. Çünki bölgələrdə elə işlər görülməlidir ki, o işlər öz həllini gözləyir, insanlar əziyyət çəkir. Ona görə vəziyyəti təhlil edərkən siz, ilk növbədə, vətəndaşları narahat edən məsələləri aşkarlamalısınız.

O ki qaldı, infrastruktur layihələrinə, üç Dövlət Proqramının icrası nəticəsində infrastruktur layihələri-

nin böyük hissəsi öz həllini tapıb. Bunu indi hər kəs görür, bölgələrdə yaşayan insanlar görür və eyni zamanda, beynəlxalq təşkilatlar da bunu qeyd edir. Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumunun hesabatında elektrik enerjisinin əlçatanlığına görə Azərbaycan dünyada 2-ci yerdədir. Yolların keyfiyyətinə görə 30-cu yerlərdədir. Bu gün Azərbaycan nadir ölkələrdəndir ki, demək olar, qazlaşdırma layihələrinin böyük əksəriyyəti başa çatıb, qazlaşdırmanın səviyyəsi 96 faizdir. İçməli su layihələri bütün şəhərlərdə icra edilir, ya artıq başa çatıb, ya da ki, başa çatmaq üzrədir. Bütün bunlar dövlət tərəfindən görülmüş işlər, qoyulan investisiyalardır. Ona görə infrastruktur layihələrinin əsas hissəsi öz həllini tapıb. Ona görə sizin əsas vəzifəniz ondan ibarət olmalıdır ki, artıq bu möhkəm təməl üzərində öz işinizlə rayonların sosial-iqtisadi inkişafını təmin edəsiniz. Eyni zamanda, bütün işlər ədalətli görülməlidir. Ədalət sizin işinizdə əsas prinsip olmalıdır və indiki şəraitdə, pandemiya dövründə insanlara daha çox yardım, kömək göstərilməlidir. Yerlərdə, ilk növbədə, bunu icra başçıları, icra strukturları etməlidirlər.

Əlbəttə, Azərbaycan dövləti bütün lazımi tədbirləri görür. Azərbaycanda pandemiya ilə əlaqədar tətbiq olunan mexanizm hesab edirəm ki, ən yüksək qiymətə layiqdir. Biz yüz minlərlə insanın sosial vəziyyətinin pisləşməsini nəzərə alaraq, onlara yardım göstəririk. Bu yardım insanları bu ağır vəziyyətdə ruhlandırır, eyni zamanda, onların maddi imkanlarının təmin edilməsində rol oynayır. Biz bunu edirik ki, insanlar bu vəziyyətdən çıxsın və az itkilərlə çıxsınlar. İlk növbədə, koronavirusla bağlı mübarizədə görülmüş işlər yüksək qiymətə layiqdir. Eyni zamanda, koronavirusa görə işini itirən, yaxud da ki, müvəqqəti olaraq itirən insanların da yardımına dövlət gəlməlidir. Ona görə dövlət hər zaman bu işlərdə aparıcı rolunu oynayacaq və siz də yerlərdə Azərbaycan dövlətinin nümayəndələrisiniz. Ona görə sizin işinizdən, eyni zamanda, ümumiyyətlə, Azərbaycanda görülən işlər haqqında da təsəvvür yaranır. Əgər icra hakimiyyəti başçısı öz vəzifə borcunu yerinə yetirmirsə, əksinə, insanları incidir, insanların əmlakına göz dikir, kimsəsiz insanlara çatacaq yardımı, ictimai işlərə cəlb edilmiş insanların ödəniş kartlarını oğurlayır, talançılıqla, rüşvətxorluqla, korrupsiya ilə məşğul olursa, onda insanlar hansı fikirdə ola bilərlər? Siz işdə də, məişətdə də nümunə göstərməlisiniz və elə işləməlisiniz ki, insanlar sizdən razı olsunlar. İnsanlar sizdən razı olsalar, mən də sizin işinizdən razı olacağam. Ona görə vəziyyəti dərindən təhlil edin, həllini gözləyən məsələləri həll etmək üçün səylər göstərin və gücünüz çatmayan işlərin həll edilməsi üçün Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, müvafiq dövlət orqanlarına müraciət edin.

İndiki şəraitdə ölkəmizin uğurlu inkişafı, ilk növbədə, qeyri-neft sektorunun hesabına təmin ediləcək və əlbəttə ki, sahibkarlığın inkişafı daha böyük əhəmiyyət daşıyır. Biz bu işlərlə çox uğurla məşğul oluruq və bu gün Azərbaycanda çox böyük sahibkarlıq sinfi formalaşıb. Ancaq bəzi hallarda sahibkarlar çətinliklərlə üzləşirlər. Hansısa layihəni icra etmək, hansısa investisiyanı qoymaq istəyəndə məmurlar tərəfindən problemlərlə üzləşirlər. Bəzi məmurlar onların layihələrinə şərik çıxmaq istəyirlər, bəzi məmurlar onların gəlirlərinə göz dikirlər. Buna qətiyyən yol vermək olmaz. Əksinə, siz sahibkarları cəlb etməlisiniz, siz onları inandırmalısınız. İndi dünyada investisiyalar uğrunda mübarizə aparılır. Ölkələr öz təkliflərini irəli sürürlər ki, investorları cəlb etsinlər. Ona görə siz, ilk növbədə, yerli sahibkarları inandırmalısınız ki, onlar gəlib məhz sizin rayonlarınıza sərmayə qoysunlar, iş yerləri yaratsınlar və beləliklə rayonların inkişafına töhfə versinlər. Amma bəzi hallarda sahibkar iş görmək istəyir, ona min cür əziyyət verilir. Buna yol vermək olmaz.

Kənd təsərrüfatının inkişafı bizim üçün prioritet sahə olaraq qalır. İndiki şəraitdə kənd təsərrüfatının müasir üsullarla inkişafı ilə əlaqədar çox geniş proqramlar icra edilir. Bu sahədə də yerli icra orqanlarından çox şey asılıdır. Ona görə, müvafiq dövlət qurumları ilə birlikdə kənd təsərrüfatının inkişafı ilə bağlı işlər görülməlidir, insanlar işlə təmin edilməlidir, məhsuldarlıq artmalıdır və kənd təsərrüfatının inkişafını şərtləndirən bütün amillər təmin edilməlidir, o cümlədən suvarma suyunun ədalətli bölüşdürülməsi məsələsi. Bu sahədə də böyük pozuntular var, yerlərdən mənə şikayətlər gəlir. Keçən il də quraqlıq olub, bu il də quraqlıqdır və biz sudan böyük qənaətlə istifadə etməliyik. Bütün bu işləri düzgün təhlil etmək və tədbirlər planı hazırlamaq üçün mənim Sərəncamımla xüsusi komissiya yaradılıb və artıq komissiyanın ilkin araşdırmaları mənə təqdim edilib. Biz bunu demək olar ki, təxmin edirdik, bəzi hallarda itkilər 40-50 faiz səviyyəsindədir. Bu, dözülməzdir. Belə israfçılıq böyük problemlərə gətirib çıxarır. Ona görə siz bu sahədə bütün vəziyyəti təhlil edin. Əlbəttə, mərkəzi icra orqanları bu məsələ ilə məşğuldurlar və komissiyanın tərkibində nazirlər təmsil olunur. Amma yerlərdə siz bu işlərə ciddi fikir verin, təftiş aparın və məlumat verin. Çünki biz əgər ancaq bu itkiləri azaltsaq, kənd təsərrüfatında daha böyük irəliləyişə nail ola bilərik. Eyni zamanda, suyun ədalətli bölüşdürülməsi məsələsi də çox aktualdır. Çünki mənə verilən məlumatlara görə, bəzi hallarda icra başçılarına yaxın olan sahibkarlara su verilir, ancaq kənar adamlara su verilmir. Bu, ədalətsizlikdir və buna son qoyulmalıdır.

Ödənişli ictimai iş yerlərinin yaradılması artıq bir neçə ildir ki, təmin edilir və biz bu kateqoriyaya aid olan

insanların sayını ildən-ilə artırırıq. Biz 30 mindən başlamışıq. Bu il mənim göstərişimlə 90 min ödənişli ictimai iş yeri yaradılmalıdır və bu istiqamətdə artıq nəticələr vardır. Ancaq əfsuslar olsun ki, bəzi icra başçılarının cinayətkar əməllərinə görə, bu sahə də ən korrupsiyalaşmış və ən çirkin sahəyə çevrilib. O işlərə cəlb edilən insanların ödəniş kartları icra başçıları tərəfindən oğurlanırdı. Həbs olunmuş bütün icra başçılarının iş otaqlarından və onların yaxınlarının iş otaqlarından yüzlərlə ödəniş kartı çıxır. Bu pul kasıb, özünə iş tapa bilməyən insanlara çatmalıdır. Xüsusilə pandemiya dövründə bütün ölkələrdə iş yerləri ixtisar edilir, bütün ölkələrdə işsizlik artır, o cümlədən Azərbaycanda. Belə bir vəziyyətdə kasıb insanın puluna göz dikmək vicdansızlıqdır və cinayətdir. Ona görə bu gün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırıq verilib ki, onlar ümumi nəzarət və eyni zamanda, monitorinq aparsınlar. Siz də rəhbərlik edəcəyiniz rayonlarda bu işləri ciddi təhlil edin, görün nə qədər insan cinayətkar icra başçıları tərəfindən bu imkandan məhrum edilib. Biz bu ədaləti bərpa etməliyik.

Bir sözlə, sizin fəaliyyətiniz rəhbərlik edəcəyiniz rayonların sosial-iqtisadi inkişafında özünü göstərməlidir. Çünki açıq demək istəyirəm, təxminən son 17 il ərzində bölgələrdə görülmüş işlərin ən azı 90 faizi mənim təşəbbüsümlə görülüb, dövlət proqramları çərçivəsində görülüb, 16 min kilometr avtomobil yolu çəkilib, bütün elektrik təsərrüfatı demək olar ki, yenidən qurulub. Biz qazlaşdırmanı təxminən 100 faizə çatdırmışıq, 3500-dən çox məktəb, 700-dən çox tibb ocağı, 50-yə yaxın Olimpiya İdman Mərkəzi, nə qədər Gənclər evləri, mədəniyyət sarayları, digər sosial obyektlər tikilib. Bütün bunları biz mənim bilavasitə göstərişimlə dövlət büdcəsi hesabına etmişik. İndi baxaq görək icra başçıları nə iş görüblər, hansı daşı daş üstünə qoyublar. İndi bütün bu işlər təftiş edilir. Mənim ayırdığım vəsait hesabına tikilmiş evlər, yəni, qəzalı evlərin əvəzinə tikilmiş evlərin tikintisində də oğurluq baş verir, həm tikintidə, həm də ki, ondan sonra mənzillərin bölüşdürülməsində. Bu evlərin insanlara tamamilə pulsuz verilməsi nəzərdə tutulubdur. Amma həm tikintidə pul oğurlanır, həm də mənzillər rüşvət müqabilində paylanılır. Deməli insanlardan pul qopardılır. İndi təftiş aparılır və bütün bu pozuntularda əli olan vəzifəli şəxslər məsuliyyətə cəlb ediləcək. İcra başçısı ona göstərilən etimadı öz işi ilə doğrultmalıdır.

Bölgələrdə gedən işlər daim mənim nəzarətimdədir. Mənim çoxsaylı səfərlərim, eyni zamanda, o məqsədi güdür ki, görülmüş işlərin icrasını görüm, tanış olum və insanları narahat edən problemləri insanlardan eşidim və biz bunları həll edək. Amma deyə bilərəm ki, bir çox hallarda icra hakimiyyəti başçısı öz iş otağından çıxmır. Bütün icra hakimiyyəti başçıları, o cümlədən siz bütün kəndlərdə insanlarla görüşməli, insanları narahat edən problemləri insanların dilindən eşitməli və ondan sonra qərar qəbul etməlisiniz. Elə məsələ var ki, sadəcə olaraq, laqeydlik, biganəlik və məsuliyyətsizlik ucbatından həll olunmur. Elə məsələ var ki, heç böyük vəsait, böyük əziyyət tələb etmir. Sadəcə, onların vecinə deyil. Onlar hesab edirlər ki, orada ağa kimi rəhbərlik etməlidirlər, insanları incitməlidirlər, öz şəxsi maraqlarını təmin etməlidirlər. Belə təfəkkürlə yaşayan insanların bizim aramızda yeri yoxdur. Onların yeri başqa yerdədir. Ona görə, siz bütün kəndlərdə olmalısınız, bütün problemləri vətəndaşlardan öyrənməlisiniz və onları həll etməlisiniz. Bir daha demək istəyirəm ki, yerli səviyyədə həlli mümkün olmayan problemlər dərhal müvafiq mərkəzi icra orqanlarına çatdırılmalıdır.

Bu gün Azərbaycan yeniləşir, müasirləşir və yeni kadrlardan çox şey asılıdır. Sizin fəaliyyətinizdən çox şey asılıdır və insanların inamı, əhval-ruhiyyəsi, ədalətə inanması bir çox hallarda yerli rəhbərlərin işindən asılıdır. Siz elə işləməlisiniz ki, insanlar sizə inansınlar, sizi dəstəkləsinlər və sizin işinizdən razı olsunlar.

Bunu da bilməlisiniz ki, sizin fəaliyyətinizə diqqət göstəriləcək, nəzarət olunacaq. Elə işləməlisiniz ki, mənim tərəfimdən verilən bütün tapşırıqlar yerinə yetirilsin, Ağstafa və İmişli rayonlarının uğurlu inkişafı təmin edilsin.

* * *

Elçin Rzayev: Möhtərəm cənab Prezident, göstərdiyiniz bu böyük etimada görə Sizə dərindən təşəkkür edirəm. Bu etimaddan irəli gələn məsuliyyətin dərinliyini dərk edərək, Sizi əmin etmək istəyirəm ki, üzərimə düşən, dövlətimizə bağlı vəzifələrin həyata keçirilməsinə və qarşıya qoyulan məqsədlərə ləyaqətlə nail olmaq üçün yorulmadan var qüvvəmlə çalışacağam. Çox sağ olun, cənab Prezident.

Prezident İlham Əliyev: Sağ ol.

* * *

Seymur Orucov: Möhtərəm cənab Prezident. Mən də bu çox böyük və məsuliyyətli etimada görə öz adımdan və Yeni Azərbaycan Partiyasının gəncləri adından Sizə dərin minnətdarlığımı bildirirəm. Bu etimad mənim timsalımda YAP gənclərinə olan etimaddır. Bu etimad bütün Azərbaycan gəncliyinə böyük stimuldur. Siz dəfələrlə öz çıxışlarınızda demisiniz ki, Azərbaycan gəncliyinə güvəniniz və etimadınız böyükdür.

Gənclərin bu gün ölkənin ictimai-siyasi həyatında fəal olmasının əsası Ulu Öndərimiz tərəfindən qoyulmuşdur. Çünki möhtərəm cənab Prezident, 1990-cı illərin əvvəllərində hakimiyyəti zəbt etmiş AXC-Müsavat dövründə Azərbaycan gəncliyini zorla ali təhsil

ocaqlarından, iş yerlərindən mitinq bölgələrinə və onların yarıtmaz liderlərinə dəstək tədbirlərinə aparırdılar. Gənclərimiz çox bədbin ruhda idilər. Lakin Ulu Öndərimiz hakimiyyətə gəldikdən sonra Azərbaycan gəncliyində gənclik ruhu özünə qayıtdı. Ulu Öndər bütün Azərbaycan gəncliyini vahid azərbaycançılıq ideologiyası ətrafında birləşdirdi. Siz də bu gün bu siyasəti yeni üslubda, çox möhtəşəm formada həyata keçirirsiniz.

Möhtərəm cənab Prezident, bu gün Azərbaycan gəncliyi Sizə borcludur. Ona görə borcludur ki, Siz bizi dövlət orqanlarında önə çəkirsiniz. Bununla bərabər, Siz və Birinci vitse-prezidentimiz biz gənclərin, Azərbaycan xalqının canını da qoruyursunuz. Çünki bu gün dünyada baş verən bəladan göründü ki, bir çox dövlətlər var idi, böyük dövlətlər, onlar bu prosesi Sizin qədər dəqiq, vaxtında, az itki ilə idarə edə bilmədi. Bu da Sizin liderlik xüsusiyyətinizdən irəli gəlir. Çünki lider çox çətin gündə bilinir. Biz gənclər bununla fəxarət hissi keçiririk. İstər Türk Şurasının, istərsə də Qoşulmama Hərəkatının Zirvə görüşlərinin keçirilməsi ilə bağlı bütün dövlət və hökumət başçılarının Sizin çağırışınıza səs verməsi, dünyanı bu bəladan birgə qurtarmaq səyləriniz bütün dünyaya nümunədir və Azərbaycanın dünyada artan nüfuzundan xəbər verir.

Möhtərəm cənab Prezident, mən də Sizə söz verirəm ki, var gücümlə Heydər Əliyev siyasətinə xidmət edəcəyəm, rayonun inkişafı və abadlaşması üçün var qüvvəmi səfərbər edəcəyəm və dövlətimə, millətimə, Sizə ləyaqətlə xidmət edəcəyəm. Yolunuz yolumuzdur, cənab Prezident. Bir daha təşəkkür edirəm, minnətdarlığımı bildirirəm.

Prezident İlham Əliyev: Sizə uğurlar arzulayıram.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏFƏRLƏRİ

## *Şamaxı rayonuna səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 25-də Şamaxı rayonuna səfərə gəliblər.

Dövlətimizin başçısı və birinci xanım xalqımızın ümummilli lideri Heydər Əliyevin Şamaxı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyublar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 25-də Şamaxı şəhərində Pirsaat Baba ziyarətgahının yenidən qurulması çərçivəsində görülən işlərlə tanış olublar.

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma tikinti-bərpa və yenidənqurma tədbirləri barədə məlumat verdi. Bildirdi ki, zəlzələ zamanı ziyarətgahın divarlarında çatlar əmələ gəlmişdi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Pirsaat Babanın məzarını ziyarət etdilər.

Pirsaat Baba ziyarətgahı bütün ölkə əhalisinin ziyarət etdiyi müqəddəs ocaqlardan biridir və hər gün buraya yüzlərlə zəvvar gəlir. Ziyarətçilərin rahatlığını təmin etmək məqsədilə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə burada geniş yenidənqurma işlərinə başlanıb.

Qeyd edək ki, təxminən IX-XV əsrlər arasında tikilmiş türbə 1918-ci ildə Hacı Cəfərqulu tərəfindən yenidən ucaldılıb. Heydər Əliyev Fondu tərəfindən 2020-ci ildən başlanmış yenidənqurma işləri həm tarixi abidə, həm də müqəddəs ziyarətgah olan Pirsaat pirinin tamamilə yeni görkəmdə əhalinin ixtiyarına verilməsinə imkan yaradacaq.

Dini ziyarətgahlarımız da xalqımızın qürur doğuran keçmişinə, milli–mənəvi dəyərlərinə maksimum həssas münasibətinin əyani nümunələrindəndir. Azərbaycanın müasir tarixində müstəsna xidmətləri olan ulu öndər Heydər Əliyevin prinsipial və həsəd doğuran vətəndaşlıq mövqeyi, iradəsi, qətiyyəti, milli-mənəvi dəyərlərə dərindən bağlılığı nəticəsində ölkəmizdəki ziyarətgahlara yeni həyat verildi. Təsadüfi deyil ki, Ulu Öndərin müəyyənləşdirdiyi mükəmməl siyasi kursun layiqincə davam etdirilməsinə və daha da zənginləşdirilməsinə Prezident İlham Əliyevin xüsusi diqqəti sayəsində indi ziyarətgahların və dini məbədlərin yenidən qurulmasının miqyasına görə heç bir ölkə Azərbaycanla müqayisə edilə bilməz. Bu baxımdan Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da səylərini əsirgəmir, istər ölkəmizdə, istərsə də xaricdə silsilə layihələr reallaşdırır. Bunlardan biri də Şamaxı şəhərinin girəcəyində, Bakı-Şamaxı-Yevlax avtomobil yolunun kənarında, Pirsaat çayının sahilində yerləşən Pirsaat Baba ziyarətgahıdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 25-də Şamaxı rayonuna ayrılan nəqliyyat vasitələri və xüsusi texnikalara baxdılar.

Bir sıra sahələrdə, o cümlədən şəhər təsərrüfatı, kommunal, səyyar tibbi və digər sahələrdə xidmətin keyfiyyətini yaxşılaşdırmaq üçün Prezident İlham Əliyevin Sərəncamına uyğun olaraq Şamaxı rayonuna çoxlu sayda nəqliyyat vasitələri və xüsusi texnikalar ayrılıb.

Şamaxıya səfəri zamanı həmin nəqliyyat vasitələri və texnikalar dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyevaya təqdim olundu. Bildirildi ki, texnika və nəqliyyat vasitələri seçilərkən rayonun turizm potensialı, seysmik ərazidə yerləşməsi və landşaftı nəzərə alınıb. Rayonda sərnişindaşımanın lazımi səviyyədə təşkili üçün 10 avtobus ayrılıb. Rayonun kommunal təsərrüfatında bundan sonra məişət tullantıları daşıyan, küçə süpürən və yuyan, qartəmizləyən və digər müasir texniki vasitələrdən istifadə ediləcək. Şamaxının səhiyyə potensialına 3 təcili tibbi yardım avtomobili və 1 reanimasiya maşını əlavə olunacaq. Bundan başqa, rayonun bərpa-quruculuq və abadlıq işlərində istifadə etmək üçün çoxlu sayda ağır və yüngül tonnajlı yük maşını, ağır tonnajlı buldozer, çoxfunksiyalı ekskavator və digər texniki vasitələr ayrılıb. Bu təşəbbüs dövlət başçısının regionların daha da müasirləşməsi, şəhər, qəsəbə və kəndlərdə rahat həyat şəraitinin yaradılması üçün apardığı sosial-iqtisadi siyasətin daha bir əyani göstəricisidir.

Ölkənin başqa şəhərlərinin də belə texnika və nəqliyyat vasitələri ilə təchizatını təşkil etmək üçün təkliflər hazırlanması barədə tapşırıq verən Prezident İlham Əliyev dedi:

– Avtobuslar gərək bu gündən xətlərə çıxsın. Ondan sonra təcili tibbi yardım maşınları. Şamaxı rayonunun təchizatı ilə bağlı görülən işlər indiki mərhələdə kifayətdir. Həm Prezidentin ehtiyat fonundan, həm də dövlət büdcəsindən vəsait ayrıldı. Gərək biz prinsipcə bütün şəhərlərimizdə texnika ilə təchizatı yüksək səviyyəyə qaldıraq. Bu baxımdan Şamaxı birinci şəhərdir. Mən demişəm, digər şəhərlərdə, bir çox yerlərdə şəhər nəqliyyatı bərbad vəziyyətdədir. Kommunal texnikanın çatışmazlığı problemlər yaradır, təkliflər hazırlayın, bizim bütün şəhərlərimizdə müasir texnika təchizatı təmin edilməlidir – həm sərnişin nəqliyyatı, kommunal texnika, həm də təcili tibbi yardım maşınları. Bakı şəhərində bu, öz həllini tapıb. Baxmayaraq ki, Bakıda da hələ köhnədən qalan avtobuslar var, onlar da yavaş-yavaş yeniləri ilə əvəzlənir. Bir çox şəhərlərə təcili tibbi

yardım maşınlarının göndərilməsi təmin edilmişdir. Ancaq vaxt keçir, onların da istismar müddəti başa çatır, sıradan çıxır, qəzaya uğrayır. İndi Şamaxı rayonunun timsalında biz prinsipcə görürük ki, əhalini nəzərə alaraq nə qədər texnika lazımdır. Ona görə, digər rayonlarda da nə qədər texnika lazımdır, biz bunları kompleks şəkildə, tədricən həll edək.

Prezidentin köməkçisi Anar Ələkbərov: Oldu, cənab Prezident, aydındır.

Prezident İlham Əliyev: Mən göstəriş vermişdim ki, Şamaxı şəhərinin avtomobil yollarının da təmiri ilə bağlı tədbirlər görülsün. Kənd yollarının bir çoxu asfaltlanıb, hətta ucqar kəndlərə də asfalt yollar çəkilib. Amma şəhər yolları o qədər də yaxşı vəziyyətdə deyil. Ona görə də həm kənd yollarının çəkilişinin davam etdirilməsi, eyni zamanda, Şamaxı şəhərinin yol infrastrukturunun müasirləşməsi ilə əlaqədar əlavə tədbirlər görülməlidir. Dayanacaqlar da pis vəziyyətdədir. Ona görə bu yeni texnika bütün şəhər infrastrukturunun müasirləşməsinə xidmət göstərəcək. Əsas məsələ insanların sağlamlığı və təhlükəsizliyidir. Bu müasir təcili tibbi yardım maşınları hər yerdə lazımdır, özü də ən aparıcı şirkətlərin istehsalıdır. Əlbəttə ki, yeni avtobuslar həm rahatlıq gətirəcək, həm də təhlükəsizlik baxımından çox vacibdir.

Heydər Əliyev Fondu tərəfindən Şamaxı şəhərində inşa edilən 2 nömrəli körpələr evi-uşaq bağçasının və rayonun Meysəri kəndində əsaslı təmir olunan körpələr evi-uşaq bağçasının mayın 25-də açılışları olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışlarda iştirak ediblər.

Dövlətimizin həyata keçirdiyi sosial-iqtisadi siyasətdə uşaqların təlim-tərbiyəsinin təşkili, onların sağlamlığının qorunması diqqət mərkəzində saxlanılır. Bu sahədə həyata keçirilən layihələrə Heydər Əliyev Fondu mühüm töhfələr verir. Fondun ölkəmizdəki məktəbəqədər tərbiyə müəssisələrinin yenidən qurulması, yeni, müasir uşaq müəssisələrinin inşası sahəsindəki fəaliyyəti müstəsna əhəmiyyətə malikdir. Uşaqların təlim-tərbiyəsinin Heydər Əliyev Fondunun fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil etdiyini “Məktəbəqədər təhsil müəssisələrinin inkişafı” proqramı bir daha təsdiqləyir. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Fondun təhsillə bağlı fəaliyyət dairəsində məktəbəqədər təhsil müəssisələrinin yenidən qurulmasına, bu sahədə ciddi keyfiyyət dəyişikliyinə nail olunmasına geniş yer ayrılıb və bu sahədə çox mühüm nəticələr əldə edilib. Şamaxı rayonunun ehtiyacları nəzərə alınaraq Heydər Əliyev Fondunun təşəbbüsü ilə bu rayonda inşa olunan 2 uşaq bağçası Fondun həyata keçirdiyi bu cür layihələrin ardıcıl xarakter aldığını bir daha aydın göstərir.

Şamaxıdakı 2 nömrəli körpələr evi-uşaq bağçası ilə tanışlıq zamanı dövlətimizin başçısına və birinci xanıma məlumat verildi ki, 110 yerlik bu müəssisədə uşaqların təlim-tərbiyəsi ilə məşğul olmaq üçün hərtərəfli şərait yaradılıb. Bir sözlə, binada uşaqların gələcəyin sağlam vətəndaşı kimi yetişmələri üçün hərtərəfli şərait qurulub. Qruplar yaradılarkən müasir təlim-tərbiyə qaydaları rəhbər tutulub. Uşaqların istirahəti və əyləncəsi üçün geniş imkanlar açılıb. Təhsil ocağındakı bütün otaqlar lazımi avadanlıqla təchiz edilib. Burada balacaların ilk yaşlarından intellektual, fiziki və əqli inkişafı, onların istedad və qabiliyyətlərinin üzə çıxması, sağlamlıqlarının qorunması, insanlarla ünsiyyətin qurulması diqqət mərkəzində saxlanacaq.

Bütövlükdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə gənc məcburi köçkün ailələri üçün 16 mənzilli 1 yaşayış binası, rayonun Məlikçobanlı, Birinci Çaylı, Quşçu, Avaxıl, Dədəgünəş və Meysəri kəndlərində, ümumilikdə, 1212 yerlik orta məktəb binaları, Şamaxı şəhəri, Şəhriyar qəsəbəsi, Quşçu kəndlərində, ümumilikdə, 290 yerlik körpələr evi-uşaq bağçaları, Həmyəli, Birinci Çaylı, Quşçu, Mərzəndiyə, Avaxıl, Məlhəm və Meysəri kəndlərində tibb məntəqələri inşa edilib, Qaleybuğurd və Saqiyan kəndlərində 320 yerlik orta məktəblər, 210 yerlik Şamaxı Texniki Humanitar və Təbiət Fənləri Təmayüllü Liseyi və rayon Mədəniyyət Mərkəzi əsaslı təmir olunub.

Açılışı olan tədris-tərbiyə ocaqlarından biri də Şamaxının Meysəri kəndindəki körpələr evi-uşaq bağçasıdır. 1926-cı ildən fəaliyyətə başlamış Meysəri kənd 120 şagird yerlik tam orta məktəbinin köhnə binası istismar üçün yararsız olduğuna görə 2018-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə kəndin giriş hissəsində 132 şagird yerlik yeni məktəb inşa edildikdən sonra Fond tərəfindən məktəbin köhnə binası körpələr evi-uşaq bağçasına uyğunlaşdırılmış layihə üzrə əsaslı təmir edilib. Körpələr evi-uşaq bağçasında 2019-cu ildə başlanılan təmir işləri 2020-ci ilin aprel ayında yekunlaşdırılıb.

Qırx yerlik körpələr evi-uşaq bağçasında yataq və oyun otaqları, idman və musiqi zalları və digər zəruri otaqlar mövcuddur. Bağçanın həyətyanı ərazisində yenidənqurma və yaşıllaşdırma işləri aparılıb, uşaq əyləncə qurğuları, müasir işıqlandırma sistemləri quraşdırılıb. Kənd yerlərində belə bağçaların və digər sosial, mədəni, təhsil obyektlərinin istifadəyə verilməsi ölkəmizdə şəhərlə kənd arasında fərqin getdikcə aradan qaldırılması üçün atılan mühüm addımlardandır. Bu cür layihələr göstərir ki, Azərbaycanda həyata keçirilən sosial layihələrin miqyası və coğrafiyası getdikcə daha da genişlənir.

Mayın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxı şəhərində istismar müddəti başa çatmış binalarda yaşayan vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün tikilən 51 mənzilli binada oldular.

İstismar müddəti başa çatmış binalarda yaşayan vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün Prezident İlham Əliyevin Sərəncamı ilə tikilmiş binada sakinlərin rahatlığı üçün hər cür şərait yaradılıb.

Qeyd edək ki, bu gün ölkədə həyata keçirilən sosial islahatların əsas təsiri özünü insanların yaşayış səviyyəsində göstərir. Dövlət daha çox aztəminatlı və xüsusi diqqət tələb edən təbəqənin sosial qayğılarının həllinə çalışır. Bu zaman dövlət məsələyə həm də kompleks yanaşır və bu yanaşma bütün əhali təbəqələrini əhatə edir. Bu sırada qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Artıq bu kateqoriyadan olan insanlar üçün ölkənin müxtəlif ərazilərində salınan yeni qəsəbələrdə və müasir yaşayış komplekslərində 300 mindən çox insan məskunlaşıb. Şəhid ailələrinin, müharibə veteranlarının mənzillərlə təmin olunması da dövlətin sosial siyasətinin prioritetləri sırasına daxildir. Dövlət həm də təbii fəlakətdən zərər görən vətəndaşların problemlərinin həllinə xüsusi qayğı ilə yanaşır. Baxmayaraq ki, təbii fəlakət hər bir ölkədə baş verir, amma başqa ölkələrdən fərqli olaraq Azərbaycanda təbii fəlakətin fəsadları vətəndaşın dövlətə etimadı, dövlətin isə vətəndaşın qayğısına qalmaq vəzifəsinin birliyi sayəsində həll olunur. Ötən ilin fevralında baş vermiş zəlzələ zamanı Şamaxıda xeyli sayda ev qəzalı vəziyyətə düşmüşdü. Dərhal hadisə yerinə gələn dövlətimizin başçısı təbii fəlakətin fəsadlarının aradan qaldırılması üçün təcili tədbirlər görülməsi ilə bağlı müvafiq tapşırıqlar verdi və sərəncamlar imzaladı. Bunun nəticəsi olaraq indiyədək çoxlu sayda yeni ev və çoxmərtəbəli bina tikilmiş və bərpa olunmuşdur.

Dövlətimizin başçısı və birinci xanım daha sonra zəlzələdən zərər çəkənlər üçün inşa olunmuş 110 mənzilli binalardakı mənzillərə baxdılar. Ötən il baş vermiş zəlzələdən sonra rayonda bütövlükdə 205 ev tikilib, 1219 ev bərpa və 1125 ev təmir olunub. Ümumilikdə 174 mənzilli, o cümlədən 4 mərtəbəli 44 mənzilli, 5 mərtəbəli 20 mənzilli və 5 mərtəbəli 110 mənzilli binaların tikintisi başa çatdırılıb. 1560 şagird yerlik şəhər 2 saylı tam orta məktəbi üçün yeni korpusun inşası və digər korpusun əsaslı təmiri davam etdirilir.

Görülən bütün bu işlərə Heydər Əliyev Fondu çox mühüm töhfələr verir. İndiyədək Fond tərəfindən 35 fərdi ev inşa edilib və 12 evdə bərpa işləri aparılıb, 290 yerlik 4 körpələr evi-uşaq bağçası, 360 şagird yerlik Məlikçobanlı kənd tam orta məktəbi üçün yeni binalar tikilib və 408 şagird yerlik Carhan kənd tam orta məktəbinin tikintisi davam etdirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 25-də Şamaxıda Pir Ömər Sultan ziyarətgahında olublar.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə burada zəruri konservasiya və bərpa işləri aparılmaqla ərazinin arxeoparka çevrilməsi planlaşdırılır.

Məlumat verildi ki, Pir Ömər Sultan ziyarətgahının xəlvəti sufi məktəbinin banisi Əbu Siracəddin Ömər Avaxılıyə aid olduğunu müəyyən etmək məqsədilə tədqiqatlar aparılır. Arxeoloqlar hesab edirlər ki, bu ərazi Azərbaycanda və dünyada xəlvətiliklə bağlı ilk xanəgahdır. 133 kvadratmetr sahədə aparılan ilkin arxeoloji tədqiqatlar zamanı XIV əsrin ortalarına aid türbə qalıqları və onun məhz xəlvətilik təliminin banisi Pir Ömər Avaxılıyə aid olduğunu təsdiqləyən artefaktlar aşkar olunub. Türbə qaya və çay daşlarından istifadə olunmaqla inşa edilib. Türbənin üstü tağvarı formada olan giriş qapısı cənub tərəfdəndir. Türbənin içərisində kənarları birqat bişmiş kərpiclə əhatələnən iki qəbir kamerası, şirəli və şirəsiz keramika nümunələri, müxtəlif tarixi dövrlərə aid pullar aşkar olunub. Ziyarətgahın ətrafında çoxlu sayda insan dəfn olunub. Onlardan türbənin şərq tərəfində tədqiq olunan iki qəbir üzərindəki kitabə Pir Ömər ziyarətgahının məhz xəlvətilik sufi təliminin banisi Pir Ömər Avaxılıyə aid olduğunu təsdiqləyən çox mühüm tarixi mənbə kimi dəyərləndirilə bilər.

Tədqiqatların davamlı və səmərəli aparılması, ziyarətgahın təbii və antropogen təsirlərdən qorunması məqsədilə abidənin üstü yüngül konstruksiyalardan istifadə olunmaqla örtülüb.

### *Qaradağ rayonuna səfər*

Bakının Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış “Qobu Park-3” yaşayış kompleksinin mayın 28-də açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev və “Paşa Holding” şirkətinin nümayəndəsi, layihə rəhbəri Kamil Əliyev dövlətimizin başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təməli ötən ilin iyulunda qoyulan kompleksdə yaradılan şərait barədə məlumat verdilər.

Bildirildi ki, sifarişçisi “Paşa Holding”, podratçısı isə “Kristal Abşeron” MTK olan yeni qəsəbə Lökbatanda istifadəyə verilən “Qobu Park-1” və “Qobu Park-2” yaşayış komplekslərinin yanında inşa edilib. Bütün bu yaşayış komplekslərinin inşası Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilib.

Qeyd edildi ki, məcburi köçkünlər üçün salınan bu yaşayış komplekslərinin yeri əvvəllər baxımsız sahə olub. Burada yaşamaq üçün heç bir sosial infrastruktur mövcud olmayıb. 2018-ci ildə bu ərazidə “Qobu Park-1”, ötən il isə “Qobu Park-2” yaşayış kompleksləri istifadəyə verilib. Birinci yaşayış kompleksində 1026

ailəlik doqquzmərtəbəli 11 yaşayış binası, ikinci yaşayış kompleksində isə 1300 ailəlik onmərtəbəli 13 bina inşa olunub. Bu komplekslərin ərazisində məktəblər, uşaq bağçaları, poliklinika, tibb, poçt məntəqələri, idman zalları və digər zəruri sosial infrastruktur obyektləri yaradılıb. "Qobu Park-3" yaşayış kompleksində onmərtəbəli 13 yaşayış binası inşa olunub.

Dövlətimizin başçısına və birinci xanıma ərazidə özəl şirkətlər tərəfindən inşa olunan yaşayış kompleksi barədə də məlumat verildi. Bildirildi ki, burada 2 bina inşa olunur və bu binalarda 100-ə yaxın mənzil olacaq.

Kompleksin ərazisində 280 yerlik uşaq bağçası inşa olunub.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva uşaq bağçasında yaradılan şəraitlə tanış oldular.

Məlumat verildi ki, bağçada balacalara bilik öyrətməklə yanaşı, onların istedadlarını üzə çıxarmaq, potensiallarını aşkarlamaq üçün hərtərəfli imkan var.

Qeyd edək ki, gələcəyimiz olan körpələrin sağlam və bilikli böyüməsi üçün son illərdə dövlət səviyyəsində və Heydər Əliyev Fondu tərəfindən olduqca əhəmiyyətli layihələr icra olunur. Bütün bunlar göstərir ki, ölkədə həyata keçirilən strategiyanın əsas prioritetlərindən biri də uşaqların sağlam, firavan böyüməsi, gələcəklərinin tam təmin olunmasıdır. Həyata keçirilən bütün bu mühüm layihələr uşaqların sosial müdafiəsinin daha da möhkəmləndirilməsi istiqamətində Azərbaycanda aparılan siyasətin uğurlu və ardıcıl olduğunu nümayiş etdirir.

Dövlətimizin başçısı və birinci xanım kompleksdə inşa olunan Füzuli rayon 4 saylı tam orta məktəbində yaradılan şəraitlə də tanış oldular.

Bildirildi ki, 960 yerlik məktəb binası zəruri tədris avadanlığı ilə təchiz edilib, şagirdlərin yüksək səviyyədə təhsil alması üçün hərtərəfli imkan yaradılıb.

Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə təhsil sahəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni təhsil ocaqlarının inşası, mövcud məktəb binalarının müasir səviyyədə yenilənməsi baxımından çox mühüm layihələr icra olunub. Dövlət səviyyəsində bu istiqamətdə görülən işlərə birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da böyük töhfələr verib. Belə müasir məktəb binasının inşası bir daha göstərir ki, ölkədə təhsilin inkişafı istiqamətində atılan addımlardan doğma yurdlarından didərgin düşən soydaşlarımız da yüksək səviyyədə bəhrələnirlər.

Sonra Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin layihəsi olan "Xarı bülbül" xalçaçılıq və naxış emalatxanası haqqında məlumat verildi.

Qeyd edildi ki, ilk dəfə həyata keçirilən bu layihənin məqsədi məcburi köçkünlərin məşğulluğunun artırılması, sosial rifah halının daha da yaxşılaşdırılmasıdır. Burada həm xalça toxumağın sirləri öyrədiləcək, həm də istehsal prosesi təmin ediləcək. Layihəyə il ərzində "Qobu Park-1", "Qobu Park-2" və "Qobu Park-3" yaşayış komplekslərində, həmçinin Qaradağ rayonu ərazisində yaşayan 70 məcburi köçkün cəlb ediləcək. Toxuculuğun sirlərinə daha dərindən yiyələnənlər emalatxanalarda müəllim kimi çalışacaq, digərləri isə evlərində dəzgahlarla təmin olunacaqlar. Onlar hədiyyəlik xalçalar toxuyacaqlar. Layihə çərçivəsində xalçaların satışı da təmin ediləcək. Emalatxanada Qarabağın maddi-mədəni irsinə aid zərgərlik nümunələrinin hazırlanması da planlaşdırılır. Məhsullar yerli bazarla yanaşı, məcburi köçkünlərin əl işləri kimi xarici bazara da çıxarılacaq. Burada uşaqlar üçün ustad dərslərinin, rəsm dərnəyinin və xarici dil kurslarının təşkili də nəzərdə tutulur.

"Qobu Park-3" yaşayış kompleksində inşa olunan mənzillərlə tanışlıq zamanı dövlətimizin başçısına və birinci xanıma məlumat verildi ki, kompleksdəki mənzillərin ümumi sayı 1336-dır. Onların 156-sı bir, 580-i iki, 384-ü üç, 216-sı dördotaqlıdır. Bütün mənzillər mətbəx mebeli, soyuducu, fərdi kombi sistemi ilə təchiz edilib. Bu kompleksə, əsasən, Yasamal rayonundakı yataqxanalarda məskunlaşan məcburi köçkünlərin köçürülməsi nəzərdə tutulub.

Qeyd edək ki, "Qobu Park-3" yaşayış kompleksi qaçqın və məcburi köçkünlər üçün salınmış 111-ci qəsəbədir. Kompleksin ərazisində istehsalat sahələri, ticarət obyektləri və digər zəruri infrastruktur yaradılıb. Ərazidə sakinlərin asudə vaxtının səmərəli təşkili məqsədilə istirahət parkı salınıb, uşaq əyləncə meydançaları quraşdırılıb, geniş yaşıllıq və işıqlandırma işləri görülüb. Burada həm də 3 idman meydançası və 360 yerlik açıq avtomobil dayanacağı sakinlərin ixtiyarına veriləcək.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya kompleksdə reallaşdırılan iki biznes layihəsi barədə də məlumat verildi.

Qeyd olundu ki, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin və Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin birgə əməkdaşlığı çərçivəsində reallaşdırılan layihələr məcburi köçkünlərin məşğulluğunun biznes-layihələr vasitəsilə təmin olunması məqsədi daşıyır. İlk dəfədir ki, qaçqın və məcburi köçkünlərin məskunlaşdığı ərazidə istehsal müəssisələri qurulub. Yumşaq, plastik oyuncaqlar və tekstil məhsullarının istehsal olunacağı müəssisədə 40-dan çox iş yerinin yaradılması nəzərdə tutulur. Müəssisədə gün ərzində 1000-ə yaxın yumşaq və 500-ə yaxın plastik oyuncaq istehsal ediləcək. Yumşaq oyuncaq təxminən 15-20, plastikdə oyuncaqlar isə 10 çeşiddə olacaq.

Sterilizə olunmuş tibbi ləvazimatların istehsalı müəssisəsində isə tibbi heyət üçün üst geyimləri və kombinezonlar istehsal ediləcək. Burada 25 nəfər işlə təmin olunacaq. Müəssisələrdə çalışacaq işçi heyətin 80 faizi "Qobu Park 3"ün sakinlərindən formalaşdırılacaq. Şirkətlər icarə xərclərindən azad olunub ki, bu da müvafiq layihələrin kompleksdə reallaşdırılmasını sahib-

karlar üçün cəlbedici edir. Layihələr yalnız sosial əhəmiyyəti ilə seçilmir. Onlar, eyni zamanda, biznesyönümlüdür. Belə ki, hər iki müəssisədə istehsal olunacaq məhsullar rəqabətqabiliyyətlidir və idxalı əvəz edəcək.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva məcburi köçkünlərlə görüşdülər.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

– Bu gün biz Respublika Gününü qeyd edirik. Sizi və bütün Azərbaycan xalqını Respublika Günü münasibətilə təbrik edirəm. Bu bayram günündə məcburi köçkünlər üçün salınmış "Qobu 3" yaşayış kompleksinin açılışını qeyd edirik. Burada bütün şərait yaradılıb. İndi mən şəraitlə tanış oldum, ən yüksək səviyyədə işlər görülüb. "Qobu Park-3" bu qəsəbədə salınmış üçüncü böyük yaşayış kompleksidir. "Qobu Park-3" kompleksində 1336 məcburi köçkün ailəsi yerləşəcək. 960 şagirdlik məktəb, - özü də çox gözəl məktəbdir, - fəaliyyət göstərəcək və böyük uşaq bağçası artıq tikilib, istifadəyə hazırdır. Bütövlükdə Qobu qəsəbəsində 3 layihədə toplam 3700-ə yaxın məcburi köçkün ailəsi yerləşdiriləcəkdir.

"Qobu-1" və "Qobu-2" layihəsi artıq 2018-ci və 2019-cu illərdə istifadəyə verilib. Bildirməliyəm ki, bu şəhərciklərin tikintisinin təşəbbüskarı Mehriban xanım olub və 2017-ci ildə onun iştirakı ilə burada təməl daşı qoyulub. O vaxt bura boş ərazi idi, heç nə yox idi və demək olar ki, 3 il ərzində ardıcıllıqla burada gözəl bir şəhər yaradılıb. Çünki bu 3 şəhərcikdə toplam 20 minə yaxın insan yaşayacaq və bu, bir daha onu göstərir ki, əgər iradə varsa, əgər siyasət düzgün aparılırsa və əgər insanların ürəyində ən ülvi hisslər reallıqda öz əksini taparsa, istənilən təşəbbüs, istənilən gözəl ideya həyata keçər. Beləliklə, boş bir ərazidə böyük infrastruktur layihələri icra edildi. Çünki bütün bu binaların kommunikasiyaları, təchizatı ən yüksək səviyyədə təşkil edildi – su, qaz, elektrik enerjisi, daxili yollar, nəqliyyat məsələləri öz həllini tapdı. Burada, eyni zamanda, tibb məntəqəsi, ticarət yerləri, iş yerləri yaradılıb, – bu da nəzərə alınıb, - çünki burada yaşayacaq vətəndaşlar artıq burada işlə də təmin ediləcək. Xüsusilə qadınlar üçün burada xalçaçılıq emalatxanası fəaliyyət göstərəcək və digər istehsalyönümlü kiçik müəssisələr artıq fəaliyyətə hazırdır. Nəzərə alsaq ki, burada yaşayacaq insanlar uzun illər çox ağır vəziyyətdə yaşayıblar, – bugünkü təqdimatda onların indiki yaşayış yeri göstərilir, – əlbəttə ki, bu, ailələrə böyük sevinc bəxş edəcək.

Bu qəsəbənin xüsusiyyəti ondan ibarətdir ki, burada bütün işlər özəl sektor tərəfindən görülmüşdür. Bu da çox sevindirici haldır. Şadam ki, mənim bir neçə il bundan əvvəlki çağırışımdan sonra özəl sektor artıq bu önəmli sosial layihələrə də qoşuldu. O vaxt mən özəl sektoru bu işlərə dəvət etmişdim və şadam ki, mənim çağırışım cavabsız qalmayıb. Bütün tikinti işləri, bütün investisiyalar özəl sektor tərəfindən təmin edilibdir. Burada xüsusilə Paşa Holdinq şirkətinin fəaliyyətini qeyd etmək istəyirəm. Bu şirkət çoxşaxəli fəaliyyətlə məşğuldur. Bu şirkətin bütün dövrlərdə sosialyönümlü layihələri təqdirəlayiqdir. Onu da bildirməliyəm ki, heç bir reklam etmədən, necə deyərlər, özünü tərifləmədən bu işləri ardıcıl şəkildə görür. Bu gün koronavirus şəraitində Paşa Holdinq şirkəti və digər özəl şirkətlər ehtiyacı olan insanların yanındadırlar. Bu böyük tikinti layihəsi bir daha onu göstərir ki, biznesin sosial məsuliyyəti artır. Şadam ki, bu təşəbbüsə digər özəl şirkətlər qoşuldu və bu yaxınlıqda digər şirkətlər tərəfindən iki bina tikilir. Ümid edirəm ki, bizim başqa şirkətlərimiz də bu işə qoşulacaqlar. Çünki Azərbaycanda bir çox böyük şirkətlər, holdinqlər var. Onlar Azərbaycanda pul qazanırlar, ölkəmizdə hökm sürən sabitlikdən, biznesə göstərilən dəstəkdən faydalanırlar. Əlbəttə ki, onların sosial məsuliyyəti də lazımi səviyyədə olmalıdır. Ona görə bu yaşayış komplekslərinin tikintisi rəmzi xarakter daşıyır. Birinci növbədə dövlət öz iradəsini ortaya qoyur. Bildiyiniz kimi, məcburi köçkünlərin problemlərinin həlli Prezident kimi mənim ən başlıca vəzifələrimdən biridir. Digər tərəfdən, özəl sektor artıq sosial məsuliyyət göstərərək belə gözəl imkanlar yaradır. Nəzərə alsaq ki, ümumiyyətlə Azərbaycanda 300 mindən çox məcburi köçkün bu günə qədər mənzillərlə, fərdi evlərlə təmin olunub və onlardan təqribən 20 mini bir şirkət tərəfindən görülmüş işlər nəticəsində evlərlə təmin edilir.

Məcburi köçkünlərin problemləri ardıcıl şəkildə öz həllini tapır. Bildiyiniz kimi, hələ 2003-cü ildə prezident seçkiləri ərəfəsində mənim proqramımın tərkib hissəsi məhz bu məsələ idi. Söz vermişdim ki, beş il ərzində Azərbaycanda bir dənə də olsun çadır şəhərciyi qalmayacaq və nəinki 5 il, 4 il ərzində biz buna nail olduq. Çox böyük uğur idi. Çünki ölkəmizin demək olar ki, bütün yerlərində çadır şəhərcikləri var idi, köçkünlər çox yararsız vəziyyətdə yaşayırdılar, eyni zamanda, uzun illər vaqonlarda, vaqonların altında, çadırlarda yaşayırdılar. Çadır şəhərciklərinin ləğv olunması hesab edirəm ki, bizim çox böyük uğurumuzdur və indiyədək 100-dən çox qəsəbə-şəhərcik salınıb. Son bir neçə il ərzində dünyada iqtisadi və maliyyə böhranı hökm sürür. Son 4-5 il ərzində neftin qiymətinin bir neçə dəfə kəskin düşməsinin şahidi olmuşuq. Buna baxmayaraq, məcburi köçkünlərlə bağlı olan heç bir layihədə heç bir yubanma yoxdur, heç bir proqramın ixtisarı nəzərdə tutulmur. Keçən il məcburi köçkünlər üçün rekord sayda evlər-mənzillər tikildi – 5 minə yaxın. Bu il qarşıya hədəf qoyulub ki, 7 min, bəlkə də 8 min məcburi köçkün ailəsi evlərlə, mənzillərlə təmin edilsin. Əgər biz buna nail olsaq, bir il ərzində həm Bakı şəhərində, Sumqayıt şəhərində və digər şəhərlərdə təqribən 40 minə yaxın insan yeni evlərə köçürüləcək. Bu işlər ardıcıllıqla aparılır. Biz gələn ilin İnvestisiya Proqramında da bu məqsədlər üçün vəsait ayıracağıq.

Eyni zamanda, məcburi köçkünlərin sosial təminatı yaxşılaşır. Keçən il köçkünlərə verilən müavinətin həcmi 50 faiz artmışdır. Hər bir məcburi köçkün uzun illər ərzində dövlət tərəfindən aylıq müavinətlə təmin edilir. Əlbəttə, indi dünyada bir neçə ölkədə məcburi köçkünlər vardır və bu ölkələrin sayı artır. Çünki müharibələr, toqquşmalar geniş vüsət alır, yeni köçkün şəhərcikləri salınır. Ancaq hesab edirəm ki, Azərbaycanda bu sahəyə göstərilən diqqət nümunəvi xarakter daşıyır, beynəlxalq təşkilatlar da bunu dəfələrlə təsdiqləyiblər. Çünki biz köçkünləri belə gözəl evlərlə təmin edirik. Evlərin həm quruluşu, həm daxili dizaynı, təchizatı göz oxşayır. Azərbaycan bu sahədə də qabaqcıl yerlərdədir və hesab edirəm ki, bu, bizim borcumuzdur, bunu biz edirik və edəcəyik.

Ancaq onu da bilməliyik və bütün Azərbaycan xalqı bilməlidir ki, bu, sizin üçün müvəqqəti yaşayış yeridir. Torpaqlarımız işğaldan azad ediləndən sonra biz bu gün hələ də işğal altında olan torpaqlarda buna oxşar gözəl binalar, şəhərciklər tikəcəyik, ermənilər tərəfindən dağılmış şəhərlərimizi yenidən quracağıq. Ermənilər tərəfindən dağıdılmış və məhv edilmiş milli irsimiz sənədləşdirilib. Biz öz tarixi keçmişimizi yaxşı bilirik və yaxşı bilirik ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. İşğal olunmuş torpaqlar azad ediləndən sonra bütün binalar yenidən qurulacaq, o cümlədən dağılmış tarixi abidələrin mövcudluğunu əks etdirən əməli memarlıq tədbirlərinin görülməsi də nəzərdə tutulur.

Mən tam əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, bunu deməyə əsas verən bir çox amillər var – bizim hərbi gücümüz və biz bunu göstərmişik. 2016-cı və 2018-ci illərdə uğurlu hərbi əməliyyatlar nəticəsində minlərlə hektar torpaq işğalçılardan azad edildi. Cocuq Mərcanlı kəndinin timsalında biz görürük ki, işğaldan azad olunacaq digər torpaqlarda hansı işlər görüləcək və hansı sürətlə görüləcəkdir. Biz Cocuq Mərcanlını uğurlu hərbi qələbədən sonra cəmi bir il ərzində yenidən qurduq və indi orada həyat qaynayır, köçkünlər öz doğma torpağına qayıdıblar. Bəzən belə fikirlər səsləndirilir ki, bəzi köçkünlər torpaqlar işğaldan azad olunandan sonra qayıtmaya bilərlər. Amma mən tam əminəm ki, bütün köçkünlər öz doğma torpaqlarına qayıdacaqlar, necə ki, Cəbrayıl köçkünləri. Onlar uzun illər başqa yerlərdə yaşayıblar, o cümlədən Bakı şəhərində. Ancaq imkan olan kimi onlar hətta növbəyə durmuşdular ki, tezliklə öz doğma torpağına qayıtsınlar. Eyni zamanda, işğaldan azad olunan Şıxarx qəsəbəsi. İndi orada da böyük şəhərcik salınıb. O, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində yerləşən Azərbaycanın tarixi məkanıdır, işğaldan azad olunan ərazidə böyük şəhərcik salınıb. Biz bu gün işğal altında olan bütün digər torpaqlarda da bərpa işləri görəcəyik. Azərbaycan öz suverenliyini təmin edəcəkdir.

Yenə də deyirəm, hərbi güc, bizim beynəlxalq mövqelərimiz, beynəlxalq təşkilatların münaqişə ilə bağlı sərgilədiyi mövqe. Xüsusilə son illər ərzində demək olar ki, bütün beynəlxalq təşkilatlar ölkəmizin ərazi bütövlüyünü qətiyyətlə dəstəkləyir, dünyanın bütün aparıcı ölkələri, həmçinin. Bu yaxınlarda Dağlıq Qarabağda keçirilmiş qondarma "prezident seçkiləri" bunu bir daha göstərdi. O saxta prezidenti, dırnaqarası prezidenti heç kim tanımadı. Dünyanın aparıcı ölkələri açıq formada bəyanat verdilər. ATƏT-in Minsk qrupunun həmsədrləri - Amerika, Fransa, Rusiya, ondan sonra Avropa İttifaqı, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti və digər təşkilatlar bəyanat verdilər ki, bu seçkilər tanınmır, Dağlıq Qarabağ Azərbaycan torpağıdır. Ona görə beynəlxalq hüquq, hərbi qüdrətimiz, eyni zamanda, iqtisadi üstünlüyümüz, əlbəttə ki, torpaqlarımızın azad olunmasında əsas rol oynayacaqdır. Danışıqlar öz yerində, ancaq indi dünyada siz də yaxşı görürsünüz ki, güc amili ön plana çıxır, bəzi ölkələr, hətta böyük demokratik ənənələri olan ölkələr də bəzi hallarda beynəlxalq hüquqa məhəl qoymadan öz maraqlarını təmin edirlər. Nəyin hesabına? Gücün hesabına. Ona görə ordu quruculuğu mənim Prezident kimi fəaliyyətimdə həmişə ön plandadır. Bu gün biz elə bir qüdrətli ordu yaratmışıq ki, istənilən vəzifəni icra edə bilərik. Əlbəttə ki, sadaladığım bütün bu müsbət amillər, eyni zamanda, demoqrafik vəziyyət bizim üstünlüyümüzü bundan sonra da təmin edəcək. Dağlıq Qarabağ probleminin həlli tarixi məsələdir və biz bu məsələni birdəfəlik və tam həll etməliyik. Azərbaycanın ərazi bütövlüyü tam bərpa olunmalıdır. Bu gün müzakirə edilən və danışıqlar masasında olan məhz mərhələli həldir. Baxmayaraq ki, Ermənistanın rəhbərliyi öz rəsmi populist çıxışlarında bunu inkar etməyə çalışır, ancaq mahiyyət etibarilə danışıqlar çərçivəsində həmin bu mərhələli həll məsələsi müzakirə edilir. Burada da riyakarlıq edir, öz xalqını aldadır, vasitəçiləri aldatmaq istəyir. Mərhələli həldən başqa heç bir həll mümkün deyil, o da nə deməkdir? Birinci mərhələdə torpaqların bir hissəsi işğaldan azad olunur. Bundan başqa variant ola bilməz. Amma mənim dediyim söz odur ki, bu, ancaq mərhələli yanaşma ola bilər. Bizim məqsədimiz, əsas amalımız suverenliyimizi tam və birdəfəlik təmin etməkdir və biz bunu edəcəyik. Heç kimdə şübhə olmasın. Sadəcə, daha güclü olmalıyıq, məsələnin həlli üçün vaxtı və geosiyasi vəziyyəti düzgün qiymətləndirməliyik. Mənim fikrim budur və bilirəm ki, Azərbaycan xalqı mənim mövqeyimi dəstəkləyir. Mən bunu dəfələrlə bildirmişəm və bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ məsələsi ancaq ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi.

Ancaq yenə də bu məsələ ilə məşğul olanda hər zaman mən keçmişə qayıdıram, tarixə qayıdıram və sual verirəm. Nə üçün torpaqlarımız işğal altına düşdü? Necə

oldu ki, biz bu torpaqları qoruya bilmədik? Necə oldu ki, ermənilər xarici dəstəyin hesabına torpaqları işğal etdilər, insanları öz doğma torpaqlarından didərgin saldılar? Mən bu suallara cavabı bilirəm və Azərbaycan xalqı da bilir. Amma yenə də həmişə fikirləşirəm ki, əgər o vaxt Azərbaycanın başında Heydər Əliyev olsaydı, heç vaxt bir qarış torpaq da düşmən tərəfindən işğal edilə bilməzdi. Çünki onun dövründə Azərbaycan hakimiyyəti Dağlıq Qarabağda elə bir möhkəm iradəyə sahib idi ki, bir nəfər erməni də səsini çıxara bilmirdi. Düzdür, Moskvaya, Siyasi Büroya donoslar yazırdılar ki, guya onları orada incidirlər və yaxud da onlar diskriminasiyaya uğrayırlar. Hamısı yalan idi. Çünki iqtisadi göstəricilər var, onlar göstərir ki, Dağlıq Qarabağda yaşayan insanlar heç də Azərbaycanın o biri torpaqlarında, rayonlarda yaşayan insanlardan pis yaşamayıblar. Ancaq Heydər Əliyevin qətiyyəti, iradəsi, cəsarəti imkan vermirdi ki, orada bir dənə də olsun hadisə baş versin. Ondan əvvəl – 1960-cı illərdə hadisələr baş verib. Ancaq Heydər Əliyev Azərbaycana rəhbərlik etməyə başlayandan sonra və Bakıdan Moskvaya gedənə qədər orada heç bir hadisə olmayıb. Mən şəxsən atamla birlikdə Dağlıq Qarabağda olmuşam, Xankəndidə, Şuşada. Mən o ab-havanı görmüşəm, 1980-ci illərin əvvəllərində həm qış aylarında, – o məşhur fotolar, videolar var, – həm də yaz aylarında. Orada – həm Xankəndidə, həm də başqa yerlərdə heç bir problem yox idi.

Mənim gözümün qabağında ermənilər Heydər Əliyevin qarşısında fərəqət durmuşdular, onu salamlayırdılar. Orada Azərbaycan dilində poeziya günü keçirilmişdir. Erməni, Azərbaycan şairləri Azərbaycan dilində şeirlər deyirdilər. Heydər Əliyevin qətiyyəti, iradəsi, cəsarəti, müdrikliyi imkan vermirdi ki, bir dənə də erməni baş qaldırsın. Şuşada olan zaman o qədim Azərbaycan şəhərinin tarixini görərkən biz bir daha görürdük ki, bizim nə qədər böyük tarixi irsimiz var. Yadımdadır, Ulu Öndər ev-muzeyləri, Üzeyir Hacıbəylinin ev-muzeyi haqqında və digər göstərişlər vermişdi ki, Azərbaycan mədəniyyəti orada daim yaşasın. Ermənilər və burada yerli satqınlar Heydər Əliyev Moskvada işləyəndə donoslar, anonim məktublar yazırdılar. Aydın məsələdir ki, Heydər Əliyev amili qoymurdu ki, ermənilər baş qaldırsınlar. Buradakı satqınlar, xainlər, Azərbaycan millətinin düşmənləri donos yazırdılar. İndikilər də yazırlar. O vaxt Siyasi Büroya yazırdılar. Bunlar isə bizdən Qərb ölkələrinə donos yazırlar. İndiki milli satqınlar dediyim o cinayətkar ünsür dəstəsi o vaxtın donos yazanlarından fərqlənmirlər. Onlar da özlərinə başqa ölkədə himayədar axtarırdılar, bunlar da. Onların da, bunların da əsas məqsədi hakimiyyətdir, nəyin bahasına olursa-olsun. Bax, buna görə torpaqlar işğal altına düşüb. Baxın, Heydər Əliyev Siyasi Bürodan, Sovet İttifaqının Nazirlər Sovetindən yüksək vəzifələrdən gedəndən sonra iki həftə keçməmiş nə baş verdi? Bir erməni millətçisi məqalə ilə çıxış etdi ki, Dağlıq Qarabağ Ermənistana verilməlidir. Özü də harada? Fransa qəzetində. Artıq erməni diasporu bu işlərə qoşulmuşdu. Sovet İttifaqının başında dayanan adamlar da öz ermənipərəst mövqeyi ilə fərqlənmişlər. Biz bunu yaxşı bilirik və artıq hərəkət başladı. O vaxt Azərbaycan hakimiyyəti nə etdi? 1987–ci ilin noyabrı idi. Heydər Əliyev vəzifədən gedəndə sonra cəmi iki həftə keçmişdi. Buradakılar neylədilər? Heç nə. Veclərinə də almadılar. Onlar elə bil ki, bu torpağın övladları deyildilər. Biganə qaldılar, reaksiya vermədilər. Vəziyyəti nəzarət altında saxlaya bilmədilər və nəticə etibarilə, çox da keçmədi, təxribat törədildi. Bu tarixə bu nöqteyi-nəzərdən baxın. Cəmi 3-4 ay keçdi, 1988-ci ilin fevral ayında Sumqayıt təxribatı törədildi. Nə idi o təxribat. Erməni quldurları orada dəstə yaradıb bir neçə ermənini öldürüb bunu Azərbaycan xalqının ayağına yazdılar. Bu da tarixi faktlardır.

İstintaqı biz aparmamışıq. İstintaqı Moskvadan gələn istintaq qrupu aparırdı. Orada bilindi ki, bu dəstənin başında dayanan ermənidir. Onun təcavüz etdiyi şahidlər üzünə demişdilər, o kadrlar var. Onun qətlə yetirdiyi insanların qohumları, yaxınları demişdilər ki, bizi öldürən budur. Baxın, sonra nə olur? Bu adam həbs olunur, ona hökm verilir. Bir ildən sonra o cəza çəkmək üçün Ermənistana göndərilir. Ermənistanda nə edirlər? Onu buraxırlar. Yaxşı, bu adam erməniləri öldürüb, bu da təsdiq olunub, istintaq materialları var. Nə üçün siz onu buraxırsınız? Deməli, bu, bəri başdan qurulmuş təxribat idi. Bu təxribatı ermənilər törədiblər, sonra yıxıblar Azərbaycan xalqının üstünə. Bu da onlara fürsət verib ki, Dağlıq Qarabağ məsələsini qaldırsınlar. Bax, budur tarix. Azərbaycan hakimiyyəti nə edib? Heç nə. O vaxt Azərbaycanın başında duran adam bilmirdi ki, Moskvanın o çinovniklərinin dabanını necə yalasın. Budur milli rəzalət. Sovet İttifaqı dağılandan sonra bir neçə ay keçmədi, dərhal Xocalı soyqırımı törədildi. Azərbaycan hakimiyyəti öz vətəndaşlarını qoruya bilmədi. Xalqımıza qarşı qanlı cinayət, soyqırımı törədildi. Ondan bir neçə ay sonra – 1992-ci ilin may ayında Şuşa və Laçın işğal olundu. Kimdir günahkar? Azərbaycan Xalq Cəbhəsi. Bir nömrəli günahkar odur. Əlbəttə, o vaxtkı hakimiyyətin də günahı var. Çünki öz şəhərlərimizi qoruya bilmədi. Ancaq Azərbaycan Xalq Cəbhəsi hakimiyyətə gəlmək üçün xəyanət etmişdi. Şuşanın guya müdafiəsini təşkil edən adamlar satqınlıq edib, xəyanət edib, qaçıb gizlənmişdilər. Şuşa alınmaz qaladır. Onu almaq mümkün deyil. Az kontingentlə oranı illərlə müdafiə etmək olar, satdılar ki, hakimiyyəti yıxsınlar, hakimiyyətə gəlsinlər. Belə də oldu. Sonra Laçını da satdılar. Hakimiyyətə gəldilər. Onların əsas məqsədi hakimiyyətə gəlmək və olan-qalan sərvətləri talamaq idi.

Azərbaycan Xalq Cəbhəsinin cinayətkar əməlləri bununla bitmir. Ondan sonra onların yarıtmaz fəaliyyəti nəticəsində Kəlbəcər işğal olundu. Müdafiəni düzgün

qura bilməmişdilər. Kim quracaqdı müdafiəni? Kim məşğul idi müdafiə ilə? Hərbi işdən heç bir xəbəri olmayan savadsız və xəyanətkar adamlar. Kim idi dövlətin başında? Xalq arasında heç bir hörməti olmayan boşboğaz. Kim gətirdi saldı bizim xalqımızı bu bəlaya? Onlar. O vaxt Heydər Əliyev olsaydı, qoyardımı ki, belə vəziyyət yaransın? Ona görə biz bunu bilməliyik. Kəlbəcər əldən gedəndən sonra neylədilər? Vəziyyəti bərpa etmək əvəzinə başladılar öz ordumuza qarşı mübarizəyə. Burada torpaqlar əldən gedir, onlar isə Gəncəni bombalayırdılar. Kəlbəcər, Laçın, Şuşa rayonları işğal olunandan sonra Dağlıq Qarabağla Ermənistan arasında bağlantı yarandı. Onlar isə Gəncəni bombalayırlar. Kim edib onu? Azərbaycan Xalq Cəbhəsi. Bu gün elə orada-burada fırlananlar da bu işdə əli olan cinayətkarlardır. Xalq da buna dözmədi, bunları süpürdü birdəfəlik atdı. Məhz ondan sonra Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəldi və vəziyyət sabitləşdi.

Budur səbəbkarlar, budur tarixi həqiqətlər. Bu gün vəziyyəti düzəltmək, torpaqları işğaldan azad etmək üçün nə qədər böyük səylər göstərilir. Ancaq Aprel döyüşləri və uğurlu Naxçıvan əməliyyatı göstərdi ki, Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər.

Bu gün Respublika Günüdür. Əlbəttə ki, Azərbaycan Xalq Cümhuriyyəti qürur mənbəyimizdir. Hər bir Azərbaycan vətəndaşı haqlı olaraq fəxr edir ki, müsəlman aləmində ilk respublika məhz Azərbaycanda yarandı, Azərbaycan xalqı bunun təşəbbüskarı olub. Eyni zamanda, biz bu gün də tarixdən ibrət götürməliyik. Nə üçün Respublika iki ildən də az yaşadı? Nə üçün süqut etdi? Nə üçün müstəqilliyi qoruya bilmədi? Bu suallardır. Biz düzgün nəticə çıxarmaq üçün tarixi bilməliyik. Burada heç bir mifologiyadan söhbət gedə bilməz. Hansısa hadisələri şişirtməklə biz özümüzü aldatmamalıyıq. Nə üçün? Çünki o hadisələr təkrarlanmasın. Nə üçün? Çünki müstəqilliyimiz əbədi olsun. Azərbaycan Xalq Cümhuriyyəti rus imperiyasının dağılması nəticəsində yaranmışdır. Ancaq cəmi iki ilə yaxın yaşadı. Çox önəmli addımlar atılmışdır. Müstəqillik elan olundu, dövlət atributları təsis edildi. Milli Ordu, Bakı Dövlət Universiteti yaradıldı, mütərəqqi qanunlar qəbul edildi. Amma, eyni zamanda, biz bilməliyik ki, o müstəqillik şərti xarakter daşıyırdı. Bakıda söz sahibi xarici generallar idi və Azərbaycan Xalq Cümhuriyyəti öz addımlarını, hətta dövlət atributları ilə bağlı planlarını gərək onlarla razılaşdıraydı. Respublika Azərbaycan ərazisinə tam nəzarət etmirdi. Əlbəttə ki, biz heç vaxt unutmamalıyıq ki, Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri İrəvanı, bizim qədim şəhərimizi Ermənistana vermək idi. Bunu heç cür əsaslandırmaq və heç vaxt bağışlamaq olmaz. Ona görə biz bu həqiqətləri bilməliyik və gənc nəsil də bilməlidir. Biz tarixi olduğu kimi yazmalıyıq və bilməliyik. Həqiqəti bilməliyik ki, bu, təkrarlanmasın. Xalq Cümhuriyyəti cəmi iki ilə yaxın yaşadı, müstəqilliyi qoruya bilmədilər. Azərbaycanın başında duranların bir çoxu ölkəni tərk etdi, müstəqillik əldən getdi. Bilirsiniz, gözəl şüarlar demək olar. Amma bu şüarların arxasında gərək iradə, güc və əməl olsun.

Bizim 1920-ci ildə endirilən üçrəngli bayrağımızı 70 il sonra Heydər Əliyev Naxçıvanda yenidən qaldırdı. Gücün varsa, bayraq həmişə yüksəklərdə olacaq. O vaxt Naxçıvan Ali Sovetinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağı rəsmi bayraq kimi qəbul edildi. Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırıldı ki, onlar da eyni addımı atsınlar. Etmədilər. Çünki qorxurdular. O vaxt hələ Sovet İttifaqı dağılmamışdı. Qorxurdular ki, Moskvadan bunları tənbeh edəcəklər. Ona görə bu tarixi gün həmişə həm qürur mənbəyimiz olmalıdır, həm də daim yadda saxlamalıyıq ki, biz müstəqilliyi əbədi, dönməz etməliyik. Bunu kim etməlidir? Biz – Azərbaycan xalqı, Azərbaycan hakimiyyəti. Ona görə ölkəmizin gücləndirilməsi, mövqelərimizin möhkəmləndirilməsi, ölkəmizdə aparılan islahatlar iqtisadi, sosial sahədə, milli dəyərlərlə bağlı olan tədbirlərimiz, gənclərin milli ruhda tərbiyə olunması bu məqsədi güdür ki, bundan sonra Azərbaycan heç vaxt müstəmləkə olmasın, həmişə qürurlu, həmişə möhkəm ayaqda dayanan, müstəqil dövlət olsun və xalqımız həmişə azad olsun.

Bir daha sizi və bütün Azərbaycan xalqını təbrik edirəm. Bu gözəl bayram münasibətilə bütün Azərbaycan xalqına yeni uğurlar, xoşbəxtlik arzulayıram. Sağ olun.

Zəngilan rayonundan məcburi köçkün İbrahim Teymurov dedi:

– Hörmətli cənab Prezident.

Hörmətli Birinci vitse-prezident Mehriban xanım.

İcazə verin, bu əziz gündə Sizi 28 May - Respublika Günü münasibətilə səmimi-qəlbdən təbrik edim. Bəli, biz o vaxtlar yiyəsizlik ucbatından didərgin düşdük. Gəlib respublikamızın müxtəlif bölgələrində məskunlaşdıq. Allah rəhmət eləsin, o vaxt Ulu Öndər bizə kim harada məskunlaşmışdısa yaxşı şərait yaratdı və biz mümkün qədər respublikanın o vaxtkı gücü səviyyəsində lazımi şəraitdə məskunlaşdıq. Düzdür, çətin zamanlar idi, yataqxanalar idi, çadırlar yaradılmışdı. O vaxtdan bəri mərhələ-mərhələ, davamlı olaraq bu çadır şəhərcikləri yeni-yeni şəhərlərin tikilməsi ilə ləğv olundu. Üzü bəri davamlı olaraq yenə də, möhtərəm Prezident, Sizin sayənizdə, Sizin quruculuğunuz nəticəsində davamlı surətdə neçə-neçə şəhərcik salındı. Bu, heç də sadə iş deyil. Bu gün biz buraya gələndə girib evlərə baxdıq. Müasir məktəb, hər bir şərait, infrastruktur çox gözəldir. Biz hamımız Sizə çox böyük alqış edirik, minnətdarlığımızı bildiririk. Çox sağ olun ki, Siz məcburi köçkünləri həmişə yadda saxlayırsınız, həmişə qayğımıza qalırsınız. Minnətdarıq Sizə. Möhtərəm Prezident, bayaq qeyd etdiniz, Allahın köməyi, Sizin iradəniz və başçılığınız ilə biz o bayrağı aparıb Şuşada və

işğal olunmuş digər torpaqlarda Sizinlə birgə sancacağıq. Allah o günü bizə göstərsin. Sağ olun.

Prezident İlham Əliyev: Sağ olun.

* * *

Şuşa rayonundan məcburi köçkün Könül İsmayılova dedi:

– Möhtərəm cənab Prezident.

Hörmətli Mehriban xanım.

Mən də bu gözəl gündə çıxış etmək istəyirəm. Biz elə bir gündə qarşılaşmışıq ki, bu gün həm bu gözəl "Qobu Park" açılır, həm də Respublika Günü qeyd edilir. Hamımızı təbrik edirəm. Bu gözəl gündə demək istəyirəm ki, məcburi köçkünlərin üzərində Sizin daim qayğınız və diqqətiniz olubdur. Bu, bizim nəzərimizdən heç vaxt yayınmayıb. Biz həmişə Sizdən bu qayğını və diqqəti görmüşük. Mehriban xanım, Siz məcburi köçkünlərlə, xalqla tez-tez ünsiyyətdə olursunuz, onlarla söhbət edirsiniz. Səmimi söhbətlərinizə həmişə qulaq asmışam, diqqətlə izləmişəm. Siz onların dərdlərini həmişə dinləmisiniz və köməyinizin də bəhrəsini biz həmişə görmüşük. Ona görə biz Sizə xalqın Prezidenti, xalqın Mehriban xanımı deyirik. Biz Sizi bu gözəl gün münasibətilə ürəkdən alqışlayırıq. Bu gözəl həyat, övladlarımızın oxuyacağı bu gözəl məktəb, uşaq bağçası, poliklinika üçün Sizə təşəkkür edirik. Mən bir şuşalı məcburi köçkün kimi arzu edirəm və inanıram ki, – Sizin gördüyünüz işlərin, həyata keçirdiyiniz layihələrin şahidiyəm, – Şuşada da mənzillərimizin açarlarını Sizin əlinizdən alacağıq. Biz buna inanırıq və Sizə çox minnətdarıq. Bu gözəl gün münasibətilə Sizi ürəkdən təbrik edirik. Sizin yaxşılıqlarınız heç vaxt yadımızdan çıxmayacaq, heç vaxt unudulmayacaq. Gördüyünüz işlər davamlıdır, olub və həmişə də olacaq. Sağ olun.

Prezident İlham Əliyev: Çox sağ olun, təşəkkür edirəm. Bir daha bayramınız mübarək olsun!

* * *

Qeyd edək ki, dünya bazarında neftin qiymətinin kəskin aşağı düşməsi, pandemiyanın qlobal iqtisadiyyatın müxtəlif sahələrinə vurduğu ciddi zərbələrə baxmayaraq, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda sosial-iqtisadi inkişafa hesablanan layihələrin uğurlu icrası ardıcıllıqla davam etdirilir. Bunun nəticəsini hər bir vətəndaş, o cümlədən qaçqın və məcburi köçkünlər öz həyatlarında hiss edirlər. Ölkədə həyata keçirilən dövlət siyasətinin əsas istiqamətlərindən biri də bu qəbildən olan soydaşlarımızın sosial problemlərinin həllidir. Bununla bağlı dövlətimizin başçısı tərəfindən ümumilikdə 2004-2019-cu illər ərzində 75 fərman və sərəncam imzalanıb, Dövlət Proqramı təsdiqlənib.

Həyata keçirilən tədbirlər nəticəsində bu günədək 315 min məcburi köçkünün, yəni, 62 min 494 ailənin mənzil-məişət şəraiti yaxşılaşdırılıb. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva da qaçqın və məcburi köçkünlərin sosial məsələlərinin həllinə olduqca həssaslıqla yanaşır, bu qəbildən olan soydaşlarımızın həyat şəraitinin yaxşılaşdırılması, məşğulluğunun artırılması, sosial rifahının daha da yüksəldilməsi məsələsinə xüsusi qayğı göstərir. Bu qayğı özünü yeni inşa olunan "Qobu Park-3" yaşayış kompleksində də aydın nümayiş etdirir.

## *Tərtər rayonuna səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Tərtər rayonunda səfərdə olub.

Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin Tərtər şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Tərtərdə Dövlət Rəmzləri Muzeyinin açılışında iştirak edib.

Rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov dövlətimizin başçısına muzeydə nümayiş etdirilən eksponatlar barədə məlumat verdi.

Bildirildi ki, inşasına 2019-cu ilin aprel ayında başlanmış və noyabr ayında başa çatdırılmış muzey binasının ümumi sahəsi 720 kvadratmetrdir. Muzeyin sərgi zalında ümumilikdə 8 bölmə yaradılıb. Burada Azərbaycanın müxtəlif dövrlərə aid xəritələri sərgilənir.

Prezident İlham Əliyev: Bizim tarixi adlarımız burada gərək öz tarixi adları ilə əks olunsun. Sisyanın əsl adı Qarakilsədir. Sonradan ermənilər buna Sisyan adı veriblər. Ona görə bunu pozun və Qarakilsə yazın.

Müstəqim Məmmədov: Baş üstə.

Prezident İlham Əliyev: İndiki Ermənistan Respublikasının toponimlərinin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Onlar müxtəlif vaxtlarda bu toponimləri dəyişdiriblər.

Muzeydə xanlıqlar dövrünün xəritəsi, orta əsrlərə aid döyüşçüləri əks etdirən manekenlər, orta əsrlərdə xanlıqların istifadə etdiyi bayraqlar, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar, Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan SSR və müstəqillik dövrlərində qəbul edilmiş konstitusiyalar, gerblər, bayraqlar, Silahlı Qüvvələrin geyim formaları, ümummilli lider Heydər Əliyevin andiçmə mərasiminə dair fotoşəkillər, dövlət rəmzləri haqqında kəlamları nümayiş etdirilir. Burada, həmçinin tarixi fotoşəkillər, poçt markaları, orden və medallar sərgilənir. Dövlət Rəmzləri Muzeyinin yerləşdiyi ərazidə hündürlüyü 72 metr olan dövlət bayrağı ucaldılıb, ətrafındakı fəvvarə kompleksi yenidən qurulub.

Xatırladaq ki, xalqımızın qədim tarixinin öyrənilməsində, gənclərdə vətənpərvərlik ruhunun formalaşmasında və inkişafında muzeylərin mühüm əhəmiyyəti

var. Onların sırasında mədəni dəyərləri və milli rəmzləri əks etdirən dövlət atributlarının bir arada ictimaiyyətə təqdim olunmasında son vaxtlar bölgələrdə rəmzlər muzeylərinin yaradılması ölkəmizin mədəni həyatı üçün çox mühüm yenilikdir. Belə muzeylərin yaradılması ideyası Prezident İlham Əliyevə məxsusdur. Çünki dövlətimizin başçısı bu ideyanı reallaşdırmaqla dövlət atributlarının tariximizdəki əhəmiyyətinə diqqət çəkib. Dövlət Rəmzləri Muzeylərinin əhəmiyyətini artıran və onları dünyada mövcud olan muzeylərdən fərqləndirən əsas cəhət də buradakı eksponatların Azərbaycanın dövlətçilik tarixini tam əhatə etməsidir. Müxtəlif dövrlərə aid dövlətlərin bayraqları, sikkələr, tarixi keçmişə dair bir çox materiallar bu muzeylərin qiymətli eksponatları sırasına daxildir. Bu baxımdan Tərtər rayonunda yaradılan Dövlət Rəmzləri Muzeyi də eksponatlarla zəngindir.

İyunun 3-də Tərtər rayonunda Buruc-Gülabatlı-Xoruzlu-Kəbirli-Bayandurlu-Qaradağlı avtomobil yolu yenidənqurmadan sonra istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yolun açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına yolun texniki göstəriciləri barədə məlumat verdi.

Bildirildi ki, 6 min 800 nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən yolun uzunluğu 21,5 kilometrdir. Dördüncü texniki dərəcəli yolun hərəkət hissəsinin eni 6 metr, hərəkət zolaqlarının sayı 2-dir. Yolboyu avtobus dayanacaqları, suötürücü borular, yol nişanları və göstərici lövhələr quraşdırılıb, cizgi xətləri çəkilib.

Prezident İlham Əliyevə Tərtərdə icra olunan digər yol layihələri barədə məlumat verildi. Qeyd edildi ki, dövlətimizin başçısının müvafiq tapşırıqlarına və sərəncamlarına uyğun olaraq bu gün Tərtər rayonunda avtomobil yollarının 81 faizi tam asfalt-betonla örtülüb. Qalan 17 kilometr kənd yollarının yenidən qurulması yaxın zamanlarda başa çatdırılacaq.

Qeyd edək ki, ölkəmizdə yol-nəqliyyat kompleksinin yenidən qurulması işi uğurla davam etdirilir. Əgər, əvvəllər ən müasir standartlara uyğun beynəlxalq və respublika əhəmiyyətli magistral yolların salınması diqqət mərkəzində idisə, indi yerli əhəmiyyətli yolların inşasına xüsusi diqqət yetirilir. Dövlətimizin başçısının tapşırıqlarına müvafiq olaraq ölkəmizin demək olar ki, bütün yaşayış məntəqələrində mövcud avtomobil yolları əsaslı təmir edilir və ya yenidən qurulur. Şəhər və rayon mərkəzlərini qəsəbə və kəndlərlə birləşdirən yollar, eləcə də qəsəbə və kəndlərin daxili yolları yenilənir. Cəbhəyanı yaşayış məntəqələrinin sosial problemlərinin həlli istiqamətində dövlətimizin başçısının tapşırıq və sərəncamları ilə həyata keçirilən müxtəlif infrastruktur layihələri içərisində yolların tikintisi və təmirinə xüsusi diqqət yetirilir. Məhz bunun nəticəsidir ki, təmas xəttində yerləşən yaşayış məntəqələrinə gedən yolların əsaslı şəkildə yenidən qurulması davam etdirilir. Tərtər rayonunda da bu istiqamətdə genişmiqyaslı işlər görülür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Tərtər Olimpiya İdman Kompleksinin açılışında iştirak edib.

Dövlətimizin başçısı kompleksdə yaradılan şəraitlə tanış olub.

Prezident İlham Əliyevə məlumat verildi ki, dörd hektar ərazidə inşa edilən Olimpiya İdman Kompleksinin ümumi sahəsi 10 min 773 kvadratmetr, açıq idman meydançalarının sahəsi isə 8558 kvadratmetrdir. Qurğuda müxtəlif idman növləri üzrə məşqlərin və yarışların keçirilməsi üçün nəzərdə tutulan universal zal, üzgüçülük hovuzu, sauna, güləş, boks, basketbol və trenajor zalları, tennis kortu inşa edilib. Burada, həmçinin mehmanxana, konfrans zalı, restoran, qış və yay kafeləri, mətbəx, həkim otaqları, inzibati kabinetlər, digər texniki və köməkçi otaqlar da yaradılıb. Fiziki imkanları məhdud olan tamaşaçıların və idmançıların kompleksdən tam və təhlükəsiz istifadə etmələri üçün zəruri şərait yaradılıb. Kompleksin ərazisində 1043 tamaşaçı yerlik tribunası olan stadion, mini futbol, voleybol və basketbol meydançaları, transformator, qazanxana, nasosxana, hər biri 400 kubmetrlik içməli və yanğın su anbarları, avtodayanacaq, nəzarət buraxılış məntəqəsi də inşa edilib.

Qeyd edək ki, bu kompleksin tikintisi Prezident İlham Əliyevin Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na əsasən aparılıb.

Tərtər şəhərində Olimpiya İdman Kompleksinin inşa edilməsi cəbhə bölgəsində yaşayan gənclərin sağlam həyat tərzi sürmələrində, onların idmanla sərbəst məşğul olmalarında mühüm rol oynayacaq. Komplekslə tanışlıqdan sonra Prezident İlham Əliyev rayonun bir qrup idmançısı ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

– Bu gün Tərtər rayonunda müasir Olimpiya İdman Kompleksi açılır. Bu münasibətlə sizi təbrik edirəm. Komplekslə tanış olarkən görürəm ki, bütün işlər çox yüksək səviyyədə görülüb. İndi Tərtərdə də idmanla məşğul olmaq üçün çox gözəl imkanlar olacaq.

Bildiyiniz kimi, Azərbaycanın bölgələrində idman qurğularının tikintisi geniş vüsət alıb. Hesab edirəm ki, Azərbaycan bu parametr üzrə dünya miqyasında qabaqcıl yerlərdədir. Bölgələrdə tikilmiş Olimpiya komplekslərinin sayı artıq 46-ya çatıbdır. Onu da bildirməliyəm ki, 5 rayonda Olimpiya İdman komplekslərinin tikintisi davam edir. O layihələr də başa çatandan sonra, ümumiyyətlə, rayonlarda 51 idman kompleksimiz olacaqdır.

Əlbəttə, bu, imkan verəcək ki, rayon idmançıları öz peşəkarlığını artırsınlar. Burada bütün şərait yaradılıb –

böyük oyun zalı, güləş, boks, trenajor zalları, üzgüçülük hovuzu. Hətta mehmanxana da var. Tərtərdə heç vaxt üzgüçülük hovuzu olmayıb. Böyük stadion inşa edilib. Stadion da heç vaxt olmayıb. Mini futbol, voleybol, yəni, idmanın əksər növləri ilə burada məşğul olmaq olar. Əminəm ki, Tərtər idmançıları bu imkanlardan istifadə edərək həm ölkə daxilində, həm beynəlxalq arenada yaxşı nəticələr göstərəcəklər. Tərtərdə idman həmişə inkişaf edib. İndiki şəraiti nəzərə alsaq, əlbəttə ki, daha da böyük ümidlərimiz vardır.

Bütövlükdə isə ölkəmizin idman infrastrukturu istənilən beynəlxalq yarışın keçirilməsi üçün imkan yaradır. Bakı şəhərində artıq iki çox böyük beynəlxalq idman yarışı keçirilib. Deyə bilərəm ki, Yay Olimpiya Oyunlarından sonra öz miqyasına görə Avropa Oyunları ikinci yeri tutur. Bildiyiniz kimi, Avropa Oyunları heç vaxt tarixdə keçirilməyib və birinci Avropa Oyunları məhz Azərbaycanda keçirilib. Çünki bir çox ölkələr bundan imtina edib, çünki bu, bir yenilik idi. Bir çox ölkələr tərəddüd edirdilər ki, bunu bacaracaqlar, yoxsa yox. Biz isə bunu bacardıq, özü də yüksək səviyyədə. Onu da bildirməliyəm ki, həm Avropa Oyunları, həm IV İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsi idman potensialımızı gücləndirdi, eyni zamanda, Azərbaycanı dünyada müasir ölkə kimi təqdim etdi. Avropa və İslam Həmrəyliyi oyunlarında 100-dən çox ölkədən 10 mindən artıq idmançı, minlərlə qonaq iştirak edib. Əminəm ki, onların hər biri Azərbaycandan ən xoş təəssüratlarla ayrılıb. Ölkəmizin tarixi, inkişafı, xalqımızın qonaqpərvərliyi, müasir həyatı ilə bağlı onlarda dolğun təsəvvür var. Çünki sirr deyil ki, hətta bu günə qədər bəzi dairələr Azərbaycan haqqında müxtəlif uydurmalar, həqiqəti əks etdirməyən saxta informasiyalar yayırlar. Ona görə Azərbaycana gələn hər bir qonaq, – əgər o, qərəzsizdirsə, – öz gözü ilə ölkəmizin inkişafını, xalqımızın rahat yaşamasını, ölkəmizdə hökm sürən sabitliyi görür. Onu görür ki, bu gün müasir və müstəqil Azərbaycan dövləti ən yüksək zirvədədir. Mən tam əminliklə deyə bilərəm ki, Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü, indiki qədər müstəqil və azad olmamışdır.

Bizim idmanla bağlı tədbirlərimizin əsas məqsədi insanların sağlamlığını təmin etməkdir. Çünki idmançılar yaxşı bilirlər ki, idman insan sağlamlığı üçün ən əsas amillərdən biridir. Ona görə mən həm idmançılarla görüşlərdə, həm də digər auditoriyada çıxışlarımda həmişə vurğulayıram ki, hər bir insan idmanla məşğul olsun. Söhbət ondan getmir ki, hər kəs idmançı olsun. Amma idmanla məşğul olan insan sağlam olur. İdman insanı fiziki cəhətdən gücləndirir, eyni zamanda, bizim idmançılarımız bu gün məişətdə də bir çoxları üçün nümunədir. Beləliklə, idmanın kütləviliyini təmin edərək biz xalqımızın sağlamlığını qoruyacağıq və bizim gənclərimiz, gənc nəsil sağlam olacaq – həm fiziki cəhətdən, həm mənəvi baxımdan. Çünki fiziki cəhətdən güclü insan adətən öz gücündən yalnız çətin məqamda istifadə etməlidir. Güclü insanda özünə əminlik var. Fiziki cəhətdən güclü insan heç vaxt ondan zəif insana qarşı zor tətbiq etməməlidir. Ancaq özünü, öz yaxınlarını, öz torpağını qorumalıdır. Ona görə idmanın inkişafı, sadəcə olaraq, idman nəticələri əldə etmək üçün vasitə deyil, idmanın inkişafı xalqın sağlamlığıdır və Azərbaycan xalqı sağlam olmalıdır.

Mən bir neçə il bundan əvvəl təşəbbüs irəli sürdüm ki, Azərbaycanda hər bir insan ildə bir dəfə pulsuz müayinədən keçsin. Buna nail olmaq üçün əlbəttə ki, bütün şəhərlərdə müasir xəstəxanalar olmalı idi və biz artıq bunu təmin etmişik. Bir neçə ildir ki, 5 milyondan çox insan hər il pulsuz müayinədən keçir, öz fiziki vəziyyətini müəyyən edir və xəstəlik aşkar olunan təqdirdə lazımi müalicə alır. Beləliklə, bu və digər tədbirlər nəticəsində Azərbaycanda insanların ömrünün uzunluğu artıb. Azərbaycan xalqı indi daha sağlamdır və həm tibbi müayinədən keçmək, həm idmanla məşğul olmaq - bu iki amil hesab edirəm ki, insanların sağlamlığı üçün əsas rol oynayır. Əlbəttə, biz çalışmalıyıq ki, uşaqlarımız, yeniyetmələr idmanla müntəzəm məşğul olsunlar. İdmançılar yaxşı bilirlər ki, yalnız müntəzəm məşqlər nəticəyə gətirib çıxarır. Ümid edirəm ki, bu imkanlardan həm idmançılar, həm də rayonun digər sakinləri istifadə edəcəklər. Hesab edirəm ki, bu Olimpiya İdman Kompleksi rayon üçün gözəl sağlamlıq və istirahət mərkəzinə çevriləcək.

Tərtər rayonunun inkişafı daim diqqət mərkəzindədir. Azərbaycan xəritəsində Tərtər rayonunun xüsusi yeri var. Tərtər rayonu cəbhə bölgəsində yerləşir və təbii ki, bu rayona diqqət həmişə yüksək səviyyədə olub. Təsadüfi deyil ki, Tərtər rayonunun sosial-iqtisadi inkişafı üçün son illər ərzində bir çox işlər görülüb. Bu, mənim rayona sayca 6-cı səfərimdir və hər dəfə burada olanda açılışlarda iştirak edirəm, vəziyyətlə tanış oluram, müvafiq tapşırıqlar verirəm ki, işlər daha da sürətlə getsin. Deyə bilərəm ki, son illər ərzində rayonun infrastrukturunun inkişafı çox sürətlə gedir. Bu gün açılacaq yeni yarımstansiya Tərtərin elektrik enerjisi ilə təchizatında mühüm rol oynayacaq. Baxmayaraq ki, bu günə qədər görülmüş tədbirlər nəticəsində bu sahədə çox böyük irəliləyiş var. Tərtərdə yaşayan insanlar yaxşı bilirlər ki, vaxtilə burada elektrik enerjisi ilə böyük problemlər var idi, fasilələrlə verilirdi, tez-tez kəsilirdi. İndiki dövrdə artıq bu, tarixdə qalır. Düzdür, hərdənbir qəzalar baş verir, ancaq bütövlükdə enerji təminatının dayanıqlığı təmin edilir. Bu gün açılacaq yarımstansiya həm Tərtər rayonu, həm də qonşu rayonlar üçün əlavə imkanlar yaradacaq.

Tərtərdə qazlaşdırma 98 faizə çatır. Təqribən 10 il bundan əvvəl ümumiyyətlə, qazlaşdırmadan söhbət getmirdi. Nəinki kəndlərdə, şəhərdə qaz yox idi. İndi isə

əksər kəndlərə qaz xətləri çəkilib və əlbəttə, 98 faiz göstərici bu işlərə xüsusi diqqət yetirildiyini göstərir.

Yol təsərrüfatı tamamilə yenilənir. Bu gün biz yeni yolun açılışını qeyd etdik və təqdimatda o yolun əvvəlki vəziyyəti əks olunmuşdu. Heç asfalt da yox idi, payız-qış aylarında keçilməz torpaq yollar idi. Hazırda Tərtər rayonunda yolların salınması və təmiri ilə bağlı çox böyük işlər görülür. Yolların 80 faizi əsaslı təmir edilib və bir layihə də icra ediləndən sonra 100 faiz olacaq.

Beləliklə, əsas infrastruktur layihələri – elektrik enerjisi, qaz və yollarla bağlı məsələlər öz həllini tapıb. Sosial infrastruktur, gözəl Olimpiya İdman Kompleksi yaradılıb, bir neçə il əvvəl rayon mərkəzi xəstəxanası əsaslı təmir edilib və ən müasir avadanlıq quraşdırılıb. Tərtər şəhərinin su-kanalizasiya layihəsi artıq 4 il bundan əvvəl tamamlanıb və mənim iştirakımla onun açılışını qeyd etmişik. Hazırda içməli su və suvarma layihələrinin icrası davam etdirilir.

Təkcə subartezian quyularının qazılması nəticəsində rayonun su ilə təminatı böyük dərəcədə yaxşılaşıb. Bu günə qədər 72 subartezian quyusu qazılıb. İmzalanacaq yeni sərəncamla əlavə 21 subartezian quyusunun qazılması nəzərdə tutulur. Beləliklə, Tərtər rayonunun suvarma ilə bağlı olan problemləri öz həllini tapacaq və bu, təbii ki, kənd təsərrüfatının inkişafına xidmət göstərəcəkdir.

Taxılçılıq, pambıqçılıq Tərtər üçün ənənəvi kənd təsərrüfatı sahələridir. Pambıqçılığa gəldikdə, Tərtərdə məhsuldarlıq ölkə üzrə orta məhsuldarlıqdan üstündür. Hər hektardan 34 sentner pambıq götürülüb. Ölkə üzrə bu göstərici də yaxşı səviyyədədir, 29 sentnerdir. Amma Tərtər burada qabaqcıl yerlərdədir. Nəzərə almalıyıq ki, mənfur qonşularımız uzun illər ərzində Tərtərin suyunu kəsiblər. O suyu ki, Azərbaycan Respublikası onun yığılması ilə bağlı vaxtilə, 1970-ci illərdə böyük işlər görüb. Sərsəng su anbarının inşası Azərbaycan Respublikası tərəfindən, respublika büdcəsi tərəfindən həyata keçirilib. İndi isə mənfur qonşular bizim suyumuzu kəsiblər. Bu, ekoloji terrordur.

Sirr deyil ki, Ermənistan terror dövlətidir və bunu bu dövlət dəfələrlə göstərib, hətta öz rəhbərlərinə qarşı terror törədiblər. İyirmi il bundan əvvəl Ermənistan rəhbərliyinin bir çox üzvü bu ölkənin parlamentində qətlə yetirildi və o cinayətin üstü açılmayıb. Halbuki hər kəs bilir ki, o cinayətin sifarişçiləri kimdir. Ancaq onu ört-basdır edirlər. Çünki onların terrorçu mahiyyəti bu gün də yaşayır. Kiminsə suyunu kəsmək cinayətdir. Bu, faşizmin təzahürüdür və təsadüfi deyil ki, Ermənistanda faşistlərə abidələr ucaldılır. Azərbaycanda quruculuq, abadlıq işləri aparılır, hər bir şəhərdə sosial obyektlər, belə gözəl olimpiya mərkəzləri, xəstəxanalar, məktəblər tikilir, yollar çəkilir, qazlaşdırma aparılır. Kasıb Ermənistanda isə ondan-bundan dilənə-dilənə, güc-bəla ilə yaşayırlar, amma faşistlərə 6 metrlik abidə ucaldırlar. O adam ki, onun Hitlerlə əməkdaşlığı sənədlərlə təsdiq edilib. O adam ki, müharibə zamanı demişdir: “Almaniya uğrunda ölən, Ermənistan uğrunda da ölür”. O adam ki, Sovet İttifaqının müvafiq orqanları tərəfindən həbs olunub, ona 25 il hökm oxunub, həbsxanada da ölüb və reabilitasiya olunmayıb. O adama 6 metrlik abidə ucaldılır və bugünkü Ermənistan rəhbərliyi bu adamı qəhrəman kimi təqdim edir. Bu, nəyi göstərir?! Onu göstərir ki, Ermənistanda hakimiyyət dəyişə bilər, amma bu ölkənin terrorçu və faşist mahiyyəti dəyişməz olaraq qalır və bunu hər kəs bilməlidir. Bütün dünya bilməlidir.

Bu gün beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı sərgilədiyi mövqe həqiqəti, ədaləti əks etdirir. Bizim səylərimiz nəticəsində bütün aparıcı beynəlxalq təşkilatlar münaqişənin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunması ilə əlaqədar müvafiq bəyanatlar vermişlər. Bizim bir çox ölkələrlə ikitərəfli formatda imzaladığımız strateji tərəfdaşlıq haqqında bəyannamələrdə ölkəmizin ərazi bütövlüyü dəstəklənir və münaqişənin məhz bu prinsiplər əsasında həll olunması təsbit edilir.

Bildiyiniz kimi, bu yaxınlarda qondarma “Dağlıq Qarabağ respublikası”nda qondarma prezident seçkiləri keçirilmişdir. Qondarma, saxta prezident guya ki, seçilib. Bu gün Dağlıq Qarabağda hakimiyyəti zəbt etmiş xunta rejimidir və əvvəlki rejimin tör-töküntüləridir. Ermənistanın əvvəlki rejiminin bəd əməlləri haqqında bütün faktları Ermənistanın indiki rəhbərliyi açıbdır, ictimaiyyətə təqdim edibdir. Onların generalları oğru, onların dırnaqarası “qəhrəmanları” cinayətkar, onların rəhbərləri rüşvətxordur. Keçmiş rejimin nə qədər nümayəndələri həbs olunub, nə qədər axtarışa verilib. Bu, nə deməkdir?! O deməkdir ki, 2018-ci ilə qədər 20 il ərzində Ermənistana cinayətkarlar rəhbərlik ediblər. Onlardan biri indi həbsxanadadır, o birisi isə hələ ki azadlıqda. Halbuki onun da ölkədən çıxışına qadağa qoyulub. Yəni, bir ölkənin müstəqilliyi hələ 30 ilə çatmayıb, ölkənin 20 ili cinayətkarların ixtiyarına buraxılıb. Əlbəttə ki, bu cinayətkar dəstə cinayətkar rejim yaradıb. O cinayətkar rejim ki, bütün milli azlıqları əzibdir. Orada bir dənə də olsun milli azlıq yoxdur. Azərbaycanın qədim torpaqlarında bir dənə də olsun azərbaycanlı qalmayıbdır. Bizim tarixi abidələrimiz, məscidlərimiz dağıdılıbdır, azərbaycanlıların tarixi irsi silinibdir. Nəinki azərbaycanlıların, heç bir başqa millətin nümayəndəsi orada yoxdur. Baxın, dünyanın əksər ölkələrində müxtəlif xalqlar yaşayır. Bu baxımdan Azərbaycan bir örnəkdir. Bunu bütün dünya etiraf edir ki, Azərbaycanda hökm sürən millətlərarası münasibətlər, dinlərarası dialoq dünya üçün nümunədir. Ermənistanda isə əhalinin 99,9 faizi ermənidir. Bu cinayətkar kriminal rejim bütün digər millətlərdən olan insanları müxtəlif yollarla qovub. İndi Dağlıq Qarabağda da xunta rejimi hökm sürür. Əlbəttə, xunta rejimi tərəfindən keçirilmiş saxta seçkilər bir şoudur, bir təlxəklər tamaşasıdır. Bütün aparıcı ölkələr bu dırnaqarası “seçkiləri” qınayıb və tanımayıb. Baxın, özü də bəyanatlar qəbul ediblər. ATƏT-in Minsk qrupunun həmsədrləri –

Amerika, Fransa, Rusiya bəyan ediblər ki, seçkiləri tanımırlar. Avropa İttifaqı bəyan edib ki, seçkiləri tanımır. Avropa Parlamenti, həmçinin İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, digər təşkilatlar - bütün aparıcı beynəlxalq təşkilatlar bu seçkiləri qınadı, təkcə Avropa Şurasından başqa. Avropa Şurası susdu. O da nəyə görə? Bəllidir. Çünki Avropa Şurası Parlament Assambleyasının əsas hədəflərindən biri Azərbaycanı ləkələmək, ölkəmizi gözdən salmaq, ölkəmiz haqqında uydurmalar yaymaq, saxta məruzələr qəbul etdirmək, Azərbaycanda "beşinci kolonu", satqınları və münaqişə ilə bağlı Ermənistan tərəfini dəstəkləməkdir. Ona görə Avropa Şurası bu saxta seçkilərlə bağlı səsini belə çıxarmadı. Bu halda hansı obyektivlikdən, hansı ədalətdən söhbət gedə bilər!

Mən deyəndə ki, Avropa Şurası tərəfindən Azərbaycan ilə əlaqədar qəbul edilmiş sənədlər mənim üçün bir kağız parçasından artıq deyil, bunu nəzərdə tuturdum. Bütün Azərbaycan ictimaiyyəti görüb ki, Avropa Şurası anti-Azərbaycan mövqedədir və bu təşkilatda anti-Azərbaycan meyilləri, azərbaycanafobiya hökm sürür və bizə ünvanlanmış bütün ittihamların təməlində məhz azərbaycanafobiyadır. Biz bütün bu ittihamları artıqlaması ilə onların özlərinə qaytarırıq. Qoy, bir bəyanat versinlər ki, indi bu dünyada bəzi ölkələrdə nələr baş verir. Polis zorakılığı, nümayişçilərə qarşı tətbiq edilən güc, nümayişçilərin öldürülməsi, onların gözlərinin çıxarılması, kütləvi surətdə həbs edilməsi, jurnalistlərin döyülməsi, həbs edilməsi, bunlar harada baş verir? Qərb ölkələrində. Açsınlar gözlərini, baxsınlar və utansınlar ki, susublar. Nəyə görə? Çünki güclü dövlətlərdən qorxurlar. Hesab edirlər ki, bu, məsələnin insan haqlarının qorunmasına aidiyyəti yoxdur. Ona görə bu qurumun riyakar mahiyyəti heç kim üçün sirr deyil və bizi də heç maraqlandırmır, onlar bu saxta seçkiləri tanıyıblar, yoxsa yox. Əsas odur ki, dünyanın sanballı və hörmətə layiq olan təşkilatları Dağlıq Qarabağda keçirilmiş saxta seçkiləri tanımayıb və qınayıblar.

Ona görə bu beynəlxalq təşkilatların və bir çox ölkələrin mövqeyi, əlbəttə ki, bizim mövqeyimizi gücləndirir. Siyasi və hüquqi baxımdan bizim mövqeyimiz mükəmməldir, Ermənistanın mövqeyi qüsurludur. Biz iqtisadi sahədə, hərbi sahədə Ermənistandan qat-qat güclüyük və bunu göstərmişik, o cümlədən döyüş meydanında. Onlar bizə hücum etdi, biz cavab verib onları yerinə oturtduq. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini azad etdik. Onlar nə etdilər? Bizim kəndlərimizi bombaladılar, bax, burada Tərtərdə. Mən Aprel döyüşlərindən sonra gəlib o bombaları, o mərmiləri görmüşdüm, evlərə getmişdim. Tərtər şəhərini, Tərtərin, Ağdamın kəndlərini bombalayıblar. Bu, faşizm deyil, nədir? Dinc əhaliyə qarşı müharibə aparıla bilməz. Onların bizim ordumuza gücü çatmayıb, öz mövqelərini qoyub qaçmışdılar və nə etdilər? Dinc əhaliyə qarşı güc tətbiq etdilər. Hesab edirdilər ki, bu, tərtərlilərə, ağdamlılara təsir edəcək. Bir nəfər də tərpənmədi yerindən, bir nəfər də! Onlar bir daha gördülər ki, Azərbaycan xalqı böyük xalqdır. Mən Aprel döyüşlərindən sonra burada olarkən bir daha tərtərlilərin mərdliyini gördüm. Gördüm ki, onlar öz torpağından heç bir yerə gedən deyillər. Gördüm ki, bütün təhlükələrə baxmayaraq, öz torpağında möhkəm dayanıblar. Aprel döyüşləri mənfur qonşumuza dərs olmalı idi. Ondan sonra 2018-ci ildə Naxçıvan əməliyyatı. Orada da minlərlə hektar torpaq bizim nəzarətimizə keçdi. İşğal olunmuş torpaqları azad etdik. Azərbaycan Ordusu gücünü göstərdi. Bizim gücümüzün mənbəyi Azərbaycan xalqıdır. Ermənistan ordusunun mənbəyi xarici ianələrdir və bunu açıq etiraf edirlər ki, xarici dəstək olmadan bu ölkə batacaq, bu ölkənin gələcəyi yoxdur. Çünki demək olar ki, onların bütün qonşulara – Azərbaycan ilə Türkiyəyə qarşı açıq şəkildə, digər qonşu ölkəyə gizli şəkildə ərazi iddiaları var. Baxmayaraq ki, onlar bizim tarixi torpağımızda yaşayırlar. Bu tarixi hər kəs bilməlidir, xüsusilə gənclər bilməlidir, olduğu kimi bilməlidir. İndiki Ermənistan Respublikasının ərazisi qədim Azərbaycan torpağıdır. Bu, faktdır, tarixi faktdır. Heç uzağa getmək lazım deyil. XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir. Hər kəs görər ki, indiki Ermənistanın bütün ərazisindəki toponimlərin demək olar ki, mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Mən xahiş edirəm, bizim alimlərimiz bunu dərc etsinlər ki, hər kəs görsün. Balaca bir kitabça dərc etsinlər.

İndiki Ermənistan ərazisində tarixi Azərbaycan adları, şəhərlərin, kəndlərin adları dəyişdirilib. Bu adlar neçənci ildə dəyişdirilib? Ona görə biz deyəndə ki, indiki Ermənistan tarixi Azərbaycan torpağında yaradılıb, tam həqiqəti deyirik. Biz yaxşı bilirik ki, ermənilər bizim torpağımıza, o cümlədən indiki Ermənistan ərazisinə XIX əsrin əvvəllərində köçürülüblər, Rus-İran müharibəsindən sonra. Tərtərlilər yaxşı bilirlər və Azərbaycan xalqı da bilir ki, 1978-ci ildə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisindəki kəndlərin birində ermənilərin bu bölgəyə gəlməsinin 150 illiyini əks etdirən abidə ucaldılıb. 1978-ci ildən 150 ili çıxın, deməli 1828-ci ildə gəliblər. Müharibə başlayan kimi o abidəni dağıdıblar, amma onun qalıqları qalıb və indi istənilən adam gedib baxa bilər. Onun şəkillərini də göstərmək lazımdır. Onlar gəlmədilər, Şərqi Anadoludan və İrandan bizim torpaqlarımıza köçürülüblər. Bu proses XIX əsrin əvvəllərindən başlanmışdır və sonralar daha geniş vüsət almışdır. Mən deyəndə ki, İrəvan bizim qədim torpağımızdır, tam həqiqəti deyirəm. Bunu hər kəs bilir. Əgər belə olmasaydı, Azərbaycan Demokratik Respublikası nə üçün onda qərar qəbul edib ki, İrəvanı Ermənistana versin, bağışlasın. Özü də nə vaxt? Müstəqillik elan olunandan bir gün sonra. Müstəqillik 1918-ci il mayın 28-də elan edilib. 1918-ci il mayın 29-da isə qərar qəbul edilib, özü də yekdilliklə yox. Bu qərarın əleyhinə çıxanlar da olubdur, amma onların rəyi nəzərə alınmayıb. Azərbaycan Demokratik Respublikası tərəfindən qərar qəbul edilib ki, İrəvan Ermənistana bağışlanıl-

sın, verilsin. Bunu unutmaq olmaz və bunu bağışlamaq da olmaz. Hər kəs bunu bilsin. Guya ki, bundan sonra Ermənistan Azərbaycana qarşı digər iddialarından əl çəkəcəkdi. Amma əl çəkdimi? Yox! Bizim qədim diyarımız Zəngəzur da Ermənistana verildi. Zəngəzurun verilməsi ilə böyük türk dünyasında coğrafi parçalanma baş verdi, Azərbaycanın əsas hissəsi Türkiyə ilə sərhəddən məhrum edildi. Bizim Türkiyə ilə sərhədimiz yalnız Naxçıvan Muxtar Respublikasındadır. İrəvan onlara veriləndən sonra ermənilər öz iddialarından əl çəkdilərmi?

Dağlıq Qarabağ münaqişəsi. Yenə də torpaq iddiası. Əl çəkdimi? Kim əsaslandıra bilər ki, azərbaycanlıların tikdikləri İrəvan – qədim şəhərimiz Ermənistana verilsin. Kim bunu əsaslandıra bilər? Hansı adam? Qoy dursun, desin, mən hesab edirəm ki, Azərbaycan Demokratik Respublikası düz edib, bu işi görüb. Qoy desin. Ona görə bilirsiniz mifologiyaya düçar olmaq ən axırıncı şeydir. Siz gənclər, bütün gənclər tarixi olduğu kimi bilməlisiniz. Onu da bildirməliyəm. Bu hadisə 1918-ci ildə baş verib. Ancaq ilk dəfə bu tarixi faktla bağlı məsələni mən qaldırdım. Mənə qədər heç kim bunu qaldırmayıb. Bizim tarixi kitablarımızda buna rast gəlmək bəlkə nadir hallarda mümkündür. Sanki belə bir fakt olmayıb. Mən bunu qaldırdım. Müxtəlif kürsülərdən, o cümlədən xaricdə olarkən qaldırdım və dedim ki, bu, bizim şəhərimizdir, bizim torpağımızdır. Hər kəs tarixini bilməlidir.

Münaqişəyə gəldikdə, bunun həllinin bir yolu var, o da ölkəmizin ərazi bütövlüyünün bərpasıdır. Başqa yol yoxdur. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Mən bu yaxınlarda demişəm, biz güc toplayırıq, daha da güclü olmalıyıq və olacağıq. Eyni zamanda, geosiyasi vəziyyət elə olmalıdır ki, bizim bütün addımlarımız uğurla nəticələnsin. Mən demişəm ki, Qarabağ Azərbaycandır və bir daha bunu təkrarlamaq istəyirəm: Qarabağ və onun tərkib hissəsi olan Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi. Bütün Azərbaycan ictimaiyyəti, xalqımız bu mövqeyi dəstəkləyir. Mənim apardığım siyasəti, o cümlədən bu məsələ ilə bağlı apardığım siyasəti dəstəkləyir.

Mən bir daha sizi bu gözəl hadisə münasibətilə təbrik etmək istəyirəm. Olimpiya Kompleksinin Tərtərdə açılması böyük məna daşıyır. Burada öz gücünü artıran gənclər ölkəmizin uğurlu inkişafına töhfələrini verəcəklər. Mən buna əminəm. Sizi bir daha təbrik edirəm!

Sonra yaradılan gözəl şəraitə görə dövlətimizin başçısına tərtərlilərin minnətdarlığını çatdıran boks üzrə Əməkdar məşqçi Faiq Məmmədov dedi:

– Möhtərəm cənab Prezident, Sizi Tərtər idmançıları adından səmimi qəlbdən salamlayır, bu gözəl Olimpiya İdman Kompleksini bizə bəxş etdiyinizə görə Sizə ürəkdən təşəkkürümüzü, minnətdarlığımızı bildiririk.

Cənab Prezident, mən idmanın boks növü üzrə Əməkdar məşqçi və İdman ustasıyam. Eyni zamanda, qeyd etmək istəyirəm ki, Tərtər rayonunda idmanın inkişafı davam edib. Bundan sonra bu möhtəşəm Olimpiya İdman Kompleksi və içərisindəki müasir avadanlıqlar imkan verəcək ki, biz daha da böyük həvəslə məşq edək və yeni-yeni uğurlara imza ataq.

Cənab Prezident, onu da demək istəyirəm ki, bu gün bütün dünyada yayılmış koronavirus pandemiyasına görə sosial layihələrin və eyni zamanda, idman tədbirlərinin keçirilməsi dayandırılmışdır. Ancaq buna baxmayaraq, Siz və Mehriban xanım ölkəmizdə yeni-yeni sosial layihələrin həyata keçirilməsini davam etdirirsiniz. Bu gün cəbhə bölgəsində yerləşən Tərtər rayonunda açılışını qeyd etdiyiniz bu möhtəşəm Olimpiya İdman Kompleksi bunu deməyə əsas verir. Biz bunu da qeyd etməliyik ki, bu gün pandemiya ilə əlaqədar insanların sağlamlığını nəzərə alaraq bütün qabaqlayıcı tədbirləri həyata keçirmisiniz. Buna görə Sizə və Mehriban xanıma dərin minnətdarlığımızı bildiririk. Azərbaycan xalqı Sizi sevir və dəstəkləyir. Tanrı Sizi və ailənizi qorusun, cənab Prezident.

Prezident İlham Əliyev: Çox sağ olun.

İyunun 3-də 110/35/6 kilovoltluq “Tərtər” elektrik yarımstansiyası yenidənqurmadan sonra istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

“Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin sədri Vüqar Əhmədov dövlətimizin başçısına elektrik yarımstansiyasının fəaliyyəti barədə məlumat verdi.

Diqqətə çatdırıldı ki, bu yarımstansiya İstehlakçıların elektrik təchizatının yaxşılaşdırılması məqsədilə əsaslı şəkildə yenidən qurulub. Bu qurğu vasitəsilə Tərtər şəhərində olan sosial-iqtisadi təyinatlı obyektlərin, həmçinin bütün ətraf kənd və qəsəbələrin, cəbhəyanı hərbi hissələrin, meliorasiya və suvarma sistemlərinin fasiləsiz və dayanıqlı elektrik enerjisi təchizatı təmin olunacaq. Yarımstansiyanın istismara verilməsi ilə 17 min 103-ü əhali, 1290-ı qeyri-əhali olmaqla, ümumilikdə, 18 min 393 abonentin elektrik enerjisinin təchizatı daha da yaxşılaşdırılacaq.

Yarımstansiya 110 kilovoltluq Naftalan və 110 kilovoltluq Bərdə hava xətləri vasitəsilə əlaqələndirilməklə, “Azərbaycan” İstilik Elektrik Stansiyası və 330 kilovoltluq “Gəncə” yarımstansiyası arasında dairəvi elektrik təchizat sxeminə qoşulub. Bundan başqa, həmin yarımstansiya Tərtər və Bərdə rayonlarında, habelə Naftalan şəhərində yerləşən 110 kilovoltluq yarımstansiyalararası 35 kilovoltluq dairəvi elektrik təchizatı sxeminin etibarlılığını və təhlükəsizliyini təmin etməklə, regionda olan bütün istehlakçıların, xüsusən də əhalinin enerji təchizatının dayanıqlılığını daha da artıracaq.

Yarımstansiya beynəlxalq standartlara cavab verən müasir tipli elektrik avadanlıqları, elektron tipli rele mühafizəsi və avtomatika sistemləri ilə təchiz edilib, məsafədən idarə olunan SKADA dispetçer sisteminə qoşulub. Burada növbətçi heyət üçün lazımi iş şəraiti yaradılıb, müvafiq xidmət otaqları, o cümlədən müha-

fizə, texniki xidmət və idarəetmə otaqları inşa edilib. Prezident İlham Əliyev yarımstansiyanı işə saldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Tərtər filialının açılışında iştirak edib.

Dövlətimizin başçısı filialın açılışını bildirən rəmzi lenti kəsdi.

"Azərxalça" ASC-nin İdarə Heyətinin sədri Vidadi Muradov dövlətimizin başçısına müəssisədə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, burada müxtəlif ölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunacaq və əsas üstünlük orijinal Qarabağ xalça çeşnilərinə veriləcəkdir. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikamızın ayrı-ayrı bölgələrindən toplanılan qədim və orijinal xalçalar əsasında "Azərxalça"nın rəssamları tərəfindən hazırlanıb.

Diqqətə çatdırıldı ki, bina toxuculuq emalatxanası, konfrans zalı, tibb otağı, anbar, yeməkxana, xalça və xalça məmulatlarının sərgilənməsi və satışı üçün xalça-satış salonu və sair bölmələrdən ibarətdir. Emalatxana zəruri xammal və ləvazimatlarla təmin edilib. Filialda 150 nəfər toxucunun və 14 nəfər inzibati-təsərrüfat işçisinin çalışması nəzərdə tutulub və hazırda 85 nəfər, o cümlədən 71 nəfər toxucu və 14 nəfər inzibati-təsərrüfat işçisi işlə təmin edilib.

Toxucular bir neçə ay ərzində "Azərxalça"nın burada təşkil olunmuş hazırlıq-tədris kurslarında iştirak edib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər. Tədris-hazırlıq kursu filial fəaliyyətə başladıqdan sonra da öz işini davam etdirəcək. Bu kursun məzunları "Azərxalça" ASC-nin tədris sertifikatı ilə təmin olunacaq. Cəmiyyətin digər filiallarında olduğu kimi, Tərtər filialı da işçilərin daşınması üçün avtobusla təmin edilib.

Qeyd edək ki, Azərbaycanda xalçaçılıq tətbiqi sənət növünün ən qədim sahələrindən biridir. Ölkəmizin ərazisində aparılan arxeoloji qazıntılara və yazılı mənbələrə görə, Azərbaycanda xalça toxuculuğu tunc dövründə, yəni 5 min il bundan əvvəl meydana gəlib. Azərbaycan xalçası boyalarının tükənməz zənginliyi, naxışlarının bənzərsizliyi, yaradıcılıq təxəyyülünün gücü və yüksək sənətkarlığı ilə fərqlənir. Xalçalarımız dünyanın ən məşhur muzeylərini bəzəyir. Quba-Şirvan, Gəncə-Qazax, Qarabağ, Təbriz xalçaçılıq məktəbləri bütün dünyada məşhurdur. Bu zonalarda toxunan xalçalar ilmələrinin sıxlığına, rəng çalarlarına, üz ipliyinin xovuna, toxunuşuna və ornamentlərinə görə seçilir. Hazırda Azərbaycan xalça sənəti özünün əsl dirçəliş dövrünü yaşayır. Prezident İlham Əliyevin həmin sahənin inkişafı ilə bağlı verdiyi tapşırıqlar və imzaladığı sərəncamlar bu baxımdan xüsusi əhəmiyyətə malikdir.

Dövlətimizin başçısının sərəncamlarına uyğun olaraq, yaradılması nəzərdə tutulmuş 31 xalça müəssisəsindən 13-ü istifadəyə verilib, 8-i istifadəyə hazırdır. Daha 10 fabrikin tikintisi layihələndirilir. Bundan başqa yunəyirici-boyaq fabrikinin, hazır xalçaların emalı mərkəzinin, yun və boyaq tədarükü məntəqələrinin yaradılması istiqamətində mühüm işlər görülür.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 3-də Ağdam rayonu ərazisində yerləşən "N" saylı hərbi hissədə olub.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və Müdafiə nazirinin birinci müavini – Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevə raport verdilər.

Sonra Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin rəhbərliyi ilə operativ müşavirə keçirdi.

Diqqətə çatdırıldı ki, dörd hektar ərazidə salınan hərbi hissənin tikintisi yüksək keyfiyyətlə həyata keçirilib. Qərargah binasında ideoloji otaq, brifinq, akt zalları və digər xidməti iş otaqları yerləşir. Burada 4 yataqxana binası da var. Yataqxana binalarının hamısında hərbçilər üçün hamam otaqları yaradılıb. Hamam-camaşırxana binası da bütün tələblərə tam cavab verir. Bundan əlavə, ərazidə stomatoloq, fizioterapiya, funksional diaqnostika, prosedur otaqlarının yerləşdiyi tibb məntəqəsi qurulub. Yeməkxana binasında hərbçilərin qidalanması üçün hər cür şərait yaradılıb. Fasiləsiz elektrik enerjisi ilə təmin olunan hərbi hissədə su təminatı üçün 180 metr dərinlikdə subartezian quyusu qazılıb. Ərazidə daimi təhlükəsizliyi təmin etmək məqsədilə 24 saat xidmət göstərən qarovul evi, döyüş hazırlığı qabiliyyətini təkmilləşdirmək məqsədi ilə daxilində döyüş hazırlığı üçün təlim meydançaları olan qarovul şəhərciyi də istifadəyə tam hazırdır. Bundan əlavə, hərbi qulluqçuların ailələri üçün 48 xidməti mənzildən ibarət ikimərtəbəli 3 yaşayış binasının tikintisinə başlanıb. Hərbi hissənin ərazisi abadlaşdırılıb, yaşıllıq zolağı salınıb.

Qeyd edək ki, Azərbaycanda ordu quruculuğu sahəsində bütün mühüm tədbirlər ardıcıl surətdə, dünya təcrübəsi nəzərə alınmaqla həyata keçirilir. Odur ki, 2003-cü ildən Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar ordumuzun gücünə əlavə güc qatır. Bu gün Azərbaycanı dünya birliyində layiq olduğu yerə gətirən amillər sırasında Silahlı Qüvvələrin döyüş qabiliyyəti, texniki təchizatı, zabit kadrlarının hazırlıq səviyyəsi, əsgərlərin mənəvi-psixoloji durumu mühüm yer tutur. Bu, həm də geosiyasi amil kimi ölkəmizin beynəlxalq aləmdə qlobal və regional yerini müəyyənləşdirir. Təsadüfi deyil ki, Azərbaycanın bölgədə ən yüksək mövqelərə malik ölkə olmasını şərtləndirən əsas amillər sabitlik, dinamik iqtisadi inkişaf və güclü ordudur. Silahlı Qüvvələrin modernləşdirilməsi, hərbi hissələrin müasirləşdirilməsi istiqamətində görülən işlər ardıcıl davam etdirilir.

## *Ağcabədi rayonuna səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Ağcabədi rayonunda səfərdə olub.

Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin Ağcabədi şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Ağcabədi rayonunun Hindarx qəsəbəsində fermer təsərrüfatında olub, əkin sahəsində taxıl biçininə başlanması mərasimində iştirak edib.

Kənd Təsərrüfatı naziri İnam Kərimov dedi: Cənab Prezident, Sizin xeyir-duanızla artıq bu gündən taxıl biçininə başlanılır. Ölkə üzrə bir milyon hektar taxıl sahəsində biçin aparılacaq, onun 370 min hektara yaxını arpa sahəsidir.

Prezident İlham Əliyev: Arpa biçilir?

İnam Kərimov: Bəli. Bir neçə gündən sonra da buğda biçininə başlanılacaq. Bütün texnika biçinə tam hazırdır.

Prezident İlham Əliyev: Məhsuldarlıq nə qədər gözlənilir?

İnam Kərimov: Cənab Prezident, keçən il hektardan məhsuldarlıq 32 sentnerə yaxın idi, bu il hələ dəqiq demək mümkün deyil. Çünki bu il hava quraqlıq keçdi.

Prezident İlham Əliyev: Bu il də quraqlıqdır, keçən il də quraqlıq idi. Amma keçən il biz rekord səviyyədə məhsuldarlığı təmin edə bildik. Azərbaycanda heç vaxt hektardan məhsuldarlıq 32 sentner olmayıb. Özü də iri fermer təsərrüfatlarında təqribən 50 sentnerə çatıb. Təkrar əkinlə bağlı işlər görülür? Mən demişəm, Nazirlər Kabineti vəsait ayırıb.

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov: Bəli, cənab Prezident, Siz göstəriş verdiniz, qarğıdalı əkiləcək.

Prezident İlham Əliyev: Orada əsas problem su problemidir. Onu gərək çatdırasınız.

Rafil Hüseynov: Cənab Prezident, biz planlaşdırmışıq ki, su olan yerlərdə bu il iki min hektarda təkrar əkin aparaq.

Prezident İlham Əliyev: Sizdə 2 min hektar, ölkə üzrə 100 min hektara yaxın. Bu, hədəfdir, indi nə qədər olar olar.

Rafil Hüseynov: Su ilə bağlı əsas odur ki, suvarma pambıq becərilməsi ilə üst-üstə düşməsin. Bu il Ağcabədidə təxminən 30 min hektarda taxıl əkilib. Onun da 8 min hektara yaxını arpadır, 22 min hektarı buğdadır.

Prezident İlham Əliyev: Keçən il Ağcabədidə məhsuldarlıq nə qədər idi?

Rafil Hüseynov: Keçən il 35 sentner olub. Bu ildən növbəli əkinə qayıtmaq məsələsini nəzərdə tuturuq. Biz növbəli əkinə qayıtmasaq, məhsuldarlığı da təmin edə bilmərik. Biz razılaşmışıq ki, rayonumuzda eyni sahədə növbəli qaydada həm yonca əkək, çünki maldarlığı da dayandıra bilmərik, həm də pambıq. Çünki yonca sahələrində pambıq əkiləndə çox yaxşı məhsul götürmək olur. Biz pambıq, taxıl, yonca sahələrində növbəli əkin hesabına pambığı da 20 faizə qədər artırmağı nəzərdə tuturuq.

Prezident İlham Əliyev: Məhsuldarlığı?

Rafil Hüseynov: Pambığın özü də, məhsuldarlıq da xeyli artacaq. Bu il yaxşı pambıq var.

Prezident İlham Əliyev: Sizdə məhsuldarlıq keçən il də yaxşı idi.

Rafil Hüseynov: Bu il keçənilkindən daha yaxşı məhsul var.

Prezident İlham Əliyev: Əkin sahələri eyni qalıb?

Rafil Hüseynov: Eyni qalıb, amma gələn il üçün nəzərdə tuturuq ki, pambıq əkinini 25 faiz artıraq. Çünki bu gün bizim taxıl və yonca sahələri 50 min hektara qədərdir. Əlli min hektar bizə cəmi 500 iş yeri verir. Amma 10 min hektar pambıq əkirik, bu, 15 min iş yeridir.

Prezident İlham Əliyev: Əlbəttə, əməktutumlu sahədir. Həm də yaxşı maaş, məvacib götürülür.

Rafil Hüseynov: Bəli, gəlir bundan üç dəfə artıqdır. Həm xalis gəlir, həm də ümumi gəlir artır.

İnam Kərimov: Cənab Prezident, artıq fermerlər maraqlıdırlar ki, pambıq əksinlər və gəlir əldə etsinlər.

Prezident İlham Əliyev: Biz pambığa olan marağı qaytardıq. Keçən il hektardan məhsuldarlığı 29 sentnerə qaldırmışıq. Bu da Azərbaycanın tarixində ən yüksək göstəricilərdən biridir. Sovet vaxtında hektardan məhsuldarlıq bəlkə cəmi 3-4 il təqribən 30 sentnerdən artıq olub. İndi biz demək olar ki, 30 sentnerə yaxınlaşmışıq. Bu il də məhsuldarlıq daha yaxşı olsa, onda əlbəttə ki, fermerlər və işləyənlər daha da böyük gəlir götürəcəklər.

Rafil Hüseynov: Cənab Prezident, keçənilkinə nisbətən indi sıxlıq yüksəkdir, təxminən 100 faiz bitiş alınıb. Ona görə bu il pambıqda xeyli yaxşı nəticə gözlənilir.

Prezident İlham Əliyev: Bir də ki, təkrar əkinlə bağlı bizim yem bazası da genişlənəcək. Hesablamısınız qarğıdalıdan nə qədər yem əldə edəcəyik? İdxaldan asılılıq nə qədər azalacaq?

İnam Kərimov: Təxminən 1,2 milyon ton silos üçün yaşıl yem, 350 min ton qarğıdalı olacaq.

Prezident İlham Əliyev: Yəni, xaricə pul az gedəcək.

İnam Kərimov: Bəli, az gedəcək.

Rafil Hüseynov: Elektron uçotun qurulması çox böyük kömək etdi. Artıq biz uçotu bildik. Biz indi də başlamışıq rayon üzrə ev təsərrüfatlarının uçotunu qurmağa ki, onların nə qədər sahəsi var, orada nə dəyişiklik baş verir.

Prezident İlham Əliyev: Fermerlər də öz işlərini bilirlər.

İnam Kərimov: Cənab Prezident, xeyir-dua versəniz biçinə başlayardıq.

Prezident İlham Əliyev: Başlamaq olar?

İnam Kərimov: Bəli, Sizin xeyir-duanızla.

Prezident İlham Əliyev: Başlayın.

Sonra fermer Nizami Hüseynovun əkin sahəsində taxıl biçininə başlanıldı.

İyunun 3-də Ağcabədi rayonunda dənli bitki toxumlarının emalı müəssisəsi istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müəssisənin açılışında iştirak edib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə qeyri-neft sektorunun inkişafı, ixracyönümlü məhsullar istehsal edən müəssisələrin yaradılması və ümumilikdə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində çox mühüm layihələr icra olunur. Bu baxımdan, həyata keçirilən işlər arasında Aqrar Sənaye komplekslərinin yaradılması müstəsna əhəmiyyət kəsb edir. Aqrar sektorun inkişafında, regionlarda iqtisadi potensialın artırılmasında, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində yeni metod və üsulların tətbiqi, qabaqcıl texnologiyalara əsaslanan aqroparkların və iri fermer təsərrüfatlarının yaradılması özündə mühüm amilləri və hədəfləri birləşdirir.

Son illərdə ölkədə toxumçuluğun inkişaf etdirilməsi məqsədilə beş rayonda, o cümlədən Ağcabədi rayonunda dənli bitki toxumlarının emalı müəssisəsi qurulub. Müəssisə 1 hektar ərazidə salınıb və burada inzibati bina, taxıltəmizləmə bloku, taxıl üçün bunker və digər qurğular yaradılıb. Qalan ərazidə isə abadlıq və yaşıllaşdırma işləri görülüb.

Dövlətimizin başçısına məlumat verildi ki, müəssisənin emal gücü saatda 5 tondur. Quraşdırılan qurğular vasitəsilə emal olunan toxum materialını 98 faiz təmizləmək mümkündür. Bu toxumların əkin sərfiyyatı digər qurğularda təmizlənənlərdən 20-30 faiz azdır. Bu da əkinə sərf edilən toxumun həcminin azalmasına imkan verir, həm də fermerin məhsul istehsalında çəkdiyi xərcləri də əsaslı şəkildə azaldır. Müəssisədə quraşdırılmış 3 min tonluq silo qurğularının əsas funksiyası təqdim olunan toxum materialını qəbul edərək emal xəttinə davamlı ötürülməsi və həmin qurğularda saxlanılan toxumun digər ərazilərə daşınması üçün avtomobillərə asanlıqla yüklənilməsini təmin etməkdir. Mövsüm başa çatdıqdan sonra dövlət ehtiyacı üçün tədarük olunmuş toxumun ehtiyatı bu qurğularda təhlükəsiz saxlanılacaq. Müəssisədə 25 nəfər işlə təmin olunacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Ağcabədidə “ASAN Həyat” kompleksinin açılışında iştirak edib.

Prezidentin köməkçisi – Prezident Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev mərkəz barədə dövlətimizin başçısına məlumat verdilər.

Bildirildi ki, Ağcabədi “ASAN Həyat” kompleksinin tikintisinə 2018-ci ilin aprel ayında başlanılıb və bu ilin iyununda işlər başa çatdırılıb. Kompleksin ümumi sahəsi 7290 kvadratmetrdir.

Prezident İlham Əliyev “ASAN Həyat” kompleksini işə saldı.

“ASAN Həyat” kompleksinə “ASAN xidmət”, “ASAN kommunal” mərkəzləri, “ASAN vəkillik” bürosu, Uşaq Psixoloji Sosial İnkişaf Mərkəzi və vətəndaşların istirahəti və əylənməsi üçün bir sıra sahələr daxildir. Ağcabədi regional “ASAN xidmət” mərkəzi Ağcabədi, Ağdam, Beyləqan, Cəbrayıl, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Zərdab rayonlarında qeydiyyatda olan 815 mindən çox vətəndaşa xidmət göstərəcək. Mərkəzdə 207 əməkdaş və 45 könüllü çalışacaq.

Ağcabədi “ASAN Həyat” kompleksinin tərkibində sayca 5-ci “ABAD Food Hall” fəaliyyətə başlayıb. Digər “ABAD Food Hall”arda olduğu kimi, burada da ABAD-çılar tərəfindən qeyri-sənaye üsulu ilə hazırlanmış məhsulların sərgi-satışı təşkil edilib. “ABAD” publik hüquqi şəxsin 2020-ci il ərzində ABAD-çı ailələrinin sayı 16 nəfər artaraq 429-a çatıb və onlara 30-a yaxın xidmət göstərilir.

Daha sonra Prezident İlham Əliyevə innovativ yeniliklər barədə məlumat verildi. Qeyd olundu ki, “ASAN İnnoland” pandemiya ilə əlaqədar bir sıra yeniliklərə imza atıb, onlardan biri də istehsalçısı milli startaplar olan süni nəfəs aparatıdır.

Prezident İlham Əliyev: Bu, sınaqdan keçib?

Ülvi Mehdiyev: TƏBİB müayinədən keçirib, müəyyən rəy yazıb, o rəyə uyğun da baxacağıq. Bu isə gündəlik istifadə edilən əşyaların dezinfeksiyası üçündür. Bu, eskalatorlar üçün hazırlanıb, fırlandıqca ultrabənövşəyi şüalarla dezinfeksiya olunur. Bu isə temperaturu müəyyən edir, virusu yandırır, onu içəri keçməyə qoymur. Bu isə üz maskasıdır, bizdə istehsal olunur. DOST mərkəzlərinə paylamışıq, əməkdaşlar xidmət zamanı istifadə edirlər.

Sonra dövlətimizin başçısına smart aptek aparatı barədə məlumat verildi. Bildirildi ki, bu aparat vasitəsilə vətəndaşlar onlara lazım olan dərmanları seçə, dərmanın qiyməti, təyinatı barədə məlumat ala və ödəniş edib preparatı götürə bilər.

Ülvi Mehdiyev: Vətəndaş pulu daxil edir, kağız pul da alır, qəpik də. Seçdiyimiz dərmanı iyirmi saniyə ərzində içəridə tapır və təqdim edir.

Prezident İlham Əliyev: İndiki şəraitdə bunun xüsusi əhəmiyyəti var.

Ülvi Mehdiyev: Sizin tapşırığınızla müəyyən pulsuz dərmanlar verilir. O adamlar həmin dərmanı almaq üçün mütləq tibb müəssisinə getməlidir. Amma bu smart apteklər hər yerdə quraşdırıla bilir.

Qeyd edək ki, yerli istehsal olan smart aptek aparatının küçələrdə, iri ticarət mərkəzlərində, “ASAN xidmət”lərdə qoyulması planlaşdırılıb. 500 dərman növünün olduğu bu aparatın xaricə ixracı nəzərdə tutulub.

Daha sonra dövlətimizin başçısına dezinfeksiya robotu barədə məlumat verildi. Qeyd olundu ki, bu robot vasitəsilə bütün ictimai məkanları dezinfeksiya etmək mümkündür. Xaricdə istehsal olunan bu aparatın yerli istehsalı planlaşdırılır. Bundan əlavə, Prezident İlham Əliyevə rəqəmsal icra hakimiyyəti sistemi barədə də

məlumat verildi. Bu sistemin fəaliyyəti sayəsində hər bir icra hakimiyyətində xidmət məkanının yaradılmasına nail olmaq mümkündür. Bunun sayəsində tələb olunan sənədlərin sayı 225-dən 104-ə enəcək.

İnnovativ yeniliklərdən biri də pandemiya şəraitində dövlət orqanlarında vətəndaşları qəbul etmək üçün vahid e-qəbul portalının yaradılmasıdır. Vətəndaş mobil telefon və elektron hökumət portalında yaratdığı kabinetindən istifadə edərək qəbula yazıla bilər.

Ülvi Mehdiyev: Onun üçün qəbul vaxtı müəyyən olunur. Həmin vaxt videoqəbul keçirilir. Hətta biz şikayətləri prioritetləşdirə bilirik. Bütün bunlar vahid sistemdə toplanır, analitik təhlil olunur. Şikayətləri təsnifatlaşdırmaq mümkündür.

Bundan başqa, yeni elektron rəngləmə sistemi də hazırdır. Onun vasitəsilə ağ-qara foto və video materialları rəngləmək mümkündür. Onu da deyək ki, Ağcabədi "ASAN Həyat" kompleksi üçün ayrılmış ərazidə geniş park salınıb, 100 avtomobil üçün dayanacaq yaradılıb.

Mərkəzlə tanışlıqdan sonra Prezident İlham Əliyev ASAN könüllüləri ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

– Bu gün növbəti "ASAN Həyat" Mərkəzinin açılışını edirik. Bu münasibətlə sizi təbrik edirəm. Mənim göstərişimlə Ağcabədi rayonunda müasir, gözəl "ASAN Həyat" Mərkəzi yaradılıb və bu gün istifadəyə verilir. Mərkəzlə tanışlıq çox xoş təəssürat bağışlayır. Həm xarici görünüşü, həm də daxili dizaynı, tərtibatı çox gözəldir. Ən önəmlisi odur ki, burada vətəndaşlara 320 xidmət göstəriləcək. Bu bölgədə yaşayan səkkiz yüz min insan bu imkanlardan istifadə edə bilər.

Növbəti "ASAN xidmət" mərkəzinin açılışı çox əlamətdar hadisədir. Çünki biz qısa müddət ərzində "ASAN xidmət" mərkəzlərinin sayını 19-a çatdırdıq və bu proses davam etdirilir. Hazırda səkkiz mərkəzin tikintisi nəzərdə tutulur. Onlardan bəziləri demək olar ki, hazırdır, bəzilərində isə işlər davam etdirilir. Beləliklə, biz bütün ölkəmizi "ASAN xidmət" mərkəzləri ilə əhatə edəcəyik. Əslində, bizim planlarımız da bundan ibarət idi. Biz bu təşəbbüsü irəli sürəndə mənim qəti fikrim ondan ibarət idi ki, əgər bu təcrübə müsbət olarsa, – mən buna şübhə etmirdim, - bütün ölkə üzrə "ASAN xidmət" mərkəzləri yaradılmalıdır və bütün vətəndaşlara keyfiyyətli xidmətlər göstərilməlidir. Biz bu işi ardıcıllıqla görürük. Bu gün bu mərkəzin işinə start verərkən gördüm ki, "ASAN xidmət"in fəaliyyətə başladığı dövrdən indiyə qədər təxminən 38 milyon müraciət olmuşdur. "ASAN xidmət"in fəaliyyətini ən gözəl əks etdirən fakt odur ki, vətəndaşların bəyənmə dərəcəsi 99,4 faizdir. Demək olar ki, 100 faiz vətəndaşlarımız "ASAN xidmət" mərkəzlərindən məmnundurlar. Bu da təbiidir. Əslində bizim niyyətimiz də, istəyimiz də insanlar üçün çox gözəl, rahat və şəffaf xidmət yaratmaqdır. Biz buna nail ola bildik.

Bu gün "ASAN xidmət" ölkəmizin intellektual məhsuludur. Mən bir dəfə demişəm, bir daha demək istəyirəm ki, biz artıq bu intellektual məhsulu ixrac edirik. Bir neçə ölkə ilə bizim "ASAN xidmət" mərkəzlərinin o ölkələrdə yaradılması ilə əlaqədar müqavilələr imzalanıb. Bəzi ölkələrdə artıq "ASAN xidmət" mərkəzləri fəaliyyətə başlayıb. Bu, bizim milli brendimizdir. "ASAN xidmət"in fəaliyyətə başlaması və uğurla fəaliyyət göstərməsi bu sahədə aparılan siyasətin çox gözəl nəticəsidir. "ASAN xidmət" innovasiyadır və hər bir yeni mərkəzin açılışında mənə yeni innovativ layihələr təqdim olunur, o cümlədən bu gün. Sonra isə bu layihələrin böyük əksəriyyəti həyatda öz əksini tapır.

"ASAN xidmət"in fəaliyyəti Azərbaycanda innovasiyaların inkişafına da çox böyük təkan vermişdir. Şadam ki, bu innovasiyaları təqdim edən, onları icad edən gənclərdir. Beləliklə, qısa müddət ərzində ölkəmizin ictimai xidmətlər sahəsində inqilabi dəyişikliklər baş verdi. Bəlkə on il bundan əvvəl heç kim təsəvvür edə bilməzdi ki, bir mərkəzdə 320 xidmət göstərilə bilər. Bu xidmətlərin yüksək innovativ əmsalı var. Eyni zamanda, bu mərkəzlərdə şəffaflığın dərəcəsi mütləqdir. Yəni, "ASAN xidmət"in əsas xüsusiyyətlərindən biri də odur ki, insanları ictimai xidmətlər sahəsində rüşvətxorluqdan, korrupsiyadan qoruya bildi. İctimai xidmətlər demək olar ki, ən korrupsiyalaşmış sahələrdən biri idi. İnsanlar onlara qanun çərçivəsində təqdim ediləcək bir arayış üçün həftələrlə, bəzən aylarla qapı-qapı gəzirdilər, məmurlardan xahiş edirdilər, bir çox hallarda onlara lazım olan sənədləri rüşvət müqabilində alırdılar. Amma artıq neçə ildir ki, bu praktika Azərbaycanda tamamilə aradan qaldırılıb. Bu, bir də onu göstərir ki, harada güclü iradə var, düşünülmüş siyasət var və icraedici mexanizmlər təkmilləşib, orada həmişə nəticə də olacaq.

Bildiyiniz kimi, "ASAN xidmət" mənim təşəbbüsümlə yaradılmışdır və mənim göstərişlərim əsasında öz fəaliyyətini genişləndirmişdir. Ancaq "ASAN xidmət"i yaradan sizsiniz, gənclərdir – "ASAN xidmət"in rəhbərləri, kadrları, işçiləri. Bu gün biz elə bir mükəmməl sistem yaratmışıq ki, haqlı olaraq bununla fəxr edə bilərik. İnsanların rahatlığını, ədaləti, şəffaflığı təmin etdik. Ona görə "ASAN xidmət", sadəcə olaraq, bir xidmət mərkəzi deyil, tamamilə yeni bir təfəkkürün ortaya qoyulması, ictimai münasibətlərdə tamamilə yeni fəlsəfənin tətbiq edilməsidir. Ölkəmizin müasir inkişafı ilə tam uzlaşan bir təşəbbüsdür, böyük bir layihədir. Bunun çox böyük ictimai mənası var. Əlbəttə ki, burada işləyən insanlar, öz xidmətləri, öz işləri ilə "ASAN xidmət"i bu yüksək səviyyəyə qaldırdılar. Çünki hətta ən yaxşı bir layihə, ən yaxşı bir təşəbbüs əgər düzgün icra edilmirsə, onun səmərəsi olmur.

Mən çox şadam ki, "ASAN xidmət" mərkəzlərində işləyənlərin mütləq əksəriyyəti, demək olar ki, hamısı gənclərdir, o cümlədən könüllülər bütün mərkəzlərdə

fəaliyyət göstərirlər. Mənə verilən məlumata görə, Ağcabədi "ASAN xidmət" mərkəzində 200-dən çox işçi və 45 könüllü fəaliyyət göstərəcək. Əslində, Azərbaycanda könüllülər hərəkatı "ASAN xidmət"dən başlamışdır. O vaxta qədər Azərbaycanda könüllülər hərəkatı olmamışdır. "ASAN xidmət"dən sonra digər sahələrdə də könüllülər fəaliyyətə başladılar. O cümlədən ölkəmizdə keçirilmiş böyük beynəlxalq idman yarışlarında – Avropa və İslam Həmrəyliyi oyunlarında könüllülər böyük xidmət göstərmişlər. Könüllülərsiz biz bu böyük yarışları keçirə bilməzdik. Bu gün mənim göstərişimlə digər sahələrdə də könüllülər fəaliyyət göstərir. Mən göstəriş vermişəm ki, dövlət təşkilatlarında, nazirliklərdə, dövlət şirkətlərində könüllülər işə cəlb edilsin, onlar təcrübə keçsinlər. Çünki bugünkü könüllülər sabahın rəhbərləridir. Təsadüfi deyil ki, mənim Sərəncamımla bu il "Könüllülər ili" elan edilmişdir. Bu, bir daha bizim könüllülərin fəaliyyətinə göstərdiyimiz diqqəti və münasibəti əks etdirir.

Beləliklə, gənclər "ASAN Həyat", "ASAN xidmət" mərkəzlərində fəaliyyətləri ilə Vətənə çox böyük xidmət göstərmiş olurlar. Əlbəttə ki, burada peşəkarlıq da yüksək səviyyədədir. Ümumiyyətlə, qeyd etdiyim kimi, ictimai münasibətlərin tamamilə yeni forması Azərbaycanda tətbiq olunur. Çünki əvvəlki dövrdə ictimai xidmətlər sahəsində korrupsiyadan, rüşvətxorluqdan başqa, deyə bilərəm ki, kobudluq, laqeydlik də adi bir hala çevrilmişdir. Amma "ASAN xidmət" mərkəzlərində buraya gələn hər bir vətəndaşa hörmət göstərilir, onların problemləri operativ qaydada, şəffaf şəkildə həll olunur. Ona görə biz haqlı olaraq fəxr edə bilərik ki, "ASAN xidmət" Azərbaycanın milli brendidir. Təsadüfi deyil ki, BMT "ASAN xidmət" mərkəzlərinin fəaliyyətini yüksək qiymətləndirib, xüsusi mükafat təqdim edib. Əlbəttə ki, bu xidmətin beynəlxalq müstəvidə tanıdılması ölkəmiz haqqında düzgün təsəvvürün yaranmasında da rol oynayır.

Biz əməkdaşlığa açığıq. Qeyd etdiyim kimi, biz artıq bir neçə ölkə ilə bu mərkəzlərin o ölkələrdə yaradılması ilə əlaqədar işlər görmüşük və müvafiq addımlar da atılıb. Növbəti mərhələdə həm bu il, həm gələn il bölgələrdə, Bakı şəhərində yeni mərkəzlərin açılışı nəzərdə tutulur. Hazırda Bakıda beş mərkəz fəaliyyət göstərir. Ancaq bildiyimə görə, bəzi mərkəzlərdə sıxlıq müşahidə olunur. Çünki birincisi, xidmətlərin sayı artdı. "ASAN xidmət" fəaliyyətə başlayanda xidmətlərin sayı, səhv etmirəmsə, 100-ə qədər idi, indi isə 320-dir. Əhali də artır və müraciətlərin sayı da artır. Ona görə Bakı şəhərində əlavə iki mərkəzin yaradılması ilə bağlı qərar qəbul edildi. Eyni zamanda, Sumqayıt və Gəncə şəhərlərinin hər birində ikinci mərkəzin açılışı nəzərdə tutulur və digər şəhərlərdə.

Nəzərə alsaq ki, "ASAN xidmət"in 10 səyyar avtobusu fəaliyyət göstərir, hesab edirəm ki, biz, növbəti 2-3 il ərzində ölkəmizin bütün bölgələrini əhatə edəcəyik və insanlara çox gözəl xidmət göstərəcəyik. Mən hər bir yeni mərkəzin açılışında bir yenilik də görürəm. Çünki "ASAN xidmət" öz fəaliyyətini genişləndirir, ABAD kimi brend artıq fəaliyyətdədir və ailə təsərrüfatlarının inkişafı ilə əlaqədar dövlət dəstəyi xüsusi rol oynayır. Ölkəmizin müxtəlif yerlərində fəaliyyət göstərən ailə təsərrüfatları öz məhsullarını artıq bazara çıxarırlar, eyni zamanda, ixrac etməyə başlayırlar. Bu da ümumi iqtisadi inkişafımıza böyük töhfədir.

Bildiyiniz kimi, hazırda biz özünüməşğulluq proqramı ilə ciddi məşğuluq. Bu il ən azı 10 min insan bu proqrama cəlb ediləcək. O cümlədən ABAD xətti ilə yaradılan kiçik istehsalat sahələri də özünüməşğulluq proqramına böyük dəstəkdir. Bilirəm ki, mənim çağırışımla özəl şirkətlər də ABAD-la müqavilələr bağlayıb, onlara vəsait ayırıb ki, bu sahədə işlər daha geniş vüsət alsın.

Bu mərkəz Ağcabədi rayonu üçün yeni bir xidmət, istirahət, eyni zamanda, əyləncə mərkəzi olacaqdır. Burada iki kinoteatr fəaliyyət göstərir. Bildiyimə görə, Ağcabədi şəhərində kinoteatr yoxdur. Burada gənclərin asudə vaxtlarını keçirmələri üçün imkanlar var, ABAD ticarət mərkəzi fəaliyyət göstərir. Ona görə bu mərkəz insanları cəlb edəcək. Ağcabədi gəncləri burada işlə təmin olunurlar. Qeyd etdiyim kimi, 200-dən çox iş yeri yaradılır ki, bu iş yerlərində gənclər çalışacaqlar.

Bu mərkəzin Ağcabədi rayonunda yaradılması təsadüfi deyil. Ağcabədi əhali baxımından ölkəmizin ən böyük rayonlarından biridir. Ağcabədi Qarabağ torpağında yerləşir və son illərdə rayonun inkişafı üçün bir çox işlər görülübdür. Bu, mənim Ağcabədiyə Prezident kimi 7-ci səfərimdir və bu illər ərzində çox böyük işlər görülübdür. Ağcabədidə infrastruktur tamamilə təzələnib. Elektrik enerjisi ilə bağlı əvvəlki illərdə problemlər var idi. İndi bu problemlər aradan qaldırılır. Bu gün Ağcabədidə açılacaq yeni yarımstansiya rayonu dayanıqlı enerji ilə təchiz edəcək. Ağcabədidə qazlaşdırmanın səviyyəsi 90 faizdən çoxdur. Cəmi bir neçə il bundan əvvəl burada insanlar ümumiyyətlə qazın nə olduğunu unutmuşdular. Şəhərin, kəndlərin qaz təchizatı yox idi. İndi qaz təchizatı 90 faizdən çoxdur. Yeni yolların çəkilişi. Mənim növbəti sərəncamlarımda yeni yol infrastrukturunun yaradılmasına əlavə vəsait ayrılması nəzərdə tutulub. Mənə verilən məlumata görə, Ağcabədi rayonunun şəhər və kənd yollarının 60 faizi yenidən qurulur. Qalan 40 faiz üçün də bizim proqramlarımız var. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında onlar təsbit edilib. Biz bütün yolları abadlaşdıracağıq.

İçməli su layihəsi öz həllini tapır. Bu gün biz Ağcabədi şəhərinə içməli suyun verilməsini qeyd edəcəyik. Bu da böyük layihədir. Çünki həmişə Ağcabədidə içməli su böyük problem idi. Bu məsələ də öz həllini tapır. Mənim Sərəncamımla suvarma suyu ilə bağlı 115 subartezian quyusu qazılıbdır və əlavə 30 quyu qazılacaq. Çünki kənd təsərrüfatının inkişafı üçün su əsas amillərdən biridir.

Rayon mərkəzi xəstəxanası tikilib. Ölkəmizin rayonlarda yerləşən ən böyük xəstəxanalarından biridir. Özü də müasir standartlara cavab verən avadanlıqla təmin edilib. Olimpiya İdman Kompleksi, Qarabağ Muğam Mərkəzi, "ASAN Həyat" kompleksi - bütün bunlar mənim təşəbbüsümlə və dövlət büdcəsi hesabına görülmüş işlərdir. Ona görə Ağcabədi rayonunun infrastrukturuna, sosial obyektlərinə, insanları narahat edən problemlərin həlli üçün nəzərdə tutulmuş layihələrə çox böyük vəsait qoyulubdur. Bu, bir daha onu göstərir ki, ölkəmizin hər bir yerində işlər bu səviyyədə görülməlidir, plan üzrə, ardıcıllıqla, prioritetləri düzgün müəyyənləşdirməklə. Bunları biz etmişik. Əgər infrastruktur layihələri icra edilməsəydi, o biri layihələrin, ümumiyyətlə, əhəmiyyəti olmazdı. Bu təməli biz yaratmışıq. Ona görə indi iqtisadi inkişaf daha sürətlə getməlidir.

Kənd təsərrüfatını texnika ilə tam təmin etmişik. Bu gün Ağcabədidə biçin mövsümünə artıq start verildi. Nəinki Ağcabədi rayonunu, bütün ölkəmizi, taxılyığan, pambıqyığan kombaynlarla tam təmin etmişik, özü də dünyanın ən qabaqcıl şirkətlərinin istehsalı olan kombaynlarla. Bizim kəndlilər, fermerlər bunu görməyiblər. Sovet vaxtından qalan sınıq-salxaq kombaynları onlar güc-bəla ilə təmir edirdilər, çalışırdılar ki, onlara xidmət göstərsinlər. Onlar da dəqiqəbaşı sınırdı, sonra sıradan çıxırdı. Bir neçə il ərzində texnika təchizatı, ümumiyyətlə, mövcud deyildi. Ona görə torpaqlar qalmışdı başsız, əkin-biçin getmirdi. Bunu da həll etmişik. Ona görə bu, gözəl bir təməldir. İndi bütün infrastruktur yaradılıb, texnika ilə təchiz edilib. Əsas indi sahibkarlar gərək öz sözünü desinlər. Ağcabədidə dörd iri fermer təsərrüfatı yaradılıb. Taxılçılıqda fermer təsərrüfatlarının xüsusiyyəti ondadır ki, məhsuldarlıq ölkə üzrə orta məhsuldarlıqdan qat-qat üstündür, o cümlədən pambıqçılıqda. Biz ölkəmizi bu yolla inkişaf etdirəcəyik və iqtisadiyyatımızın şaxələndirilməsini təmin edəcəyik.

Əlbəttə, "ASAN xidmət"in fəaliyyətinə qayıdarkən, bir daha demək istəyirəm ki, bu xidmətin timsalında bizim müasir yanaşmamız görünür. Onu görürük və sübut edirik ki, korrupsiya ilə, rüşvətxorluqla nəinki mübarizə aparmaq mümkündür, uğur qazanmaq mümkündür. Biz bütün vasitələrdən istifadə edirik. Əlbəttə, hesab edirəm ki, burada əsas rol sistem xarakterli tədbirlərdir. Çünki artıq "ASAN xidmət"in timsalında görürük ki, burada bu, mümkündür. Ona görə, bu sistem xarakterli institusional tədbirlərlə biz korrupsiyanın, kölgə iqtisadiyyatının meydanını daraldırıq. Ancaq bununla yanaşı, inzibati tədbirlər və cəza tədbirləri görülür və görüləcək. Azərbaycan ictimaiyyəti bu məsələ ilə bağlı məlumatlandırılır. Deyə bilərəm ki, mənim ünvanıma gələn minlərlə məktubda korrupsiya, rüşvətxorluq ilə bağlı bizim mübarizə çox yüksək qiymətə layiq görülür. Vətəndaşlar bunu təqdir edir, bəyənir və biz görürük ki, yerlərdən artıq siqnallar gəlməyə başlayır. Mən bir daha demək istəyirəm ki, mütləq ictimai nəzarət olmalıdır. Məmur özbaşınalığı ilə bağlı hər bir siqnal araşdırılacaq. Təbii ki, bu siqnallar ədalətli olmalıdır. Burada da hansısa qarayaxma kampaniyasına yol vermək olmaz və kortəbii yanaşmaq olmaz. Hər bir siqnal ciddi araşdırılacaq. Çünki istisna deyil ki, kimsə yalandan ortalığa bir məlumat ata bilər, kiminsə kimdənsə xoşu gəlmir, onun haqqında nəsə yaza bilər, belə hallar da var. Ona görə, ilk növbədə, ədalət və ictimai nəzarət təmin edilməlidir. Əminəm ki, biz korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə də qalib gələcəyik. Təsadüfi deyil ki, Ümumdünya Səhiyyə Təşkilatı pandemiya ilə mübarizə sayəsində görülmüş işlərə yüksək qiymət verərək Azərbaycanı nümunəvi ölkə adlandırıb. Bəlkə də başqa ölkələr haqqında oxşar fikirlər səsləndirilib, amma mən eşitməmişəm. Amma Azərbaycana gəldikdə, Ümumdünya Səhiyyə Təşkilatı, o təşkilat ki, dünya miqyasında bütün səhiyyə sahəsində işlərə rəhbərlik edir və işləri koordinasiya edir, Azərbaycanı nümunəvi ölkə adlandırıb.

Bütün bunlar bir daha ona göstərir ki, birincisi, Azərbaycan güclü dövlətdir, ikincisi, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır, onun sağlamlığıdır. Bu, onu göstərir ki, bizim tədbirlərimiz məqsədyönlüdür, səmərəlidir, vaxtında atılmış cəsarətli addımlardır. Biz insanların həyatını qorumaq üçün şüurlu şəkildə iqtisadi tənəzzülə və iqtisadi itkilərə getdik. Milyardlarla manat, – baxmayaraq ki, neftin qiyməti düşüb, – xərclədik və xərcləyirik. İnsanların sağlamlığı birinci yerdədir. Bu, onu göstərdi ki, ən çətin böhranlı anlarda biz düzgün addım ata bilərik və güclü iradə göstərə bilərik. Mən hər gün insanlardan yüzlərlə təşəkkür məktubu alıram. Onların cəmi bir hissəsi mətbuatda dərc edilir. İnsanlar bu məktublarda minnətdarlıqlarını bildirirlər. Mənim üçün görülmüş bu işlərə verilmiş ən yüksək qiymət vətəndaşların buna münasibətidir.

Mən bir daha sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Sizə fəaliyyətinizdə uğurlar diləmək istəyirəm. Əminəm ki, siz – "ASAN xidmət"də çalışan işçilər, könüllülər, öz işinizlə ölkəmizin ümumi inkişafına töhfə verəcəksiniz. Bir daha təbrik edirəm. Sağ olun.

Sonra Ağcabədi "ASAN xidmət" mərkəzinin əməkdaşı Tural NAĞIYEV çıxış edərək dedi:

– Möhtərəm cənab Prezident, Sizi Qarabağımızın doğma diyarı olan Ağcabədidə salamlayıram. Bu gün Sizin qarşınızda çıxış etməklə böyük qürur yaşayıram.

Möhtərəm cənab Prezident, dövlətçiliyimizin, müstəqilliyimizin inkişafı meyillərinə uyğun olaraq, gənclərimizin daha da yaxşı təhsil alması və aparıcı qüvvəyə çevrilməsi olduqca önəmli amildir. Bu baxımdan Sizin rəhbərliyinizlə gənclərlə bu formada görülən tədbirlər sayəsində Azərbaycan gəncliyinin inkişafına təkan verilmiş və bizlərin cəmiyyətdə fərd olaraq özümüzü təsdiq etməyimizdə böyük rol oynamışdır. Bu dedikləri-

mə bariz nümunə olaraq, Sizin müəllifi olduğunuz və dünyada Azərbaycan brendi kimi tanınan “ASAN xidmət” mərkəzləri dövlət idarəetməsində mühüm bir istiqamətə çevrilmişdir. Belə ki, yarandığı gündən etibarən şəffaflığı, korrupsiyaya qarşı mübarizəni və eləcə də elektron sahədə institusional islahatların səmərəliliyinin artırılması və nəhayətdə Sizin tapşırığınıza əsasən vətəndaşlara ləyaqətlə xidmət etməyi özünə ümdə vəzifə seçmiş “ASAN xidmət” mərkəzləri bu gün, Sizin də bayaq qeyd etdiyiniz kimi, 38 milyon vətəndaş müraciətini cavablandırmışdır. Sevindirici digər bir hal ondan ibarətdir ki, bu xidmətlərin həyata keçirilməsində 4500 nəfər işçi heyəti iştirak etmişdir. Bunların da mütləq əksəriyyəti məhz gənclərdir.

Cənab Prezident, COVID-19 virusu qlobal təsirini hələ də saxlamaqdadır. Lakin buna baxmayaraq, ölkəmizdə virusun yarandığı ilk dövrdən etibarən dövlət tərəfindən aparılan təcili, zəruri və təxirəsalınmaz tədbirlər sayəsində pandemiyanın zərərləri minimuma endirilmişdir. Bununla bərabər, Sizin təşəbbüsünüz və rəhbərliyinizlə dünya ölkələri, beynəlxalq təşkilatlar və eləcə də tanınmış nəhəng şirkətlərin rəhbərləri ilə videokonfrans vasitəsilə həyata keçirdiyiniz tədbirlər düşünürük ki, pandemiyaya qarşı ümumi mübarizəni daha da mütəşəkkil etmişdir. Bu tədbirlər fonunda qeyd etmək istərdim ki, may ayının 14-də hökumətlərarası COVID-19-a qarşı mübarizədə “ASAN Qlobal” veb-forumu keçirilmişdir. Bu veb-foruma dövlət agentliyi ev sahibliyi etdi. Forumda mütləq olaraq qeyd edildi ki, ölkəmizdə pandemiya dövründə vətəndaşlarımıza bir çox sahələrdə və bir çox xidmətlər üzrə yeni innovasiyalardan, texnologiyalardan istifadə edilərək rahat, çevik və fasiləsiz çıxış imkanı təmin olundu. Bir çox dövlətlər bu fürsətlərdən istifadə etmək, eyni zamanda, bu təcrübədən yararlanmaq üçün öz rəsmi müraciətlərini ünvanlamışlar.

Möhtərəm cənab Prezident, çıxışımın sonunda qeyd etdiyim bütün bu məqamlar, əslində, ölkə rəhbərliyinin xalqa, bilavasitə gənclərə olan diqqət və qayğısını əks etdirməkdədir. Belə ki, biz bir gənc olaraq öz üzərimizə düşən vəzifəni anlayaraq, yaxşı təhsil alıb öz ixtisasımıza dərindən yiyələnib, heç bir əks təsirin Vətən sevgisini üstələməsinə izn vermədən bu mirası gələcək nəsillərə ərməğan etməliyik. Odur ki, yaşasın dövlətimiz və onun müstəqil, müasir və mübariz gəncliyi!

Diqqətinizə görə minnətdaram.

Daha sonra “ASAN könüllüsü” Aytac Abdullayeva çıxış edərək dedi:

– Möhtərəm cənab Prezident, əvvəla, Sizi salamlayıram. Sizi doğma Ağcabədimizdə görməkdən çox şadıq. Ağcabədi sakinləri, eləcə də biz gənclər rayonumuzda “ASAN xidmət” mərkəzinin açılacağı günü səbirsizliklə gözləyirdik. Bir tərəfdən region əhalisi bir məkandan şəffaf qaydada bir çox dövlət və özəl xidmətlərdən yararlanacaq, digər tərəfdən isə gənclərimizə əlavə fürsətlər açılacaq. Biz və bizim kimi çoxlu gənclər bu qurumun bir parçası olaraq könüllü fəaliyyət göstərmək, dövlətimizə və xalqımıza fayda vermək istəyirik.

Möhtərəm Prezident, “İnsanların əsl gücü ən çətin məqamlarda bilinir”, – deyə bir deyim var. Bu gün pandemiya dövründə Sizi yanımızda görmək bizim gücümüzə güc qatır. Biz bu çətin günlərdə Sizin “Biz birlikdə güclüyük!” şüarınız altında xalqımızın birliyinin bir daha şahidi olduq. Biz könüllülər də “Könüllülər ili”ndə bu prosesdən kənarda qala bilməzdik.

Siz çıxışlarınızdan birində yaşlı tənha insanların ehtiyaclarının təmin olunması üçün biz könüllülərə səsləndiniz. Elə bununla da ölkəmizin hər yerində bütün könüllülər səfərbər oldular. “ASAN könüllüləri” olaraq yaşı 65-dən yuxarı tənha yaşayan mindən çox insanı ərzaqla və bir çox tibbi vasitələrlə təmin etdik. Bizlər karantin elan olunan vaxtdan tibb işçiləri ilə birgə aeroportda vətəndaşların qarşılanmasına, məlumatlandırılmasına və zəruri ilkin tibbi ləvazimatlarla təmin olunmasına kömək etdik. Biz “ASAN könüllüləri” qana ehtiyacı olan, qan xəstəliyindən əziyyət çəkən insanlara qan donorluğu edib onların həyatda qalmalarına yardımçı olduq. Xüsusi qayğıya ehtiyacı olan 2 mindən çox uşağı və ailəsini ərzaqla təmin etdik. Biz “Könüllülər ili”nin tam mənada fədakarcasına yaşandığını gördük. Biz hamımız əminik, Sizin dediyiniz kimi, milli həmrəylik, məsuliyyət, milli birliyimiz imkan verəcək ki, biz bu xəstəliyə qalib gələk.

Bu gün biz Qarabağ gəncləri olaraq çox rahatıq. Çünki bilirik ki, arxalana biləcəyimiz dövlətimiz və Siz varsınız, cənab Prezident. Eyni zamanda, dövlətimiz də bizə arxalana bilər. Çünki biz də digər könüllülər kimi xalqımızın və dövlətimizin rifahı üçün əlimizdən gələn hər şeyi edəcəyik. Hər zaman yanımızda olduğunuz üçün Sizə təşəkkürümüzü bildirirəm. Bunu da qeyd etmək istəyirəm ki, biz də hər zaman Sizin yanınızdayıq.

Prezident İlham Əliyev: Çox sağ olun. Sizi bir daha təbrik edirəm. Sizə uğurlar arzulayıram. Özünüzə yaxşı baxın, vətəndaşlarla məsafə saxlayın.

İyunun 3-də Ağcabədi şəhərinin içməli su təchizatı və kanalizasiya sistemləri istismara verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Cəbhəyanı ərazidə yerləşən Ağcabədi şəhərində əhalinin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılması mühüm əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin təsdiqlədiyi regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində 2017-ci ildə “Ağcabədi şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi”nin icrasına başlanıb. Azərbaycan hökuməti və Asiya İnkişaf Bankının birgə maliyyələşdirdiyi “Su təchizatı və kanalizasiya investisiya proqramı” çərçivəsində icra olunan layihə 2035-ci ilədək perspektiv inkişaf nəzərə alınmaqla 45 min nəfərin içməli su və

kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb.

Prezident İlham Əliyev Ağcabədi şəhərinə içməli suyun verilməsini təmin edən qurğunu işə saldı.

Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov dövlətimizin başçısına məlumat verdi ki, Ağcabədi şəhərini içməli su ilə təmin etmək üçün mənbə olaraq yeraltı sular seçilib və bu məqsədlə 14 subartezian quyusu qazılıb. Su mənbəyindən şəhərə 15 kilometr uzunluğunda magistral su xətti çəkilib. Şəhərin dayanıqlı su təchizatı məqsədilə hər birinin tutumu 10 min kubmetr olan 2 su anbarı inşa edilib. Layihə çərçivəsində Ağcabədi şəhərində 350 kilometr içməli su xəti çəkilib, 8500 ünvana ev birləşməsi verilərək su sayğacları quraşdırılıb. Suyun optimal idarə olunması üçün 618 siyirtmə, yanğın təhlükəsizliyi məqsədilə 905 yanğın hidrantı quraşdırılıb. Hazırda şəhər əhalisi yeni çəkilmiş şəbəkə vasitəsilə 24 saat keyfiyyətli içməli su ilə təmin olunur.

Ağcabədi şəhərində tullantı sularının idarə edilməsi məqsədilə 305 kilometr tullantı su şəbəkəsi, 4 kanalizasiya-nasos stansiyası, 9 kilometr kanalizasiya kollektoru inşa edilib. Yeni yaradılmış tullantı su şəbəkəsindən ünvanlara birləşmələr verilib. Şəhərdə yaranacaq tullantı suların zərərsizləşdirilməsi məqsədilə məhsuldarlığı sutkada 10 min kubmetr olan təmizləyici qurğunun tikintisi üzrə son tamamlama işləri aparılır. İstehlakçılara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə Ağcabədi Sukanal Sahəsi üçün müasir tipli inzibati bina tikilib.

İyunun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 110/35/10 kilovoltluq "Ağcabədi-2" elektrik yarımstansiyasının yenidənqurmadan sonra istifadəyə verilməsi mərasimində iştirak edib.

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri Vüqar Əhmədov dövlətimizin başçısına məlumat verdi ki, istehlakçıların elektrik təchizatının yaxşılaşdırılması məqsədilə Ağcabədi rayonu ərazisində 35 kilovoltluq yarımstansiyada əsaslı yenidənqurma işləri aparılaraq, gərginlik sinfi artırılıb və 110/35/10 kilovoltluq "Ağcabədi-2" yarımstansiyası inşa edilməklə, yarımstansiyanın qoyuluş gücü 17,5 MVA-dan 40 MVA-ya çatdırılıb. Bu yarımstansiya vasitəsilə Ağcabədi şəhərində sosial-iqtisadi təyinatlı obyektlərin, meliorasiya və suvarma sistemlərinin, ətraf kənd və qəsəbələrin, həmçinin Taxtakörpü ərazisində məskunlaşmış Laçın rayonundan olan məcburi köçkünlərin və hərbi hissələrin fasiləsiz və dayanıqlı elektrik enerjisi təchizatı təmin olunacaq. Yarımstansiyanın istismara verilməsi ilə 5262-si əhali, 831-i qeyri-əhali olmaqla, ümumilikdə 6093 abonentin elektrik enerjisinin təchizatı daha da yaxşılaşdırılacaq. Yarımstansiya beynəlxalq standartlara cavab verən müasir tipli elektrik avadanlıqları, elektron tipli rele mühafizəsi və avtomatika sistemləri ilə təchiz edilib, məsafədən idarə olunan SKADA dispetçer sisteminə qoşulub. Yarımstansiyanın 330 kilovoltluq "İmişli" və "Ağcabədi" qovşaq yarımstansiyaları ilə əlaqələndirilməklə dairəvi elektrik təchizat sxeminə qoşulması təmin edilib ki, bu da istehlakçıların, xüsusən də əhalinin enerji təchizatının dayanıqlılığını və təhlükəsizliyi artırıb.

Dövlətimizin başçısı "Ağcabədi-2" elektrik yarımstansiyasını işə saldı.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkəmizdə elektroenergetika sahəsində mühüm işlər görülüb, çatışmazlıqların aradan qaldırılması, yeni yarımstansiyaların tikintisi diqqət mərkəzində saxlanılıb. Bu sırada Ağcabədi rayonunda energetika sisteminin yenidən qurulması, əhalinin fasiləsiz elektrik enerjisi ilə təchiz olunması prioritet məsələlərdən olub.

Son illərdə aparılan geniş tikinti, yenidənqurma və bərpa işləri nəticəsində rayonun kəndləri və ətraf ərazilərin elektrik təchizatının yaxşılaşdırılması, həmçinin kənd təsərrüfatı obyektlərinin artan elektrik tələbatının qarşılanması üçün geniş imkanlar yaranıb. Bu illərdə rayonda xeyli hava xətləri çəkilib, kəndlərin elektrik şəbəkəsi özünüdaşıyan izolyasiyalı naqillərlə əvəzlənib. Bununla mövcud elektrik şəbəkəsinin qoyuluş gücü artıb, texniki itkilər kəskin şəkildə azalıb.

## *Gəncə şəhərinə səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 24-də Gəncə şəhərinə səfərə gəliblər.

Dövlətimizin başçısı və birinci xanım ümummilli lider Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydular.

Qeyd edək ki, bu, Prezident İlham Əliyevin Gəncəyə 16-cı səfəridir. Belə səfərlər zamanı sakinlər tərəfindən qaldırılan məsələlərin həlli ilə bağlı dövlətimizin başçısının verdiyi göstərişlər, imzaladığı sərəncamlar şəhərin hərtərəfli inkişafına zəmin yaradır. Belə ki, 2003-cü ilə nisbətdə 2019-cu ildə Gəncədə məhsul buraxılışı 4,3 dəfə, sənaye 2,7 dəfə, kənd təsərrüfatı 2,8 dəfə, əsas kapitala yönəldilmiş vəsait 60 dəfə, o cümlədən tikinti-quraşdırma işləri 63,1 dəfə artıb. 2003-cü ildən 2020-ci ilin birinci rübü ərzində Gəncədə 60 587, bu il isə ödənişli əsaslarla 2075, pandemiya ilə əlaqədar üç min müvəqqəti iş yeri açılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 24-də Gəncədə "NB Satınalma və Ticarət" MMC-nin süni mərmər və qranit istehsalı zavodunun açılışında iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma müəssisənin fəaliyyəti barədə məlumat verildi.

Prezident İlham Əliyev zavodu işə saldı.

Məlumat verildi ki, müəssisədə süni mərmər, keramoqranit – yəni, yer və divar üzlükləri, metlax və quru inşaat qarışıqları istehsal ediləcək. Hazırda burada illik istehsal gücü 40 min ton astar və 20 min ton üzlük olan tikinti materialları istehsalı zavodu tikilib və avadanlıqları quraşdırılıb. Məhsulların hazırlanmasında istifadə olunan xammal Daşkəsən, Şəmkir, Ağstafa və Qaradağ rayonlarından gətirilir. Müəssisənin illik istehsal gücü - 3 milyon kvadratmetr olacaq. Burada hazırlanan məsulların Rusiya Federasiyasına, Gürcüstana və Orta Asiya respublikalarına satışı nəzərdə tutulur. Zavodda 300-dən çox yeni iş yeri yaradılıb.

Zavodun direktoru Anar Məmmədov bildirdi ki, müəssisənin ümumi dəyəri 46,5 milyon manatdır. Onun 10 milyon manatı güzəştli kreditdir. Ümumi dəyəri 32 milyon manat olan investisiya təşviqi sənədi alınmış və 6 milyon manat vəsaitə qənaət olunub.

Qeyd edək ki, ölkəmizin hər yerində olduğu kimi, Gəncədə də sahibkarlığa ümumi iqtisadi inkişafın mühüm subyekti kimi baxılır. 2004-cü ildən bəri Sahibkarlığın İnkişafı Fondu tərəfindən Gəncədə 498 sahibkara 51,2 milyon manat kredit verilib. Bu da şəhərdə yeni istehsal müəssisələrinin yaradılmasına şərait yaradıb.

İyunun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Gəncə şəhəri ərazisində Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) tərəfindən inşa edilən yaşayış kompleksinin tikintisi ilə tanış olublar.

Dövlətimizin başçısına və birinci xanıma tikinti işlərinin gedişi barədə məlumat verildi.

Bildirildi ki, Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən 2020-ci ilin fevral ayında Gəncə şəhərinin Azərbaycan Bayrağı küçəsində yaşayış kompleksinin tikintisinə başlanılıb. Kompleksə 18 çoxmənzilli bina və əsaslı təmirə ehtiyacı olan 28 və 46 nömrəli ümumtəhsil məktəbləri üçün bina, uşaq bağçası və digər xidmət obyektləri daxildir. Cari ilin avqust ayında ümumtəhsil məktəbi binasının və 2021-ci ilin sonunadək 11 yaşayış binasının istismara verilməsi nəzərdə tutulub. Layihəyə əsasən yaşayış binaları doqquz və on iki mərtəbəli olacaqdır.

Mənzillər vətəndaşlara tam təmirli, mətbəx mebeli və qaz plitəsi, fərdi kombi sistemi və digər texniki avadanlıqlarla təchiz olunmuş vəziyyətdə təklif ediləcək. Kompleksin ərazisində yaşıllıq zonaları, uşaq meydançaları yaradılacaq.

Qeyd edək ki, bu kompleksin tikintisi demoqrafiq inkişafa uyğun olaraq əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün dövlətimizin başçısının qarşıya qoyduğu vəzifələrin həllində mühüm əhəmiyyət kəsb edəcək.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 24-də 1 saylı Gəncə Şəhər Xəstəxanasının modul tipli infeksion xəstəliklər korpusunun açılışında iştirak ediblər.

Dövlətimizin başçısı və birinci xanım yeni tibb müəssisəsində yaradılan şəraitlə tanış olublar.

Azərbaycan Prezidenti İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verildi ki, digər modul tipli infeksion xəstəliklər korpuslarında olduğu kimi burada da orta simptomları olan infeksion koronavirus xəstələrin qəbulu və müalicəsi üçün şərait yaradılıb. Bildirilib ki, eyni zamanda, yeni tibb müəssisəsinin daha ağır simptomları olan xəstələrin qəbulu üçün əlavə avadanlıqlarla təchiz olunması istiqamətində işlər görülür. Üç korpusdan ibarət olan, ümumilikdə 100 palata və 200 çarpayılıq bu xəstəxana kompleksi mərkəzləşdirilmiş oksigen generator sistemi, həmçinin xüsusi havalandırma sistemi ilə təchiz olunub. Bu sistem havanı ventilyasiya qurğusu ilə təmizlədikdən sonra palatalara ötürəcək.

Modul tipli infeksion xəstəliklər korpusu ilə tanışlıqdan sonra dövlətimizin başçısı və birinci xanım bir qrup tibb işçisi ilə görüşdülər.

Prezident İlham Əliyev görüşdə çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

– Bu gün Gəncə şəhərində modul tipli xəstəxana açılır. Bu əlamətdar hadisə münasibətilə sizi təbrik edirəm.

Qısa müddət ərzində 200 çarpayılıq, müasir texnologiyalar əsasında quraşdırılan xəstəxana artıq istifadəyə verilir. Nəzərə alsaq ki, koronavirusla mübarizə davam edir, bu xəstəxananın çox böyük əhəmiyyəti vardır.

Ölkəmizdə sayca 5-ci modul tipli xəstəxana açılır. Onlardan ikisi Bakıda, biri Sumqayıt şəhərində, biri isə Abşeron rayonunda artıq fəaliyyətə başlayıbdır. Yaxın həftələrdə digər şəhərlərdə də bu tipli xəstəxanalar istifadəyə veriləcək. Beləliklə, bu xəstəxanaların sayı 10-a çatacaq. Bu, bizə imkan verəcək ki, əlavə 2 min çarpayı əldə edək. Nəzərə alsaq ki, koronavirus xəstələrinin sayı artır, bu, COVID-19-a qarşı mübarizədə öz rolunu oynamalıdır.

Bu xəstəxanaların tikintisi ilə əlaqədar qərar aprel ayında qəbul edilmişdir. O vaxt xəstələrin sayı kifayət qədər az idi. Eyni zamanda, yəqin ki, xatırlayırsınız, aprel ayında xəstələnənlərin və sağalanların arasında fərq müsbət idi. Daha çox insan sağalırdı, nəinki xəstələnirdi. Amma buna baxmayaraq, hesab etdik ki, əlavə çarpayıların əldə edilməsi də faydalı ola bilər. Həyat göstərdi ki, bu nə qədər düzgün qərar idi. Çünki bu gün xəstələrin sayı artır və beləliklə, bizə yeni çarpayılar lazımdır.

Bütövlükdə deyə bilərəm ki, əgər son illər ərzində mənim göstərişimlə ölkəmizin hər bir yerində, o cümlədən Bakı şəhərində müasir xəstəxanalar tikilməsəydi, bu gün biz koronavirusla mübarizədə çox böyük problemlərlə üz-üzə qala bilərdik. Son illərdə ölkəmizin səhiyyə sisteminin möhkəmləndirilməsi işində ən vacib məsələlərdən biri yeni xəstəxanaların tikilməsi, köhnə xəstəxanaların isə əsaslı təmiri və bərpası olmuşdur. Beləliklə, bizim şəhərlərin mütləq əksəriyyətində xəstə-

xanalar tikilib və bir neçə şəhərdə tikinti davam edir. Sonuncu xəstəxana Samux şəhərində istifadəyə veriləcəkdir. Bu məqsədlər üçün vəsait ayrıldı və əlavə vəsait də ayrılacaq. Bu gün Bakı şəhərində koronavirus xəstələri daha çox son illər ərzində inşa edilmiş xəstəxanalarda müalicə alırlar. Xüsusilə "Yeni klinika"nı qeyd etməliyəm. O, ölkəmizdə ən gözəl, ən müasir klinikadır və ən böyük tibb ocaqlarından biridir. Təxminən 600 çarpayılıq klinikada bu gün xəstələr müalicə alır. Eyni zamanda, bir neçə il bundan əvvəl mənim təşəbbüsümlə tikilmiş Azərbaycan Tibb Universitetinin Tədris-Terapevtik və Cərrahiyyə korpuslarının fəaliyyəti hesabına biz xəstələri müalicə edirik.

Koronavirusla əlaqədar ilkin mərhələdə qabaqlayıcı tədbirlərimiz bizi böyük fəlakətdən qorudu. Çünki Azərbaycanda yoluxanların sayı əhalinin ümumi sayı ilə müqayisədə çox aşağıdır. Cəmi 13 min insan yoluxmuşdur. Onların böyük əksəriyyəti sağalıb və xəstəxanalardan çıxıbdır. Ona görə qabaqlayıcı və məhdudlaşdırıcı tədbirlərin çox böyük faydası olmuşdur.

Bildiyiniz kimi, bütün dünya bu xəstəlikdən əziyyət çəkir və xəstələrin sayının kəskin artması bir çox ölkələrin səhiyyə sisteminə də böyük zərbə vurmuşdur. Əslində, heç bir ölkənin səhiyyə sistemi belə sürətlə artan xəstələrin müalicəsinə hazır deyildi. Bu, mümkün də deyildi. Eyni zamanda, digər problem xəstələrə xidmət edən həkimlərin sayı ilə bağlıdır. Həkimlərin sayı 2-3 ay ərzində arta bilməz. Ona görə bu da bir çox ölkələr üçün böyük problemə çevrilmişdir, o cümlədən bizim üçün. Odur ki, məhdudlaşdırıcı tədbirlərin görülməsində böyük fayda olmuşdur. Bildiyiniz kimi, may ayının əvvəlindən artıq yumşalma meyilləri başlamışdır. Bunun da səbəbi o idi ki, bir daha qeyd etmək istəyirəm, sağalanların sayı yoluxanların sayından çox idi.

Ancaq son müddətin dinamikası göstərir ki, bizim bütün tələblərimizə baxmayaraq, bəzi insanlar məsuliyyətsizlik göstərərək elementar qaydalara əməl etmirlər. Bu qaydalar haqqında artıq bəlkə min dəfə deyilib. Həm mən demişəm, həkimlər deyib, tibb mütəxəssisləri deyib, müxtəlif insanlar deyib. Təkcə Azərbaycanda yox, bütün dünyada bu qaydalar çox sadədir və onlara əməl etmək o qədər də böyük əziyyət tələb etmir – maska, məsafə və dezinfeksiya. Bu üç əsas amil insanları qoruyur. Əgər bu üç amilə əməl olunarsa, onda yoluxmanın sayı kəskin azalacaq. Ancaq biz nəyi görürük? Onu görürük ki, yumşalma tədbirlərindən sonra Azərbaycanda bu qaydalar kütləvi surətdə pozulur və məhz buna görə biz yenidən məhdudlaşdırıcı tədbirləri tətbiq etdik. Çünki görürdük ki, xəstələnənlərin sayı, dinamikası artır və əgər belə gedərsə, bizim də səhiyyə sistemimiz buna davam gətirə bilməz. Ona görə bu həftənin əvvəlindən Bakı şəhərində və bir neçə digər şəhərlərdə daha da sərt karantin rejimi tətbiq edilir. Bunun əsas və yeganə səbəbi odur ki, əfsuslar olsun, bəzi insanlar elementar qoruyucu qaydalara əməl etmirlər. Bu sərtləşdirilmiş rejim nə qədər davam edəcək, bunu həyat və koronavirusun yayılması göstərəcək.

Həkimlər yaxşı bilirlər və artıq ictimaiyyətə də dəfələrlə bu fikir çatdırılıb ki, sərtləşdirilmiş tədbirlərin əsas məqsədi yoluxmanın sürətini azaltmaqdır. Hər kəs yaxşı başa düşür ki, koronavirus yoxa çıxmayıb və yoxa çıxmayacaq. Biz bu xəstəliklə yaşamağa məcburuq və artıq kütləvi surətdə yeni davranış qaydaları tətbiq edilməlidir. Ona görə bütün ölkələrin əsas səyləri odur ki, yoluxmanın sürəti azalsın, az insan xəstələnsin və ölkələrin səhiyyə sistemi imkan versin ki, bütün xəstələr lazımi müalicə alsınlar. Odur ki, biz bu addımı atdıq və hesab edirəm ki, düz etmişik, baxmayaraq ki, indi bəzi ölkələr daha da irəliyə gedərək, daha çox yumşaldıcı addımlar atır. Təbii ki, bunun əsas səbəbi iqtisadi sahədə olan problemlərdir.

Bizdə də bu problemlər var, beş ayın nəticələri onu göstərir ki, bizim iqtisadiyyatımız da tənəzzülə uğrayıb. O qədər də böyük tənəzzül deyil – cəmi 1,7 faiz. Ancaq biz ilin əvvəlində çox yaxşı iqtisadi göstəricilər nümayiş etdirmişdik. Bizim çox böyük planlarımız, çox gözəl perspektivlərimiz var idi. Bütün aparıcı beynəlxalq maliyyə qurumları da 2020-ci ili Azərbaycanda sürətli inkişaf ili kimi görürdülər və bunu bəyan edirdilər. Biz şüurlu şəkildə məhdudlaşdırıcı tədbirləri gördük və deyə bilərəm, dünyada ilk ölkələrdən idik ki, bütün lazımi məhdudlaşdırıcı tədbirləri gördük, məktəbləri, ali məktəbləri, ictimai iaşə obyektlərini, böyük ticarət mərkəzlərini bağladıq ki, kütləvi yoluxmanın qarşısı alınsın.

Ona görə hesab edirəm ki, biz düzgün addım atmışıq. Çünki bir daha demək istəyirəm, – mən bunu demişəm, – mənim üçün insanların sağlamlığı əsas prioritetdir. Əlbəttə, iqtisadiyyat tənəzzülə uğrayır və hələ bəlli deyil ki, ilin sonuna qədər bizi hansı problemlər gözləyir. Hər kəs bunu bilməlidir. Eyni zamanda, dünya bazarlarında neftin qiyməti hələ də sabitləşməyib. Əlbəttə, o böyük çökmənin qarşısı alınıb və neftin qiyməti tədricən bərpa edilib. Ancaq Azərbaycan büdcəsi neftin qiymətinin 55 dollarına hesablanıb və beş ayın nəticəsində neftin orta qiyməti 41 dollardır. Ona görə bizim gəlirlərimiz azalır. Bir neçə önəmli iqtisadi sahə demək olar ki, fəaliyyətsiz qalıb. Onların biri turizm sahəsidir. Biz son 4-5 il ərzində turizm sahəsini çox güclü və təkanverici sektor kimi formalaşdırmışdıq və ildən-ilə Azərbaycana gələn turistlərin sayı artırdı. Keçən il rekord həddə çatmışdır, ölkəmizə 3 milyon xarici vətəndaş gəlmişdir. Müxtəlif hesablamalara görə, onlar Azərbaycanda təqribən bir yarım – iki milyard dollar pul xərcləyiblər. Bu, ölkəmizə gələn valyutanın artması deməkdir. Yəni, biz bundan məhrum olduq.

Bir neçə başqa sektor artıq uzun müddətdir ki, fəaliyyətsizdir. Dövlət o sektorların və orada çalışan insanların problemlərini öz üzərinə götürübdür. Biz indi 600 mindən çox insanı lazım olan vəsaitlə təmin edirik və 190 manatın verilməsi müddəti uzadıldı, baxmayaraq

ki, bu da böyük yükdür və böyük xərclər deməkdir. Amma biz bunu edirik. Çünki işini itirmiş, yaxud da ki, aztəminatlı təbəqəyə aid olan, hətta qeyri-rəsmi şəkildə işləyən insanlar faktiki olaraq çətin vəziyyətdə qalıblar və kim onlara kömək edəcək?! Azərbaycan dövləti hər zaman Azərbaycan vətəndaşının yanındadır.

Ona görə həm birinci mərhələdə – sərtləşdirilmiş məhdudlaşdırıcı tədbirlər tətbiq olunanda və bu gün biz məcbur olub növbəti dəfə bu addımlara getdik, şəxsən mənim üçün seçim yox idi. İlk növbədə, insanların həyatı və onların sağlamlığıdır. İqtisadi problemlər arxa planda olmalıdır.

Bir də ki, biz son illər ərzində görülmüş işlər, aparılmış islahatlar nəticəsində iqtisadi gücümüzü böyük dərəcədə artırmışıq. Bizim iqtisadiyyatımız sabit, dayanıqlı iqtisadiyyatdır. Hesab edirəm ki, bu ilin sonuna qədər iqtisadi sahədə problemlər kəskinləşsə də, insanların həyat tərzinə bunun böyük təsiri olmayacaqdır. Heç bir sosial layihə ixtisar edilməyib. Bu gün mənim Gəncəyə səfərim çərçivəsində açılan və açılacaq obyektlərin sayı onu göstərir. Heç bir sosial layihə ixtisar edilməyib, əksinə, biz 10 modul tipli xəstəxananın tikintisini təmin edirik. Biz məcburi köçkünlər üçün yeni şəhərciklər salırıq. Onlardan biri də Samux rayonundadır. Yeni məktəblər tikilir. Bu gün Gəncədə Mənzil İnşaatı Dövlət Agentliyinin xətti ilə yeni yaşayış kompleksinin tikintisi ilə tanış olmuşam. Orada da məktəb, bağça tikilir. Bütün bunlar dövlət büdcəsi hesabına təmin edilib.

Mən demişəm ki, sosial sahədə heç bir ixtisar olmayacaq. Hesab edirəm ki, koronavirus pandemiyasının miqyasından asılı olmayaraq, ilin sonuna qədər insanların yaşayış səviyyəsi dəyişməz olaraq qalmalıdır. Keçən il isə, – hər kəs yaxşı bilir, – çox böyük sosial paket tətbiq olundu. Minimum əməkhaqqı orta hesabla iki dəfə, minimum pensiya 70 faiz artdı. Müavinətlər 50 faiz, 100 faiz artdı. Problemli kreditlər kompensasiya şəklində insanlara maddi hədiyyə olaraq verildi. Yəni, bu məqsədlər üçün milyardlarla manat xərcləndi. Pandemiyaya qarşı mübarizə üçün 3 milyard manatdan çox vəsait nəzərdə tutulur. Bu vəsaitin bir hissəsi xərcləndi və biz yeni avadanlıqlar alırıq. İndi 23 laboratoriyamız var. Amma, eyni zamanda, problem ondadır ki, artıq fevral, mart aylarında sifariş edilmiş avadanlığı, hansısa cihazı biz bəzən ala bilmirik. Çünki bunu istehsal edən ölkələr onu satmır, özləri üçün saxlayırlar. Problem bundadır.

Ona görə ölkəmiz bu problemlə üzləşib və biz çalışmalıyıq ki, bu vəziyyətdən şərəflə çıxaq. Ancaq dövlət tərəfindən atılmış addımlar əgər kütləvi surətdə ictimaiyyət tərəfindən dəstəklənməsə, bunun xeyri olmayacaq. Dəstək isə nədən ibarətdir? Sadəcə olaraq, üç adi qaydanı gözləmək, buna əməl etmək və məsuliyyət, nizam-intizam göstərmək. Biz birlik, həmrəylik nümayiş etdirmişik. Çətin vəziyyətdə olan insanların problemlərini həll edirik, o cümlədən ictimai təşkilatlar, Heydər Əliyev Fondu. Əlbəttə ki, əsas yük dövlətin üzərindədir. Aztəminatlı təbəqəyə yardımlar edilir. Mənim təşəbbüsümlə yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fonduna sahibkarlar, ayrı-ayrı adamlar tərəfindən 100 milyon manatdan çox vəsait daxil edilib. Bu, böyük vəsaitdir və həmrəyliyin təzahürüdür. Necə ki, həmrəylik, birlik göstəririk, məsuliyyət də göstərməliyik. Bunu inkişaf etmiş bir neçə ölkənin liderləri qeyd edir ki, bu, müharibədir və burada düşməni görmək mümkün deyil. Eyni zamanda, bilmək mümkün deyil, bu müharibə nə vaxt bitəcək. Bunu heç kim deyə bilməz. İndi əlbəttə ki, hər kəs peyvəndi gözləyir, o cümlədən də biz. Amma bəzi həkimlərin fikrinə görə, peyvənd də bəlkə bu koronavirusu tam məhv edə bilməyəcək. Kim bilir? Bu peyvənd hələ icad edilməyib. Hələ bunun üzərində iş aparılır. Amma yoluxanların sayı artır, beləliklə, təhlükə də artır. Ona görə burada ancaq və ancaq vətəndaşların məsuliyyəti ön planda olmalıdır.

Dövlət nə lazımdırsa, onu edir. Bundan artıq nəsə etmək mümkün deyil. Çünki nə lazım idisə, biz onu etmişik və edəcəyik. Bu məqsədlər üçün istənilən vəsaiti xərcləməyə hazırıq, vəsaitimiz də var və heç kimdən də asılı deyilik. Bəzi ölkələrdən fərqli olaraq, heç kimə müraciət etmirik. Onu da bildirməliyəm ki, beynəlxalq maliyyə qurumlarının məlumatına görə, dünyada 150 ölkə kredit üçün müraciət edib. Yəni, beynəlxalq birliyin əksər hissəsi. Azərbaycan etməyib. Çünki ehtiyac yoxdur. Özümüz edirik, vəsaitimiz də var və xərcləyirik. Amma gərək indi məsuliyyətsiz adamlar bunu dərk etsinlər. Bir də ki, bu adamlara qarşı ictimai qınaq olmalıdır. Qapalı yerlərdə maska taxmayana qarşı, əlbəttə ki, cərimə tətbiq edilməlidir. Amma, eyni zamanda, bunu görən başqa vətəndaş onu tənbeh etməlidir, onu başa salmalıdır. Gözləməməlidir ki, polis gələcək, onu cərimələyəcək. Polis də insanları qorumaq üçün gecə-gündüz küçələrdədir, gecə-gündüz fasiləsiz işləyir. Ona görə qapalı şəraitdə hər kəs maska taxmalıdır.

Mən maska ilə gəzirəm. Göstərmişəm, bir daha göstərirəm. Bütün qapalı yerlərdə maska taxıram. Yaxşı, indi Prezident bunu edirsə, niyə başqası edə bilməz? Nə çətin şeydi bu? Heç bir əziyyət vermir, heç bir problem yaratmır. Sadəcə olaraq, məsuliyyətsizlik və deyə bilərəm ki, eqoizm və biganəlik. Gənc nəslin nümayəndələri üçün bu xəstəlik o qədər də təhlükəli deyil və hesab edir ki, xəstələnərəm, sağalaram. Axı, yaxşı sən sağalarsan, amma sən yaşlı insanı da yoluxdurarsan. Sən onun həyatını təhlükə altına atırsan. Biz bu məsuliyyətsizliyə dözməliyikmi? Çünki bu, cinayətdir. Ona görə ictimai qınaq və çox ciddi dövlət nəzarəti olmalıdır. Mən bu məsələ ilə bağlı Operativ Qərargaha göstəriş verdim ki, çox ciddi dövlət nəzarəti olmalıdır. Belə olan halda biz bütün tədbirləri daha operativ şəkildə görə bilərik və bu vəziyyətdən az itkilərlə çıxa bilərik. Mən demişəm və həkimlər yaxşı bilir. Bir xəstənin müalicəsi üçün nə qədər həkim çalışır, nə qədər həkim gecə-gündüz o ağır vəziyyətdə, o kombinezonda, eynəkdə, maskada əziyyət

çəkir. Biz həkimlərin fəaliyyətini yüksək qiymətləndiririk. Ancaq hər bir insan bunu bilməlidir. Həkimlər də yoluxur, həkimlər də ölür. Bir daha demək istəyirəm ki, bizim indi nə qədər həkimimiz var, hamısını bu işlərə cəlb edirik. Bizim bundan iki dəfə çox həkimimiz yoxdur. Sabah bu pandemiya daha geniş vüsət alsa, əgər bu gün, misal üçün 300–400 adam yoluxursa, sabah daha çox adam yoluxarsa, bunları biz harada yerləşdirəcəyik. Tutaq ki, yerləşdirdik, indi xəstəxanalar tikilir və bizim boş çarpayılarımız var, ancaq həkimlərin sayını necə artıra bilərik?! Gərək hər kəs bu haqda fikirləşsin, hər kəs düşünsün.

İdarələrdə idarə rəhbərləri görəndə ki, onun işçisi maska taxmır, əlbəttə, tədbir görməlidir, dərhal reaksiya verməlidir, müvafiq qurumlara məlumat verməlidir. Əgər belə davam edərsə, mən deyəcəyəm ki, cərimələrin həcmini artırsınlar. Çünki indi böyük imkanlara sahib olan adamlar nə üçün 50 manat, 100 manat cərimə verirlər. O çıxır, maşınına oturur, hara istəyir gedir. Tutaq ki, onu saxladılar, saxlamadılar, onu da hələ bilmək olmur. Çünki hər kəsi saxlamaq da mümkün deyil. Cəriməni verir gedir, sonra istədiyini edir. Ona görə mən tapşırıq vermişəm ki, dövlət orqanları, yerli icra orqanları, hüquq mühafizə orqanları tərəfindən bu məsələyə daha ciddi nəzarət olmalıdır. Çünki bu, milli təhlükəsizlik məsələsidir.

İndi görün inkişaf etmiş ölkələrdə nələr baş verir. Vəziyyət tamamilə böhran həddinə çatıb. O ölkələrin ki, dövlətçilik ənənələri yüzilliklərlə ölçülür və o ölkələrin səhiyyə sistemi dünyada nümunə kimi təqdim olunur, onlar da bacarmırlar, çünki bu, mümkün deyil. Ona görə mənim bu sözlərim hesab edirəm, hər kəs üçün əsas olmalıdır – həm vətəndaşlar üçün, – onlar daha məsuliyyətli olmalıdırlar, – həm də vəzifə tutanlar, dövlət məmurları üçün. Dövlət nəzarəti, ictimai nəzarət, vətəndaşların nizam-intizamı və məsuliyyəti artmalıdır. Əgər biz görsək ki, nizam-intizam bundan sonra da pozulur, onda fikirləşərik, daha hansı təsirli addımlar atılsın ki, bu qaydaları pozanlara qarşı daha ciddi tədbirlər görülsün.

Bütün bunlarla bərabər, eyni zamanda, deməliyəm ki, həyat davam edir. Biz bu il nəzərdə tutulmuş bütün proqramları icra etməliyik. Bu gün Gəncə şəhərində bir neçə vacib obyektin açılışı nəzərdə tutulur. Mən bu gün artıq yeni zavodun açılışında iştirak etdim. Mənə verilən məlumata görə, orada 300-dən çox insan işlə təmin ediləcək. Bu zavodda istehsal olunan məhsullar idxalı əvəzləyəcək və yerli bazarı təmin edəcək.

Gəncə şəhərinin tarixi abidələrinin bərpası ilə əlaqədar mənim tərəfimdən müvafiq göstərişlər verilib. Yaxşı bilirsiniz ki, bütün xalqımız üçün çox əziz və müqəddəs olan "İmamzadə" tarixi-dini kompleksinin yenidən qurulması, onun genişləndirilməsi, orada məscidin tikilməsi və digər tikililərin yaradılması təmin edilib. Bu gün "Şah Abbas" və "Uğurlu Xan" karvansaralarının bərpadan sonra açılışını edəcəyik. Mənim göstərişimlə Gəncə şəhərində ikinci "ASAN xidmət" mərkəzi fəaliyyət göstərəcək. Çünki indi şəhərin əhalisi çoxalır və "ASAN xidmət" mərkəzlərində xidmətlərin sayı artır. Ona görə növbələr yaranır. Göstəriş vermişəm, yaxın zamanlarda ikinci "ASAN xidmət" də istifadəyə veriləcəkdir. Gəncə Dövlət Dram Teatrının binasının tikintisi gedir. Yadımdadır, mənim Gəncəyə səfərlərimin birində Dram Teatrının artistləri mənə müraciət etmişdilər. Mən bu müraciəti qəbul etdim və göstəriş verdim gözəl Dram Teatrı tikilir. İkinci Olimpiya İdman Mərkəzi tikilir. Çünki o vaxt birinci mərkəz tikiləndə mən hələ prezident vəzifəsində deyildim, Milli Olimpiya Komitəsinin prezidenti kimi bu işi icra etmişdim. Ancaq ikinci idman kompleksinə ehtiyac var.

Bilirsiniz ki, mənim göstərişimlə Gəncə Dövlət Filarmoniyası tikilib və bu, çox gözəl memarlıq abidəsidir. Eyni zamanda, lazım olan infrastruktur layihələri icra edilir. Bildirməliyəm ki, ölkəmizdə birinci "Yaşıl şəhər" layihəsi mənim göstərişimlə Gəncə şəhərində həyata keçiriləcək. Bu məqsədlə biz Avropa Yenidənqurma və İnkişaf Bankından təqribən 70 milyon avro dəyərində kredit götürürük. Onu da bildirməliyəm ki, bu gün mənim göstərişimlə kreditlərin götürülməsi ancaq müstəsna hal kimi mümkündür. Çünki bizim özümüzün kifayət qədər vəsaitimiz var. Mən istəyirəm ki, bizim xarici dövlət borcumuz daha da aşağı düşsün. Baxmayaraq ki, indi də 20 faizin altındadır. Ancaq strateji və texnologiya tutumlu layihələr üçün kreditlər götürürük və bu kreditin götürülməsinə mən icazə verdim. Gəncədə icra ediləcək "Yaşıl şəhər" layihəsi ictimai nəqliyyatı əhatə edəcək. Ondan sonra küçələrin işıqlandırılması, – bilirəm, bu məsələ ilə bağlı problem var, – bir də bərk məişət tullantılarının utilizasiyası. İlkin mərhələdə insanları narahat edən bu üç məsələ öz həllini tapacaqdır. Əlbəttə ki, biz bundan sonra da dövlət büdcəsi hesabına bütün lazımi addımları atacağıq.

Mən Gəncə şəhərinə müntəzəm olaraq gəlirəm. Bu səfərim prezident kimi 16-cı səfərdir. Yəni, orta hesabla ən azı ildə bir dəfə mən Gəncədə oluram. Gəncə bu gün ölkəmizin həm sənaye mərkəzinə çevrilir, həm mədəniyyət mərkəzidir, həm də böyük tarixi var. Əlbəttə ki, tarixin qorunması hər birimizin işidir.

Eyni zamanda, çox şadam ki, son vaxtlar kənd təsərrüfatının sürətli inkişafı və kənd təsərrüfatı ilə məşğul olan insanların maliyyə vəziyyətinin yaxşılaşdırılması nəticəsində bu sahəyə böyük maraq var. Dövlət Aqrar Universitetinə müraciətlərin sayı artır. Artıq yeni korpusun tikintisi başa çatır, bu gün tanış olacağam. Ölkəmiz üçün lazım olan mütəxəssislər Gəncədə yetişdiriləcək.

Yenə də demək istəyirəm, həyat davam edir. Bütün lazımi işlər görülür. Ancaq, əlbəttə ki, bizim gündəliyimizdə koronavirusla mübarizə birinci plandadır. Burada bütün dövlət tədbirləri ilə bərabər, əsas vəzifə həkimlərin üzərinə düşür. Bir daha demək istəyirəm ki, həkimləri mən salamlayıram, onların fəaliyyətini yüksək qiymətləndirirəm. Bu yaxınlarda həkimlər öz peşə

bayramlarını qeyd etmişlər. Bu münasibətlə sizi təbrik edirəm və sizə yeni uğurlar arzulayıram. Koronavirusla bağlı mübarizədə siz ön cəbhədəsiniz və öz sağlamlığınızı, həyatınızı, yaxınlarınızın sağlamlığını risk altına qoyursunuz. Ancaq sizdə olan vətəndaşlıq borcu sizi bu işlərə sövq edir.

Sizə uğurlar, cansağlığı arzulayıram. Özünüzə yaxşı baxın, xəstələrə yaxşı baxın ki, biz birlikdə bu ağır vəziyyətdən az itkilərlə çıxaq. Sağ olun.

Həkim Xalidə Sadıqova dedi:

– Möhtərəm cənab Prezident, mən Sizi və hörmətli Mehriban xanımı Gəncə tibb işçiləri və gəncəlilər adından salamlayıram. Yeni növ koronavirus infeksiyasının ölkəmizdə geniş miqyasda yayılmasına qarşı Sizin tərəfinizdən bir çox mühüm tədbirlər görülüb və görülməkdədir. Bu tədbirlərdən biri də yeni tipli modul xəstəxanalarının açılması, onların müasir tibbi avadanlıqlarla, dərmanlarla təchizatıdır. Bu gün modul tipli xəstəxananın Gəncədə açılması, tək Gəncədə deyil, Gəncəətrafı rayonlarda yaşayan, yoluxan insanların xəstəxanalara təcili təxliyə olunması, onların yüksək səviyyədə müalicə edilməsi üçün çox vacibdir. Biz həkimlər də bundan yararlanıb Sizə söz veririk və əmin edirik ki, bu çətin günlərdə əlimizdən gələni var gücümüzlə edəcəyik. Xalqımızın sağlamlığının qorunması istiqamətində səylərimizi əsirgəməyəcək və Sizin dəstəyinizlə, İnşallah, bu çətin sınaqdan alnıaçıq çıxacağıq.

Mehriban xanım, fürsətdən istifadə edib Gəncə səhiyyə işçiləri adından həmişə bizə dəstək göstərdiyiniz üçün Sizə də dərin təşəkkürümü bildirirəm. Sizə və ailənizə cansağlığı, böyük işlərinizdə uğurlar arzulayıram.

Birinci xanım Mehriban Əliyeva: Çox sağ olun.

Xalidə Sadıqova: Allah Sizləri qorusun.

Prezident İlham Əliyev: Çox sağ olun. Həkimləri bir daha alqışlayaq.

Həkimlər: Sağ olun.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 24-də Gəncədə “Şah Abbas” və “Uğurlu Xan” karvansara kompleksinin bərpadan sonra istifadəyə verilməsi mərasimində iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma kompleksdə yaradılan şərait barədə məlumat verildi.

Bildirildi ki, Gəncənin şəhər kimi inkişafı Böyük Şah Abbasın adı ilə bağlıdır. Şəhərin tarixən formalaşmış mərkəzi hissəsi gəncəlilər tərəfindən “Şah Abbas meydanı” adlandırılan bazar meydanı olub. Özünəməxsus memarlıq elementlərinə görə Gəncənin baş meydanı Azərbaycanın əksər şəhərlərindəki bazar meydanlarından seçilib. Bu meydan XVII əsrdə böyüklüyünə görə yalnız Təbrizin bazar meydanından geri qalırmış. Ehtimal olunur ki, bazar meydanının ətrafında “Şah Abbas” karvansarası 1663–1664-cü illərdə Gəncə bəylərbəyi olmuş Murtuza Qulu xan Ziyad oğlunun qardaşı oğlu Uğurlu xanın vəsaiti ilə memar Şeyx Bahəddin Məhəmməd Amilinin planı üzrə tikilmiş və xan nəslinə məxsus olmuşdur. Karvansara dövrünün əzəmətli tikililərindən olduğundan Uğurlu xan ona böyük hökmdar Şah Abbasın adını verib.

Eyni dövrdə tikilmiş nisbətən kiçik həcmli karvansara isə əhali arasında “Uğurlu Xan” karvansarası adlandırılmışdır. XIX əsrin birinci yarısında Rusiya-İran müharibəsindən sonra Azərbaycanın şimal hissəsinin böyük şəhərlərində rus hərbi qarnizonları yerləşdirilmiş və rus qoşunları tərəfindən bütün xan mülkü kimi karvansaralar da müsadirə edilmişdir. Bu və digər səbəblərdən abidə öz görkəmini itirmişdi. Prezident İlham Əliyevin müvafiq göstərişlərinə əsasən “Şah Abbas” karvansarası əsaslı şəkildə əvvəlki görkəminə uyğun və müasir infrastrukturla təmin edilməklə yenidən bərpa olunub, ətraf ərazi abadlaşdırılıb.

Sonra Prezident İlham Əliyevə “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyində yığılmış avtobus və kombayn nümunələri təqdim olundu.

Məlumat verildi ki, 2019-cu ildə “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyi ilə Belarusun “Belkommunmaş” ASC arasında bağlanmış ikitərəfli müqavilələr çərçivəsində müəssisədə “E-321” markalı elektrobusun istehsalına başlanılıb və bu günədək 4 elektrobus yığılıb. Bu ictimai nəqliyyat vasitəsi həm ekoloji, həm də yanacağa qənaət baxımından çox sərfəlidir. Avtobuslar kondisionerlə, həmçinin məlumat monitoru və videonəzarət sistemi ilə təmin olunub.

Diqqətə çatdırıldı ki, “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyində yeni müasir kombaynların yığılmasına da başlanılıb. Bu layihənin icrası Finlandiyanın tanınmış “Sampo” firması ilə əməkdaşlıq müqaviləsi əsasında həyata keçirilir. Mütəxəssislərin fikrincə bu texnika Azərbaycan şəraitində özünü kifayət qədər doğrultmaqla fermerlərin marağına səbəb olacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 24-də Gəncə Dövlət Dram Teatrının yeni binasında tikinti işlərinin gedişi ilə tanış olublar.

Dövlətimizin başçısına və birinci xanıma binada aparılan tikinti işləri barədə məlumat verildi.

Bildirildi ki, teatrın yeni binasında inşaat işləri artıq tamamlanmaq üzrədir. Hazırda teatrda dekorasiya və digər işlərin yerinə yetirilməsi istiqamətində tədbirlər görülür. Binada geniş tamaşaçı tutumlu zal və digər yardımçı otaqlar yerləşəcək.

Qeyd edək ki, Gəncə Dövlət Dram Teatrının yeni binasının təməli 2014-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə qoyulub.

Dövlətimizin başçısı teatrın binası ilə tanışlıqdan sonra tövsiyə və tapşırıqlarını verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 24-də Gəncəyə səfərləri çərçivəsində Azərbaycan Dövlət Aqrar Universitetinin yeni tədris korpusunun açılışında iştirak ediblər.

Dövlətimizin başçısı və birinci xanım yeni tədris korpusunda yaradılan şəraitlə tanış olublar.

Diqqətə çatdırılıb ki, ölkədə ərzaq probleminin həllində önəmli rola malik olan kənd təsərrüfatının elmi əsaslarla inkişafında həmişə mühüm rolu olmuş bu ali təhsil müəssisəsi son illər tamamilə yenidən qurulur. Azərbaycan Prezidentinin 2018-ci il 22 yanvar tarixli Sərəncamına əsasən, dövlət əsaslı vəsait qoyuluşu – investisiya xərcləri hesabına tikilmiş yeni tədris korpusunda müasir təfəkkürlü kadrların hazırlanması, eləcə də elmi tədqiqatların səmərəli aparılması üçün hər cür şərait yaradılıb. Professor-müəllim heyətinin və tələbələrin ixtiyarına ən yeni əyani vasitələr və avadanlıqla təchiz olunmuş auditoriyalar və laboratoriyalar verilib. Binada bütün zəruri infrastruktur qurulub. İnzibati xidmət və digər yardımçı otaqlar yaradılıb. Yeni tədris korpusunda ümumilikdə 3 min tələbə iki növbədə təhsil alacaq.

Bildirilib ki, yeni tədris korpusunda aqronomluq, zootexniklik istiqaməti, ictimai elmlər və multikulturalizm kafedraları, interaktiv təlim-tədris otaqları fəaliyyət göstərəcək. Bu korpusun istifadəyə verilməsi bir də ona görə əlamətdardır ki, burada əlavə 93 nəfər üçün yeni iş yeri açılacaq.

Gəncədə aparılan tikinti, abadlıq-quruculuq işləri arasında yolların, keçidlərin, körpülərin tikintisi və təmiri də əsas prioritetlərdəndir. Son vaxtlar Gəncəçay çayı üzərində eyni vaxta beş körpünün bərpası başa çatdırılıb.

İyunun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həmin körpülərdə görülmüş işlərlə tanış oldular.

Bildirildi ki, bu beş körpüdən biri – Müseyib Bağırov küçəsinin Gəncəçay çayı ilə kəsişmədə yerləşən körpü 1986-cı ildə, digər dördü isə ötən əsrin 50-ci illərində tikilib. Körpülər tamamilə köhnəldiyindən gediş-gəliş üçün təhlükəli vəziyyətə düşmüşdü. Bunu nəzərə alaraq dövlətimizin başçısı keçən il mayın 16-da Gəncə şəhərinin Şah İsmayıl Xətai və Nizami Gəncəvi prospektlərinin, Müseyib Bağırov, Mirzə Abbas Abbaszadə və Əlövsət Məmmədov küçələrinin Gəncəçay çayı ilə kəsişmələrində yerləşən və qəzalı vəziyyətdə olan 5 körpünün bərpası üçün Prezidentin ehtiyat fondundan Avtomobil Yolları Dövlət Agentliyinə 6,4 milyon manat vəsait ayrılması barədə Sərəncam imzalamışdı. Həmin vəsait hesabına körpülərdə təmir-bərpa işləri optimal müddətdə başa çatdırılıb. Bütün körpülərin hərəkət hissəsinin, məhəccərlərin, çay məcrasının aşağı və yuxarı hissələrinin, sağ, sol sahil yamaclarının dəmir-betonla bərkidilməsi işləri aparılıb, hərəkət hissəsinin hər iki tərəfində təkərqaytaranlar quraşdırılıb, səkilər təmir olunub. Beləliklə bundan sonra həm piyadalar, həm də avtomobillər bu körpülər üzərindən təhlükəsiz hərəkət edə biləcəklər.

Burada dövlətimizin başçısına tikintisi başa çatmış yollar barədə də məlumat verildi. Qeyd edildi ki, Gəncə-Kəlbəcər-Laçın avtomobil yolunun 5 kilometrlik hissəsinin yenidən qurulması bu bölgədə turizmin inkişafında böyük rol oynamaqla Gəncə şəhərindən giriş-çıxışı yaxşılaşdıracaq. Kənd və qəsəbələrarası yolların yenidən qurulması layihələri çərçivəsində Samux rayonunda da uzunluğu 12,7 kilometr olan Yenikənd-Köbər-Qaraağaclı avtomobil yolu yenidən qurulub. Bu yol 3 yaşayış məntəqəsini əhatə etməklə minlərlə əhalinin gediş-gəlişini rahatlaşdırıb. Paralel olaraq yolun altında mövcud suötürücü borular bərpa edilib, zəruri olan yerlərdə yeniləri qurulub. Layihə çərçivəsində yolun 11-ci kilometrində "Qanlı Qobu" adlanan ərazidə yeni körpü inşa edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Gəncə İdman Sarayının tikintisi ilə tanış olub.

Dövlətimizin başçısının müvafiq Sərəncamı ilə Gəncə şəhərində daha bir möhtəşəm idman kompleksi tikilməkdədir. Gəncə İdman Sarayının 2022-ci ildə istismara verilməsi nəzərdə tutulur. İkimərtəbəli bu qurğuda böyük idman zalı, üzgüçülük hovuzu, beynəlxalq şahmat turnirlərinin keçirilməsi üçün zal, şahmat, güləş, boks və digər idman növləri üzrə məktəblər, boulinq və atıcılıq zalları, istirahət və iaşə obyektləri fəaliyyət göstərəcək. İdman sarayı ən müasir avadanlıqla təchiz olunacaq.

Gəncə İdman Sarayında inşaat işlərinin gedişi ilə tanışlıqdan sonra Prezident İlham Əliyev tikintinin keyfiyyətlə aparılması və obyektin vaxtında istifadəyə verilməsi ilə bağlı tapşırıqlarını verdi.

## *Samux rayonuna səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Samux rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin Samux şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Qeyd edək ki, Prezident İlham Əliyev indiyədək bir neçə dəfə Samuxda səfərdə olub. Bu səfərlər rayonun inkişafında mühüm rol oynayıb. 2003-cü ildən başlayaraq 2019-cu ilin sonuna qədər rayonda məhsul istehsalı 3,5 dəfə, sənaye 3,9 dəfə, kənd təsərrüfatı 2,6 dəfə, əsas kapitala yönəldilmiş vəsait isə 19,4 dəfə artıb. 2020-ci ilin birinci rübünədək 24 787 yeni iş yeri açılıb, bu il ödənişli əsaslarla 305, pandemiya ilə əlaqədar isə 150 müvəqqəti iş yeri yaradılıb.

İyunun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Samux rayonunun ərazisində məcburi köçkün ailələri üçün inşa edilən yaşayış kompleksinin tikintisi ilə tanış olub.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Samux rayonunda 459 ailədən ibarət 1603 nəfər məskunlaşıb. Onların da böyük hissəsi Kəlbəcər rayonundan olan məcburi köçkünlərdi. İnşasına bu ildən başlanan və hazırda tikintisi davam edən kompleksə rayon ərazisində daha ağır şəraitdə yaşayan məcburi köçkün ailələri köçürüləcək. Kompleksə hər biri dördmərtəbəli olmaqla 9 yaşayış binası daxildir. Hər bir mənzilin tam təmirli vəziyyətdə məcburi köçkünlərə təhvil verilməsi nəzərdə tutulub. Hazırda ərazidə infrastrukturun qurulması ilə bağlı intensiv iş gedir. Buraya elektrik verilişinin təmin olunması, su təchizatının qurulması, qaz xətlərinin çəkilməsi daxildir.

Qeyd edək ki, dörd hektar sahəni əhatə edən yaşayış kompleksinə 144 şagird yerlik tam orta məktəb, 50 uşaq yerlik körpələr evi-uşaq bağçası, inzibati bina, tibb məntəqəsi və klub-icma mərkəzi daxildir. Ərazi tam abadlaşdırılacaq və yaşıllaşdırma işləri həyata keçiriləcək.

Xatırladaq ki, qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması məqsədilə həyata keçirilən siyasət nəticəsində indiyədək 300 mindən çox insanın mənzil-məişət şəraiti yaxşılaşdırılıb. Dövlət büdcəsinin və Dövlət Neft Fondunun vəsaitləri hesabına indiyədək ölkədə 100-dən çox qəsəbə və hündürmərtəbəli binalardan ibarət yaşayış massivləri salınıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Samuxdakı “Aqro Dairy” MMC-nin aqroparkının fəaliyyəti ilə tanış olub.

Sahəsi 5 min hektardan və ümumi dəyəri 65 milyon manatdan çox olan layihə çərçivəsində Qarasaqqal su kanalında nasos quraşdırılıb, 5,4 min kubmetrlik iki su anbarı, su hovuzları və saxlama anbarları tikilib. Aqroparkda istifadə olunması üçün 20 adda 91 ədəd texnika və aqreqat alınıb. 2019-cu ilin payızında 2 423 hektar sahədə buğda və 222 hektar sahədə arpa əkilib. Bu ilin yazında 74 hektar sahədə şəkər çuğunduru əkilib və taxıl biçini aparılan ərazilərdə qarğıdalı əkini nəzərdə tutulub.

“Aqro Dairy” MMC-nin icraçı direktoru Vahid Hacıyev dövlətimizin başçısına aqroparkın fəaliyyəti barədə məlumat verdi.

Vahid Hacıyev: Samux rayonuna xoş gəlmisiniz. Sizi “Aqro Dairy” şirkətinin bütün kollektivi adından salamlayırıq. Sizin tapşırığınıza əsasən, ölkəmizdə taxılçılıq təsərrüfatının yaradılması istiqamətində görülən işlər çərçivəsində “Aqro Dairy” MMC Samuxda dövlət ehtiyat fondundan 5 min hektar, Tovuz rayonunda isə 12 min hektar ərazini uzunmüddətli icarəyə götürüb. Həmin ərazilərdə suvarılan sahələrimiz iki min hektardır.

Prezident İlham Əliyev: Su xətləri çəkilib, su anbarından gəlir?

Vahid Hacıyev: Bəli, su xətləri çəkilib. Buradan 13 kilometr məsafədə su anbarı var. Suvarılmayan ərazilərimiz də mövcuddur. Hazırda həmin ərazilərin suvarılması üçün işlər görülür.

Prezident İlham Əliyev: Burada əvvəllər heç bir əkin olmayıb?

Vahid Hacıyev: Xeyr, cənab Prezident, hətta torpaq çox yararsız idi, eroziyaya uğramışdı, çökəklikləri çox idi. Təbii ki, biz ildən-ilə bu torpaqları yaxşılaşdırdıq. Əlbəttə, təkrar əkin çox önəmli rol oynayır.

Prezident İlham Əliyev: Təkrar əkini ilk dəfədir aparırsınız?

Vahid Hacıyev: Xeyr, biz hər il təkrar əkin aparırıq, qarğıdalı əkirik. Çox sağ olun ki, Siz həmişə bizə dəstək göstərirsiniz.

Prezident İlham Əliyev: Bəli, vəsait də ayrılıb.

Vahid Hacıyev: Bu, bizim üçün həqiqətən çox vacibdir.

Prezident İlham Əliyev: Deməli, hər şey etmək mümkündür. Sadəcə olaraq, düzgün yanaşma lazımdır, vəsait qoyulmalıdır. Dövlət və özəl sektor burada çiyin-çiyinə işləməlidir. Necə ki, bu təsərrüfatda bunu görürük. Bu il məhsuldarlıq nə qədər olacaq?

Vahid Hacıyev: Biz arpa biçinini başa çatdırmışıq, Samux rayonunda 222 hektarda biçin aparmışıq, hektardan 47-48 sentner məhsul götürmüşük.

Prezident İlham Əliyev: Bu, yüksək göstəricidir.

Vahid Hacıyev: Tovuzda isə hektardan 62-67 sentner məhsul götürülüb, ancaq arpadan.

Prezident İlham Əliyev: Bəs, buğda?

Vahid Hacıyev: Hazırda buğda biçini gedir. Biz Samuxda artıq 1500 hektar buğda zəmisi biçmişik, hektardan məhsuldarlıq orta hesabla 58 sentnerdir. Bəzi torpaqlarımız var, məhsuldarlıq 65-67 sentner olub.

Prezident İlham Əliyev: Çox yaxşı. İri fermer təsərrüfatlarında daha çoxdur, amma ölkədə məhsuldarlıq hazırda buğdada 33 sentnerdir. Bu da yaxşı göstəricidir, keçən ilə nisbətən artıb, amma, əlbəttə, sizdə 58-60 sentnerə çatıbsa, bu, daha yaxşı göstəricidir.

Vahid Hacıyev: Bu, yalnız Samuxdakı göstəricimizdir. Tovuzda göstəricilərimiz orta hesabla 78 sentnerdir. Cənab Prezident, bizim pivot suvarma sistemi ilə təchiz olunmuş 70 hektar ərazimiz var. Bu 70 hektarın bəzi sahələrində hektardan məhsuldarlıq 84-85 sentnerdir.

Prezident İlham Əliyev: Yəni, siz Avropanın inkişaf etmiş ölkələrinin səviyyəsinə çıxmısınız.

Vahid Hacıyev: Bəli, əgər Avstriyada məhsuldarlıq hektardan orta hesabla 67 sentnerdirsə, Almaniyada 75 sentnerdir. Biz çalışırıq buna çataq.

Prezident İlham Əliyev: Mən bilirəm ki, Avropada məhsuldarlıq nə qədərdir və bizdə də o qədər olmalıdır. Amma bunu etmək bir az çətindir. Çünki bizim iqlim fərqlidir. Torpaq da bəzi yerlərdə yararsızdır. Ona görə də bu torpaqlara siz həyat verirsiniz, canlandırırsınız.

Vahid Hacıyev: Cənab Prezident, biz bunu Sizin dəstəyiniz sayəsində əldə etmişik. Bu uğurlarda alınmış yeni texnikanın böyük rolu var.

Prezident İlham Əliyev: Bunları siz almısınız, investisiyaları siz özünüz qoymusunuz. Burada özəl sektor bütün investisiyaları qoyub, dövlət də bütün başqa təsərrüfatlarda olduğu kimi, öz infrastruktur dəstəyini göstərir, yol, elektrik enerjisi, su. Bunları dövlət edir, qalanını da özəl sektor. Ona görə bütün bu kombaynları siz özünüz almısınız. Dövlət bütün fermerlərə dəstək göstərir, subsidiyalar verir, ancaq hər bir təsərrüfatda hektardan 78 sentner məhsul götürürlərmi? Yox. Ona görə də siz gərək bu təcrübəni bölüşəsiniz. Ola bilərmi ki, burada, ya da ki, Tovuz rayonunda regional tədris mərkəzi yaradılsın, Aqrar Universitet ilə birlikdə. Gəlsinlər, baxsınlar, təcrübə toplasınlar, hər yerdə belə olsun. Məncə, bu gün Azərbaycanda ən yüksək məhsuldarlıq buradadır.

Vahid Hacıyev: Cənab Prezident, biz özümüz də öyrənirik, biz istəyirik ki, məhsuldarlığı daha da artıraq. Qarğıdalı səpinində də istəyirik ki, ilin axırına qədər məhsuldarlığımızı artıraq və öz nəticələrimizi göstərək. Biz öz məhsuldarlığımızla hələ ki, kifayətlənmirik.

Sonra Prezident İlham Əliyev burada çalışan xarici mütəxəssislərlə söhbət etdi. Xarici mütəxəssislər burada özlərini çox rahat hiss etdiklərini və yerli insanların onlara çox xoş münasibət göstərdiklərini məmnunluqla diqqətə çatdırdılar.

Daha sonra Prezident İlham Əliyev taxıl biçininə və qarğıdalı səpininə start verdi.

Qeyd edək ki, buğda, arpa, şəkər çuğunduru və qarğıdalı məhsullarının istehsal olunduğu aqroparkda xaricdən alınan müasir avadanlıq quraşdırılıb, 60 min tonluq taxıl anbarı kompleksi yaradılıb. Satış bazarı üçün ölkə daxili müəyyən edilib və burada 89 nəfər işlə təmin olunub.

## *Mingəçevir şəhərinə səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Mingəçevir şəhərinə səfərə gəlib.

Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin Mingəçevir şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Qeyd edək ki, Azərbaycanın ən böyük sənaye mərkəzlərindən olan Mingəçevirdə 2003-cü illə müqayisədə 2019-cu ildə məhsul buraxılışı 1,1 dəfə, kənd təsərrüfatı 1,1 dəfə, əsas kapitala yönəldilmiş vəsait 52,7 dəfə artıb. 2003-cü ildən 2020-ci ilin birinci rübünə qədər şəhərdə 19 min 755 yeni iş yeri yaradılıb və bu il ödənişli əsaslarla 905, pandemiya ilə əlaqədar isə 762 müvəqqəti iş yeri açılıb.

“Azərbaycan” İstilik Elektrik Stansiyasının 330 və 500 kilovoltluq açıq paylayıcı qurğuları, 8 enerji bloku, İdarəetmə Dispetçer Mərkəzi, stansiyanın əsas və köməkçi sahələri, bina və qurğuları əsaslı yenidənqurmadan sonra iyunun 25-də istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Qeyd edək ki, tikintisinə 1974-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə başlanan “Azərbaycan” İstilik Elektrik Stansiyasının birinci enerji bloku 1981-ci il oktyabrın 20-də, sonuncu - 8-ci blok isə 1990-cı ildə istismara verilib. Öz dövrü üçün nəhəng infrastruktur layihəsi olan və respublikanın energetika sistemində xüsusi əhəmiyyəti ilə seçilən “Azərbaycan” İES elə o vaxtdan ölkənin elektrik enerjisinə tələbatının qarşılanmasında hər zaman birinciliyini qoruyub saxlayıb. Lakin 2018-ci il iyulun 3-də stansiyada baş vermiş qəza nəticəsində ölkənin yarıdan çoxu qaranlıqda qaldı. 330 kilovoltluq yarımstansiyasındakı cərəyan transformatorunda baş verən qəza nəticəsində təxminən min kiloqrama qədər yağ ətrafa axmışdı, yaxınlıqdakı elektrotexniki avadanlıqların, eləcə də kabellərin, əsasən də informasiya və avtomatika kabellərinin üzərinə dağılaraq güclü yanğına səbəb olmuşdu. Nəticədə bir-birinin ardınca baş verən qəzalar ölkənin enerji sisteminə ciddi ziyan vurmuşdu.

Araşdırmalar nəticəsində məlum olmuşdu ki, stansiyadakı generatorlarda təsirlənmə sistemləri, soyuducuları köhnəlmiş və istismara tamamilə yararsızdır. Qazanlarda küləkdən mühafizə lövhələri dağılıb, qazan avadanlıqları aşınıb və sıradan çıxıb. Regenerativ hava qızdırıcıları, qaz yolları, kompensatorlar və digər qurğular uzun müddət istismar olunduğundan yararsız vəziyyətə düşüb. Stansiyanın tüstü boruları və konstruksiyaları da aşınmaya məruz qalmışdı, Fasiləsiz Qida Mənbələri demək olar ki, işləmirdi. Maşın zalının konstruksiyası, dam örtüyü və döşəməsi dağılmışdı. Kimyəvi sutəmizləmə qurğusu olduqca köhnəlmişdi, azot və oksigen qurğuları, reagent və yağ təsərrüfatları istismar müddətini iki dəfədən çox başa vurmuşdu. Hidrogen qurğusu uzunmüddətli istismar edildiyindən təhlükə yaradırdı. Hətta Yuxarı Qarabağ kanalının stansiya ərazisindən keçən çıxış su kanalı hissəsinin yamacları dağılmışdı. 330 və 500 kilovoltluq yarımstansiyaların avadanlığı və mühafizə sistemləri öz ömrünü başa vurmuşdu. Bu isə sistem qəzasının olması ehtimalını ən yüksək səviyyəyə çatdırmışdı.

Prezident İlham Əliyev elektromobillə stansiyanın ərazisini gəzdi.

Stansiyada yaradılan şərait barədə dövlətimizin başçısına məlumat verən “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev bildirdi ki, enerji bloklarının texniki su təchizatı Yuxarı Qarabağ kanalı vasitəsilə təmin edilir. Kanalın yamacları və dib hissəsi beton örtüklərlə bərpa olunub, dövran su xətlərinin altındakı dayaqlar əsaslı təmir edilib. Ərazidə yeni mazut çənləri, dövran və mazut nasosları quraşdırılıb. Stansiyanın qaz qəbulu məntəqələri də əsaslı təmir olunub.

İki il ərzində həyata keçirilən proqram çərçivəsində Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyasında

bütün parametrlər üzrə tikinti və bərpa işləri sürətlə aparılıb. Əsas diqqət həm də “Azərbaycan” İstilik Elektrik Stansiyasının hər biri ayrıca elektrik stansiyası statusuna malik 8 blokunun yenidən qurulmasına yönəlib. Blokların təbii təsirlərdən qorunması və ən əsası da itkilərin azaldılması üçün izolyasiya işləri görülüb. Yenidəqurma proqramı çərçivəsində yararsız metal konstruksiyalar yenilənib, yük məhdudiyyətinə təsir edən regenerativ hava qızdırıcılarının daxili elementləri dəyişdirilib, turbin qurğularında zədələnmiş işçi kürəklər, hidrogen və yağ istilik mübadilə aparatları da təzələnib. Kimya sexi müasir tipli əks-osmos sutəmizləyici texnologiyaya əsasən yenidən qurulub, reagent təsərrüfatı yenilənib, əlavə ehtiyat su çənləri yaradılıb.

Diqqətə çatdırıldı ki, enerji bloklarında sıradan çıxmış elektrik mühərriki və nasos avadanlıqları, istismar və təmir üçün tələb olunan liftlər, ağırtonnajlı yükqaldırıcı kran və mexanizmlərin elementləri, yüksək gərginlikli cərəyan şinləri, güc və nəzarət kabelləri tam yenisi ilə əvəz olunub. Blok və xüsusi sərfiyyat transformatorları da təmir edilib.

Qeyd olundu ki, 2018-ci ildə sistem qəzasının mənbəyi olan 330 və 500 kilovoltluq yarımstansiyalar yenidən qurulub. İstismar müddəti bitmiş və partlayış təhlükəsi olan bütün hava açarları eleqaz tipli açarlarla, cərəyan və gərginlik transformatorları müasir tipli avadanlıqla əvəzlənib. Yarımstansiyaların hər biri üçün yeni idarəetmə binaları tikilib.

İndi “Azərbaycan” İES-in fəaliyyəti yeni tikilən inzibati binadan həyata keçirilir. Burada müxtəlif tədbirlərin keçirilməsi üçün geniş akt zalı yaradılıb. Bütün proseslər yeni quraşdırılan nəhəng monitordan idarə olunur.

Burada stansiyanın idarə olunması ilə bağlı videoçarx nümayiş etdirildi.

Sonra dövlətimizin başçısı “Azərbaycan” İstilik Elektrik Stansiyasını işə saldı.

Prezident İlham Əliyevə yeni tikiləcək “Qobu” Elektrik Stansiyasının layihəsi barədə məlumat verildi.

Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etdi.

Burada çıxış edən Prezident İlham Əliyev dedi:

-Mingəçevirdə İstilik Elektrik Stansiyası ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə tikilmişdir. Heydər Əliyev Azərbaycana birinci dəfə rəhbərlik etməyə başlayanda vəziyyəti təhlil edərkən gördü ki, Azərbaycanın energetika sisteminə çox böyük investisiyalar qoyulmalıdır. Bütün məsələlər təhlil olunandan sonra sovet rəhbərliyi qarşısında məsələ qaldırıldı. Onun davamlı və çox məqsədyönlü fəaliyyəti nəticəsində Sovet İttifaqının rəhbərliyi Azərbaycana böyük sərmayənin qoyuluşuna icazə verdi.

Əlbəttə bu, tarixi hadisədir. Çünki o vaxt mərkəzləşdirilmiş fondlardan respublikaya vəsait cəlb etmək çox böyük çətinliklərlə başa gəlirdi. Nəzərə alsaq ki, Heydər Əliyev yeni rəhbər idi və onun dərhal belə bir təşəbbüslə çıxış etməsi sovet rəhbərliyində bir çoxlarını təəccübləndirmişdi. Ancaq bütün bunlara baxmayaraq, onun fəaliyyəti və yorulmaz səyləri nəticəsində 1971-ci ildə bu stansiyanın tikintisi haqqında qərar qəbul edildi, Azərbaycana mərkəzləşdirilmiş fondlardan böyük vəsait qoyulmağa və stansiyanın tikilməsinə başlandı. Ulu Öndər hələ Azərbaycanda rəhbər olan zaman stansiyanın birinci bloku istismara verildi – 1981-ci ildə. Sonra Heydər Əliyev Moskvada Siyasi Büroda fəaliyyətə başlayanda və Nazirlər Sovetinin birinci müavini vəzifəsində çalışanda daim gözü Azərbaycanın üstündə idi. Heydər Əliyev bu stansiyanın tikintisinə xüsusi əhəmiyyət verirdi və onun fəaliyyəti nəticəsində qalan 7 blok da inşa edilmişdi. İndi təsəvvür etmək mümkün deyil ki, əgər bu stansiya o vaxt tikilməsəydi, biz müstəqillik dövründə hansı problemlərlə üzləşə bilərdik. Çünki yenidən qurulandan sonra bu stansiyanın generasiya gücü 2400 meqavatdır.

Təbii ki, ondan sonra, xüsusilə son 16 il ərzində ölkəmizdə 30 elektrik stansiyası tikilmişdir və onların arasında böyük stansiyaları xüsusilə qeyd etmək istərdim – “Cənub” təxminən 800 meqavat, “Səngəçal” 300 meqavatdan çox, “Sumqayıt” 525 meqavat, “Şimal-2” 400 meqavat, ondan əvvəl “Şimal-1” 400 meqavat. Bütün bunlar son illərdə tikilmiş stansiyalardır. Ancaq müstəqilliyimizin ilk illərində Azərbaycan yalnız bu stansiya hesabına yaşayırdı. Yalnız Heydər Əliyevin uzaqgörənliyi və vaxtında atılmış addımların səmərəliliyi nəticəsində Azərbaycan ayaqda dura bilmişdir. Ona görə bu gün Ulu Öndərin abidəsi önündə onun bu xidmətlərini biz xüsusilə qeyd etməliyik.

Hər bir ölkənin energetika sistemi onun döyünən ürəyidir, əsas motorudur. Bu olmasa, heç nə olan deyil. Bu olmasa, heç bir inkişafdan, heç bir investisiya qoyuluşundan söhbət gedə bilməz. Ona görə enerji olmayan yerdə inkişaf yoxdur. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan ağır illərdə, müstəqilliyin ilk illərində ayaqda dayana bildi. Düzdür, energetika sistemimiz köhnəlmişdi, amma yenə də öz istismar müddətini uzada-uzada generasiya davam edirdi. O illərdə biz böyük böhranla üz-üzə idik, bir çox hallarda elektrik enerjisi kəsilirdi, rayonlarda ümumiyyətlə elektrik enerjisi fasilələrlə verilirdi, gündə iki saat, Bakı şəhərində də həmçinin. Ona görə bu stansiyanın xüsusi əhəmiyyəti var. İki il bundan əvvəl burada qəza baş verəndə, əlbəttə, bunun ölkəmizə nə qədər böyük zərbə vurduğunu hər kəs gördü, ölkəmiz zülmətə büründü, qaranlığa qərq oldu, metro dayandı, bütün hərəkət dayandı. Bu qəza yalnız məsuliyyətsizlik, səhlənkarlıq, vicdansızlıq nəticəsində baş vermişdir. O qəzadan sonra mənə verilən məlumatdan və bu stansiyadan çəkilmiş şəkillərdən dəhşətə gəldim, bu qədər vicdansızlıq olarmı?! Ona görə dərhal göstəriş verdim, kadr dəyişikliyi edildi, “Azərenerji”nin rəhbərliyi möhkəmləndirildi, təlimatlar verildi. Göstəriş vermişdim ki, bu İstilik Elektrik Stansiyasının generasiya gücləri qısa müddət ərzində yenidən yaradılmalıdır. O vaxt 800 meqavat generasiya gücü itirilmişdi, – bu stansiya cəmi

1600 meqavatla işləyirdi. Generasiya gücü yavaş-yavaş itirilirdi və belə bir fikir var idi ki, bunu bağlamaq, yaxud da söküb yenidən tikmək lazımdır, təmir etmək mümkün deyil. Bu 2400 meqavat gücü yenidən bərpa etmək neçəyə başa gələr, bunu hamı yaxşı bilir – milyardlarla dollara, milyardlarla. Ona görə mən “Azərenerji”nin bu sahədə fəaliyyətini xüsusi qiymətləndirirəm ki, stansiya cəmi 2 ildən az bir müddətdə yenidən quruldu, səkkiz blokun səkkizi də işlək vəziyyətdədir. 2400 meqavat generasiya gücü bərpa edildi, kanal tikildi, qəza baş verən yarımstansiyalar yenidən quruldu, müasir idarəetmə mərkəzi yaradıldı. Beləliklə, bu stansiyanın ömrü ən azı 20-30 il, bəlkə də 50 il uzadıldı. Bu, bizə nə verəcək? Bizə onu verəcək ki, bundan sonra da enerji təminatı sahəsində heç kimdən asılı olmayacağıq.

Biz 1990-cı illərdə bəzi hallarda xaricdən elektrik enerjisi alırdıq, çatmırdı. İndi isə biz ixrac edirik. Özü də bir ölkəyə yox, 3 ölkəyə elektrik enerjisini ixrac edirik. Bu gün mənə təqdim edilən “Qobu” Elektrik Stansiyasının tikintisi nəticəsində 300 meqavat əlavə güc əldə edəcəyik, ixracı daha da artıracağıq və ölkəmizin artan sənaye potensialını enerji ilə təmin edəcəyik. Əhali artır, sənaye artır, biznes fəaliyyəti artır – bütün bunlar enerji tələb edir. Bizim təbii resurslarımız var – qaz, neft. Stansiya həm qazla, həm mazutla işləyir. Elektrik xətlərimiz yenilənir, generasiya gücləri yaradılır, şəbəkə qurulub, yarımstansiyalar tikilir, bütün qonşu ölkələrlə yüksəkgərginlikli xətlər var. Ona görə bu gün Azərbaycan neft, qaz, yanacaq, elektrik enerjisini hasil edir, istehsal edir və ixrac edir. Yəni, dünyada o qədər də çox ölkə bu dərəcədə çoxşaxəli fəaliyyətə sahib deyil. Bəzi ölkələrdə yanacaq-enerji balansının bir hissəsi mövcuddur, digər hissəsini isə idxal edir, asılıdır. Biz tamamilə müstəqilik və iqtisadi-enerji müstəqilliyi budur. Biz bunu əldə etmişik, Ulu Öndərin ruhu qarşısında vicdanımız təmizdir, onun yolunu davam etdiririk, onun əsərini bərpa etmişik. Burada və bütün başqa sahələrdə onun yolu ilə irəliyə, inkişafa, tərəqqiyə doğru gedirik.

Xahiş edirəm, bütün energetiklərə mənim salamlarımı çatdırın, Mingəçevir sakinlərinə də həmçinin. Mən bu stansiyanın yenidən qurulmasında əməyi keçən hər bir insana təşəkkür edirəm və sizə yeni uğurlar arzulayıram. Sağ olun.

Qeyd edək ki, stansiyada yenidənqurma işləri aparılarkən ölkəyə elektrik verilişi bir dəqiqə də olsun dayanmayıb. Bütün işlər paralel olaraq yerinə yetirilib. Yanğın təhlükəsizliyinin təmin olunmasına xüsusi diqqət göstərilib.

“Azərbaycan” İES ölkənin elektrik enerjisinə olan tələbatının 40 faizini ödəyir. Stansiyada istehsal edilən elektrik enerjisi respublikanın enerji sisteminə 330 və 500 kilovoltluq elektrik verilişi xətləri ilə ötürülür.

Yenidənqurma işlərindən sonra stansiyanın qoyuluş gücü 2400 MVt-a çatdırılıb və 600 MVt itirilmiş güc bərpa olunub. Bununla da “Azərbaycan” İES-in etibarlılığı artıb, dayanıqlılığı, təhlükəsizliyi və səmərəliliyi təmin olunub.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 25-də Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsinin açılışında iştirak edib.

Müdafiə nazirinin birinci müavini – Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov və Müdafiə nazirinin müavini – Hərbi Hava Qüvvələrinin Komandanı general-leytenant Ramiz Tahirov dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevə raport verdilər.

Sonra Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin rəhbər işçiləri ilə operativ müşavirə keçirdi.

Dövlətimizin başçısına hava hücumundan müdafiə sisteminə yeni daxil edilmiş döyüş vasitələri barədə məlumat verildi.

Bildirildi ki, ümumi ərazisi 11 hektardan çox olan hərbi hissənin tikintisinə iki il bundan əvvəl başlanıb və artıq yüksək keyfiyyətlə başa çatdırılıb. Həm zabitlər, həm də əsgərlər üçün yataqxana binaları inşa olunub. Yeməkxana binasında əsgərlərin qidalanması üçün hər cür şərait var. Müasir avadanlıqla təchiz olunan tibb məntəqəsi və digər yardımçı otaqlar yaradılıb.

Prezident İlham Əliyev qərargah binasında yaradılan şəraitlə də tanış oldu.

Qeyd edildi ki, döyüş hazırlığı qabiliyyətini təkmilləşdirmək məqsədilə hərbi hissənin ərazisində təlim meydançaları qurulub, ərazi tam abadlaşdırılıb.

Hərbi hissə ilə tanışlıqdan sonra Prezident İlham Əliyev hərbçilərlə görüşdü.

Dövlətimizin başçısı görüşdə nitq söylədi.

Prezident İlham Əliyevin nitqi

– Mən sizi və ordumuzun bütün şəxsi heyətini qarşıdan gələn Silahlı Qüvvələr Günü münasibətilə təbrik etmək istəyirəm. Azərbaycan Silahlı Qüvvələrinə yeni uğurlar, yeni qələbələr arzulayıram. Bayram günü ərəfəsində yeni hərbi hissənin açılışını qeyd edirik. Mən vəziyyətlə tanış oldum, əvvəlki vəziyyət haqqında da mənə məruzə edildi. Əlbəttə ki, yeni tikilmiş hərbi hissə bütün yüksək standartlara cavab verir.

Son illər ölkəmizdə ordu quruculuğunda, xüsusilə hərbi hissələrin tikintisində Azərbaycan standartları tətbiq edilir və bu standartlar ən yüksək qiymətə layiqdir. Yeniliklər də kifayət qədər çoxdur, xidməti yüksək səviyyədə aparmaq üçün bütün imkanlar yaradılıb. Hətta kazarmalarda kondisionerlər də quraşdırılıb və bu, onu göstərir ki, bu sahədə çox böyük irəliləyiş var. Mənim göstərişimlə bütün hərbi hissələrimiz, şəhərciklərimiz, hərbi bazalarımız faktiki olaraq yenidən qurulur. Son məlumata görə, hərbi hissələrimizin 90 faizində tikinti-bərpa, yenidənqurma işləri demək olar ki, tamamlanmışdır. Hesab edirəm ki, maksimum il yarım – iki il ərzində qalan hərbi hissələr də bu vəziyyətə gətiriləcəkdir. Çünki əsgər və zabitlərin xidmət şəraiti onların döyüş qabiliyyətini artırır və eyni

zamanda, imkan verir ki, istənilən vəzifə icra edilsin. Bir də ki, bu, bir daha Azərbaycan dövlətinin öz ordusuna göstərdiyi qayğının təzahürüdür. Ordu quruculuğu bizim üçün prioritet məsələdir. Bu, təbiidir, çünki biz müharibə şəraitində yaşayırıq və belə olan halda ordu ilə bağlı bütün məsələlər ən başlıca vəzifədir.

Onu da bildirməliyəm ki, şəxsi heyətin xidmət şəraitinin yaxşılaşdırılması ilə bərabər, zabitlərin məişət problemləri də həll olunur. Orduda 20 il qüsursuz xidmət edən zabitlərə mənim göstərişimlə dövlət tərəfindən mənzillər verilir və bu proqram icra edilir. Bu, əlbəttə ki, böyük vəsait tələb edir və biz bu vəsaiti ayırırıq. Bu günə qədər 1700 zabit bu proqramla əhatə olunub və onlara yaxşı mənzillər verilibdir. Mən bu yaxınlarda göstəriş verdim ki, bu ilin sonuna qədər əlavə 419 zabitə dövlət tərəfindən mənzillər verilsin. Beləliklə, bu günə qədər olan vəziyyətə görə, bu proqramla əhatə olunan zabitlərin maksimum sayı təmin edilib. Mənə verilən son məlumata görə, təqribən 200-dən bir qədər çox zabit hələ növbədədir. Onların da mənzil problemləri həllini tapacaq. Hesab edirəm ki, bu da dünya praktikasında çox nadir hallarda müşahidə olunan mənzərədir. Burada da Azərbaycan ön sıralardadır, yeniliklər göstərir. Çünki Vətənə sədaqətlə və qüsursuz xidmət edən hərbçilər dövlət tərəfindən gərək yüksək təminatla əhatə olunsunlar. Hər bir insanın həyatında mənzil problemi çox önəmli məsələdir, biz onu da həll edirik. Ordumuza göstərilən qayğı bu məsələlərlə bitmir. Hərbçilərin əməkhaqları müntəzəm olaraq qaldırılır. Xüsusilə deyə bilərəm ki, fərqlənmiş hərbçilər mükafatlandırılır. Bu da təbiidir.

Bizim ordumuzun son illər ərzində uğurlu inkişafı göz qabağındadır. Bunu Azərbaycan xalqı bilir, görür. Dünyada orduların reytinqlərini tərtib edən sanballı qurumlar da bunu qeyd edir. Bu gün Azərbaycan Ordusu dünyada 50 ən güclü ordu sırasındadır. Biz bunu yorulmaz fəaliyyət nəticəsində əldə etmişik. Çünki mənim prezident kimi fəaliyyətimdə ordu quruculuğu birinci yerdədir.

Əlbəttə ki, bütün digər məsələlər də öz həllini tapmalıdır və tapır. Bu gün Azərbaycan dünya miqyasında öz gücünə arxalanan və heç kimdən asılı olmayan ölkədir. Ancaq biz müharibə şəraitində yaşayırıq və eyni zamanda, görürük ki, bu gün dünyada, beynəlxalq müstəvidə güc amili ön plana çıxır. Beynəlxalq hüquq normaları kobudcasına pozulur, onlara əməl edilmir. Əfsuslar olsun ki, bu gün beynəlxalq münasibətlərdə "kim güclüdür, o da haqlıdır" prinsipi üstünlük təşkil edir. Biz bunu görürük, müşahidə edirik və buna uyğun öz addımlarımızı atmalıyıq. Çünki biz real vəziyyətlə hesablaşmalıyıq. Beynəlxalq hüququn normalarının pozulması hər bir ölkəni öz hərbi potensialının gücləndirilməsinə vadar etməlidir və biz buna artıq çoxdan başlamışıq. Məhz bunun nəticəsində bu gün Azərbaycan Ordusu çox yüksək peşəkarlığa malikdir. Eyni zamanda, mənim göstərişimlə son illərdə ordumuzun silah-sursat, texnika ilə təchizatı da təşkil edilir. Bu məqsədlər üçün milyardlarla dollar vəsait xərclənib. Bu gün texniki təchizat baxımından Azərbaycan Ordusu güclü ordular sırasındadır. Bizim zirehli texnikamız ən yüksək standartlara cavab verir. Bizim hava hücumuna qarşı müdafiə sistemimiz müasirləşib və bu hərbi hissənin vəzifəsi məhz bundan ibarətdir. Biz bir neçə ölkədən hava hücumuna qarşı ən müasir qurğular əldə etmişik. Onların Azərbaycanda – bizim coğrafiyada bir-birinə inteqrasiya edilməsi də asan məsələ deyil. Çünki bizim hava hücumuna qarşı müdafiə sistemlərimiz, – bu, sirr deyil, bu məlumat artıq açıqlanıb, – həm Rusiya istehsalıdır, Belarus istehsalıdır, İsrail istehsalıdır, eyni zamanda, sovet vaxtından qalan qurğulardır və onlar da modernləşdirilib. Onları bir-birinə elə inteqrasiya etmək, elə yerləşdirmək lazımdır ki, bizim bütün strateji obyektlərimiz havadan qorunsun. Əlbəttə ki, böyük peşəkarlıq və vəsait tələb edir. Bizim vəsaitimiz olmasaydı, bunları haradan alacaqdıq. Bir ölkə varmı ki, bizə pulsuz, müftə nəsə verib. Belə bir ölkə yoxdur, heç vaxt da olmayıb, o cümlədən hərbi sahədə. Nəyi əldə etmişiksə, öz hesabımıza əldə etmişik. Əgər biz güclü iqtisadiyyat qurmasaydıq, əgər biz nəhəng neft-qaz layihələri icra etməsəydik, bu vəsaiti haradan alacaqdıq. Bütün bunlar bir-biri ilə bağlı olan məsələlərdir.

Hava hücumuna qarşı müasir qurğularımız imkan verir ki, bizim ölkəmiz, o cümlədən strateji obyektlər qorunsun. Bu gün keçirdiyim müşavirədə mənə məruzə edilən məsələlər, o cümlədən cəbhə bölgəsində yaranmış vəziyyət bir daha onu göstərir ki, Azərbaycan strateji üstünlüyə malikdir. Ona görə ordumuzun müasir silah-sursat, texnika ilə təchizatı bundan sonra da davam etdiriləcək. Eyni zamanda, bizim döyüş təyyarələrimiz modernləşdirilib, yüzdən çox hərbi və hərbi-nəqliyyat vertolyotumuz var. Bu da bizim böyük potensialımızdır. Pilotsuz uçuş aparatları ən yüksək səviyyəli istehsalçıların istehsalıdır. Eyni zamanda, Azərbaycanda da bu istehsal təmin edilib.

Yerli istehsala gəldikdə, deyə bilərəm ki, mənim Sərəncamımla 15 il bundan əvvəl yaradılmış Müdafiə Sənayesi Nazirliyinin xətti ilə 1300-dən çox adda hərbi təyinatlı məhsul istehsal olunur. Bizdə heç vaxt hərbi sənaye yox idi. Əgər biz bunu yaratmasaydıq, bu gün böyük problemlərlə üzləşə bilərdik. Amma indi nəinki özümüzü bir çox hərbi təyinatlı məhsullarla təmin edirik, ixrac da edirik və ixrac coğrafiyamız artıb. Biz onlarla ölkəyə hərbi məhsul ixrac edirik. Heç 15 il bundan əvvəl bu haqda fikirləşmək də əbəs idi. Onu kimsə desəydi, bəlkə də inanmazdılar. Amma bu, reallıqdır. Reallığı biz yaradırıq, öz əllərimizlə, öz gücümüzlə, öz iradəmizlə.

Ona görə bütün bu amillər – orduya, zabitə, əsgərə qayğı, məişət, xidmət şəraitinin yaxşılaşdırılması və ordumuzun silah-sursat, texnika ilə təchizatı, bir də əlbəttə ki, döyüş qabiliyyətinin artırılması, bax, bunlar bu əsas amillərdir. Əlbəttə ki, vətənpərvərlik. Ona görə hər bir hərbi hissədə ideoloji tərbiyə yüksək səviyyədə təşkil edilməlidir. Buna bütün rəhbər heyət cavabdehlik

daşıyır ki, bizim gənclərimiz milli ruhda, vətənpərvərlik ruhunda böyüsünlər, müstəqilliyin qədrini bilsinlər. Bilsinlər ki, müstəqillik bizə asan başa gəlməyib. Bilsinlər ki, bu gün müstəqilliyi qorumaq, onu möhkəmləndirmək bir çox ölkələr üçün böyük məharət tələb edir. İndi dünya xəritəsinə baxmaq kifayətdir ki, görək, adı var, amma faktiki olaraq müstəqil ölkə deyil. Nə üçün? Çünki müstəqil siyasət apara bilmir, başqasının təsiri altındadır. Biz son vaxtlar nə qədər belə ölkə görmüşük ki, özünü qoruya bilmir, faktiki olaraq parçalanır, məhv edilir, insanlar həlak olur, bütün infrastrukturu dağıdılır. Nəyə görə? Çünki özlərini qoruya bilmədilər. Qorumaq üçün gərək həm güc, həm də güclü iradə, inam olsun.

Ona görə mən sizə tapşırıram, bütün hərbi hissələrdə ideoloji vəziyyətə xüsusi əhəmiyyət verilməlidir. Ölkəmizin tarixi – həm qədim tarixi, həm də müasir tarixi ilə əlaqədar hər bir əsgərdə, zabitdə dolğun təəssürat olmalıdır. Çünki mən bunu dəfələrlə demişəm, əfsuslar olsun ki, biz real tariximizi bilməmişik. Günah da bizdə deyil, çünki belə oxumuşuq, bizə belə dərs veriblər. Sovet vaxtında tarix dərslərinin çoxu saxta idi. Azərbaycan xalqının düşmənləri qəhrəman kimi qələmə verilirdi. Quldur 26 Bakı komissarı dəstəsi qəhrəman kimi təqdim edilirdi. O dəstənin başında dayanan cinayətkar erməni millətçiləri qəhrəman kimi təqdim olunurdu. Onların adına rayonlar verilirdi, onlara abidələr qoyulurdu. Azərbaycan xalqının cəlladı Şaumyana abidə qoyulmuşdu, onun adı əbədiləşdirilmişdi. Biz bu tarixi görmüşük. Yenə də günah bizdə deyil. Sovet hakimiyyətinin tarixi bu idi. Müstəqilliyi quranlar düşmən kimi qələmə verilirdi. Azərbaycan Xalq Cümhuriyyəti antimilli qurum kimi qələmə verilirdi. Ancaq bizim müstəqilliyimizi əlimizdən alanlar, yerli satqınlar qəhrəman kimi qələmə verilirdi. Küçələrə onların adları verilir, onlara abidələr, monumentlər qoyulurdu. Bəlkə də yaddan çıxıb, Sahil bağında 26 Bakı komissarlarına abidə qoyulmuşdu. Mən fikirləşdim ki, bu, nə məsələdir. Bunlar Azərbaycan xalqının qanını axıdıblar, bizi məhv ediblər. Heç şəhərin mərkəzində belə abidəmi olar? O abidə də və o quldur dəstəsinin üzvlərinin abidələri də söküldü və düz də etmişəm. Bütün dini ayinləri gözləmək şərti ilə onların qəbirləri oradan köçürüldü. Ancaq bu, dözülməz idi ki, şəhərimizin mərkəzində Azərbaycan xalqının düşmənlərinə abidə ucaldılıb.

Ona görə mən deyirəm, bizim gənclər bu tarixi bilməlidirlər, qədim tariximizi bilməlidirlər. Bilməlidirlər ki, bugünkü Ermənistan Azərbaycan torpaqlarında formalaşıb, bugünkü Ermənistan xəritəsində coğrafi toponimlərin əsl adlarını bilməlidirlər. Mən gedirəm, haradasa xəritədə sonra dəyişdirilmiş erməni adlarını görürəm. Bütün yerli icra orqanlarına irad tuturam ki, bilmirsiniz, gedin soruşun. Fikirləşin nə yazırsınız, axı, bunun qədim Azərbaycan adı var. Bu, bizim torpağımızdır. Ona görə, bu sahəyə xüsusi diqqət göstərməliyik. Orduda xidmət edən hər bir gənc tərxis olunandan, mülki həyata qayıdandan sonra öz tarixini olduğu kimi bilməlidir.

Əlbəttə ki, əsas döyüş qabiliyyətimizdir. Bütün digər amillər ki, mən qeyd etdim bunun məqsədi var, o da döyüş qabiliyyətini artırmaqdır. Bu istiqamətdə də lazımi addımlar atılır. Həm 2016-cı ilin, həm 2018-ci illərin hərbi əməliyyatları bunu göstərdi. Biz böyük ərazini işğalçılardan azad edə bilmişik. Füzuli, Cəbrayıl, Ağdərə rayonlarının bir hissəsini 2016-cı ildə düşməndən azad etmişik və o torpaqlarda Azərbaycan bayrağını ucaltmışıq. Ermənilərin işğal edilmiş torpaqlarda qazdıqları səngərlərə girmişik. Biz indi orada otururuq və orada möhkəmlənmişik. Uğurlu Naxçıvan əməliyyatı nəticəsində 10 min hektardan çox ərazini işğalçılardan azad etmişik və strateji yüksəkliklərə çıxmışıq. Ermənistandan Dağlıq Qarabağa gedən yol bizim gözümüzün qabağından keçir. Ona görə döyüş qabiliyyətinin artırılması istiqamətində əlavə addımlar atılmalıdır ki, biz hər an ərazi bütövlüyümüzü bərpa etmək üçün hazır olaq. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və ediləcək, heç kimdə bu haqda şübhə olmasın. Sadəcə, daha güclü olmalıyıq. Geosiyasi vəziyyətə daim nəzarət etməliyik. Beynəlxalq müstəvidə dəyişən vəziyyəti düzgün təhlil etməliyik və beynəlxalq aləmdə daha çox dost toplamalıyıq. Biz bunu da edirik. Bu gün beynəlxalq aləmdə Azərbaycanla dostluq edən ölkələrin sayı gündən-günə artır.

İşğal edilmiş torpaqlarda bu gün ermənilər qanunsuz məskunlaşma siyasəti aparır. Bu məsələ ilə əlaqədar mən artıq bir neçə dəfə öz fikirlərimi bildirmişəm, o cümlədən xüsusilə beynəlxalq tədbirlər çərçivəsində. Avropa İttifaqının sonuncu Şərq Tərəfdaşlığı Zirvə görüşü çərçivəsində də bu məsələyə diqqət yetirdim. Biz bütün beynəlxalq təşkilatlarda bu məsələni qaldırırıq və qaldıracağıq. Qanunsuz məskunlaşmaya son qoyulmalıdır. Beynəlxalq ictimaiyyəti buna çağırırıq. Minsk qrupunun həmsədrlərinin bu məsələyə xüsusi diqqət yetirməyini istəyirik ki, bu qanunsuz məskunlaşma dayansın. Çünki Ermənistanın siyasəti bundan ibarətdir. Onlar bizim şəhərlərin adlarını dəyişdiriblər. Əvvəlcə indiki Ermənistan ərazisində, indi isə Dağlıq Qarabağda və ətraf bölgələrdə. Orada yeni dırnaqarası sərhədlər çəkiblər, bizim tarixi keçmişimizi, məscidlərimizi məhv ediblər, tarixi abidələrimizi, torpaqlarımızı erməniləşdirmək istəyirlər. İndi qanunsuz məskunlaşma aparmaq istəyirlər, ancaq onlarda insan resursu olmadığı üçün çətinlik çəkirlər. Amma yenə də diaspor fəaliyyəti nəticəsində buna çalışırlar. Biz buna imkan verməyəcəyik, bunu hər kəs bilsin. Biz münaqişə ilə bağlı mövqeyimizdə möhkəm dayanmışıq və bir addım geri atmayacağıq. Beynəlxalq təşkilatlar indi ərazi bütövlüyü prinsipini xüsusilə qeyd edirlər. Avropa İttifaqının sonuncu Şərq Tərəfdaşlığı Zirvə görüşündə çıxış edənlərin, dünya liderlərinin bir çoxları bu məsələyə aydınlıq gətiriblər. Ərazi bütövlüyü prinsipi insanların, xalqların öz müqəddəratını təyin etmək prinsipindən üstündür. Heç kimin bu haqda şübhəsi olmasın. Bütövlükdə Ermənistana və Dağlıq Qarabağ məsələsinə gəldikdə, öz müqəddəratını müəyyənetmə prinsipi işləmir, çünki

erməni xalqı öz müqəddəratını bir dəfə müəyyən edib, onların erməni dövləti var, baxmayaraq ki, Azərbaycan torpağında yaradılıb. Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına biz heç cür imkan verə bilmərik. Ancaq bir daha demək istəyirəm ki, ərazi bütövlüyü prinsipi bu gün üstünlük təşkil edir. Ona görə bizim mövqeyimiz beynəlxalq hüquq, tarixi ədalət baxımından mükəmməldir. Əlbəttə ki, münaqişə bu prinsiplər əsasında öz həllini tapmalıdır. Ancaq bayaq qeyd etdiyim kimi, dünyada güc amili ön plana çıxır və biz bu gücü toplamalıyıq, məsələni istənilən yolla həll etməliyik.

Əlbəttə, bu münaqişə Azərbaycan Xalq Cəbhəsi hakimiyyətinin acı mirasıdır. Çünki məhz onların xəyanətkar fəaliyyəti nəticəsində torpaqlarımız işğal altına düşüb. Bunu hər kəs bilməlidir. Şuşanın işğalı böyük faciə idi. O vaxt Azərbaycanda hakimiyyət uğrunda mübarizə gedirdi. Azərbaycan Xalq Cəbhəsi istənilən yollarla hakimiyyətə gəlmək istəyirdi. O, əvvəlki hakimiyyəti yıxmaq üçün ən çirkin, ən xəyanətkar əməllərə əl atdı, Şuşanı ermənilərə təhvil verdi. Hərbçilər yaxşı bilirlər, Şuşa alınmaz qaladır. Onu almaq mümkün deyil. Onu təhvil verdilər, satdılar ki, hakimiyyəti yıxsınlar, hakimiyyətə gəlsinlər. Əfsuslar olsun ki, belə də oldu. 1992-ci ilin mayında Şuşa və Laçın işğal edildi, Xalq Cəbhəsinin dəstələri qanunsuz yollarla hakimiyyətə gəldi. Ondan sonra nə etdilər? Ondan sonra ölkəmizi dağıtmağa başladılar. İşğal edilmiş torpaqlar qaldı bir yana, onlar isə talançılıqla, rüşvətxorluqla, oğurluqla məşğul idilər, kabelləri kəsib satırdılar. Kütləvi talançılıq baş alıb gedirdi. Nəticədə bir tərəfdən xalq buna dözmədi, digər tərəfdən 1993-cü ilin aprelində Ermənistan Kəlbəcəri işğal etmişdi. Qanunsuz yollarla hakimiyyətə gəlmiş həmin xəyanətkar Azərbaycan Xalq Cəbhəsi hakimiyyəti Kəlbəcəri Ermənistana təhvil verdi və ondan sonra Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yarandı. Artıq gediş-gəliş və silah-sursat, texnika və təchizat başlamışdı. Ondan sonra nə etdilər? Torpaqları müdafiə etmək əvəzinə qardaş qanını axıtdılar, vətəndaş müharibəsini başladılar, Gəncəni bombaladılar. Azərbaycan əsgərlərini əsir götürmüşdülər. Orada torpaqlar əldən gedir, burada bir-birini qırırlar ki, hakimiyyətə gəlsinlər. Məhz bunun nəticəsində torpaqlarımız işğal altına düşdü. Əgər Heydər Əliyev hakimiyyətə gəlməsəydi, bilmək olmur Ermənistan hələ haraya qədər gəlib çıxa bilərdi.

Ona görə bu tarixi hər kəs bilməlidir. Bu işğal Azərbaycan Xalq Cəbhəsinin xəyanətkar və satqın hərəkətlərinin nəticəsidir. Xalq onlara dözmədi, qaçıb getdilər. Buna nə ad vermək olar? Ancaq fərarilik. Prezident fərarilik edib, qaçdı Kələkiyə. Yaxşı, sən Ali Baş Komandansan, ölkə müharibə şəraitindədir. Sən xalqı, dövləti, dövlətçiliyi qorumalısan. Gecə ilə gizlin təyyarəyə minib, uçub Naxçıvana, oradan gedib oturub Kələkidə. Buna nə ad vermək olar? İndi buna bəraət qazandırmaq istəyənlərə üz tutub deyirəm. Nə ad vermək olar buna? Qorxaqlıq, satqınlıq, fərarilik. Başqa ad yoxdur. Hamı da bunu bilməlidir. O birilər nə etdilər? O vaxtkı dövlət katibi indi özünü guya müxalifət adlandırır. Amma o hansı müxalifətdir Azərbaycan xalqı yaxşı bilir. Onların tərbiyəsi, mərifəti, addımları nədən ibarətdir, indi bütün vətəndaşlar internetdə görürlər.

Mən demişəm ki, Azərbaycanda nə qədər pis olsa, onlar üçün o qədər yaxşıdır. Görün, nəyə sevinirlər? Sevinirlər ki, neftin qiyməti 14 dollara düşüb. Buna kim sevinir? Bir Ermənistan, bir də özünü müxalifət adlandıran bu antimilli şura. Neftin qiyməti 14 dollara düşəndə axı, insanlar bundan əziyyət çəkəcək, problemlər yaranacaq, sosial sahədə problemlər yaşana bilər, iqtisadiyyatımız yavaşıyar. Amma bu, onların işinə yarayır, Azərbaycan üçün nə qədər pisdir, onlar üçün o qədər yaxşıdır. Bax, onlar o vaxt da bu prinsiplə yaşayırdılar. Ona görə torpaqlarımızı əldən verdilər. Dövlət katibi o vaxt prezidentlə bir yerdə fərarilik edib. O da getdi gizləndi Kələkidə. Parlamentin sədri fərarilik etdi. Onlar fəraridirlər, satqındırlar, xaindirlər. Hər kəs bunu bilməlidir, heç kim bunu unutmamalıdır.

İndiki şəraitdə biz gücümüzü daha da artırmalıyıq və artırırıq. Ermənistan artıq bir neçə ildir ki, dərin böhran içindədir. Deyə bilərəm ki, Ermənistanın müstəqillik tarixi prinsipcə rüsvayçılıq tarixidir. Çünki indiki iqtidar artıq dəfələrlə bəyan və sübut edib ki, 1998-ci ildən 2018-ci ilə qədər Ermənistana rəhbərlik etmiş şəxslər cinayətkardır, oğrudur, quldurdur. Onların bir çoxu həbs edilib. Məlum olub ki, onların generalları oğrudur, əsgər tuşonkasını oğurlayıb, sonra bazarlarda satdırırdılar. Onların qəhrəmanları cinayətkardır, onların prezidentləri rüşvətxordur. İndiki hakimiyyət bunları açdı-tökdü. Onsuz da biz bunu bilirdik, indi bütün dünya bunu bilir. Yəni, belə çıxır ki, 20 il ərzində bu dırnaqarası müstəqil ölkəyə quldur, rüşvətxor və cinayətkarlar rəhbərlik edib. Bu ölkəyə nə ad vermək olar? Hələ 30 il yoxdur, guya müstəqil ölkə kimi yaşayır, əgər 20 il quldurlar rəhbərlik edibsə, nə ad vermək olar – quldur ölkəsi, cinayətkar ölkəsi. Yaxşı, baxaq görək, 2018-ci ildən bu yana nə baş verib. Guya orada demokratik inqilab olub. Hamısı yalandır. O pullar oraya haradan axıdılıb, biz bunu bilirik, yəqin ki, erməni xalqı da bilir. İndiki hakimiyyət hansı xarici dairələrdən idarə olunur, bunu hər kəs bilir. Sadəcə olaraq, indiki rəhbərlərin tərcümeyi-halına baxın, görün bunlar hansı fondlarda işləyiblər, kimdən pul alıblar. Postsovet məkanında həmin dırnaqarası inqilabları, əslində, qanlı çevrilişləri təşkil edənlər indiki Ermənistan rəhbərlərinin himayədarlarıdır. Onları idarə ediblər və əlbəttə ki, xalqda o çirkin kriminal, xunta rejiminə nifrət böyük idi. Ondan istifadə edib hakimiyyəti zəbt ediblər. Ondan sonra nə baş verir? Ondan sonra hazırda Ermənistanda artıq diktatura hökm sürür. Bu, qaçılmaz faktdır. Onlarda təqribən bir il bundan əvvəl həbsdə olan bir jurnalist axıra qədər aclıq elan edir və ölür. Heç bir beynəlxalq təşkilat, Avropa Şurası, ATƏT-in mətbuat üzrə xidməti bir səs belə çıxarmırlar. Nə üçün? Çünki bilirlər ki, indiki Ermənistanın rəhbərləri kimdir.

Son hadisələr nəyi göstərir? Siyasi opponentlər təqib edilir, həbs olunur, konstitusiyaya qanunsuz dəyişikliklər edilir. Halbuki bu dəyişikliklər ancaq referendumda edilə bilər. Gördülər ki, referendumda keçməyib, parlamentdə dəyişikliklər etdilər. Deməli, hakimiyyət bölgüsü tamamilə pozulub. Qanunvericilik hakimiyyəti, icra hakimiyyəti, məhkəmə-hüquq sahəsi artıq bir adamın əlindədir, bir alətdir və bu diktatura möhkəmlənir. Eyni zamanda, Ermənistanda korrupsiya, talançılıq, rüşvətxorluq, qohumbazlıq kütləvi xarakter alıb. İndi bunu artıq üzə çıxardırlar. Sən demə, qaçaqmalçılıqla baş nazirin özü və onun ailəsi məşğuldur. Siqaret qaçaqmalçılığının başında baş nazir, onun ailəsi, yaxınları dayanır. Ondan sonra zəngin iş adamlarına qarşı cinayət işləri açılır, sonra da onlar məcbur edilir ki, – bir fond yaradıblar, – o pulları fonda köçürsünlər. O fonddan da bu pullar çəkilir, mənimsənilir. Yəni, bu gün Ermənistanın baş naziri və onun yaxın qohumları, ətrafı rüşvətxorluq rəmzinə çevrilib. Baxın, bunların maliyyə imkanları iki il bundan əvvəl nə idi, indi nədir. Ona görə Ermənistanda diktatura hökm sürür və bu, nə qədər belə çox davam edərsə, orada problemlər böhranlı həddə bir o qədər tez çatacaq. Prinsip etibarilə əgər belə obyektiv təhlil aparsan, görərsən ki, orada inkişaf perspektivləri yoxdur. Çünki ölkə özü-özünü saxlaya bilmir, öz sərhədlərini qoruya bilmir, xarici ölkələrin əsgər və zabitləri onların sərhədlərini qoruyur, öz hərbi gücünü təmin edə bilmir, xarici dövlət orada hərbi baza saxlayır, silahlar ala bilmir, xarici dövlət onlara pulsuz silah-sursat verir. İqtisadiyyatı düz qura bilmir, ancaq yalvara-yalvara, dilənə-dilənə kreditlər hesabına yaşayır. İndi Avropa İttifaqından 90 milyon dollar pul dilənir, ondan-bundan dilənir. Deməli, demoqrafik böhran yaşanır, insanlar bu ölkəni tərk edir və təbii azalma gedir. İndi Ermənistanın real əhalisi 2 milyon nəfərdən azdır. Bunu mən bilirəm və Ermənistan rəhbərliyi bilir. Bir də ki, bu ölkə qonşulara – özü də kimə, Türkiyə kimi böyük bir ölkəyə ərazi iddiaları irəli sürür. Dırnaqarası soyqırımı ilə bağlı Türkiyəyə qarşı əsassız ittihamlar irəli sürülür. Heç bir soyqırımı olmamışdır. Ermənilər həm 1918-ci ildə, həm də Xocalıda bizə qarşı soyqırımı törətmişlər. Ona görə belə bir iddia ilə yaşayan ölkənin gələcəyi çox qaranlıqdır.

Biz isə hər sahədə, beynəlxalq müstəvidə güclənirik, güclənməliyik – ölkə daxilində sabitlik, iqtisadi sahədə islahatlar, sosial problemlərin həlli, regionların inkişafı və nəhayət, ordu quruculuğu. Ona görə bu yolla biz gedəcəyik, ordumuzu bundan sonra da gücləndirəcəyik, nə qədər lazımdırsa, orduya o qədər vəsait ayıracağıq. Heç nəyə baxmadan, – neftin qiyməti 14 dollara düşdü, Xalq Cəbhəsinin sevincinə səbəb olan o hadisəni xatırlatmaq istəyirəm, yaxud da ki, qalxdı, fərq etməz, – bizim iqtisadiyyatımız dayanıqlıdır və biz ordumuza nə lazımdırsa, bundan sonra da edəcəyik.

Mən bir daha Azərbaycan Silahlı Qüvvələrinin bütün şəxsi heyətini bu gözəl bayram münasibətilə təbrik etmək istəyirəm. Sizə yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Mingəçevirdə Dövlət Rəmzləri Muzeyinin açılışında iştirak edib.

Dövlətimizin başçısına muzeydə nümayiş etdirilən eksponatlar barədə məlumat verilib.

Bildirilib ki, tikintisi bu ilin aprelində başa çatdırılan Dövlət Rəmzləri Muzeyinin sərgi zalında 9 bölmə yaradılıb. Burada Milli Elmlər Akademiyasının Tarix İnstitutu tərəfindən hazırlanmış ayrı-ayrı dövrlərə uyğun Azərbaycan xəritələri, Orta Əsrlərə aid döyüşçüləri əks etdirən manekenlər, Orta Əsr Azərbaycan dövlətlərinin və xanlıqlarının bayraqları, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar sərgilənir.

Muzeyin eksponatları arasında Azərbaycan Orta Əsr əsgərlərinin döyüş geyimləri, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, Azərbaycan SSR-nin gerbləri və bayraqları, Silahlı Qüvvələrin mərasim geyim formaları və döyüş bayraqları, ümummilli lider Heydər Əliyevin və dövlətimizin başçısı İlham Əliyevin andiçmə mərasiminə aid fotoşəkillər, dövlət rəmzləri haqqında kəlamlar, poçt markaları, orden, medal, fəxri ad və döş nişanları nümayiş olunur.

Dövlət Rəmzləri Muzeyinin yerləşdiyi ərazidə 200 yerlik yay səhnəsi də tikilib.

Prezident İlham Əliyevə şəhərdəki “Dostluq” və “Nəsimi” parklarında aparılan yenidənqurma işləri barədə də məlumat verildi.

Bildirildi ki, hər iki parkda istər şəhər sakinlərinin, istərsə də Mingəçevirin qonaqlarının istirahətlərinin maraqlı təşkili üçün hərtərəfli şərait yaradılıb.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQLƏRİ, ÇIXIŞLARI VƏ MÜSAHİBƏLƏRİ

## *İlin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində keçirililən müşavirədə İlham Əliyevin giriş nitqi*

Bu gün biz ilin birinci rübünün yekunlarını müzakirə edəcəyik, görüləcək işlər haqqında danışacağıq. Deyə bilərəm ki, 2020-ci il uğurla başlamışdır. İlin əvvəlinin göstəriciləri deməyə əsas verir ki, Azərbaycanda islahatların davam etdirilməsi yaxşı nəticələrə gətirib çıxarır. Xüsusilə yanvar-fevral aylarında həm iqtisadi, həm də sosial göstəricilərimiz çox müsbət idi. Mart ayında isə müəyyən qədər tənəzzülə uğradıq. Bu da təbiidir. Çünki koronavirus bütün dünya üçün böyük bəladır və dünya iqtisadiyyatı üçün böyük problemdir. Əgər ilin 3 ayını bütövlükdə götürsək, görərik ki, yenə də inkişaf, tərəqqi var. Ancaq hər kəs bilməlidir ki, indi dünya yeni bir mərhələyə qədəm qoyub və hətta ən inkişaf etmiş ölkələr böyük problemlərlə üzləşiblər.

Koronavirus böyük bəladır, 100 mindən çox insanın həyatına son qoyub. Demək olar ki, dünyanın bütün ölkələrində koronavirusla bağlı problemlər yaşanır. Azərbaycan da dünyanın bir parçasıdır. Ancaq deyə bilərəm ki, qabaqlayıcı tədbirlər və düşünülmüş siyasət nəticəsində biz vəziyyəti nəzarət altında saxlayırıq. Hesab edirəm ki, bu günə qədər atılmış bütün addımlar düzgün istiqamətdə atılmış addımlardır. Məhz bu addımların atılması nəticəsində Azərbaycanda vəziyyət nəzarət altındadır. Əgər bu addımlar vaxtında atılmasaydı və biz düşünülmüş strategiya çərçivəsində məhdudlaşdırıcı rejimi mərhələli yollarla sərtləşdirməsəydik, bu gün xəstələrin sayı min yox, bəlkə də 10 min, bəlkə də 20 min ola bilərdi. Ən inkişaf etmiş ölkələrin təcrübəsi onun göstərir ki, heç bir ölkə özünü tam sığortalı hesab edə bilməz. Heç bir ölkənin səhiyyə sistemi bu xəstələrin artan dinamikasının qarşısında duruş gətirə bilməz. Ona görə bu, bizim üçün də dərs olmalıdır və mən bunu artıq bildirmişəm, bir daha demək istəyirəm ki, ibrət götürməliyik. Bizim bütün addımlarımız ölçülüb-biçilmiş addımlardır və təsadüfi deyil ki, bir neçə ölkə bizim təcrübəmizdən yararlanıb oxşar addımlar atır. Biz bunu görürük.

Ona görə bizim bundan sonrakı addımlarımız elə atılmalıdır ki, insanların sağlamlığını, onların həyatını qoruya bilək. Əvvəllər qeyd etdiyim kimi, biz addımlarımızı vəziyyətə uyğun atacağıq və əlbəttə, hamımız istəyirik ki, bu karantin rejiminə tezliklə son qoyulsun və vətəndaşlar öz normal həyatına qayıtsınlar. Ancaq bir daha demək istəyirəm ki, bizim üçün əsas məsələ vətəndaşların sağlamlığı, insanlarımızın həyatıdır. Bu günlərdə mənə ünvanlanan yüzlərlə, minlərlə məktublar, elektron məktublar, mesajlar göstərir ki, vətəndaşlar bizim atdığımız addımları yüksək qiymətləndirirlər.

Ancaq bir daha demək istəyirəm ki, koronavirus pandemiyası nə vaxt qurtaracaq bunu heç kim bilmir, heç kim proqnoz verə bilmir. Ona görə biz də, sadəcə olaraq, həm ölkə daxilində vəziyyəti tam nəzarətdə saxlamalıyıq, geniş monitorinq aparmalıyıq və aparırıq. Eyni zamanda, dünyada gedən prosesləri də yaxından müşahidə edərək öz addımlarımızı elə ataq və tam əmin olaq ki, bu koronavirus pandemiyası artıq təhlükə törətmir. Hesab edirəm ki, ancaq ondan sonra müəyyən dərəcədə yumşalma addımlarının atılması mümkündür. Hələ ki, demək tezdir, amma son günlərin rəqəmləri ümidvericidir. Ümid etmək istəyirəm ki, bu müsbət dinamika, yəni, xəstələrin sayı ilə bağlı müsbət dinamika bundan sonra da davam edəcək. Ancaq yenə də deyirəm, biz addımlarımızı vəziyyətə uyğun şəkildə atacağıq.

O ki qaldı, pandemiyanın ölkə iqtisadiyyatına mənfi təsirinə, bu da qaçılmazdır. Artıq aparıcı beynəlxalq maliyyə qurumları qeyd edir ki, bu pandemiyadan yarana biləcək və yaranmaqda olan böhran 2008-2009-cu ilin böhranından daha da ağır olacaq. Bunu Beynəlxalq Valyuta Fondunun rəhbərliyi bildirmişdir. Eyni zamanda, biz bilirik ki, Beynəlxalq Valyuta Fonduna və Dünya Bankına 150-dən çox ölkə yardım üçün müraciət etmişdir. Yəni, dünya birliyinin mütləq əksəriyyəti artıq yardıma ehtiyac duyur və buna görə müraciət edibdir. Azərbaycanın adı bu siyahıda yoxdur. Hesab edirəm ki, bu vəziyyətdən şərəflə çıxmağımız, – mən buna əminəm, – bir daha göstərəcək ki, bizim bütün addımlarımız düşünülmüş addımlardır və xalqımızın, dövlətimizin maraqlarına uyğun şəkildə atılan addımlardır.

Ancaq bir daha demək istəyirəm ki, iqtisadi vəziyyətə pandemiyanın təsiri qaçılmazdır. Biz artıq bunu görürük. Ona görə hökumətə tapşırıq verirəm, xüsusilə Baş Nazirə, Maliyyə nazirinə və İqtisadiyyat nazirinə ki, dövlət xərclərinə yenidən baxılsın və prioritet təşkil etməyən xərclər ixtisar edilsin. Eyni zamanda, vəsaitin xərclənməsinə çox ciddi nəzarət mexanizmi tətbiq olunmalıdır. Bu məsələ ilə bağlı mən öz fikirlərimi bundan əvvəl də bildirmişdim. Son vaxtlar bu istiqamətdə müsbət dinamika göz qabağındadır və bunun nəticəsində biz həm keçən il, həm də bu ilin üç ayında büdcəmizə əlavə maliyyə vəsaiti daxil edə bilmişik. Ancaq hesab edirəm ki, burada hələ ehtiyatlar var, həm investisiya xərclərinə, eyni zamanda, cari xərclərə yenidən

baxılmalıdır. Çünki bəzi hallarda cari xərclər şişirdilir. Xüsusilə dövlət təşkilatlarının, dövlət şirkətlərinin cari xərcləri əfsuslar olsun ki, şişirdilir və bu sahəyə çox ciddi diqqət göstərilməlidir. Bu sahədə şəffaflığın tam təmin olunması istiqamətində əlavə addımların atılması zəruridir. Hesab edirəm ki, biz bunun hesabına, əlbəttə, öz iqtisadi-maliyyə vəziyyətimizi sabit saxlayacağıq. Eyni zamanda, hökumətə tapşırıram ki, yeni gəlir mənbələri aşkar edilməlidir. Yenə də demək istəyirəm ki, ehtiyatlar var, çoxdur. Son müddət ərzində bu ehtiyatların bir hissəsi artıq üzə çıxıb və büdcəyə daxilolmalar artır, keçən il və bu il. Keçən il büdcəyə proqnozdan əlavə bir milyard manatdan çox vəsait daxil edilibdir, bu ilin üç ayında 300 milyon manatdan çox. Ona görə bu məsələyə çox diqqətlə baxmaq lazımdır və təkliflər hazırlanmalıdır. Yenə də demək istəyirəm ki, biz bilmirik bu vəziyyət nə qədər çəkəcək. Ona görə öz addımlarımızı elə atmalıyıq ki, iqtisadi, makroiqtisadi sabitlik təmin edilsin. Əlbəttə ki, biz, ilk növbədə, bu vəziyyətdən əziyyət çəkən vətəndaşların problemlərini həll etməliyik və edirik. Bu məqsədlə böyük məbləğdə vəsait ayrılıb, 600 mindən çox insan, hansı ki, pandemiyaya görə öz işini müvəqqəti olaraq itirib, dövlət tərəfindən dəstəklə təmin edilir. Bu insanların maaşlarının əhəmiyyətli hissəsi dövlət tərəfindən ödənilir. Eyni zamanda, işsizlərlə bağlı problemlər öz həllini tapır və işini itirənlər artıq öz adlarını kütləvi surətdə qeydiyyata salırlar. Biz burada da çox diqqətli olmalıyıq, sui-istifadədən uzaq olmalıyıq. Bu, həm vətəndaşlara aiddir, həm də dövlət orqanlarına. Doğrudan da işini itirmiş, yaxud da ki, işləməyən insanlara yardım göstərilməlidir. Çünki mənə verilən məlumata görə, son günlər ərzində müraciətlərin dinamikası çox sürətlidir və bu, müəyyən şübhələr doğurur. Dövlət orqanlarının kifayət qədər imkanı var ki, bu məsələ araşdırılsın və ehtiyacı olan insanlar dövlətdən yardım alsınlar.

Onu da bildirməliyəm ki, mənim göstərişimlə son aylar ərzində ünvanlı sosial yardım alan insanların sayı artırılıb, indi 70 mindən çoxdur. Əlbəttə ki, hər bir məsələyə biz ayrı-ayrılıqda baxmalıyıq, vahid meyarlar tətbiq olunmalıdır və bu meyarlar vətəndaşlara da aydın olmalıdır ki, bununla bağlı heç kimdə heç bir şübhə qalmasın.

Əlbəttə ki, həyat yerində durmur, həyat davam edir və mən əminəm ki, 2020-ci il də çox dərin və geniş islahatlar ili olacaq, necə ki, 2019-cu ildə islahatların böyük hissəsi icra edilmişdir. Əslində, islahatların yeni mərhələsinə start 2018-ci ilin prezident seçkilərindən sonra verilmişdir. Mənim andiçmə mərasimindəki çıxışımda inkişafımızın və islahatların bütün istiqamətləri açıq-aydın göstərilmişdir. Ondan sonra biz bu islahatların ardıcıllıqla həyata keçirilməsi ilə məşğuluq və bu gün deyə bilərəm ki, ölkəmizdə daha yaxşı vəziyyət yaranmışdır – həm siyasi müstəvidə, iqtisadi sahədə, həm də sosial problemlərin həllində. Əlbəttə, əgər bu koronavirus pandemiyası müdaxilə etməsəydi, bizim uğurlarımız daha da böyük həcmli olardı. Ancaq əminəm ki, biz bu ağır vəziyyətdən də çıxacağıq, iqtisadiyyatımız, iş yerləri bərpa ediləcək.

Pandemiya bir daha göstərdi ki, uğurlu inkişaf üçün iqtisadiyyat dayanıqlı olmalıdır. Buna nail olmaq üçün mütləq bütün sahələrdə islahatlar aparılmalıdır - həm iqtisadi-sosial sahədə, eyni zamanda, siyasi sahədə. Mən hesab edirəm ki, siyasi islahatların aparılması bundan sonra da bizim imkanlarımızı daha da genişləndirəcək. Biz bu islahatların gözəl nəticələrini görürük. Azərbaycan bundan sonra da demokratik inkişaf istiqamətində önəmli addımlar atacaq. Bizim kifayət qədər güclü siyasi iradəmiz var. Biz görürük ki, siyasi və iqtisadi islahatlar paralel aparılarkən doğrudan da böyük uğurlara imza ata bilərik.

Struktur islahatları aparılıb və hesab edirəm ki, struktur islahatlarının davam etdirilməsi məsələlərinə yenə də baxmalıyıq. Siyasi islahatlar göz qabağındadır, kadr islahatları aparılıb. Prezident Administrasiyasında, Nazirlər Kabinetində, parlamentdə böyük kadr dəyişiklikləri edilib. Bütün hakimiyyət qollarında aparılan islahatlar bir məqsədi güdür ki, idarəetmə mexanizmi daha da təkmilləşsin, təbii olaraq, gəncləşmə siyasəti aparılsın və peşəkar kadrlar önəmli vəzifələrə gətirilsin. Hesab edirəm ki, bizim sözümüzlə əməlimiz arasında hər zaman olduğu kimi, bu dəfə də vəhdət var və nəyi bəyan etmişəmsə biz onu da təmin edirik. Hesab edirəm ki, Prezident Administrasiyasında, Nazirlər Kabinetində və Milli Məclisdə aparılan ciddi islahatlar nəticəsində ölkəmiz indi yeni inkişaf mərhələsinə inamla qədəm qoyur və idarəetmədə təkmilləşmə göz qabağındadır. Eyni zamanda, yerli icra orqanlarında aparılan kadr islahatları, xüsusilə, xoşagəlməz hallara qarşı ciddi mübarizə də göz qabağındadır. Bu, bizim şüurlu seçimimizdir. Bütün xoşagəlməz hallara qarşı bundan sonra da ciddi mübarizə aparılacaq. Hesab edirəm ki, Prezident tərəfindən edilən xəbərdarlıq hər kəs üçün dərs olmalıdır. Əgər kimsə bundan ibrət götürməsə, günah onun özündə olacaq.

Bu islahatların məntiqi davamı parlament seçkiləri idi və bu ilin fevral ayında keçirildi. Parlament seçkiləri bir daha xalqımızın iradəsini ifadə etdi, bir daha göstərdi ki, apardığımız siyasət Azərbaycan vətəndaşları tərəfindən bəyənilir, dəstəklənir və parlament seçkiləri demokratik inkişaf istiqamətində atılmış növbəti addımdır. Seçkilərdən sonra parlamentin tərkibi böyük dərəcədə, rəhbər orqanları isə tam dəyişdirildi. Tarixdə ilk dəfə olaraq, müxalifət nümayəndəsi Milli Məclisin Sədrinin müavini vəzifəsinə seçildi. Hesab edirəm ki, bu, siyasi sistemin təkmilləşdirilməsi və siyasi münasibətlərin sağlam zəmində qurulması istiqamətində atılmış önəmli addımdır. Eyni zamanda, tarixdə ilk dəfə olaraq, parlament komitələrinə müxalifət nümayəndələri başçılıq edirlər, həm sədr, həm müavin vəzifələrində. Hesab edirəm ki, bu da çox önəmli addımdır və ilk növbədə,

siyasi sistemin yeni konfiqurasiyasına yol açan bir addımdır, eyni zamanda, Milli Məclisdə gedən proseslərə müsbət təsir göstərəcək. İndiki şəraitdə biz açıq-aydın görürük ki, siyasi qüvvələrin mütləq əksəriyyəti dövlətçilik prinsiplərini hər şeydən üstün tutur və bu da əslində, bizim əsas məqsədimizdir. Çünki əsas məqsədimiz elə siyasi sistem yaratmaqdır ki, fərqli baxışlardan asılı olmayaraq, hər bir siyasi qüvvə üçün bir amal müqəddəs olsun, o da dövlətçilik, müstəqillik, azadlıq, rifah və inkişafdır. Belə olan halda həm siyasi müstəvidə işlər müsbət istiqamətdə gedəcək, eyni zamanda, ölkədə mövcud olan problemlər daha tezliklə həll olunacaq. Çünki müxalifət nümayəndələri bəzən iqtidar nümayəndələrinin görmədiyi qüsurları görürlər, onları dilə gətirirlər, onları diqqətə çatdırırlar və bu, çox müsbət haldır. Ancaq, eyni zamanda, bir daha demək istəyirəm ki, bütün siyasi qüvvələr üçün bir amal, bir məsələ toxunulmaz olmalıdır, bu da bizim müstəqilliyimiz, dövlətçiliyimiz və dövlət maraqlarıdır.

Hesab edirəm ki, hakimiyyət tərəfindən atılan addımlar, siyasi dialoqun başlanması və müxalifət partiyaları tərəfindən buna müsbət reaksiya verilməsi müstəqillik dövründə tam yeni vəziyyətin yaradılmasına gətirib çıxarır. Müstəqillik dövründə bu sahədə heç vaxt belə müsbət mənzərə müşahidə edilmirdi.

Əlbəttə, bəlkə mən hadisələri bir qədər qabaqlayıram. Çünki bu proses hələ təzə-təzə başlayır. Ancaq bəlkə ona görə qabaqlayıram ki, mən bu prosesin sürətlə getməsini arzulayıram. Şadam ki, bizim dialoq təklifinə müxalifət partiyalarının hamısı müsbət cavab verib və artıq siyasi dialoq başlayır. Əminəm ki, bu, ölkəmizə böyük fayda gətirəcəkdir.

O ki qaldı, bu dialoqdan imtina edənlərə, onları siyasi qüvvə adlandırmaq düzgün olmaz. Çünki bu düşərgədə cəmləşən insanlar uzun illərdir iqtidara qarşı yox, dövlətimizə, xalqımıza qarşı çirkin mübarizə aparırlar. Onların əsas məqsədi vəziyyəti gərginləşdirməkdir. Ölkəmiz üçün, xalqımız üçün nə qədər pisdirsə, onlar üçün o qədər yaxşıdır. Onların fəaliyyətinin tarixi də bunu göstərir. Biz bu tarixi yaddan çıxarmamışıq. Həmin bu qüvvələr Azərbaycanı 1990-cı illərin əvvəllərində ağır vəziyyətə salıblar, xəyanət ediblər, torpaqlarımızın işğalını şərtləndiriblər. Ondan sonra qorxaqcasına qaçıb gizləndilər. Həmin bu adamlar Azərbaycana böyük zərbə vurmuşlar, vətəndaş müharibəsinə start vermişlər. Torpaqlarımız işğala düşən zaman burada qardaş qanı axıdıldı. Bu qruplaşma ölkəmizdə xaos, anarxiya yaratdı, korrupsiya dövlət siyasətinə çevrildi və səriştəsizlik, tərbiyəsizlik, mədəniyyətsizlik artıq AXC-Müsavat hakimiyyətinin rəmzinə çevrildi. O hakimiyyəti təmsil edən adamların yarıtmaz və xəyanətkar fəaliyyəti nəticəsində ölkə faktiki olaraq dağılma ərəfəsində idi.

Ona görə bu qruplaşmanı indiki şəraitdə siyasi qüvvə adlandırmaq olmaz. Onu bildirməliyəm ki, həmişə nəyisə gözləyirlər və həmişə xarici amilə ümid edirlər. Yadınıza salın, 2005-ci ildə postsovet məkanında inqilablar baş verdiyi zaman onlar da bundan ruhlanıb "narıncı inqilab" etmək fikrinə düşmüşdülər. Hətta özləri üçün ayrı bir rəng də seçməkdə çətinlik çəkdilər, Ukraynadan o vaxt narıncı rəngi götürüb burada tətbiq etmək istədilər. Narıncı rəngdə maykalar, bantlar sifariş edib ölkəmizə gətirdilər. Ancaq bir şeyi nəzərə almadılar ki, o vaxt, 2005-ci ildə parlament seçkiləri noyabr ayında keçirilmişdi. Noyabrda artıq soyuqlar başlayır. O gülməli mənzərə yadımdadır ki, bunlar pencəyin, paltonun üstündən narıncı maykaları geyib küçələrə çıxmışdılar. Bəziləri isə boyunlarına salmış, bəziləri başlarına bağlamışdılar. Bu, bir komediya mənzərəsi yaradırdı. Bax, budur bunların qabiliyyəti. O da alınmadı. Ondan sonra "ərəb baharı" başlayanda yenə də ruhlandılar ki, bunların əlinə bir fürsət düşəcək. 2011-2012-ci illərdə Azərbaycanda "ərəb baharı"nın təkrarlanmasını istəmişdilər. O da alınmadı. 2013-cü ildə prezident seçkiləri ərəfəsində hansı eybəcər addımlar atmışdılar, onu hər kəs xatırlayır. İndi isə koronavirus bunlar üçün sanki, göydəndüşmə bir hədiyyədir. Bu gün koronavirusa sevinən ancaq bu antimilli qruplaşmadır. Mən təbii ki, baş verən hadisələrdən xəbərdaram və bilirəm ki, bunların bu çirkin niyyətləri dəhşətli bir mənzərə yaradır. Ölənlərin sayının artmasını arzulayırlar, xəstələrin sayının artmasını istəyirlər, sevinirlər ki, insanlar vəfat edir. Yəni, bu, iqtidara qarşı deyil, dövlətə qarşı düşmənçilikdir. Mən hər şeyi öz adı ilə çağırıram. Əgər kimsə xalqımıza, dövlətimizə düşmənçilik edirsə, onun bir adı var – düşmən. Hər kəs bunları belə də çağırmalıdır. Bunların indiki arzuları da gözlərində qalacaq. Sözüm onda deyil, sözüm ondadır ki, siyasi islahatlar bu gün tam yeni bir konfiqurasiya yaradır. Əminəm ki, marginal qruplaşmaya yeni konfiqurasiyada yer yoxdur və olmamalıdır. Azərbaycan xalqı onları 27 il bundan əvvəl tarixin zibilxanasına atıbdır.

Hesab edirəm ki, bizim bu ilin əvvəlindən beynəlxalq müstəvidə də fəaliyyətimiz uğurludur. Mənim Davos Forumunda və Münxen Konfransında iştirakım, hesab edirəm ki, çox müsbət nəticələrə gətirib çıxarıb. Çünki Davos Ümumdünya İqtisadi Forumu dünyanın bir nömrəli beynəlxalq iqtisadi tədbiridir və dünyanın siyasi, iqtisadi elitası orada iştirak edir. Mən Azərbaycana böyük marağı bir daha gördüm, bunun şahidi oldum. Dünyanın nəhəng şirkətləri Azərbaycanla işləmək istəyirlər. Növbəti addımların atılması və yeni razılaşmaların imzalanması üçün yaxşı şərait yaradılmışdır. Davos Forumunda keçirdiyim bir çox görüşlər konkret nəticəyə gətirib çıxarır. Azərbaycana sərmayə qoyulur, böyük şirkətlər Azərbaycanla daha fəal əməkdaşlıq edir və sair.

O ki qaldı, Münxen Təhlükəsizlik Konfransına, bu da dünya miqyasında təhlükəsizliklə bağlı bir nömrəli

konfransdır. Bu dəfə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı imkan oldu ki, canlı efirdə həm tarixi həqiqətlər, həm münaqişə ilə bağlı həqiqətlər geniş auditoriyaya çatdırılsın. Çünki bu auditoriya milyonlarla insanı əhatə edir. Nəzərə alsaq ki, tarixdə ilk dəfə olaraq Azərbaycan və Ermənistan rəhbərləri canlı efirdə debatda idilər. Bu debatlara çox böyük maraq var idi. Bu, bir daha göstərdi ki, erməni təbliğatı saxtakarlıq, yalan, mifologiya üzərində qurulub. Bizim sözümüz isə tarixə, tarixi sənədlərə, tarixi reallıqlara və beynəlxalq hüquqa əsaslanır. Ona görə Münxen Təhlükəsizlik Konfransının yekunları Ermənistan təbliğatını darmadağın edib və bunların uzun illər ərzində uydurduğu yalan məlumatlara son qoyub. Əlbəttə, istisna edilmir ki, bu cəhdlər bundan sonra da göstəriləcək, ancaq artıq buna heç kim inanmayacaq.

Ona görə hesab edirəm ki, həm münaqişə ilə bağlı, həm Cənubi Qafqazın tarixi ilə bağlı keçirilmiş bu tədbir bizim böyük uğurumuzdur. Azərbaycan xalqı mənə göndərilən on minlərlə mesajlarda, məktublarda öz dəstəyini bir daha ifadə etmişdir.

Münaqişə ilə bağlı onu da bildirməliyəm ki, Ermənistan təbliğatına və ümumiyyətlə, Ermənistanın münaqişə ilə bağlı mövqeyinə növbəti böyük zərbə bu yaxınlarda vuruldu. Bu zərbəni, əslində, onlar özləri özlərinə vurdular. Əlbəttə ki, bizim məqsədyönlü fəaliyyətimiz, beynəlxalq təşkilatlarla yaranmış əlaqələr bu zərbəni daha da gücləndirdi. Söhbət qondarma “Dağlıq Qarabağ respublikası”nda keçirilmiş qondarma “prezident”in qondarma “seçkiləri”ndən gedir. Bu “seçkilər” bir daha göstərdi ki, bu qanunsuz xunta rejimini heç kim tanımır. “Seçkilər”dən sonra bütün aparıcı beynəlxalq təşkilatlar bu seçkiləri tanımadı və açıq-aydın bəyanatlar səsləndi. ATƏT-in Minsk qrupunun həmsədrləri – Amerika, Fransa, Rusiya açıqlama verdi. ATƏT Parlament Assambleyası açıqlama verdi. Avropa İttifaqı, hətta bizə qərəzli mövqedə dayanan Avropa Parlamenti də açıqlama verdi. NATO, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Türk Şurası – bütün bu təşkilatlar dünyanın demək olar ki, mütləq əksəriyyətini cəmləşdirir. Qoşulmama Hərəkatında 120 ölkə, İslam Əməkdaşlıq Təşkilatında 50-dən çox ölkə, Avropa İttifaqında 30-a yaxın ölkə, ATƏT-də 50-yə yaxın ölkə. Bütün bu təşkilatlar bu “seçkiləri” tanımadı və bir daha göstərdilər ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bu, bir daha göstərdi və mən bunu demişəm, bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi.

Ancaq istəyirəm Azərbaycan vətəndaşları bilsinlər ki, bu beynəlxalq təşkilatlar arasında bir təşkilatın adı yoxdur. Hesab edirəm, hər kəs başa düşür ki, söhbət Avropa Şurasından, Avropa Şurası Parlament Assambleyasından gedir, hansı ki, uzun illər, 20 il ərzində Azərbaycanı qaralamaq, Azərbaycana şər, böhtan atmaq, Azərbaycanı nüfuzdan salmaq üçün əlindən gələni əsirgəmir.

Avropa Şurası Parlament Assambleyası susubdur. Baxın, bütün təşkilatlar, o cümlədən Avropa təşkilatları bəyan edirlər ki, biz bu seçkiləri tanımırıq. Bunun birmənalı mənası odur ki, Dağlıq Qarabağ Azərbaycandır. Avropa Şurası Parlament Assambleyası niyə susur? Niyə bunu demir? Sualın cavabı aydındır. Ona görə ki, orada cəmləşən anti-Azərbaycan qüvvələr, ermənipərəst qüvvələr Azərbaycana düşmən gözü ilə baxırlar. Bizə qarşı o təşkilatdan gələn bütün iradların heç bir əhəmiyyəti yoxdur. Mən demişəm, bir daha demək istəyirəm ki, onların qəbul etdikləri qətnamələr, qərarlar mənim üçün kağız parçasından artıq deyil. O təşkilatın Azərbaycanla bağlı olan fikri məni maraqlandırmır və heç vaxt maraqlandırmayıb.

Bir məsələyə də diqqətinizi çəkmək istəyirəm. Azərbaycanla bağlı məruzəçilər var və bu məruzəçilər də susub, bir söz demirlər. Burada balaca bir hadisə baş verən kimi ölkəmiz haqqında ağızdolusu yalan, böhtan uydururlar. Nə üçün susublar? Bundan sonra onlar Azərbaycan üzrə məruzəçi olmaq mənəvi haqqını itiriblər. Azərbaycan xalqı hər şeyi yaxşı görür. Görür ki, bunların çirkin bəyanatlarının arxasında heç də Azərbaycanda demokratiya, insan haqlarının qorunması məsələsi dayanmır. Azərbaycanı qaralamaq, şantaj etmək, nüfuzdan salmaq, beləliklə, ölkəmizin maraqlarına zərbə vurmaq bu qurumun məqsədidir.

Biz isə öz yolumuzla gedirik. Bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ münaqişəsinin həllinin bir yolu var, o da Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır. Bütün beynəlxalq aləmin bu qondarma “seçkilər”ə olan reaksiyası bizim mövqeyimizi daha da gücləndirir.

Beynəlxalq tədbirlərdən danışarkən, əlbəttə ki, Azərbaycanın təşəbbüsü ilə videokonfrans şəklində keçirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fövqəladə Zirvə görüşünü qeyd etməliyəm. Azərbaycan keçən ilin oktyabr ayında bu təşkilatda sədrliyi öz üzərinə götürmüşdür. Bu təşəbbüs irəli sürüldü. Bildirməliyəm ki, Türk Şurası bu günə qədər dünyanın yeganə təşkilatıdır ki, dövlət başçıları səviyyəsində koronavirusla bağlı Zirvə görüşü keçirib. Görüş çərçivəsində səslənən fikirlər, qarşılıqlı dəstək, həmrəylik və qəbul edilmiş yekun Bəyannamə bir daha göstərdi ki, bizim təşkilatımızın çox möhkəm əsasları var və ağır gündə biz bir-birimizin yanındayıq. Hesab edirəm ki, Azərbaycanın təşəbbüsü burada çox yerində və vaxtında atılmış addımdır, bütün həmkarlarım bunu qeyd etmişlər.

İqtisadi nailiyyətlərimizlə bağlı bir daha demək istəyirəm ki, biz yanvar, fevral aylarını çox yaxşı göstəricilərlə başa vurmuşuq. Ümumi daxili məhsul 3 faizə yaxın artmışdır, qeyri–neft sektorunda təxminən 7 faizə yaxın artım olmuşdur. Ancaq əgər üç ayı götürsək ümumi daxili məhsul 1,1 faiz artıb. Qeyri–neft sektorunda isə 3 faizdən bir qədər çox artıb. Yenə də artım var. Ancaq, əlbəttə, əgər koronavirus araya girməsəydi, bu artım daha da böyük olacaqdı.

Qeyri–neft sənaye sektorunda artım 23 faizdir. Bu da onu göstərir ki, son müddət ərzində bu sahəyə göstərilən diqqət və qoyulan sərmayə öz gözəl nəticəsini verməkdədir. İnflyasiya 3 faiz səviyyəsindədir, ilin iki ayında 2,8 faiz idi, bir qədər artıb. Əhalinin gəlirləri isə 7 faizə yaxındır. Üç ayda vergi və gömrük orqanları büdcəmizə proqnozdan əlavə 310 milyon manatdan çox vəsait daxil etmişlər. Xüsusilə nəzərə alsaq ki, indi iqtisadi fəallıq aşağı düşüb, bu, hesab edirəm ki, yaxşı nəticədir, yenə də şəffaflıqla bağlı olan tədbirlərin bariz nümunəsidir.

Bildirməliyəm ki, ilin sonuna qədər sosial sahədə heç bir proqram ixtisar edilməyəcək. Əksinə, koronavirusla bağlı ümumi dəstək paketi 2,5 milyard manat nəzərdə tutulur. Ancaq bundan artıq olacaq. Təkcə lazımi avadanlıqların, ləvazimatların alınması üçün bu yaxınlarda Prezidentin ehtiyat fondundan 97 milyon manat ayrıldı. Bundan sonra da ilin sonunadək nə qədər lazımdırsa, hələ 150 milyon manatın ayrılması da nəzərdə tutulur. Bu, 2,5 milyard manatın içində deyil. Bütün sosial ödənişlər aparılır. Hesab edirəm ki, orta aylıq əməkhaqqının 28 faiz, orta pensiyanın təqribən 27 faiz artması da onu göstərir ki, bu istiqamətdə müsbət işlər görülür. İndi bizim orta aylıq əməkhaqqımız 712 manatdır, orta pensiya 295 manatdır. Yaşa görə pensiya isə 330 manata yaxındır. Yəni, biz maaşları, pensiyaları ildən-ilə artırırıq. Əlbəttə ki, keçən il çox böyük artım olmuşdu, 4,2 milyon insan dövlət tərəfindən qəbul edilmiş proqramlardan yararlanıb. Bu il bütün sosial infrastruktur obyektlərinin tikintisi də ixtisarsız icra ediləcək. Minimum 7 min köçkün ailəsi yeni mənzillərə köçürüləcək və minimum 1500 şəhid ailəsinə yeni mənzillər veriləcək.

Bir sözlə, demək istəyirəm ki, üç ayın yekunlarını prinsip etibarilə müsbət qiymətləndirmək olar. Ancaq bir daha demək istəyirəm ki, heç kim bilmir pandemiya nə qədər davam edəcək və iqtisadi fəallıq nə zaman bərpa olunacaq. Biz bütün addımlarımızı vəziyyətə uyğun şəkildə atmalıyıq.

## *İlin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində keçirililən müşavirdə İlham Əliyevin yekun nitqi*

Bir daha demək istəyirəm ki, son illər kənd təsərrüfatı sahəsində müsbət dəyişikliklər baş verir. Elektron Kənd Təsərrüfatı Proqramı icra edilir. Fermerlərə subsidiyaların verilməsi mexanizmi təkmilləşdirilib və artıq kartlar da verilibdir. Bu, çox müsbət haldır, yəni, kənd təsərrüfatı müasir standartlara cavab verməlidir. Belə olan halda, əlbəttə ki, həm məhsuldarlıq artacaq, həm kənddə işləyən insanlar əmək sərf edəcəklər, həm də daxili bazarı təmin edəcəyik və xarici bazarlara da daha geniş çeşiddə məhsullarla çıxa biləcəyik. Kənd təsərrüfatı ilə bağlı olan əsas məsələ məhsuldarlığı artırmaqdır. Kənd Təsərrüfatı Nazirliyi artıq bu istiqamətdə işlər görür, demək olar ki, yetişdirilən bütün növ məhsullar üzrə məhsuldarlıq ildən-ilə artır. Amma biz bilməliyik ki, əhalimiz artır və daxili istehlak da artacaq. Ona görə kənd təsərrüfatının istehsalı yüksək templərlə inkişaf etməlidir ki, biz həm daxili tələbatı ödəyə bilək, eyni zamanda, ixrac bazarlarına da öz məhsulumuzu çatdıra bilək.

Hesab edirəm ki, qeyd etdiyiniz məsələlərin həlli üçün, əlavə vəsait ayrılmalıdır. Mikrokreditlərin verilməsi üçün Prezidentin ehtiyat fondundan vəsaitin ayrılması nəzərdə tutulmalıdır. Hesab edirəm ki, bu məqsədlər üçün 30 milyon manat vəsait ayrıla bilər və müvafiq Sərəncam layihəsi də hazırlansın, mənə təqdim edilsin.

Quraqlıqla bağlı dedikləriniz çox ciddi məsələdir, bu, böyük narahatlıq doğurur. Çünki bu meyl davam edə bilər. Bilirsiniz ki, dünyada iqlim dəyişikliyi ilə bağlı böyük narahatlıq var. Bəzi proqnozlar onu göstərir ki, Azərbaycanda bəlkə on ildən, iyirmi ildən sonra səhralaşma prosesi də istisna deyil. Ona görə biz bəri başdan buna hazır olmalıyıq. Keçən ilin quraqlığı bizə çox böyük problem yaratmışdı və hətta yaşlı insanlar belə quraqlığı xatırlamırlar. Bu il də quraqlıq gözlənilir. Ona görə su ehtiyatlarımızın səfərbər olunması, onlardan səmərəli istifadə edilməsi prioritet məsələyə çevrilir. Heç kimə sirr deyil ki, su olan yerdə məhsuldarlıq da artır və insanların dolanışığı da yüksəlir. Məhz bu məqsədlə ölkəmizdə bir neçə önəmli genişmiqyaslı layihə icra edilmişdir. Əgər Şəmkirçay su anbarı, Taxtakörpü su anbarı vaxtında tikilməsəydi, kanallar çəkilməsəydi, o sudan qidalanan rayonlarda böyük çətinliklər ola bilərdi. Biz son bir neçə il ərzində orta hesabla təqribən yüz min hektara yaxın torpağa suyun verilməsini təmin edirik. Bunlar vaxtilə suvarılmayan, yaxud da ki, suvarılması lazımi səviyyədə olmayan torpaqlardır. Ona görə bundan sonra da kənd təsərrüfatının və fermerlərin bu sahədə tələbatını ödəmək üçün gərək yeni proqram tərtib edilsin. Biz köhnə metodlarla gedə bilmərik. Çünki bu metodların səmərəliliyi özünü doğrultmur. İndi dünya texnologiyaları bütün sahələrdə inkişaf edir, o cümlədən meliorasiya sahəsində. Biz indi bu işləri dədə-baba üsulu ilə görə bilmərik. Yeni texnologiyalar tətbiq edilməlidir. Mənə verilən məlumata görə, bəzi yerlərdə suyun itkisi 40-50 faizə çatır. Baxmayaraq ki, son vaxtlar bu sahəyə böyük investisiya qoyulub. Amma vaxtilə tikilmiş qurğuların, infrastrukturun bir çoxu çürüyüb və həm suyun çatdırılmasına imkan vermir, həm də ki, o sızmalar torpağın şoranlaşmasına gətirib çıxarır. Ona görə biz burada iki ziyan görürük. Onu da bilməliyik ki, bizim su ehtiyatlarımız o qədər də geniş

deyil və əsas su mənbələrimiz sərhədlərimizin kənarında formalaşır. Ona görə hər damcı su bizim üçün önəmlidir. Bu məsələ ilə ciddi məşğul olmaq lazımdır. Sovet vaxtında tikilmiş su kanallarımızın demək olar ki, hamısı torpaq kanallardır. Son vaxtlar biz ancaq beton kanallar tikirik və vaxtilə tikilmiş torpaq kanalları betona alırıq. Beləliklə, su itkisinin qarşısını alırıq. Ancaq hesab edirəm ki, daha irəli baxmalıyıq. İndi dünyanın inkişaf etmiş ölkələrində, xüsusilə, bizim iqlimimizə oxşar iqlimi olan ölkələrdə təcrübə var, orada məhsuldarlıq da çox yüksəkdir və bu təcrübə Azərbaycanda tətbiq edilməlidir.

Ona görə hesab edirəm ki, bu sahədə ciddi irəliləyişə nail olmaq üçün xüsusi komissiya yaradılmalıdır. Su ehtiyatlarından səmərəli istifadə etmək üçün komissiya yaradılacaq. Hesab edirəm ki, komissiyaya Baş Nazirin müavini Şahin Mustafayev rəhbərlik etməlidir. Çünki Şahin Mustafayev İqtisadiyyat naziri işlədiyi dövrdə bu məsələ ilə fəal məşğul olub və mənə müntəzəm olaraq məruzələr edib. Komissiyada aidiyyəti qurumların rəhbərləri – Kənd Təsərüfatı naziri, İqtisadiyyat naziri, Ekologiya və Təbii Sərvətlər naziri, “Meliorasiya və Su Təsərrüfatı” Səhmdar Cəmiyyətinin, “Azərsu” Səhmdar Cəmiyyətinin rəhbərləri və digər aidiyyəti qurumların rəhbərləri təmsil olunmalıdırlar ki, konkret tədbirlər planı hazırlansın. Demək olar ki, indi təhlillə bağlı materiallar və belə məlumatlar var. Əsas məsələ odur ki, nə etməliyik, hansı addımlar atmalıyıq. Yəqin, xarici mütəxəssisləri də cəlb etməliyik ki, bizə yaxşı məsləhətlər versinlər. Biz suyun hər bir damcısının qədrini bilməliyik.

Beləliklə, bugünkü müşavirəmiz başa çatmaq üzrədir. Bildirməliyəm ki, əlbəttə, bizim iqtisadi və sosial planlarımız yerindədir. Koronavirus planlarımıza müəyyən təsir etsə də, bizi əsas yolumuzdan döndərə bilməz. Əlbəttə ki, indi bizim bütün səylərimiz koronavirusla mübarizəyə yönəldilib. Bu da təbiidir. Məhz bu məqsədlə mənim Sərəncamımla Baş Nazirin rəhbərliyi altında Operativ Qərargah yaradılıb. Qərargah çox səmərəli işləyir, 24 saat çalışır. Demək olar ki, mən də 24 saat əlaqədəyəm. Gün ərzində bəlkə də 5-6 dəfə zəngləşirik, danışırıq. Deyə bilərəm ki, əgər vaxtında bu addımlar atılmasaydı, əgər çox ciddi koordinasiya aparılmasaydı, bu gün biz daha da böyük problemlərlə üzləşə bilərdik. Biz özümüzü bu günə qədər demək olar ki, çox böyük problemlərdən qoruya bildik. Son iki günün dinamikası, yəni, xəstələrin və sağalanların sayı arasındakı dinamika müəyyən nikbinliyə yol açır. Amma mən hələ ki vaxtı qabaqlamaq istəmirəm, hələ ki təhlil aparılır. Bildiyiniz kimi, karantin rejimi ayın 20-nə qədər qüvvədədir. Növbəti həftə ərzində həm Operativ Qərargah, həm bütün digər aidiyyəti qurumlar öz təkliflərini verməlidirlər ki, ayın 20-dən sonra biz hansı addımları atmalıyıq, karantin rejimi qüvvədə qalacaq ya yox, qalacaqsa hansı formada qalacaq. Biz yumşalmaya nə vaxtdan başlaya bilərik. Biz bütün bunları gərək dəqiq bilək. Bir daha demək istəyirəm ki, əsas məsələ xalqımızı bu xəstəlikdən qorumaqdır. İqtisadiyyat bərpa olunar. Biz indi fəal işləyirik və işləyəcəyik ki, bu vəziyyətdən minimum itkilərlə çıxaq.

Koronavirusla bağlı addımlar ardıcıllıqla atılır. Bizdə indi 20-dən çox xəstəxanada xəstələr müalicə alır. Eyni zamanda, 4-5 ulduzlu otellərdə, o cümlədən Atletlər kəndində karantində olan vətəndaşlar yerləşdirilib. Biz artıq 70 mindən çox test keçirmişik və keçirilən testlərin sayına görə dünya miqyasında 30-cu yerlərdəyik. Həkimlərə diqqət göstərilir, onların maaşları 3, 4, 5 dəfə artırılıbdır. Biz maska istehsalına başlamışıq və bir müəssisə artıq fəaliyyətə başlayıb. Mənə verilən məlumata görə, digər müəssisə də fəaliyyətə başlayır. Bu da çox müsbət haldır. Əlavə 10 modul tipli xəstəxananın tikintisi artıq başlamışdır. Onlardan altısı dövlət, dördü isə özəl sektor tərəfindən inşa ediləcək. Bizim ən müasir xəstəxanamız – “Yeni klinika”, keçən ayın sonunda istifadəyə verildi. Bu 575 çarpayılıq ən müasir klinikamız koronavirus xəstələrinin sərəncamına verildi. Mən klinikanın açılışında qeyd etmişdim ki, biz bu xəstəliyə görə bu klinikanı vaxtından bir qədər əvvəl istifadəyə verdik və o tədricən fəaliyyətə başlayır. Son məlumata görə, artıq bu klinikada 100 koronavirus xəstəsi müalicə alır. Deməli orada çarpayıların istifadəyə verilməsi prosesi davam edir və bütün imkanlar maksimum səfərbər olunubdur.

Bizim bu sahədə görülən işlərə ən gözəl qiyməti Azərbaycan xalqı verir. Bir daha demək istəyirəm ki, mən minlərlə elektron məktub alıram. Bu məktublarda görülən işlərə görə minnətdarlıq ifadə olunur. Ümumdünya Səhiyyə Təşkilatı bizim gördüyümüz işlərə yüksək qiymət verərək Azərbaycanı koronavirusla mübarizə sahəsində nümunəvi ölkə adlandırıbdır.

Bütün bunlar deməyə əsas verir ki, biz bu bəlanı da dəf edəcəyik, bu mübarizədə qalib gələcəyik. Biz xalq olaraq artıq birlik, həmrəylik nümayiş etdirmişik, indi daha çox məsuliyyət və nizam-intizam nümayiş etdirməliyik. Belə olan halda biz bu ağır vəziyyətdən az itkilərlə və şərəflə çıxacağıq.

Azərbaycan xalqına cansağlığı və xoşbəxtlik arzulayıram. Sağ olun.

## *"Azərenerji" ASC-nin yenidən qurulan Baş idarəetmə, elm, tədris və laboratoriya kompleksinin açılışında İlham Əliyevin nitqi*

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin Baş idarəetmə mərkəzinin istifadəyə verilməsi münasibətilə sizi təbrik edirəm. Şadam ki, bu gözəl binada "Azərenerji"nin bir çox qurumları yerləşir. Dispetçer mərkəzi, baş idarəetmə mərkəzi, energetika institutu, tədris mərkəzi, laboratoriya, energetiklərin mədəniyyət mərkəzi. Hesab edirəm ki, indi burada şərait çox yaxşıdır. Bu binada qısa müddət ərzində əsaslı yenidənqurma işləri aparılmışdır. Demək olar ki, bina yenidən qurulmuşdur və indi bir yerdə, bir mərkəzdə "Azərenerji"nin əsas departamentləri yerləşir və beləliklə, idarəetmə üçün daha da gözəl imkan yaranır. Çünki bundan əvvəl "Azərenerji"nin departamentləri, qurumları müxtəlif yerlərdə yerləşirdi, bəzi hallarda yarımstansiyaların binalarında yerləşirdi və əlbəttə ki, idarəetmə üçün bu, o qədər də məqbul hal deyildi.

Bu bina sovet dövründə tikilib. Bir müddət bundan əvvəl özəlləşdirməyə çıxarılmışdı, "Azərenerji"nin balansından çıxarılmışdı. Mən bundan xəbər tutandan sonra göstəriş verdim ki, bu, dərhal "Azərenerji"nin balansına qaytarılsın. Çünki əks-təqdirdə bu binanı özəlləşdirən hansısa sahibkarların burada nə yaradacaqları bəlli deyildi. Bina çox böyükdür, ərazisi də böyükdür, təqribən 4 hektara yaxındır. Əvvəlki binanın sahəsi 13 min kvadratmetr idi, indi isə artırılıb 20 min kvadratmetrə çatdırılıb. Yəni, burada ya hansısa bir mehmanxana, yaxud şadlıq evi, yaşayış binası, ya da ki, hansısa bir ictimai iaşə obyekti yaradılacaqdı və energetiklər bu binadan məhrum olacaqdılar.

Bu bina energetiklərə qaytarılandan sonra, 2018-ci ilin sonunda burada əsaslı yenidənqurma-təmir işləri başlamış və uğurla başa çatdırılmışdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan dövləti energetika sahəsinə çox böyük əhəmiyyət verir. Təsadüfi deyil ki, bizim infrastruktur layihələrinin icrası ilə bağlı ilk addımlarımız məhz energetika sahəsinə də aid idi. Hələ 2004-cü ildə regionların birinci sosial-iqtisadi inkişafı Dövlət Proqramı qəbul edilərkən orada infrastruktur layihələrinin arasında əsas diqqət energetika sahəsinə yönəlmişdi. Bu, təbii idi. Çünki o vaxt biz özümüzü elektrik enerjisi ilə təmin edə bilmirdik. Biz xaricdən elektrik enerjisi alırdıq. Həm valyuta xaricə gedirdi, həm də bizim mövcud infrastruktur xətlərimiz imkan vermirdi ki, ölkəmizi elektrik enerjisi ilə təmin edək. Hətta Bakı şəhərində gecə saatlarında elektrik enerjisi kəsilirdi. Yadımdadır, - gənc nəslin nümayəndələri bəlkə də bunu xatırlamır, - o vaxt hətta televiziya verilişləri axşam saat 12-də dayandırılırdı ki, insanlar televiziyaya baxmasınlar, enerjidən çox istifadə etməsinlər. Yəni, böyük qıtlıq var idi. O ki qaldı, Azərbaycanın bölgələrinə, orada, ümumiyyətlə, dayanıqlı enerji təminatı nədir, insanlar bilmirdilər. Ən yaxşı halda sutka ərzində 2-4 saat elektrik enerjisi verilirdi və əlbəttə ki, bu, həm insanların həyat tərzinə mənfi təsir göstərirdi, eyni zamanda, bizim iqtisadi, sənaye potensialımızın artımına da böyük problem yaradırdı. Ona görə mənim göstərişimlə birinci regional inkişaf proqramında bu məsələyə çox böyük diqqət göstərildi və biz dərhal işlərə başladıq. O vaxt regional elektrik stansiyalarının tikintisinə başlamışdıq. Astara, Xaçmaz, Şəki, Şahdağ və Səngəçalda elektrik stansiyalarının tikintisi müəyyən dərəcədə imkan yaratdı ki, öz tələbatımızı özümüz təmin edək. Ancaq bununla paralel olaraq yeni elektrik stansiyalarının, böyük elektrik stansiyalarının inşası da nəzərdə tutulurdu və son 16 il ərzində bütövlükdə ölkəmizdə 30-dan çox yeni stansiya tikilmişdir. Əgər bu stansiyalar tikilməsəydi, bu gün Azərbaycan idxaldan bəlkə də 5 qat, 10 qat daha çox asılı olacaqdı, nəinki 2000-ci illərin əvvəllərində. Bu stansiyalar arasında böyük stansiyalar xüsusilə əhəmiyyət daşıyır. Ən böyük stansiya Şirvan şəhərində tikilmişdir – "Cənub" Elektrik Stansiyası. Onun generasiya gücü təxminən 800 meqavata bərabərdir. Ondan sonra Sumqayıt Elektrik Stansiyası, 525 meqavat. "Şimal 2" bu yaxınlarda istifadəyə verilib. Onun generasiya gücü 400 meqavata yaxındır. "Səngəçal" stansiyasının generasiya gücü 300 meqavatdır. Təkcə bu dörd stansiyanın generasiya gücü 2 min meqavatdan çoxdur. Bundan əlavə, ölkəmizin müxtəlif yerlərində su elektrik stansiyaları tikildi. Bildirməliyəm ki, Naxçıvan Muxtar Respublikasında tikilmiş su elektrik stansiyalarının generasiya gücü bütün muxtar respublikanın tələbatını ödəmək iqtidarındadır. Vaxtilə İrandan və Türkiyədən elektrik enerjisi alan Naxçıvan Muxtar Respublikası indi özünü tam təmin edir və eyni zamanda, orada ixrac potensialı da yaranmışdır. O cümlədən bütövlükdə ölkəmizdə bu gün ixrac potensialı var və biz elektrik enerjisini idxal edən ölkədən elektrik enerjisini ixrac edən ölkəyə çevrilmişik.

Əlbəttə ki, bu böyük infrastruktur layihələri böyük vəsait tələb edir. Bu vəsaitin böyük hissəsi büdcənin hesabına təmin edildi, digər hissə götürülmüş kreditlər hesabına və bu kreditlər qaytarılır. Beləliklə, biz çox müasir enerji sistemimizi yaratdıq və bu gün dayanıqlı enerji təchizatı ölkə üzrə çoxdan təmin edilib. Bundan əlavə, xüsusilə son illərdə görülmüş işlər enerji təsərrüfatını tamamilə yeniləşdirib. Yüksəkgərginlikli xətlər, bizi qonşu dövlətlərlə birləşdirən xətlər inşa edildi, bir çox yerlərdə yeni yarımstansiyalar tikildi, transformatorlar quraşdırıldı. Bölgələrə çoxsaylı səfərlərim çərçivəsində mən həmişə maraqlanıram və vətəndaşlardan soruşuram ki, enerji ilə təminat necədir? Son illər ərzində hər zaman müsbət rəylər eşidirəm. Bu, məni çox sevindirir. Bu, onu göstərir ki, "Azərenerji" və "Azərişıq" bu istiqamətdə çox böyük işlər görürlər.

Bizim enerji potensialımız artan iqtisadi inkişafımıza uyğun olmalıdır. Eyni zamanda, "Azərenerji" son

iki il ərzində mövcud stansiyaların generasiya güclərinin bərpası barədə yeni layihə təqdim edib. Çünki bu stansiyaların əksəriyyəti çoxdan tikilib. Bu stansiyalarda mövcud vəziyyət bizi heç cür qane edə bilməzdi. Hamımızın yadındadır ki, Mingəçevir Elektrik Stansiyasında baş vermiş qəza hansı fəsadlara gətirib çıxardı. Ölkəmizi qaranlıq bürüdü. Metronun bütün stansiyalarında böhran yarandı və ölkəmiz qaranlığa qərq olmuşdu. Bu, ilk növbədə, səhlənkarlıq, məsuliyyətsizlik ucbatından baş vermiş qəza idi. Ona görə "Azərenerji"nin rəhbərliyi dəyişdirildi, cəzalandırıldı. Yeni rəhbərlik gətirildi. Yeni rəhbərlik qarşısında çox konkret vəzifələr qoyuldu və bu vəzifələr bu gün icra edilir. Çünki enerji təminatı hər bir ölkənin döyünən ürəyidir. Bu olmasa, heç nə olmayacaq. Bu olmasa, sənaye, kənd təsərrüfatı inkişaf etməyəcək, suvarma işləri təmin edilə bilməyəcək, ictimai nəqliyyat işləməyəcək. Ümumiyyətlə, həyat iflic vəziyyətə düşəcək. Ona görə bizim əsas məqsədimiz müstəqil enerji sistemi yaratmaq, xaricdən asılılığı aradan götürmək idi. Enerji potensialımızı elə həcmdə yaratmalı idik ki, bizim ehtiyatda da kifayət qədər generasiya güclərimiz olsun və bu gün bu var. İndi müxtəlif rəqəmlər səslənə bilər, amma ən aşağı rəqəmlər onu göstərir ki, bizim hazırda ehtiyatda ən azı 1000 meqavat generasiya gücümüz var. Mövcud stansiyaların güclərinin bərpası artıq başa çatır. Bunların arasında, ilk növbədə, Mingəçevirdəki İstilik Elektrik Stansiyasını qeyd etməliyəm. Çünki bu, bizim ən böyük generasiya gücümüzdür və həmin stansiyada baş vermiş qəza nəticəsində ölkəmiz qaranlığa düçar oldu. Bu stansiyada 8 blokun hamısı yenidən qurulur. Ümid edirəm ki, yaxın bir neçə ayda bu stansiya tamamilə yenidən qurularaq istifadəyə veriləcək. Bu stansiyada təkcə bərpa olunan güclərin həcmi 600 meqavata yaxındır. Təsəvvür edin, ancaq bərpa işlərini düzgün aparmaqla biz 600 meqavat gücündə əlavə generasiyaya sahib olacağıq. Əgər bunu biz ayrıca bir stansiya kimi götürsək görərik ki, bu, ölkəmizin generasiya gücünə görə ikinci böyük stansiya olacaq, "Cənub" stansiyasından sonra.

Digər elektrik stansiyalarında da bərpa işləri aparılır və əminəm ki, biz bu istiqamətdə öz hədəfimizə çatacağıq. Bütün bu işlər, o cümlədən ölkəmizdə mövcud olan sabitlik, əmin-amanlıq, iqtisadi inkişaf, sənaye potensialımızın artması, eyni zamanda, qonşu ölkələrlə enerji xətlərinin təmin edilməsi, inşası ona gətirib çıxarıb ki, xarici investorlar artıq bu sahəyə böyük maraq göstərirlər. Biz bunu həmişə arzulamışıq. Ancaq görəndə ki, xarici investor bu sahəyə maraq göstərmir, bütün işləri biz özümüz görürük, öz pulumuzla. Müəyyən hissəni biz borc kimi götürdük, amma əsas hissəni öz pulumuzla həll etdik və bu gün dünya miqyasında ən səmərəli enerji sistemindən biri məhz Azərbaycandadır və bunu təsdiqləyən Davos Ümumdünya İqtisadi Forumunun hesabatıdır. Bunu mən elə-belə demirəm. Beləliklə, Forumun hesabatında elektrik enerjisinin əlçatanlıq indeksinə görə Azərbaycan dünyada ikinci yerdədir. Təsəvvür edin, ikinci yerdə. Bizdən qabaq, sadəcə olaraq, bir ölkə var. Yəni, bir çox inkişaf etmiş ölkələri qabaqlamışıq. Özü də nə vaxt, qısa müddət ərzində.

Bizim müstəqilliyimizin hələ 30 yaşı tamam olmayıb. Biz müstəqil ölkə olanda enerji təsərrüfatımız bərbad vəziyyətdə idi. Ondan sonra daha da bərbad vəziyyətə düşdü. Biz o illəri xatırlayırıq. Burada bir "Barmek" şirkəti peyda olmuşdu, özü də qeyri-təmiz sxemlər əsasında, keçmiş məmurlarla sövdələşmə əsasında gəlib bizim Bakı şəhərinin bütün enerji təsərrüfatına sahib olub və pul qoymaq əvəzinə, bu sistemi bərbad vəziyyətə salıb, Azərbaycandan milyonlarla pul aparıb. Sonra da bu, azmış kimi, bizi hələ məhkəməyə vermək istəyirdi. Mənim göstərişimlə bu çirkin sövdələşməyə son qoyuldu, bu dələduz şirkət Azərbaycandan qovuldu və mənim Sərəncamımla o vaxt "Azərişıq" Səhmdar Cəmiyyəti yaradıldı. Adını da mən qoymuşam, "Azərişıq". Biz bütün enerji təsərrüfatımızı dövlət mülkiyyətinə qaytardıq. Əgər bunu etməsəydik, bu gün biz qaranlıq içində yaşayacaqdıq və "Azərenerji"nin bütün əmlakı dağıdılacaqdı, necə ki, bu bina. Təsəvvür edin, 13 min kvadratmetrlik binanı çıxardılar özəlləşdirməyə və ucuz qiymətə satmaq istəyirdilər. Əgər mən xəbər tutmasaydım, mənə məlumat verilməsəydi, göstəriş verməsəydim satacaqdılar. İndi görün siz nə gözəl binada yerləşirsiniz. Bu, demək olar ki, bizim enerji sistemimizin tənzimlənməsi işində əsas mərkəzdir. Skada sistemi, dispetçer sistemi, idarəetmə sistemi, hamısı burdadır, harada yerləşəcəkdi? Bizim enerji sistemimizi belə dağıtmaq istəyirdilər.

Ona görə bizim vətəndaşlar bunu bilməlidirlər və xatırlamalıdırlar. Bu gün haradan-hara gəlmişik, dünya miqyasında ikinci yerdəyik. Bu gün bizim enerji potensialımız artan iqtisadiyyatı dəstəkləyir. Təkcə bu ilin 3 ayında, – baxmayaraq ki, neftin qiyməti düşdü, koronavirus pandemiyası bizim ölkəmizə də çox böyük təsir göstərdi, – qeyri-neft sənayesi sahəsində artım 23 faizdir və bütün bu artan sənaye müəssisələri enerji tələb edir. Həm generasiya, həm ötürmə, həm dayanıqlı təchizat – bütün bunlar bu gün təmin edilir. Ona görə hesab edirəm ki, bu gün bu binanın açılışı çox böyük rəmzi məna daşıyır. Təbii ki, burada institut yerləşir, Baş İdarəetmə Mərkəzi, Tədris-Laboratoriya Mərkəzi, Dispetçer Mərkəzi və eyni zamanda, bu, bizim enerji sistemimizin yeni simasını əks etdirir. Bu bina artıq satışdan, hərracdan çıxarılaraq energetiklərə, onun sahiblərinə qaytarılmışdır. Ona görə bu binada işləyən vətəndaşlar öz vəzifə borclarını şərəflə yerinə yetirməlidirlər. Elə etməlidirlər ki, bizim enerji təminatımız daim yüksək səviyyədə olsun.

Bütün bunlarla yanaşı, hələ görüləcək işlər çoxdur. "Azərenerji"nin böyük planları var və hesab edirəm ki, ardıcıl siyasət nəticəsində bütün bu planlar həyata keçəcək. Bir daha demək istəyirəm ki, bütün bu müsbət dinamika və eyni zamanda, sabitlik ona gətirib çıxardı ki, xarici investorlar Azərbaycana pul qoymaq qərarına

gəlmişlər. Bu ilin yanvar ayında ilkin razılaşma əldə edildi və bərpa olunan enerji sahəsində böyük təcrübəyə malik 2 böyük şirkət Azərbaycanla ilkin sazişləri də imzaladı. Bu sazişlər əsasında ölkəmizdə 440 meqavat gücündə – biri külək, biri günəş olmaqla, 2 stansiya tikiləcəkdir, sırf xarici investorların hesabına. Onu da bildirməliyəm ki, bu layihələri icra etmək, yəni, investisiya qoymaq istəyən şirkətlərin sayı 7 idi. Mən ad çəkmək istəmirəm, onların arasında dünyanın ən böyük enerji şirkətləri də vardı. Ancaq müsabiqə onu göstərdi ki, 2 şirkət daha gözəl şərtlər verib və onlar artıq bu işləri başlamalıdırlar. Düzdür, bu koronavirus araya girdi, ola bilər ki, müəyyən yubanma olsun, amma prinsip etibarilə bütün ilkin razılaşmalar əldə edilib. Bu, öz növbəsində, digər şirkətlərə də yol açacaq. Bizim bərpa olunan enerji potensialımız çox böyükdür, günəş, külək bizdə boldur. Ona görə əmin edirəm ki, həm yerli, həm də xarici şirkətlər bu sahəyə maraq göstərəcəklər.

Bir də xarici şirkətlərin fəaliyyəti ilə bağlı bildirməliyəm ki, müəyyən müddət ərzində biz bu sahəni dövlət inhisarında saxlamışdıq və mən bunun səbəbini də bildirdim. Ancaq hazırda Azərbaycana investisiya qoymaq istəyən istənilən şirkət öz təkliflərini versin və yeni stansiyalar tiksin, investisiya qoysun və bizimlə bərabər işləsin.

Bilirəm ki, bəzi şirkətlərin mövcud stansiyalara marağı vardır. Ancaq buna baxmaq lazımdır, bu, bizə lazımdır, yoxsa yox. Çünki mövcud stansiyalar hamısı işlək vəziyyətdədir, dövlət hesabına böyük investisiyalar qoyulub. Əgər hansısa xarici şirkət bizdən o stansiyaları daha yaxşı işlədə bilərsə, buyursun təklif versin, göstərsin ki, nədir bunun üstünlüyü, əgər bu, özəl əllərdə olarsa baxarıq, əgər onlar doğrudan da daha səmərəli işləyəcəklərsə işləsinlər. Ancaq xarici investorları mən, ilk növbədə, yeni stansiyalara yönəltmək istəyirəm. Gəlsinlər pul qoysunlar. Yoxsa hazır vəziyyətdə gəlməyi hər kəs istəyər. Gəl pul qoy, istehsal et, ötür ümumi sistemə və öz biznesini genişləndir. Bax, mənim xarici şirkətlərə tövsiyəm bundan ibarətdir, o cümlədən yerli şirkətlərə. Əminəm ki, bundan sonra dövlət-özəl sektor tərəfdaşlığı bu sahədə də mümkün olacaqdır.

Bir daha sizi ürəkdən təbrik edirəm və sizə, bütün Azərbaycan energetiklərinə yeni uğurlar arzulayıram. Sağ olun.

## *Qoşulmama Hərəkatının Təmas Qrupu formatında keçirilən Zirvə görüşündə İlham Əliyevin nitqi*

Hörmətli dövlət və hökumət başçıları.

Hörmətli BMT Baş Assambleyasının sədri.

Hörmətli beynəlxalq təşkilatların rəhbərləri.

Zati-aliləri.

Azərbaycan Qoşulmama Hərəkatının sədr ölkəsi kimi, Hərəkatın 1996-cı ildə qəbul olunmuş Metodologiyalar üzrə Kartaxena sənədindən çıxış edərək koronavirusa qarşı mübarizə üzrə Təmas Qrupunun yaradılması və bu formatda Zirvə Görüşünün keçirilməsi təşəbbüsünü irəli sürmüşdür.

Təqdirəlayiq haldır ki, Qoşulmama Hərəkatının bütün üzv dövlətləri bu təşəbbüsü yekdilliklə dəstəkləmişdir. Təmas Qrupunda coğrafi təmsilçilik və könüllü iştirak prinsipi əsasında bütün regional qruplardan olan ölkələr təmsil olunmuşdur.

Zirvə Görüşündə iştirakına görə Təmas Qrupuna daxil olan dövlətlərə təşəkkürümü bildirirəm.

Mən, eyni zamanda, Zirvə Görüşünə qatılan BMT Baş Assambleyasının sədrinə, Ümumdünya Səhiyyə Təşkilatının baş direktoruna və Afrika İttifaqının Komissiyasının sədrinə öz minnətdarlığımı ifadə etmək istərdim.

BMT baş katibi cənab Antonio Quterreşə və Avropa İttifaqının ali nümayəndəsi və Avropa Komissiyasının vitse-prezidenti cənab Cozef Borelə videomüraciətinə görə təşəkkürümü bildirirəm.

Zati-aliləri, 2019-cu il oktyabr ayının 25-26-da Qoşulmama Hərəkatının Bakıda XVIII Zirvə Görüşü keçirildi. Zirvə Görüşündə qəbul olunmuş Bakı Bəyannaməsi və Bakı Yekun Sənədində beynəlxalq hüququn prinsipləri öz əksini tapdı. Eyni zamanda, bu sənədlərdə 65 illiyi bu günlərdə qeyd edilən “Bandunq prinsipləri”ndə yer alan dövlətlərin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına bir daha dəstək ifadə olundu. 120 üzv dövlətin yekdil dəstəyi ilə Azərbaycan üç il ərzində Qoşulmama Hərəkatına sədrlik edəcək. Bizə göstərilən böyük inam və etimada görə bir daha minnətdarlığımı bildirirəm.

Sədrliyi öz üzərimizə götürərkən mən bəyan etdim ki, Azərbaycan beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiə edilməsi üçün əməli addımlar atacaq, həmrəyliyin gücləndirilməsini və qarşılıqlı dəstəyi rəhbər tutacaqdır.

Azərbaycan Qoşulmama Hərəkatında sədrliyinə dair əhatəli Tədbirlər Planı hazırlamış və praktiki fəaliyyətə başlamışdır. Koronavirus pandemiyası dünyada vəziyyəti tamamilə dəyişmiş və nəticədə yeni reallıqlar meydana çıxmışdır. Azərbaycan yeni vəziyyətə çevik və adekvat reaksiya vermişdir. Azərbaycanın təşəbbüsü ilə keçirilən Qoşulmama Hərəkatının koronavirusa qarşı Təmas Qrupunun Zirvə Görüşü bunu göstərir.

COVID-19 qlobal pandemiyası bütün dünya dövlətlərinə mənfi təsir göstərir. Heç bir ölkə bundan sığortalanmır. Qarşılıqlı dəstək, özünə qapanmama və yalnız birgə səylərlə COVID-19-a qalib gələ bilərik.

BMT Baş katibi Antonio Quterreş tərəfindən koronavirusa qarşı mübarizə məqsədilə qlobal humanitar cavab planının elan edilməsini, BMT Baş Assamble-

yasında müvafiq qətnamələrin qəbul olunmasını və Ümumdünya Səhiyyə Təşkilatının pandemiyaya qarşı qlobal mübarizədə oynadığı mühüm rolu yüksək qiymətləndiririk.

Pandemiyanın ilk günlərindən biz Ümumdünya Səhiyyə Təşkilatı ilə təmasdayıq. Təşkilatın aparıcı mütəxəssislərindən ibarət heyət müraciətimiz əsasında mart ayında ölkəmizə səfər edərək vəziyyətlə tanış olmuşdur. Azərbaycana göstərdiyi dəstəyə və Zirvə Görüşümüzdə iştirakına görə doktor Tedros Adhanom Qebreyesusa təşəkkürümü bildirirəm. Bu Azərbaycanın təşəbbüsü ilə keçirilən 2-ci Zirvə Görüşüdür. Sədri olduğumuz Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının mənim təşəbbüsüm ilə aprelin 10-da COVID-19-a qarşı Zirvə Görüşü keçirilmişdir. Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru həmin Zirvə Görüşündə də iştirak etdi və dəyərli tövsiyələrini verdi.

Qoşulmama Hərəkatının "Ümumdünya Səhiyyə Təşkilatı və onun Baş direktoruna dəstək" adlı 9 aprel tarixli bəyanatını məmnuniyyətlə qeyd etmək istərdim.

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru tərəfindən martın 23-də mənə ünvanlanmış məktubda Azərbaycanda görülmüş işlərə yüksək qiymət verilmişdir. Azərbaycan pandemiyaya qarşı görülmüş tədbirlərə görə nümunəvi ölkə kimi dəyərləndirilmişdir. Azərbaycan dünya birliyinin məsuliyyətli və etibarlı üzvü kimi koronavirusa qarşı qlobal mübarizəyə dəstək olaraq Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar könüllü maliyyə yardımı ayırdı.

Azərbaycan koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün vaxtında çevik və zəruri qabaqlayıcı tədbirlər həyata keçirmişdir. Mənim Sərəncamımla ilin əvvəlində Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmışdır.

Pandemiya dövründə bizim üçün prioritet məsələ insanların sağlamlığı və onların sosial müdafiəsinin təmin edilməsidir.

Ölkə ərazisində keçirilməli olan bütün kütləvi tədbirlər təxirə salınmış və ya ləğv edilmişdir. Mart ayının 3-dən etibarən ölkə üzrə bütün təhsil müəssisələrində tədris prosesi tədricən dayandırılmışdır. Martın 14-dən etibarən bir sıra sosial təcrid tədbirlərini əhatə edən xüsusi rejim, martın 24-dən isə xüsusi karantin rejimi tətbiq edilmişdir.

Azərbaycanda koronavirus xəstələrinin müalicəsi üçün 20-dən artıq xəstəxana ayrılmışdır. Virusun diaqnostikası və müalicəsi üçün zəruri olan laborator testlər, bəzi tibb avadanlığı və ləvazimatlar Azərbaycana gətirilmişdir. Testlərin aparılması üçün ölkədə 23 laboratoriya fəaliyyət göstərir. İndiyə kimi ölkə üzrə 160 mindən artıq test keçirilmişdir.

Daxili tələbatı ödəmək üçün qısa müddət ərzində qoruyucu və digər tibbi ləvazimatların istehsalına başlanmışdır.

Beləliklə, həyata keçirilən bütün bu tədbirlər nəticəsində kütləvi yoluxma hallarının qarşısı alınmışdır. Son üç həftə ərzində ölkəmizdə xəstəliyə yoluxanların sayı ilə sağalanların sayı arasındakı dinamika müsbətdir. Pandemiya dönəmində biz bir daha həkimlərimizin peşəkarlığının şahidi olmuşuq. Azərbaycan koronavirus xəstələrinin müalicəsi sahəsində öz təcrübəsini Qoşulmama Hərəkatının digər üzv dövlətləri ilə bölüşməyə və bu sahədə əməkdaşlığa hazırdır.

Əhali arasında virusa yoluxma sürətinin aşağı düşməsini, xəstələrin sağalma dinamikasını nəzərə alaraq, xüsusi karantin rejimindən çıxış planı mərhələli şəkildə həyata keçirilir. Xüsusi karantin rejimi mayın 31-nə qədər uzadılsa da, tətbiq edilən bir sıra məhdudiyyətlər aprelin 27-si və mayın 4-dən etibarən yumşaldılır.

Azərbaycanda iqtisadi sabitliyi təmin etmək, məşğulluqla bağlı problemləri həll etmək və makroiqtisadi və maliyyə sabitliyini təmin etmək üçün 3.5 milyard manatdan artıq və ya 2 milyard dollardan çox sosial-iqtisadi dəstək paketi qəbul olunmuşdur.

Ümumilikdə dövlət sektoru üzrə 900 mindən çox işçinin əməkhaqqı tam həcmdə saxlanılmaqla, qeyri-dövlət sektoru üzrə isə 690 min işçinin əməkhaqqının əhəmiyyətli hissəsi dövlət tərəfindən ödənilir. Bununla yanaşı, 600 min aztəminatlı, işsiz və qeyri-rəsmi çalışan vətəndaşa yaşayış minimumuna uyğun olaraq iki ay ərzində vəsait ödənilir.

İşsiz şəxslərin sosial müdafiəsi üçün ilin sonuna qədər 90 min ödənişli ictimai iş yerinin yaradılması nəzərdə tutulur.

Banklar tərəfindən sahibkarlara yeni verilən kreditlərin 60 faizinə dövlət zəmanəti veriləcəkdir.

Pandemiyanın bilavasitə təsir etdiyi fəaliyyət sahələri üzrə vergiödəyicilərinə 2021-ci il yanvarın 1-dək olan dövr üçün vergi güzəştləri və vergi tətilləri ediləcəkdir.

Bütün bunlar atılan addımların yalnız bir hissəsidir. Ümumiyyətlə, dövlətin həyata keçirdiyi tədbirlərə vətəndaşlarımız tərəfindən çox yüksək qiymət verilir.

Hörmətli həmkarlar, pandemiya şəraitində ölkələrimiz arasında ticarətin açıq saxlanılması və beynəlxalq yükdaşımaların fasiləsiz olaraq həyata keçirilməsi vacibdir. Azərbaycan artıq Avrasiyada önəmli nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilmişdir. Onlarla ölkəni birləşdirən Şərq-Qərb, Şimal-Cənub, Şimal-Qərb nəqliyyat dəhlizlərinin yaradılmasında böyük rol oynamışdır. Pandemiya dövründə də Azərbaycan etibarlı tranzit-logistika mərkəzi kimi öz roluna məsuliyyətlə yanaşaraq ərazisi vasitəsilə maneəsiz tranzit daşımalarını təmin edir.

Eyni zamanda, tibb mütəxəssislərinin təcrübə mübadiləsi, virusa qarşı mübarizədə əldə edilmiş təcrübənin, məlumatların, elmi biliklərin bölüşülməsi, ehtiyacı olan ölkələrə yardım göstərilməsi mühüm əhəmiyyət kəsb edir.

Zirvə Görüşünün təklif olunan Bəyannaməsində qeyd edildiyi kimi, Qoşulmama Hərəkatının yaradılacaq İşçi Qrupu üzv ölkələrin pandemiya ilə bağlı humanitar

və tibbi ehtiyaclarını vahid məlumat bazasına daxil edəcəkdir. Həmin məlumatlar mümkün yardımların göstərilməsi üçün donor ölkələrə, beynəlxalq humanitar təşkilatlara təqdim ediləcəkdir.

Pandemiyaya qarşı mübarizədə ən çox yardıma ehtiyacı olan Qoşulmama Hərəkatı üzv dövlətlərini dəstəkləmək üçün Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına əlavə olaraq 5 milyon dollar ianə ayırır. Bu vəsait bizimlə razılaşıldırmaqla ən çox yardıma ehtiyacı olan Afrika, Asiya və Latın Amerikası regional qruplarından olan üzv ölkələr üçün nəzərdə tutulur.

120 ölkəni özündə birləşdirən Qoşulmama Hərəkatı BMT Baş Assambleyasından sonra ən böyük beynəlxalq təsisatdır. Azərbaycanın sədrliyi dövründə birgə səylərimizlə Qoşulmama Hərəkatının beynəlxalq nüfuzunu, beynəlxalq aləmdə oynadığı rolunu artırmaq əzmindəyik. Ölkələr arasında dostluq, həmrəylik və qarşılıqlı dəstək xüsusi rol oynayır.

Razılığınız olarsa, qlobal həmrəyliyin nümunəsi kimi Qoşulmama Hərəkatının üzv ölkələri olaraq BMT Nizamnaməsində nəzərdə tutulan Baş Assambleyanın COVID-19 pandemiyasına həsr olunmuş dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə çıxış edə bilərik.

Hamımız üçün bu çətin dövrdə mən bir daha bütün dövlətləri dostluğa, qarşılıqlı dəstəyə və həmrəyliyə dəvət edirəm.

Diqqətinizə görə minnətdaram.

## *İlham Əliyev “Mir” televiziya kanalına müsahibə verib*

Aparıcı: İndi Azərbaycan Prezidenti İlham Əliyevin televiziya kanalımıza eksklüziv müsahibəsini təqdim edirik.

*– Hörmətli cənab Prezident, bu müsahibəni almağa imkan yaratdığınıza görə Sizə minnətdarlıq etmək istərdim. Şübhə yoxdur ki, tarixçilər 2020-ci ili koronavirus ili adlandıracaqlar. Sizcə bu necə baş verə bilərdi?*

Prezident İlham Əliyev: İnsanlarımızın sağlamlığını və həyatını qorumaq məqsədilə biz lap əvvəldən məhdudlaşdırıcı tədbirlər gördük. Hesab edirəm ki, tədbirlər özünü doğrultdu. Bu tədbirlər tədricən sərtləşdirildi və son nəticədə biz xüsusi karantin rejiminin tətbiqinə gəlib çatdıq. Bizim bütün resurslarımızın səfərbərliyə alınması, pasiyentlərin layiqincə müalicəsini təmin etmək məqsədilə tibbi preparatların, zəruri avadanlıqların əldə edilməsi üzrə böyük təşkilati iş aparıldı. Qısa müddətdə tibbi maskaların və dezinfekiyaedici vasitələrin istehsalı üzrə müəssisə işə salındı. Həmçinin yaxın vaxtlarda həkimlər üçün xüsusi geyimlər istehsal edən müəssisə işə salınacaq. Yaxın vaxtda hər birində 200 çarpayı olmaqla 10 yeni xəstəxananın istifadəyə verilməsi planlaşdırılır. Bu, yeni tikinti texnologiyaları – modul tipli texnologiyalardır. Bu günədək 20-dən çox dövlət xəstəxanası koronavirus xəstələrinin müalicəsi üçün ayrılıb, o cümlədən bu yaxınlarda 575 pasiyent üçün nəzərdə tutulan ən müasir xəstəxana açılıb. Həmçinin koronavirusla mübarizəyə cəlb edilən tibbi heyətin sosial təminatı üçün tədbirlər görülüb. Bu kateqoriyadan olan tibb işçilərinin əməkhaqqı müvafiq olaraq 3, 4 və 5 dəfə artırılıb. Yeni laboratoriyalar alınıb. Bu gün laboratoriyaların sayı artıq 23-dür. Bu bizə gündə bir neçə min test keçirmək imkanı yaradır. Ümumilikdə 160 mindən çox test keçirilib və əhalinin bir milyon nəfərinə düşən testin sayına görə Azərbaycan ön sıralardadır.

*– Azərbaycan pandemiya ilə necə bacarır?*

– Görülən bütün tədbirlər, o cümlədən məhdudlaşdırıcı tədbirlər bir məqsəd daşıyıb – vətəndaşlarımızın təhlükəsizliyini, sağlamlığını təmin etmək və onların həyatını qorumaq. Aprelin 14-dən başlayaraq Azərbaycanda müsbət dinamika müşahidə edilir. Sağalanların sayı yoluxanların sayından çoxdur. Bunun nəticəsində aprelin 27-dən başlayaraq və sonra mayın 4-də karantin rejimi yumşaldıldı. Karantin rejimi mayın sonunadək qüvvədədir. Beləliklə, biz vəziyyətin müvafiq daimi monitorinqini gələcəkdə də davam etdirəcəyik və əgər görsək ki, yumşaltma xarakteri daşıyan tədbirlər yoluxanların kəskin artmasına gətirib çıxarır, o halda məhdudlaşdırıcı tədbirləri yenidən gücləndirməli olacağıq.

*– Bəs Ümumdünya Səhiyyə Təşkilatı bu istiqamətdə Azərbaycanın fəaliyyətini necə qiymətləndirdi?*

– Ümumdünya Səhiyyə Təşkilatının Baş direktorunun mart ayının sonunda mənə ünvanlandığı məktubda koronavirusla mübarizə işində Azərbaycanın nümunəvi ölkə olduğu bildirilib. İlk növbədə, milli səviyyədə işləməklə biz, həmçinin beynəlxalq birliyin daha sıx birləşməsinə, diqqətin bu problemə cəlb edilməsinə, habelə koronavirusa müqavimət üzrə birgə işlərin gücləndirilməsinə çalışırıq. Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkatının sədridir. Apreldə və mayda iki sammit keçirildi. Özü də birinci sammit – Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Sammiti, ümumiyyətlə, dünyada bu mövzuya videokonfrans formatında həsr edilən ilk sammit idi. Dövlət və hökumət başçılarının böyük sayda iştirakı ilə bu tədbirlərin uğurlu keçirilməsi nəticəsində biz ümumi bəlaya qarşı mübarizədə vahid yanaşmalar əldə etdik. Eləcə də həm tibbi sahədə, həm də pandemiyanın bütün ölkələrə böyük zərər vurduğu iqtisadi sahədə müxtəlif səviyyələrdə işçi qruplar yaradıldı. Beləliklə, Azərbaycan dünya birliyinin məsuliyyətli və səmərəli üzvü kimi pandemiya ilə beynəlxalq səviyyədə mübarizəyə böyük töhfə verir. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təşkilatdır və Azərbaycan bu təşkilatda üç

il sədrlik edəcək. Qoşulmama Hərəkatının Təmas Qrupunun Sammitinin keçirilməsi təşəbbüsü Hərəkatda çox müsbət qarşılandı. Sammit göstərdi ki, biz səyləri birləşdirməklə bu bəlaya qarşı daha təsirli müqavimət göstərə bilərik. Həmçinin Azərbaycan bir neçə ölkəyə zəruri maliyyə və texniki, o cümlədən tibbi preparatlar və qoruyucu vasitələr yardımı edib. Biz pandemiyaya qarşı mübarizə işinə Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə iki dəfə donor töhfəsi etdik. Mart ayında Ümumdünya Səhiyyə Təşkilatı ilə Azərbaycan arasında donor sazişi imzalandı. Sazişə müvafiq olaraq biz bu bəla ilə qlobal səviyyədə mübarizə üçün Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar ayırdıq. May ayında isə Qoşulmama Hərəkatının sədri kimi Hərəkatın virusdan daha çox zərər çəkən üzvlərinə yardım göstərilməsi üçün Ümumdünya Səhiyyə Təşkilatına əlavə olaraq 5 milyon dollar ianə etdik. Müvafiq qərara əsasən, Ümumdünya Səhiyyə Təşkilatı və Azərbaycan bu yardımın miqyasını və təqdim ediləcəyi ölkələri birgə müəyyənləşdirəcək.

*– Elə bu vaxt neftin qiyməti təxminən sıfıra endi. Bu, respublikanın iqtisadiyyatına necə təsir etdi?*

– Birinci rübdə sosial-iqtisadi inkişafın nəticələrinin müsbət olmasına baxmayaraq, gələcəkdə bizim enmə müşahidə etməyimiz istisna deyil. Buna baxmayaraq, biz koronavirusdan daha çox zərər görən sahələrdə işləyən insanlara yardım üçün minimum 2 milyard dollar həcmində mühüm maliyyə resurslarını səfərbər etmişik. Bizdə belə vətəndaşların sayı təqribən 700 mindir. Bu gün həmin insanların işləmək imkanından məhrum olduqları nəzərə alınaraq, onların əməkhaqqının mühüm hissəsi dövlət tərəfindən ödənilir. Həmçinin dövlət sektorunun məcburi məzuniyyətə göndərilən işçiləri əməkhaqqını tam həcmdə alırlar. Bu qəbildən insanların sayı isə bizdə 900 mindən çoxdur. Aşağı gəlirli insanlar kateqoriyasına aid olan 600 min nəfərə, o cümlədən işsizlərə, qeyri-formal sahədə məşğul olanlara da dövlət tərəfindən sosial müavinət ödənilir. İşsizlərin sayının kəskin artmasına yol verməmək məqsədilə bu il haqqı ödənilən 90 min ictimai iş yeri yaradılması haqqında qərar qəbul olunub, habelə Azərbaycanda 80 mindən çox ailə ünvanlı sosial yardım alacaq. Bu, sosial-iqtisadi tədbirlərin tam paketi deyil. Biz buraya vergi güzəştlərini, vergi tətillərini, kommunal ödənişlər və bank kreditləri xidmətlərində müəyyən güzəşt şərtlərini də əlavə edə bilərik. Beləliklə, Azərbaycan dövləti məqsədyönlü, sistemli fəaliyyət göstərir. İlk növbədə, bu, insanların sağlamlığı və təhlükəsizliyidir. İkinci növbədə, bu, iqtisadi inkişaf, habelə əhalinin sosial müdafiəsidir. Həmçinin beynəlxalq əməkdaşlıqla bağlı məsələlər, hesab edirəm, Azərbaycan tərəfindən ən məsuliyyətli şəkildə başladıldı.

*– Biz Sizinlə ümumi bayramımız – Böyük Qələbənin 75 illiyi ərəfəsində söhbət edirik. O müharibədəki qəhrəmanlıqlarına görə respublikadan 400 mindən çox insan döyüş mükafatı alıb. Azərbaycanlıların milli xarakterini necə təsvir edərdiniz?*

- Azərbaycan oğulları Böyük Vətən müharibəsi meydanlarında ləyaqətlə vuruşublar. Azərbaycanın 123 nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Azərbaycanın müharibədə iştirak etmiş 600 mindən çox nümayəndəsinin yarısı həlak olub. Azərbaycan bizim ümumi Qələbəmizə böyük töhfə verib. Azərbaycan sovet ordusu üçün yanacaq-sürtkü materiallarının əsas tədarükçüsü olub. Onu demək kifayətdir ki, sovet ordusu üçün mühərrik yağlarının 90 faizi, benzinin 80 faizi və neftin 70 faizi Azərbaycan tərəfindən tədarük edilib. Həmçinin bizim müəssisələrdə gecə-gündüz sovet ordusu üçün çox vacib silah sistemi istehsal edilirdi. Azərbaycanın sənayesi həmişə inkişafda olub. Qısa müddətdə o, hərbi texnika istehsalına tam yönəldilib.

*– Sizin atanız Heydər Əliyev müharibə veteranlarını millətin qızıl fondu adlandırıb. Bu gün Böyük Vətən müharibəsi veteranlarına hansı kömək göstərilir?*

– Azərbaycanda bu gün həmişə geniş qeyd olunur. Hərçənd deməliyəm ki, müstəqilliyin ilk illərində bu, belə deyildi. 1992-ci ildə Xalq Cəbhəsi çevriliş yolu ilə hakimiyyətə gələndə 9 May bayramı ləğv edildi və veteranlar mənəvi terrora məruz qaldılar. Lakin Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə bu ədalətsizlik aradan qaldırıldı və həmin vaxtdan 9 May dövlət bayramıdır. Hər il mən həmin gün bir qayda olaraq, veteranlarla görüşürəm, həlak olanların xatirəsini anırıq, məzarları üzərinə əklillər, güllər qoyuruq. Bu il tədbir, əlbəttə, başqa formatda olacaq. Çünki biz veteranlarımızı qorumalıyıq. Hələ ki, karantin rejimi bir yerə kütləvi toplaşmağa, kütləvi tədbirlər keçirilməsinə yol verməsə də, bundan məsələnin mahiyyəti dəyişməyəcək. Hərçənd bayramın qeydedilmə formatı başqa cür olacaq, lakin düşünürəm ki, veteranlar həm bu gündə, həm də sonra Azərbaycan dövlətinin dəstəyini hiss edəcəklər. Veteranlar qayğı ilə əhatə olunub, onların maddi durumu təmin edilir. Onların çoxu dövlət tərəfindən ayrıca yaşayış sahəsi, mənzillə təmin edilib. Biz həmin gün, bir qayda olaraq, onlara Prezident mükafatları təqdim edirik. Beləliklə, bütün bunların hamısı qorunub saxlanılacaq. Ən başlıcası isə Böyük Vətən müharibəsi haqqında həqiqət həmişə üstünlük təşkil etməli, tarixin yenidən yazılması, faşizmin və faşist cinayətkarlarının qəhrəmanlaşdırılması cəhdləri olmamalıdır. Azərbaycanın bu istiqamətdə mövqeyi birmənalıdır.

*– Siz Rusiya ilə münasibətləri səmərəli adlandırırsınız. Sizin fikrinizcə, daha nə etmək lazımdır ki, bu münasibətlər daha yaxşı olsun?*

– Əminəm ki, münasibətlərimizin inkişafı üçün ən əlverişli perspektivlər var, çünki Rusiya-Azərbaycan münasibətlərinin çox möhkəm təməli qoyulub. Bu münasibətləri hər iki tərəf strateji tərəfdaşlıq kimi xarak-

terizə edir. Bu, həqiqətən belədir. Çünki münasibətlərimizin yalnız geniş gündəliyinə nəzər salsaq, biz həyat fəaliyyətinin, demək olar, bütün sahələrini görərik. Bizim qarşılıqlı siyasi əlaqələrimiz çox fəaldır, dövlət başçıları səviyyəsində çoxlu görüşlər olur, görüşlər müntəzəm keçirilir. Son illərdə biz iqtisadi planda əmtəə dövriyyəsinin artımını görürük ki, bu da iqtisadi əməkdaşlığın fəallaşdığına dəlalət edir. Azərbaycanda iqtisadiyyatın müxtəlif sektorlarında Rusiya kapitalı ilə yüzlərlə şirkət çalışır. Biz nəqliyyat sahəsində çox fəal əməkdaşlıq edirik. Biz mühüm Şimal-Cənub beynəlxalq nəqliyyat layihəsini birgə reallaşdırırıq. Həm Rusiya, həm də Azərbaycan ərazisində bu dəhlizlə bağlı bütün infrastruktur layihələri praktiki olaraq həyata keçirilib. Hazırda biz nəqliyyat-logistika istiqamətləri ilə bağlı məsələlər üzərində işləyirik. Məqsəd yük daşımalarını artırmaq və bununla da qonşu ölkələrimizə daha əlverişli şərait yaratmaq, tranzit potensialını möhkəmlətməkdir. Energetika sahəsində kifayət qədər çox layihələr var və Rusiya ilə Azərbaycanın enerji sistemlərinin birləşdirilməsini qeyd etməliyəm. Ya Azərbaycanda, ya da Rusiyada qəza olanda biz dərhal bir-birimizə kömək edir və həmrəylik nümayiş etdiririk. Ona görə də perspektivlər haqqında danışarkən düşünürəm ki, biz əldə edilmiş nəticəyə istiqamətlənəcək, qeyd etdiyim həmin istiqamətlər və gələcəkdə yeni istiqamətlər üzrə də işləyəcəyik. Bu gün biz 7 yol xəritəsinin reallaşdırılması üzrə ikitərəfli formatda işləyirik. Bunlar həyat fəaliyyətinin bütün vacib sahələrini əhatə edən konkret layihələrdir. Hər bir istiqamət üzrə dəqiq plan, zaman müddəti, yol xəritələrinin reallaşdırılması üçün prezidentlərin tapşırıqları var. Bütün bunlar ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaq, əməkdaşlıq səviyyəsini, əmtəə dövriyyəsinin və qarşılıqlı investisiyaların artımını möhkəmləndirəcək. Əlbəttə ki, bütün bunlar xalqlarımızın rifahının daha da yaxşılaşmasına gətirib çıxaracaq.

*– Siz rus dilini çox əla bilirsiniz. Bu gün Azərbaycan mədəniyyətində rus dilinin rolunu necə qiymətləndirirsiniz?*

– Bizim münasibətlər ən yüksək qiymətə layiqdir. Azərbaycanda rus dilində təhsilin səviyyəsi genişlənir. Artıq Rusiyanın aparıcı ali məktəblərinin Azərbaycanda filialları mövcuddur. Tədrisin rus dilində aparıldığı məktəblərə gəldikdə isə onların sayı artıq 340-a çatır. Bütün bunlar artıq qazanılmış potensialdır. Əlbəttə, bu il turizm sahəsində böyük tənəzzül olacağı təəssüf doğurur. Çünki ənənəvi olaraq Azərbaycan vətəndaşları Rusiyaya, Rusiya vətəndaşları Azərbaycana səfər ediblər, turist axınının artımı daim yaxşı rəqəmlərdə əksini tapıb. Lakin pandemiya nəzərə alınaraq qarşılıqlı razılıq əsasında ölkələrimiz arasında sərhədlər bağlanıb. Buna görə də yəqin ki, turist axını və turizm sahəsi karantin rejimi prosesindən ən axırda çıxan sahələr olacaq.

*– Bu il bizim Teleradio şirkətinin 27 yaşı tamam olub. Bizim tamaşaçılara Qələbə günü münasibətilə nə arzulamaq istərdiniz?*

– Fürsətdən istifadə edərək, bütün veteranlara bu mürəkkəb dövrdə cansağlığı arzulamaq istərdim. Bu gün pandemiya şəraitində hər birimiz yaxınlarımızı, cavabdeh olduğumuz insanları qorumalıyıq. Azərbaycanda pandemiya şəraitində belə şüarlar yaranıb: "Biz birlikdə daha güclüyük", "Biz birlikdə güclüyük". Elə bu şüarlarla da müsahibəni bitirmək istərdim. Sağ olun.

*– Cənab Prezident, bu müsahibəyə görə sizə minnətdaram. Bayramınız mübarək.*

## *Modul tipli ilk xəstəxana kompleksinin açılışında İlham Əliyevin nitqi*

Bu gün biz modul tipli yeni xəstəxananın açılışını qeyd edirik. Bu, çox əlamətdar hadisədir. Hər bir xəstəxananın açılışı əlamətdar hadisədir. Son 16 il ərzində ölkəmizdə 700-dən çox səhiyyə ocağının tikilib və ya əsaslı təmir edildiyini nəzərə alsaq, təsəvvür etmək çətin deyil ki, nə qədər böyük işlər görülübdür. Biz hesab edirdik ki, artıq mövcud xəstəxana fondu, xüsusilə müasir xəstəxanaların fəaliyyəti uzun illər ərzində tələbatımızı ödəyəcək. Ancaq koronavirus pandemiyası əlbəttə ki, öz qaydalarını diktə edir, ona görə yeni xəstəxanaların tikintisi labüddür. Əlbəttə, xəstəxana tikintisi çox vaxt aparır, həm layihələndirmə işləri, onun texniki tərəfi, yerin seçilməsi. Əlbəttə, hesab edirəm, biz yeni texnologiyalara üstünlük verərək düzgün seçim etdik ki, modul tipli, tez bir müddətdə yığılan və sonra sökülə və başqa yerə daşına biləcək xəstəxanaların tikintisini təmin edək. Mən bir müddət bundan öncə ictimaiyyətə bu haqda məlumat vermişdim və bu gün bu xəstəxananın açılışını qeyd edirik. Cəmi bir ay ərzində 200 çarpayılıq xəstəxana istifadəyə verilir.

Əlbəttə ki, koronavirusa qarşı mübarizədə bu xəstəxana və bundan sonra tikiləcək xəstəxanalar böyük rol oynayacaq. Ölkəmizin müxtəlif bölgələrində 10 belə xəstəxananın tikintisi nəzərdə tutulur. Əlbəttə ki, çarpayı sayının artırılması hər bir ölkə üçün koronavirusa qarşı mübarizədə xüsusi rol oynayır.

Biz indi bəzi inkişaf etmiş ölkələrin təcrübəsini görürük. Görürük ki, orada çarpayı çatışmazlığı ucbatından xəstələr vaxtında müalicə ala bilmir, koronavirusa yoluxmuş bir çox insan ümumiyyətlə xəstəxanalara götürülmür, onlar evlərdə qalırlar. Əlbəttə, evlərdə onları müalicə, onların vəziyyətini monitorinq etmək qeyri-mümkündür.

Azərbaycanda koronavirusa qarşı mübarizədə bizim təcrübəmiz hesab edirəm ki, ən mütərəqqi və ən insansevər təcrübədir. Çünki bizim bütün xəstələrimiz

xəstəxanalarda yerləşdirilib və həkimlər onlara gecə-gündüz xidmət edirlər. Yeni xəstəxanaların tikintisi, əlbəttə, gələcəyə hesablanıb. Çünki hazırda mövcud xəstəxana fondu bizim tələbatımızı ödəyir və 20-dən çox dövlət xəstəxanası koronavirus xəstələrinin sərəncamına verilibdir, o cümlədən ən yeni və ən müasir 575 çarpayılıq "Yeni klinika". Orada hazırda xəstələr müalicə olunurlar. Bu, gələcəyə hesablanmış düzgün addımdır, çünki heç kim bilmir pandemiya nə qədər davam edəcək, heç kim bilmir bunun gələcək mərhələləri nədən ibarət olacaq. Ona görə biz tam hazır olmalıyıq.

Bizim atdığımız bütün addımlar qabaqlayıcı xarakter daşıyır. Bu xəstəxananın və bundan sonra buna oxşar 9 xəstəxananın istifadəyə verilməsi 1-2 ay ərzində nəzərdə tutulub. Bütün bu addımlar qabaqlayıcı xarakter daşıyırdı və məhz buna görə hesab edirəm ki, koronavirusla mübarizədə biz birinci mərhələdə qalib gələ bilmişik. Ancaq mübarizə davam edir, koronavirus heç bir yerə qeyb olunmayıb, dolaşır və dolaşacaq və bunu hər kəs bilməlidir.

Bu gün testlərin aparılması istiqamətində də böyük uğurlar var. Adambaşına keçirilən testlərin sayına görə Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir. Testlərin keçirilməsi üçün yeni laboratoriyalar alınıbdır. Onların sayı 23-ə çatıb və yeni laboratoriyaların yaradılması gündəlikdə duran məsələdir.

Bütün lazımi tibbi avadanlıq alınır. Bildiyiniz kimi, Prezidentin ehtiyat fondundan tibbi avadanlıqların, ləvazimatların alınması və işi düzgün təşkil etmək üçün 100 milyon manat vəsait ayrılıbdır. Bu, birinci tranşdır, əlavə 150 milyon manat artıq hazır vəziyyətdədir, lazım olan vaxtda biz ondan da istifadə edəcəyik. Əlbəttə, bütün bu kompleks tədbirlər – testlərin keçirilməsi, xəstəxanaların, laboratoriyaların fəaliyyəti və həkimlərin peşəkarlığı, işin düzgün təşkili bizə imkan verdi ki, hazırda bu vəziyyətdən istədiyimiz kimi, az itkilərlə çıxaq. Hər bir insanın ölümü onun yaxınları, qohumları üçün böyük faciədir və hər bir insanın həyatı bizim üçün qiymətlidir, dəyərlidir. Ancaq dünyada hər şey müqayisədə ölçülür və biz görəndə ki, inkişaf etmiş ölkələrdə gündə yüzlərlə, bəzi hallarda mindən çox insan vəfat edir, əlbəttə ki, Azərbaycanda bu sahədə görülmüş işlər xüsusi əhəmiyyət daşıyır və bunu hər kəs görür. Hətta bizimlə eyni sayda əhalisi olan ölkələrdə artıq uzun müddətdir ki, hər gün yüzlərlə insan vəfat edir. Bu ölkələrin səhiyyə sistemi həmişə bütün dünyaya, o cümlədən bizə nümunə kimi göstərilirdi. Ancaq bu dövrdə hər kəs gördü ki, orada vəziyyət artıq böhranın pik həddinə çatıb. Ona görə əlbəttə ki, müqayisə aparılanda Azərbaycan dövlətinin gördüyü işlər böyük üstünlük təşkil edir. Biz əsas diqqətimizi vəziyyəti nəzarətdə saxlamaqda görürük və birinci mərhələdə buna nail ola bilmişik. Ona görə kompleks tədbirlərin görülməsi, o cümlədən karantin rejiminin tədricən vəziyyətə uyğun olaraq qüvvəyə minməsi, onun sərtləşdirilməsi və son günlər ərzində yumşaldılması – bütün bunlar ölçülüb-biçilmiş addımlardır.

Karantin rejimi nə üçün sərtləşdirilirdi? Yoluxma hallarının geniş yayılmasının qarşısının alınması üçün və biz buna nail olduq. Birinci mərhələdə bu virus bizə, belə demək mümkündürsə, idxal edilmişdir, amma ondan sonra daxili yoluxma halları baş vermişdir. Dərhal operativ tədbirlər görüldü və məhz sərt karantin qaydalarına görə biz bu mərhələni az itkilərlə başa vurduq. Görəndə ki, artıq 3 həftə ərzində hər gün sağalanların sayı yoluxanların sayından xeyli çoxdur, onda biz artıq yumşalma tədbirləri görməyə başladıq. Ancaq əfsuslar olsun ki, bəzi adamlar bunu karantin rejiminin ləğvi kimi qəbul etdilər. Əfsuslar olsun ki, bəzi adamlar karantin rejiminə əməl etmirlər. Yumşalma tədbirləri yalnız bir məqsədi güdürdü ki, insanların öyrəşdiyi həyat tərzi müəyyən dərəcədə bərpa olunsun. Karantin rejiminin yumşaldılması o demək deyil ki, karantin başa çatıb, xeyr. Karantin rejimi ən azı mayın 31-nə qədər qüvvədə olacaq və ondan sonra əgər lazım olarsa, uzadılacaq. Ona görə son günlərin mənzərəsi, sözün düzü, məni çox üzür və narahat edir. Çünki son 2-3 gündə xəstələnənlərin sayı sağalanların sayından çoxdur və əgər bu dinamika kəskin artarsa, – mən bunu açıq demək istəyirəm və hər kəs bunu bilsin, – biz məcbur olub karantin rejimini əvvəlki vəziyyətə gətirəcəyik, sərtləşdirəcəyik, qaydaları pozanlara qarşı da daha ciddi cəza tədbirləri görüləcək ki, biz vəziyyəti daim nəzarətdə saxlayaq.

Azərbaycan dövlətinin siyasəti və Operativ Qərargahın bu işlərə gündəlik rəhbərlik etməsi əsas bir məqsədi güdür ki, biz vətəndaşların həyatını, sağlamlığını qoruyaq. Eyni zamanda, bu məhdudlaşdırıcı rejim çərçivəsində insanlara maksimum imkan yaradaq ki, onlar öyrəşdiyi gündəlik həyat tərzindən çox da uzaqlaşmasınlar. Ona görə biz bu yumşaldıcı tədbirləri görmüşük. Aprelin 27-dən, sonra mayın 4-dən daha da yumşaq rejim qüvvədədir. Ancaq biz nəyi görürük? Onu görürük ki, bəzi məsuliyyətsiz vətəndaşlar heç bir qaydalara əməl etmirlər, maska taxmırlar, məsafə saxlamırlar, özlərini elə aparırlar ki, sanki virus artıq məhv olub. Buna qətiyyən yol vermək olmaz. Ona görə bu adamlara qarşı ciddi tədbirlər görüləcək. Hamı bunu bilsin və nəticə çıxarsın. Biz imkan verə bilmərik ki, hansısa məsuliyyətsiz vətəndaşlara görə insanların həyatı risk altına düşsün. Qətiyyən mümkün deyil.

Ona görə indi ölkəmizin bəzi bölgələrində sanki pandemiyanın yeni mərhələsi başlayır, xüsusilə Gəncə şəhərində. Buna çox ciddi yanaşmaq lazımdır. Ona görə indiki karantin rejimində Bakı, Sumqayıt, Abşeron, Gəncə, Lənkəran üçün xüsusi rejim var. Nəyə görə? Çünki bu yerlərdə, bu şəhərlərdə xəstələrin sayı, yoluxma halları daha çoxdur. Son günlərdə yoluxanların demək olar ki, 30, 40, 50 faizi Gəncə şəhərinin payına düşür. Deməli, orada vəziyyət narahatlıq doğurmalıdır.

İndi bu, araşdırılır, səbəbi nədir? Əsas səbəb insanlar və rəhbər orqanlar tərəfindən vaxtında tədbirlərin görülməməsidir. Harada ki, vaxtında tədbirlər görülür, harada ki, qəbul edilmiş qaydalar icra edilir, orada vəziyyət nəzarət altındadır. Biz nəzarəti gücləndirəcəyik. Ona görə karantin rejimi ilə bağlı sərtləşdirici tədbirlər istisna deyil. Bir daha demək istəyirəm ki, biz virusla mübarizədə birinci mərhələdə qalib gəlmişik. Virus qeyb olmayıb, burada dolaşır və dolaşacaq. Bunu həkimlər, mütəxəssislər çox yaxşı bilirlər, istərdim ki, vətəndaşlar da bunu bilsinlər. Maarifləndirmə işləri daha geniş vüsət almalıdır. Bəziləri hesab edir ki, bəli, virus daha yoxdur, bütün dünya böhran içindədir, Azərbaycan isə sanki dənizdə bir adadır, burada hər şey yaxşıdır və yaxşı olacaq. Əlbəttə, bir çox ölkələrə nisbətən yaxşıdır, ancaq buna mütləq formada yaxşı demək olmaz.

Əlbəttə, vətəndaşlar şəxsi gigiyenaya riayət etməlidirlər. Hesab edirəm ki, uzun müddət bundan sonra bu, bir növ yeni reallıqdır və biz bu reallıqla barışmalıyıq, istəsək də, istəməsək də. Maska taxmaq, məsafə saxlamaq, gündə bir neçə dəfə sabunla əlləri yumaq, dezinfeksiya vasitələrindən istifadə etmək bir qayda olmalıdır. İndi bilirsiniz, biz bəzən özümüzü bir neçə ölkə ilə müqayisə edirik, deyirik, – bəli, mən də bu gün bunu deyirəm, – həqiqətdir ki, bir çox inkişaf etmiş ölkələrdə vəziyyət acınacaqlıdır, böhranlıdır. Azərbaycandan fərqli olaraq o ölkələr bilmirlər ki, bu böhranla necə bacarsınlar. Amma digər tərəfdən biz görürük ki, o ölkələrdə, inkişaf etmiş ölkələrdə, məsuliyyət, nizam-intizam yüksək səviyyədə olan ölkələrdə insanlar məsafə saxlayırlar. Biz televiziyada görürük, növbə var, adamlar öz aralarında bir metr yarım, iki metr məsafə saxlayırlar, maska taxırlar. Amma bizdə məsafə saxlayan var? Açın istənilən kanala baxın. Dünən mən baxmışam, bankın qabağında bir-birinin yanında durublar, maska yox, müxbirlər soruşurlar ki, nə üçün? Elə bil ki, məktəb uşaqlarıdır, min cür bəhanə gətirirlər – yadımdan çıxdı, havada maska lazım deyil, cibimdədir. Biz belə münasibətə dözə bilmərik. Bu, zarafat deyil. Hər kəs bunu çox ciddi qəbul etməlidir. Belə adamlara qarşı ciddi cəza tədbirləri görüləcək. Mən bu gün bütün aidiyyəti orqanlara müraciət edərək deyirəm, cəza tədbirlərini sərtləşdirin. Biz vətəndaşları qorumalıyıq. Biz imkan verə bilmərik ki, hansısa intizamı pozan, məsuliyyətsiz adama görə vətəndaşlarımız xəstələnsin, ölsün. Ona görə bu qaydalara hər kəs riayət etməlidir, özü də bundan sonra uzun müddət ərzində.

Həkimlər, mütəxəssislər yaxşı bilirlər və geniş ictimaiyyət də bilməlidir ki, koronavirusa qarşı mübarizə o vaxt başa çatacaq ki, peyvənd hazırlanacaq. İndi bütün dünya bu peyvəndi gözləyir. Peyvəndin icad edilməsi üzərində bir çox ölkələrdə alimlər işləyir. Peyvənd hazırlanandan sonra artıq deyə bilərik ki, bəli, biz özümüzü bu virusdan qoruya bilərik. O vaxta qədər virus var və bunu hər kəs bilsin.

Ona görə mən hesab edirəm ki, bütün kompleks tədbirlər, vətəndaşların məsuliyyəti və nizam-intizamı nəticəsində biz bundan sonra da bu vəziyyəti nəzarət altında saxlaya biləcəyik. Çünki burada məsələ ancaq dövlət qurumlarının fəaliyyətindən asılı deyil. Dövlət qurumları, vətəndaş cəmiyyəti, vətəndaşlar, biz bir nöqtəyə vurmalıyıq. Biz həmrəylik, birlik göstərmişik. Həmrəyliyin təzahürlərindən biri də odur ki, həm dövlət, həm özəl sektor, sahibkarlar, ayrı-ayrı adamlar imkansız insanlara əl tuturlar, kömək göstərirlər, onları ərzaq malları ilə təchiz edirlər. Mənim təşəbbüsümlə yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianələr verirlər. Artıq Fondda 100 milyon manatdan çox vəsait toplanıb. Bütün bunlar bizim xalqımızın ən yüksək xüsusiyyətlərini göstərir: mərhəmət, imkansızlara diqqət, yardım, birlik, həmrəylik. Amma məsuliyyət də, nizam-intizam da göstərməliyik. Hələ ki, biz bunu müraciət formasında dilə gətiririk. Amma lazım olsa, bu, məcburi qaydada tətbiq ediləcək.

Həkimlər öz həyatını, sağlamlığını, yaxınlarının sağlamlığını risk altına qoyurlar, xəstələrə gecə-gündüz xidmət edirlər. Biz həkimlərin fədakarlığını yüksək qiymətləndiririk. Bir daha Azərbaycan xalqı gördü ki, ən çətin dövrdə, bu pandemiya dövründə aparıcı şəxs, aparıcı adam insanların həyatını qoruyan həkimdir. Əlbəttə, bütün başqa amillərlə bərabər, dövlət lazımi tədbirləri görür. Amma son nəticədə xəstələri müalicə edən, onları həyata qaytaran həkimlərdir. Həkimlər gecə-gündüz işləyirlər, insanları xilas edirlər. Bu xəstəlikdən canını qurtaran bütün pasiyentlər, ilk növbədə, həkimlərə minnətdar olmalıdırlar. Bizim polis əməkdaşları, Daxili Qoşunların əməkdaşları gecə-gündüz küçələrdədir, həyatlarını risk altına atırlar, camaatı başa salmağa çalışırlar. İndi onların əməyini yerə vurmamalıyıq. Nəyə görə kimsə özü üçün hansısa xüsusi imtiyaz yaratmaq istəyir. Buna gəldikdə də bildirməliyəm, pandemiya bütün dünyaya göstərdi ki, bu xəstəlik qarşısında hamı bərabərdir. Heç kimə heç bir imtiyaz verilmir və verilməyəcək. Bu, bizim siyasətimizin əsas hissəsindən biridir ki, qanunun aliliyi, bərabərlik daim bərqərar olmalıdır. Ona görə heç kimə heç bir imtiyaz verilməyəcək. Odur ki, karantin rejimini pozan, vaxtını hansısa iaşə obyektində keçirmək istəyən adamlara qarşı da, – onlar müəyyən olunduqda, – ciddi cəza tədbirləri görülür, tətbiq olunur, o cümlədən vəzifəli şəxslərə qarşı. Karantin rejimini pozduqlarına görə artıq bir neçəsi cəzalandırıldı.

Eyni zamanda, əfsuslar olsun ki, biz bu vəziyyətdə milli xainlərin də üzünü gördük. Kasıbın malına, ərzaq payına göz dikən xaindir, bunun başqa adı yoxdur. Bu, oğurluq deyil, bu, kiçik bir cinayət deyil. Heydər Əliyev Fondu tərəfindən göndərilən ərzaq paylarına sahib çıxmaq istəyən vəzifəli şəxslərin hərəkətinə nə demək olar? Ancaq xəyanət. Mən demişəm, bir daha demək istəyirəm ki, bir çoxları pandemiyanı müharibə adlan-

dırırlar. Müharibə, əslində, göz qabağındadır. Bu şəraitdə belə adamlara nə ad vermək olar? Ona görə bu adamların cəzalandırılması qaçılmazdır. Eyni zamanda, indiki şəraitdə xüsusilə kasıb adamların maaşını mənimsəmək, ictimai işlərə cəlb edilən vətəndaşların ödəniş kartlarını götürüb ondan pul çəkmək, bu da xəyanətdir. Son müddətdə həbs olunan icra başçılarının beşi də bu bəd əməllərdə təqsirləndirilir. Son həbslər də onu göstərir. O icra başçılarının, onların yaxınlarının, köməkçilərinin iş otaqlarından yüzlərlə ödəmə kartı çıxıb, yüzlərlə. Mənə verilən məlumata görə, son tutulan icra başçısının iş otağından 140 ödəmə kartı çıxıb. Bu, nədir? Biz bu kartı özünə iş tapa bilməyənlərə veririk. Əvvəl də verirdik. Biz ildə otuz min, qırx min belə adamı ictimai işlərə cəlb edirdik – hansısa binanın rənglənməsi, yaxud da ki, onların bağçaya xidmət etməsi və digər işlərə. Onlar minimum əməkhaqqı səviyyəsində maaş alırdılar, bu gün 250 manat. Amma onlara çatacaq kartlar icra başçıları tərəfindən götürülür, sonra o pullar mənimsənilir. Kasıb adamlar da işsiz və pulsuz qalır. Bu, adi cinayətdirmi? Yox. Bu, xəyanətdir. Bunun başqa adı yoxdur. İndiki şəraitdə də bunu davam etdirirlər. Bu adamlarda vicdan deyilən şey yoxdur, vicdanı tam itiriblər. Biz belə ünsürlərə qarşı bundan sonra da amansız mübarizə aparacağıq. Bu gün cəmiyyətimizin bütün sağlam qüvvələri bir amal ətrafında birləşib ki, bu vəziyyətdən az itkilərlə çıxaq, insanları qoruyaq, xəstələri sağaldaq. Həkimləri qoruyaq ki, onlar insanları qorusunlar, özlərini qorusunlar. Ona görə belə bir vəziyyətdə belə çirkin addımların atılması tamamilə qəbuledilməzdir. Bir daha demək istəyirəm ki, bu addımları atanlar, bu cinayətləri törədənlər layiqli cəzalarını alacaqlar.

Mən deyə bilərəm ki, pandemiyadan, əlbəttə, bizim iqtisadiyyatımız da zərər çəkir. İstisna deyil ki, ikinci rübün yekunları o qədər də ürəkaçan olmayacaq. Ancaq bu, ikinci dərəcəli məsələdir. Birinci dərəcəli məsələ vətəndaşların sağlamlığıdır. Biz bilirik ki, əgər karantin rejimini bax, dediyim bu səbəblərə görə sərtləşdirsək, iqtisadi vəziyyətimizə bunun çox mənfi təsiri olacaq. Amma biz buna gedəcəyik. Çünki insanların sağlamlığı və sosial rifahı birinci yerdədir. Məhz bu məqsədlə 3,5 milyard manat vəsait ayrıldı. Pandemiyadan ən çox ziyan çəkən sahələrdə işini itirən 700 minə yaxın vətəndaşın əməkhaqqının əhəmiyyətli hissəsi dövlət tərəfindən verilir. Bu məqsədlə 600 min işsiz, aztəminatlı və qeyri-formal məşğulluqla pul qazanan insanlar dövlət tərəfindən maddi yardımla təmin edilir. Bütün bu işləri biz görürük ki, vətəndaşların sosial və maddi vəziyyətini sabit saxlayaq. Bütün bu addımlar, əlbəttə ki, beynəlxalq birlik tərəfindən də qiymətləndirilir. Mən bunu demişəm, bir daha demək istəyirəm ki, Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanda pandemiyaya qarşı mübarizə istiqamətində görülmüş tədbirləri yüksək qiymətləndirib, bizi nümunəvi ölkə adlandırıb. Bu, həqiqətən də belədir. Azərbaycanda həm ölkə daxilində, ilk növbədə, bütün lazımi tədbirləri görürük və beynəlxalq müstəvidə də öz sözümüzü deyirik. Mən deyə bilərəm ki, biz 10-dan çox ölkəyə yardım etmişik. Texniki yardım, maliyyə yardımı, təyyarələr göndərmişik, yük təyyarələri o ölkələrə ki, onlar bizə müraciət edib və onların maddi imkanları məhduddur, onların, belə deyək, müraciət edəcəyi başqa bir ölkə yoxdur. Ondan çox ölkəyə yardım etmişik və hesab edirəm ki, düz etmişik. Çünki məhz belə günlərdə, belə dövrdə insanların da, ölkələrin də əsl siması üzə çıxır. Yaxşı vəziyyətdə hər kəs hər kəslə dostdur. Hər kəs yaxşı sözlər deyir, beynəlxalq tədbirlərdə çıxışlar edir, qarşılıqlı dəstək haqqında danışır, amma əməldə bunu göstərmək lazımdır, əməldə. Biz o ölkələrdənik ki, əməldə bunu göstəririk. Pandemiyaya qarşı qlobal mübarizədə biz birinci ölkələrdən olduq ki, Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar donor ianəsi verdik. Bu yaxınlarda artıq Qoşulmama Hərəkatının sədri kimi əlavə 5 milyon dollar ianə verdik Ümumdünya Səhiyyə Təşkilatına ki, bizimlə razılaşdırmaqla Hərəkata üzv ölkələrə yardım göstərilsin. Bilirsiniz ki, mənim təşəbbüsümlə iki Zirvə görüşü keçirildi – Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü və Qoşulmama Hərəkatının Zirvə görüşü. Hər iki təsisatda Azərbaycan hazırda sədrdir. Bu təşəbbüs vaxtında və yerində olan təşəbbüsdür. Demək olar ki, bütün dünya birliyi bunu alqışlayır və Azərbaycanın rolunu qeyd edir.

Biz bunu etməyə də bilərdik. Kimsə bizə bir söz deyəcəkdi? Yox. Kim bizə irad tuta bilərdi ki, bu ağır dövrdə biz bu təşəbbüsü irəli sürməsəydik. Amma biz bunu etdik. Çünki biz məsuliyyətli ölkəyik və etibarlı tərəfdaşıq. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü dünya miqyasında onlayn formatda birinci Zirvə görüşü idi. Qoşulmama Hərəkatının Zirvə görüşü isə 120 ölkəni birləşdirir. Onu da bildirməliyəm ki, bu Zirvə görüşünə təbrik müraciətlərini BMT-nin Baş katibi Quterreş, BMT Baş Assambleyasının prezidenti, Afrika İttifaqının sədri, Avropa Komissiyasının vitse-prezidenti göndərmişdilər. Onu da bildirməliyəm ki, Qoşulmama Hərəkatı ilə Avropa İttifaqı arasında, mən bilən, bu günə qədər hər hansı bir ciddi təmas olmayıb. Çünki bu iki təsisat fərqli qütblərdə yerləşir və bir çox hallarda onların baxışları üst-üstdə düşmür. Ona görə bu da bir ilkdir. Əgər biz ölkələrin sayını götürsək, görərik ki, Qoşulmama Hərəkatında 120 üzv, Avropa İttifaqında 27 üzv, artıq 147 və Afrika İttifaqında 55 üzv fəaliyyət göstərir. Düzdür, onların bəziləri Qoşulmama Hərəkatının üzvüdür. Buna baxmayaraq, dünya birliyinin mütləq əksəriyyəti Azərbaycanın təşəbbüsü ilə COVID-19-a qarşı vahid platforma formalaşdırdı. Mən tam səmimiyyətlə deyə bilərəm, özümüzü tərifləmək üçün yox, sadəcə olaraq, həqiqəti dilə gətirmək üçün, Azərbaycan dünyanı birləşdirir. Birincisi, milli zəmində, yəni, ölkə ərazisində görülən bütün işlər, tədbirlər nümunəvi

xarakter daşıyır. Sosial-iqtisadi paket adambaşına düşən xərclərə görə dünyada bəlkə də birincilər sırasındadır. Beynəlxalq müstəvidə özünü məsuliyyətli üzv kimi aparıb və yenə də ümumi daxili məhsula görə bizim qədər donor ianəsi verən olmayıb. Düzdür, bəzi ölkələr böyük rəqəmlər bəyan ediblər, amma hanı o vəsait, yoxdur. Bizimki isə nağd verilib. Beynəlxalq təşkilatlar çərçivəsində irəli sürülmüş təşəbbüslər də dünya birliyi tərəfindən birmənalı şəkildə yüksək qiymətləndirilir və təqdir edilir. Bax, bu çətin dövrdə hər kəsin əsl siması üzə çıxdı. Kim nəyə qadirdir, kim ölkəni necə idarə edir, kim böhrana qarşı necə hərəkət edir, kim xalqı, cəmiyyəti səfərbər edə bilib, kim isə, sadəcə olaraq, xarici yardıma möhtac qala-qala başqasından yardım diləyir. Ona görə həm özümüzə, xalqımıza, həm də bütün dünyaya bir daha göstərdik ki, biz ləyaqətli ölkəyik. Bizim üçün milli maraqlar prioritet məsələdir. İnsanların sağlamlığı isə milli maraqlar arasında prioritet yerdədir.

Bugünkü açılış böyük rəmzi məna daşıyır. Birincisi, ona görə ki, 10 xəstəxana işə düşəndən sonra bizim əlavə 2 min çarpayımız olacaqdır. Amma əsas odur bu, onu göstərir ki, biz qısa müddət ərzində bütün resursları səfərbər edib yüksək nailiyyətlərə nail ola bilmişik.

Əlbəttə ki, həkimlərin fəaliyyətini bir daha qeyd etmək istərdim. Həkimlər doğurdan da böyük fədakarlıq, qəhrəmanlıq göstərirlər. Sizə bundan sonra da uğurlar arzulayıram. Amma xahiş edirəm ki, özünüzə də yaxşı baxın, xəstələnməyin, həmişə belə vətənpərvər, həmişə peşəkar və xalqı sevən insanlar kimi yaşayın, yaradın, insanlara tibbi xidmət göstərin. Sağ olun.

## *İlham Əliyev Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana eksklüziv müsahibə verib*

*– Salam, İlham Heydər oğlu. Sizi salamlamağa şadam. Mən Sizinlə müxtəlif şəraitdə və müxtəlif yerlərdə söhbət etmək, Sizdən müsahibə götürmək şərəfinə nail olmuşam. Amma onlayn formatda söhbətimiz ilk dəfədir.*

– Bəli, siz haqlısınız. Bu format bir qədər qeyri-adidir, lakin artıq hamı ünsiyyətin bu formasına vərdiş edir. Ona görə düşünürəm ki, söhbətimizin məzmunu bu formatdan zərər çəkməyəcək. Hərçənd, əlbəttə, ən yaxın vaxtda sizi şəxsən görəcəyimə ümid edirəm.

*– Sağ olun, İlham Heydər oğlu. Çox vacib hesab etdiyim bir məsələdən başlamaq istəyirəm. Sizinlə böyük bayram – Qələbə Günü ərəfəsində görüşürük. Mən bilirəm ki, həmin gün Siz Moskvaya getməyə hazırlaşırdınız, çoxlu tədbirlər planlaşdırılırdı. Lakin pandemiya ilə bağlı sərt gerçəklik buna öz təsirini göstərdi. Bilirəm ki, Azərbaycanda bu böyük bayram həmişə çox təntənəli şəkildə qeyd edilirdi. Bu, təbii və ədalətlidir, çünki 600 mindən çox Azərbaycan vətəndaşı cəbhədə olub, onların yarısından çoxu döyüş meydanında həlak olub, müharibədən qayıtmayıb. 123 azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Bu, bütün xalqın çox böyük igidliyidir. Eyni zamanda, arxa cəbhədə göstərilən qəhrəmanlıq, Azərbaycan neftçilərinin qəhrəmanlığı barədə danışmamaq olmaz. Döyüş maşınlarının, tankların, təyyarələrin, gəmilərin istifadə etdiyi bütün yanacağın 80 faizi Azərbaycan mədənlərində, Azərbaycan zavodlarında istehsal edilirdi. Bununla əlaqədar, əlbəttə, Sizdən soruşmaq istəyirəm, bütün bu vəziyyətə baxmayaraq, Azərbaycanda Qələbə Gününü necə qeyd etməyə hazırlaşırlar, bütün bu şəraitə baxmayaraq hansı tədbirlər keçiriləcək, ümumiyyətlə, bu gün Azərbaycanda bu bayramı necə qəbul edirlər?*

– Siz tamamilə haqlı olaraq qeyd etdiniz ki, Azərbaycan bizim ümumi qələbəmizə sanballı töhfə verib. Biz fəxr edirik ki, respublikamız öz oğul və qızlarının həyatı bahasına, müəssisələrimizin gecə-gündüz işləməsi hesabına bu Qələbəyə mühüm töhfə verib. Bilirsiniz ki, Azərbaycanda sənaye həmişə yüksək səviyyədə inkişaf edib və bizim müəssisələrdə Qələbə üçün çox zəruri olan müxtəlif silah növləri fasiləsiz rejimdə istehsal edilirdi. Əlbəttə, siz düzgün olaraq qeyd etdiyiniz kimi, Azərbaycan yanacağın ən mühüm təchizatçısı olub. O vaxt hələ Sibirdəki yataqlar kəşf edilməmişdi. Buna görə yanacaq-sürtkü materiallarının əsas bazası Azərbaycan idi. Bu da təsadüfi deyil ki, faşist Almaniyası məhz Bakını tutmaq niyyətində idi. Bu məşhur kadrlar dəfələrlə nümayiş etdirilib: Hitlerə təqdim edilən bayram tortunun üzərində “Xəzər dənizi” sözləri yazılmışdı. Hətta belə bir forma məxsusi olaraq Xəzər dənizinin sərhədlərini göstərirdi, Hitler də svastikanı həmin nöqtəyə qoymuşdu. Əgər bu niyyət baş tutsaydı, əlbəttə, müharibənin yekunu tamam fərqli ola bilərdi.

Əlbəttə, sizin düzgün olaraq qeyd etdiyiniz kimi, biz sovet dövləti tərəfindən layiqincə qiymətləndirilən qəhrəmanlarımızla fəxr edirik. 123 Sovet İttifaqı Qəhrəmanı bizim fəxr etdiyimiz insanlardır, indiki nəsil də, gələcək nəsillər də bu insanlarla fəxr etməlidirlər.

Tədbirlərə gəlincə, əlbəttə, koronavirus şəraitində bizdə kütləvi tədbirlər çoxdan ləğv edilib. Xüsusən ona görə ki, yaşı 65-dən çox olan insanların evdən çıxması məsləhət deyil. Biz öz veteranlarımızı qorumalıyıq. Təəssüf ki, onların sayı ilbəil azalır. Adətən mayın 9-da mən həmişə veteranlarla görüşürəm, biz söhbət edirik, həlak olanların xatirəsini ehtiramla yad edirik, onların məzarları üzərinə gül-çiçək, əklillər qoyuruq. Hər dəfə onlarla ünsiyyətdə olanda, sanki enerji alırsan. Özü də onların çoxunun yaşı 90-ı keçib, hətta 100-ü haqlayanlar da var. Lakin əvvələn, fiziki baxımdan onlar möhkəm olduqlarını nümayiş etdirirlər. Ən başlıcası, onların mənəvi ruhu, nikbinliyi və həyatsevərliyi, əlbəttə, bizi

heyrətləndirir, təəccübləndirir və biz onlarla yalnız fəxr edə bilərik. Biz hər il veteranlar üçün mükafatlar ayırırıq. Bu il həmin mükafatın məbləği təxminən 900 dollar, manatla hesablasaq 1500 manat olacaq. İl ərzində də onların problemlərini həll edirik.

Deməliyəm ki, Azərbaycanda bizim ümumi qələbəmizə münasibət həmişə belə olmayıb. Təəssüf ki, müstəqilliyin ilk illərində, millətə zidd olan Xalq Cəbhəsi rejimi hərbi çevriliş yolu ilə hakimiyyətə gələndə 9 May Günü bayram təqvimindən silinmişdi. Müharibə veteranları mənəvi terrora məruz qalırdı, kütləvi informasiya vasitələrində onlara qarşı qəddar kampaniya aparılırdı. Yalnız Heydər Əliyev hakimiyyətə gələndən sonra 9 May Günü bayram təqvimində bərpa olundu. O vaxtdan həmin gün dövlət bayramıdır. Bu qeyri-iş günüdür. Ədalət zəfər çaldı.

Siz düzgün olaraq qeyd etdiniz ki, mən həmin gün Moskvada olmağa hazırlaşırdım. Rusiya Federasiyasının Prezidentindən dəvət almışam, lakin koronavirusla əlaqədar bayram tədbirləri ləğv edilib. Ona görə bu il mən yenə həlak olanların xatirəsini yad edəcəyəm, lakin əlbəttə, tamam başqa formatda.

*– Yeri gəlmişkən, Rusiya Prezidenti Vladimir Vladimiroviç Putin deyib ki, müvafiq epidemioloji şərait imkan verəndə biz bu tarixi Rusiyada qeyd etməyi planlaşdırırıq, həmçinin təsdiq edilib ki, bütün dəvətnamələr qüvvədə qalır. Buna görə düşünürəm ki, bu məlum olanda və tarixlər təyin ediləndə, Siz Rusiya rəhbərliyi ilə, Müstəqil Dövlətlər Birliyi ölkələrindəki həmkarlarınızla birlikdə bu bayramı Moskvada qeyd etmək imkanına malik olacaqsınız.*

– Bəli, mən buna çox ümid edirəm.

*– İlham Heydər oğlu, Siz indicə tamamilə haqlı olaraq dediniz ki, Xalq Cəbhəsinin hakimiyyətdə olduğu Azərbaycan üçün kədərli günlərdə bu bayram, təəssüf ki, təqvimdən silinmişdi. Həqiqətən yalnız Heydər Əliyev hakimiyyətə gələndən sonra ədalət zəfər çaldı və bu gün həmin bayramı bütün xalq qeyd edir. O da təəccüblüdür ki, bəzi ölkələrdə siyasətçilər tarixi yenidən yazmağa, onu saxtalaşdırmağa çalışırlar. Bəzi ölkələrdə şəhərləri xilas etmiş sovet hərbi sərkərdələrinə, sovet döyüşçülərinə ucaldılmış abidələri məhv edirlər, bəzi ölkələrdə isə hətta faşist kollaborasionistlərinə və ya faşist rejiminin adi xadimlərinə heykəllər qoyulur, xatirə lövhələri vurulur. Siz buna necə baxırsınız?*

– Biz tarixi yenidən yazmaq, Böyük Vətən müharibəsi haqqında həqiqəti təhrif etmək, faşizmi və faşist canilərini qəhrəmanlaşdırmaq cəhdlərini qətiyyətlə pisləyirik. Azərbaycan bir sıra forumlarda bu mövzuda açıq çıxış edib, o cümlədən mən dəfələrlə öz mövqeyimi bildirmişəm. Deməliyəm ki, Azərbaycan cəmiyyəti bu mövqeyə tam şərikdir. Əlbəttə, bəzi ölkələrdə faşizmin qəhrəmanlaşdırılması prosesi bizim üçün əsla qəbuledilməzdir. Bilirsiniz, bir müddət əvvəl belə qənaətdə idik ki, sübut edilməsinə ehtiyac olmayan həqiqətlər var, Böyük Vətən müharibəsinin tarixi də belə həqiqətlərdən biri idi. Lakin təəssüf ki, bəzən müəyyən dairələrin tarixi həqiqəti təhrif etmək, İkinci Dünya müharibəsində Qələbədə Sovet İttifaqının rolunu azaltmaq və faşizmi qəhrəmanlaşdırmaq üçün əlaqələndirilmiş səylərinin şahidi oluruq. Ona görə bu meylə son qoyulmalıdır, biz bunu yalnız birgə səylərimizlə edə bilərik. O cümlədən Böyük Vətən müharibəsi dövründə baş vermiş hadisələr haqqında həqiqəti gənc nəslə çatdırmaq yolu ilə. Ona görə ki, onlar həqiqəti bilməlidirlər, vətənpərvərlik, əcdadlarının qəhrəmanlığı ruhunda tərbiyə olunmalıdırlar. Əlbəttə, bəzi ölkələrdə baş verənlər, İkinci Dünya müharibəsi iştirakçılarının abidələrinə qarşı vandalizm aktı, faşistlərə heykəllər qoyulması nifrət və ikrah hissi oyadır. Bunu keçmiş SSRİ məkanında, MDB məkanında görmək xüsusilə xoşagəlməzdir. Axı faşizm üzərində ümumi Qələbə naminə ən böyük qurban verən Sovet İttifaqı olub. Buna görə bu meyillər pislənməli, bu cəhdlərə son qoyulmalı və mənim fikrimcə, dünya liderləri bu barədə daha açıq danışmalıdırlar.

Bizə gəldikdə isə, qeyd etdiyim kimi, mən bu məsələləri dəfələrlə qaldırmışam, o cümlədən MDB ölkələrinin sonuncu Zirvə görüşündə müzakirə mövzularından biri məhz bizim Böyük Qələbə bayramına, Qələbənin yubileyinə hazırlıq məsələsi idi. Mən təəssüflə qeyd etdim ki, Ermənistanda faşist canilərinin qəhrəmanlaşdırılması həyat normasına çevrilir. Konkret misallarla göstərdim ki, bir neçə il bundan əvvəl Ermənistanda faşist cəllad və cani, Njde ləqəbi ilə məşhur olan Qaregin Ter-Arutyunyana 6 metr hündürlüyündə heykəl qoyulub. Bu adamın cinayətləri sübut olunub. Yeri gəlmişkən, Qələbənin 75 illiyi ərəfəsində həm Rusiya Federasiyası Xarici İşlər Nazirliyi, həm də Rusiya Federasiyası Müdafiə Nazirliyi tərəfindən dərc edilmiş sənədlər də buna sübutdur. Bu adam müharibə dövründə deyirdi: “Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur”. Bu adamın təxribatçılıq fəaliyyəti çoxsaylı insanın ölümünə gətirib çıxarıb və təsadüfi deyil ki, müharibə qurtarandan sonra o, SMERŞ tərəfindən həbs edilib, 25 il azadlıqdan məhrum edilib və Vladimir həbsxanasında ölüb. Belə bir adama Ermənistanda 6 metr hündürlüyündə heykəl qoyulur. Heykəlin açılışında bu ölkənin keçmiş prezidenti iştirak edir. Mən bu məsələni qaldırmaqla MDB üzrə həmkarlarımın diqqətini ona cəlb etmək istəyirdim ki, biz, ilk növbədə, özümüzdə, öz təşkilatımızda hər şeyi öz adı ilə adlandırmalıyıq, burada siyasi korrektlik, selektivlik prinsipini və ya kiminsə xətrinə dəyməmək istəyini rəhbər tutmamalıyıq. Biz həqiqəti deməliyik, əks halda, bu təşkilat formatında diskussiyalar, səmimi desək, mənasını itirər. Buna görə bu məsələni qaldıranda ümid edirdim ki, Ermənistanın yeni, özünü demokratik kimi göstərməyə çalışan rəhbərliyi mənim təşəbbüsümü dəstəkləyəcək. Lakin təəssüf ki, bunun əksini gördüm. Gördüm ki, Ermənistan nümayəndə heyətinin rəhbəri, baş nazir bu canini müdafiə etməyə başladı, dedi ki, nə olsun o, həbs düşərgələrində olub, Soljenitsın da həbs

düşərgələrində olub. Bilirsiniz, bu yerdə protokol qaydalarını pozdum, yenidən çıxış üçün söz aldım və dedim ki, Soljenitsını faşistlərin əlaltısı ilə müqayisə etmək həyasızlığın yüksək dərəcəsidir. Ona görə bütün bunlar böyük təəccüb, heyrət doğurur və belə bir fikrə əsas verir ki, Ermənistanda hakimiyyət dəyişə bilər, lakin rejimin mahiyyəti əvvəlki kimi qalır.

Yeri gəlmişkən deməliyəm ki, Rusiya Federasiyasının ərazisində, məsələn Armavir şəhərində də cinayətkar, faşistlərin əlaltısı Njdeyə xatirə lövhəsi vurulub. Yalnız mən bu məsələni dövlət başçılarının Zirvə görüşündə qaldırandan və bu məsələ kütləvi informasiya vasitələrində əksini tapandan sonra həmin lövhə götürülüb. Haqlı olaraq sual yaranır: Ermənistanda Böyük Vətən müharibəsi qəhrəmanları olmayıbmı? Bəs Armavirdə erməni kilsəsinin yaxınlığında nə üçün onlara yox, faşist caniyə xatirə lövhəsi vurulub? Bunu necə başa düşməli? Ona görə bu məsələlər geniş müzakirə edilməlidir. Yenə də hər bir ölkə bu məsələyə öz münasibətini selektivlik, siyasi korrektlik mülahizələrinə görə deyil, birbaşa və açıq şəkildə bildirməlidir. Ermənistanda bir tərəfdən deyirlər ki, onlar Qələbənin yubileyini bayram edəcəklər, amma digər tərəfdən faşistin abidəsi önünə gül qoyurlar. Bu, ən azı ziddiyyət, əslində isə riyakarlıq təzahürüdür.

*– Bu vəziyyəti belə qiymətləndirdiyinizə görə sağ olun, İlham Heydər oğlu. Mayın 4-də Sizin təşəbbüsünüzlə, – Azərbaycan hazırda Qoşulmama Hərəkatında sədrlik edir, – Qoşulmama Hərəkatının Zirvə görüşü keçirildi. Məsələn, mən həmin görüşü iştirakçıların tərkibinə, elə bu faktın özünə görə tarixi hadisə adlandıra bilərəm. Bu görüş koronavirusa qarşı mübarizə üzrə birgə qərarların, birgə ideyaların hazırlanmasına həsr edilmişdi. Zirvə görüşünə Siz sədrlik edirdiniz. Orada çoxsaylı ölkələrin, özü də Hindistan, Misir, İran və başqaları kimi aparıcı ölkələrin liderləri iştirak edirdilər. Bu görüş başa çatandan sonra Siz sədr kimi çəkici vuraraq Zirvə görüşünü yekunlaşdırdınız. İndi Zirvə görüşünü necə qiymətləndirirsiniz? Orada nə haqda razılığa gələ bildiniz? Bir daha təkrar edirəm, Zirvə görüşünün keçirilməsi özü tarixi faktdır, lakin praktiki baxımdan fikrinizi bilmək istərdim.*

– Siz tamamilə haqlısınız. Bu Zirvə görüşünü həqiqətən tarixi görüş adlandırmaq olar. Çünki əvvələn, o, yeni formatda, videokonfrans formatında keçirilirdi. İkincisi, Qoşulmama Hərəkatının Zirvə görüşləri bir qayda olaraq müəyyən dövriliklə keçirilir. Əgər bundan əvvəlki Zirvə görüşü keçən ilin oktyabrında Bakıda keçirilmişdisə, növbəti görüş 2022-ci ildə bizdən sonra sədrlik edəcək ölkədə keçirilməli idi. Buna görə Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın bu təşəbbüsü təbii ki, vaxtında irəli sürülmüşdü. Onu da deməliyəm ki, keçən ilin oktyabr ayında biz Qoşulmama Hərəkatında sədrliyi öz üzərimizə götürdük. Qeyd etməliyəm ki, Azərbaycan yekdilliklə Hərəkatın sədri seçilib, bu da çox əlamətdar amildir, çünki bildiyiniz kimi, Hərəkatda 120 ölkə iştirak edir və bu ölkələrin bəziləri arasında, yumşaq desək, gərgin münasibətlər var.

Lakin bizə göstərilən hörmət və etimad ona dəlalət edir ki, Azərbaycan beynəlxalq arenada çox böyük nüfuz qazana bilib. Bakı Zirvə görüşündə mən demişdim ki, biz öz sədrliyimizi heç də formal sədrlik hesab etmirik, biz səmərəli sədr olmaq istəyirik. Hərəkatın beynəlxalq arenada nüfuzunu və rolunu yüksəltmək, ölkələr arasında daha sıx birlik istəyirik, şərait yaratmaq istəyirik ki, bəzi ölkələr arasında mövcud fikir ayrılıqları, zəruri hallarda bizim də iştirakımızla nizamlansın. Mən, həmçinin dedim ki, Azərbaycan təkcə sədrlik dövründə deyil, bundan sonra da beynəlxalq arenada üzv ölkələrin mənafelərini müdafiə edəcək. Zirvə görüşünün baş tutması onu göstərir ki, əvvələn, biz öz sözümüzə sadiqik, ikincisi, bu Zirvə görüşünün keçirilməsinə böyük ehtiyac var idi. Buna görə də çıxış edənlərin əksəriyyəti Azərbaycanın bu təşəbbüsünün vaxtında irəli sürüldüyünü və vacibliyini qeyd etdilər. Həmçinin deməliyəm ki, aparıcı beynəlxalq təşkilatların rəhbərləri – Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antonio Quterreş, BMT Baş Assambleyasının prezidenti, Afrika İttifaqının sədri, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru və Avropa Komissiyasının vitse-prezidenti Zirvə görüşünün iştirakçılarını salamladılar. Bu məqamı xüsusi vurğulamalıyam. Mən Avropa Komissiyasının və Qoşulmama Hərəkatının hansısa vahid formatda iştirak etdiyi ikinci belə hadisəni xatırlamıram. İndiki halda bu cür birgə tədbir ona görə mümkün oldu ki, Azərbaycan Avropa İttifaqı ilə çox fəal əlaqə saxlayır, Azərbaycan beynəlxalq arenada çox böyük nüfuz qazanıb. Əlbəttə, bir məsələ də var ki, bizi ümumi bəla birləşdirir. Buna görə Zirvə görüşünün keçirilməsinin əsas məqsədi təşkilatın daxilində həmrəylik göstərmək, habelə aparıcı beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq idi.

Mənim təşəbbüsümlə biz dövlət və hökumət başçıları səviyyəsində BMT-nin koronavirusa həsr edilmiş xüsusi Baş Assambleyasının keçirilməsini təklif etdik. Hərəkatın üzvü olan ən həssas ölkələrə təxirəsalınmaz kömək göstərilməsi üçün biz Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar ayırdıq. Bu, bizim ikinci donor ianəmizdir. Bundan əvvəl mart ayında da qlobal pandemiyaya qarşı mübarizə üçün Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar ayırmışdıq. Qoşulmama Hərəkatında yaradılmış Təmas Qrupu formatı üzv ölkələr tərəfindən böyük dəstək alıb. Biz istiqamətlər üzrə yarımqruplar və COVID-19-a qarşı mübarizə üzrə vahid məlumat bazası yaradılmasını təklif etdik ki, həm Hərəkatın belə niyyəti olan üzvləri, həm beynəlxalq təşkilatlar, həm də donor təşkilatlar vaxtında yardım göstərmək üçün informasiya bazasına malik olsunlar. Mən deyərdim ki, Zirvə görüşünün keçirilməsinin əsas məqsədləri də, nəticələri də budur. Bir daha deməliyəm ki, bütün iştirakçılar bu görüşün vacibliyini, zəruriliyini

qeyd etdilər, bu təşəbbüsə görə Azərbaycana təşəkkürlərini bildirdilər.

Deməliyəm ki, bu, bizim keçirdiyimiz ilk Zirvə görüşü deyil. Hazırda Azərbaycan həm də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədridir və aprelin 10-da bu təşkilatın Azərbaycanın təşəbbüsü ilə keçirilmiş Zirvə görüşü faktiki olaraq dünyada videokonfrans formatında ilk Zirvə görüşü oldu. Biz iki ay ərzində çox mühüm iki beynəlxalq tədbir keçirdik, əminəm ki, onlar həmrəyliyi və əməkdaşlığı möhkəmlədəcək.

Qoşulmama Hərəkatının Zirvə görüşü ilə bağlı bir məqam da ondan ibarətdir ki, dediyim kimi, Qoşulmama Hərəkatında 120 ölkə, sədri məktubla müraciət etmiş Afrika İttifaqında 55 ölkə, ali nümayəndəsi bu tədbirdə iştirak edən Avropa İttifaqında 27 ölkə var. Buna görə təvazökarlıqdan kənar olsa da deməliyəm ki, Azərbaycan və Azərbaycanın təşəbbüsü praktiki olaraq bütün dünyanı birləşdirdi.

*– İlham Heydər oğlu, bu, həqiqətən belədir. Bir fikir də söyləmək istəyirəm ki, əlbəttə, Azərbaycanın sədrlik etməsi, Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatına müəyyən ianə verməsi faktları mühüm amildir. Lakin mənə belə gəlir ki, Azərbaycanın bu Zirvə görüşünü çağırmağa mənəvi haqqı daha bir səbəblə bağlıdır, obyektiv rəqəmlər göstərir və Ümumdünya Səhiyyə Təşkilatı da bunu sadəcə təsdiqləyir ki, bu dəhşətli pandemiya Azərbaycandan yan keçmədiyinə baxmayaraq, – hər halda, mən rəqəmlərə baxmışam, – ölkədə bu mübarizədə müəyyən uğurlar qazanılıb. Mənə belə gəlir ki, vəziyyəti yavaşıtmaq, müəyyən məqamda isə döndərmək mümkün olub. Hər halda rəqəmlər bunu deyir, ÜST də bunu təsdiq edir. Buna nəyin sayəsində nail olunub? Hansı səylər göstərilib? Çünki bu ümumi bəlanın öhdəsindən daha böyük dərəcədə gələn istənilən ölkənin təcrübəsi bu gün çox vacibdir.*

– Siz tamamilə haqlısınız. Son nəticələr barədə danışmaq hələ tezdir, lakin aralıq nəticələr göstərir ki, biz doğru yoldayıq. Yeri gəlmişkən, bizim təşkil etdiyimiz, həyata keçirdiyimiz bu işi Ümumdünya Səhiyyə Təşkilatı da qiymətləndirib. Bu təşkilatın Baş direktorunun mənə ünvanlanmış məktubunda Azərbaycan rəhbərliyinin gördüyü tədbirlər yüksək qiymətləndirilib, Azərbaycan nümunəvi ölkə, yəni bu bəlaya qarşı mübarizədə nümunə göstərən ölkə adlandırılıb.

Konkret tədbirlərə gəldikdə isə deməliyəm ki, biz lap əvvəldən Nazirlər Kabineti yanında Operativ Qərargah yaratdıq. Onun çox geniş səlahiyyətləri var və hər gün, hər saat mühüm təşkilati məsələlərlə məşğul olur. Mənim fikrimcə, bütün ölkələrin əsas vəzifəsi bu xəstəliyin inkişafını, onun geniş yayılmasını yavaşıtmaq idi. Bir sıra başqa ölkələr kimi, Azərbaycana da bu virus kənardan gətirilib. Buna görə qonşularla müvafiq məsləhətləşmələrdən sonra sərhədlərin bağlanması birinci mühüm addım oldu. Lakin sonra gördük ki, daxildə yoluxma prosesi gedir. Odur ki, mərhələli şəkildə məhdudlaşdırıcı tədbirlər tətbiq edildi. Biz həmin tədbirləri şəraitə uyğun olaraq tətbiq etdik və hadisələrin arxasınca getməyə yox, onları qabaqlamağa çalışdıq, əks halda, uğur qazana bilməzdik.

Biz dövlət xəstəxanalarının işini operativ surətdə tamamilə yeni formatda təşkil etdik. Bu gün 20-dən çox dövlət xəstəxanası koronaviruslu xəstələrin müalicəsi üçün təqdim edilib. O cümlədən, 575 çarpayılıq yeni ən müasir xəstəxana bütünlüklə koronaviruslu xəstələrə təqdim edilib. Biz operativ surətdə əlavə laboratoriyalar aldıq. Hazırda 23 bu cür laboratoriyamız var, lazım gəlsə yenə alacağıq. Milyon nəfərə düşən testlərin sayına görə Azərbaycan lider ölkələr sırasındadır. Biz 160 mindən çox test keçirmişik. Əlbəttə, bu, xəstəliyin yayılma ocaqlarının, o cümlədən regional baxımdan aşkar olunmasına kömək edir. Mayın 4-dən, bundan əvvəl isə aprelin 27-dən karantin rejimi müəyyən qədər yumşaldılmağa başlanıb. Bu, onunla bağlı idi ki, son 3 həftədə pozitiv dinamika müşahidə edirik, yəni sağalanların sayı yoluxanların sayından çoxdur. Biz həm də həkimlərimizə, tibb işçilərinə çox qayğı ilə yanaşırıq. Koronaviruslu xəstələrə xidmət edənlər üçün onların aylıq maaşından 3, 4, 5 dəfə yüksək xüsusi maaş əlavələri tətbiq edilib. Ona görə də bu məhdudlaşdırma tədbirlərinin, o cümlədən müalicə prosesinin düzgün təşkilinə yönəlmiş tədbirlər kompleksi sayəsində biz hələlik bu vəziyyətdən minimum itkilərlə çıxa bilirik.

Bizim tədbirlərə ictimai dəstəyin yüksək səviyyəsini də qeyd etmək istərdim. Mən hər gün yüzlərlə, bəzən minlərlə təşəkkür məktubu alıram. Bu məktublarda bütün kateqoriyalardan olan vətəndaşlar, balaca uşaqlardan başlamış uzunömürlülərə qədər təşəkkürlərini bildirirlər ki, biz hələlik bu vəziyyətdən şərəflə çıxırıq. Lakin biz onu da demişik ki, karantin rejiminin yumşaldılması tədbirlərinin vəziyyəti kəskin pisləşdirdiyini görsək, bu rejimi yenidən sərtləşdirməli olacağıq. Mən Azərbaycan xalqına müraciətlərimdə dəfələrlə demişəm ki, biz həmrəylik göstərdik, birlik göstərdik, indi biz həm də məsuliyyət və intizam göstərməliyik. Fikrimcə, bu iki istiqamət ayrıca müzakirə tələb edir, lakin düşünürəm ki, bütövlükdə vəziyyət hələlik nəzarət altındadır.

Onu da deməliyəm ki, biz pandemiyadan əziyyət çəkənlərə təqribən 2 milyard dollarlıq sosial-iqtisadi yardım paketi ayırmışıq. Bu paket, ilk növbədə, pandemiyadan əziyyət çəkən sahələrdə çalışan 700 minə yaxın insanı və mikrosahibkarları əhatə edir. Dövlət iki ay ərzində onların əməkhaqqının xeyli hissəsini ödəyəcək, çünki onlar praktiki olaraq işləmirlər. Bunlar 600 min aztəminatlı ailə və işsiz, hətta qeyri-formal sektorda məşğul olanlar, yəni əmək müqaviləsi olmayanlardır. Onlara 2 ay ərzində müəyyən məbləğ ödənilir ki, hətta əmək müqaviləsi olmayanlar da əməkhaqqı alsınlar. İndi bu adamlar qazancdan məhrum olublar.

Biz ünvanlı sosial yardım alan ailələrin sayını artıraraq 80 minə çatdırmışıq, belə ailələrin hər biri orta hesabla 222 manat, yəni 130 dollar alır. Bundan əlavə,

əməkhaqqı minimal səviyyədə, yəni 250 manat və ya təxminən 150 dollar səviyyəsində olmaqla, 90 min ödənişli ictimai iş yeri və 12 min özünüməşğulluq yeri yaradılır. Bu yerlər dövlət tərəfindən maliyyə və texniki kömək nəzərə alınmaqla cari ildə fəaliyyətə başlayacaq. Bu, həmin paketin yalnız bir hissəsidir. Vergi güzəştləri, vergi tətilləri də var. Yəni biz bu məsələyə çox geniş yanaşmışıq və ilk növbədə, insanları, onların sağlamlığını, həyatını qorumağa və ikinci növbədə iqtisadiyyatın inkişafını təmin etməyə çalışırıq.

*– İlham Heydər oğlu, bütün bunlar barədə danışarkən Sizin üçün əlbəttə, sirr deyil ki, indi ekspertlər, analitiklər, siyasətçilər tez-tez belə fikirlər səsləndirirlər: Allah qoysa, gec-tez pandemiya başa çatacaq. Lakin hələlik bütün proses yüksələn xətt üzrə gedir. Buna baxmayaraq, hamı deyir ki, dünya başqa cür olacaq. O, dəyişəcək, sosial baxımdan, iqtisadi baxımdan, müəyyən mənada mədəni baxımdan dəyişəcək. Azərbaycan son illərdə çoxsaylı iri tədbirlər – idman, mədəniyyət, siyasət, iqtisadiyyatla bağlı tədbirlər, müxtəlif forumlar keçirib. Bundan əvvəl dediklərinizin hamısı inkaredilməz faktlara, dəqiq rəqəmlərə əsaslanırdı. İndi mənim sualım fərziyyələr sahəsinə daha çox aiddir. Siz postpandemiya dövrünü necə təsəvvür edirsiniz? Biz hamımız həmin dünyada yaşamalı olacağıq. İndi xüsusilə gənclər bu cür suallar verirlər. Çünki onlar çoxsaylı psixoloji çətinliklərlə üzləşir, yaşlılar üçün isə bu, həm də fiziki xarakterli çoxsaylı risklər deməkdir. Siz postpandemiya dövründə dünyanı necə təsəvvür edirsiniz?*

– Bilirsiniz, bir sıra siyasi və ictimai xadimlər, həmçinin geniş beynəlxalq ictimaiyyət qeyd edir ki, dünya başqalaşacaq və artıq başqalaşıb. Biz də yeni iş formatına, yeni həyat formatına, özünütəcrid rejiminə tədricən alışırıq. Əlbəttə, əslində bu, xüsusən sərt karantin şəraitində insanların çoxunun həyat tərzinə də, onların psixoloji vəziyyətinə də ciddi təsir göstərir. Biz yaxşı başa düşürük ki, həftələrlə evdə oturmaq, evdən çıxmamaq fəal həyat tərzinə, fəal işləməyə adət etmiş insanlar üçün çox ciddi sınaqdır. Bəli, mən qeyd etdim ki, işini itirənlər üçün vəsait ödəyirik. Axı onlar üçün motivasiya təkcə əməkhaqqı deyildi. İnsanlar əslində, sevimli işindən məhrum olublar və əlbəttə ki, bu da onların psixoloji vəziyyətinə ciddi təsir göstərə bilər. Buna görə dünyanın gələcəkdə necə olacağını güman etmək çətindir.

Beynəlxalq tədbirlər keçirilməsinə gəldikdə, mənim dediyim iki Zirvə görüşü göstərdi ki, biz bu formatda da işləyə bilərik. Əlbəttə, ünsiyyət çatışmazlığını hiss edirik. Əgər biz Zirvə görüşünü adi rejimdə keçirsəydik, bu, əlbəttə, 2 gün, bəlkə də 3 gün davam edərdi, çoxsaylı ikitərəfli görüşlər, çoxlu mədəni tədbirlər olardı. Amma, məsələn, mayın 4-də Zirvə görüşü fasiləsiz olaraq altı saat yarım davam etdi. Sədr kimi mənim həmin görüşü tərk etmək imkanım yox idi. Əlbəttə, bu formatda yaşamağa öyrəşmək lazımdır.

Beynəlxalq forumlara gəldikdə, siz tamamilə haqlı olaraq qeyd etdiniz ki, Azərbaycan, ilk növbədə, humanitar əməkdaşlıq üçün artıq mühüm məkana çevrilib. Rusiya və Azərbaycan prezidentlərinin himayəsi ilə keçirilən və formalaşmasında şəxsən siz, Mixail Solomonoviç, çox böyük rol oynadığınız Bakı Beynəlxalq Humanitar Forumu da, Mədəniyyətlərarası Dialoq Forumu da, keçirilməsi bu gün təxirə salınmış bir sıra başqa tədbirlər də sual doğurur – biz onları necə keçirəcəyik? Beynəlxalq forumları, diskussiyaları videokonfrans rejimində keçirməyə imkan olacaqmı – bütün bunlar gələcəyin məsələləridir. Lakin bir şey aşkardır ki, koronavirus üzərində qələbədən sonra sırf işçi baxımdan, psixoloji baxımdan bu vəziyyətdən çıxmaq üçün hələ uzun müddət lazım gələcək. Bunun nə qədər davam edəcəyini demək çox çətindir. Lakin mənim fikrimcə, əsas məqam, o cümlədən beynəlxalq siyasət məsələlərində əməkdaşlığın müsbət təcrübəsini qoruyub saxlamaqdır ki, bu müvəqqəti ayrılıq ölkələri bir-birindən ayırmasın. Biz dialoqu davam etdirək, videokonfrans formatında işləyək. Yeri gəlmişkən, mən həmkarlarımla videokonfrans formatında bir neçə görüş keçirmişəm. Əlbəttə, forma fərqli olacaq, lakin əsas məsələ müsbət məzmunu saxlamaq və pandemiya nəticəsində gördüyümüz müsbət məqamların sayını artırmaqdır. Ola bilsin, bunlar hələ ilk təzahürlərdir, lakin həmrəylik, hətta münasibətləri gərgin olan ölkələr arasında da əməkdaşlıq elementləri görünür.

*– İlham Heydər oğlu, Siz dediniz ki, bütün bu çətinliklərə baxmayaraq, əməkdaşlığı inkişaf etdirmək, möhkəmləndirmək zəruridir. Məhz bu baxımdan mən istərdim ki, Rusiya Prezidenti Vladimir Putin ilə Sizin münasibətləriniz məsələsinə toxunaq, Sizin aranızda kifayət qədər sıx şəxsi yoldaşlıq münasibətləri, necə deyərlər, "personal chemistry" yaranıb. Siz Rusiyaya səfərlər etmisiniz, Putin Azərbaycanda olub. Bu şəraitdə Sizə elə gəlmirmi ki, Sizin fikrinizin davamı kimi məhz yeni şəraitdə yeni həllər və əməkdaşlığın yeni formatını tapmaq üçün bu əlaqələri daha da intensivləşdirmək lazımdır?*

– Bəli, siz tamamilə haqlısınız, biz bu məsələ üzərində işləyirik, hətta pandemiya şəraitində də fasiləsiz nəqliyyat daşımaları həyata keçirilir. Biz tranzit-logistika sahəsində işləri intensivləşdirmək barədə razılığa gəlmişik. Ölkələr arasında, Rusiya ilə Azərbaycan arasında əmtəə dövriyyəsinə gəldikdə isə əlbəttə, pandemiya mənfi təsirini göstərir. Lakin əminəm ki, biz müsbət əməkdaşlığı qoruyub saxlayacaq və genişləndirəcəyik.

Siz qeyd etdiyiniz kimi, Rusiya Federasiyasının Prezidenti ilə biz həm Rusiyada, həm də Azərbaycanda yetərincə tez-tez görüşürük. Sonuncu görüşümüz keçən ilin axırında Peterburqda olub, bundan əvvəl Soçidə. Mən "Valday" Diskussiya Klubuna dəvət edilmişdim. Buna görə bizim ünsiyyətimiz və görüşlərimiz qarşılıqlı

əlaqələrimizin inkişafına çox müsbət təkan verir və tabeliyimizdə olanlara verdiyimiz göstərişlər, təlimatlar həyata keçirilir.

Qarşılıqlı siyasi əlaqələrimiz çox yüksək səviyyədədir. Əlbəttə, pandemiya olmasaydı, biz əmtəə dövriyyəsini daha da artırardıq. Lakin əminəm ki, iqtisadi əlaqələrimiz lazımi səviyyədə olacaq. Bizim nəqliyyat-logistika sahəsində də böyük planlarımız var. Bu gün bizim fəal istifadə etdiyimiz Şimal-Cənub dəhlizi ilə yanaşı, Rusiyanın Şimal-Qərb nəqliyyat dəhlizinə qoşulması da bizi sevindirir. Rusiyalı yükgöndərənlər Azərbaycandan Avropa istiqamətinə gedən bu marşrutdan istifadə edirlər. Elektroenergetika sahəsində elektrik enerjisi mübadiləsi, habelə çoxtərəfli əməkdaşlıq baxımından böyük potensial var. Biz yüksəkvoltlu elektrikötürmə xətləri ilə bağlıyıq.

Neft-qaz sahəsində də vəziyyət yaxşıdır. Bəlkə də çoxları bilmir, lakin Xəzər dənizinin Rusiya sektorunda Rusiya şirkətləri tərəfindən hasil edilən neftin bir hissəsi Azərbaycanın nəqliyyat infrastrukturu vasitəsilə nəql edilir. Yəni, burada əməkdaşlıq yüksələn xətt üzrə davam edir.

Əlbəttə, Rusiya Prezidenti ilə birlikdə humanitar sahədə həmişə həyata keçirdiyimiz əməkdaşlığı da hökmən qeyd etmək lazımdır. Düşünürəm ki, bu, qonşular arasında əməkdaşlığın nümunəsidir. Rusiyada da bunu çox yüksək qiymətləndirirlər ki, Azərbaycanda tədrisin rus dilində olduğu 330-dan çox məktəb var. Rusiyanın aparıcı ali məktəblərinin filialları, yetərincə zəngin mədəni proqram və əlbəttə, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində yenidən qurulmuş “Azərbaycan” pavilyonunun təntənəli açılışı da dostluq münasibətlərinin rəmzidir.

Əlbəttə, biz təəssüflənirik ki, pandemiya turizm sektoruna çox güclü zərbə vurub. Ona görə ki, keçən il bir milyona yaxın rusiyalı Azərbaycana səfər edib. Biz bu il də rusiyalı turistlərin sayının artacağına ümid edirdik. Lakin hər şeyin qaydaya düşəcəyi və insanların yenidən bir-birini ziyarət etməyə başlayacağı vaxtı gözləyək. Siz tamamilə haqlısınız, biz vaxtı itirməməliyik, bu il görüləsi işlər hələ çoxdur. Biz daim əlaqə saxlayırıq və yaxın dostlar, tərəfdaşlar kimi işləyirik.

*– İlham Heydər oğlu, bilirsiniz, pandemiyadan sonrakı dövrdən söhbət düşəndə enerji sahəsi ayrıca mövzudur. Əlbəttə, indi xəbərlərin bütün gündəliyi pandemiya ilə bağlıdır. Lakin hələ yaxın vaxtlarda neftin qiymətləri mövzusu da buraya əlavə olunurdu. Dünya təlatümdə idi, hamı hansısa detektiv kimi neftin qiymətinin az qala mənfiyə keçməsini izləyirdi. Bütün insanlar neft sahəsində mütəxəssislərə çevrilmişdi. Azərbaycan tarixən neft hasil edən ölkədir, lakin bununla bərabər, Siz artıq neçə illərdir deyirsiniz ki, Azərbaycan neftdən asılılıqdan xilas olmalıdır. Bununla əlaqədar mən neftin qiymətlərini qabaqcadan söyləməyə hazır deyiləm, ama asılılıqdan yaxa qurtarmaq baxımından Siz iqtisadiyyatın hansı sahələrinə bel bağlayırsınız, postneft dövründə Azərbaycanı necə təsəvvür edirsiniz?*

– Siz tamamilə haqlısınız. Mən bu mövzunu çox fəal şəkildə qaldırmışam və qaldırıram. Bu istiqamətdə müəyyən addımlar atılır. Onu demək kifayətdir ki, bu ilin birinci rübündə qeyri-neft-qaz sektorunda sənaye məhsulları istehsalının həcmi 23 faiz artıb. Bu, mütləq rekord göstəricidir. Mənim fikrimcə, pandemiya şəraitində bu rəqəm, əlbəttə, bizim apardığımız işə hörmət doğurur. Buna görə qeyri-neft sektoruna oriyentasiya bizim əsas prioritetimiz olub və yenə belədir. Dəfələrlə dediyim kimi, biz neft sektorunu yaddan çıxarmalıyıq. Demək olar ki, bu gün neftin bu qiymətləri ilə postneft dövrü, əslində, başlanıb. Buna görə Azərbaycan iqtisadiyyatının artımının əsas hərəkətverici qüvvəsi onun aşkarlığı olacaq. Bu istiqamətdə – iqtisadiyyatın kölgədən çıxarılması üçün çox iş görülür. Təəssüf ki, bu problem bizim üçün hələ də aktualdır. Burada qeyri-formal məşğulluqdan başlamış vergi ödəməkdən yayınmağa qədər bütün məsələlər bir-biri ilə sıx bağlıdır. Bizim gördüyümüz tədbirlər öz nəticələrini verir. Həm keçən il, həm də bu il biz büdcəni, əsasən, iqtisadiyyatın kölgədən çıxarılması hesabına artırırıq. Yəni, bu, əsas hərəkətverici amil olacaq.

İqtisadiyyatın sahələrinə gəldikdə, əlbəttə, mən, ilk növbədə, kənd təsərrüfatını qeyd edərdim, orada çox böyük potensial var və bu sahəyə çox böyük investisiyalar yatırılıb. Artım da kifayət qədər ciddidir. Nəqliyyat-logistika sahəsi. Azərbaycan ərazisində bütün nəqliyyat-kommunikasiya layihələri praktiki olaraq başa çatdırılıb. Ölkəmiz Şərq-Qərb nəqliyyat dəhlizində fəal iştirak edir. Bu, “Bir kəmər, bir yol” təşəbbüsü, Şimal-Cənub dəhlizi, həmçinin artıq qeyd etdiyim Şimal-Qərb dəhlizi layihəsidir. Odur ki, nəqliyyat-logistika infrastrukturunun yaradılması başa çatdırılıb və bu gün biz daşımaları artırmaq, Azərbaycanın tranzit imkanlarını genişləndirmək üçün tərəfdaşlarımızla, qonşularımızla işləyirik.

Biz turizmə böyük diqqət yetirirdik və yenə belədir. Bu sektor çox perspektivli idi. Son 4 ildə turistlərin sayı hər il 10 faizdən 24 faizə qədər artıb. Müasir turizm infrastrukturu yaradılıb. Lakin əlbəttə, pandemiya bu sektora çox güclü zərbə oldu. İndi biz daxili turizmin stimullaşdırılması barədə düşünürük. Xüsusən ona görə ki, Azərbaycanın milyonlarla vətəndaşı il ərzində, o cümlədən istirahət üçün ölkədən kənara gedir. Onlar sərhədlərin bağlanmasını nəzərə alaraq yəqin ki, bu il yayda daxili turizmə istiqamətlənəcəklər.

Əlbəttə, informasiya-kommunikasiya texnologiyaları sektorunu da qeyd etməliyəm. Burada da yaxşı təməl yaradılıb. Üç süni peyki olan Azərbaycan artıq kosmik klubun üzvüdür. İKT sektoru çox fəal inkişaf edir və bu sahədə çox ciddi artım var. Ona görə düşü-

nürəm ki, bu istiqamətlər bundan sonra da mühüm rol oynayacaq. Əlbəttə, iqtisadiyyatın qlobal məsələlərinə bir daha qayıdaraq deməliyəm ki, bu, həm yerli, həm də əcnəbi investorlar üçün biznes mühitinin yaxşılaşması və kiçik sahibkarlığa dəstək deməkdir. Biz hazırda bu istiqamətdə böyük addımlar atırıq. Bu, həm məşğulluğu, həm də iqtisadiyyatın şaxələndirilməsini təmin edəcək. İnkişaf etmiş ölkələrin təcrübəsinə əsasən bilirik ki, orada ümumi daxili məhsulun yarıdan çoxu kiçik və orta biznes hesabına formalaşır. Biz də buna çalışmalıyıq.

*– İlham Heydər oğlu, bilirsiniz ki, hazırda müzakirə edilən və pandemiya ilə bağlı daha bir məsələ beynəlxalq təşkilatların effektivliyi məsələsidir. Siz Qoşulmama Hərəkatının pandemiyaya həsr edilmiş tarixi Zirvə görüşünün uğurla keçməsindən danışdınız. Lakin indi bəzi siyasətçilər Birləşmiş Millətlər Təşkilatının ünvanına çoxlu tənqidi sözlər söyləyirlər. BMT-nin təsisatı olan Ümumdünya Səhiyyə Təşkilatı ciddi tənqidə məruz qalıb. Azərbaycan əksər beynəlxalq təşkilatların inamlı və fəal iştirakçısıdır. O, Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olub. Azərbaycan Müstəqil Dövlətlər Birliyi, ATƏT və digər təşkilatlar sistemində fəal işləyir. Sizin fikrinizcə, əvvələn, beynəlxalq təşkilatların ünvanına bu tənqid nə dərəcədə ədalətlidir, beynəlxalq təşkilatlar bu ümumi bəlaya nə dərəcədə hazır oldular, digər tərəfdən, Siz necə hesab edirsiniz, onların hazır olmaları üçün beynəlxalq təşkilatlarda islahatlar, qarşılıqlı fəaliyyətin hansısa yeni variantları tələb olunurmu? Axı, həmişə nəyisə gözləmək lazım gəlir.*

– Bilirsiniz, mənim fikrimcə, bu istiqamətdə əsas amil ayrı-ayrı ölkələrin iradəsidir. Ona görə ki, beynəlxalq təşkilatlar ölkələrdən ibarətdir və ölkələr bu təşkilatlara nümayəndələrini göndərirlər, ölkələr öz mənafelərini bu beynəlxalq təşkilatlar çərçivəsində müdafiə edirlər. Beynəlxalq təşkilatlara rəhbərlik edən insanlar beynəlxalq məmurlardır. Əlbəttə, onlar kiminsə xoşuna gələcək, kiminsə xoşuna gəlməyəcək məsul qərarlar qəbul etməli olanda üzləşdikləri çətinlikləri anlamaq lazımdır. Buna görə onların diplomatiya məharəti də çox cəhətdən bu və ya digər beynəlxalq təşkilatın nüfuzunu müəyyən edir.

Azərbaycana gəldikdə, bizim üzv olduğumuz bütün təşkilatlarda məhz ona görə iştirak edirik ki, bu təşkilatı gücləndirək, çünki biz onun üzvüyük, həmçinin bu təşkilatda fəaliyyətimiz çərçivəsində öz milli maraqlarımızı maksimum təmin edək. Lakin biz, ilk növbədə, üzv ölkələrin daha böyük etimadını qazanmağa çalışırıq və həyata keçirdiyimiz təşəbbüslər buna istiqamətlənib. Məsələn, Qoşulmama Hərəkatının üzvləri olan ölkələrə Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə maliyyə yardımı göstərmək təşəbbüsü konkret nümunədir.

Təəssüf ki, beynəlxalq təşkilatlarda sözçülük çox geniş yayılıb, özü də ilbəil bir məruzədən digərinə köçürülən və arxasında heç bir əməli iş dayanmayan şablon sözlər. Həm də, əlbəttə, istənilən beynəlxalq təşkilat qüdrətli ölkələrdən, ortabablardan və hələ bir qədər böyüməli olan ölkələrdən ibarətdir. Ona görə burada bütün ölkələrin maraqlarının nəzərə alınması da vacibdir ki, böyük maliyyə, siyasi və digər resursları olmayan ölkələr özlərini aldadılmış, ikinci dərəcəli üzvlər kimi hiss etməsinlər. Buna görə hesab edirəm ki, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı hörmət mühüm prioritetlərdən biridir. Əlbəttə, bütün dünyanı, yaxud Qoşulmama Hərəkatı kimi 120 ölkəni birləşdirən qlobal beynəlxalq təşkilatlar çərçivəsində buna nail olmaq daha yığcam təşkilatlarla müqayisədə çətindir. Lakin hesab edirəm ki, bu, siyasətçilər üçün əsas ruhlandırıcı amil olmalıdır.

Bir də, əlbəttə, beynəlxalq təşkilatın nüfuzu çox cəhətdən onun qəbul etdiyi qərarların yerinə yetirilməsindən asılıdır. Deməliyəm ki, burada da islahatlar üçün yer çoxdur. Hətta BMT Təhlükəsizlik Şurasının neçə illər bundan əvvəl qəbul etdiyi qətnamələr yerinə yetirilmir və Azərbaycan bunu öz timsalında yəqin edib. Otuz ilə yaxındır ki, erməni işğalçı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılması barədə BMT Təhlükəsizlik Şurasının qətnamələri yerinə yetirilmir və təcavüzkara qarşı, bu qətnamələri pozana qarşı heç bir sanksiya tətbiq edilməyib. Buna görə hökmən cəza mexanizmi olmalıdır. Əgər beynəlxalq təşkilat icrası zəruri olan qərar qəbul edirsə, bu qərar yerinə yetirilməlidir. Qərarı pozan üzv barəsində isə bir neçə mərhələdən ibarət prosedur olmalıdır, lakin bu prosedur yoxdur. Mənim fikrimcə, beynəlxalq təşkilatlara münasibətdə müəyyən ümidsizlik doğuran əsas amillər bunlardır. Sizə səmimi deməliyəm, bəzən beynəlxalq hüquqa zidd olan hərəkətlər müşahidə edirik, bu isə əlbəttə, beynəlxalq təşkilatların nüfuzunu artırmır və ümumiyyətlə müasir dünya nizamını şübhə altına alır. Ona görə ki, beynəlxalq hüquq hər kəs üçün prioritet olmalıdır və ölkələr onların potensialından, imkanlarından asılı olmayaraq beynəlxalq hüquqa hörmət etməyə borcludurlar. Amma biz bəzən beynəlxalq hüququn kobudcasına, nümayişkaranə şəkildə pozulduğunu görəndə sual yaranır: bəs biz nə üçün ona riayət etməliyik? Əgər başqaları onu pozmağı özlərinə rəva görə bilirsə, biz nə üçün poza bilmərik? Mən demirəm ki, biz bu yolla gedirik. Xeyr. Azərbaycan həmişə qanunun aliliyini və beynəlxalq hüququn aliliyini əsas götürür. Lakin haqlı olaraq, bu cür suallar yaranır və əlbəttə, onlara birgə cavablar axtarmaq lazımdır.

*– İlham Heydər oğlu, Sizdən praktiki məsləhət istəyirəm. Bilirsiniz, dövlət başçısı kimi sanki mürəkkəb şəraitə düşmüsünüz. Siz, bir tərəfdən, karantinə riayət etməlisiniz və bilirəm ki, bir vətəndaş kimi adi təhlükəsizlik mülahizələrinə əsasən buna riayət edirsiniz. Amma digər tərəfdən televizora baxanda görürük ki, Sizin dövləti fəaliyyətinizin intensivliyi əsla azalmır. Siz*

*bunları əlaqələndirməyə necə nail olursunuz? Digər tərəfdən Siz həmişə fiziki formanızı saxlamağa böyük diqqət yetirirsiniz və yəqin ki, bunu tez-tez edirsiniz. Öz həmvətənlərinizə, bizim televiziya tamaşaçılarına məsləhət verin: karantin şəraitində belə fiziki formanı necə saxlayırsınız?*

– Fiziki formanı ev şəraitində də saxlamaq olar. Bu gün bu, artıq heç kəs üçün sirr deyil. İdman zalına getmədən evdə idmanla fəal məşğul olmağın mümkünlüyünü göstərən informasiya resursları çoxdur. Mən ilk gənclik illərimdən bəri idmanla məşğulam və əlbəttə, bütün qaydalara riayət edirəm. Hesab edirəm ki, idmanla məşğul olmaq hər kəsdən ötrü həm sağlamlıq, həm özünəinam, həm də iş qabiliyyəti üçün mühüm amillərdən biridir. Mən gənclərə və orta yaşlı insanlara müraciətlə dəfələrlə demişəm, idmanla məşğul olun. Bəzən bunu çox təkrar edirəm, lakin insanların buna əməl etmələri üçün təkrarlamaq lazımdır. Yadımdadır, biz xəstəxanaların tikintisini genişləndirməyə başlayanda mən dəfələrlə təkrar edirdim ki, hər kəs tibbi müayinədən keçməlidir. Biz bunu – kütləvi pulsuz dispanserizasiyanı həyata keçiririk. Yeri gəlmişkən, bu il pandemiya ucbatından onu keçirmədik. Beş milyondan çox insan öz sağlamlığını yoxlamaq üçün gəlir. İdmanda da belə olmalıdır. Mən deyirəm: idmanla məşğul olun, faydasını görəcəksiniz, sizin fiziki formanızın, əhvalınızın, iş qabiliyyətinizin necə yaxşılaşacağını görəcəksiniz. Buna görə indi mən imkanı olmayanların hamısına məsləhət görürəm: internet resurslarından istifadə edin, orada idmanla evdə məşğul olmaq üçün çoxlu məsləhətlər, çoxlu proqramlar var.

Karantin rejiminə gəldikdə isə, mən prinsip etibarilə intizamlı adamam. Buna görə mənim ictimai tədbirlərimdə ən çoxu 9 nəfər olur. Bizdə on nəfərdən çox adamın bir yerdə toplaşması qadağandır. Lakin mən ehtiyat üçün həmişə deyirəm, 9 nəfərdən çox olmamalıdır. Ən çoxu 10 və ya 9 nəfər. Bir də, əlbəttə, məsafəyə riayət edirəm. İctimai xarakterli tədbirlərdə də, görüşlərdə də belə olub. İlin birinci rübünün yekunlarına həsr olunmuş iclası videokonfrans rejimində keçirdik. Amma deməliyəm ki, bu iclas əvvəl keçirdiklərimizdən o qədər də fərqlənmədi. Mənim tabeliyimdə olan işçilərlə söhbətlərim də videokonfrans formatında keçirilir. Yəni, insan prinsip etibarilə hər şeyə alışır. Buna da vərdiş etmək lazımdır. Amma sualınıza görə sağ olun. Fürsətdən istifadə edib, bir daha hamıya müraciət edirəm: idmanla məşğul olun, özü də müntəzəm surətdə.

*– İlham Heydər oğlu, gələcəkdə pandemiyanın başa çatmasından danışarkən Siz, mənim fikrimcə, çox düzgün, dəqiq bir söz işlətdiniz: Qələbə. Yəqin bilirsiniz, bəlkə də görmüsünüz: TASS agentliyinin fotomüxbiri Yevgeni Xaldeyin "Reyxstaq üzərində Qələbə bayrağı" adlı fotoşəkli var. Bizim TASS agentliyi pandemiya üzərində qələbənin rəmzi olacaq gələcək fotoqrafiya üçün ümumdünya müsabiqəsi elan edib. Sizin fikrinizcə, həmin fotoqrafiyada nə ola bilərdi?*

– Əlbəttə, çox yaxşı təşəbbüsdür. Buna görə sizə təşəkkür etmək istərdim. Mənim fikrimcə, bu müsabiqə təkcə rəssamların yox, hamının böyük marağına səbəb olacaq. Ona görə ki, bu gün bu mövzu hər kəsi narahat edir və hər kəsi bu xəstəliyə qalib gəlmək istəyi, öz yaxınlarını xəstəliyin ağır fəsadlarından qorumaq istəyi birləşdirir. Buna görə düşünürəm ki, həmin fotoqrafiya və ya simvol bu cür birləşdirici xarakter daşımalıdır. Bir də, şübhəsiz, dünya pandemiyaya qalib gələndə bunun rəmzi insan, onun zəkası olmalıdır. Ona görə ki, vaksin icad ediləndə insanın zəkası bu xəstəliyə qalib gələcək. İnsanın iradəsi. Ona görə ki, çətin dövrdə çox məsələləri məhz iradə qüvvəsi həll edir. Əlbəttə, mərhəmət hissi də. Ona görə ki, vəziyyətin çox mürəkkəb olmasına, çoxsaylı insan tələfatına baxmayaraq, mənim fikrimcə, ictimai şüurda mərhəmət səviyyəsi xeyli yüksəlib, insanlar anlayırlar ki, təbiətin və Allahın qarşısında hamı bərabərdir, hər kəs öz yaxınları qarşısında məsuliyyət göstərməli və özünü ləyaqətlə aparmalıdır. Buna görə mövzular palitrası bir qədər geniş ola bilər, lakin əminəm ki, bu müsabiqə bir simvolika ilə kifayətlənməyəcək. Düşünürəm ki, burada ən yaxşı duyğular, ən yaxşı arzular, insanın və insanlığın ən yaxşı keyfiyyətləri cəmləşməlidir.

*– Çox sağ olun, İlham Heydər oğlu. Allahın izni ilə və necə deyərlər, böyük dünya elminin köməyi ilə pandemiya üzərində o qələbə gününə qədər yaşamaq lazımdır. Faşizm üzərində Böyük Qələbə bayramı isə bu günlərdə qeyd ediləcək. Sizinlə bizim söhbətimizi milyonlarla rusiyalı görəcək və düşünürəm ki, bu söhbəti görənlər təkcə rusiyalılar olmayacaq. Sizdən bir xahiş edə bilərəmmi: mayın 9-da Moskvada olsaydınız, deyəcəyiniz sözlərlə müraciət edin.*

– Mən bizim hamımızı, veteranları, bugünkü nəsli, gəncləri təbrik etmək istəyirəm. Bu, sovet xalqının qələbəsi, Sovet İttifaqının tarixi əhəmiyyət kəsb edən qələbəsidir. Bu qələbəyə keçmiş Sovet İttifaqının hər bir xalqı dəyərli töhfə verib. Söhbətimizin əvvəlində qeyd etdiyimiz kimi, qəhvəyi taun milyonlarla insanın həyatı bahasına məğlub edilib. Buna görə mən, ilk növbədə, veteranlara dərin hörmətimi, həlak olanların xatirəsinə ehtiramımı bildirirəm. Bu gün biz onların sayəsində yaşayırıq, müstəqil dövlətlərdə yaşayır və öz taleyimizi qururuq.

Əlbəttə, gənc nəslə müraciətlə demək istərdim ki, onlar öz əcdadları kimi fədakarcasına, yüksək vətənpərvərlik hissi ilə yaşamağı, mübarizə aparmağı öyrənsinlər, qəhrəmanlıq göstərsinlər, öz Vətənini müdafiə edərkən canlarını, həyatlarını əsirgəməsinlər. Bu, elə bayramdır ki, biz onu daim qeyd etməliyik. Bu, elə bayramdır ki, bütün mütərəqqi bəşəriyyəti, bütün sülhsevər insanları birləşdirir. Əlbəttə, sizinlə artıq müzakirə etdiyimiz kimi, biz tarixi yenidən yazmaq, Böyük Vətən müharibəsi haqqında həqiqəti təhrif etmək cəhdləri ilə

barışmamalıyıq. Buna görə mən bütün veteranlara, bu gün sırada olanların hamısına bu cür arzularla müraciət edirəm, Allah onlara uzun və sağlam ömür versin.

*– Hörmətli İlham Heydər oğlu, bu söhbətə görə çox sağ olun. Sizi qarşıdan gələn Qələbə bayramı münasibətilə təbrik edirəm. Sizə arzum budur ki, Azərbaycan Sizin rəhbərliyinizlə bu pandemiya üzərində tezliklə qələbə qazansın. Sizə ən xoş diləklərimizi bildirirəm. Çox sağ olun.*

## *Rusiyanın nüfuzlu "Natsionalnaya oborona" ("Milli müdafiə") jurnalının may buraxılışında İlham Əliyevin müsahibəsi dərc olunub*

*- İlham Heydər oğlu, qarşıdan Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi gəlir. Bu ümumi Qələbəyə Azərbaycanın töhfəsi nədən ibarət olub, Azərbaycanda yaşayan Böyük Vətən müharibəsi iştirakçılarını necə şərəfləndirmək planlaşdırılır?*

– Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi yaxınlaşır. Biz tarixdə bu əlamətdar günə qayğı ilə yanaşır, döyüş meydanında və arxa cəbhədə qələbəyə töhfə verənlərin xatirəsini ehtiramla yad edir, öz həyatları bahasına dünyanı faşizmdən xilas etmiş zabit və əsgərlərin igidliklərinə hörmətimizi bildiririk.

Azərbaycan bizim ümumi qələbəmizə böyük töhfə verib. Azərbaycanın 600 mindən çox nümayəndəsi müharibədə iştirak edib, onlardan 300 mini həlak olub, 120-dən çox Sovet İttifaqı Qəhrəmanı əslən Azərbaycandandır, bizim 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib.

Qızıl Ordu üçün neftin 70 faizini, yanacağın 80 faizini və sürtkü yağlarının 90 faizini Azərbaycan təchiz edib, bunlar olmasaydı, müharibədə qalib gəlmək mümkün olmazdı. Təsadüfi deyil ki, faşist Almaniyası Bakını tutmağa can atırdı. Yeri gəlmişkən, mən bu barədə 2019-cu ilin oktyabrında MDB-nin Aşqabad Sammitində demişdim: məlum kadrlar var, orada Hitlerə üzərində alman dilində "Xəzər dənizi" sözləri yazılmış tort verirlər (Xəzər dənizinin sərhədlərinə qara rəngli şokolad süzülüb), o, svastikanı əlinə götürür və "Bakı" sözü yazılmış yerə qoyur. Bu, faşistlərin Azərbaycanın neft yataqlarını tutmaq planını vurğulayır.

Bizim müəssisələrdə gecə-gündüz hərbi texnika, o cümlədən məşhur "Katyuşa" raketləri istehsal edilirdi.

Azərbaycan elminin nümayəndələri də bizim ümumi qələbəmizə sanballı töhfə veriblər. Bunu bilən azdır, amma böyük Azərbaycan alimi Yusif Məmmədəliyev sonradan "Molotov kokteyli" adı ilə məşhurlaşmış yandırıcı qarışıq ixtira etmişdi.

Azərbaycanda formalaşdırılmış 416-cı Qırmızı Bayraqlı Taqanroq diviziyası Qafqazdan Berlinə qədər şanlı döyüş yolu keçib. Böyük Vətən müharibəsi cəbhələrində ləyaqətlə döyüşən, Azərbaycanın bayrağını uca tutan, xalqımıza xas olan vətənpərvərlik, cəsarət, doğma torpağın müdafiəsində dönməzlik kimi ən yaxşı keyfiyyətləri nümayiş etdirən bu diviziyanın döyüşçülərinin igidliyi və şücaəti ilə ölkəmizdə fəxr edirlər.

Bu ilin mart ayında Rusiya Federasiyasının Rostov vilayətinin qubernatoru Vasili Qolubevin başçılığı ilə nümayəndə heyəti Azərbaycana səfər etmişdi. Onlarla görüş zamanı mənə 1980-ci ildə o dövrdə Azərbaycanın rəhbəri olmuş ümummilli lider Heydər Əliyevin Rostov vilayətinə səfərinə həsr edilmiş bir videoalbom verdilər.

Heydər Əliyev həmin səfər zamanı Rostov vilayətinin faşizmdən azad edilməsinin rəmzi olan və müstəsna igidliklər göstərmiş 130-cu və 416-cı Azərbaycan atıcı diviziyalarının əsgərlərinin qəhrəmanlığına həsr edilmiş "Sambek yüksəklikləri" memorialının açılışında iştirak edib.

İndi həmin memorialın yanında "Sambek yüksəklikləri" adlı xalq hərbi-tarixi muzey kompleksi yaradılır. O görüşdə qeyd edilmişdi ki, bu il həmin kompleksin açılışı planlaşdırılır. Rusiya tərəfinin 416-cı Taqanroq diviziyasının əsgər və zabitlərinin xatirəsini və igidliklərini ehtiramla yad etməsini biz çox yüksək qiymətləndiririk.

Bu gün Böyük Vətən müharibəsi veteranları Azərbaycanda dövlət tərəfindən böyük dəstək alır. Biz onların qəhrəmanlığını həmişə xatırlayırıq. Hər il mayın 9-da mən bu böyük tarixə həsr edilmiş təntənəli tədbirdə onlarla görüşürəm, biz həlak olanların xatirəsini birlikdə yad edir, onların məzarları üzərinə gül-çiçək, əklillər qoyuruq. Lakin təəssüf ki, müstəqilliyin ilk illərində vəziyyət belə deyildi. Özünü Xalq Cəbhəsi adlandıran bir qrup hərbi çevriliş yolu ilə hakimiyyətə gələndə onlar 9 May bayramını ləğv etdilər, müharibə veteranları təqiblərə, mənəvi terrora məruz qalırdılar, bəzi ölkələrdə indi də baş verən hadisələr o vaxt praktiki olaraq bizdə baş verirdi. Yalnız Heydər Əliyev hakimiyyətə qayıdandan sonra tarixi ədalət bərpa olundu, veteranlar yenidən dövlətin dəstəyindən istifadə etməyə başladılar, mayın 9-u ümummilli bayram elan edildi və biz o vaxtdan – 1994-cü ildən bu bayramı qeyd edirik, həmin gün qeyri-iş günüdür.

*– Nasist canilərinin, o cümlədən postsovet məkanında qəhrəmanlaşdırılmasına qarşı mübarizə hazırda həmişəkindən daha aktualdır.*

– Bu gün tarixi yenidən yazmaq, faşistləri qəhrəmanlaşdırmaq, tarixi həqiqəti təhrif etmək kimi təhlükəli meyillər müşahidə edirik. Biz buna çox ciddi yanaşmalıyıq. İstər tarixin yenidən yazılması, istərsə də faşizmin qəhrəmanlaşdırılması qətiyyən yolverilməzdir.

Qeyd etmək istərdim ki, bu məsələdə həm Rusiyanın, həm də Azərbaycanın mövqeləri tamamilə eynidir.

Biz Böyük Vətən müharibəsi haqqında həqiqətin təhrif edilməsi, tarixin yenidən yazılması, faşizmin və faşistlərin qəhrəmanlaşdırılması cəhdlərinə qarşı qətiyyətlə mübarizə aparırıq. Bizim mövqelərimiz həm tarixi həqiqətə, ədalətə, həm də buna əsaslanır ki, gələcək nəsillər kimin təcavüzkar və kimin təcavüz qurbanı olmasına, kimin qalib gəlməsinə və bu Qələbənin nəyin bahasına qazanılmasına heç vaxt şübhə etməsinlər.

Ötən ilin dekabr ayında Sankt-Peterburqda qeyri-formal Sammitdə Rusiya Prezidenti Vladimir Vladimiroviç Putin İkinci Dünya müharibəsi dövrünə aid bir sıra sənədlər təqdim etdi. Bu sənədlərin çoxu əvvəl məlum deyildi. Hesab edirəm ki, bu faktın böyük əhəmiyyəti olub, çünki müharibənin tarixi ilə bağlı bir sıra məqamlara aydınlıq gətirib. Real faktların məlum olmaması, onları bilməmək çox vaxt tarixi həqiqətin təhrifinə gətirib çıxarır. İkinci Dünya müharibəsinin tarixi məsələsində bu, tarixi yenidən yazmaq və faşizmi qəhrəmanlaşdırmaq kimi təhlükəli meyillərlə bağlıdır. Buna görə belə sənədlərin açılması, əlbəttə ki, tarixi həqiqətə xidmət edir.

Təəssüf ki, MDB məkanında, o cümlədən Ermənistanda da faşizmin qəhrəmanlaşdırılması baş verir. Ermənistanın əvvəlki hakimiyyəti Yerevanın mərkəzində faşist cəllad və satqın, alman faşistlərinə Qaregin Njde ləqəbi ilə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyub. MDB ölkələrindən olan müharibə veteranlarının böyük bir qrupu Ermənistanın əvvəlki rəhbərliyinin bu həyasız addımına qarşı dəfələrlə qəti etirazını bildirib. 2019-cu ilin mayında Rusiya Xarici İşlər Nazirliyi "Nasizmin qəhrəmanlaşdırılması, neonasizmin və irqçiliyin müasir formalarının, irqi ayrı-seçkiliyin, ksenofobiyanın və onlarla bağlı dözümsüzlüyün yayılmasına şərait yaradan praktikanın digər növləri ilə bağlı vəziyyət haqqında" məruzə təqdim edib. Məruzədə deyilir: "Ermənistanın keçmiş hakim Respublika Partiyası üçüncü Reyx ilə əməkdaşlıq etməsi barədə məlumat olan millətçi təmayüllü Qaregin Njde kimi heç də birmənalı olmayan siyasi xadimin xatirəsinin əbədiləşdirilməsi üçün addımlar atıb". Bu, Rusiya Xarici İşlər Nazirliyinin mövqeyidir. Rusiya Federasiyasının Müdafiə naziri, ordu generalı Sergey Şoyqunun sədrliyi ilə Rusiya Federasiyası Müdafiə Nazirliyinin baş redaksiya komissiyası tərəfindən nəşr edilmiş 12 cildlik "1941-1945-ci illərin Böyük Vətən müharibəsi" ensiklopediyasının "Böyük Vətən müharibəsi illərində gizli müharibə, kəşfiyyat və əks-kəşfiyyat" nəşrinin 6-cı cildində dərc edilmiş "Müharibənin son dövründə hərbi əks-kəşfiyyat fəaliyyəti" sərlövhəli məqalədə deyilir: "Dromedar" abverqrup-114 haqqında agentura işi çərçivəsində əks-kəşfiyyatçılar daşnak ordusunun keçmiş generalı, almanların yanında Njde ləqəbi ilə xidmət etmiş mühacir Ter-Arutyunyanı tapıb və həbs ediblər. O, Böyük Vətən müharibəsi dövründə Bolqarıstan ərazisində erməni millətindən olan 30-dan çox agenti cəlb edib, onların təxribat hazırlığında və pozucu fəaliyyət üçün Qızıl Ordunun arxa cəbhəsinə çatdırılmasında iştirak edib. SMERŞ əməkdaşları 17 təxribatçını tutub, qalanlar barəsində axtarış elan ediblər". Njde Avropanın yəhudi əhalisinə qarşı Holokostda da iştirak edib. 1942-ci ildə o, Sovet İttifaqına qarşı döyüşən erməni legionu təşkil edib. Yeri gəlmişkən, Njdenin əsas şüarı belə idi: "Almaniya üçün həlak olan Ermənistan üçün həlak olur". Burada necə deyərlər, şərhə ehtiyac yoxdur. Njde həbs edildi və ömrünü Vladimir həbsxanasında başa vurdu. 2016-cı ildə Ermənistan paytaxtının mərkəzində bu satqın cəllada az qala 6 metr hündürlüyündə abidə qoyulub. Təəssüf ki, Ermənistanın yeni hakimiyyəti bu heykəli sökmədi. Hesab edirəm ki, MDB məkanında faşizmin qəhrəmanlaşdırılmasına yol verilməməlidir.

*– Sizin fikrinizcə, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının yolları və prinsipləri necədir?*

– Ermənistanın Azərbaycana qarşı 25 ildən çox davam edən təcavüzü ölkəmizin ərazisinin təqribən 20 faizinin işğal edilməsinə gətirib çıxarıb. Nəticədə 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb.

Həm tarixi ədalət, həm də beynəlxalq hüquq baxımından Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Qeyd etməliyəm ki, "Qarabağ" adının özü Azərbaycan sözüdür. Tarixdən məlumdur ki, 1805-ci ildə Qarabağ xanı İbrahim xan tərəfindən Rusiya ordusunun generalı Sisiyanovla imzalanmış sazişə görə Azərbaycanın Qarabağ xanlığı müstəqil ölkə kimi Rusiya imperiyasının tabeliyinə keçib. Kürəkçay sazişi adlanan bu sənədin mətnini internetdə tapmaq olar. Həmin sənəddə Qarabağın erməni əhalisi barədə heç nə deyilmir. 1813-cü və 1828-ci illərdə imzalanmış Gülüstan və Türkmənçay müqavilələri əsasında Azərbaycanın qalan əraziləri də Rusiya imperiyasının tərkibinə keçib. Həmin dövrdə erməniləri İrandan və Şərqi Anadoludan Azərbaycanın Qarabağ regionuna köçürməyə başlayıblar. Beləliklə, yüz minlərlə erməni köçkün tarixi Azərbaycan torpağına gəlib çıxıb.

Sonradan, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yaradılanda onun ilk fərmanlarından biri İrəvanın Azərbaycanın tərkibindən Ermənistanın tərkibinə verilməsi və Ermənistanın paytaxtı elan edilməsi haqqında fərman olub. Bu da tarixi faktdır. 1921-ci ildə bolşeviklər partiyasının Qafqaz bürosu Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanması haqqında qərar qəbul edib. Bəzi erməni tarixçilərinin yazdığı kimi, Azərbaycana verilməsi haqqında yox, məhz saxlanması haqqında. Bu da tarixi faktdır. Daha bir tarixi fakt ondan ibarətdir ki, 1923-cü ildə Azərbaycan Sovet Sosialist Respublikası Azərbaycanın tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında fərman verib.

Azərbaycan BMT-yə daxil olanda da, o, özünün tam ərazi bütövlüyü çərçivəsində daxil olub. Ermənistan-

Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü, bütün dünya tərəfindən qəbul edilmiş BMT-nin Nizamnaməsi və Helsinki Yekun Aktı çərçivəsində həll edilməlidir.

Buraya BMT Təhlükəsizlik Şurasının erməni qüvvələrinin işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsini, ATƏT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti və digər beynəlxalq təşkilatların qətnamələrini, həmçinin "Dağlıq Qarabağ respublikası" adlandırılan qanunsuz qurumun heç bir ölkə tərəfindən tanınmamasını da əlavə etsək görərik ki, münaqişə Azərbaycanın ərazi bütövlüyünün tanınması və onun suverenliyinə hörmət müstəvisində həll edilməlidir. Erməni qoşunları işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmalı, bu torpaqlardan qovulmuş qaçqınlar və məcburi köçkünlər öz tarixi yurdlarına qaytarılmalıdır. İşğal edilən təkcə Dağlıq Qarabağ deyil. Ona bitişik 7 rayon da işğal olunub. Həmin 7 rayonda heç vaxt ermənilər yaşamayıblar.

Münaqişə ilə əlaqədar onu da qeyd etməliyəm ki, bu yaxında erməni təbliğatına və bütövlükdə bu məsələ ilə əlaqədar Ermənistanın mövqeyinə növbəti böyük zərbə vurulub. Əslində, bu zərbəni onlar özləri özlərinə vurublar. Əlbəttə, bizim məqsədyönlü fəaliyyətimiz, beynəlxalq təşkilatlarla əlaqələrimiz bu zərbəni gücləndirib. Söhbət qondarma "Dağlıq Qarabağ respublikası"nda keçirilmiş qondarma "prezident seçkiləri" haqqındadır. Bu "seçkilər" bir daha göstərdi ki, heç kəs bu qanunsuz hərbi xunta rejimini tanımır. "Seçkilər"dən sonra aparıcı beynəlxalq təşkilatlar onları tanımadı, bu barədə açıq bəyanatlar səsləndi. ATƏT-in Minsk qrupunun həmsədrləri Rusiya, ABŞ və Fransa bəyanatla çıxış etdilər. ATƏT-in Parlament Assambleyası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və Avropa Parlamenti bəyanatlarla çıxış etdilər. Bütün bu təşkilatlar həmin "seçkiləri" tanımadılar və bir daha göstərdilər ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Bu, bir daha nümayiş etdirdi, – mən bunu demişəm, bir daha demək istəyirəm, – Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi.

Biz beynəlxalq ictimaiyyəti və ATƏT-in Minsk qrupunun həmsədr ölkələrini bu təcavüzkar ölkəyə ciddi təzyiq göstərməyə çağırırıq ki, sülhyaratma prosesi yerində saymasın.

*– Azərbaycan Silahlı Qüvvələrinin müasir vəziyyətini necə qiymətləndirərdiniz?*

– Son illərdə Azərbaycan ordu quruculuğunda böyük uğurlar qazanıb. Bu gün ölkənin Silahlı Qüvvələrini möhkəm intizam, vətənpərvərlik, yüksək mənəvi mübarizlik ruhu və döyüş qabiliyyəti səciyyələndirir. Silahlı Qüvvələr ən müasir silahlar və hərbi texnika ilə təchiz edilib. Şübhəsiz, bütün bunlar son illərdə ölkənin hərbi qüdrətinin möhkəmlənməsinə gətirib çıxarıb.

"Global Firepower-2019"un hesabatına görə, Azərbaycan dünyanın ən güclü ordularının reytinqində 52-ci yerdədir. Xüsusi qeyd etmək istəyirəm ki, 2006-cı ildə bizdə Müdafiə Sənayesi Nazirliyi yaradılıb. Son illərdə 20-dən çox hərbi zavod fəaliyyətə başlayıb. Bu zavodlarda 2000-dən çox adda hərbi təyinatlı məhsullar istehsal edilir, ordumuz həmin məhsullarla təchiz olunur. Eyni zamanda, biz hərbi məhsulları ixrac edirik.

Son illərdə ən müasir texnika və silahlar alınıb. Onların arasında yüzlərlə zirehli texnika, çoxsaylı keşikçi gəmiləri və hərbi gəmilər, hava hücumundan müdafiə sistemləri, onlarla döyüş təyyarəsi, yüzdən çox döyüş, hərbi-nəqliyyat və nəqliyyat helikopterləri, ən müasir pilotsuz kəşfiyyat və döyüş uçuş aparatları, hava hücumundan, raketdən müdafiə vasitələri, ən müasir rabitə vasitələri, reaktiv yaylım atəşi sistemləri, operativ-taktiki raket kompleksləri var.

Biz hərbi qulluqçuların sosial həyatına xüsusi əhəmiyyət veririk, hərbçilərin xidmət şəraiti yaxşılaşdırılır. Son illərdə onlarla hərbi şəhərcik yaradılıb. Hərbçilərin xidmət şəraiti çox yaxşıdır. Son bir neçə ildə hərbi hissələrin, hərbi şəhərciklərin 80 faizdən çoxu yenidən tikilib və ya əsaslı təmir edilib. Qarşıdakı 2-3 il ərzində bütün hərbi şəhərciklər tamamilə təmir ediləcək. Hərbi qulluqçuların mənzil-məişət məsələləri həll edilir. Qəbul edilmiş qərar əsasında orduda 20 il qüsursuz xidmət etmiş hərbçilərə dövlət pulsuz mənzillər verir. Bu gün bizim hərbi hissələrdə 20 mindən çox mülki şəxs işləyir. Əvvəllər bu işləri əsgərlər görürdülər. Biz onları məişət işlərindən azad etmişik. Eyni zamanda, mülki şəxslərdən ötrü 20 mindən çox iş yeri açılıb.

Şübhəsiz, yuxarıda göstərilən, son illərdə görülmüş bütün tədbirlər Silahlı Qüvvələrin maddi-texniki bazasının daha da möhkəmlənməsinə, hərbi qulluqçuların sosial müdafiəsinin güclənməsinə səbəb olub və biz bu istiqamətdə atılan addımları davam etdirəcəyik.

*– Rusiya ilə Azərbaycan arasında siyasət, iqtisadiyyat, hərbi-texniki əməkdaşlıq sahələrində və başqa istiqamətlər üzrə münasibətlərin vəziyyətini və inkişaf perspektivlərini Siz necə səciyyələndirərdiniz?*

– Bu gün strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Rusiya ikitərəfli dostluq münasibətləri bütün istiqamətlər üzrə uğurla inkişaf edir. Ölkələrimiz arasında çox fəal siyasi dialoq mövcuddur. Prezident Vladimir Vladimiroviç Putin ilə mənim çoxsaylı şəxsi görüşlərim ikitərəfli qarşılıqlı əlaqələrin inkişafına çox ciddi təkan verir, həmçinin bizim regionda vəziyyətə də müsbət təsir göstərir.

Biz fəaliyyətimizin demək olar ki, bütün sahələrini – ticarət, nəqliyyat, energetika, humanitar sahə və turizmi əhatə edən beş yol xəritəsi çərçivəsində proqramı fəal rellaşdırırıq. Ötən ilin sonunda bu yol xəritələrinə daha ikisi – innovasiyalar və gənclər siyasəti üzrə yol xəritələri əlavə edilib.

Keçən il mən Rusiya Prezidenti Vladimir Putinin dəvəti ilə "Valday" Diskussiya Klubunun iclasında iştirak etmişəm. Hər il bütün dünyada siyasətçilərin, politoloqların, ekspertlərin və analitiklərin diqqətini cəlb edən bu tədbirə dəvət almış dörd dövlət başçısından biri mən idim. "Valday" Klubu dünya gündəliyindəki mühüm problemlərin müzakirəsi üçün ən vacib diskussiya platformalarından biri kimi özünü göstərib.

Rusiya ilə bizim münasibətlərimiz zamanın sınağından çıxıb. Hər iki tərəf bu münasibətləri strateji tərəfdaşlıq münasibətləri adlandırır. Bu, həqiqətən belədir. Biz həm qonşuyuq, həm də mehriban dostlar. Son dövrdə bizim münasibətlərimiz daha səmərəli və keyfiyyətli olub.

Biz beynəlxalq təşkilatlar çərçivəsində fəal qarşılıqlı əlaqə saxlayır, ən mühüm və ümdə məsələlərdə ənənəvi olaraq bir-birimizi dəstəkləyirik. Biz BMT, ATƏT və əlbəttə MDB məkanında sıx qarşılıqlı fəaliyyətdəyik.

Bizim çox sıx iqtisadi, ticari münasibətlərimiz var. Azərbaycanda Rusiya kapitallı 700-ə yaxın şirkət fəaliyyət göstərir. Həcmi milyard dollarlarla ölçülən qarşılıqlı investisiyalar həyata keçirilir.

Ötən il ölkələrimiz arasında əmtəə dövriyyəsi təqribən 20 faiz artıb və 3 milyard dollardan çox olub.

Burada bir məqamı qeyd etmək çox vacibdir ki, koronavirus pandemiyası ilə əlaqədar vəziyyətə baxmayaraq, cari ilin birinci rübündə ölkələrimiz arasında əmtəə dövriyyəsi 2 faiz artıb, ixrac-idxal əməliyyatlarının həcmi də artıb. Bu da çox vacibdir ki, Şimal-Cənub nəqliyyat dəhlizi fəaliyyətini davam etdirir, o cümlədən bu dəhliz çərçivəsində yükdaşımalar və tranzit daşımaları həyata keçirilir. Azərbaycan ərazisindən keçməklə Rusiyadan Avropa istiqamətində Şimal-Qərb dəhlizi də işə salınıb. Ötən ilin sonunda Azərbaycanla Rusiyanın sərhədində Samur çayı üzərindən körpünün açılışı təkcə bu iki ölkə üçün deyil, bütövlükdə region üçün böyük əhəmiyyət kəsb edən hadisə olub. Ona görə ki, bu körpü beynəlxalq yükdaşımaların intensivləşdirilməsi, biznes əlaqələrinin genişlənməsi, habelə Şimal-Cənub və Şimal-Qərb nəqliyyat dəhlizlərinin inkişafı üçün yeni imkanlar yaradır. Keçən il Şimal-Cənub dəhlizi ilə yükdaşımaların həcmi 60 faiz artıb. Azərbaycan regionda əməkdaşlıq üçün yaxşı perspektivlər açan, Asiyadan Avropaya və əks istiqamətdə yüklərin daşınması məsafəsini və çatdırılması müddətlərini xeyli azaldacaq bu mühüm nəqliyyat layihəsinin reallaşdırılması ilə əlaqədar öz ərazisində bütün işi başa çatdırıb. Hesab edirəm ki, regionda mühüm nəqliyyat arteriyası kimi Şimal-Cənub dəhlizinə ehtiyac daha da artacaq.

Hərbi-texniki əməkdaşlıq fəal inkişaf edir. Rusiya və Azərbaycan prezidentlərinin birgə mətbuat konfranslarının birində deyildiyi kimi, Azərbaycanın Rusiyadan aldığı hərbi təyinatlı məhsulların həcmi 5 milyard dollara bərabərdir.

Humanitar sahədə əlaqələrimiz də uğurla inkişaf edir. Artıq neçə ildir ki, Azərbaycanda Moskva Dövlət Universitetinin filialı, həmçinin Birinci Moskva Dövlət Tibb Universitetinin filialı fəaliyyət göstərir. Azərbaycanın dövlətə məxsus bütün ali məktəblərində rus dilində bölmələr mövcuddur. Ölkəmizdə 25 min tələbə rus dilində oxuyur. Təhsilin rus dilində olduğu 338 məktəbdə 130 min şagird də rus dilində təhsil alır.

Bizim münasibətlərimizin bir göstəricisi həm ölkələr, həm də xalqlar arasında münasibətlərin ruhuna və xarakterinə ən parlaq sübutdur. 2019-cu ildə Azərbaycana Rusiyadan rekord sayda – bir milyona yaxın turist səfər edib. Bu ilin əvvəlində də yaxşı dinamika müşahidə olunurdu, lakin koronavirus pandemiyası turist axınını dayandırdı. Ümidvarıq ki, pandemiya başa çatandan və sərhədlər açılandan sonra rusiyalı turistlərin ölkəmizə səfərləri bərpa olunacaq. Ona görə ki, rusiyalılar burada özlərini rahat, adi şəraitdə olduğu kimi hiss edir, dil baryeri ilə bağlı çətinliklərlə üzləşmirlər.

Bu da sirr deyil ki, turistlər təkcə görməli yerlərə baxmaq və milli mətbəx nümunələrini dadmaq üçün getmirlər, onlar elə yerlərə gedirlər ki, orada özlərini təhlükəsiz, rahat, öz evlərində olduğu kimi hiss etsinlər.

Keçən il noyabrın 23-də Moskvada Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində əsaslı bərpa işlərindən sonra "Azərbaycan" pavilyonunun açılışı oldu. Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində "Azərbaycan" pavilyonunun bərpadan sonra açılışı ölkələrimiz arasında münasibətlərin dostluq xarakterinin daha bir təzahürü oldu.

*– Dünyada strateji və enerji sabitliyinin dəstəklənməsinə Azərbaycanın töhfəsi nədən ibarətdir?*

– Mən dəfələrlə demişəm ki, hər bir ölkənin enerji təhlükəsizliyi onun milli təhlükəsizliyinin ayrılmaz tərkib hissəsidir. Buna görə də əsas məsələ enerji müstəqilliyinin təmin edilməsi idi və biz buna nail olduq.

Son illərdə Azərbaycan elektrik enerjisinin və təbii qazın idxalçısından onların ixracatçısına çevrilib. 2003-cü ildən bəri Azərbaycanda 30-dan çox elektrik stansiyası tikilib. Bir neçə ildir ki, biz istehsal edilən elektrik enerjisinin artıq hissəsini ixrac edirik. Yeri gəlmişkən, biz ölkənin ekoloji vəziyyətinə böyük diqqət yetiririk, buna görə də son illərdə Azərbaycanda inşa edilən elektrik stansiyaları bütün ekoloji tələblərə cavab verir və respublikanın təbii qaz və su ehtiyatları əsasında işləyir.

Biz Azərbaycanda bərpaolunan enerjinin inkişafına da böyük diqqət yetiririk. Bu ilin yanvar ayında ilkin razılıq əldə edildi və bərpaolunan enerji sahəsində böyük təcrübəyə malik olan iki iri xarici şirkət Azərbaycanla ilkin sazişlər imzaladı. Həmin sazişlərə əsasən ölkəmizdə yalnız əcnəbi investorların hesabına ümumi gücü 440 meqavat olan iki elektrik stansiyası tikiləcək – biri külək enerjisindən, digəri günəş enerjisindən elektrik enerjisi istehsal edəcək.

Bizdə elektrotexnika sahəsinin infrastrukturu tamamilə modernləşdirilib. Davos Dünya İqtisadi Forumunun reytinqinə əsasən elektrik enerjisinin əlçatanlıq əmsalına görə Azərbaycan dünyada ikinci yeri tutur.

İri transmilli neft-qaz layihələrinin həyata keçirilməsi məsələsinə gəldikdə bizim enerji resurslarını bir neçə istiqamətdə ixrac edən 7 neft və qaz kəməri inşa olunub.

Cənub Qaz Dəhlizinin tikintisi uğurla başa çatmaq üzrədir. Bu dəhliz dörd layihədən ibarətdir:

• Ehtiyatlarının həcmi 1 trilyon kubmetrdən çox olan "Şahdəniz-2" qaz-kondensat yatağı;
• Cənubi Qafqaz qaz kəməri;
• TransAnadolu qaz kəməri (TANAP).

Yuxarıda göstərilən 3 layihənin reallaşması artıq başa çatdırılıb.

• TransAdriatik qaz kəmərinin (TAP) tikintisi üzrə işlərin 94 faizdən çoxu yerinə yetirilib.

Nisbətən yaxın vaxtlarda ehtiyatlarının həcmi minimum 300 milyard kubmetr qaza bərabər olan yeni "Abşeron" qaz-kondensat yatağı açılıb. Bu yataqda hasilatın gələn il başlanması gözlənilir. Bu ilin mart ayında "Qarabağ" iri neft yatağı kəşf edilib. Daha bir neçə perspektivli neft-qaz strukturu kəşfiyyat və işlənilmə mərhələsindədir. Beləliklə, bütün bunlar neft hasilatının sabit profilini və təbii qaz hasilatının artan həcmini təmin edəcək.

Biz lap əvvəldən OPEC+ formatında fəal iştirak etmişik. Qeyd etmək istəyirəm ki, OPEC+ formatı ideyasını ilk dəfə mən bir neçə il bundan əvvəl Davos Dünya İqtisadi Forumunun panel müzakirələrində irəli sürmüşəm. Azərbaycan bu yaxınlarda da 9-cu və 10-cu OPEC+ görüşlərində fəal iştirak edib. Bu görüşlərin digər iştirakçıları kimi, Azərbaycan da neft hasilatının azaldılması üzrə öhdəlik götürüb, özünü etibarlı və sabit tərəfdaş kimi göstərib.

Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, Azərbaycan Rusiya ilə ikitərəfli münasibətlərimizin bütün başqa sahələrində olduğu kimi, enerji sahəsində də çoxillik uğurlu əməkdaşlıq təcrübəsinə malikdir və mən əminəm ki, bu əlaqələr gələcəkdə də fəal inkişaf edəcək.

Sonda dost Rusiya xalqını Böyük Vətən müharibəsində Qələbənin yaxınlaşmaqda olan 75 illiyi bayramı münasibətilə təbrik etmək istərdim. Mən Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putin tərəfindən mayın 9-da Qələbə Gününün bayram edilməsi üçün Moskvaya dəvət olunmuşam və bu bayram tədbirində iştirak etmək niyyətində idim. Lakin təəssüf ki, koronavirus pandemiyası ilə əlaqədar bu tədbir başqa vaxta keçirilib. 9 May bizim ümumi bayramımızdır. Bizim ümumi Böyük Qələbəmiz günüdür. Azərbaycanın və Rusiyanın bu bayrama münasibəti ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdırır.

## *"Gilan Tekstil Park" MMC-in tibbi maska fabrikinin və qoruyucu kombinezonların istehsalı müəssisəsinin açılışında İlham Əliyevin nitqi*

Koronavirus pandemiyası ilə əlaqədar Azərbaycanda tibbi sənayenin inkişafı daha aktual mövzuya çevrilibdir. Bildiyiniz kimi, bu sahə Azərbaycanda az inkişaf edib, bir çox hallarda biz idxaldan asılı idik və bu gün də bu, davam edir. Ancaq koronavirus pandemiyası hər bir ölkə üçün gözlənilməz bir bəla oldu və bütün ölkələr, ilk növbədə, öz daxili resurslarını səfərbər etməyə çalışmış və pandemiyaya qarşı mübarizə üçün lazım olan tədbirləri görməyə başlamışdır, o cümlədən Azərbaycan. Deyə bilərəm ki, Azərbaycan ilk qabaqlayıcı addımlar atan ölkələrdəndir. Məhz bu addımlar nəticəsində biz bu günə qədər vəziyyəti tam nəzarətdə saxlayırıq və yoluxanların sayı kifayət qədər azdır. Əlbəttə ki, indiki şəraitdə karantin rejiminin təmin edilməsi, gözlənilməsi pandemiyaya qarşı mübarizə işində əsas məqsədlərdən biridir. Hesab edirəm, bu müddət ərzində hər bir ölkə gördü ki, çətin vəziyyətdə, çətin şəraitdə bəzi ölkələr özlərinə qapanır, bəzi ölkələr ancaq öz daxili bazarlarını təmin etmək üçün çalışır. Əlbəttə, müəyyən çətinliklər də yarandı, xüsusilə tibbi ləvazimatların, tibbi avadanlıqların alınması və ölkəmizə gətirilməsi üçün. Bir daha gördük ki, tibbi sənayenin inkişafı böyük əhəmiyyət daşıyır. Son müddət ərzində bu istiqamətdə müəyyən addımlar atılmışdır, Pirallahı adasında iki müəssisə fəaliyyətə başlamışdır, biri dərman preparatları müəssisəsi, digəri isə tibbi şprislərin istehsalı.

Tibbi maska istehsalı Azərbaycanda ümumiyyətlə yox idi, nəzərdə də tutulmurdu. Çox sevindirici haldır ki, özəl sektor böyük sosial təşəbbüs göstərərək, dövlətin çağırışına cavab verərək qısa müddət ərzində bizim üçün lazım olan – həm həkimlər, həm də adi vətəndaşlar üçün lazım olan bu vasitələri istehsal etməyə başlamışdır. Bu gün bu müəssisədə fəaliyyətə başlamış tibbi maska fabriki ölkəmizdə ikinci istehsalat sahəsidir. Birinci müəssisə də Sumqayıt şəhərində yerləşir, Sumqayıt Kimya Sənaye Parkının ərazisində. Əlbəttə ki, əgər bizim inkişaf etmiş müasir sənaye potensialımız olmasaydı, bu istehsalat sahələrini yaratmaq mümkün olmazdı. Məhz sənayeləşmə siyasəti nəticəsində və xüsusilə Sumqayıt şəhərində yeni müasir sənaye müəssisələrinin fəaliyyətə başlaması nəticəsində qısa müddət ərzində fabriklər öz profilini dəyişdirərək, artıq tibbi maskaları və qoruyucu kombinezonları istehsal etməyə başlamışdır.

Mən 7 il bundan əvvəl bu müəssisənin açılışında olmuşam və şadam ki, bu müddət ərzində bu müəssisə uğurla fəaliyyət göstərib. Bu müəssisənin məhsulları həm daxili bazarda tanınır və eyni zamanda, ixrac potensialı da mövcuddur. Bu, onu göstərir ki, müəssisədə istehsal olunan mallar yüksək keyfiyyətə malikdir. Bu gün mənə verilən məlumata görə, kombinezon istehsalı gündə 6 min ədədə çatdırılacaq və həkimlərimizin qorunması üçün bunun xüsusi əhəmiyyəti var. Biz bu günə qədər qoruyucu kombinezonları xaricdən alırıq. Problem onda deyil ki, biz buna vəsait ayırırıq, valyuta xərcləyirik, məsələ ondadır ki, koronavirus pandemiyası dövründə lazım olan vasitələrin alınması problemə çevrilir. Hətta pul olan zamanda bu vasitələrin, avadanlığın gətirilməsi böyük problemdir və biz bu problemlə üzləşmişik. Buna baxmayaraq, biz bütün imkanları səfərbər edib ölkəmiz üçün lazım olan vasitələri gətizdiririk.

Ona görə hesab edirəm ki, bu gün çox əlamətdar gündür. Çünki həm birinci, həm də bu gün burada fəaliyyətə başlayan ikinci tibbi maska istehsalı müəssisəsi bizim daxili tələbatımızı tam ödəməlidir və qoruyucu kombinezonlar da həmçinin. Sənaye potensialının inkişafı, əlbəttə, imkan verdi ki, biz buna nail olaq.

Bütövlükdə bu gün Sumqayıtın inkişafı böyük dərəcədə şəhərin sənaye potensialı ilə bağlıdır. Mənə verilən məlumata görə, "Gilan Tekstil Park"da işləyənlərin 95 faizi Sumqayıt şəhərinin sakinləridir. Son illərdə Sumqayıtda onlarla yeni müəssisə yaradılıbdır və mən bu müəssisələrin açılışlarında iştirak etmişəm. Onların arasında xüsusilə iki nəhəng, flaqman müəssisəni qeyd etmək istərdim – azot gübrələri zavodu və polimer zavodu. Bu zavodların tikintisinə dövlət çox böyük vəsait xərcləyib. Ancaq digər zavodların fəaliyyəti sırf özəl sektor tərəfindən təşkil edilib, əlbəttə, dövlətin dəstəyilə dövlət ərazi ayırır. Bildiyiniz kimi, Sumqayıtda iki sənaye parkı fəaliyyət göstərir – Sumqayıt Texnologiyalar Parkı və Sumqayıt Kimya Sənaye Parkı. Sumqayıt Kimya Sənaye Parkının ərazisi 10 hektarlarla ölçülür. Tamamilə təmizlənmiş bu ərazidə yeni infrastruktur layihələri icra edilib. Özəl sektor da artıq bu parkda uğurla fəaliyyət göstərir, hər il burada bir neçə müəssisə açılır. Beləliklə, Sumqayıt nəinki Azərbaycanın, eyni zamanda, Cənubi Qafqazın ikinci böyük sənaye şəhərinə çevrilib. Sovet dövründən fərqli olaraq, bu gün burada fəaliyyət göstərən sənaye müəssisələri bütün ekoloji standartlara cavab verir.

Siz gəncsiniz, siz o illəri xatırlamırsınız. Ancaq sovet dövründə Sumqayıtın yanından keçərkən maşında oturanlar pəncərələri bağlayırdılar, çünki o iydən insanların gözü yaşarırdı. Yəni, Sumqayıt doğrudan da böyük bir ekoloji bəla mərkəzi idi. Çünki kimya sənayesinin sürətli inkişafı və bir çox hallarda ekoloji standartlara riayət edilməməsi nəticəsində Sumqayıtın ekoloji vəziyyəti çox ağır idi və burada bir neçə növ xəstəliklər geniş vüsət almışdı. Biz isə Sumqayıtı müasir, təmiz sənaye mərkəzinə çevirdik. Bu gün Sumqayıtın havası Bakının havasından daha təmizdir. Sumqayıtda aparılan yaşıllaşdırma işləri, yeni parkların salınması, ekoloji tədbirlərin görülməsi, uzun illər sumqayıtlıları narahat edən Acıdərə kanalının tamamilə təmizlənməsi və yenidən qurulması xüsusi əhəmiyyət daşıyır. Ona görə bir sənaye şəhəri kimi Sumqayıtın siması tamamilə dəyişib və bu gün ən yüksək standartlara cavab verir. Bununla yanaşı, əlbəttə, digər başqa layihələr də icra edilmişdir. Sosial layihələr – köçkünlər üçün artıq bir neçə ildir ki, böyük şəhərciklər salınır. Mən bu yaxınlarda növbəti şəhərciyin tikintisi ilə tanış olmuşam. Abadlıq işləri aparılır, Sumqayıt bulvarı da nəhayət ki, fəaliyyətə başlayıb. Bu, mənim çoxdankı arzum idi və bilirəm ki, sumqayıtlılar da həmişə bunu arzulayırdılar. Artıq neçə ildir ki, Sumqayıt bulvarı sumqayıtlıların sərəncamına verilib və çox gözəl istirahət zonasıdır. Bir sözlə, biz bu məsələyə kompleks şəkildə yanaşırıq. Hazırda 2 saylı şəhər xəstəxanasının tikintisi gedir. Biz onu əvvəlcə təmir etmək istəyirdik, sonra gördük ki, tamamilə dağılmış vəziyyətdədir, ora söküldü. 1 saylı xəstəxana fəaliyyətdədir, ikinci xəstəxananın da tikintisi yaxın zamanlarda başa çatacaq.

Əlbəttə ki, bu gün hamımızı və bütün dünyanı narahat edən koronavirus pandemiyasıdır. Bu sahədə də Azərbaycan nümunəvi yanaşma göstərir. Bunu həm Azərbaycan vətəndaşları deyir, – mənə ünvanlanmış minlərlə təşəkkür məktubunda bu, əksini tapır, – həm də beynəlxalq təşkilatlar. Bu yaxınlarda mən Ümumdünya Səhiyyə Təşkilatının Baş direktorundan ikinci məktubu almışam. Birinci məktub mart ayının sonunda mənə ünvanlanıb, ikinci məktub isə mayın 7-də. İkinci məktubda da Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanda koronavirusla mübarizə sahəsində görülmüş işlərə çox yüksək qiymət verir, işlərimizi təqdir edir. Əlbəttə ki, bu, görülmüş işlərə verilən böyük qiymətdir. Ancaq bir daha demək istəyirəm ki, ən böyük qiyməti Azərbaycan xalqı verir.

Bu gün vəziyyəti nəzarətdə saxlamaq o qədər də asan məsələ deyil. Biz bütün səylərimizi insanların sağlamlığının qorunmasına yönəltdik. Pandemiyanın ilk günlərindən demək olar ki, bizim üçün seçim etməkdə heç bir tərəddüdlü məqam olmamışdır. Mən birmənalı şəkildə demişdim ki, ilk növbədə, vətəndaşların sağlamlığı, onların həyatıdır. O ki qaldı, iqtisadi vəziyyətə, hər kəs üçün aydın idi, iqtisadiyyat zərər çəkəcəkdir, nəinki bizim iqtisadiyyatımıza, bütün dünya iqtisadiyyatına böyük ziyan vurulacaqdır. İndi artıq ilkin hesablamalar üzə çıxır və deyilir ki, inkişaf etmiş ölkələrdə bu il iqtisadiyyat 7-10 faiz düşə bilər və bu da təbiidir. Ancaq bizim əsas vəzifəmiz vətəndaşları qorumaq idi. Ona görə məhdudlaşdırıcı tədbirlərin böyük rolu olmuşdur. Əgər biz bu addımları atmasaydıq, indi vəziyyət nəzarətdən çıxa bilərdi, necə ki, bir çox ölkələrdə, o

cümlədən inkişaf etmiş ölkələrdə, səhiyyə sistemi bizdən qat-qat inkişaf etmiş ölkələrdə vəziyyət nəzarətdən çıxıb, xəstələr üçün xəstəxanalarda yataqlar çatmır, xəstələr bəzi hallarda xəstəxanalara ümumiyyətlə qəbul edilmir. Artıq sirr deyil ki, bir çox ölkələrdə yüngül simptomlu xəstələri xəstəxanalara qəbul etmirlər. Onlara deyilir ki, gedin öz evinizdə qalın və faktiki olaraq onlar müalicəsiz qalırlar. Bizdə isə bütün xəstələri, bütün yoluxanları, hətta onun simptomu olmasa belə, mütləq xəstəxanalara qəbul edirik. Biz ən müasir xəstəxa- nalarımızı koronavirus xəstələrinin ixtiyarına vermişik.

Bu yaxınlarda modul tipli birinci xəstəxananın açılışı oldu. Belə xəstəxanaların sayı 10-a çatacaq. Onların 4-ü özəl sektor tərəfindən inşa ediləcək. Bu, bir daha göstərir ki, özəl sektor bizim çağırışımıza cavab verərək öz sosial məsuliyyətini nümayiş etdirir. Eyni zamanda, mənim təşəbbüsümlə yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fondunda artıq 100 milyon manatdan çox vəsait yığılıb. Hələ ki, 1 manat da xərclənməyib. Biz Fondun fəaliyyəti və nəzarət mexanizmi üçün ictimai nəzarət formatı da yaratdıq. Bu, bir daha göstərir ki, vətəndaşlar, sahibkarlar həmrəylik, birlik nümayiş etdirirlər. Ona görə qabaqlayıcı tədbirlərin görülməsi birinci mərhələdə imkan verdi ki, biz bu vəziyyətdən az itkilərlə çıxaq. Başqa ölkələrlə, o cümlədən əhalisi bizimlə eyni sayda olan ölkələrlə müqayisədə Azərbaycanın vəziyyəti qat-qat yaxşıdır. Ancaq bu, o demək deyil ki, biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməliyik. Koronavirus qeyb olmayıb, koronavirus dolaşır. Peyvənd icad edilənə qədər bu problem mövcud olacaq. Ona görə vətəndaşlar da buna hazır olmalıdırlar. Biz üç həftənin müsbət dinamikasını nəzərə alaraq aprelin 27-dən etibarən yumşalma addımlarımızı atmağa başladıq. Çünki başa düşürük ki, bu, hər kəs üçün çox çətin dövrdür. Ancaq gördük ki, yumşalma tədbirləri artıq başlayan kimi yoluxanların sayı artmağa başladı. Nəyə görə? Çünki vətəndaşlar bir çox hallarda məsuliyyətsizlik göstərirlər, onlara tövsiyə olunan qaydalara əməl etmirlər, maska taxmırlar, məsafə saxlamırlar, dezinfeksiya vasitələrindən istifadə etmirlər. Beləliklə, öz həyatlarını və onlarla təmasda olan yüzlərlə insanın həyatını risk altına atırlar. Ona görə mən bir daha Azərbaycan vətəndaşlarına müraciət etmək istəyirəm, bu qaydalara əməl etmək o qədər də çətin deyil. Həkimlər, mütəxəssislər deyirlər ki, indi əsas şəxsi gigiyenaya fikir vermək, dezinfeksiya vasitələrindən istifadə etmək, bir metr yarım, iki metr məsafə saxlamaq və maska taxmaq lazımdır. Çətin məsələ deyil. Ona görə bütün vətəndaşlardan bir daha xahiş edirəm ki, bu qaydalara əməl etsinlər. İndi biz yumşalma addımlarımızı artırırıq və siz bilirsiniz ki, bütün dünyada bu proses gedir. Hətta bu gün yüzlərlə vətəndaşı vəfat edən ölkələr artıq açılırlar. Çünki başqa cür mümkün deyil. Biz də yavaş-yavaş bu istiqamətdə gedirik. Ancaq burada əsas məsələ vətəndaşların məsuliyyətidir. Çünki dövlət nə lazımdırsa, onu edir. Bütün resurslar səfərbər edilib. Prezidentin ehtiyat fondundan tibbi avadanlıqların, ləvazimatların alınması üçün təxminən 100 milyon manat vəsait ayrılıb və əlavə olaraq 150 milyon manat ehtiyatda saxlanılır.

İşini itirənlər üçün dövlət öz sosial dəstəyini göstərir. İşsiz, qeyri-formal məşğulluqda fəaliyyət göstərən və aztəminatlı kateqoriyaya aid olan 600 min insan dövlətdən iki ay ərzində 190 manat vəsait alır. Pandemiyadan ən çox zərər çəkən özəl sektorda 690 min insanın əməkhaqqının əhəmiyyətli hissəsi dövlət tərəfindən ödənilir. Dövlət sektorunda çalışan 900 min nəfərin hər birinin əməkhaqqı ödənilir. Bu və digər tədbirlərə biz bütövlükdə 3,5 milyard manat vəsait ayırmışıq və nə qədər lazımdırsa, o qədər də ayıracağıq. Ona görə dövlət bu işləri görür, bütün təşkilati məsələləri uğurla həyata keçirir.

Mən qeyd etdiyim kimi, bu sahədə aparıcı beynəlxalq təşkilat olan Ümumdünya Səhiyyə Təşkilatı bizim işlərimizə yüksək qiymət verir. Təkcə o qalıb ki, vətəndaşlar məsuliyyət və nizam-intizam göstərsinlər. Əlbəttə, nəzarətedici mexanizm daha da təkmilləşdirilməlidir. Əlbəttə, karantin rejimi yumşaldıqca, nəzarət etmək üçün də müəyyən problemlər yaranır. Ancaq buna baxmayaraq, bütün müvafiq orqanlara göstəriş verildi ki, onlar nəzarəti gücləndirsinlər. Amma yenə də deyirəm ki, indiki şəraitdə uğurumuzun əsas şərti vətəndaşların məsuliyyəti olmalıdır. Əks təqdirdə, bu xəstəlik nəzarətdən çıxacaq. Biz bunu açıq deməliyik və bilməliyik ki, dövlət nə qədər iş görsə də, vəziyyət nəzarətdən çıxacaq, kütləvi yoluxma halları baş verəcək, insanlar kütləvi qaydada vəfat edəcək, xəstəxanalarda yerlər, reanimasiya şöbələrində süni tənəffüs aparatları çatışmayacaq. Beləliklə, Allah eləməsin, biz indi böyük böhran içində olan ölkələrin vəziyyətinə düşə bilərik. Biz buna qətiyyən yol verə bilmərik. Ona görə mən bir daha bütün vətəndaşlara çağırış edirəm, məsuliyyətli olun, intizamlı olun, qaydaları pozmayın, özünüzü, öz yaxınlarınızı, öz tanışlarınızı qoruyun ki, biz bu bəladan az itkilərlə çıxa bilək.

Mən əminəm ki, biz buna nail olacağıq. Çünki artıq neçə aydır ki, bu pandemiya bütün dünya üçün böyük problemdir. Amma bu günə qədər vəziyyəti nəzarət altında saxlamaq doğrudan da böyük nailiyyət hesab oluna bilər. Xüsusilə qeyd etməliyəm ki, indiki şəraitdə cəmiyyətdə mövcud olan həmrəylik bəlkə ən yüksək səviyyədədir. Çünki bütün cəmiyyət bu mübarizədə birləşib.

Fürsətdən istifadə edərək özəl sektorun nümayəndələrinə, ictimai təşkilatlara, ayrı-ayrı adamlara bir daha təşəkkürümü bildirmək istəyirəm, həm ianələrə, həm vətəndaşlara göstərdikləri yardımlara, həm də bu qısa müddət ərzində tibbi sənayeni bizim maraqlarımıza uyğun şəkildə təşkil etdiklərinə görə. Bu gün ehtiyac

içində yaşayanlara da özəl sektor, ictimai təşkilatlar tərəfindən yardım göstərilir. Onların arasında birinci yerdə əlbəttə ki, Heydər Əliyev Fondu dayanır. Fond, ayrı-ayrı adamlar ehtiyacı olan insanlara kütləvi surətdə kömək göstərirlər, kimin imkanı nəyə çatır etməlidir. Bu, bizim xalqımıza xas olan ən yüksək keyfiyyətləri bir daha göstərir. Ümid edirəm ki, pandemiya gec-tez sona çatacaq, ondan sonra bu həmrəylik ovqatı, həmrəylik əhval-ruhiyyəsi cəmiyyətimizdə daha da güclənəcək.

Bugünkü açılışlar münasibətilə Sizi təbrik edirəm, sizə fəaliyyətinizdə yeni uğurlar arzulayıram. Sağ olun.

## *İlham Əliyevlə "Microsoft" şirkətinin vitse-prezidenti və digər nümayəndələri arasında videokonfrans keçirilib*

İyunun 16-da "Microsoft" şirkətinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə şirkətin vitse-prezidenti Filip Roq, Mərkəzi və Şərqi Avropa bölgəsinin korporativ əlaqələr və hüquqi məsələlər üzrə rəhbəri Nanna-Luize Linde və "Microsoft" şirkətinin digər nümayəndələri arasında videokonfrans keçirilib.

Videokonfransın iştirakçılarını salamlayan Prezident İlham Əliyev dedi:

– Sabahınız xeyir.

"Microsoft"un vitse-prezidenti Filip Roq: Sabahınız xeyir.

Prezident İlham Əliyev: Sizi görmək çox xoşdur.

Filip Roq: Mən də həmçinin. Bir neçə il keçib. Sizi sağlam görmək çox gözəldir. Vaxt ayırdığınıza görə təşəkkür edirik.

Prezident İlham Əliyev: Təşəkkür edirəm. Mən bizim bir neçə il əvvəl Bakıdakı görüşümüzü xatırlayıram.

Filip Roq: Bizim səyahət edə bildiyimiz daha yaxşı vaxtlarda.

Prezident İlham Əliyev: Bəli, lakin indi biz özümüzü hazırkı reallığa uyğunlaşdırmalıyıq.

Filip Roq: Tamamilə doğrudur. Yaradılmış imkana görə Sizə təşəkkür edirik. Məni bir neçə həmkarım müşayiət edir. Bizim tərəfdən regional rəhbər xanım Den Ouden, hökumətlə əlaqələr üzrə təmsilçimiz xanım Vildfanq və əlbəttə ki, Azərbaycan üzrə baş menecer Qaçay. Sözsüz ki, bayaq qeyd etdiyim kimi, orada, Sizin gözəl şəhərinizdə şəxsən olmaq istərdim. Siz bütün dünyadakı vəziyyəti başa düşürsünüz. Biz Sizə salamlarımızı çatdırırıq. Mənə gəlincə, öz vətənimdən – Almaniyadan. Sizinlə görüşmək imkanı əldə etmək bizim üçün böyük fürsətdir. Bu mürəkkəb zamanda vaxt ayırdığınız üçün təşəkkür edirik. İlk növbədə, deyərdim ki, ölkənizdə pandemiyanın təsirinin kifayət qədər nəzarət altında olduğunu eşitdiyimə şad oldum. Mən dünya liderləri ilə əlaqə saxladığımdan bu, heç də həmişə belə olmur. Nəhayət bilirsiniz ki, texnologiya və gördüyümüz bütün işlərdən başqa insan sağlamlığı və insan həyatı bizim üçün prioritet təşkil edir. Hər kəsin sağlamlığının qorunması üçün gördüyünüz işlərə görə Sizi və hökumətinizi təbrik edirik. Lakin pandemiya heç də fərq qoymur. Ona görə də biz ehtiyatlı olmalıyıq. İkincisi, bu gün əlaqə saxlamaq imkanına görə Sizə bir daha təşəkkür edirik. Mən deyərdim ki, bizim texnologiyanın bu qeyri-adi zamanda harada ən səmərəli şəkildə istifadə oluna biləcəyini müəyyən etmək üçün son bir neçə ayda bir çox dünya liderləri ilə ünsiyyət saxlamaq imkanımız olub. Bununla bağlı Sizinlə bir qədər söhbət etmək imkanına malik olmaq istərdim.

Prezident İlham Əliyev: Təşəkkür edirəm, çox sağ olun. Bu yeni reallıqda sizi yenidən görməyə çox şadam. Sizin bu videokonfransı təşkil etmək təşəbbüsünüzü qiymətləndirirəm. Çünki həyat davam edir. Baxmayaraq, əlbəttə ki, bu pandemiya bizim ənənəvi həyat tərzimizə ciddi şəkildə müdaxilə edir, bununla belə, biz özümüzü reallığa uyğunlaşdırmalıyıq. Bizim pandemiyanın öhdəsindən gəlməklə bağlı səylərimiz barədə sözlərinizə görə sizə təşəkkür edirəm. Həqiqətən də Azərbaycan bu mühüm məsələnin həllində Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən nümunə adlandırılıb. Vəziyyət nəzarət altındadır. Eyni zamanda, biz nəinki təkcə daxili məsələlərə diqqət yetiririk, həmçinin qlobal miqyasda da fəaliyyət göstəririk. Azərbaycan artıq 29 ölkəyə humanitar yardım göstərib və bu proses davam edir. Biz özümüzü beynəlxalq ictimaiyyətin etibarlı üzvü kimi nümayiş etdiririk.

Beləliklə, fəaliyyətimiz və gələcək planlarımıza gəlincə, əlbəttə ki, əsas diqqəti insanların koronavirusdan qorunmasına yönəltdik və bunun bizim iqtisadi artımımıza çox mənfi təsir göstərəcəyini aydın şəkildə başa düşürük. Bizim bu il üçün çox böyük perspektivlərimiz var idi və ilin birinci rübü çox ümidverici idi. Lakin indi beş ayın nəticələri ümumi daxili məhsulda kiçik azalmanın – təxminən 1,7 faiz azalmanın olduğunu göstərir. Lakin, eyni zamanda, iqtisadiyyatın bəzi sektorlarında, xüsusilə neft və qazla əlaqəli olmayan sektorlarda artım qeydə alınıb. Bu səbəbdən, bu gün biz məhdudiyyət tədbirlərini uzlaşdırırıq, çünki COVID-19 hələ də mövcuddur. Eyni zamanda, biz ölkəmizi açmağa və həyatımızın müxtəlif sahələrinin fəaliyyətini bərpa etməyə başlayırıq. Beləliklə, ümidvaram ki, bu balanslaşdırılmış yanaşma bizə, ilk növbədə, pandemiyaya qarşı uğurlu mübarizəni davam etdirməyə kömək edə-

cək. Eyni zamanda, biz özəl sektora, xüsusilə pandemiyadan əziyyət çəkən sahələrə, turizm və onunla əlaqəli sahələrin bərpasına yardım edəcəyik.

İki il bundan əvvəl Bakıda keçirdiyimiz görüşdən sonra əməkdaşlığımıza gəlincə, bildiyiniz kimi, biz razılaşma imzalamışdıq. Görüşümüzdən əvvəl mənə məlumat verildi ki, on minlərlə lisenziya verilib və bu məsələ hazırda uğurla davam etdirilir. Bizim piratçılığa qarşı birgə səylərimiz yaxşı nəticələr verir. Gələcək planlarımıza gəlincə, bəlkə də bilirsiniz ki, hazırda biz rəqəmsal transformasiya üzrə hökumət strategiyası üzərində işləyirik. Ümidvarıq ki, bu məsələdə "Microsoft"la yaxşı əməkdaşlıq edə biləcəyik. Bu proqram növbəti 5 il üçün planlaşdırılır. Eyni zamanda, süni intellekt üzrə strategiyanın ətraflı işlənib hazırlanması ilə bağlı məsələlər də bizim gündəliyimizdədir. Kibertəhlükəsizlik hər zaman gündəlikdədir, çünki bu, bütün ölkələrin hazırlıqlı olmalı olduğu məsələdir. İndiyədək bizdə belə böyük hallar olmayıb, lakin heç kim sığortalanmayıb. Ona görə də bu da bizim gələcəyimiz üçün prioritetlər sırasında qalır. Əlbəttə, mən icra olunmuş layihələrin siyahısına baxdım. Aramızdakı əməkdaşlıq çox təsirləndiricidir və əminəm ki, bu, qarşıdakı illərdə tərəfdaşlığımızı gücləndirəcək. Həmçinin pandemiya ilə əlaqədar bu vəziyyət bizi məcbur edir ki, təhsil, distant təhsil məsələlərinə yeni bucaqdan baxaq. Baxmayaraq ki, mövcud vəziyyətə özümüzü uyğunlaşdırmaq üçün bizim çox vaxtımız olmadı, lakin müəyyən addımlar atılmışdır. Çünki bizim məktəb və universitetlərimiz mart ayından bəri bağlanıb. Biz sentyabrın 15-dən başlayacaq yeni tədris ilinə hazırlaşmalıyıq. Həmin zaman pandemiya ilə bağlı vəziyyətin necə olacağını bilmirik, məktəb və universitetləri aça biləcəyimizi bilmirik, ona görə də biz ən pis ssenariyə hazırlıqlı olmalıyıq. Əgər problem davam edirsə və getdikcə pisləşirsə, o zaman biz bu barədə düşünməli olacağıq. Lakin indi bu barədə düşünmək lazımdır. Həmçinin distant işlə bağlı məsələlər... Bu da ölkə üçün olduqca vacibdir. Təxminən bunlar bizim planlarımızda diqqətimizi cəmlədiyimiz sahələrdir.

Filip Roq: Təşəkkür edirəm. Düşünürəm ki, bu, bizim əməkdaşlıq etdiyimiz əksər dünya ölkələrinin üzləşdiyi təcrübəyə və hazırkı mövqeyimizə uyğun gəlir. Təhsil mövzusuna gəlincə, zənnimcə, bu, güman ki, bizim əsas nailiyyətlərimizdən biri idi. O mənada ki, biz Sizin təxminən 1 milyon tələbəniz üçün əlaqə qura bilmişik. Düşünürəm ki, o vaxta kimi onların gələcəyinə heç nəyin mane olmamasını təmin etmişik və xoşbəxtlikdən biz evdəyik. Aydındır ki, bu, gələcək üçün vacib investisiyadır. Komandalarımız və tərəfdaşlarımızın mümkün qədər tez müddətdə, bir neçə həftə ərzində hər kəsi əlaqələndirmək üçün sizin nazirlikdəki təhsil işçiləri ilə apardığı işdən qürur duyuram.

Digər ölkələrdə üzləşdiyimiz problem ondan ibarətdir ki, evlərdəki qurğuların sayı məhduddur. Anlayıram ki, bu, sizdə problem deyil. Bu isə yaxşı xəbərdir. Çox ölkələr, əslində, yetəri qədər qurğular əldə etmək üçün çətinlik yaşayıblar. Ana, ata və uşaqlar evdədirlər və kompüterdən istifadə uğrunda mübarizə aparılır. Lakin görünür, sizdə bu problem yoxdur və bu, yaxşı xəbərdir.

Filip Roq "Microsoft"un evdən işləmə təcrübəsi barədə məlumat verərək bildirdi ki, təmsil etdiyi şirkət bir çox ölkələrdə bu cür həll yollarının tətbiqini həyata keçirib və tələb olunan zaman insanların infrastruktura təhlükəsiz çıxışını təmin etmək üçün virtual iş masalarının yaradılması ilə çıxış edib. Kibertəhlükəsizlik məsələsinə toxunan Filip Roq qeyd etdi ki, pandemiya dövründə kiberhücumların sayı artıb. "Microsoft"un vitse-prezidenti bu cür hücumların qarşısının alınması istiqamətində şirkətin gördüyü işlərdən danışdı. Filip Roq "bulud hesablamaları" barədə də danışdı, onun səmərəsi və əhəmiyyəti haqqında məlumat verdi. Vurğuladı ki, bu texnologiya artıq bir çox ölkələrdə istifadə olunur. Filip Roq məmnunluqla bildirdi ki, "Microsoft" şirkətinin süni intellekt platforması Azərbaycan dilini də tezliklə dərk edəcək. O qeyd etdi ki, bu gözəl xəbəri çatdırmaqdan məmnunluq hissi keçirir. Vurğuladı ki, Azərbaycan dilində tərcümə xidmətinin istifadəyə verilməsini səbirsizliklə gözləyir.

Bunun iqtisadiyyatın qloballaşmasında, onlayn və oflayn iqtisadiyyatın aparılmasında, turizmin inkişafında rolunu vurğulayan "Microsoft" şirkətinin vitse-prezidenti Filip Roq dedi:

– Bu texnologiya, həmçinin qlobal bazara daxil olmaq üçündür. Çünki "bulud hesablamaları" elə bir qlobal bazar ərazisidir ki, buraya hər kəsin çıxışı var. Səmərəli olaraq Azərbaycandan ən yaxşı istedadlı insanlar qlobal bazarda rəqabət apara bilərlər, onların həqiqi "bulud hesablamaları" üzrə iqtisadi gücə malik olması üçün San Fransiskodan, Silikon Vadisindən fəaliyyət göstərməsinə lüzum yoxdur. Hesab edirəm ki, əsaslı dəyişikliyin arxasında iqtisadi imkanlar durur. Mənim təklifim bu məsələləri düşünmək, bizim birlikdə insanların rəqəmsal bacarıqları üzrə proqramları, startapları, istər geniş mənada, istərsə də startap mənasında necə irəli aparmağımızı nəzərdən keçirməkdən ibarətdir. Hesab edirəm ki, çoxlu imkanlar mövcuddur.

Sonra Azərbaycanın Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə çıxış edərək dedi:

– Cənab Prezident, hörmətli həmkarlar, biz "Micrsofot"la bütün sahələrdə, xüsusilə açıq açar infrastrukturu ilə mübarizə, kibertəhlükəsizlik, informasiya texnologiyalarının təhsildə tətbiqi və internet əşyalar texnologiyası və kadrların təlimi kimi sahələrdə sıx əməkdaşlıq edirik. Sizin göstərişinizə müvafiq olaraq, cənab Prezident, biz hökumət agentlikləri üçün li-

senziyalı proqram təminatını almaq məqsədilə 2018-ci ildə müqavilə imzaladıq. Biz şirkətin Azərbaycandakı nümayəndəliyi ilə görüşlər keçirdik, yeni təklifi və yeni layihələrin inkişafını müzakirə etdik. Diqqətiniz üçün təşəkkür edirəm.

Daha sonra çıxış edən Prezidentin köməkçisi Şahmar Mövsümov dedi:

– Çox sağ olun, cənab Prezident. Hesab edirəm ki, "Microsoft" şirkəti ilə çox yaxşı əməkdaşlıq qurmuşuq. Hazırda biz innovativ yanaşmalar əsasında iqtisadi inkişafa nail olmaq üçün Azərbaycanın innovasiya strategiyası üzərində işləyirik. Biz bu məsələdə də "Microsoft" şirkəti ilə əməkdaşlıq edirik. Biz "Microsoft" şirkətini daha da fəal olmağa çağırırıq. Hesab edirik ki, Azərbaycanın regionumuzda innovasiyaların mərkəzi olmaq üçün Silikon Vadisi kimi Abşeron Vadisini yaratmaq məqsədilə böyük potensialı var. Bu məsələdə biz "Microsoft" şirkətinin fəal iştirakını yüksək qiymətləndiririk. Çox sağ olun, cənab Prezident.

Prezident İlham Əliyev: Həmçinin onu qeyd etmək istəyirəm ki, Azərbaycan artıq sənaye inqilabı üzrə regional mərkəzə çevrilir. Bu dəfə Davos İqtisadi Forumu zamanı cənab Borge Brende və mən Davosun Dördüncü Sənaye İnqilabı üzrə Regional Mərkəzinin Bakıda yaradılması ilə bağlı sənədi imzaladıq. Beləliklə, bu mərkəz nəinki təkcə Azərbaycanı, region ölkələrini də əhatə edəcək. Buna görə düşünürəm ki, bizim üçün daha da irəliləmək və sizinlə innovasiya mərkəzi üzərində çalışmaq təbii olardı. Bizim əsas strategiyamız sizin də bildiyiniz kimi, karbohidrogen ehtiyatlarından asılılığı azaltmaq və innovasiyalar, yeni texnologiyalar və müasir idarəçilik əsasında dayanıqlı inkişafa nail olmaqdır. Buna görə düşünürəm ki, bu məsələ üzərində birgə çalışmağımız əməkdaşlığımızı gücləndirə bilər.

"Microsoft" şirkətinin Mərkəzi və Şərqi Avropa üzrə "Multicountry" klasterinin baş meneceri Anke den Ouden Azərbaycanın müvafiq nazirlikləri ilə əməkdaşlıqdan danışdı, təmsil etdiyi şirkət tərəfindən hazırlanan innovasiyalar barədə məlumat verdi.

"Teams" proqramının təhsil işçiləri, eyni zamanda, müəllimlər üçün çox faydalı olduğunu vurğulayan Anke den Ouden dedi:

– Biz nəinki Azərbaycan dilinin dəstəklənməsinə sadiqik, eyni zamanda, "Teams" proqramının məlumatlarının dəstəklənməsini də öz öhdəliyimiz kimi görürük. Siz təhsil sahəsində ən innovativ ölkələrdən birisiniz. Biz bu işi davam etdirmək istərdik. Arxa fonda Azərbaycan məkanları, gözəl landşaft, şəhər mənzərələri var. Yaxşı şəkil çəkmək olardı.

"Microsoft Azərbaycan" şirkətinin baş meneceri Qaçay Mirzəyev ölkəmizdə şirkət tərəfindən həyata keçirilən işlərə toxundu. Vurğuladı ki, "Microsoft Azərbaycan" şirkəti öhdəlikləri milli strategiyaya uyğun həyata keçirir.

Filip Roq: Təşəkkür edirəm cənab Prezident, vaxt ayırdığınıza və dəstəyinizə görə minnətdaram. Bu, bizim üçün imkandır. Biz hamımız gələcək imkanları səbirsizliklə gözləyirik və işi davam etdirmək əzmində olan komanda kimi bilirik ki, çoxlu imkanlar var. Hər şeydən əvvəl biz Bakıya qayıtmağı həqiqətən də səbirsizliklə gözləyirik. Mən, həmçinin ötən həftə təəssüf ki, Formula 1 Qran-Prisinin başa düşülən səbəblərdən baş tutmayacağını oxuyanda kədərləndim. Ən azı sizdə virtual Qran-Pri oldu və mən onu gördüm. Sizə səhiyyə sahəsində, iqtisadi sahədə uğurlar arzulayıram, investisiya yatırılmasının davam etdirilməsində və sabahın transformasiyası üçün yol xəritəsinin yaradılmasında yardımımıza arxalanın. Biz Sizin sərəncamınızdayıq və bizim imkanlardan məqsədəuyğun saydığınız kimi istifadə edin. Biz Sizin üçün buradayıq.

Prezident İlham Əliyev: Təşəkkür edirəm. Bu videobağlantıya görə təşəkkür edirəm. Bu, 2018-ci ildə Bakıda keçirilmiş görüşümüzdən sonra görülmüş işlərə nəzər salmaq və gələcək addımları planlaşdırmaq üçün yaxşı imkandır. Düşünürəm, artıq 15 ildən çoxdur ki, "Microsoft" Azərbaycanda fəaliyyətə başlayandan bu yana davam edən tərəfdaşlığın böyük potensialı və böyük gələcəyi var. Biz qarşıdakı uzun illərdə tərəfdaş olacağıq. Bir daha təşəkkür edirəm. Sizi görməyə məmnun oldum. Sizə uğurlar arzulayıram. Pandemiyadan sonra sizi Bakıda görməyə ümid edirəm.

Filip Roq: Mütləq. Şəxsən təşəkkür edirəm.

Prezident İlham Əliyev: Təşəkkür edirəm.

## *İlham Əliyevlə Dünya Bankının yeni vitse-prezidenti və digər nümayəndələri arasında videokonfrans keçirilib*

Videokonfrans iştirakçılarını salamlayan Prezident İlham Əliyev dedi:

– Sizi görmək çox xoşdur.

Anna Byerde: Təşəkkür edirik. Qarşılıqlıdır. Günortanız xeyir.

Prezident İlham Əliyev: Günortanız xeyir. Sizin sabahınız xeyir. Sizdə səhərdir.

Anna Byerde: Bəli.

Prezident İlham Əliyev: Şadam ki, gələcək planlarımız barədə danışmaq və ola bilsin ki, artıq görülmüş işlərə nəzər salmaq üçün imkanımız var. Biz Dünya Bankı ilə əməkdaşlığın səviyyəsindən çox məmnunuq. Azərbaycana və sizin maliyyə dəstəyinizlə həyata keçirdiyimiz mühüm layihələrə göstərdiyi davamlı dəstəyə görə Dünya Bankına çox minnətdarıq. TANAP-a göstərdiyiniz dəstəyə görə xüsusi təşəkkürlər. Yəqin ki,

bildiyiniz kimi, Cənub Qaz Dəhlizi layihəsinin icrası sona yaxınlaşır. Ümidvarıq ki, bütün tikinti işlərini bir neçə aya tamamlayacağıq. Əlbəttə ki, Dünya Bankının Cənub Qaz Dəhlizinin ən mühüm hissələrindən olan TANAP-ın icrasına verdiyi töhfə yüksək qiymətləndirilir. Sözsüz ki, bu, digər bankların da bu mühüm layihəni dəstəkləməsi üçün yaxşı siqnal oldu.

Mən, həmçinin artıq icra edilmiş layihələri nəzərdən keçirirdim. Onlar bir çox sahələri əhatə edir. Biz çox mühüm töhfəyə görə olduqca minnətdarıq, ümumilikdə layihələrə 3,5 milyard dollardan çox vəsait ayrılıb. Əlbəttə, bizim gələcək üçün daha çox planımız, ölkənin müasirləşdirilməsi, iqtisadiyyatımızın qeyri-enerji sektorunun inkişaf etdirilməsi və sözsüz ki, infrastruktura investisiya yatırılmasının davam etdirilməsi ilə bağlı planlarımız var. Beləliklə, mən əminəm ki, gələcəkdə çox müsbət əməkdaşlığımız olacaq.

Mən, həmçinin özünüməşğulluq proqramı ilə bağlı bizə dəstək göstərilməsinə dair müraciətimə dərhal cavab verdiyinə görə Dünya Bankına xüsusi minnətdarlığımı bildirmək istərdim. Həmin müraciət 2019-cu ilin yanvarında təqdim olunmuşdu və bir ildən də az müddət ərzində biz artıq bütün hazırlıq işlərini tamamlamışıq. Mənə məlumat verilib ki, Dünya Bankının özünüməşğulluq layihəsində iştirakı təxminən 100 milyon ABŞ dolları həcmində olacaq. Buna görə təşəkkür edirik. Bu il biz bu proqramla 15 minə yaxın adamı əhatə etməyi planlaşdırırıq və əlbəttə, ki, Dünya Bankı tərəfindən əlavə maliyyələşdirmə yüksək qiymətləndirilir və alqışlanır.

Anna Byerde: Təşəkkür edirəm, Zati-aliləri. İlk növbədə, bu görüşü təşkil etdiyinizə görə çox sağ olun. Mən Sizinlə görüşməkdən həqiqətən də məmnunam. Mən Sizinlə Azərbaycanda görüşməyi çox istərdim. Amma dünyada baş verənləri nəzərə alsaq, hələ ki, görüşləri bu cür keçirməli olacağıq. Lakin çox yaxın gələcəkdə Sizinlə Azərbaycanda görüşəcəyimə ümid edirəm. Mən, həmçinin tərəfdaşlığa görə və birlikdə bir çox sahələrdə işlədiyimiz komandaya minnətdarlığımı bildirmək istərdim. Əlaqələrin necə möhkəm olduğunu görməkdən məmnunam. Tərəfdaş kimi Dünya Bankına olan etimadınıza görə Sizə çox təşəkkür edirəm. Mən bu vəzifənin icrasına başladığımdan bu yolu davam etdirməyimizi səbirsizliklə gözləyirəm. Bir daha buna görə təşəkkür edirəm.

Həmçinin mən Dünya Bankı adından Azərbaycanın Beynəlxalq İnkişaf Assosiasiyasına verdiyi töhfəyə görə minnətdarlığımı bildirmək istərdim. Bu addım çox yüksək qiymətləndirilir. Sizin ən yoxsul ölkələr üçün olan fondumuzu dəstəkləməyiniz bizim tərəfimizdən həqiqətən də çox yüksək qiymətləndirilir. Düşünürəm ki, bu, bizim əlaqələrimizi daha irəliyə aparır. Buna görə həqiqətən də minnətdarlığımı bildirmək istərdim. Mənim üçün burada olmaq məmnuniyyətdir. Mən təxminən 5 illik fasilədən sonra regiona qayıdıram. Geri qayıtmaq möhtəşəmdir. Mən Dünya Bankındakı fəaliyyətimin əhəmiyyətli bir hissəsini bu regionda keçirmişəm. Bu, mənə çox yaxın olan regiondur. Ötən dəfə regionda olarkən təxminən 4 ay Azərbaycandakı proqrama birbaşa nəzarət etmək mənə nəsib olub. Bu müddət ərzində, həmçinin ölkə ilə tərəfdaşlıq çərçivəsi təsdiq olunub. Mən son bir neçə ildə bu tərəfdaşlıq çərçivəsinin həyata keçirilməsini görməkdən çox məmnun oldum. Mən TANAP layihəsinin ilkin mərhələlərində iştirak etmişəm, ona görə də ona yaxşı bələdəm. Mən bu layihə münasibətilə Sizi bir daha təbrik etmək istəyirəm. Bu, bizim buna bənzər nəyisə dəstəkləyə bilməyimiz və həm kredit əməliyyatlarını, həm də birgə apardığımız işimizi nə dərəcədə yaxşı mənimsədiyimizi göstərən həqiqətən də flaqman layihədir. Mən bir daha təşəkkürümü bildirmək istəyirəm. Birlikdə əldə etdiyimiz yaxşı irəliləyişi davam etdirməyi və onu daha yüksək səviyyələrə qaldırmağı səbirsizliklə gözləyirəm. Mən, həmçinin qeyd etməliyəm ki, Azərbaycanla bağlı məlumatları oxuyarkən ölkənin "Doing Business" hesabatında reytinqini görməkdən həqiqətən də məmnun olmuşam. Mən bu münasibətlə də Sizi təbrik etmək istəyirəm. Düşünürəm ki, bu, dəyişikliyin daha bir sübutudur. Siz qeyd etdiyiniz kimi, iqtisadiyyatınızın şaxələndirilməsi üçün "Doing Business"də iqtisadiyyatın inkişafı baxımından yaxşı göstəricidir.

Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə yeni təyin olunan vitse-prezidenti Anna Byerde bildirdi ki, koronavirusun təsirinin olduğu bir dövrdə yaşayırıq. O, ölkəmizdə icra olunan özünüməşğulluq layihəsinə toxundu, kənd təsərrüfatı sahəsində gələcək əməkdaşlıqdan danışdı.

Dünya Bankının ölkəmizdəki rəhbəri Navid Hassan Naqvi 4 il Azərbaycanda fəaliyyət göstərdiyini məmnunluqla qeyd etdi. Vurğuladı ki, fəaliyyətinin başa çatması ilə bağlı ölkəmizi zəngin təəssüratlarla tərk edir. O, dövlətimizin başçısına Dünya Bankının ölkəmizdəki fəaliyyətinə göstərdiyi dəstəyə görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev: Təşəkkür edirəm, Navid. Əlbəttə, təəssüf edirik ki, siz bizi tərk edirsiniz. Eyni zamanda, vaxtın necə sürətlə keçdiyini görürük. Çünki mən görüşdüyümüz ilk vaxtı - sizin Azərbaycanda yenicə fəaliyyətə başladığınız vaxtı xatırlayıram. Artıq 4 il keçib. Biz anlayırıq ki, Dünya Bankının əməkdaşları öz yaşayış və iş yerlərini çox tez-tez dəyişirlər. Lakin mən sizə "Çox sağ ol" demək istəyirəm. Çünki bizimlə olduğunuz bütün bu müddət ərzində siz həqiqətən də əməkdaşlığımıza və vacib layihələrin həyata keçirilməsinə töhfə verdiniz. Gələcək fəaliyyətinizdə sizə uğurlar arzu edirəm. Sizi yenidən Bakıda görəcəyimə ümid edirəm. Bizim qonağımız kimi və ya ola bilsin ki, yeni vəzifədə. Əməkdaşlıq üçün təşəkkür edirəm.

Sonra Dünya Bankının Azərbaycana yeni təyin olunan rəhbəri Sara Maykl çıxış edərək dedi:

– Salam, Zati-aliləri. Mən bu vəzifəyə təyin olunmaqdan həqiqətən şərəf hissi keçirirəm. Mən hökumətlə

birgə çalışmağı, tərəfdaşlığımızı dərinləşdirməyə davam etməyi səbirsizliklə gözləyirəm. Mən əvvəllər Azərbaycanda və regionda çalışmışam. Bura artıq elə bir ölkədir ki, o, mənim ürəyimə yaxındır. Mən bu təcrübədən çıxış edərək irəliyə doğru addımlayacağımıza ümid edirəm.

Prezident İlham Əliyev: Təşəkkür edirəm. Pandemiya bitən kimi biz sizi gözləyirik. Biz yenidən sizi qarşılamaqdan məmnun olardıq. Bizə yad olmamağınız düşünürəm ki, bizim üçün çox yaxşıdır. Siz bizim ölkə ilə tanışsınız. Bizim etdiklərimizin hamısını bilirsiniz. Çünki hazırda – iqtisadi islahatlarımızın bu mərhələsində sizin Azərbaycandakı fəaliyyətiniz bizə kömək edəcək ki, əməkdaşlığı müvafiq qaydada planlaşdıraq və artımı, məşğulluğu yaradan sahələrə diqqəti cəmləyək. Siz bizim şaxələndirmə, sənaye inkişafı ilə bağlı planlarımızdan məlumatlısınız. Ona görə də əminəm ki, siz Bakıda çox məşğul olacaqsınız.

Mən bir daha Dünya Bankının Azərbaycan üçün etdiyi bütün işlərə görə minnətdarlığımı bildirmək istərdim. Bizim "Doing Business" reytinqində irəliləyişlə bağlı xoş fikirləriniz üçün minnətdaram. Bilirsiniz ki, "Doing Business"dəki mövqeyimiz bizim üçün çox uğurlu sahələrə diqqəti cəmləmək üçün bir növ motivasiya idi. Ona görə də hökumətin, administrasiyamın və müvafiq nazirliklərin üzvlərindən ibarət xüsusi komissiya yaradıldı. Biz xüsusilə geridə qaldığımız sahələrə diqqəti yetirirdik. Biz qısa müddət ərzində çox əsaslı irəliləyişə nail ola bildik. Əlbəttə, bu, ölkədəki biznes mühitini yaxşılaşdırır, daha çox investisiyalardan faydalanmağa imkan verir. Təbii ki, biz qeyri-enerji sektoruna investisiya yatırılmasında maraqlıyıq. Bizim üçün hazırda prioritet olan məsələlərə gəlincə mən ümumi şəkildə indiki pandemiya dövründə iki əsas prioritetin olduğunu deyərdim. Çünki biz ilə yaxşı iqtisadi artım göstəriciləri, yaxşı formada olan bütün iqtisadi parametrlərlə birlikdə çox ümidverici başlanğıc etdik. Lakin bu ilin 5 ayı göstərir ki, bizim iqtisadiyyatımız 1,7 faiz azalıb. Bu, çox deyil. Lakin bu, azalmadır. Amma ümidverici fakt ondan ibarətdir ki, bizdə kənd təsərrüfatında artım qeydə alınıb – 3 faizdən çox. Qeyri-enerji sənayesində artım 14 faiz təşkil edib. Ona görə də gələcək üçün bizim nəzərə aldığımız iki əsas məsələ şaxələndirməyə əsaslanan iqtisadiyyatın davamlı inkişafına nail olmaqdır. İkincisi isə, iqtisadiyyatın artımı daha çox iş yerləri ilə müşayiət olunmalıdır. Çünki Azərbaycan əhalisi artan ölkədir. Biz artıq 10 milyondan çoxuq. Əhali artır. Ona görə də xalqımız üçün daha çox iş yerlərinə ehtiyacımız var. Xüsusilə də indi bu yeni texnologiyalarla bir çox iş yerləri artıq bazarda deyil. Yeni işlər peyda olur. Lakin bu yeni iş yerləri üçün bizim insanların xüsusi bacarıqları olmalıdır. Ona görə də bu iki əsas amil bizim hər zaman gündəliyimizdədir. Birgə çalışdığımız digər layihələr arasında artıq proqramımızın mövcud olduğu özünüməşğulluq sahəsindən savayı, digər vacib sahələrdən biri kimi icbari tibbi sığortanın adını qeyd edərdim. Biz ölkə üzrə proqramı yanvardan başlamağı planlaşdırırdıq. Lakin koronavirus səbəbindən biz bunu gələn ilin yanvarına qədər təxirə salmalı olduq. Ancaq artıq proqramın əhatə etdiyi bir neçə şəhərimiz var. Nəticələrimiz yaxşıdır. Ona görə də il bitməzdən qabaq düşünürəm ki, sizinlə müvafiq qaydada bu sistemin necə strukturlaşdırılmasının üzərində işləməyə davam edəcəyik. Çünki bu, bizim üçün yenidir. Bir məsələ ondan ibarətdir ki, bu 1, 2 və 3 şəhərdə tətbiq olunur. İkinci məsələ isə ondan ibarətdir ki, bütün ölkədə tətbiq olunacaq.

Ciddi şəkildə diqqəti cəmlədiyimiz sahələrdən biri də suvarma və su təchizatı ilə bağlı məsələlərdir. Mən gələcək su idarəetmə sistemlərimiz üçün yol xəritəsini yaratmaq məqsədilə Baş Nazirin müavininin rəhbərlik etdiyi xüsusi hökumət komissiyası yaratmışam, bir çox nazir bu komissiyanın üzvüdür. Çünki təəssüf ki, infrastrukturun çox hissəsinin istismar müddəti bitib. Bəzi ərazilərdə bizim 40, hətta 50 faiz su itkimiz olur, təsəvvür edin, su resurslarının çatışmadığı bir ölkədə. Xüsusilə ötən il bizdə ciddi quraqlıq oldu. Bu il də həmçinin. Bilirsiniz, sudan bu cür sui-istifadə qəbuledilməzdir. Ona görə də hökumət bunun üzərində çalışır. Biz ilk addımlarımızı 1 və ya 2 ay ərzində atmağı planlaşdırırıq. Ona görə də maliyyələşmə, nəzarət və məsləhətləşmə baxımından mən Dünya Bankını bizim tərəfdaşımız olmağa dəvət etmək istərdim. Çünki sizin bu sahədə çox böyük təcrübəniz var. Ona görə də bu sahənin gündəliyimizə daxil ediləcək məsələlər arasında adını çəkərdim.

Siz, həmçinin kənd təsərrüfatını qeyd etdiniz. Biz sizinlə bu sahədə çalışırıq. Biz kənd təsərrüfatının rəqabətqabiliyyətliliyini artırmalıyıq və necə irəliləməyimizlə bağlı anlayışımız olmalıdır. Çünki biz təkcə öz resurslarımızla ehtiyaclarımızı təchiz etməli deyilik, həm də daha çox ixrac potensialımız olmalıdır. Bunun üçün biz mövcud ixrac bazarlarına da daha çox cəlb olunmalıyıq və yeni bazarlar haqqında düşünməliyik. Bunlar hamısı sonuncu reabilitasiya mərhələsində olan nəqliyyat və logistik infrastrukturla bağlıdır. Dünya Bankı sayəsində biz bu sahədə çox vacib layihələr icra etmişik. Hazırda biz əsasən Şimal-Cənub nəqliyyat dəhlizi üzərində çalışırıq. Çünki Şərq-Qərb artıq həyata keçirilib. Paytaxt şəhərdən şimal və cənub sərhədlərinə qədər dəmir yolu şəbəkəmizin reabilitasiyası... Dəmir yolu mövcuddur, lakin yeni yük həcmlərinə görə bizim müasirləşməyə ehtiyacımız var. Beləliklə, bu layihə də bizim gündəmimizə daxildir.

Mən, həmçinin məhkəmə sistemimizə dəstəyinizə görə minnətdarlığımı bildirmək istərdim. Mən şəxsən yeni məhkəmə binalarımızın açılış mərasimində iştirak etmişəm. Təkcə binalar deyil, həmçinin sistemlər, texnologiyalar. Bütün bu layihələr Dünya Bankının dəstəyi ilə həyata keçirilmişdir. Pandemiya ilə əlaqədar vəziyyəti nəzərə alaraq təbii ki, postpandemiya dövrü böhranını idarə etmək üçün bizim ölkə strategiyasına ehtiyacımız var. Çünki bizim iqtisadiyyatımızın bəzi

sahələri ciddi şəkildə zərər çəkdi. Xüsusilə də yaxşı nəticələrimiz olan və son 4 ildə artımın olduğu turizm sahəsi. Həqiqətən Azərbaycan turizm xəritəsində maraqlı istiqamətə çevrilib. Beləliklə, pandemiyadan sonra biz bu sektoru canlandırmaq və Azərbaycanı yenidən xarici turistlər üçün cəlbedici etmək istiqamətində çox çalışmalıyıq. Çünki turizm sərbəst konvertasiya olunan valyuta yaradan sektorlardan biridir. Qeyri-neft və qeyri-qaz ixracından gələcək daha çox sərbəst konvertasiya olunan valyuta ehtiyatlarına ehtiyacımız var. Ona görə də kənd təsərrüfatı, turizm, texnologiya düşünürəm ki, bizim diqqətimizi cəmlədiyimiz əsas sahələr olacaq.

Sonra Mərkəzi Bankın sədri Elman Rüstəmov çıxış edərək dedi:

– Təşəkkür edirəm cənab Prezident. Hörmətli xanım vitse-prezident, hörmətli həmkarlar. Mən Dünya Bankı və Azərbaycan arasında uzunmüddətli məhsuldar əməkdaşlığın tarixçəsini qeyd etmək istəyirəm. Bu əməkdaşlığa ötən 15-17 il ərzində təkan verilmişdir və bu müddətdə Azərbaycan iqtisadiyyatı 3 dəfə artmışdır. Yoxsulluq probleminin öhdəsindən gəlinmişdir.

Cənab Prezident, icazənizlə hansı növ antiböhran tədbirlərinin görülməsi ilə bağlı bir neçə söz demək istəyirəm. Bildiyiniz kimi, Azərbaycan bu böhranla əlaqədar çağırışlarla – xüsusilə əsas ixrac etdiyi məhsulların qiymətlərinin düşməsi ilə bağlı çağırışlarla üzləşmişdir. Lakin biz makroiqtisadi sabitliyi qoruya bilmişik, inflyasiyanın səviyyəsi təqribən 3 faizdir. Milli valyutanın kursu sabitdir və mübadilə kursu üzərində heç bir təzyiq yoxdur. Proqnozlara görə, bu ilin sonunadək çox cüzi bir resessiya olacaq. Lakin maliyyə sektorunda vəziyyət çox sabitdir və həmçinin bəzi qeyri-sabit bankların sistemdən çıxarılmasına nail olmuşuq. Həmçinin cənab Prezident, qorunan əmanətlərin sığortalanması üzrə qanunun müddəti artırılmışdır və maliyyə sektorunda sabitliyin qorunması üzrə bütün addımlar atılacaq.

Elman Rüstəmov Dünya Bankı ilə potensial əməkdaşlıq sahələrindən danışdı. Qeyd etdi ki, keçən il Dünya Bankı ilə yeni milli iqtisadi inkişaf strategiyasının hazırlanması üzrə danışıqlara başlanıb. Hazırda biz 2016–2020-ci illəri əhatə edən ölkə tərəfdaşlıq strategiyaları əsasında çalışırıq və bunun da müddəti cari vəziyyət nəzərə alınaraq bir il artırılmışdır. Mərkəzi Bankın sədri, həmçinin maliyyə sektorunun qiymətləndirilməsi proqramı üzərində çalışmağın hər iki tərəf üçün faydalı olacağına əminliyini ifadə etdi.

Sonra Prezidentin köməkçisi Natiq Əmirov çıxış edərək dedi:

– Çox sağ olun, cənab Prezident. Bildiyiniz kimi, Azərbaycan iqtisadiyyatı COVID-19 qlobal pandemiyası ilə əlaqədar olaraq üçqat fiskal şoka məruz qalmışdır. Birincisi, qlobal ticarətin və artımın azalması nəticəsində neftin qiyməti kəskin şəkildə aşağı düşdü. İkincisi, neftin qiymətinin düşməsindən sonra pandemiya ilə əlaqədar karantinə qədər gəlirlərin, həmçinin iqtisadi və investisiya fəaliyyətinin azalması müşahidə olundu. Üçüncüsü, pandemiyaya görə səhiyyə, sosial və maliyyə sektorlarına dəstək xərcləri artmışdır. Bu mənfi vəziyyətə baxmayaraq, vergi və gömrük orqanlarının güclü fəaliyyəti sayəsində bu ilin ilk beş ayı üzrə büdcənin icrası müsbət olmuşdur. Büdcə profisiti 1,1 milyard manat təşkil etmişdir.

Natiq Əmirov bildirdi ki, gələcəkdə büdcə siyasəti sosial müdafiə və iş yerləri ilə makroiqtisadi sabitliyə dəstəyin göstərilməsi və neft fondunda rahat rezervlər səviyyəsinin saxlanılması arasında optimal balansı tapmaqdan ibarət olan əsas hədəfə cavab verməlidir. O, bunun üçün qaydaları hazırlamaq və optimal balansı tapmaq məqsədilə Dünya Bankı ilə əməkdaşlığı davam etdirməyin məqsədəuyğunluğunu vurğuladı.

Xanım Anna Byerde ölkəmizi yaxşı makroiqtisadi və fiskal göstəricilərə malik olması münasibətilə təbrik etdi. O, Azərbaycanın koronavirusun vura biləcəyi ziyanı minimuma endirmək üçün müvafiq tədbirlər həyata keçirdiyini dedi və bunu yüksək qiymətləndirdiklərini bildirdi. Vitse-prezident ölkəmizlə strategiya və sosial-iqtisadi inkişaf proqramı üzrə birgə əməkdaşlığa hazır olduqlarını vurğuladı. Anna Byerde qeyd etdi ki, iqtisadiyyatın şaxələndirilməsi və sosial sektora diqqətin artırılması çox vacibdir və Azərbaycan bu istiqamətdə ardıcıl işlər görür. O, Dünya Bankının tibbi sığorta, su sektoru, kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi, turizm, texnologiyalar və digər sahələrdə də ölkəmizlə əməkdaşlığa hazır olduğunu bildirdi.

Sonra Bankın Cənubi Qafqaz üzrə regional direktoru Sebastian Molineus çıxış edərək dedi:

– Zati-aliləri cənab Prezident, Sizi yenidən görmək həqiqətən çox xoşdur. Sizinlə görüşmək üçün bu, üçüncü fürsətdir və hər görüşümüzdə tərəfinizdən verilən yüksək səviyyəli strateji yönləndirmə və tövsiyələriniz bizim gələcək əməkdaşlığımız üçün gözəl yol xəritəsi təşkil edir.

Bizim uzunmüddətli tərəfdaşlığımızı bir daha vurğulamaq istəyirəm. Bu, artıq dələlərlə qeyd edilib. Biz müstəqilliyinin ilk illərindən, həmçinin 2008-ci və 2011-ci illərdə dünyada yaşanan iqtisadi böhran zamanı Azərbaycanın yanında olmuşuq. Biz COVID-19 pandemiyası dövründə də Sizin güclü tərəfdaşınız olmaq niyyətindəyik. Cənab Prezident, istəyirəm biləsiniz ki, biz bütün bilik və maliyyə resurslarımızla Sizin yanınızdayıq və hər hansı digər bir dəstəyə ehtiyacınız olduğu təqdirdə biz buna hazırıq.

Burada eşitdiyim tövsiyələrinizlə bağlı qeydlərimi bildirmək istəyirəm. Birincisi strategiyaya aiddir. Burada bizim şaxələndirmə və inkişafla bağlı misilsiz imkanımız var və Siz də bunu qeyd etdiniz. Mən dövlət investisiyaları yönümlü modeldən özəl sektorun inkişafı modelinə keçidi nəzərdə tuturam. Bu, Azərbaycana yeni bir mövqedən çıxış etməyə imkan verə bilər. Biz hökumətinizlə ilkin müzakirələrə başlamışıq və bizim vitse-prezidentin qeyd etdiyi kimi, bunu saziş forma-

sında rəsmiləşdirməyimiz işlərin qısa zamanda həyata keçirilməsini mümkün edəcək.

Zənnimcə, bugünkü qlobal böhran inkişafa bir növ yeni təkan verə bilər. Beləliklə, cəmiyyətdə sosial razılığın bərqərar olunması və insanların buna inamı təmin edilə bilər. İqtisadi artım və məşğulluq məsələləri istənilən strategiya üçün olduqca əhəmiyyətlidir və mən bunu yüksək qiymətləndirirəm. Biz uzun illər ərzində hər iki mövzu üzərində geniş şəkildə çalışmışıq.

Dünya Bankı və şəxsən mən yeni iş yerlərinin yaradılması üzərində uzun müddət çalışırıq. Biz 20 il ərzində Dünya Bankı tərəfindən məşğulluq sahəsində icra olunmuş layihələri yenidən təhlil edərək burada özəl sektorda dayanıqlı iş yerlərinin yaradılmasında yardımçı ola biləcək 3-4 mühüm amili müəyyən etdik. Birincisi, maliyyə resurslarının əlçatanlığı, yəni, inkişaf gündəliyini dəstəkləyən maliyyə sektorunun mövcudluğudur. İkincisi, bazarlara çıxışdır. Bu gün qlobal səviyyədə təchizat zəncirində mövcud olan gərginlik Azərbaycana yeni mövqedən çıxış etməyə, Avropa və Asiya arasında bağlantı yaradaraq həlledici rola malik olmağa imkanı verə bilər.

Sebastian Molineus böyük və kiçik şirkətlərə istehsal gücünün və səmərəliyin artırılması məqsədilə müasir texnologiyaların geniş tətbiqində ölkəmizlə əməkdaşlığı davam etdirmək, həmçinin Azərbaycanda dünya səviyyəli səhiyyə sisteminin yaradılması prosesinə, ölkəmizdə su ehtiyatlarının güclü idarəçiliyi, infrastrukturun gücləndirilməsi və su ehtiyatlarından tam şəkildə səmərəli istifadəyə yardımçı olmaq niyyətlərindən danışdı. O, Prezident İlham Əliyevin turizm, kənd təsərrüfatı sahələrinə diqqətin yönəldilməsi barədə tövsiyələrinin də nəzərdə saxlanılacağını qeyd etdi.

Prezident İlham Əliyev: Görülən işlər və gələcək planlarımızla bağlı dediklərinizə görə təşəkkür edirəm. Pandemiya dövründə Azərbaycan müsbət nəticələr göstərir. Hesab edirəm ki, bu, son vaxtlar başlanılmış çox ciddi islahatların yeni mərhələsi sayəsində mümkün olmuşdur. Burada əsas məsələ kölgə iqtisadiyyatının və qeyri-rəsmi məşğulluğun azaldılmasıdır. Çünki icbari tibbi sığorta yüksək səviyyəli səhiyyə xidmətləri təqdim etməklə yanaşı, qeyri-rəsmi məşğulluqla mübarizədə də bizə yardımçı olacaq. Yəni, hələ də kölgədə fəaliyyət göstərənlər ağ iqtisadiyyata keçməli olacaqlar.

Bu, vacib nailiyyətdir və sizə bir rəqəm deyə bilərəm. Ötən il bizim vergi və gömrük orqanlarımız proqnozdan 600 milyon dollar əlavə vəsait toplayıblar. Əsasən də kölgə iqtisadiyyatının azaldılması sayəsində və bu proses davam edir. Cari ilin ilk 5 ayı ərzində vergi və gömrük orqanları proqnozdan 400 milyon manat artıq vəsait toplayıb. Bu, ticarət münasibətlərinin ciddi zərər gördüyü vaxtda baş verib.

Artıq qeyd edildiyi kimi, bizim milli valyutamız sabitdir və zənnimcə, bu da makroiqtisadi sabitliyin mühüm amillərindəndir. Biz anlayırıq ki, makroiqtisadi sabitlik olmadığı təqdirdə bütün səylərimiz sarsılacaq. Biz işsiz, aztəminatlı və pandemiyadan əziyyət çəkən sahələrdə, məsələn, turizm və digər sahələrdə çalışan yüz minlərlə insanın dəstəklənməsi üçün 2 milyard dollar həcmində sosial və iqtisadi paket təqdim etmişik. Təkcə kiçik sahibkarların sayı 600 minə yaxındır.

Beləliklə, biz həmin vəsaitləri pandemiyadan əziyyət çəkmiş insanlara lazımi dəstəyin göstərilməsi üçün ayırmışıq. Qeyd edildiyi kimi, bank sistemində, həmçinin dəyişikliklər gedir və bəzi bankların lisenziyası ləğv edilmişdir. İnsanların sığortalanmış bütün əmanətləri hökumət tərəfindən təmin edilmişdir.

Həmçinin bildirmək istərdim ki, pandemiya zamanı biz qlobal səviyyədə çox fəal çalışdıq. Biz artıq 29 ölkəyə humanitar yardım göstərmişik. Eyni zamanda, hazırda biz 120 ölkənin üzv olduğu Qoşulmama Hərəkatına sədrlik edirik və həmin təşkilatın onlayn Zirvə görüşünü keçirdik. Həmin tədbir çox uğurlu oldu. Biz Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar həcmində maliyyə yardımı göstərmişik. Bu, bizim beynəlxalq öhdəliklərimizin bir hissəsi idi.

Strategiyanın formalaşdırılmasına gəldikdə, biz Dünya Bankının iştirakını çox alqışlayırıq. Fikrimcə, bu, gələcəyimizin planlaşdırılmasında bizə elə yardım edəcək ki, hədəfləri müəyyənləşdirəndə onlara nail ola bilək. Bir sözlə, strategiya məzmuna uyğun çox konkret olmalıdır və onun sayəsində biz dayanıqlı inkişaf məqsədlərinə və enerji sektorundan asılılığın azaldılmasına nail olmalıyıq.

Beləliklə, Cənub Qaz Dəhlizi istismara veriləndən sonra əlbəttə ki, Azərbaycanın enerji sektoru daha çox potensial qazanacaq. Qeyri-enerji sektoru onunla rəqabət apara bilməyəcək, lakin hesab edirəm ki, iqtisadiyyatımızın əsas aparıcı qüvvəsi özəl sektor olacaq. Bu baxımdan, mən Dünya Bankı nümayəndələrinin söylədikləri ilə tam razıyam.

Səhiyyə sektoruna gəldikdə, fikrimcə, son on altı il ərzində səhiyyə infrastrukturuna yatırdığımız sərmayələr, hazırda bizə koronavirusla mübarizə aparmaq imkanını yaratdı, çünki səhiyyə sistemimiz daha çox insanları müalicə etməyə qadirdir. Əfsuslar olsun ki, sərt məhdudiyyətlərin aradan qaldırılmasından sonra ölkəmizdə yoluxan insanların sayında artım var. Lakin səhiyyə sistemimiz bunun öhdəsindən gəlir. Ümid edirəm ki, gələcəkdə də bu imkanlar olacaq. Bir sözlə, səhiyyə sistemi yaxşı keyfiyyətini göstərməkdədir. Lakin əlbəttə ki, bizim ciddi təkmilləşdirməyə ehtiyacımız var və bunun üzərində birmənalı olaraq işləyəcəyik.

Su layihələri haqqında söylədiyim məqamlara qayıdaraq, cənab Molineisun söylədiyi "su təhlükəsizliyi" termini ilə tam razıyam. Bu, həqiqətən də bizim üçün təhlükəsizlik məsələsidir. Tam razıyam ki, biz bu sahəyə görə məsuliyyət daşıyan şirkətlərimizin və dövlət təşkilatlarının strukturunun lazımi qaydada formalaşdırılması məqsədilə təsisat əsasları üzərində çalışmalıyıq. Biz infrastruktura ciddi sərmayələr qoya-

cağıq. Bunlar bizim builki dövlət sərmayə proqramında əks olunub. Ümid edirik ki, Dünya Bankı ilə birgə infrastruktur və qənaət sahəsində biz daha geniş miqyasda işləyə bilərik. Burada qənaətə yeni texnologiyaların tətbiqi və lazımi idarəçilik nəticəsində nail olunması nəzərdə tutulur.

Qaldırmaq istədiyim digər bir məsələ də var və o, daim bizim gündəliyimizdədir. Həmin məsələ ətraf mühitin qorunmasıdır. Bu, xüsusən də Bakı və Abşeron yarımadasına aiddir. Həmin yerlərdə əsrlər boyu neft və qaz hasilatı bizim üçün çox ciddi çətinliklər yaratmışdır. Biz böyük həcmdə təmizləmə əməliyyatlarını aparırıq, lakin ola bilsin, bizə daha çox dəstək lazımdır. Bu, xüsusən də texnologiya və məsləhətlər baxımdan verilə biləcək dəstəyə aiddir. Buna görə, fikrimcə, gələcək əməkdaşlığımızın sahələrindən biri Abşeronda və Bakıda neftlə çirklənmiş sahələr üzrə ekoloji layihələrin həyata keçirilməsi ola bilər.

Anna Byerde indiki gərgin bir dövrdə keçirilən bu görüşdə faydalı müzakirələrə imkan yaratdığı üçün Prezident İlham Əliyevə təşəkkürünü bildirdi. O qeyd etdi ki, Dünya Bankı təmasların qurulmasına, Azərbaycanda islahatların sürətlənməsinə bundan sonra da dəstək verməkdən çox məmnun olardı.

Prezident İlham Əliyev: Sağ olun, xanım vitse-prezident. Təşəkkür edirəm, əziz dostlar. Bu təşəbbüsə görə minnətdaram. Mən apardığımız müzakirədən çox razı qaldım. Fikrimcə, biz bütün mühüm sahələri əhatə etdik. Bu gün fikir mübadiləsi apardığımız ideyaları icra etməyə başlayacağıq. Ümid edirəm ki, gələcəkdə bizim əməkdaşlığımız keçmişdəki kimi uğurlu olacaq. Əlbəttə, zaman keçir, yeni çağırışlar və prioritetlər ortaya çıxır. Lakin hesab edirəm ki, müzakirə etdiyimiz bütün məsələlər birgə səylərimiz sayəsində reallığa çevrilə bilər. Azərbaycana verdiyiniz davamlı dəstəyə və bu imkanlara görə bir daha minnətdaram. Sizi pandemiya bitən kimi Bakıda görməyimə ümid edirəm.

Anna Byerde: Sağ olun.

Prezident İlham Əliyev: Minnətdaram. Sizə uğurlar arzulayıram, sağ olun.

## *Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında sammitində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı*

– Sağ olun, cənab sədr. Xanımlar və cənablar.

Azərbaycan Şərq Tərəfdaşlığının fəal tərəfdaş ölkəsidir. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindəndir. Bizim Avropa İttifaqının bir çox üzv ölkəsi ilə sıx əməkdaşlığımız mövcuddur. Azərbaycan Avropa İttifaqının 9 üzvü ilə strateji tərəfdaşlıq haqqında sənəd imzalayıb. Biz Avropa İttifaqı ilə yeni tərəfdaşlıq sazişi ilə bağlı danışıqların yekun mərhələsindəyik. Mətnin 90 faizi artıq razılaşdırılıb. İki il bundan əvvəl Brüsseldə Azərbaycan və Avropa İttifaqı arasında "Tərəfdaşlıq Prioritetləri" sənədi paraflanıb ki, burada hər iki tərəfin müstəqillik, suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə sadiqliyi vurğulanır. Ermənistan və Azərbaycan arasında olan münaqişə eyni prinsiplər əsasında həll edilməlidir. Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin işğalını davam etdirir. Dağlıq Qarabağ və Azərbaycanın daha 7 rayonu 30 ilə yaxındır ki, Ermənistanın işğalı altındadır. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş bütün ərazilərindən qeyd-şərtsiz və tam çıxarılmasını tələb edir. Ermənistan bu qətnamələrə, habelə ATƏT, Qoşulmama Hərəkatı, NATO, Avropa Parlamenti və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş müvafiq sənədlərə əməl etmək əvəzinə işğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşma siyasəti həyata keçirir. Danışıqların mahiyyət və formatını məhv etməyə çalışan Ermənistanın baş nazirinin dediyinin əksi olaraq, Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ Azərbaycandır və bütün dünya bunu belə tanıyır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır.

İşğala və humanitar fəlakətə baxmayaraq, Azərbaycan sosial-iqtisadi inkişafda böyük nəticələr əldə edib. Son 16 ildə ümumi daxili məhsulumuz 3 dəfə artıb, yoxsulluq səviyyəsi 49 faizdən 5 faizə enib. Avropa İttifaqı bizim əsas ticarət tərəfdaşımızdır. Ticarətimizin təqribən 50 faizi üzv dövlətlərin payına düşür. On beş ilə yaxındır ki, Azərbaycan Avropa bazarlarına xam neft nəql edən etibarlı təchizatçıdır. Yaxın zamanda biz Avropa İttifaqının üzv dövlətlərini təbii qazla təchiz etməyə başlayacağıq. Ölkəmiz Azərbaycanı Avropa İttifaqı bazarlarına bağlayacaq 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi olan Cənub Qaz Dəhlizinin tikintisinin təşəbbüskarı olmuş və onu maliyyələşdirmişdir. Cənub Qaz Dəhlizi enerji əməkdaşlığı, enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsidir.

Koronavirus pandemiyasına qarşı görülmüş tədbirlər bizə vəziyyəti nəzarətdə, itkiləri isə minimum səviyyədə saxlamağa imkan verib. Ümumdünya Səhiyyə Təşkilatı koronavirusla mübarizədə Azərbaycanı nümunəvi ölkə adlandırıb. Qoşulmama Hərəkatının 120 üzv ölkəsinin yekdil qərarı ilə 2019-cu ildə təşkilata sədr seçilən Azərbaycan bu il mayın 4-də Hərəkatın COVID-19-a həsr edilmiş onlayn formatda Zirvə görüşünü təşkil etmişdir. Biz Avropa İttifaqı və Afrika İttifaqının həmin

tədbirə qoşulmalarını yüksək qiymətləndiririk. Ali nümayəndə cənab Jozep Borelə videomüraciətinə görə təşəkkürümü bildirmək istəyirəm. Ümid edirik ki, bu, Avropa İttifaqı və Qoşulmama Hərəkatı arasında fəal əməkdaşlığın başlanğıcı olacaqdır. Biz, həmçinin BMT Baş Assambleyasının COVID-19-a həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi iclasının keçirilməsini təklif etmişik. Azərbaycan pandemiya ilə mübarizə üçün Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə yardımı ayırmışdır. Eyni zamanda, ölkəmiz bu günə qədər 29 dövlətə humanitar yardım göstərib və bu işi davam etdirməyi planlaşdırır. Sağ olun.

* * *

Ermənistanın baş naziri Nikol Paşinyan ermənicə replika atır.

Şarl Mişel: Bizə tərcümə gəlmir, Paşinyan.

Nikol Paşınyanın replikası: Üzr istəyirəm, müdaxilə etməliyəm. Bu yaxınlarda Avropa İnsan Hüquqları Məhkəməsi qərar verib ki, Azərbaycan öz ərazisində ermənilərə qarşı irqçı siyasət həyata keçirib. Ermənini yatarkən balta ilə qətlə yetirmiş və Avropa İttifaqına üzv dövlətin məhkəməsi tərəfindən ömürlük həbs cəzasına məhkum edilmiş Azərbaycan vətəndaşı həmin ölkədən ekstradisiya ediləndən sonra cənab Əliyev tərəfindən əfv olunmuşdur. Bu şəxs Azərbaycanda hər kəs tərəfindən qəhrəman kimi vəsf edilir. Dağlıq Qarabağ erməniləri balta ilə qətlə yetirilməmək üçün özünümüdafiə hüququna malikdir.

Mən üzr istəyirəm, ancaq hesab edirəm ki, Şərq Tərəfdaşlığı platforması zorakılığa təhrik etmək üçün deyildir. Burada tərəfdaşlıq təşviq edilməlidir. Mən Azərbaycan Prezidentini təklif etdiyim konstruktiv məcraya və formulaya qayıtmağı dəvət edirəm ki, bu formulaya əsasən Dağlıq Qarabağ münaqişəsinin həlli Dağlıq Qarabağ, Ermənistan və Azərbaycan xalqları üçün məqbul olmalıdır.

* * *

Sonra Prezident İlham Əliyev yenidən söz alaraq çıxış etdi:

– Çıxışımda dediklərim beynəlxalq təşkilatların qətnamələrinə əsaslanan tarixi həqiqətdir. Birincisi, bu, hər kəsə bəlli olan bir faktdır ki, Ermənistan Azərbaycanın ərazisini işğal edib. İkincisi isə Ermənistanın baş nazirinə irqçilik haqqında danışmağı məsləhət görməzdim, çünki erməni terrorçuları dünyaca məşhurdurlar. Parisin Orli hava limanında terror hadisəsi törədən Karapetyan soyadlı şəxs sonradan Ermənistana ekstradisiya edilib və Ermənistan prezidenti tərəfindən əfv olunub. Məhz buna görə belə məsələlər ətrafında müzakirə gedəndə ona sakit oturmağı tövsiyə edərdim. Burada çıxışımı yekunlaşdırıram.

## *İlham Əliyev və Ümumdünya Turizm Təşkilatının Baş katibi arasında videokonfrans keçirilib*

İyunun 30-da BMT-nin Ümumdünya Turizm Təşkilatının təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə bu təşkilatın Baş katibi Zurab Pololikaşvili arasında videokonfrans keçirilib.

Zurab Pololikaşvilini salamlayan Prezident İlham Əliyev dedi:

– Hər vaxtınız xeyir, hörmətli Baş katib. Sizi görməyə şadam. Yenidən görüşmək və ümumi işlər barədə danışmaq üçün yaxşı imkan yaranıb. Əlbəttə, turizm pandemiya şəraitində ən çox zərər çəkmiş sahələrdən biridir. Biz bunu Azərbaycanda da, bütün dünyada da müşahidə edirik. Buna görə təbiidir ki, sizin üzərinizə əlavə yük düşüb. Ona görə ki, əvvələn, pandemiya dövründə turist axını təbii olaraq çox azalıb, lakin postpandemiya dövründə də bu sahənin bərpa olunması, əlbəttə, müəyyən məhdudiyyətlərlə bağlı olacaq.

Bildiyiniz kimi, son vaxtlar Azərbaycana gələnlərin sayının xeyli artması müşahidə olunurdu. Keçən il rekord göstərici qeydə alınıb – 3 milyondan çox əcnəbi vətəndaş Azərbaycana səfər edib. Faiz nisbətində desək, turist axını təqribən 15 faiz artıb. Son 4-5 ildə orta illik artım göstəricisinin 10-24 faiz həddində olmasını nəzərə alsaq, deyə bilərik ki, bu sahə çox geniş vüsət alıb. Biz şadıq ki, özəl sektor bu sahəyə fəal sərmayə qoyur, dövlət də dəstək göstərir. Pandemiya dövründə biz bu sahədə işləyən insanlara maddi dəstək göstərmişik, çünki onlar praktiki olaraq işsiz qalıblar. Sahə bərpa olunmağa başlayana qədər bu dəstək göstəriləcək. Odur ki, mühüm məsələlər barədə danışmaq təşəbbüsünə görə sizə təşəkkür edirəm. Sizi yenidən görməyimə şadam.

Zurab Pololikaşvili: Cənab Prezident, ilk növbədə, bu görüş üçün vaxt ayırdığınıza, bir daha ünsiyyətdə olmaq, söhbət etmək imkanına görə Sizə təşəkkür edirəm. Düz bir il bundan əvvəl, iyun ayında Bakıda olmuşuq, bizim İcraiyyə Şurasının iclası keçirilib. İcraiyyə Şurasının iclası bizim təşkilat üçün ən mühüm hadisələrdən biridir. Səmimi qonaqpərvərlik üçün bir daha təşəkkürümü bildirmək istəyirəm. Bütün qonaqlar çox razı qaldı, hər şey yaxşı oldu. Siz düzgün qeyd etdiniz, bu pandemiya bütün dünyanı cənginə alıb, 2-3 aydır ki, bütün dünya bağlıdır, 150-yə yaxın ölkənin sərhədləri hələ də açılmayıb. Bəlkə də ən çox itki, ən böyük böhran ilə üzləşən turizm sektoru olub, nəinki Azərbaycanda, bütün dünyada tarixdə belə hal olmamışdı. İndi biz heç vaxt görmədiyimiz böhran içindəyik. Bu günə qədər ümumi itkilərin həcmi təqribən 1 trilyon 500 milyon dollara bərabərdir.

BMT-nin Ümumdünya Turizm Təşkilatının Baş katibi Zurab Pololikaşvili son 2 ayda təşkilatın həyata keçirdiyi işlərdən danışaraq qeyd etdi ki, qurum tərəfindən ilk gündən regionlar üzrə fəal ölkələrin, aidiyyəti beynəlxalq təşkilatların daxil olduğu böhran komitəsi yaradılıb, "Evdə qal ki, sabah səyahət edəsən" adlı kampaniya elan olunub. Azərbaycanla Ümumdünya Turizm Təşkilatı arasında əməkdaşlıqdan danışan Zurab Pololikaşvili mehmanxanaların sertifikatlaşdırılması üzrə layihənin dövlətimizin başçısı və təşkilat tərəfindən dəstəklənməsini məmnunluqla vurğuladı.

Prezident İlham Əliyev: Sağ olun. Əvvələn, əməkdaşlığa və Azərbaycanda turizm sektorunu dəstəklədiyinizə görə sizə təşəkkür edirəm. Görüşümüz yadımdadır. O zaman siz nisbətən yaxın vaxtda Ümumdünya Turizm Təşkilatının Baş katibi kimi mühüm vəzifəyə seçilmişdiniz. Zənnimcə, sizin ilk səfərlərinizdən biri Azərbaycana olub. O vaxt biz görüşdük və hətta birlikdə turizm sərgisinə getdik. Beləliklə, görüşlərimizi xatırlayıram və keçən il Bakıda Ümumdünya Turizm Təşkilatının İcraiyyə Şurasının iclasında iştirak etdiyinizə görə də sizə təşəkkürümü bildirmək istərdim. Belə bir mühüm beynəlxalq təşkilatın həmin Şura iclasının Bakıda keçirilməsini biz Ümumdünya Turizm Təşkilatı tərəfindən dostluq və dəstək əlaməti kimi qiymətləndiririk.

Əlbəttə, sizin tövsiyələriniz çox qiymətlidir, biz postpandemiya dövründə onlara riayət edəcəyik. Ona görə ki, siz qeyd etdiyiniz kimi, pandemiya dövründə dünya ölkələrinin çoxu, o cümlədən Azərbaycan da öz sərhədlərini bağlayıb. Bizim sərhədlərimiz indiyə qədər bağlıdır, onlar yalnız Vətənə qayıtmaq istəyən Azərbaycan vətəndaşlarının qəbulu üçün və Azərbaycanı tərk etmək istəyən əcnəbilərin getməsi üçün açıqdır. Bu, onunla bağlıdır ki, biz, ilk növbədə, insanların təhlükəsizliyi, sağlamlığı, onların həyatı barədə düşünürük. Əlbəttə, virusun Azərbaycana kənardan gətirildiyini nəzərə alaraq hesab edirik ki, indiki mərhələdə yeganə düzgün yol sərhədlərin bağlanmasıdır. Lakin, eyni zamanda, ümid edirik ki, pandemiya zəiflədikcə, o cümlədən bizim sıx əməkdaşlıq etdiyimiz Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə riayət etməklə biz də sərhədləri açacağıq. Bunun nə vaxt baş verəcəyini demək çətindir. Lakin bu, baş verən kimi, əlbəttə, turizm sektorunun bərpasına dair sizin tövsiyələriniz çox gərəkli olacaq.

Bu dövrdə biz nə etmişik? Biz turizm sektorunun işçilərinin əməkhaqqının çox hissəsini ödəmişik ki, onların dolanışıq üçün vəsaiti olsun və bu sahədə sahibkarlar kadr potensialını qoruyub saxlaya bilsinlər. Mənə təəssüflə məruzə edirlər ki, işçilərin sayı müəyyən qədər ixtisar edilir. Buna görə mən hökumətə təlimat vermişəm ki, bu məsələyə baxılsın və turizm sektorunun dəstəklənməsi davam etdirilsin. Ona görə ki, siz yaxşı bilirsiniz, bu potensialı artırmaq çox çətin və məsul məsələdir. Azərbaycanda biz bu istiqamətdə çox fəal irəliləmişik. Əvvəlcə infrastruktur layihələrindən, ölkəmizin təqdimatı ilə bağlı layihələrdən, sərgilərdə iştirak etməkdən, müxtəlif beynəlxalq tədbirlərin keçirilməsindən başladıq. Deməliyəm ki, Azərbaycanda turizmin sürətli inkişafı çox cəhətdən Formula 1 yürüşlərinin keçirilməsi ilə bağlı idi. Birinci yürüş keçiriləndən dərhal sonra turizmin artmasını gördük. Dediyim kimi, hər il bu potensial artır və müxtəlif məlumatlara görə əcnəbilər Azərbaycanda hər il təqribən 1,5-2 milyard dollar pul xərcləyirlər. Yəni, bu, bizim iqtisadiyyata böyük valyuta axını deməkdir. Buna görə də turizm sənayesinin yaradılması üçün çox böyük qüvvə sərf etmişik və otel biznesi ilə məşğul olan iri firmalar, dünyanın aparıcı brendləri Azərbaycana gəliblər. Bunu nəzərə alaraq, əlbəttə, biz bu sahəni itirə bilmərik. Biz kadr potensialını, qazanılmış təcrübəni qoruyub saxlamalıyıq. Buna görə dövlət bu sahəni dəstəkləyəcək.

Lakin, əlbəttə, postpandemiya dövründə işi daha düzgün görmək üçün bizə sizin təşkilat tərəfindən tövsiyələr lazımdır. Biz buna çox ümid edirik. Əminik ki, sizin verəcəyiniz məsləhətlərə əməl edəcəyik və onları həyata keçirməklə çalışacağıq ki, bu sahəni maksimum qısa müddətdə bərpa edək. Hərçənd bu, asan olmayacaq. Əlbəttə, biz turizm sahəsində aparıcı ölkələrin, böyük təcrübəyə malik olan və özlərinin iqtisadi inkişafında müəyyən dərəcədə, əhəmiyyətli dərəcədə turizm sektoruna güvənən ölkələrin atdığı addımları diqqətlə izləyəcəyik, lakin əlaqələrimizi də davam etdirəcəyik. Əminəm ki, imkan yaranan kimi sizi yenidən Azərbaycanda görəcəyik.

Zurab Pololikaşvili: Sağ olun, cənab Prezident. Siz hər şeyi çox gözəl qiymətləndirdiniz. Mən özəl sektoru bu cür dəstəklədiyinizə görə Sizə bir daha təşəkkür etmək istəyirəm. Ona görə ki, Siz çox yaxşı qeyd etdiniz, Sizin rəhbərliyinizlə sərf olunmuş qüvvəni və qoyulmuş sərmayələri öz gözümlə görmüşəm. Son 3-5 ildə ölkənizdə turizmə aid rəqəmlərin necə dəyişməsini özüm görmüşəm. Məsələn, Formula 1 kimi layihələr, mehmanxana biznesinə kapital qoyuluşu – bütün bunlar rəqəmlərlə əks olunub. Bizim ilk gündən etibarən ölkələrə göndərdiyimiz tövsiyələrdə özəl biznesə və bu sektorda çalışan insanlara böyük dəstək verilməsindən bəhs edilirdi. Bu dəstəyə görə çox sağ olun.

Bu gün ən vacibi insanlar və onların sağlamlığıdır. Sabahkı günə gəldikdə, Siz çox düzgün qeyd etdiniz ki, biz böyük və inkişaf etmiş ölkələrin bütün yaxşı nümunələrini dəstəkləyəcək və bütün ölkələrə göndərəcəyik. Biz Madriddə, İspaniyada yerləşirik. İspaniya həm özü, həm də turizm biznesi COVID-19-dan zərər çəkmiş ölkələrdən biridir. Onların postpandemiya dövrü üçün çox konkret və çox maraqlı inkişaf planı var.

Biz hökmən Sizinlə əməkdaşlıq edəcəyik və vaxt itirməməyiniz, mövsüm açılan kimi sərhədləri açmağa, ölkənin populyarlaşdırılmasını davam etdirməyə hazır olmağınız üçün Sizə hazır sənəd verəcəyik. Ona görə ki, indi bütün ölkələr öz kampaniyalarına başlamağa hazırdırlar. Hamı beynəlxalq əlaqələrin açılacağı günə

hazırlaşmaq istəyir. Odur ki, hər şey artıq hazırdır və biz birbaşa əlaqə saxlayacağıq, bütün yaxşı ideyaları, Azərbaycanın son illərdə nail olduğu rəqəmlərə mümkün qədər tezliklə qayıtmaq üçün istifadə edilə biləcək bütün yaxşı nümunələri çox fəal şəkildə yayacağıq.

Prezident İlham Əliyev: Çox sağ olun. Biz Ümumdünya Turizm Təşkilatının tövsiyələrinə riayət edəcəyik. Əlbəttə, dediyim kimi, daha çox inkişaf etmiş turizm sənayesinə malik olan ölkələrin addımlarını müşahidə edəcəyik. Xüsusən ona görə ki, yay mövsümünün az qala üçdəbir hissəsi arxada qalıb. Buna görə yəqin ki, iyul-avqust aylarında ölkələr daha çox açılacaq. Mən dünyada baş verən hadisələri müşahidə edirəm və görürəm ki, turizm istiqamətləri arasında aviasiya əlaqələri artıq bərpa olunur, buna görə biz bu prosesi çox diqqətlə izləyəcəyik.

Eyni zamanda, onu da demək istərdim ki, indi, xüsusən pandemiya dövründə biz daxili turizmə böyük diqqət yetiririk. Çünki daxili turizm xarici turizmi tam əvəz etməsə də, hər halda, bizim turizm infrastrukturunu, o cümlədən regionlarda müəyyən dərəcədə doldura bilər. Azərbaycan vətəndaşlarının hələlik xaricə gedə bilmədiklərini nəzərə alaraq, əlbəttə, daxili turizm sənayesini dəstəkləyən amil ola bilər. Pandemiya sovuşandan dərhal sonra biz, əlbəttə, öz addımlarımızı çox dəqiq planlaşdırmalıyıq. Bir daha demək istəyirəm ki, səhvə yol verməmək və məhz turizm sahəsinin bərpası istiqamətində addımlar atmaq üçün sizin növbəti məsləhətlərinizi, tövsiyələrinizi gözləyəcəyik.

Əminəm ki, bütün dünyada turizm sahəsi bərpa olunacaq. Bu, birmənalı olaraq belədir, sadəcə, vaxt tələb edir. Biz bu sahəyə sərmayə qoyulmasını bundan sonra da davam etdirəcək, əcnəbi turistlər üçün daha yaxşı şərait yaradacağıq. Ona görə ki, Azərbaycanda buna kömək edə biləcək bütün amillər var: sabit ictimai-siyasi şərait, təhlükəsizlik, xalqımızın qonaqpərvərliyi, tarixi abidələr, təbiətin müxtəlifliyi, yay turizmi, qış turizmi və Azərbaycan mətbəxi. Belə ki, burada bütün amillər var. Həm coğrafi mövqeyimiz, həm dünyanın müxtəlif ölkələri ilə aviasiya əlaqələrimiz. Buna görə yalnız məqsədyönlü iş və potensialın artırılması, bir də, əlbəttə, məsələn, ölkəyə əcnəbi vətəndaşların böyük axınına mane olan bürokratik əngəllərin aradan qaldırılması lazımdır. Bütün bunlar gündəlikdədir.

Zurab Pololikaşvili: Sizinlə tamamilə razıyam. Yəqin ki, yay tətilləri dövründə bütün dünyada yerli turizm daha çox inkişaf edəcək. İş elə gətirib ki, hələ yanvar ayında 2020-ci ili “Kənd turizmi ili” və “Regional turizm ili” elan etmişik. Biz pandemiya olacağını bilmirdik. İndi ölkələrin regionlarda infrastruktura sərmayə qoyuluşunu bərpa etmələri üçün yaxşı şans var. Bu, regionlarda yeni iş yerləri yaratmağa imkan verəcək. Düşünürəm ki, bu dövrdə yerli turizm daha çox inkişaf edəcək. Bu, ölkələrin regional turizmi inkişaf etdirmələri üçün yaxşı şans ola bilər. Biz Sizinlə hökmən çox sıx əməkdaşlıq edəcəyik. Dəstəyinizə görə çox sağ olun. Sizinlə söhbətimiz bizim üçün çox vacibdir. Ona görə ki, turizmin bütün ölkələrin iqtisadiyyatının ən mühüm amillərindən biri olmasını bütün dünya liderləri təsdiqləyiblər. Əlbəttə, Sizin iştirakınız və fəallığınız bizim özümüzü daha inamlı hiss etməyimiz üçün hamımıza çox kömək edəcək və edir. Əminəm ki, Sizin dəstəyiniz Azərbaycandakı və bütün turizm sektorundakı yerli sahibkarlara böyük təkan, böyük dəstək olacaq. Bizə vaxt ayırdığınıza və bu cür səmimi söhbətə görə Sizə bir daha təşəkkür etmək istərdim.

Prezident İlham Əliyev: Çox sağ olun. Bu təşəbbüsünüzə görə sizə bir daha təşəkkür etmək istəyirəm. Şadam ki, Azərbaycan ilə sizin rəhbərlik etdiyiniz təşkilat arasında çox sıx münasibətlər yaranıb. Biz fəal əməkdaşlıq edəcəyik. Sərhədlər açılanda sizi Azərbaycanda gözləyəcəyik. Çox sağ olun.

Zurab Pololikaşvili: Hökmən görüşəcəyik. Çox sağ olun.

# DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ
# SUSTAINABLE DEVELOPMENT MANAGEMENT

UOT 502/504:33; 502/504:001.89

**VÜQAR KƏRİMOV**
**Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər nazirinin müavini**

## ABŞERON YARIMADASINDA ƏTRAF MÜHİTİN İDARƏ EDİLMƏSİNDƏ YAŞILLAŞDIRMA LAYİHƏLƏRİNİN ROLU

Qlobal səviyyədə sənayenin inkişafı, təbii sərvətlərin qeyri-rasional istifadəsi və ekoloji mühitin qorunması məsələlərinə lazımi diqqət yetirilməməsi nəticəsində ətraf mühitə mənfi təsirlər çoxalmışdır. Təbii mühitin pozulmasına atmosfer havasının və su hövzələrinin çirklənməsi, torpaqların deqradasiyası, tullantıların lazımi şəkildə idarə edilməməsi və s. səbəb olmuşdur.

Ətraf mühitin idarə olunması kontekstində hal-hazırda əsas prioritet dayanıqlı inkişaf məqsədlərinin reallaşdırılması üzrə qlobal, regional və milli alətlərin əlaqələndirilməsidir. Hazırda beynəlxalq aləmdə ətraf mühit komponentlərinin mühafizəsi, ekoloji problemlərin həllində mütərəqqi metodların tətbiqi həyata keçirilir.

Azərbaycanda ətraf mühit problemlərinin həlli istiqamətində genişmiqyaslı işlərin görülməsi, keçmişdən miras qalmış ekoloji problemlərin həlli və səmərəli idarəetmə sisteminin yaradılması, ekoloji vəziyyətin yaxşılaşdırılmasına yönəlmiş dövlət siyasəti ölkənin uzunmüddətli inkişaf strategiyasının mühüm tərkib hissəsidir.

Ekoloji problemlər təhlil edilərək, onların kompleks həllinə yönəldilən və davamlı inkişaf prinsiplərinə əsaslanan proqramlar icra edilir. Bu proqramlar ətraf mühitin mühafizəsinə yönəldilmiş dövlət əhəmiyyətli investisiya layihələrinin sistemli və səmərəli şəkildə həyata keçirilməsini təmin edir.

Ölkə rəhbərliyi tərəfindən ətraf mühitlə bağlı qəbul olunmuş dövlət proqramlarının icrasına göstərilən diqqət, ekoloji problemlərin daha səmərəli həlli məqsədilə müvafiq sərəncamların imzalanması, bu sahənin ölkəmizdə prioritet məsələlər sırasına daxil edilməsinin göstəricisidir.

Son illər əldə olunmuş nailiyyətlər dövlətin iqtisadi əsaslarını daha da möhkəmləndirərək qeyri-neft sektorunun, infrastruktur sahələrinin, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi, yoxsulluğun azaldılması, ekoloji təhlükəsizliyinin təmin olunması və digər məsələlərin həlli istiqamətində daha təsirli tədbirlərin həyata keçirilməsi üçün imkanları genişləndirir.

Ekoloji hüquq pozuntularına görə məsuliyyətin artırılması ekoloji nəzarət sahəsində iqtisadi tənzimlənmə mexanizminin qurulmasına gətirib çıxarmışdır. Ümumilikdə ekoloji vəziyyət, təbii ehtiyatlar, onların mühafizəsi və bərpası dayanıqlı iqtisadi inkişafın ümumi konsepsiyasına daxil edilir.

Ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə məqsədilə müasir texnologiyaların tətbiqi bu sahədə daha yüksək nəticələrin əldə olunmasına gətirib çıxarır.

Ekoloji təhlükəsizliyin qorunması sahəsində innovasiyaların tətbiqi fəaliyyətə yeni və səmərəli elementlərin daxil edilməsinə imkan verir. Bu tip fəaliyyət müasir formanın, yeni metodların, texnologiyaların, vasitələrin inkişafı və səmərəsinin yüksəldilməsinə xidmət edir.

Ətraf mühitin innovativ yanaşmalarla idarə edilməsi, iş prosesində indiki və gələcək nəsillərin rifahının yaxşılaşdırılmasını təmin edən texnologiyalardan istifadə qarşıya qoyulmuş əsas məqsədlərdəndir.

Dayanıqlı İnkişaf Məqsədləri üzrə beynəlxalq çağrışlara qoşularaq ətraf mühitin idarə

olunmasında yeni yanaşmaların tətbiqi, dayanıqlı inkişaf proseslərində modern və çevik idarəetmədən istifadə sahəsində səylər hazırda da davam etdirilməkdədir.

İqtisadiyyatın sürətli inkişafının nəticəsi olaraq artan gəlirlərin ətraf mühitlə bağlı problemlərin həllinə yönəldilməsi ekoloji layihələrin həyata keçirilməsi imkanlarını xeyli artırır, təbii ehtiyatların, su, torpaq, hava kimi əvəzsiz sərvətlərin, meşələrin və biomüxtəlifliyin mühafizəsi sahəsində tədbirlər görülür.

Mövcud ekoloji problemlərin həlli ilə yanaşı xüsusi mühafizə olunan təbiət əraziləri genişləndirilir, milli parklar yaradılır, meşə ilə örtülü sahələrin və yaşıllıqların miqyası artırılır, şəhərsalma prinsiplərində yaşıllıqların artırılması məsələlərinə diqqət yetirilir.

Müasir dövrdə enerji təhlükəsizliyi və ətraf mühitin çirklənməsi, qlobal iqlim dəyişmələri bəşəriyyəti narahat edən əsas problemlərdəndir. İqlim dəyişmələrinin təsirindən inkişaf səviyyəsindən asılı olmayaraq heç bir ölkə sığortalanmamışdır və bunu baş verməkdə olan ekstremal təbii fəlakətlər əyani şəkildə göstərməkdədir.

Azərbaycan, qlobal iqlim dəyişmələrini bəşəriyyətin üzləşdiyi ən çətin problemlərdən biri hesab edir və bu problemin qarşısının alınmasına yönəldilən birgə səyləri dəstəkləyir.

Azərbaycan Respublikasında iqlim dəyişmələrinin mənfi təsirləri özünü göstərir. İqlim dəyişmələrinə uyğunlaşma üzrə prioritet sahələr kənd təsərrüfatı, su ehtiyatlarının optimal idarə olunması, meşələrin bərpası və meşəsalmadır, biomüxtəlifliyin qorunması, yaşıllıq ərazilərinin miqyasının artırılmasıdır.

Azərbaycan Şərqlə Qərbin qovuşmasında yerləşən müasir infrastrukturu və qədim zəngin tarixi abidələri olan paytaxt Bakı şəhərindən başlamaqla, ecazkar təbiətə və milli parklara malik regionları ilə məşhurdur.

Azərbaycan Respublikası Qafqaz ölkələri və bütövlükdə Avropa üzrə zəngin biomüxtəlifliyə malik olan ölkələrdən biri olmaqla biomüxtəlifliyin qorunub saxlanması milli, regional və qlobal əhəmiyyətə malikdir.

Azərbaycanın təbiəti çox maraqlı və rəngarəngdir. Yer üzərində mövcud olan 11 iqlim tipinin 9-una Azərbaycanda təsadüf edilir. Təbii və coğrafi şəraitin unikallığı flora və faunanın növ müxtəlifliyinin rəngarəngliyinə şərait yaratmışdır.

Qafqaz biomüxtəlifliyin baxımından dünyanın ən zəngin və maraqlı regionlarından biri hesab olunur və Qafqazın digər botaniki-coğrafi əraziləri ilə müqayisədə Azərbaycan həm fauna, həm də flora növlərinin sayının çoxluğuna görə liderdir.

Azərbaycan florasında təxminən 5 000-ə yaxın ali bitki növü yayılmışdır ki, bu da Qafqazın zəngin bitki aləminin növ tərkibinin 64%-ni təşkil edir. Bunlardan 200 növü endemik və relikt növlərdir. “Azərbaycan Respublikasının Qırmızı Kitabı”na 300 nadir və nəsli kəsilməkdə olan bitki və 220 heyvan növü daxil edilmişdir.

Qeyd olunduğu kimi Azərbaycanın özünün bitki örtüyünün zənginliyi və rəngarəngliyi ilə seçilir. Dünyada mövcud olan əsas bitkilik tiplərinin əksəriyyətinə respublikamızın ərazisində rast gəlinir. Bunun da əsas səbəbi Azərbaycanın fiziki-coğrafi və təbii tarixi şəraitinin müxtəlifliyi və həmsərhəd, eləcə də uzaq floristik ərazilərin təsiri altında formalaşmış tarixi şəraitdir. Ərazilərimizdə istər üçüncü dövr elementlərinə (Talış zonasında Hirkan tipli meşələr) malik qədim bitkilik tiplərinə, istərsə də, son geoloji dövrlərdə formalaşan bozqır, çəmən, subalp, alp, su-bataqlıq bitkilərinin xüsusi variantlarına rast gəlinir. Müxtəlif meşə formasiyaları Böyük, Kiçik Qafqaz regionlarında və Talışda daha geniş yayılmışdır. Bu meşələrdə palıd, vələs, fıstıq kimi cinslərin üstünlüyü ilə yayılan meşələrimiz çox mühüm susaxlayıcı, torpaqqoruyucu əhəmiyyətə malikdir. Kür-Araz ovalıgı, Xəzəryani, Abşeron, Qobustan, Ceyrançöl, və başqa düzənliklərdə səhra və yarımsəhra tipli bitki örtüyü üstünlük təşkil edir. Bu tip bitkilərdə ən çox şorangə (Salsola) yovşan (Artemisia), eləcə də şahsevdi (Halostachis) cinsi növlərinin dominat olduğu formasiyalar geniş yayılmışdır.

Azərbaycanın quru və isti rayonlarında (Naxçıvan MR, Kiçik Qafqazın bozqır yaylasında) kserofit bitkilik formasiyalarına, xü-

susən friqana, siblə, tikanlı gəvənlik, tıs-tıslığa rast gəlinir. Eldar düzünün bozqır yaylasında Eldar şamlığı, iri çayboyu ərazilərdə tuqay meşələri qeyd olunmalıdır. Dəniz səviyyəsindən 1800-3200 m hündürlükdə subalp və alp çəmənliyi, bozqır və çəmən bitkiləri geniş yayılmışdır. Subalp qurşağın hündür otluğu, növ tərkibinin zənginliyi ilə fərqlənir. Burada ən çox baldırğan (Heracleum), boymadərən (Achillea), çobantoppuzu (Dactylis), xəndəkotu (Symphytum) cinsi növləri rast gəlinir.

Alp çəmənlikləri yüksək dağlıq ərazilərdə xırdaboylu, rəngarəng növlərdən ibarət alp xalıları əmələ gətirir ki, bu xalıların formalaşmasında floramızda çoxsaylı növləri ilə təmsil olunan Qırtıckimilər (Poaceae), Asterkimilər (Asteraceae), Paxladənkimilər (Fabaceae), Qərənfilkimilər (Caryophilliaceae), Dalamazkimilər (Lamiaceae) yanaşı, Göyzəbankimilər (Boraginaceae) və s. fəsilələrdən olan növlərlə zəngindir. Bu qısa icmaldan göründüyü kimi respublikamız həm florası (burada 179 fəsiləyə, 1142 cinsə aid 5000-ə yaxın ali bitki növü rast gəlinir), həm də bitki örtüyünün müxtəlif zonallığı baxımdan çox zəngindir.

Meşələr respublikanın ərazisində qeyri-bərabər paylanmışdır. Meşənin əsas hissəsi (90%) dağ yamaclarında, az hissəsi (10%) isə düzəndə yerləşir. Meşə ilə örtülü sahənin 40%-i Böyük Qafqazda, 33%-i Kiçik Qafqazda və 17%-i Talışda yayılmışdır.

Ən yüksək meşəlik faizi (40%-dən çox) ilə Böyük Qafqazın cənub makroyamacı rayonları (Balakən, Zaqatala, Oğuz, Qəbələ, İsmayıllı), Qarabağın dağlıq hissəsi (Ağdərə və Xankəndi rayonları) və qismən Talış (Astara rayonu) xarakterikdir. Orta meşəlik faizi (20-40%) ilə səciyyələnən ərazilər Böyük Qafqazda (Şəki, Quba rayonları), Kiçik Qafqazda (Gədəbəy, Daşkəsən, Kəlbəcər və Laçın rayonları) və Talışda (Lerik, Masallı rayonları) yerləşir. Orta meşəlik faizindən aşağı olan (10-20%) ərazilər Kiçik Qafqazın qərb rayonları (Qazax və Tovuz) üçün səciyyəvidir. Aşağı meşəlik faizinə (1,1-10%) Dəvəçi, Şamaxı, Şəmkir, Xocavənd rayonları aiddir.

Azərbaycanda arid-seyrək meşələrin qalıqlarına Bozqır yaylasında (Şəki yaylası da deyilir), Həkəri və Araz çaylarının aşağı axını yamaclarında (Laçın, Qubadlı, Zəngilan rayonlarında), Naxçıvan MR-də, Ellər Oyuğu dağında, qismən Böyük Qafqazın şimali-şərq yamacında (Gilgilçay, Ataçay, Tıxçay hövzələrində), Şəmkir çayın aşağı axın dik yamaclarında və Qobustanda rast gəlinir. Məlum olduğu kimi, respublikamızın arid meşələr yayılan dağətəyi zonasında qədim dövrlərdən bəri əhali əkinçilik və maldarlıqla intensiv məşğul olmuşdur. Bununla əlaqədar ilkin (bakirə) arid tipli meşə örtüyü burada kökündən antropogen dəyişikliyə uğramış, mövcud bitki formasiyaları əsasən törəmə bozqır, kserofil tiplidir.

Alp çəmənləri və xalıları subalp çəmənlərinə nisbətinə daha geniş ərazi tutaraq yamacın şimal cəhətlərində dəniz səviyyəsindən 2300 m-ə qədər enir, cənub cəhətlərində isə onun sərhədi 3000 (3200) m-ə qədər qalxır. Alp bitki örtüyü arasında xüsusi alp, çəmən və xalılar ayrılır.

Alp qurşağında çəmən bitkiliyinin xarakterik xüsusiyyəti ot örtüyünün alçaqboylu (5-8 sm) olması və növlərin çiçəklərnin iri olmasıdır. Alp xalıları alp qurşağının ən yüksək sərhədində dəniz səviyyəsindən 2300-3400 m-ə qədər qalxır. Yuxarıda da qeyd etdiyimiz kimi alp qurşağının cilli-taxıllı və ağotlu (Nardeto strictae) formasiyalarında, rütubətli müxtəlifotlu, eləcə də taxıllı-paxlalı fitosenozları xüsusi fon əmələ gətirir.

Yarımsəhra və səhra bitki senozları respublikanın düzən ərazilərində dəniz səviyyəsindən başlayaraq 200-500 m hündürlüyə qədər, əsasən Xəzər sahilində, cənubi-şərqi Şirvanda, Mil, Muğan, Şirvan və Qarabağ düzlərində, Ceyrançöldə, Qobustanda yayılmışdır. Naxçıvan MR ərazisində yarımsəhra bitkiləri 600-700 m-dən 1200-1300m-dək rast gəlinir. Mövcud yarımsəhra örtüyü uzunmüddətli malqara otarılması nəticəsində öz ilkin vəziyyətini itirmişdir. Belə sahələr əsasən suvarılmayan və şumlanmayan sahələrdə qalmışdır. Bunlar əsasən bu və ya digər dərəcədə pozulmuş efemerli

qarağanlıqlardan (Salsola dendroides) və gəngizliklərdən (Salsola nodulosa) ibarətdir.

Dənizkənarı qumluqlarda sirkən (Atriplex), otsarmaşığı (Convovulus), dikyarpaq (Agriophyllum), yovşan (Artemisia) dəvətikanı (Alhagi ) və s. cinslərə aid otlar geniş yayılmışdır. Bu ərazilərin dəniz sahili psammofit-litoral bitkiliyində Argusia sibirica müxtəlif sarmaşıq növləri ilə (Convolvulus persicus, C.erinaceus və s.) qarışıq assosiasiyalar əmələ gətirir.

Bütün dünyada olduğu kimi, zəngin biomüxtəlifliyinə baxmayaraq Azərbaycanda da şəhər ərazilərinin, xüsusi ilə arid zona kimi səciyyələndirilən Abşeron yarımadasının və Bakı şəhərinin təbii və yetişdirilən bitki örtüyünün ərazisi tələb olunan normalardan aşağıdır.

Hal-hazırda iqtisadi, siyasi, texnoloji və digər səbəblərdən dünya əhalisinin 50%-dən çoxu şəhərlərdə məskunlaşıb və bu göstəricinin 2050-ci ilə qədər 70%-ə qədər artacağı ehtimal olunur.

Bu səbəbdən qabaqcıl dünya ölkələri beynəlxalq təşkilatların da dəstəyi ilə artan şəhərləşmənin yol açacağı ekoloji, demoqrafik və digər problemlərin qarşısını almaq üçün iqtisadi inkişaf və ətraf mühit arasında tarazlığı qoruyan dayanıqlı inkişaf modellərini tətbiq etməyə çalışır.

Ümumdünya Səhiyyə Təşkilatının bu sahədə qəbul etdiyi normaya əsasən, şəhərlər üçün yaşıllıq sahələri şəhərin ümumi ərazisinin 10%-dən az hissəsini təşkil edirsə bu aşağı göstərici, 40-60% hissəsini təşkil edərsə yüksək göstərici sayılır. Başqa sözlə, adambaşına yaşıllıq norması şəhərlərdə minimum 9 $m^2$-dan az olmamalıdır.

Bu məqsədlə Birləşmiş Millətlər Təşkilatının 1992-ci il tarixli Ətraf Mühit və İnkişaf Konfransında qəbul olunan prinsiplər əsasında şəhərlərin ekoloji statusunu müəyyən edən kriteriyalar üzrə müxtəlif beynəlxalq qiymətləndirmə sistemləri yaradılmışdır.

Bu sistemlərə misal olaraq Siemens təşkilatı tərəfindən hazırlanan və 2009-cu ildən hazırkı dövrə qədər dünyanın 120 qabaqcıl şəhərində tətbiq edilən "Yaşıl Şəhər İndeksi"ni göstərmək olar. Belə ki, bu sistem şəhərlərin həm region daxilində, həm də dünya miqyasındakı yerini ekoloji cəhətdən qiymətləndirməyə istiqamətlənmişdir.

"Yaşıl şəhər indeksi" üzrə 2018-ci ildə Avropanın yaşıl paytaxtı Nijmegen şəhəri (Hollandiya), 2019-cu ildə Oslo şəhəri (Norveç) seçilmişdir. Sahəsi 57 $km^2$ olan Nijmegen şəhərinin 14 $km^2$-i yaşıllıqlarla örtülmüşdür ki, bu da şəhər ərazisinin 24,5%-ni təşkil edir. Sahəsi 454 $km^2$ təşkil edən Oslo şəhərinin isə 242 $km^2$ meşə ilə örtülmüşdür ki, bu da şəhər ərazisinin 53%-ni təşkil edir. Bu şəhərlərdə infrastruktur hər bir halda ekoloji amilləri diqqətə alaraq inkişaf etdirilmişdir.

İri şəhərlərin müvəffəqiyyətlə yaşıllaşdırılmasına bir nümunə kimi London şəhəri (Böyük Britaniya) də göstərilə bilər. Belə ki, "London Ətraf Mühit Strategiyası"na görə 2025-ci ilə qədər şəhərin 20-25%-nin, 2050-ci ilə qədər isə yarısının yaşıllıqlarla örtülməsi nəzərdə tutulur.

Dünyanın digər qabaqcıl şəhərləri sırasında Sidney şəhəri (Avstraliya) 2030-cu ilə qədər yaşıllıq sahələrini 50%-ə, 2050-ci ilə qədər 70%-ə; Toronto şəhəri (Kanada) 2050-ci ilə qədər yaşıllıq sahələrini 17-34%-ə; Sietl şəhəri (ABŞ) 2050-ci ilə qədər yaşıllıq sahələrini 18-30%-ə çatdırmağı planlaşdırır.

Effektiv yaşıllaşdırma siyasətinin tətbiqi nəticəsində şəhər mühitinin dəyişdiyi ölkələr sırasında Birləşmiş Ərəb Əmirlikləri də mühüm yer tutur. Ölkədə yerinə yetirilən iri miqyaslı dövlət proqramlarına nümunə olaraq paytaxt Əbu-Dabi şəhərinin yaşıllaşdırılması proqramı göstərilə bilər.

Həmçinin Əbu-Dabi Əmirliyi tərəfindən çöl əraziləri üzərində salınması nəzərdə tutulan və dünyanın ilk ekoloji şəhəri olaraq planlaşdırılan Məsdər şəhərində infrastrukturun ekoloji baxımdan ən təhlükəsiz materiallarla yaradılması nəzərdə tutulur. Dubay şəhərində isə hər bir sakin üçün 24 $m^2$ yaşıllıqların salınması planlaşdırılır.

Xəzəryanı ölkələrə məxsus şəhərlərdə isə ümumi ərazinin yaşıllaşdırılması səviyyəsi: Astana şəhərində 37% (adambaşına 15,8 $m^2$), Daşkənd şəhərində (Özbəkistan) 35% (adambaşına 48 $m^2$), Tehran şəhərində (İran) 20%

(adambaşına 16 $m^2$) təşkil edir. Ərazisinin 70-80% Qaraqum səhrası ilə örtülü olan Türkmənistanda, paytaxt Aşqabad şəhərində isə yaşıllaşdırma işləri "Ölkəni çiçəklənən bağa çevirək" şüarı altında həyata keçirilir. Şəhərdə bu məqsədlə yerinə yetirilən xüsusi dövlət proqramında, üç məsələyə xüsusi diqqət yetirilir: səhralaşma ilə mübarizə, biomüxtəlifliyin qorunması və iqlim dəyişmələrinin yumşaldılması.

Dünyanın qədim neft sənayesi mərkəzi olan Bakı milli arxitektur ornamentləri saxlanılmaq və müasir memarlıq üslubundan istifadə etməklə qısa müddətdə ən gözəl şəhərlərdən birinə çevrilmişdir.

Landşaftına görə səhra-yarımsəhra ərazidə yerləşən Bakı şəhərində və ümumiyyətlə Abşeron yarımadasında yaşıllıqların salınması çox böyük zəhmət və fasiləsiz qulluq tələb edir.

Yaşıllıqlar üçün əlverişsiz təbii şəraitinə görə, ötən əsrin əvvəllərinə qədər Bakı şəhərinin ərazisində yaşıllıqların həcmi, meyvə bağları ilə birlikdə, şəhərin ümumi ərazisinin bir faizə yaxın hissəsini təşkil edib.

Abşeron yarımadasının təbii dendroflorası ilə yanaşı, burada yaşayan insanlar tərəfindən qədim zamanlardan becərilən bir neçə ağac-kol növləri mövcuddur: Bu növlərdən daha çox becərilənləri Avropa zeytunu (Olea eropaea), Adi əncir (Ficus carica), Saqqızağacı-Püstə-(Pistacia vera), Adi nar (Punica granatum), Ağ tut (Morus alba), Qara tut (Morus nigra) və s. kimi növlərdir (şəkil 1-5).



**Şəkil 1.** Adi nar – Punica granatum



**Şəkil 2.** Qara tut – Morus nigra



**Şəkil 3.** Avropa zeytunu – Olea europaea



**Şəkil 4.** Əsl püstə – Pistacia vera



**Şəkil 5.** Adi əncir – Ficus carica

Abşeron yarımadasının dendroflorası 25-30 ağac, kol və yarım kol növlərindən ibarətdir ki, bu növlərin də əksəriyyəti yarımada ərazisində kiçik lokalitetlər şəklində yayılmışdır (cədvəl 1). Bu növlərdən daha çox rast gəlinənləri, Çoxmeyvəli ardıc (Juniperis policarpus), Budaqlanan yulğun (Tamarix ramosissima), Şober şorgiləsi, (Nitraria schoberi), Kolşəkilli jasmin (Jasminum fruticans), Daryarpaq iydə (Eleaegnus angustifolia), Pallas murdarçası (Rhamnus pallasii) və s. növlərdir (şəkil 6-17).



**Şəkil 6.** Budaqlanan yulğun – Tamarix ramosissima



**Şəkil 7.** Salxımçiçək dovşanalması – Cotoneaster rasemiflora



**Şəkil 8.** Pallas murdarçası – Rhamnus pallasii



**Şəkil 9.** Daryarpaq iydə – Eleaegnus angustifolia



**Şəkil 10.** Çoxmeyvəli ardıc – Juniperus polycarpos



**Şəkil 11.** Şober şorgiləsi – Nitraria schoberi



**Şəkil 12.** Kolşəkilli jasmin – Jasminum fruticans



**Şəkil 13.** Adi itburnu – Rosa canina



**Şəkil 14.** Rus itüzümü – Lycium ruthenicum



**Şəkil 15.** Tamkənarlı dovşanalması – Cotoneaster integerrim



**Şəkil 16.** Tikanlı dəvəqıran – Atrophaxis spinosa



**Şəkil 17.** Gürcü doqquzdonu – Lonicera iberica

Bunlardan Hamar dağdağan (Celtis glabra), Bakı cuzqunu (Calligonum bakuense), Yarpaqsız cuzqun (Calligonum aphillum), Xırdameyvəli gilənar (Cerasus microcarpa), Qayalıq dovşanalması (Cotoneaster saxatilis), Şamdanvari öldürgən (Anabasis brachiata), Komarov şorgiləsi (Nitraria komarovii), Aşı sumax (Rhus cariaria) və Şamaxı tıs-tısı (Acantholimon schemachensis) növləri 2-ci nəşr Azərbaycanın Qırmızı Kitabına salınmış, nadir və nəsli kəsilməl təhlükəsi olan növlərdir (şəkil 18-22).

Digər bir növ Kolvari sarmaşıq (Convolvulus fruticosus) növü isə Azərbaycan və Qafqaz Floraları üçün yeni növ olub yeni nəşrə hazırlanan Qırmızı Kitaba salınması üçün tövsiyə olunub (şəkil 23).

Bakı şəhəri və onun ətraf rayonlarında gördüyümüz ağaclar, meşəliklər, yaşıllıq zolaqları Ümummilli Liderin təşəbbüsü, onun şəxsi iştirakı ilə salınıb.

XX əsrin 60-cı illərində Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra Azərbaycanda, xüsusən də yaşıllıqların az olduğu Abşeron yarımadasında Bakının yaşıllaşdırılması işlərinə xüsusi diqqət yetirilib.

1970-80-ci illərdə paytaxtda və yarımadanın digər yerlərində müxtəlif növ ağac və kolların əkini həyata keçirilib. Ulu Öndərin özünün də iştirak etdiyi iməciliklərdə kütləvi ağac əkini aksiyaları geniş vüsət alıb.

Hal-hazırda bu ənənə Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilən iqtisadi inkişaf strategiyası əhalinin sosial rifah halının yaxşılaşdırılması ilə yanaşı, yaşayış məntəqələrinin, o cümlədən şəhər və rayon mərkəzlərinin müasir infrastrukturunun formalaşmasına zəmin yaratmışdır.

**Cədvəl 1.** Abşeron yarımadasının dendroflorasına daxil olan növlər

| S/S | Azərbaycan | Latın |
|---|---|---|
| 1 | Çoxmeyvəli ardıc | Juniperis policarpus |
| 2 | Alçaqboylu ardıc | Juniperus pygmae |
| 3 | Hamar dağdağan | Celtis glabra |
| 4 | Budaqlanan yulğun | Tamarix ramosissima |
| 5 | Meyer yulğunu | Tamarix meyeri |
| 6 | Daryarpaq iydə | Eleagnus angustifolia |
| 7 | Xəzər iydəsi | Eleagnus caspica |
| 8 | Bakı cuzqunu | Calligonum bakuense |
| 9 | Yarpaqsız cuzqun | Calligonum aphillum |
| 10 | Xırdameyvəli gilənar | Cerasus microcarpa |
| 11 | Qayalıq dovşanalması | Cotoneaster saxatilis |
| 12 | Salxımçiçək dovşanalması | Cotoneaster racemifolia |
| 13 | Tamkənaryarpaqlı dovşanalması | Cotoneaster integerrima |
| 14 | Pallas murdarçası | Rhamnus pallasii |
| 15 | Kolvari jasmin | Jasminum fruticosus |
| 16 | Adi itburnu | Rosa canina |
| 17 | Gürcü doqquzdonu | Lonicera iberica |
| 18 | Tikanlı dəvəqıran | Atrophaxis spinosa |
| 19 | Şamdanvari öldürgən | Anabasis brachiata |
| 20 | Şober şorgiləsi | Nitraria schoberi |
| 21 | Komarov şorgiləsi | Nitraria komarovii |
| 22 | Rus itüzümü | Lycium ruthenicum |
| 23 | Kolvari sarmaşıq | Convolvulus fruticosus |
| 24 | Aşı sumax | Rhus cariaria |
| 25 | Şamaxı tıs-tısı | Acantholimon schemachensis |



**Şəkil 18.** Bakı suzqunu – Calligonum bakuense



**Şəkil 19.** Xırdameyvəli gilənar – Cerasus microcarpa



**Şəkil 20.** Qayalıq dovşanalması – Cotoneaster saxatilis



**Şəkil 21.** Aşı sumax – Rhus ariaria



**Şəkil 22.** Şamaxı tıs-tısı – Acantholimon schemachensis



**Şəkil 23.** Kolvari sarmaşıq – Convolvulus fruticosus

Əhalinin həyat fəaliyyətinin əlverişli şəraitlə təmin olunması məqsədilə məskunlaşma sistemlərinin səmərəli formalaşdırılması, tikinti və abadlaşdırma, sosial-iqtisadi və mühəndis-nəqliyyat infrastrukturunun inkişafı, təbiətdən səmərəli istifadə edilməsi, tarixi-mədəni irsin və ətraf mühitin mühafizəsi prioritet istiqamətlərdəndir.

Müasir şəhər infrastrukturunun formalaşdırılması çərçivəsində ekoloji vəziyyətin yaxşılaşdırılması və ətraf mühitin mühafizəsi ölkə rəhbərliyinin diqqət mərkəzində olmaqla dayanıqlı inkişaf prinsipləri dövlət siyasəti və proqramlarına daxil edilmişdir.

Yaşıllıqların salınması, tullantıların idarə olunması məqsədilə müasir emal müəssisələrinin yaradılması, nəqliyyat parkının yenilənməsi və s. hesabına şəhər və rayon mərkəzlərinin müasir infrastrukturu formalaşmışdır.

İstismar müddəti bitmiş binaların və görkəmsiz ərazilərin yerində müasir qəsəbələrin salınması, istehsal müəssisələrinin şəhərdən kənara çıxarılması və intellektual nəqliyyat sisteminin yaradılması əhalinin təmiz ekoloji mühitdə yaşamasının təmin edilməsinə yönəlmişdir.

Uzun müddət Abşeron yarımadasında ekoloji tələblərə cavab vermədən çıxarılan neft və neft məhsullarının ətraf mühitə mənfi təsirləri, sənayenin sürətlə inkişafı, tullantı sularının və bərk məişət tullantılarının tələb olunan səviyyədə idarə olunmaması ərazilərin çirklənməsinə gətirib çıxartmışdır.

Hazırda ölkədə çirklənmiş və münbitliyini itirmiş ərazilərin təmizlənməsi, meşə ilə örtülü ərazilərin artırılması, xüsusi ilə şəhər, rayon və qəsəbələrdə yaşıllıqların miqyasının genişləndirilməsi, mövcud yaşıllıqların mühafizəsi və onlara aqrotexniki qaydada xidmət göstərilməsi istiqamətində genişmiqyaslı tədbirlər görülür.

Abşeron yarımadasında neft məhsulları, sənaye və məişət tullantıları ilə çirklənmiş ərazilərin təmizlənməklə iqtisadi dövriyyəyə qaytarılması məqsədilə beynəlxalq ekspertlər cəlb olunmaqla çirklənmiş ərazilərin qiymətləndirilməsi, təmizlənməsi üsulları və gələcək istifadə təyinatını müəyyən etmək üçün aparılmış inventarlaşdırılma işləri çirklənmiş ərazilərin münbitliyinin bərpa edilməsi istiqamətində həyata keçirilən işlərin səmərəliliyini artırır.

Bakı şəhərində son illər ərzində davam edən iri həcmli tikintilər, əhali artımı, şəhər infrastrukturunun sürətlə böyüməsi yaşıllıq sahələrinin genişləndirilməsini daha da aktual edir. Abşeron yarımadasının iqlimini nəzərə alaraq, yaşıllaşdırma işlərinin aparılması ümumi ekoloji vəziyyətin yaxşılaşdırılmasında, eyni zamanda iqlim dəyişmələri ilə bağlı təsirlərin azaldılmasında effektiv bir vasitədir.

Eyni zamanda demoqrafik inkişaf, yarımada əhalisinin artması və bununla bağlı olaraq şəhər ərazisinin genişlənməsi, nəqliyyat vasitələrinin sayının çoxalması ilə atmosferə atılan tullantıların həcminin artması genişmiqyaslı yaşıllaşdırma tədbirlərini zəruri edir.

Məlum olduğu kimi, ölkəmizdə meşələrlə örtülmüş ərazilərinin 95%-i dağlıq zonaların, 5%-i isə düzənlik ərazilərin payına düşür. Yarımsəhra iqlim tipinə xas olan əlverişsiz külək rejimi və uzunmüddətli quraqlıq mövsümləri ilə səciyyələnən Abşeron yarımadasında təbii meşələrin olmaması, Bakı şəhəri daxil olmaqla bütün yarımadanın süni yaşıllıq zonaları ilə təmin olunması mühüm əhəmiyyət kəsb edir.

İqtisadi aktivliyin ətraf mühitə verə biləcəyi zərərləri nəzərə alınaraq Abşeron yarımadasında yaşıllaşdırma tədbirləri sahəsində mühüm irəliləyişlərə nail olunub. Hazırda Abşeron yarımadasının ərazisinin 10 faizdən çox hissəsi yaşıllıqlar altındadır.

Bu yaşıllıqların böyük hissəsi salınan yeni parkların, yeni meşə parklarının və son 2 ildə sahibkarlıq subyektləri tərəfindən yarımadanın boş qalmış torpaq sahələrində yaradılan aqrobağların, xüsusən badam və zeytun bağlarının hesabınadır.

Yaşıllaşdırma şəhərsalma siyasətinin mühüm tərkib hissəsi olaraq, şəhər və şəhərətrafı ərazilərdə ekoloji təhlükəsizliyin təmin olunması, ətraf mühitin çirklənməsinin azaldılması, indiki və gələcək nəsillərin sağlam inkişafı, həmçinin estetik görüntünün yaxşılaşdırılması baxımından əhəmiyyətli rola malikdir.

Şəhər infrastrukturunun sürətlə böyüməsi, artan məişət tullantıları və atmosferə buraxılan zərərli qazlar, buna bənzər digər amillər ekoloji təhlükəsizliyin təmin olunması baxımından yaşıllıq sahələrinin genişləndirilməsi öz aktuallığını saxlayır.

Şəhərsalma sahəsində dövlət siyasətinin tərkib hissəsi olaraq, yaşayış məntəqələrinin yaşıllaşdırılma normalarını müəyyən etmək üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 yanvar 2018-ci il tarixli 1 nömrəli Qərarı ilə "Yaşayış məntəqələrinin yaşıllıqla təmin edilməsi Normaları" təsdiq edilmişdir.

Bu normalara əsasən "yaşayış məntəqələrinin layihələndirilməsi zamanı yaşıllıq sahəsi ayrılmış ərazinin minimum 40 faizini" və "əhalinin mövcud məskunlaşdığı məhəllələr yenidən layihələnərkən yaşıllıq sahəsi həmin ərazinin minimum 25 faizini təşkil etməsi" qəbul edilmişdir.

Abşeron yarımadasında açıq sahələrdə yaşıllıqların salınması məqsədi ilə ümumilikdə 2013-cü ildən etibarən təkcə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən 1 1,4 milyondan artıq ağac və kol bitkisi əkilmişdir (şəkil 24-25).





**Şəkil 24-25.** Abşeron yarımadasında salınmış yaşıllıqlar

Hazırda Bakı şəhərinin və Abşeron yarımadasının yaşıllaşdırılmasında 50-yə yaxın müxtəlif növ ağac və kol cinslərindən istifadə olunur (cədvəl 2).

**Cədvəl 2.** Bakı şəhərinin və Abşeron yarımadasının yaşıllaşdırılmasında istifadə olunan ağac və kol cinsləri

| S/S | Azərbaycan | Latın | S/S | Azərbaycan | Latın |
|---|---|---|---|---|---|
| 1 | Eldar şamı | Pinus eldarica | 25 | Həmişəyaşıl başınağacı | Viburnum tinus |
| 2 | Şərq çinarı | Platanus orientalis | 26 | İspan nazı | Genista hispanica |
| 3 | Həmişəyaşıl sərv | Cupressus sempervirens | 27 | Daş palıdı | Quercus ilex |
| 4 | Şərq tuyası | Thuja orientalis | 28 | Şabalıdyarpaq palıd | Quercus castaneifolia |
| 5 | Nerium oleandrı | Nerium oleander | 29 | At şabalıdı | Aesculus hippocastanum |
| 6 | Leyland sərvərəyi | Cupressocyparis leylandii | 30 | Xırdayarpaq qarağac | Ulmus parvifolia |
| 7 | Yapon muşmulası | Eriobotrya japonica | 31 | Şarşəkilli qarağac | Ulmus carpinifolia |
| 8 | İriçiçəkli maqnoliya | Magnolia grandiflora | 32 | Cənub söyüdü | Salix australior |
| 9 | Narıncı maklyura | Maclura aurantica | 33 | Nəcib dəfnə | Laurus nobilis |
| 10 | Ağ akasiya | Robinia pseudacacia | 34 | Mavi küknar (Kreml küknarı) | Picea picea |
| 11 | Yapon saforası | Sophora japonica | 35 | Tikanlı küknar | Picea pungens |
| 12 | Titrək qovaq | Populus alba | 36 | Normand ağşamı | Abies nordmanniana |
| 13 | Turan qovaqı | Populus euphratica | 37 | Qafqaz doqquzdonu | Lonicera caucasica |
| 14 | Piramidal qovaq | Populus pyramidalis | 38 | Cillis sezalpiniyası | Caesalpinia gilliesii |
| 15 | Xəzər lələyi | Gleditsia capsica | 39 | Yapon heyvası | Chaenomeles japonica |
| 16 | Vaşinqton palması | Wasingtonia filiseva | 40 | Qafqaz dağdağanı | Celtis caucasica |
| 17 | Dəfnəyarpaq gilənar | Laurocerasus officinalis | 41 | Avropa zeytunu | Olea europea |
| 18 | Meşə şamı | Pinus Sylvestris | 42 | Arizona sərvi | Cupressus horizonica |
| 19 | Lənkəran akasiyası | Albizia julibrissin | 43 | Adi albalı | Cerasus vulgaris |
| 20 | Adi badam | Amygdalus communis | 44 | Cənub söyüdü | Salix australior |
| 21 | Yapon birgözü | Ligustrum japonicum | 45 | Babilistan söyüdü | Salix babylonica |
| 22 | Çin göyrüşü-Aylant | Ailanthus altissima | 46 | Adi göyrüş | Fraxinus viridis |
| 23 | Yapon gərməşovu | Euonymus japonica | 47 | Dəfnə yarpağı | Laurus nobilis |
| 24 | Suriya hibiscusu | Hibiscus syriaca | 48 | Taclı çubuqağacı | Philadelphus coronarius |

"Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan müşavirədə də dövlət başçısı yaşıllıqların az olduğu ərazilərdə, o cümlədən Abşeron yarımadasında son illərdə milyonlarla ağac əkildiyini və bu işin bundan sonra da davam etdirilməli olduğunu qeyd edib.

Ölkə başçısının da xüsusi vurğuladığı kimi, yarımadanın yaşıllaşdırılmasının davam etdirilməsi ona görə zəruridir ki, qəbul olunmuş beynəlxalq ekoloji normalara görə, dünyanın iri şəhərlərində yaşıllıq sahələrinin həcmi ümumi ərazinin 20-25 faizini əhatə etməlidir.

Bununla əlaqədar Bakı və ətraf ərazilərin torpaq və iqlim şəraitini, ərazilərin sürüşməyə meyilliliyini və əhalinin sıxlığını nəzərə alaraq, boş və istifadəsiz ərazilərdə yerli torpaq-iqlim şəraitinə uyğun, iqtisadi baxımdan səmərəli ağac və kol bitkilərindən ibarət yaşıllıq massivlərinin salınması və bu ərazilərdə müvafiq suvarma sisteminin qurulması nəzərdə tutulur.

Qeyd olunan tədbirlərin icrası şəhərin yaşıllıq ərazilərinin əhəmiyyətli dərəcədə genişləndirilməsi və estetik görünüşünün yaxşılaşdırılması, torpaq örtüyünün münbitliyinin təmin olunması, atmosfer havasının təmizlənməsi kimi vəzifələrin həllini təmin edəcəkdir. Hazırda Bakı və ətraf ərazilərdə yaşıllıqların



**Xəritə 1.** Abşeron yarımadasının mövcud yaşıllıqları və 2020-2025-ci illərdə yaşıllaşdırılması təklif olunan ərazilər

salınması üçün torpaq əraziləri, müvafiq su mənbələri müəyyənləşdirilir, həmin ərazilərdə yaşıllıq massivlərinin illər üzrə salınması planlaşdırılır, yaşıllaşdırma layihələri hazırlanır (xəritə 1).

Salınan yaşıllıq massivlərinin suvarılmasında Samur-Abşeron kanalından, çirkab su təmizləmə qurğularında (Hövsan Aerasiya Stansiyası) təmizləmə prosesini keçdikdən sonra yaranan təsərrüfat sularından və duzsuzlaşdırılan dəniz suyundan istifadə edilir.

Yaşıllıqların salınmasında müəyyən edilmiş ərazilərin suvarılması üçün, əkin sahələrinə daha yaxın məsafələrdə su mənbələrinin olması mühüm əhəmiyyət kəsb edən məsələlərdən biridir. Növbəti illər ərzində həyata keçirilməsi planlaşdırılan yaşıllaşdırma proqramının icrası zamanı ilk növbədə ərazilərin yaxınlığında yerləşən mövcud təbii çaylar, suvarma kanalları və digər su mənbələrindən istifadə olunması nəzərə tutulub.

Eyni zamanda su mənbələri olmayan ərazilərdə dəniz suyundan istifadə etməklə Xəzər dənizi sahilində əksosmos qurğularının qurulması imkanları təhlil ediləcəkdir. Ərazilərin suvarılması məqsədilə həm də, Pirşağı, Pirallahı, Şüvəlan, Lökbatan, Buzovna, Mərdəkan çirkli suları təmizləmə qurğuları, Səbail rayonu ərazisində yerləşən 32-ci kanal, Bibiheybət Neft və Qazçıxarma İdarəsinin ərazisindən keçən 9 saylı nasos stansiyasıyaları, habelə Böyükşor gölünə axıdılan tullantı suları üzərində sutəmizləyici qurğuların tikilməsi vacib amillərdən biridir ki, bu da nəzərdə tutulan layihələrin icrasına dəstək olacaqdır.

Gələcəkdə yarana biləcək su qıtlığı probleminin effektiv həlli üçün yeni yanaşma və texnologiyaların tətbiqi məqsədilə infrastruktur imkanları 20 min $m^3$ olan, ilkin mərhələdə pilot olaraq sutkada 2000 $m^3$ gücündə avadanlıq quraşdırılmış Dəniz suyunun duzsuzlaşdırılması zavodu və müasir tinglikdən ibarət kompleks inşa edilmişdir.

Faktiki olaraq bu zavod Xəzər sahilində ən müasir və iri duzsuzlaşdırma müəssisəsidir. Bu gün zavodda istehsal olunan su ətraf ərazidə salınmış yaşıllıqların suvarılmasında istifadə edilir.

İldə 1 milyon ədəd ağac və kol (o cümlədən dekorativ) yetişdirməyə imkan verən bağlı qrunt şəraitində örtülü kök sistemli tinglikdə avtomatik idarə olunan suvarma və gübrələmə

sistemi yaradılmış, mikroiqlim nəzarətini həyata keçirmək məqsədilə temperatur, rütubət, küləyin sürəti və istiqaməti, günəş radiasiyası, yağıntı miqdarını ölçmək üçün meteoroloji stansiya quraşdırılmışdır.

Tinglik sahələrində hər il yetişdirilən milyonlarla müxtəlif növdən olan ağac tingləri meşə və eyri-meşə fondu ərazilərində əkilməklə yanaşı, yaşıllaşdırma tədbirlərinin həyata keçirilməsi məqsədilə vətəndaşlara, şəhər və









**Şəkil 25,26,27,28.** Genişmiqyaslı yaşıllaşdırma işlərini əkin materialları ilə təmin edən müasir tinglik sahələri

Hazırda yaşıllıqların salınmasında ekoloji təmiz kənd təsərrüfatı məhsullarının yetişdirilməsi, ərzaq təhlükəsizliyinin təmin olunması, idxaldan asılılığın azaldılması, ixrac potensialının gücləndirilməsi və yeni iş yerlərinin yaradılması prioritet istiqamətlərdəndir.

Bununla əlaqədar olaraq ölkədə həyata keçirilən iqtisadi siyasətin və islahatların davamlılığını təmin etmək istiqamətində mövcud vəziyyət təhlil olunmuş və yeni iqtisadi inkişaf strategiyasına uyğun olaraq qeyri-meşə fondu torpaqlarından daha səmərəli istifadə etmək, ölkə əhalisinin kənd təsərrüfatı məhsullarına olan tələbatını ödəmək və idxaldan asılılığın azaldılması məqsədilə meyvə bağlarının salınması üçün ərazilər müəyyənləşdirilir.

Meşə fonduna daxil olmayan, əsasən arid ərazilərdə də müasir metodlara əsaslanan iri yaşıllaşdırma layihələri həyata keçirilmiş, son illər ərzində milyonlarla müxtəlif növ ağac və kol əkilmişdir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən magistral avtomobil yollarının ətrafında arid sahələrdə müasir metodlara əsaslanan iri yaşıllaşdırma layihələri həyata keçirilir.

Şoran və təkrar şoranlaşmaya məruz qalmış torpaqların münbitliyinin və bu ərazilərdə torpaq və iqlim şəraitinə uyğun ağac cinslərindən ibarət meliorativ əhəmiyyətli meşə zolaqlarının salınması gələcəkdə istifadədən çıxmış torpaq sahələrini kənd təsərrüfatı dövriyyəsinə qaytarmağa imkan verəcəkdir.

Yaşıllıq ərazilərinin genişləndirilməsi torpaq ehtiyatlarının münbitliyinin qorunması və atmosfer havasının mühafizəsi ilə yanaşı, həmçinin ərazilərin landşaftının yaxşılaşdırılması cəhətdən də faydalıdır.

Prioritet məsələlərdən biri də iqlim dəyişikliklərinin təsirinə uyğunlaşmaqdır. Bu mənada aqromeşə massivlərinin salınması ərzaq təhlükəsizliyinin təmini ilə yanaşı, eyni zamanda iqlim dəyişikliyinin mənfi təsirlərinin azaldılması baxımından da mühüm əhəmiyyət kəsb edir.

Aqromeşə massivlərinin yaradılması, o cümlədən bar verən məhsuldar ağac cinslərindən ibarət meyvə bağlarının salınması yuxarıda qeyd olunan məsələlərin həllində mühüm rol oynayır.

Yaşıllıqların genişləndirilməsində ictimai təşəbbüslərin də rolu böyükdür. Son illərdə bu istiqamətdə geniş miqyaslı tədbirlər həyata keçirilir. Böyük şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə bir gündə 650 min ağac əkilməsi ilə bağlı Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın təşəbbüsü ölkə miqyasında geniş rəğbətlə qarşılanmışdır.

Bu nəcib təşəbbüsə respublikamızın bütün bölgələrində geniş ictimaiyyət, dövlət qurumları, özəl sektor, ali və orta təhsil müəssisələri, diplomatik korpus, rayon və şəhər icra hakimiyyətləri orqanları, ictimai xadimlər, media və qeyri-hökumət təşkilatlarının nümayəndələri, könüllü gənclər və fərdi şəxslər qoşulmuşdur.

Qeyd etmək lazımdır ki, bu kampaniya çərçivəsində yaşıllıqların salınması zamanı ətraf mühitin sağlamlaşdırılması məqsədləri ilə yanaşı, gələcəkdə ölkə üçün iqtisadi səmərə verə biləcək bar verən ağaclardan ibarət aqromeşələrin salınmasına üstünlük verilmişdir.

Əkin zamanı zeytun, badam, tut, xurma, ərik, heyva, iydə, qoz, fındıq, cökə, şabalıd, qarağat, nar, alma, alça, gavalı, şam, tuya, sərv, akasiya, katalpa, çinar, ağcaqayın və s. cinslərdən istifadə olunur.

Yaşıllıqların salınmasında əsas məqsəd ərzaq təhlükəsizliyinin təmini, əhalinin keyfiyyətcə təhlükəsiz qida təminatı, idxaldan asılılığın aradan qaldırılması, yerli xammal hesabına emal sənayesinin fəaliyyətinin təmin edilməsi, kənd təsərrüfatı məhsullarının ixrac potensialının gücləndirilməsi, əhalinin məşğulluq səviyyəsinin artırılması, regionların inkişafı, iqlim dəyişikliyinin mənfi təsirləri ilə mübarizə, yaşıllıq ərazilərinin miqyasının artırılması, torpaq ehtiyatlarının mühafizəsi, torpaqlardan səmərəli istifadə və bioloji müxtəlifliyin qorunmasından ibarətdir.

**Ədəbiyyat:**

1. Сукачев В.Н. Руководство к исследованию типов леса. Изд. 2. М.-Л., 1930. 328 с.
2. Флора Азербайджана. Изд-во АН Азерб. ССР. Баку, 1957. T.VII. с. 134-216.
3. Гаджиев В.Д. Субальпийская растительность Большого Кавказа. Изд-во АН Азерб. ССР. Баку, 1962. 172 с.
4. Серебряков И.Г. Жизненные формы высщих растений и их изучение. "Полевая геоботаника". Изд-во "Наука". М.-Л., 1964. с. 5-31.
5. Флора Кавказа. Изд-во АН СССР. М., 1967. 2. T. VII. с. 240-295.
6. Гулисашвили В.З. Природные зоны и естественно-исторические области Кавказа. М. "Наука". 1964. 327 с.
7. Прилипко Л.И. Растительный покров Азербайджана. Изд-во АН Азерб. ССР. Баку, 1970. 170 с.
8. Физическая география Закавказья. Изд-во Ерев. Ун-та. Ереван, 1986. 312 с.
9. Гаджиев В.Д. Ботанико-географическое районирование Азербайджана. Докл. АН Азерб. ССР. Баку, 1987. T. XLIII. № 1. с. 72-75.
10. Черепанов С.К. Сосудистые растения России и сопредельных государств. Мир и семья, С.-Петербург, 1995. 875
11. Каримов В.Н., Юсифов Э., Муртазалиев Р. Новые для флоры Кавказа виды сосудистых растений из Азербайджана // Ботанический журнал, SP. 2016, т. 101, №5, с. 592-594.
12. Каримов В., Ализаде В., Фарзалиев В. Новые виды сосудистых растений для флоры Азербайджана //Новости систематики высших растений (Л.), 2016, т. 47, с.122-125.
13. Raunkiaer C. Life forms of plants and statistical plant geography. Oxford, 1934

***Açar sözlər:*** *təbii mühit, dayanıqlı inkişaf, ekoloji təhlükəsizlik, şəhərsalma, biomüxtəliflik, dendroflora, yaşıllıq, iqlim dəyişikliyi, damcılı suvarma, təmizlənmiş tullantı suları*

**Vugar Karimov**
*Deputy Minister of Ecology and Natural Resources of the Republic of Azerbaijan*

## THE ROLE OF GREENING PROJECTS IN THE MANAGEMENT OF THE ENVIRONMENT IN APSHERON PENINSULA

### SUMMARY

Irrational use of natural resources, industrial development is characterized by an increased negative impact on the environment. Climate change, which has become more impactful in recent years, as well as air and water pollution, land degradation and waste management, make it necessary to take large-scale measures to improve the environmental situation.

Along with the solution of environmental problems in Azerbaijan inherited from the past in Azerbaijan, specially protected natural areas are being expanded, national parks are being created, the scale of forests is increasing, and attention is paid the expansion of greenery in urban planning.

Rapid industrial development on the Absheron Peninsula, population growth, urbanization, number of vehicles make it necessary to ensure large-scale greening and landscaping activities.

Along with the natural flora of the peninsula, plant species grown by the local population also play an important role in the landscaping of Absheron.

The expansion of green spaces and the establishment of economically viable fruit orchards are important not only for the protection of atmospheric air, but also to ensure food security and soil fertility.

***Keywords:*** *natural environment, sustainable development, environmental security, urban planning, biodiversity, dendroflora, landscaping, climate change, drip irrigation, treated wastewater*

**Вугар Керимов**
*Заместитель министра Экологии и природных ресурсов*
*Азербайджанской Республики*

## РОЛЬ ПРОЕКТОВ ОЗЕЛЕНЕНИЯ В УПРАВЛЕНИИ ОКРУЖАЮЩЕЙ СРЕДЫ НА АПШЕРОНСКОМ ПОЛУОСТРОВЕ

### РЕЗЮМЕ

Нерациональное использование природных ресурсов, промышленное развитие характеризуется усилением негативного воздействия на окружающую среду. Изменение климата, которое становится все более ощутимым в последние годы, а также загрязнение воздуха и воды, деградация земель и управление отходами – все это обязывает принимать масштабные меры для улучшения экологической ситуации.

В Азербайджанской Республике, наряду с решением экологических проблем, унаследованных из прошлого, расширяются особо охраняемые природные территории, создаются новые национальные парки, увеличиваются масштабы лесных массивов, уделяется внимание расширению зеленых насаждений при городском планировании.

Стремительное промышленное развитие на Апшеронском полуострове, рост численности населения, урбанизация, увеличение выбросов в атмосферу в результате роста числа транспортных средств делает необходимым проведение масштабных работ по озеленению. Наряду с естественной флорой полуострова, виды растений, выращиваемые местным населением, также играют важную роль в озеленении Апшерона. Расширение зеленых насаждений и создание фруктовых садов имеют важное значение не только для защиты атмосферного воздуха, но и для обеспечения продовольственной безопасности и увеличения плодородия почв.

***Ключевые слова:*** *природная среда, устойчивое развитие, экологическая безопасность, городское планирование, биоразнообразие, дендрофлора, озеленение, изменение климата, капельное орошение, очищенные сточные воды*

B E Y N Ə L X A L Q   M Ü N A S İ B Ə T L Ə R
I N T E R N A T I O N A L   R E L A T I O N S

UOT 327

**HİKMƏT MƏMMƏDOV**
**Azərbaycan Respublikası Milli Məclisinin deputatı,**
**Bakı Dövlət Universitetinin professoru, siyasi elmlər doktoru**
*e-mail: hbg66@mail.ru*

**İLYAS HÜSEYNOV**
**Bakı Slavyan Universitetinin Beynəlxalq münasibətlər kafedrasının doktorantı**
*e-mail: ilyasdiplomat@gmail.com*

# AZƏRBAYCAN VƏ YUNANISTAN ARASINDA SİYASİ VƏ İQTİSADİ MÜNASİBƏTLƏRİN İNKİŞAF ETDİRİLMƏSİNDƏ PREZİDENT İLHAM ƏLİYEVİN ROLU

Son illərdə Azərbaycanla əməkdaşlıq əlaqələrinin inkişafına mühüm önəm verən ölkələrdən biri də qədim tarixə malik olan Yunanıstandır. Yunanıstanın Azərbaycanla əməkdaşlığa olan marağı təkcə ölkəmizin malik olduğu strateji-coğrafi mövqe və zəngin karbohidrogen ehtiyatları ilə deyil, həm də möhkəm siyasi sabitliyə, demokratik inkişafa, beynəlxalq birliklə fəal inteqrasiyaya söykənən dövlətçilik kursunun dönməzliyi ilə şərtlənir.

Yunanıstanın əlverişli coğrafi və hərbi-strateji mövqeyi vardır. Yunanıstan üç qitənin kəsişmə nöqtəsində yerləşir. Strateji baxımdan Avropa, Asiya və Afrikanın kəsişməsində yerləşən Yunanıstan sivilizasiyaların, adət və ənənələrin beşiyidir. Yunanıstan Cənubi Avropanın ən qədim və ən zəngin siyasi, iqtisadi və mədəni ənənələrə malik dövlətlərindən biridir. Antik Avropanın tarixi məhz bu dövlətlə bağlıdır. Yunanıstan zəngin tarixə malik olan dövlətdir. Yaxın və Orta Şərqdə, o cümlədən Cənubi Qafqazda elə bir dövlət tapılmaz ki, onun tarixində bu dövlətlə əlaqələrə rast gəlinməsin. Bu fikri, bu gün Cənubi Qafqazın iqtisadi, siyasi və hərbi sahədə aparıcı dövləti olan Azərbaycan haqqında da demək olar. Azərbaycan və Yunanıstan arasında istər siyasi, istər iqtisadi, istərsə də mədəni əlaqələr olduqca dərin köklərə malikdir. Bu məqalədə Azərbaycan və Yunanıstan arasında siyasi və iqtisadi münasibətlərin inkişaf etdirilməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin roluna nəzər salmağa çalışacağıq.

### İkitərəfli diplomatik-siyasi münasibətlərin əsas xarakterik cəhətləri

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikasının xarici siyasətinin mühüm istiqamətlərindən biri Avropa ölkələri ilə münasibətlərin qurulması və inkişaf etdirilməsi olmuşdur. Bu münasibətlər əvvəlki dövrlərdəki əlaqələrdən əsaslı surətdə fərqlənmişdir [8, s. 9]. Eyni zamanda, qeyd etmək lazımdır ki, bipolyar sistemin dağılması ilə Yunanıstanda çoxvektorlu və praqmatik siyasət elementlərinin tətbiqi istiqamətində bazis formalaşmış və Cənubi Qafqaz istiqamətində müəyyən manevrlər etmək üçün geniş imkanlar yaranmışdır.

Azərbayan və Yunanıstan arasında siyasi əlaqələr artıq XX əsrin sonlarında SSR-nin süqutu və Azərbaycanın müstəqillik əldə etmə-

sindən sonra bərpa edilmişdir. Azərbaycan öz dövlət müstəqilliyini 1991-ci ildə elan edəndən cəmi iki ay sonra dekabrın 31-də Yunanıstan Azərbaycanın müstəqilliyini tanımış və 1992-ci ilin 2 aprel tarixində iki dövlət arasında diplomatik münasibətlər qurulmuşdur [20].

Azərbaycan müstəqillik əldə etdiyi gündən Yunanıstan Azərbaycana böyük maraq göstərmiş dövlətlərdəndir. Təsadüfi deyil ki, 27 may 1993-cü ildə Azərbaycanda Yunanıstan səfirliyi təsis olunmuşdur. Yunanıstanın geostrateji baxımdan son dərəcə əlverişli, təbii sərvətlərlə zəngin Azərbaycana böyük diqqətinin və marağının nəticəsi kimi Bakıda açılışı olan Yunanıstan Respublikasının səfirliyi, eyni zamanda Qafqazda ilk yunan diplomatik nümayəndəliyidir. Qeyd edək ki, Afinada Azərbaycan Respublikasının səfirliyi 2004-cü ildən fəaliyyət göstərir [21].

Yunanıstan üç minillik ərzində bir çox siyasi, mədəni və ticari əlaqələri olan Şərq dünyası ilə sıx bağlı olmuşdur. Buna görə də, ənənəvi olaraq yunan cəmiyyəti Şərq xalqlarının tarixi, mədəniyyəti, musiqisi, ədəbiyyatı haqqında biliklər əldə etməyə səy göstərmişdir. Azərbaycan da burada istisna olmamışdır. Azərbaycanın tarixi, musiqi mədəniyyəti və incəsənəti Yunanıstanda böyük maraqla qarşılanmışdır [19]. Azərbaycan və Yunanıstan arasında siyasi münasibətlərin genişlənməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük rolu olmuşdur. Məhz Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan və Yunanıstan arasında enerji sektorunda əməkdaşlıq sürətlə inkişaf etməyə başlamışdır. Bu da Avropa İttifaqının enerji təhlükəsizliyi baxımından olduqca əhəmiyyətli amil hesab olunur.

2004-cü il 20-24 iyun tarixlərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə Yunanıstan Respublikasının Prezidenti Konstantinos Stefanopulosun ölkəmizə rəsmi səfəri tarixi səfər olmaqla yanaşı, ikitərəfli münasibətlərdə yeni səhifənin açılmasına səbəb olmuşdur. Səfər zamanı Heydər Əliyev tərəfindən möhkəm təməli qoyulmuş qarşılıqlı siyasi əlaqələrin daha da dərinləşməsi, ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsi və siyasi dialoqun davam etdirilməsinin vacibliyi vurğulanmışdır.

Yunanıstan Respublikasının Prezidenti Konstantinos Stefanopulos Bakıya səfəri zamanı bildirmişdir ki, Avropa İttifaqının genişlənməsi bütün Avropa qitəsi üçün tarixi irəliləyişdir. “Avropaya doğru genişlənmə İttifaqın həm Şərq, həm də Cənub qonşuları ilə gələcək əlaqələri üçün nadir imkanlar yaradır. Əslində, genişlənmə zamanı yeni qonşulara daha sıx əlaqəyə ehtiyac duyulması faktı Aİ-nin Avropa qonşuluq siyasətinin qəbul olunmasına gətirib çıxardı. Bu siyasətin əsas məqsədi Avropa İttifaqı ilə onun qonşuları arasında əməkdaşlığı möhkəmləndirmək, siyasi dialoqu və iqtisadi əlaqələri gücləndirmək, ticarət və daxili bazar, ədliyyə və daxili işlər, eləcə də digər sektorlarda birgə işi əlaqələndirməkdir” [1].

Qeyd etmək lazımdır ki, ötən əsrin 90-cı illərin sonuna qədər Azərbaycan rəhbərliyi Yunanıstan-Ermənistan münasibətlərinin yaxın olması, həmçinin Afinanın Bakı ilə əlaqələrin inkişafında müvafiq marağının olmaması səbəbindən Yunanıstana qarşı mənfi mövqedə idi. Yunanıstan Prezidenti Konstantinos Stefanopoulosun 2004-cü ilin iyununda Azərbaycana səfəri ikitərəfli münasibətlərə yeni təkan verdi [18, s. 351]. Avropanın digər ölkələri ilə olduğu kimi, Yunanıstanla da hərtərəfli əməkdaşlığımızın təməlində Ulu öndər Heydər Əliyevin siyasi uzaqgörənliyi, müdrik diplomatiya təcrübəsi dayanırdı. Ancaq 2003-cü ildən sonra bu əməkdaşlıq daha da intensivləşdirilmiş, tərəflərin hər ikisi üçün daha yüksək şəkildə səmərə verəcək bir müstəviyə qaldırılmışdır. Sonrakı illərdə əksər beynəlxalq toplantılarda Avropa dövlətlərinin hamısının rəhbərləri kimi Yunanıstan rəhbərləri ilə də müntəzəm olaraq görüşən Azərbaycan rəsmiləri bu ölkə ilə əməkdaşlığımızın indiki səviyyəsinə nail olmuşlar [11].

**Azərbaycan və Yunanıstan arasında iqtisadi münasibətlər və həyata keçirilən enerji layihələri**

Müasir dünyada "neft-qaz siyasəti" və enerji təhlükəsizliyi məsələləri mühüm əhəmiyyət kəsb edir. Bir sıra aparıcı elmi araşdırma mərkəzləri dünyada hazırda yürüdülən "neft və qaz siyasəti" ilə əlaqədar müəyyən qənaətlərə və müddəalara malikdirlər [12, s. 258]. Ölkələrin enerji təhlükəsizliyi ilə milli təhlükəsizlikləri arasında birbaşa və çox güclü bir əlaqə mövcuddur. Hazırda dünyada gedən qanlı müharibələrin və siyasi qarşıdurmaların böyük əksəriyyəti enerji qaynaqlarına yiyələnməyi, alternativ enerji mənbələrinə çıxışı təmin etməyi və enerji mənbələrində hasil olunan kabhohidrogen ehtiyatlarının nəqli ilə bağlı problemləri özündə ehtiva edir.

Enerji təhlükəsizliyi problemi müasir dövrün ən çox müzakirə olunan və daim diqqət mərkəzində saxlanılan məsələlərindəndir. Enerji təhlükəsizliyi hazırda təkcə iqtisadi deyil, həm də siyasi məna kəsb edir. Hətta israr etmək olar ki, ikinci bir çox hallarda birincini üstələyir [10, s. 195]. Azərbaycan dövləti ilə Yunanıstan arasında münasibətlərin yeni bir səviyyəyə qalxmasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2009-cu ilin 16-17 fevral tarixlərində Yunanıstana rəsmi səfərinin böyük rolu olmuşdur. Bu səfər dostluq, əməkdaşlıq və gələcək Azərbaycan-Yunanıstan münasibətləri üçün möhkəm bir zəmin yaratmış və tədricən bütün sahələrdə əməkdaşlığın başlanmasına təkan vermişdir [14, s. 5].

Yunanıstana səfəri zamanı Prezidenti İlham Əliyev bildirmişdir ki, Azərbaycanın böyük enerji ehtiyatlarının dünya bazarlarına çıxarılması üçün son illər ərzində böyük işlər görülüb və indiki mərhələdə Yunanıstan ilə Azərbaycan arasında əlaqələrin bu sahədə inkişafına mühüm təsiri olacaqdır. "Enerji təhlükəsizliyi məsələləri bu gün dünyanın gündəliyində birinci yerdə dayanan məsələdir və Azərbaycan öz tərəfindən Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında rolunu oynamağa hazırdır. Artıq bir neçə ildən çoxdur ki, Azərbaycan qazı Yunanıstan bazarına və beləliklə, Avropa İttifaqının bazarına daxil olur. Şübhə yoxdur ki, gələcəkdə bu əməkdaşlığın daha böyük həcmdə aparılması üçün çox yaxşı imkanlar var" [3, s. 43]. Xüsusilə qeyd etmək lazımdır ki, enerji sektorundakı Azərbaycan-Yunanıstan münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə gətirilməsi Bakı ilə Afina arasında siyasi, iqtisadi, investisiya və digər sahələrdə əlaqələrin daha da inkişafı üçün güclü katalizator rolunda çıxış edir. Bu səbəbdən hər iki tərəf enerji sahəsində münasibətlərə xüsusi diqqət yetirir.

2011-ci ilin 5-6 aprel tarixlərində Yunanıstan Respublikasının Prezidenti Karolos Papuliasın Azərbaycana səfəri zamanı enerji sahəsində əməkdaşlığın prioritet sahə olduğu qeyd olunmuşdur. Yunanıstan Respublikasının Prezidenti Karolos Papulias öz çıxışında enerji sektorunda fəaliyyətin önəmini vurğulamışdır: "Enerji sektoru bizim təşəbbüslərimizin ən önündə gedən bir sektor olmalıdır və ola da bilər. Hesab edirik ki, bundan sonra neftayırma zavodları sahəsində müəyyən birgə layihələri həyata keçirə bilərik. Bu, bizim münasibətlərimizi daha da gücləndirər və bu əməkdaşlıqdan irəli gələrək, digər sahələrdə də iqtisadiyyatlarımızı möhkəmləndirəcək birgə layihələri hayata keçirə bilərik" [4, s. 62-63].

Azərbaycan və Yunanıstan arasında diplomatik-siyasi əməkdaşlıq haqqında danışarkən nəzərdən qaçırmaq olmaz ki, Balkan yarımadasında yerləşən bu dövlət Avropa İttifaqının üzvüdür. Məlum olduğu kimi, son illərdə Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlıq genişlənib və bu məsələdə Yunanıstanın rolu önəmlidir. Yunanıstan Avropa İttifaqına üzv olan ilk ölkədir ki, enerji sahəsində Azərbaycanla əməkdaşlıq edir.

2014-cü ilin 16-17 iyun tarixlərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yunanıstana səfəri zamanı Avropanın da yeni qaz mənbələrinə və marşrutlarına ehtiyacı olduğunu bildirmişdir: "Azərbaycanın təsdiqlənmiş qaz ehtiyatları 2,5 trilyon kubmetrdən

çoxdur. Bu da ən azından 100 il ərzində qazı müxtəlif bazarlara ixrac etməyə imkan verir və əlbəttə ki, enerji strategiyamızın icrasında Trans-Adriatik boru kəmərinin seçilməsi vacib bir mərhələ idi. Biz Xəzər dənizi, Qafqaz və Avropanın yeni geniş regional əməkdaşlıq formatını yaradacağıq. Bu da Azərbaycana Avropa bazarına enerjini təchiz etmək üçün yeni marşrutun yaradılmasından ibarət strateji məqsədləri tam yerinə yetirmək imkanı verəcəkdir. Bu gün qaz yatağı olan və ikinci mərhələdə istismar edilən "Şahdəniz", TANAP və TAP Avropanın ən böyük infrastruktur layihələridir. Əlbəttə ki, bu layihələri vaxtında icra etmək üçün yunan tərəfdaşlarımızla əlaqəli şəkildə əlimizdən gələni edəcəyik" [5, s. 216-217]. Qeyd etmək lazımdır, 2014-cü ildə Prezident İlham Əliyevin Yunanıstana baş tutan dövlət səfəri yüksək səviyyəli siyasi dialoqa güclü impuls vermişdir.

Azərbaycan qazının Avropaya nəqlini təmin edən Cənub Qaz Dəhlizi böyük coğrafiyanı enerji asılılığından azad edəcək. Bu, ölkəmiz üçün əhəmiyyətli layihədir, bu layihə sayəsində Azərbaycan bir çox ölkələrin, o cümlədən Avropa İttifaqı ölkələrinin mühüm enerji tərəfdaşına çevriləcək. Şübhəsiz ki, bu layihəni dəstəkləyən Avropa İttifaqı, təkcə Azərbaycanın deyil, Türkmənistan qazının da burada iştirakını nəzərdə tutaraq, qaz tədarükünün şaxələndirilməsi ilə bağlı öz vəzifələrini yerinə yetirir. Bu, Avropadakı qaz yataqlarının, ilk növbədə Şimal dənizinin şelfindəki yataqlarda ehtiyatların tükənməsi şəraitində daha aydın nəzərə çarpır. Belə şəraitdə, alternativ qaz mənbələrinə çıxışın əldə olunması ən optimal həll yoludur [16].

Panteon Sosial və Siyasi elmlər Universitetinin (Afina) professoru Kostas İfantis belə hesab edir ki, TAP layihəsi kritik geoiqtisadi və geosiyasi əhəmiyyətə malikdir. "Bu, Azərbaycanın dünya siyasətində nə qədər önəmli olduğunu nümayiş etdirir. Enerji təhlükəsizliyi Yunanıstanın xarici siyasətinin əsas istiqaməti və möhkəm dayağıdır. Afinadakı siyasətçilər arasında şübhə yoxdur ki, Azərbaycan bu məsələdə böyük regional və beynəlxalq bir oyunçudur. Enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu yüksək qiymətləndirilir. Afina üçün Cənub Qaz Dəhlizi bir çox regional subyektlər arasında dostluq və əməkdaşlıq körpüsü ola bilər. Milli maraqlar bu layihələr ətrafında birləşə bilər və birləşməlidir, bu kontekstdə Azərbaycanın rolu zəruridir" [17].

Yunanıstan ilə əməkdaşlıq müstəvisində suverenlik baxımından Azərbaycan Respublikası iki mühüm dividend götürür. Əvvəla, Avropa İttifaqı ilə qarşılıqlı əlaqələri daha da yaxınlaşdırır, onunla strateji tərəfdaşlığı konkret çərçivədə inkişaf etdirir. İkincisi, ölkənin təhlükəsizliyini qorumaq üçün beynəlxalq təminat alır. Məlumdur ki, bu aspektlər hazırda bütün postsovet məkanı ölkələri üçün aktualdır [15]. Bu gün Yunanıstan-Azərbaycan əlaqələri sürətlə inkişaf edir. Ölkələr arasında siyasi əlaqələr və faydalı dialoq iqtisadiyyat, mədəniyyət və humanitar sahələrdə münasibətlərin inkişafına təkan verir. Yunanıstan ilə Azərbaycan müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlıq edir. Avropa İttifaqı ilə münasibətlərin inkişafında Yunanıstan çox müsbət rol oynayır [13, s. 63]. Yunanıstan ilə Azərbaycan arasında son illərdə diplomatik-siyasi münasibətlər müəyyən inkişaf yolu keçmiş və genişlənmişdir. Gələcəkdə əlaqələrin inkişafı üçün potensial imkanlar mövcuddur. Yaxın illərdə əlaqələrin inkişafı əsasən qarşılıqlı iqtisadi maraqların uzlaşmasından, həmçinin Avropada mövcud olan geosiyasi proseslərin inkişaf istiqamətlərindən asılı olacaqdır [6, s. 520].

Azərbaycanın regional və qlobal müstəvidə fəal aktora çevrilməsi siyasi, iqtisadi və humanitar istiqamətlərdə fəallığının artması ilə səciyyələnir. Müstəqil dövlət kimi yaşadığı ilk onillik ərzində BMT Təhlükəsizlik Şurasının üzvü olmuş və dünyanın 40 ən güclü iqtisadiyyatlarından birini qurmuş Azərbaycan gələcək 10 il ərzində Avrasiya materikinin mərkəzində mühüm hab və Avropanın enerji təhlükəsizliyində əsas rol oynayacaq inkişaf etmiş bir

dövlətə çevrilməyi hədəfləyir [9, s. 58]. Qədim mədəniyyətinə görə fərqlənən, beynəlxalq siyasi və iqtisadi münasibətlər sistemində öz yeri olan Yunanıstanla Azərbaycan arasında dostluq və mehriban əməkdaşlıq əlaqələrin yeni mərhələsi Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən sonra başlamış, müasir dövrdə də uğurla inkişaf etməkdədir [2].

Xarici siyasətimizin prioritet istiqamətlərindən olan beynəlxalq iqtisadi münasibətlərdə Prezident İlham Əliyev tərəfindən davamlı olaraq müstəqil və stabil siyasət yürüdülməsi nəticəsində xüsusilə enerji resurslarının dünya bazarlarına çıxarılmasına, həm enerji resurslarının nəqli üzrə geostrateji əhəmiyyətə malik, həm də Avropa ölkələrinin enerji təminatında etibarlı tərəfdaş kimi Azərbaycanın beynəlxalq aləmdə qəbul edilməsinə şərait yaranmışdır. Bu gün bir çox Avropa rəsmiləri Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi və enerji resurslarının şaxələndirilməsində Azərbaycanı vacib ölkə hesab edir [7, s. 13].

Bu gün Azərbaycan-Yunanıstan münasibətləri inkişaf dövrünü yaşayır. Qeyd etmək vacibdir ki, bu proses yalnız obyektiv reallıqlara deyil, həm də bu ölkələrin rəhbərliyinin siyasi iradəsinə əsaslanır. İndi dövlət başçıları, nəinki Azərbaycan və Yunanıstan xalqları üçün, həmçinin Avropanın daha geniş bölgəsi üçün əhəmiyyətli və zəruri tarixi qərarlar qəbul edərək həqiqi yaxınlaşmanı təmin edirlər [22].

Qeyd edək ki, Azərbaycan və Yunanıstan arasında siyasi, iqtisadi və humanitar münasibətlər akademik səviyyədə araşdırılmayıb. Bu baxımdan, əldə etdiyimiz önəmli mənbələr əsasında fundamental elmi əsaslarla apardığımız tədqiqatlar Azərbaycan və Yunanıstan arasında əlaqələrə yeni işıq salır və ikitərəfli münasibətlərin inkişaf etdirilməsi nöqteyi-nəzərdən önəmli töhfə hesab olunur.

Müasir dövrdə Azərbaycan və Yunanıstan arasında siyasi əlaqələr sürətlə inkişaf edir. Ölkələr arasında siyasi əlaqələr və faydalı dialoq iqtisadiyyat, mədəniyyət və humanitar sahələrdə münasibətlərin inkişafına təkan verir. Yunanıstan ilə Azərbaycan müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində də fəal əməkdaşlıq edir. Avropa İttifaqı ilə münasibətlərimizin inkişafında Yunanıstan çox müsbət rol oynayır. Azərbaycan və Yunanıstan arasında siyasi və iqtisadi münasibətlərin genişləndirilməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin misilsiz xidmələri olmuşdur. Yunanıstan və Ermənistan arasında isti münasibətlərin olmasına baxmayaraq, Azərbaycan qarşılıqlı iqtisadi maraqlar müstəvisində münasibətləri nəzərdən keçirərək, Avropa Birliyinin və NATO-nun üzvü olan Yunanıstanla münasibətlərini yüksələn xətt üzrə inkişaf etdirir. Digər tərəfdən, Azərbaycan Respublikasının Prezident İlham Əliyevin 2009 və 2014-cü illərdə Yunanıstana uğurlu səfərləri regionda sülhün və təhlükəsizliyin qorunması baxımından əlamətdar olmuş və çox geniş auditoriyanın diqqətini cəlb etmişdir.

**Ədəbiyyat:**


1. Azərbaycanı yeni qələbələrə aparan lider / tərt. ed. Z.Əzimov. Bakı: Şəms, 2004, 542 s.
2. Cəfərli, R. Azərbaycan-Yunanıstan əlaqələrinin daha da dərinləşməsi üçün geniş imkanlar var // Azərbaycan. – 2009, 22 fevral. – s. 1.
3. Əliyev, İ.H. İnkişaf məqsədimizdir. / İ.Əliyev. – Bakı: Azərnəşr, – c. 35. – 2016. – 396 s.
4. Əliyev, İ.H. İnkişaf məqsədimizdir. / İ.Əliyev. – Bakı: Azərnəşr, – c. 45. – 2017. – 400 s.
5. Əliyev, İ.H. İnkişaf məqsədimizdir. / İ.Əliyev. – Bakı: Azərnəşr, – c. 63. – 2018. – 408 s.
6. Əliyev, N. Azərbaycan-Yunanıstan münasibətləri / Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-

2016) (məqalələr toplusu) / N.Əliyev. – Bakı: Poliart, – 2017. – 904 s.
7. Fətəliyeva S. Beynəlxalq münasibətlər sistemində müstəqil və çoxşaxəli xarici siyasət yürüdən ölkə kimi Azərbaycanın hərtərəfli inkişafı İlham Əliyevin on beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsidir // "Strateji təhlil" jurnalı, Say 3-4 (25-26), 2018, s. 9-21.
8. Qasımlı, M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): [2 cilddə] / M. Qasımlı. – Bakı: Mütərcim, – c. 2. – 2015. – 664 s.
9. Qasımlı, V. İqtisadi modernizasiya / V.Qasımlı. – Bakı: SAM, – 2014. – 312 s.
10. Məmmədov, H.B. Xarici siyasət. / H.Məmmədov. Bakı: Elm, – 2019. – 324 s.
11. Mirzəbəyli, İ. Azərbaycan-Yunanıstan əlaqələri qarşılıqlı etimad və maraqlar müstəvisində genişlənir // Xalq. – 2011, 13 aprel. – s. 5.
12. Musayev, İ.M. Çağdaş beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti: [3 cilddə] / İ.Musayev. – Bakı: Bakı Universiteti, c. 3. – 2011, – 776 s.
13. Yunanıstan Respublikasına dövlət səfəri // – Bakı: Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə, – 2014. № 2 (46), – s. 61-63.
14. Mustafayev, R. Azerbaijani-Hellenic Relations in 2013: Opening New Horizons for Bilateral Cooperation / 10th issue of Middle East Mediterranean Report focuses on Greek – Azerbaijani relations / Athens: ELIAMEP (Hellenic Foundation for European and Foreign Policy), – 4/2 September-December 2013, 5-11 p.
15. Азербайджан-Греция: два аспекта стратегического партнерства: [Электронный ресурс] / «Newtimes.az», 08.07.2014. URL: http://newtimes.az/ru/relations/2875
16. Керимханов, А. Азербайджан становится важным энергетическим партнером для многих стран мира, включая ЕС - российский эксперт о значимости «Север-Юг» и «ЮГК»: [Электронный ресурс] / «Day.az». 21.06.2020. URL: https://news.day.az/economy/1246187.html
17. Мехдиев, З. Профессор Пантеона: Карабах – часть Азербайджана: [Электронный ресурс] / «Axar.az». – 14.05.2020. URL: https://ru.axar.az/news/politika/468767.html
18. Парастатов, С.В. Внешняя политика Греции на Кавказе после распада СССР // – Пятигорск. Вестник Пятигорского Государственного Лингвистического Университета. № 4, 2008. – с. 350-353.
19. Рустамов, Э. Посол Рахман Мустафаев: «Греция поддерживает суверенитет и территориальную целостность Азербайджана»: [Электронный ресурс] / «1news.az», 08.09.2011. URL: https://1news.az/news/posol-rahman-mustafaev-greciya-podderzhivaet-suverenitet-i-territorial-nuyu-celostnost-azerbaydzhana
20. Διμερείς σχέσεις. Αζερμπαϊτζάν – Ελλάδα. Πολιτικές Σχέσεις: [Ηλεκτρονικός πόρος] / «Πρεσβεία της Δημοκρατίας του Αζερμπαϊτζάν στην Ελληνική Δημοκρατεία». URL: http://athens.mfa.gov.az/gr/content/45
21. Εξωτερική Πολιτική, Διμερείς Σχέσεις της Ελλάδος, Αζερμπαϊτζάν: [Ηλεκτρονικός πόρος] / «Ελληνική Δημοκρατία. Υπουργείο Εξωτερικών». URL: https://www.mfa.gr/blog/dimereis-sheseis-tis-ellados/azerbaijan/
22. Πρέσβης Αζερμπαϊτζάν: "Σε νέα φάση οι διμερείς σχέσεις Ελλάδας-Αζερμπαϊτζάν: [Ηλεκτρονικός πόρος] / «Briefingnews.gr». 03.02.2014. URL: https://www.briefingnews.gr/parapolitika/presvis-azermpaitzan-se-nea-fasi-oi-dimereis-sheseis-elladas-azermpaitzan

***Açar sözlər:*** *Yunanıstan, Avropa İttifaqı, Cənub Qaz Dəhlizi, Şahdəniz, Trans Adriatik boru kəməri, geosiyasət*

**Hikmat Mammadov**
*Member of Parliament of the Republic of Azerbaijan,*
*Professor of Baku State University, Doctor of Political Science*

**Ilyas Huseynov**
*Phd Candidate, Department of International Relations,*
*Baku Slavic University*

# THE ROLE OF PRESIDENT ILHAM ALIYEV IN THE DEVELOPMENT OF POLITICAL AND ECONOMIC RELATIONS BETWEEN AZERBAIJAN AND GREECE


## SUMMARY

The paper analyzes the dynamics of the development of political and economic relations between Azerbaijan and Greece. In modern times, the study of relations between Azerbaijan and Greece with scientific approaches is becoming more relevant. It should be noted that President of the Republic of Azerbaijan Ilham Aliyev has demonstrated great political will in the development of political and economic relations between Azerbaijan and Greece. The paper also reflects the main features of the policy of President of the Republic of Azerbaijan Ilham Aliyev towards Greece. It should be emphasized that Azerbaijan plays an important role in the energy security of the European Union. It should be mentioned that the Southern Gas Corridor project initiated by Azerbaijan is one of the priority projects of the European Union and provides the transportation of Azerbaijani gas to European countries through Georgia and Turkey. This megaproject is aimed at diversifying routes and energy sources that will contribute to strengthening Europe's energy security. On the other hand, the US State Department and the European Commission called this project as a strategic. Greece is the first EU country which will import Azerbaijani gas under this project. Coordination of various interests in the implementation of this project, the provision of funding for the project and the solution of other technical problems was due to a great political will. The paper focuses on the expansion of relations between Azerbaijan and Greece as a result of the hard work of President Ilham Aliyev. It is noted that the expansion of Azerbaijani-Greek relations brings significant political dividends to our country in the context of the European Union.


***Keywords:*** *Greece, European Union, Southern Gas Corridor, Shah Deniz, Trans Adriatic pipeline, geopolitics*

**Хикмет Мамедов**
*Депутат Милли Меджлиса Азербайджанской Республики,*
*профессор Бакинского Государственного Университета,*
*доктор политических наук*

**Ильяс Гусейнов**
*докторант кафедры Международных отношений*
*Бакинского Славянского Университета*

# РОЛЬ ПРЕЗИДЕНТА ИЛЬХАМА АЛИЕВА В РАЗВИТИИ ПОЛИТИЧЕСКИХ И ЭКОНОМИЧЕСКИХ ОТНОШЕНИЙ МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И ГРЕЦИЕЙ

## РЕЗЮМЕ

В статье анализируется динамика развития политических и экономических отношений между Азербайджаном и Грецией. В современный период изучение отношений между двумя странами на основе научных подходов приобретает большую актуальность. Отмечается, что Президент Азербайджанской Республики Ильхам Алиев продемонстрировал большую политическую волю в развитии политических и экономических отношений между Азербайджаном и Грецией. В статье также отражены основные черты политики Президента Азербайджанской Республики Ильхама Алиева в отношении Греции. Следует подчеркнуть, что Азербайджан играет важную роль в энергетической безопасности Европейского Союза. Инициированный Азербайджаном проект «Южный Газовый Коридор» является одним из приоритетных проектов Европейского Союза и предусматривает транспортировку азербайджанского газа в европейские страны через Грузию и Турцию. Этот мегапроект направлен на диверсификацию маршрутов и источников энергии, которые будут способствовать усилению энергетической безопасности Европы. С другой стороны, Госдепартамент США и Еврокомиссия назвали этот проект стратегическим. Греция-первое государство Европейского Союза, которое будет импортировать азербайджанский газ в рамках этого проекта. Координация различных интересов в реализации этого проекта, обеспечение финансирования проекта и решение других технических проблем происходили за счет большой политической воли. В статье большое место отводится развитию отношений между Азербайджаном и Грецией в результате напряженной работы Президента Ильхама Алиева. Отмечается, что расширение азербайджано-греческих отношений приносит Азербайджану значительные политические дивиденды и в контексте Европейского Союза.

***Ключевые слова:*** *Греция, Европейский Союз, Южный газовый коридор, Шах-Дениз, Трансадриатический трубопровод, геополитика*

# SOSİAL FƏLSƏFƏ
# SOCIAL PHILOSOPHY

UOT 101.1:316; UOT 13

**İLHAM MƏMMƏDZADƏ**
**Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun direktoru, fəlsəfə elmləri doktoru, professor**
*e-mail: ilham_mamedzade@mail.ru*

## MƏDƏNİYYƏTLƏRARASI KOMMUNİKASİYANIN BƏZİ FƏLSƏFİ PROBLEMLƏRİ

Son zamanlar tarix və mədəniyyət problemləri xeyli aktuallaşıb. "Xatirə yerləri" (onları cəmiyyətin müqəddəs keçmişi kimi başa düşmək olar) bəzi dövlətlərin daxilində münasibətlərin kəskinləşməsinə, bir çox hallarda dövlətlərarası qarşılıqlı münasibətlərdə gərginliyə səbəb olub. Bizcə, bu gərginliyin yaranmasında mənafe, siyasət və iqtisadiyyatın müəyyən rol oynadığı aydındır. Ancaq güman edirik ki, burada fəlsəfi bir kontekst də vardır və onu başa düşmədən mədəniyyətlərin qarşılıqlı təsirinin rasional və etik-dialoji dərkinə nail olmaq mümkün deyil. Məhz buna görə də mədəniyyətlərin qarşılıqlı təsiri və əlaqəsi, mədəniyyətlərarası kommunikasiya fəlsəfəsi və tarixi ilə bağlı olan hər şey əhəmiyyət kəsb edir. Bu sahədə ziddiyyət və fərqli təfsirlər çoxdur. Onlar, məsələn, R.E.Baraşın məqaləsində təhlil olunur. O, qeyd edir ki, "Bu gün həm fərdi identikliyin (kimliyin), həm də cəmiyyətlərin mədəniyyətlərarası kommunikasiysının sürətlə mürəkkəbləşməsi qlobal təmayülə çevrilir. Öz növbəsində, etnomədəni "intibah" tendensiyaları özünü unikal milli mifologiyanın yayılmasında göstərir (Antonovskiy, Baraş 2017) ki, bu da çox vaxt təkcə mədəni müstəsnalıq və muxtariyyət ideyalarının artmasına deyil, həm də özünəməxsus mərkəzdənqaçma meylləri selinə səbəb olur" (1, s.32). Azərbaycanda bu məsələlər, ilk növbədə, akademik Ramiz Mehdiyevin əsərlərində hərtərəfli araşdırılır. O, ilk dəfə olaraq, Azərbaycan cəmiyyəti mədəniyyətinin fənlərarası, fəlsəfi, sosioloji və tarixi ölçülərinin müəyyənləşdirilməsi, onların sənəd və materiallarla təsdiqlənməsi zəruriliyini meydana çıxartdı (8).

Prinsipcə, artıq 90-cı illərdə, sovet məkanında keçmiş təkcə siyasi mənada əhəmiyyət kəsb etmək və maraq doğurmaqla məhdudlaşmırdı. Aydın idi ki, kommunist ideologiyası onun obyektiv surətdə nəzərdən keçirilməsini qadağan edirdi və buna görə bir çoxları, təkcə tədqiqatçılar deyil, həm də jurnalistlər, siyasətçilər tarixə, onun yeni dərkinin axtarışına, bəzən keçmişin yenidən tapılmasına, yaşanmasına müraciət etdi. Lakin məsələ təkcə qadağalar və səylərdə deyil, həm də onda idi ki, yeni dövlətlərə özlərinin keçmişi ilə fəxr etmək və başqalarının hörmət etməsi üçün öz qəhrəmanlarının panteonunu meydana çıxarmaq, abidələr ucaltmaqla da ifadə olunan identikliyini təsdiqləmək üçün tam dolğunluğu ilə tarix gərək oldu. Belə bir məqamda haradasa və kimsə bu ruhi, mənəvi işə xor baxırdı, hansısa bölgələrdə isə tarixin müxtəlif cür təfsiri üzündən toqquşma və müharibələr gedirdi. İndi görürük ki, bu məsələ ABŞ-da aktuallaşıb (BLM- Black Lives Matter – "Qara dərililərin həyatı dəyərlidir!"), orada D.Vaşinqton, T.Ruzvelt və başqalarının abidələrini aşırmağa, İkinci Dünya müharibəsinin tarixini yenidən şərh etməyə başladılar, bəzi Avropa ölkələrində oxşar meyllər vardır. Fikrimizcə, bu dəyişikliklər aşağıdakı sualların fəlsəfi dərkini tələb edir: millət və etnos nədir, onların təşəkkülü və aralarındakı əlaqələrin yaranmasında

tarix və mədəniyyət hansı rolu oynayır, fərdin etnik və milli şüuru arasında hansı əlaqələr vardır və bu məsələlərdə obyektivliyə necə nail olmaq mümkündür, buna çalışmaq olarmı?

### Müasir dövrdə millət və etnosun tərifi haqqında

Millət və etnos, milli və etnik şüur anlayışlarından fəal surətdə istifadə, ilk baxışdan, sanki mədəniyyət məfhumunun təhlilinə yönəlişliyi nəzərdə tutur. Ancaq bu yalnız ilk baxışdan belə görünür. Həmin məsələlərin və onlarla əlaqəli problemlərin təhlili toplumun müasir şüurunun qeyri-sabitliyinin xüsusiyyətini aşkar etməyə və yalnız bundan sonra mədəniyyətin dəyişməsi və inkişafı prosesini anlamağa kömək göstərir. Bu məsələlərin dərk olunması bizə həmçinin mədəniyyətin dünyaya, beynəlxalq nizama və s. təsir mexanizmini izah etməyə də imkan verir.

Əvvəlcə, XX əsrin yaddaşımızda Avropa dəyərlərinin və bütün cəmiyyətlərin Qərbləşmə (modernləşmə, liberallaşma və qloballaşma) yolundan keçməli olduğu barədə fikrin hakim olduğu dövr kimi qaldığı barədə. Bu, çox şey demək idi, həm də, o cümlədən, nəticədə gec-tez millət və dövlətlərin formalaşacağını ehtiva edirdi. İmperiyalar keçmişdə qalmalı idi. İndi aydındır ki, tarix, əlbəttə, xətti bir proses deyil, hərçənd bir çoxları bununla razılaşmayaraq K.Marks ruhunda “istehsal üsulu” əvəzinə xüsusi Asiya inkişaf yolu və müxtəlif sivilizasiya növləri barədə yazmaqda davam edirlər. Fəqət xətti tarixin məhdudluğunun dərki bir yol əvəzinə iki və ya üç yolu fərqləndirmək üçün bəhanə olmamalıdır. Məsələ burasındadır ki, hər bir toplumun öz yolu var, onlar oxşardır və bir-birlərinə təsir edir, lakin hər bir birliyin daxilində fərd, qrup və kollektivlər, özlərini və cəmiyyəti müxtəlif cür dərk və müəyyən edərək toqquşurlar. İnformasiya cəmiyyəti və süni intellektdən istifadə şəraitində fərdin çoxluq təşkil edən identikliyi (eyniyyəti) daha çeşidli, fərqli və müxtəlif, rəngarəng olacaq və bununla da adət halını almış, ənənəvi kollektiv təsəvvür, fikir və yönəlişlikləri dəyişdirəcəkdir.

Fəlsəfə (və sosiologiya), bəlkə də, milli modernləşmə ideologiyasının mahiyyətini təşkil edən ideya və dəyərlərin əksəriyyət tərəfindən təfsir olunması üçün ümumi, ortaq anlamı təklif edərək bu məsələnin dərk olunmasında öz aktuallığını göstərməyə və əsaslandırmağa qadir olmalıdır. (Bu barədə “Fəlsəfə müasirlik, tarix və mədəniyyət haqqında”, Bakı, 2020 kitabımızda daha ətraflı yazmışıq). Ancaq, fikrimizcə, millət və etnosun nə olduğunun fəlsəfi tərifi zəruriliyinin bəzi cəhətləri izah olunmamış qalır. Yenə də həmin 90-cı illərdə biz mənəvi mədəniyyət və vətəndaş cəmiyyəti ilə bağlı məqalələrimizin birində bu məsələyə müraciət etmişik, amma bu yazıda bizim üçün özlüyündə tərif deyil, etnik və milli şüur arasındakı qarşılıqlı əlaqələrin dəqiqləşdirilməsi və müxtəlif cəmiyyətlərdə bu münasibətlərin dəyişkənliyi əhəmiyyət kəsb edir. Beləliklə, məsələ alimlərin onlara fərqli təriflər verməsində deyil, şüurda onların müxtəlif cür başa düşülməsindədir (E.Smit, V.A.Tişkov, Y.Habermas). Bu məsələlər kompleksini, anlayış və gerçəklilər münasibətlərini, çox vaxt etnopsixologiya, etnopolitologiya, geofəlsəfə, biosiyasət və s. bu kimi anlayışlarla “pərdələnərək” yalnız fəlsəfə dərk edə bilər. Aydın məsələdir ki, söhbət yeni elmlərdən deyil, siyasi, psixoloji, sosioloji və etik biliklərdən istifadə edərək şüur sahələrinin fəlsəfi fənlərarası tədqiqatlarından gedir.

Düşünürük ki, bu məsələlərin araşdırılmasına millətin mahiyyətini təyin etməkdən başlamaq lazımdır. Məsələ bundadır ki, etnos anlamı fəlsəfədə millət anlayışından sonra təşəkkül tapıb. Bir qayda olaraq, bir məfhum kimi etnosa millətin anlamı prizmasından baxaraq yanaşılırdı. Lakin etnos həmişə keçmişlə bağlı olmuş, millət isə bu gün və gələcəklə əlaqələndirilmişdir. Millət, fikrimizcə, dövlət tərəfindən vahid bir xəlitə, yekparə, ansambl kimi birləşdirilmiş insanların adı, bir qayda olaraq, dövlətin, dövlət dilinin və mədəniyyətin adını təkrarlayan mədəni və hüquqi birliyidir. Məsələn Fransa, fransızlar, fransız dili və s. Bir qayda olaraq, indiki halda, bu tərifi 200-ə yaxın dövlətin və xalqın mövcud oldu-

ğunu və onlardan hər birinin yolu və öz anlayışlarının olduğunu aydınlaşdırmaq üçün işlədirik. Tariximiz barədə danışarkən qeyd etmək istərdim ki, cəmiyyətdə Azərbaycan dilinin azərbaycanlılar üçün doğma olması, və ya onu Azərbaycan türkcəsi adlandırmaq lazım olduğu haqda diskussiyalar gedir. Bu müzakirə və mülahizələrin bütün təfərrüatına varmadan yalnız onu qeyd edərdim ki, bizlərdən bəzilərimizin dövlət dili və ana dili eynidir, bəzilərimizin isə yox. Və hamı dövlət dilini mütləq bilməlidir. Amma onu əlavə olaraq həm də türk dili adlandırmaq aşkarca artıqdır. Dilimizin türk, qazax, özbək və bir sıra başqa dillərlə birlikdə türk dilləri qrupuna aid olduğu onsuz da aydındır. Hər halda, kiminsə öz dövlət dilini rus-slavyan, fransız-roman, həmçinin kelt və german dili adlandırdığını heç xatırlamıram. Onda gərək ingilis dilinə fransız dili deyək, çünki onun əsasında fransız, alman və həm də Dan dili (Danimarkalıların dili) yerləşir.

İndi isə etnosun qan qohumluğu əlaqələri ilə birləşmiş, dövləti bu əlaqələrin törəməsi kimi, dövlət dili və mədəniyyətini doğma sayan, dərk edən insanların birliyi, toplumu olduğu barədə. Bu şüurda həmişə başqa bir etnosdan olanlara necə münasibət göstərmək lazım olduğu haqda sual baş qaldırır. O, dərhal etnosları bir-birindən ayırır: daimi və müvəqqəti, imperiyalar dövründə köçürdülmüş və indiki zamanda məskunlaşmış olanlara (4). Anlamaq lazımdır ki, etnik şüur qədimdə, keçmişdə yaranmış əlaqələri həqiqi, əsl bağlar sayır, qalanlarını isə – davamsız və müvəqqəti. Müəyyən mənada, məsələn, modernləşmə ideologiyası, informasiya mədəniyyəti və süni intellektin tətbiqinin şüurumuzda yaratdığı dəyişikliklər səthi, diqqətəlayiq olmayan hesab olunur. Lakin indiki halda biz etnik şüuru ətraflı təhlil etmirik, söhbət bu cür şüurun bizə, vətəndaşlarımıza millətin şüuru kimi də xas olduğundan gedir. Onu da qeyd edək ki, çox vaxt bu təsəvvürlər, anlayışlar fərdi şüurda qarışdırılır.

Əlbəttə, hər bir cəmiyyətdə toplumu, milləti və etnosu sosial və mədəni "yapışqan" kimi birləşdirən din, mədəniyyət, elm və ideologiya mövcuddur. Güman edə bilərik ki, etnik şüur daha çox ənənəvi, dini əlaqələrə yönəldilmişdir, millətin şüuru və millətin genezisi (yaradılması) isə ideologiya və elmlə bağlıdır. Belə olduğu halda, mütləq ona diqqət yetirmək lazımdır ki, millilik (qövmiyyət) ideyası, hər şeydən əlavə, bir qayda olaraq, keçmişi (milli ideyaya aid) indi ilə əlaqələndirərək, etnik olanı bir ideologiya kimi milli şüurla birləşdirir, və əlbəttə ki, etniklik ideyası millilik ideyasına zidd ola bilər, amma olmamalıdır.

### Mədəniyyətlərin qarşılıqlı təsiri və mədəni-tarixi fon

Mədəniyyətlərin qarşılıqlı təsiri və əlaqəsi cəmiyyətlərin inkişafında əhəmiyyətli, vacib bir fenomendir, lakin toplumun bu ideyanı necə anlaması və dünyada hansı ideyaların üstünlük təşkil etməsi də öz rolunu oynayır. Mədəniyyət həmişə fərdlərin qarşılıqlı təsiri və əlaqəsi, münasibətidir. Fəqət bu fikir heç də hamı tərəfindən qəbul edilmir və ictimai şüurun kənarında qala bilər. Məsələn, məşhur alman filosofu Y.Habermas müasir millətlər və dövlətlərin inkişaf təmayülləri barədə düşüncələrində qeyd edirdi ki, bir sıra "tarixi səbəblərə görə" "bir çox ölkələrdə" "əksəriyyətin mədəniyyətini onların mədəni mənşəyindən asılı olmayaraq dövlətin bütün vətəndaşları tərəfindən qəbul edilməsi iddiasında olan ümumi siyasi mədəniyyət ilə qarışıq salırlar. Əgər biz müxtəlif mədəni, etnik və dini həyat formalarının eyni bir ictimai bütövlük, tamlıq daxilində birlikdə və yanaşı mövcud olmasını istəyiriksə, bu qarışıqsalma aradan qaldırılmalıdır" (12, s.215). Prinsipcə, müasir filosof dövlətlər və millətlər üçün, bizcə, mədəni-tarixi fon və bir dövlətin vətəndaşları arasında mədəniyyətdə müəyyən homogenlik (birlik) tələb edən siyasi mədəniyyət adlandırıla bilən fenomenlər arasında məlum ziddiyyəti şərtləndirən ciddi bir mədəniyyət problemini qeyd edir. Bu fon hər bir cəmiyyətin dövrləri və zəmanələri üzrə dəyişir, bizim halda isə, bir çox digərləri üçün də hələ izah (təsvir) edilməlidir.

Bu təsvir çox cəhətdən tədqiqatçının dövr, zaman barədə biliklərindən, sənədlərə malik olmasından, müqayisəli metodologiyaları tətbiq etmək bacarığından və s. amillərdən asılıdır. Bu fonun məzmununun sosial, tarixi, mədəni, etnomədəni, linqvistik aspektləri vardır. Bu fonla sıx surətdə "xatirə yerləri" bağlıdır, onlar müxtəlif dövr, mədəniyyət və dinlərə və s. aid ola, bir-birinə zidd, adət-ənənələr, dillər, biliklər və bir çox başqa şeylərlə bir-birindən ayrılmış halda ola bilər. Nəzərə almaq lazımdır ki, həmin fon qlobal mədəni-tarixi fonla ziddiyyət təşkil edə bilər. Məsələn, F.Fukuyamanın qloballaşma barəsində üstünlük təşkil edən ideyaları hakim mövqe tutan liberal-demokratik fon kimi bu və ya digər cəmiyyətin müstəqilliyə, milli, etnik və islami dəyərlərə olan meyllərinə zidd ola bilər. Belə bir vəziyyətdə dövlətin sabitliyi bir çox cəhətdən liderdən, onun cəmiyyəti birləşdirmək bacarığından və fərdi keyfiyyətlərindən asılı olmağa başlayır.

Mədəniyyətə dair fəlsəfi ədəbiyyatımızın təhlili bizə orada hökm sürən iki təmayülü aşkar etməyə imkan verir. Onlardan birincisi tanınmış kulturoloq F.T.Məmmədovun tədqiqatlarında daha aydın şəkildə təqdim olunur (5). Fəqət onun sanballı kitabında mədəniyyət tarixinə, fona, mədəniyyət haqqında fon biliklərinə, tarixdə yaradıcı mədəni prosesin getdiyinə diqqət yetirilmir. İkinci təmayül birliyimizin əsas etnosuna sıxıntı verildiynə, onun tarixi və mədəniyyətinə etinasızlıq göstərildiyinə əmin olan tədqiqatçıların işləri ilə bağlıdır. Onları, ilk növbədə, mədəniyyət və tarixdə mövcud olanlar, dövrlərin dəyişməsinin, toplumun mədəniyyətinin dəyişkənliyinin səbəbləri, mədəni prosesin dialektikası deyil, tarixi ədalətin bərpası narahat edir və bunu müəyyən dərəcədə başa düşmək və izah etmək olar. Burada onlar elmilik və etika arasındakı münaqişə ilə üzləşə, inkişaf stimulu kimi cəmiyyətdaxili və toplumlararası mədəni qarşılıqlı təsir və əlaqəyə əhəmiyyət verməyə (Z.Qulu-zadə, F.Ələkbərli) bilərlər. Azərbaycanın tanınmış filosofu Z.Quluzadə, məsələn, hesab edir ki, dövlətin siyasəti və ideologiyası kimi multikulturalizm həm müsbət, həm də mənfi rol oynaya bilər, onun mədəni qloballaşmanın inkişafında böyük rolu olub (6, s. 80-81). Fəqət o, multikulturalizmin, mədəniyyətlərin, dinlərin dialoqunun, mədəni qloballaşmadan başqa, həm də cəmiyyətin qorunub saxlanmasına imkan yaratdığını, onun identikliyin münaqişələrində batıb qalmasının qarşısını aldığını nəzərdən qaçırır. F.Ələkbərli, özünün yazdığı kimi, "Azərbaycan türkləri"nin fəlsəfə tarixini öyrənməyə cəhd göstərərkən onu fraqmentləşdirir, mədəni əlaqələrin bütün dolğunluğundan məhrum edir, bu cür olduqda isə fəlsəfə ola bilməz.

Tarix həmişə mübarizə deməkdir, burada əksəriyyət heç də hər dəfə qalib gəlmir (həm də ki, əksəriyyət yekparə olmur və buna görə də fəlsəfədə "kütlələrin qiyamı", etnik partlayış anlayışından istifadə olunur) və buna baxmayaraq, hər bir xalq digər xalqlarla qonşuluqda yaşayır, başqaları ilə əməkdaşlıq edərək, "birgəyaşayış fəlsəfəsi"ni, öz mədəniyyətini yaradır. (3, s.151). Tədqiqatçı-filosofu onun cəmiyyətinin mədəniyyətinin, tarixi yolunun necəliyi barədə sual narahat etməyə bilməz. Ancaq bu suala cavab əlaqələrin sadəcə kəsilməsi, əvvəllər bu məsələlərə müraciət edənlərdən sitat gətirilməsi ilə əldə edilmir, bu işin bütün əhəmiyyətinə baxmayaraq burada hər şey daha mürəkkəbdir. Həm də ki, digər mədəniyyətlərlə birgə yaşamağın mədəni-tarixi fonun bir hissəsi olduğunu, bu birgəyaşayışın "xatirə yerləri" xüsusunda qarşılıqlı münasibətləri də ehtiva etdiyini, bir millət daxilində həmin yerlərin fərqli təfsirinin yarana bildiyini, onlar barəsində destruksiyaların (lat. destructio – dağılma, pozulma, təxribat) mümkün olduğunu unutmamalıyıq. Məsələn, Azərbaycanın sovet keçmişi və ya müsəlman keçmişi və bugünü (hazırkı müasirliyi və postmoderni ilə bərabər) xüsusunda. Nəzərdə saxlamaq lazımdır ki, cəmiyyət kimi təşəkkül etmək prosesinə təsir göstərən təkcə onun bizim və onların kim olduğu, bizim özümüzü necə adlandırdığımız və onların bizi necə adlandırdığı barədə suallara necə cavab verməsi deyil. Bu məsələlərə yanaşma, problemin obyektiv su-

rətdə araşdırılması ilə eyni zamanda mədəniyyətlərin tarixinin müxtəlif şərhlərinə münasibətlərdə birliyin, vəhdətin qoruyub saxlanılması metodologiyasının nədən ibarət olduğu vacibdir. Tarixdəki çoxsaylı "ağ ləkə"lərə, onların açılması və təfsirinin bəzi hallarda toqquşma və münaqişələrə səbəb ola biləcəyinə necə yanaşmasının həlli yolu olaraq iki mühüm məqamı qeyd edə bilərik: birincisi, müxtəlif mənbələrdən məlumat və materialları cəlb edərkən tədqiqatçı onların mümkün qədər tam, dolğun və həcmli olmasına çalışmalıdır; ikincisi, elmi kollektivlərin işində müxtəlif istiqamət və yanaşmaların təmsilçiləri, fərqli ölkələrin alimləri iştirak etməlidir.

Fikrimizcə, konseptuallıq baxımından, mahiyyətcə, bu yanaşma səmərəlidir. Mənbəşünaslıq məlumatları zənginləşdirilir, tərəflərin hər birinin dəlillərinin anlaşılması artır. Burada Türkiyədə Bizans, Ayasofya xüsusunda, Ermənistanla tarixi və mədəni problemlərin müzakirə edilməsi üçün arxivlərin açılması ilə bağlı tarixi yaddaş problemini necə həll etdiklərinə fikir vermək maraqlıdır. Ağ hərəkatın və bolşeviklərin, vətəndaş müharibəsinin tarixinə dair Rusiyanın da təcrübəsi maraqlıdır. Almaniya və İngiltərə ilə münasibətlərin, 1789-cu il Fransa inqilabına yanaşmanın və s. tədricən dəyişməsi üzrə Fransanın maraqlı təcrübəsi vardır. Ən əsası: aydın olur ki, bu cür yanaşma zamanı elm, fəlsəfə və hətta tarix mədəniyyətdəki dəyişiklik və dialoq prosesinə birbaşa qoşulur, onu zənginləşdirir, ona tarix və mədəniyyətdə yeni kommunikasiyaların çağırışlarına cavab vermək hazırlığı və bacarığı verir.

C.Nay, mədəniyyətin siyasətdə həm elə, həm də belə istifadə olunduğunu nəzərdə tutaraq, ictimai elmlərə və şüura iki anlayış daxil edib: "yumşaq və sərt güc". Onun fikrincə, sanki mədəniyyət müəyyən milli və ya etnik normaların, dinlərin, standartların üstünlük təşkil etməsi, hakim mövqe tutmasıdır. Ancaq o, yalnız hökmdə ifadə olunmur, ona müncər edilmir, onunla məhdudlaşmır, o, həm də bir dialoqdur. Mədəniyyətdə çox şey həm də cəmiyyətdə kimin rəyinin ekspert rəyi olmasından asılıdır.

Belə ki, Azərbaycan tarixində əlifba, din, dil və elitaların mənşəyi bir neçə dəfə dəyişib. Əlbəttə, bu proseslər mədəni paradiqmanın dəyişməsi ilə baş verirdi. Bu paradiqmalar, hər halda, yaddaşlarda qorunub saxlanıb. Lakin onlar "xatirə yerləri"ndə, mədəni və tarixi fonumuzda, şüurumuzda nə dərəcədə keyfiyyətli və obyektiv surətdə əks olunub? Fikrimizcə, tarixi diskurs (ümumi mənada: dil fəaliyyəti prosesləri və onları nəzərdə tutan anlayışlar sistemi) onların zaman ərzində tədrici və güclənən hərəkətini izah etməli, fəlsəfi diskurs isə mədəniyyətin dəyişməsi, ideal və dəyərlərin əvəzlənməsi proseslərini müqayisə edərək, cəmiyyətin mədəniyyətində ortaq, ümumi olanı müəyyənləşdirərək obyektivliyi gözləmək səylərini sübutluluq və dialoqla birləşdirməlidir.

### Tarixi-mədəni epistemologiyanın aktuallığı haqqında

Hər bir cəmiyyətin mədəniyyəti unikaldır. Mədəniyyətin nadirliyi gerçəklik kimi duyulmaya, qavranılmaya, dərk edilməyə bilər. Bu halda o, etnoqrafiya tərəfindən öyrənilir. Və yalnız hansısa bir mərhələdə, alimlər onu xüsusi bir fenomen, kollektiv şüur və özünüdərk kimi təhlil etdikdə, o, tədqiqat obyekti, yanaşmalar, dinlərin və etnosların ziddiyyətli kommunikasiya (əlaqə, təmas, ünsiyyət və s.) prosesi kimi başa düşülməyə başlayır. Bu zaman mədəniyyət fəlsəfəsi və tarixi həm də tarixi-mədəni epistemologiya kimi təşəkkül tapmağa başlayır. Əgər mədəniyyət fəlsəfəsi və tarixi, bir qayda olaraq, mədəniyyəti konkret tədqiqat obyekti kimi nəzərdən keçirirsə, tarixi-mədəni epistemologiya obyektin və tədqiqatçının ona münasibətinin necə dəyişdiyinə, onu hansı metod və dəlillərin köməyi ilə araşdırdığına müraciət edir. (2, s.13-14; 7, s.34-35).

Bununla bərabər, mədəniyyətə tarixi nöqteyi-nəzər özlüyündə çox vaxt başqalarının tarixi həqiqətlərindəki yalanlara qarşı «xatirə yerləri»nin uğrunda müharibələrə» səbəb olduğunu qeyd etməmək olmaz. Təbii ki, toplumun tarixinə, mədəniyyətinə, tarixi yaddaşına mü-

nasibət araşdırıcı, fəlsəfi və konseptual, sübutlu, inandırıcı və əsaslandırılmış olmalıdır. Bizə toqquşmalardan yayınmağa keçmiş deyil, onu necə əldə etdiyimiz, necə dərk etdiyimiz, elmi fəaliyyətə nə dərəcədə tənqidi münasibət bəslədiyimiz, həqiqət axtarışında nə qədər səbirli olduğumuz kömək edir. Fikrimizcə, ölkəmizin və xalqımızın mədəniyyəti rəngarəngdir, hazırda bir çox mədəni ənənələrin qarşılıqlı əlaqəsindən, çox vaxt keçmişlə müasirliyin, Şərqlə Qərbin, təkcə ölkədə çoxdan bəri yaşayan xalqların deyil, həm də qonşu mədəniyyətlərin tərkib hissələrinin və s. qəribə çəlpəşməsindən ibarətdir. Əlbəttə, bu problemlər barədə müxtəlif ölkələrin arxiv materiallarından faydalanaraq, qonşu ölkələrin elm adamlarını cəlb edərək və s. yazmaq lazımdır. Bu fəlsəfi prinsiplər emosional və qiymətləndirici münasibətdən mədəni-tarixi araşdırmanın epistemologiyasına keçməyə kömək edə bilər. Belə ki, ənənə və inanclarımızı təhlil edərkən, onlarda müstəsna pozitivlik görməyə çalışarkən, bununla belə, onu sübut etmək və əsaslandırmaq lazımdır, o cümlədən, digər ölkələrin alimlərinin köməyi ilə, birgə kollektivlər yaratmaq və s. Bundan əlavə, hər bir mədəniyyətin inkişafında müxtəlif ənənə, din, mif və əfsanələrin təsiri, təkrarlanması, kəsişməsinin olduğunu başa düşmək üçün bizim alimlərə də digər xalqların mədəniyyətini öyrənmək gərəkdir. Bunula belə, bu təsirlərin etirafına daha az rast gəlirik, keçmişin mədəniyyətinə rasional münasibət emosional, romantik və mühafizəkar yanaşmaya tabe edilir.

Mədəniyyətin dəyərlər, fəaliyyət, həm də biliklər demək olduğu barədə dəfələrlə yazmışıq. Onlar mədəni təcrübədə, iqtisadiyyatda istifadə edilərək insanların həyat tərzinə, fəaliyyətinə və şüuruna ehtiva olunur. Buna görə mədəniyyətlər inkişaf edir, dəyişir, qarşılıqlı təsirdə bulunur, bir sözlə, statik deyildir. Fəqət onu da etiraf etmək lazımdır ki, bəzən dəyərlər, fəaliyyət və biliklər insanları toqquşdurur. Buna görə də, düşünürük ki, dəyərlər, fəaliyyət və biliklərdə fərqləri görmək, anlamaq və izah etmək lazımdır. Bu cür kontekstdə çox şey biliyin tipindən, bilik əldəetmə işinin təşkilindən asılıdır.

Mədəni müxtəlifliyin və mədəniyyətlərin qarşılıqlı təsiri və əlaqəsinin etirafı onun dinamik biliklə, məlumat mübadiləsi ilə bağlı hissəsidir. Əlbəttə ki, mədəniyyətlərin qarşılıqlı əlaqəsi üçün təkcə informasiya mübadiləsi deyil, həm də informasiya kanalları, məlumat mübadiləsinin aparıldığı dil əhəmiyyət kəsb edir. Bizdə dövlət dili olan Azərbaycan dilinin inkişafına çox diqqət yetirilir, lakin xarici dilləri bilmək də çox vacibdir. Məsələn, ölkədə rus dilinə verilən diqqəti qeyd etməyə bilmərəm, respublikada rus dilində təhsili tamamilə qorunaraq saxlanılıb. Filosoflarımız həm keçmişdə, həm də bu gün yəhudi, xristian və müsəlman dinlərinin mədəniyyətləri arasındakı əlaqələrin təsvirinə lazımi diqqət yetirirlər.

Lakin mədəniyyətlərin qarşılıqlı təsir və əlaqəsi, mədəniyyətlərarası kommunkasiya sahələrinin təhlilində problem var. Əksəriyyət üçün problem bu proseslərin təhlükəsizliyi və onlara nəzarətlə, mədəniyyət modeli, nüvəsi və ya kodunun qorunması ilə bağlıdır,. Görünür, mədəniyyətlərin qarşılıqlı təsiri həqiqətən mədəniyyəti konkret identikliklə əlaqədən məhrum edə, təhlükəli ola bilər, üstəlik, bu təsir onun müəyyən bir topluma qarşı yönəlmiş məqsədlər üçün istifadə oluna bilməsini (sərt qüvvə) ləğv etmir. Yəqin elə buna görə hər bir mədəniyyətdə "digərinə", suverenliyin itirilməsinə xüsusi həssas, ehtiyatlı, imperializm və müstəmləkəçiliyə qarşı isə tənqidi münasibət vardır. Rus filosofları V.Mironov və D.Mironova yazırlar ki, mədəniyyətlərin qarşılıqlı təsiri gedişində meydana çıxan təsvir olunmuş ziddiyyəti müəyyənləşdirən "özününkü və yad" dixotomiyası əhəmiyyət kəsb edir. "Özününkü" (mədəniyyətdaxili) "yad"a aid olanlardan, mənə aid olanları inkar edənlərdən, buna görə də müəyyən bir vəziyyətdə yabançı, biganə və hətta düşmən olandan daha dəyərli sayılır" (9, s.18). Ancaq bu "dixotomiya" daha dolğun və ən əsası, yoxlanılmış, mötəbər bilik əldə etməyə mane olmamalıdır.

Və nəhayət, vurğulamağa dəyər ki, elə həmin Y.Habermas, bir çox başqa tədqiqatçılar kimi, Avropada millət qurma "nümunə"sinin tarixi, mədəniyyəti və məntiqini qeyri-Avro-

padakı etnik bir dövlətdə olduğundan fərqləndirir. O yazır: "Müstəqilliyi əldə etmiş postmüstəmləkə ölkələrində uzun sürən qəbilə münaqişələri xatırladır ki, millətlər yalnız birbiriilə tanış olan yoldaşların etnik bünövrəsi üzərində əsaslanmış birliyindən dövlətin birbirinə yad vətəndaşlarının hüquq vasitəsi ilə təsbit olunmuş həmrəyliyinə qədər çətin yolu keçdikdən sonra yaranır" (12, s.266). Qloballaşma şəraitində "çətin yol" heç də birmənalı olmadığından, bizcə, aydın olur ki, əksinə, millətin genezisi prosesləri dayanmır, çünki hər hansı bir cəmiyyətin şüuruna dəyişmək xasdır. Bundan başqa, bütün Avropa ölkələrində miqrantların faizi artır və bu da şüurun dəyişməsinə təsir edir, çox vaxt ovqatlarda alarmizm (həyəcan doğuran əsassız şayiələrin yayılması), mühafizəkarlıq və s. artır. Həm də düşünürük ki, bu proseslər daha da arta-atra davam edəcəkdir ki, bu da Y.Habermasa rəğmən, etnik və milli şüur arasında "həmrəylik" axtarışının qaçılmaz olacağı deməkdir. Məsələ bundadır ki, onun fikrincə, ideyanın normativ məzmunu "dünya hökuməti olmayan dünya vətəndaş cəmiyyətində" postmilli konstellyasiyada (vəziyyətdə) "konseptual surətdə ləğv olunacaq". (13, s.312). Milli və etnik şüur arasındakı dialoq problemi Azərbaycanda və bəzi digər postsovet ölkələrində aktual olduğu kimi, Almaniya, Polşa, İtaliya, Macarıstanda da artıq aktualdır və ya tezliklə aktuallaşacaq.

Milli və etnik şüur arasında dialoqa və həmrəyliyə ehtiyac mədəni-tarixi epistemologiya, "xatirə yerləri"nə münasibət xüsusunda dialoq, mədəni-tarixi fon, mədəniyyətlərarası kommunikasiya problemləri ilə bağlı məsələlərin dəqiqləşdirilməsinə səbəb olacaqdır. Fikrimizcə, milli dövlət və toplum ictimai şüurda mədəniyyətin inkişafını qarşılıqlı təsir (əlaqə) və dialoq kimi dərk edə bildikdə, ictimai elm isə qərəzlilikdən imtina edərək, yoxlanıla və sübut edilə bilən, özü digər birliklərin alimləri ilə dialoqa açıq olan zaman "xatirə müharibələri" sona yetəcək. Bu xüsusda cavab və hətta düşüncələr mədəniyyət və tarix üzrə emosional komponentimizi tamamlayır, müəyyən dərəcədə mədəniyyət haqqında sübutlu, inandırıcı biliklər kateqoriyasına keçirir.

Fikrimizcə, hər bir milli identiklik (kimlik) polimədəniyyətlidir, çünki tədricən təşəkkül edir və bu yol başa çatmayıb. Qloballaşma, bir tərəfdən, mədəniyyətlərin hər birində ortaq cəhətlərin meydana çıxmasına, digər tərəfdən isə variativlik və fərqlər nəinki qalır, əksinə, onların rolu artır. Yaranmış şəraitdə, görünür, müasir milli mədəniyyətin və müasir dövrün identikliyinin yeni fəlsəfi anlamını ifadə etmək lazımdır. Əlbəttə ki, millət müəyyən şəraitin məhsuludur, ancaq ona dəyişmək və bəzən alimlərin köməyi ilə, öz keçmişi və gələcəyini dəyişdirmək xasdır.

**Ədəbiyyat:**


1. Бараш Р.Э. Идентичность и мультикультурализм. В поисках базовых категорий анализа // «Вопросы философии», 2019, № 1
2. Барлыбаев Г.Г., Нысанбаев А.Н. Этическая мысль казахов как основа духовного возрождения // «Вопросы философии» 2018, № 9.
3. Мамедзаде И.Р. Философия о современности, истории и культуре, Баку, «Elm və təhsil», 2020.
4. Mamedzade I.R. Philosophy of Mutual Influence of Cultures and Settlement of Germans in the Southern Caucasus. Baku, Print-E-Service LTD, 2017.
5. Məmmədov F.T. Kulturologiya, mədəniyyət, sivilizasiya. Bakı, OL, 2015/
6. Материалы конференции: Identity and Multiculturalism: Methodology, Tendencies and Perspectives Баку, Mutarcim, 2018.
7. Межуев В.М. История как философская идея // «Вопросы философии», 2018, №8.
8. Мехтиев Р. О пользе познания истории в формировании национальной идеи. Т. 1, М.: Столица, 2017.

9. Миронов В.В., Миронова Д.В.Г. Мультикультурализм: толерантность или признание? // «Вопросы философии», 2017, № 6.
10. Моруа Андре. История Германии М.: КоЛибри, М. 2017.
11. Моруа Андре. История Франции М.: КоЛибри, М. 2016.
12. Хабермас Юрген. Вовлечение другого. Очерки политической теории. – СПб.: Наука, 2001.
13. Хабермас Юрген. Между натурализмом и религией Философские статьи. М.: ВЕСЬ МИР, 2011.

***Açar sözlər:*** *millət, etnos, "xatirə yerləri", mədəni-tarixi fon*

**Ilham Mammadzade**
*Director of the Institute of Philosophy*
*of Azerbaijan National Academy of Sciences*
*Doctor of Philosophical Sciences, Professor*

## SOME PHILOSOPHICAL PROBLEMS OF INTERCULTURAL COMMUNICATION

### SUMMARY

The article deals with some of the main problems of the philosophy of intercultural communication, their significance in understanding the process of developing the culture of the community. Such an approach to culture not only contributes to the clarification of its methodological (epistomological) and historical foundations, but also permits to understand the mechanism of cultural variability, its ethical-dialogic context. Reflections of philosophers permits to understand some important cultural and historical generalizations, peculiarities and comparisons in the formation of Azerbaijani culture.

***Keywords:*** *nation, ethnos, places of remembrance, cultural and historical background*

**Ильхам Маммадзаде**
*Директор Института философии Национальной Академии Наук Азербайджана,*
*доктор философских наук, профессор*

## НЕКОТОРЫЕ ФИЛОСОФСКИЕ ПРОБЛЕМЫ МЕЖКУЛЬТУРНОЙ КОММУНИКАЦИИ

### РЕЗЮМЕ

В статье рассматриваются некоторые основные проблемы философии межкультурной коммуникации, их значимость в понимании процесса развития культуры общности. Этот подход к культуре не только способствует уточнению ее методологических (эпистемологических) и исторических оснований, но и позволяет понять механизм изменчивости культуры, ее этико-диалогический контекст. Размышления философов позволяют понять некоторые важные культурно-исторические обобщения, особенности и сравнения в становлении азербайджанской культуры.

***Ключевые слова:*** *нация, этнос, места памяти, культурно-исторический фон*

# SOSİAL FƏLSƏFƏ
# SOCIAL PHILOSOPHY

UOT 101.316.34

**ETİBAR NƏCƏFOV**
**Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin baş məsləhətçisi, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Fəlsəfə və sosial psixologiya kafedrasının müdiri, fəlsəfə elmləri doktoru, professor**
*email: eanajafov@gmail.com*

## COVİD-19 PANDEMİYASI VƏ MULTİKULTURALİZM

BMT, Avropa Şurası, ATƏT, UNESKO tərəfindən milli azlıqların hüquq və azadlıqlarının, etnik-mədəni dəyərlərinin qorunmasına, dinlərarası, mədəniyyətlərarası və sivilizasiyalararası dialoq və əməkdaşlığın inkişafına, eləcə də cəmiyyətdəki ayrı-seçkiliyin və dözümsüzlüyün bütün formalarına qarşı mübarizə sahəsində dövlətlərarası birgə əməkdaşlığın inkişaf etdirilməsinə dair qəbul olunmuş sənədlər onları ratifikasiya edən dövlətlərin daxili və xarici siyasətlərinin mühüm istiqamətidir. Qeyd olunan sənədləri icra edən dövlətlər multikulturalizmə daxili və xarici siyasətlərinin tərkib hissəsi kimi yanaşırlar. Lakin təəssüf ki, bu sənədləri ratifikasiya edən bir çox dövlətlər, o cümlədən inkişaf etmiş demokratik dövlətlər, sənədlərdə əks olunan bəzi öhdəlikləri icra etməkdən imtina edirlər. Nəticədə bu ölkələrdə dözümsüzlüyün və ayrı-seçkiliyin irqçilik, etnik millətçilik, islamofobiya, antisemitizm kimi geniş yayılmış formaları baş qaldırır, miqrantların hüquqları pozulur. Əlbəttə, bu imtinanın əsasında müəyyən səbəblər, ölkələrin üzləşdikləri real problemlər durur. Belə səbəblərdən biri müasir dövrdə Qərb ölkələrinin üzləşdiyi miqrant böhranıdır.

### Miqrant böhranı və multikulturalizm

Məlum olduğu kimi, Qərb ölkələri cəmiyyətdəki etnik-mədəni müxtəlifliyi liberal demokratiya prinsipləri əsasında tənzimləyir. Multikulturalizm siyasətindən imtina etmiş bir neçə Qərb ölkəsinin təcrübəsi göstərir ki, cəmiyyətdə mövcud olan etnik, irqi, dini və mədəni müxtəlifliklər liberal demokratiyanın prinsiplərinə əsasən tənzimləndikdə, yəni dövlət milli azlıqların etnik-mədəni dəyərlərinin qorunmasına həddindən artıq səy göstərdikdə, bu işdə onlara tam azadlıq verdikdə, digər tərəfdən isə onların yaşadıqları cəmiyyətə inteqrasiyası olunmaları istiqamətində lazımi tədbirlər görmədikdə, milli azlıqlar cəmiyyətdə titul xalqın geniş yayılmış etnik-mədəni dəyərlərindən, müəyyən olunmuş etik-davranış normalarından təcrid olunaraq, hətta bəzən bu dəyərlərə və normalara qarşı müqavimət göstərərək öz etnik-mədəni dəyərlərinə sığınırlar. Belə olan şəraitdə cəmiyyətdə dezinteqrasiya prosesləri baş qaldırır. Cəmiyyət müxtəlif etnik və dini icmalara bölünür. Bu isə icmalar arasında dialoq və əməkdaşlıq əlaqələrinin inkişafına mane olur.

Liberal demokratiya ölkələri üçün xarakterik olan bu problemi həmin ölkələrin bir neçə dövlət başçısı (Böyük Britaniyanın sabiq Baş naziri Devid Kameron, Fransanın sabiq Prezidenti Nikola Sarkozi, Almaniyanın kansleri Anqela Merkel) qeyd edərək multikulturalizm siyasətinin müasir dövrdə səmərəsiz olması səbəbindən iflasa uğradığını və ondan imtina olunduğunu hələ 2010-cu illərin əvvələrində rəsmi olaraq bəyan etmişlər. Onlar bu siyasətin səmərəsizliyini ölkələrinə miqrasiya edərək burada məskunlaşmış etnik və dini azlıqların

cəmiyyətə inteqrasiya olunmaq istəmədikləri ilə əsaslandırırdılar. Bu dövlətlərin ümumi mövqeyini 5 fevral 2011-ci ildə 47-ci Münxen Təhlükəsizlik Konfransdakı çıxışında Böyük Britaniyanın sabiq Baş naziri Devid Kameron belə ifadə etmişdir: "Dövlət multikulturalizmi" doktrinası müxtəlif mədəniyyətləri öz adət-ənənələri ilə yaşamalarına dəstək verməklə cəmiyyətdə inteqrasiya proseslərinin qarşısını alır. Bunun nəticəsində müxtəlif icmalar, xüsusilə də, müsəlman icması cəmiyyətdəki liberal dəyərləri inkar edərək demokratik cəmiyyətimizin dəyərlərinə zidd olan dəyərləri təbliğ edirlər. Bu isə dini ekstremizmin baş qaldırması üçün şərait yaradır" (6). London Royal Hollovey Universitetinin tədqiqatçısı Andrea Udrea Qərb ölkələri liderlərinin multikulturalizmin iflasa uğramasına dair bəyanatlarını 2001-ci il 11 sentyabr tarixində ABŞ-da törədilmiş terror hadisələri ilə başlamış multikulturalizmin böhranının kulminasiya nöqtəsi adlandırmışdır (9, p.34). Onun fikrincə, bu bəyanatlar Avropada etno-mədəni və dini müxtəlifliyin tənzimlənməsinə dair yeni debatların başlanmasına səbəb oldu.

Həqiqətən, Qərb ölkələrində "Dövlət multikulturalizmi" doktrinasının aparılması cəmiyyətdə bəzi icmaların, xüsusən müsəlman icmasının özünə qapanması üçün şərait yaradır. Nəticədə müsəlman icmasının bir çox nümayəndələri öz adət-ənənələrinə, etnik-mədəni dəyərlərinə sığınaraq yaşadıqları cəmiyyətə inteqrasiya olmurlar, buradakı liberal dəyərlərə müqavimət göstərirlər. Hətta onlardan bəziləri dövlət dilini belə öyrənmirlər. Devid Kameron baş nazir olduğu dövrdə ingilis dilinin miqrantlar tərəfindən məcburi öyrənilməsi ilə bağlı kəskin şəkildə bir tələb qoyaraq bunları demişdir: "Britaniyada yaşadığı iki il yarım ərzində ingilis dilini öyrənməyən miqrant ölkədən deportasiya olunacaqdır" (8, s.271).

Beləliklə, liberal demokratiya prinsipləri əsasında aparılan Qərb ölkələrinin multikulturalizm siyasəti bu ölkələrdə sosial birliyi pozur, dezinteqrasiya proseslərini gücləndirir, eləcə də paralel həyatlar [Qeyd: Cəmiyyətdə çoxluğun yaşadığı həyatla yanaşı azlıqların cəmiyyətdən təcrid olaraq öz adət-ənənələrinə sığınaraq yaşamaları] yaradaraq cəmiyyətdə etnik və dini zəmində qarşıdurmalara yol açır. Qərb ölkələrində paralel həyatların yaranmasını tədqiqatçıların əksəriyyəti müsəlmanlarla əlaqələndirirlər. Məsələn, Amerikalı politoloq Con Bouven "Avropalılar multikulturalizmə qarşı" adlı məqaləsində bununla əlaqədar qeyd edir ki, multikulturalizmə qarşı indiki reaksiyanın əsasında müsəlmanların (miqrant, qaçqın və ya çoxdan Qərb ölkələrində yaşayan müsəlmanlar və onların övladları) yaşadıqları cəmiyyətə inteqrasiya olmaq istəməmələri durur (5, p.23). Paralel həyatların mövcudluğu cəmiyyətdə sosial birliyi pozaraq, parçalanma, dezinteqrasiyanı gücləndirərək etnik, dini zəmində münaqişələrə yol açır. Yeri gəlmişkən qeyd edək ki, Qərb ədəbiyyatında multikulturalizmin tənqid olunmasının əsas səbəblərindən biri onun cəmiyyətdə parallel həyatlar yaratması hesab olunur. Lakin bu o demək deyil ki, liberal demokratiya ilə multikulturalizm bir-birinə ziddir. Əksinə, milli azlıqların hüquq və azadlıqlarının qorunması liberal demokratiyanın əsas dəyərlərindən biridir.

Qərb ölkələrində multikulturalizm siyasətinin aparılması ilə bağlı müşahidə olunan neqativ proseslərə gəldikdə, onları bütövlükdə multikulturalizmlə yox, immiqrant multikulturalizmi ilə, yəni immiqrantlara münasibətdə həyata keçirilən multikulturalizm siyasəti ilə əlaqələndirmək lazımdır. Yuxarıda qeyd etdiyimiz bəzi Qərb ölkələrinin liderlərinin multikulturalizm siyasətinin səmərəsizliyi səbəbindən iflasa uğramasına və ondan imtina olunmasına dair verdiyi bəyanatlarında da söhbət bu ölkələrin multikulturalizm siyasətindən imtina olunmasından yox, immiqrant multikulturalizmdən gedir. Bununla əlaqədar 2007-2013-cü illərdə ATƏT-in Milli Azlıqlar üzrə ali komissarı işləmiş Knut Vollebaek qeyd edir ki, bəzi Qərb ölkələrinin dövlət başçılarının multikulturalizmin böhranı ilə bağlı verdikləri bəyanatlar yalnız immiqrant multikulturalizminə aiddir (9, p.38). Məhz immiqrantlar köçdükləri Qərb ölkələrinin liberal-demokratik dəyərlərindən sui-istifadə edərək öz etnik-mə-

dəni dəyərlərinə sığınır və yaşadıqları cəmiyyətə inteqrasiya olmaq istəmirlər.

Söhbət ilk növbədə müsəlman immiqrantlarından gedir. Hərbi münaqişələr nəticəsində miqrantların bir sıra inkişafda olan ölkələrdən, xüsusilə də Yaxın Şərq və Afrika ölkələrindən Qərbi Avropaya kütləvi axını orada müsəlmanların sayının qismən artmasına gətirmişdir. Müsəlman immiqrantlarının Qərbi Avropa ölkələrində çoxalması, onların öz etnik-mədəni dəyərlərinə sığınmaqla cəmiyyətə inteqrasiya olmaq istəmədiklərini bəzi ifrat sağçı, populist qruplar fəaliyyətlərinin əsas məqsədlərindən biri olan islamofobiyanın yayılması üçün istifadə edirlər. Məsələn, baş qərargahı İsveçrədə yerləşən, frankofon ölkələrdə islamofobiyaya və irqçiliyə qarşı mübarizə aparan "Racism İslamophobia Watch" ("İrqçilik İslamofobiya İzləmə") təşkilatı 2013-cü ilin oktyabr ayından bəri hər ay üçün apardığı müşahidələrin əsasında hesabat hazırlayır. Hesabatda Fransa, Belçika və İsveçrədə islamofobiyanın yayılmasına dair faktlar ictimaiyyətin diqqətinə təqdim olunur. Belə faktlar sırasında gecə vaxtı məscidlərin divarlarına yazılmış müsəlmanları təhqir edən şüarlar və irqçi svastikalar, sosial şəbəkələrdə müsəlmanların əleyhinə yayılan nifrət dolu nitqlər, məscidlərin ətrafına qoyulmuş donuz başları, hicablı qadınların təhqirə məruz qalmaları, məscidlərə ekstremist qruplar tərəfindən edilən hücumlar və s. vardır.

İnsan hüquqlarının müdafiəsi sahəsində ixtisaslaşan, o cümlədən islamofobiyaya qarşı mübarizə aparan "Defender of the Rights" ("Hüquqların müdafiəçisi") adlı digər bir təşkilatın 2014-cü ildə Fransada apardığı sorğunun nəticələrinə görə, bu ölkədə etnik mənşə və dərinin rəngi işə düzəlmə zamanı məhdudlaşdırıcı amil kimi çıxış edirdi. "Əcnəbi millətin nümayəndələrinin" 71 faizi, "əcnəbi adı olanların" 70 faizi, "ağ dərili olmayanların" 66 faizi işlə bağlı müraciət etdikdə müəyyən çətinliklərlə üzləşirdilər (10, p.12). Aparılan araşdırmaya əsasən, vətəndaşın etnik, irqi və ya dini mənşəyi onun işə götürüldüyü zaman daha çox mənfi əhəmiyyət daşıyır nəinki onun işlədiyi zaman. Bu fakt heç də təəccüblü deyil. Belə ki, əgər etnik azlığın nümayəndəsi öz iş yerində öhdəsinə düşən işləri normal icra edirsə, onu etnik, irqi və ya dini mənşəyinə görə işdən qovmurlar. Amma bu şəxslərin etnik, irqi və ya dini mənşəyi onların işə düzəlməsi zaman müəyyən süni maneələrin yaranmasına səbəb olur (10, p.12).

Müasir dövrdə Avropada islamofobiyanı məqsədyönlü şəkildə yayan daha bir təşkilat 9 noyabr 2017-ci ildə Fransada təsis olunan Avropa Müqavimətinin Milli Şurası (fransızca - Conseil national de la résistance européenne) adlı siyasi təşkilatdır. Bu təşkilatı öz antisemit və islamofob baxışları ilə tanınan fransalı yazıçı Renaud Kamyus və Fransada Əlcəzair əsilli müsəlman ailəsində doğulmuş, sonradan katolikliyi qəbul etmiş hüquqşünas Kərim Oçik təsis etmişlər. Avropa Müqavimətinin Milli Şurasına Fransadan, eləcə də bir sıra digər Avropa ölkələrindən olan, əsasən ultra sağçı mövqedə duran tanınmış siyasi xadimlər (məsələn, Çexiyanın sabiq prezidenti Vatslav Klaus) üzvdürlər. Şuranın üzvləri həyacan hissi ilə bəyan edirlər ki, Yaxın Şərq, Şimali Afrika və digər region ölkələrindən olan miqrantların, xüsusilə müsəlmanların Avropaya köçmələri nəticəsində Avropanın xristian əhalisinin sayı azalır, müsəlmanların isə sayı çoxalır. Nəticədə fransız mədəniyyəti, ümumilikdə isə Avropa sivilizasiyası böyük təhlükə ilə üzləşir.

Sözügedən Şuranın "Avropa Müqavimətinin Milli Şurası" kimi adlandırılması təsadüfi deyil. Məlum olduğu kimi, İkinci Dünya müharibəsi zamanı Fransanı alman işğalından azad etmək üçün 1943-cü ilin ortalarında Milli Müqavimət Şurası (fransızca – Conseil National de la Résistance) yaradılmışdır. Görünür, Avropa Müqavimətinin Milli Şurasının yaradıcıları miqrantların Fransaya, Avropaya köçmələrini Fransanın faşist Almaniyası tərəfindən işğalı qədər təhlükəli hesab edirlər.

Avropa Müqavimətinin Milli Şurasının üzvləri ultra sağçıların irəli sürdükləri və mahiyyətcə konspirasiya nəzəriyyəsi hesab olunan "Böyük yertutma" (fransızca – "Le grand

remplacement") nəzəriyyəsini müdafiə edirlər. Bu nəzəriyyəyə əsasən, miqrasiya və demoqrafik artım nəticəsində qeyri-Avropa xalqları, xüsusilə də Yaxın Şərq, Şimali Afrika və digər regionlardan olan müsəlmanlar Avropaya miqrasiya edərək burada yerli əhalinin yerini tuturlar. Nəzəriyyənin tərəfdarları hesab edirlər ki, Fransada, eləcə də digər Avropa ölkələrində müsəlmanların saylarının artması fransız mədəniyyətini, ümumiyyətlə Qərb sivilizasiyasını tədricən dağıdır.

Avropada fəaliyyət göstərən ultra sağçı qüvvələr, populist siyasətçilər müsəlmanlar immiqrantlarla bağlı cəmiyyətdə mənfi stereotiplərin yayılmasına xüsusi fikir verirlər. Belə stereotiplərin yayılması müxtəlif konspirasiya nəzəriyyələrinin yaranmasına səbəb olmuşdur. Belə konspirasiya nəzəriyyələrdən biri Avrabia nəzəriyyəsidir. Avrabia (Eurabia- iki sözün - Avropa və Ərəbistan- birləşməsi) məfhumunu ilk dəfə britaniyalı yazıçı Bat Yeorun işlətmişdir. Onun 2005-ci ildə nəşr etdirdiyi kitabın adında bu məfhum əks olunmuşdur – "Avrabia: Avro-ərəb oxu". Sonralar Avrabia termini intensiv şəkildə istifadə olunaraq konspirasiya nəzəriyyəsi formasını almışdır.

Öz mahiyyətinə görə irqçi, islamofob nəzəriyyə olan Avrabia nəzəriyyəsi Avropanın gələcək inkişaf ssenarisini təqdim edir. Bu ssenariyə görə, Avropa yaxın gələcəkdə islamlaşacaqdır. Avropaya müsəlmanların axını və onlar arasında doğum səviyyəsinin yüksək olması XXI əsrin sonlarında burada müsəlmanların çoxluq təşkil etmələri ilə nəticələnəcəkdir. Müsəlmanlar Avropada hökmranlıq edəcəklər. İslamlaşan Avropa tədricən öz mədəni dəyərlərini itirəcəkdir. Onun ABŞ və İsraillə mövcud əlaqələri zəifləyəcəkdir. Avrabia nəzəriyyəsinə əsasən, guya Qərbi Avropanın bəzi hakim siyasi dairələri Avropanı ABŞ-a qarşı gücləndirmək üçün ərəb ölkələri ilə sıx əməkdaşlıq edir, onlarla yaxınlaşırlar. Buna görə də bu nəzəriyyə islamofobiya ilə yanaşı Avropa İttifaqını, Avropa inteqrasiyası siyasətini tənqid edən avroskeptisizmə də əsaslanır.

Beləliklə, müasir dövrdə müsəlman immiqrantlarının Qərbi Avropa ölkələrində çoxalması, onları liberal demokratiya prinsipləri əsasında cəmiyyətə inteqrasiya etmək cəhdlərinin iflasa uğraması burada islamofobiya meyllərinin artmasına, multikulturalizmə qarşı hücumların intensivləşməsinə səbəb olmuşdur. Bunu multikulturalizmə vurulan ilk zərbə kimi qələmə vermək olar. Multikulturalizmə növbəti zərbəni 2019-cu ilin sonlarında yaranmış COVİD-19 pandemiyası vurdu.

### COVİD-19 pandemiyası ilə mübarizədə multikulturalizm siyasətinin əhəmiyyəti

Bəzi hallarda iştirakçı dövlətlər BMT, Avropa Şurası, ATƏT, UNESKO tərəfindən qəbul olunmuş sənədlərdəki milli azlıqların hüquq və azadlıqlarının, etnik-mədəni dəyərlərinin qorunması ilə bağlı bir çox müddəalardan məcburən imtina edirlər. Belə hallar fors-major adlanan hallarda, yəni təbii fəlakətlər, müharibələr və digər fövqaladə hallar zamanı baş verir. Bu sənədlərin bəzilərində fövqaladə hallarda dövlətlərin fəaliyyət planı təqdim olunmuşdur. Məsələn, Avropa İnsan Hüquqları Konvensiyasının (Konvensiya) "Fövqəladə vəziyyət zamanı geri çəkilmə" adlanan 15-ci maddəsində müharibə zamanı və ya əhalinin həyatına təhlükə yaradan digər fövqəladə vəziyyətlərdə iştirakçı dövlətlər Konvensiyada nəzərdə tutulmuş insan hüquqları, o cümlədən milli azlıqların hüquqları sahəsinə aid olan bəzi öhdəliklərin icra olunmasından geri çəkilə, yəni imtina edə bilər. Lakin, Konvensiyaya əsasən, bu imtinalar edilərkən üç şərtə əməl olunmalıdır (7):

1. İmtinalar dövlətin beynəlxalq hüquq çərçivəsindəki heç bir öhdəliyinə zidd olmamalıdır;
2. Konvensiyanın 2-ci maddəsi ("Yaşamaq hüququ") qanuni müharibə aktları istisna olmaqla, 3-cü maddəsi ("İşgəncənin qadağan edilməsi"), 4-cü maddəsinin 1-ci bəndi ("Heç kim köləlikdə və ya əsarətdə saxlanıla bilməz") və 7-ci maddəsi ("Qanunsuz cəza yoxdur") bütün hallarda icra olunmalıdır, yəni onların icrasından dövlət imtina edə bilməz;

3. Bu imtina hüququndan istifadə edən hər bir iştirakçı dövlət Avropa Şurasının Baş katibinə Konvensiyanın bu və ya digər maddəsindən və ya maddələrindən imtina etməsi və imtinanın səbəbləri barədə ətraflı məlumat verməlidir. Bundan başqa iştirakçı dövlət məhdudlaşdırıcı tədbirləri dayandırdıqda və Konvensiyanın müddəalarını yenidən icra etməyə başladıqda Avropa Şurasının Baş katibini növbəti dəfə məlumatlandırır.

Konvensiyada bəyan edilmiş hüquq və azadlıqların müdafiəsi Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) tərəfindən həyata keçirilir. Konvensiyanın müəyyən maddəsindən və ya maddələrindən imtina edən dövlətin bu addımı AİHM-nə müraciət olunduqda, hüquqi cəhətdən qiymətləndirilir. AİHM dövlətin bu addımının insanların hüquq və azadlıqlarının müdafiəsinə təhdid etməsi baxımından qiymətləndirir.

2019-cu ilin sonundan başlayaraq COVİD-19 (ingilis abbreviaturası CoronaVirus Disease 2019. Tərcümədə 2019-cu il koronavirus xəstəliyi deməkdir) adlı pandemiya Çinin Xubey əyalətinin Uxan şəhərindən bütün dünyaya yayılaraq yarım milyondan çox insanın həyatına son qoymuşdur. İndiyədək bu xəstəliyin yayılmasının qarşısı alınmamışdır. Hazırda dünyada 11,5 milyondan çox insan yeni koronavirus növünün daşıyıcılarıdır [Qeyd: 8 iyul 2020-ci il tarixinədək olan məlumat]. Bu xəstəlik artıq yarım ildən çoxdur ki, dünyada yayılmağını davam edərək insanların həyatına təhlükə törədir. Bütün ölkələrin səhiyyəsi ona qarşı mübarizədə hələlik acizlik nümayiş etdirir. İndiyədək ona qarşı vaksin hazırlanmamışdır. Ümumdünya Səhiyyə Təşkilatı bu xəstəliyi pandemiya, yəni dünya miqyasında yayılan yeni xəstəlik kimi xarakterizə edir.

Bütün dünya dövlətləri təbii fəlakət olan COVİD-19-la mübarizəyə qalxmışlar. Bu mübarizədə dövlətlər tərəfindən qəbul olunan qabaqlayıcı addımlar sırasında insanların virusa yoluxmalarının qarşısını almaq və onların həyatlarını xilas etmək məqsədilə insanların hüquq və azadlıqlarını məhdudlaşdıran bir sıra tədbirlərin həyata keçirilməsidir. Həyata keçirilən bu tədbirlər istər-istəməz qanunun aliliyi ilə idarə olunan demokratik cəmiyyətin ayrılmaz və zəruri hissəsi olan insanların hüquq və azadlıqlarına xələl gətirir.

Bununla belə sağlamlığın qorunması ilə bağlı Konvensiyada elə müddəalar var ki, onlara əsaslanaraq üzv dövlətlər məhdudlaşdırıcı, eləcə də cəza tədbirlərini tətbiq edərək COVİD-19-la mübarizə apara bilər. Belə müddəalardan aşağıdakıları qeyd etmək olar.

1. 5-ci maddənin 1e bəndinə əsasən, yoluxucu xəstəliklərin yayılmasının qarşısını almaq məqsədilə belə xəstəlikləri yayan şəxslərin qanuni həbsə alınması nəzərdə tutulur (7);

2. “Şəxsi və ailə həyatına hörmət hüququ” adlanan 8-ci maddənin 2-ci bəndinə əsasən, qanunvericilikdə nəzərdə tutulan hallarda, eləcə də iğtişaş və ya cinayətin qarşısının alınması, sağlamlığın və mənəviyyatın qorunması və ya başqalarının hüquq və azadlıqlarının müdafiə olunması, milli təhlükəsizlik, ictimai təhlükəsizlik və ya ölkənin iqtisadi rifahı naminə şəxsi və ailə həyatına dövlət orqanının müdaxiləsinə icazə verilir (7);

3. “Fikir, vicdan və din azadlığı” adlanan 9-cu maddənin 2-ci bəndində insan hüquqları və əsas azadlıqlarının tərkib hissəsi olan fikir, vicdan və din azadlığı hüququnun həyata keçirilməsinə qanunvericilikdə nəzərdə tutulan hallarda, eləcə də demokratik cəmiyyətdə ictimai təhlükəsizliyinin, ictimai asayişin, sağlamlığın və ya əxlaqın qorunması və ya başqalarının hüquq və azadlıqlarının müdafiə olunması zəruri olan hallarda məhdudiyyətlər qoyulur (7);

4. “İfadə azadlığı” adlanan 10-cu maddənin 2-ci bəndinə əsasən, ifadə azadlığı hüququnun həyata keçirilməsinə qanunvericilikdə nəzərdə tutulan hallarda, eləcə də demokratik cəmiyyətdə milli təhlükəsizliyin, ərazi bütövlüyünün qorunması, iğtişaşların və ya cinayətin qarşısının alınması, sağlamlığın və ya əxlaqın qorunması, başqalarının nüfuzunun və hüquqlarının müdafiə olunması, məxfi alınan məlumatların açıqlanmasının qarşısını alınması zəruri olan hallarda məhdudiyyətlər qoyulur (7);

5. “Sərbəst toplaşmaq və birləşmək azadlığı” adlanan 11-ci maddənin 2-ci bəndinə əsasən, dinc toplaşmaq və birləşmək azadlığı hüquqlarının həyata keçirilməsinə qanunvericilikdə nəzərdə tutulan hallarda, eləcə də demokratik cəmiyyətdə milli təhlükəsizlik və ya ictimai təhlükəsizlik, nizamsızlığın və ya cinayətin qarşısının alınması, sağlamlığın və ya əxlaqın qorunması və ya başqalarının hüquq və azadlıqlarının müdafiə olunması zəruri olan hallarda məhdudiyyətlər qoyulur (7);

6. Konvensiyaya 4 saylı Protokolun “Hərəkət azadlığı” adlanan 2-ci maddəsinin 3-cü bəndinə əsasən, hərəkət azadlığı (bir dövlətin ərazisində qanuni yaşayan şəxs bu ərazidə sərbəst hərəkət etmək və yaşayış yerini seçmək, hər hansı bir ölkəni, o cümlədən öz ölkəsini tərk etmək azadlığı) hüququnun həyata keçirilməsinə qanunvericilikdə nəzərdə tutulan hallarda, eləcə də demokratik cəmiyyətdə milli təhlükəsizlik və ya ictimai təhlükəsizlik mənafeyi naminə, ictimai qaydanın qorunması, cinayətin qarşısının alınması zəruri olan hallarda məhdudiyyətlər qoyulur (12).

COVİD-19-la mübarizə aparan bu və ya digər dövlət Konvensiyada nəzərdə tutulan bu müddəaları tətbiq edərkən nə Avropa Şurasının Baş katibinə məlumat verməlidir, nə də ki, onun bu addımı AİHM tərəfindən hüquqi cəhətdən qiymətləndirilməlidir. Lakin koronavirus pandemiyası ilə mübarizə aparmaq üçün hər hansı bir dövlət qeyd olunan müddəalardan başqa Konvensiyada və digər beynəlxalq sənədlərdə nəzərdə tutulmuş insan hüquqları, o cümlədən milli azlıqların hüquqları sahəsinə aid olan bəzi öhdəliklərin icra olunmasından Konvensiyada göstərilən üç şərtə əməl etməklə imtina edə bilər. Bu sahədəki öhdəliklərindən imtina edən dövlət Avropa Şurası tərəfindən 7 aprel 2020-ci il tarixində qəbul olunmuş “COVID-19 sanitar böhranı çərçivəsində demokratiya, qanunun aliliyi və insan haqlarına hörmət” adlı iştirakçı dövlətlər üçün vəsaitdə göstərilən tələbləri nəzərə almalıdır (13):

1. İnsan hüquqları və əsas azadlıqları, o cümlədən milli azlıqların hüquqları sahəsinə aid olan bəzi öhdəliklərin icra olunmasından imtina fövqəladə vəziyyətin və ya milli səviyyədə hər hansı bir oxşar rejimin rəsmi qəbulundan asılı deyil. Lakin bu o demək deyil ki, dövlət heç bir əsas olmadan istədiyi vaxt insan hüquqları, o cümlədən milli azlıqların hüquqları sahəsinə aid olan bəzi öhdəliklərinin yerinə yetirməsindən imtina edə bilər. Dövlətin bu sahədə qəbul etdiyi hər bir məhdudlaşdırıcı akt yaranmış real fövqəladə vəziyyətlə mübarizəyə yönəlməlidir;

2. Hər bir dövlət nəzərdə saxlamalıdır ki, fövqaladə vəziyyətlə bağlı qəbul olunan heç bir məhdudlaşdırıcı akt demokratiyaya, onun plüralizm, tolerantlıq və geniş dünyagörüşü kimi dəyərlərinə xələl gətirməməlidir;

3. Dövlətin fəaliyyətinin qanuna söykənməsi qanunun aliliyinin əsas prinsipidir. Hətta fövqəladə vəziyyət zamanı da qanunun aliliyi üstünlük təşkil etməlidir;

4. Mövcud böhranla mübarizə aparmaq məqsədilə qəbul olunan hər bir yeni qanunvericilik konstitusiyaya və beynəlxalq standartlara uyğun olmalıdır və lazım olduqda Konstitusiya Məhkəməsi tərəfindən nəzərdən keçirilməlidir;

5. Fövqəladə vəziyyətin elan olunmasının əsas məqsədi böhranın inkişafının qarşısını almaq və ən qısa müddətdə normal həyata qayıtmaqdır. Fövqəladə vəziyyət rejiminin uzadılması onun zəruriliyinə nəzarət edən parlament tərəfindən həyata keçirilir. Buna görə də icraedici hakimiyyətin ümumi müstəsna səlahiyyətlərinin müddətsiz uzadılması yolverilməzdir;

6. Dövlətin məhdudlaşdırıcı aktları qoyulan məqsədlərə normal qaydaların minimal dəyişdirilməsi yolu ilə nail olmağı nəzərdə tutur. Buna görə, də hökumətin fövqəladə qərarlar vermək gücü qanunverici hakimiyyət tərəfindən icraedici hakimiyyətə güzəşt kimi qiymətləndirilməməlidir.

Avropa Şurası tərəfindən qəbul olunmuş bu sənədin əsas əhəmiyyəti ondan ibarətdir ki, COVID-19-la mübarizə şəraitində iştirakçı dövlətlərin qarşısında qoyulan tələblər (onları prinsip də adlandırmaq olar – E.N.) fövqəladə vəziyyət şəraitində demokratiyanın, onun də-

yərlərinin qorunmasına, insan hüquqları və əsas azadlıqlarının, o cümlədən milli azlıqların hüquqlarının müdafiə olunmasına yönəlmişdir.

Məlum olduğu kimi, fövqəladə vəziyyət şəraitində dövlət tərəfindən məcburən qəbul olunan məhdudiyyətlər daha çox əhalinin həssas qruplarına mənfi təsir göstərir. Əhalinin əsas həssas qruplarına iqtisadi cəhətdən əlverişsiz vəziyyətdə olanlarla, xroniki xəstəliklərdən əziyyət çəkənlərlə yanaşı azlıq qrupunun nümayəndələri, yəni avtoxton və alloxton xalqlar, eləcə də miqrantlar daxildirlər. Müasir dünyada bir çox ölkələrdə koronavirus pandemiyası ilə mübarizə şəraitində titul xalqla müqayisədə azlıq qrupu nümayəndələrinin sosial-iqtisadi vəziyyəti daha da pisləşir, onların həssaslığı daha da artır. Avropa Şurasının nəzdində fəaliyyət göstərən Ayrı-seçkilik, müxtəliflik və inklüzivlik üzrə Rəhbər Komitənin Katibliyi tərəfindən hazırlanmış “COVID-19-a cavabın ayrı-seçkilik, müxtəliflik və inklüzivlik ölçüləri” adlı sənəddə qeyd olunur ki, COVID-19 pandemiyası əlverişsiz qrupların üzləşdikləri səhiyyə, rifah xidmətləri, təhsil və məşğulluq kimi problemləri daha da çətinləşdirir (4).

Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası üzrə Məşvərət Komitənin 28 may 2020-ci il 28 may tarixdə qəbul olunmuş “COVID-19 pandemiyası və milli azlıqlar” adlı Bəyanatında pandemiya ilə mübarizə şəraitində bir çox ölkələrdə müəyyən milli azlıqların həssaslıqlarının artmasından və bir çox Avropa Şurası ölkələrində mövcud olan bərabərsizliklərin dərinləşməsindən narahatlılıq bildirilir (3). Sənəddə qeyd olunur ki, milli azlıqlara mənsub insanlar tez-tez ayrı-seçkilik, nifrət nitqi, habelə azlıqların dillərində müvafiq məlumatların olmaması ilə qarşılaşırlar. Məktəblərdə və məktəbəqədər təhsil müəssələrində dərslərin dayandırılması daha çox milli azlıqlara, xüsusən rəsmi dildə kifayət qədər bilikləri olmayanlara mənfi təsir göstərir. Nəticədə, milli azlıqların uşaqları təhsil sahəsində ciddi problemlərlə üzləşirlər. Məşvərət Komitəsi əminliklə bildirir ki, əsil demokratik cəmiyyət inklüziv cəmiyyətdir və milli azlıqlara mənsub insanların hüquqlarının qorunması və bu hüquqlara hörmətlə yanaşılması demokratiya, sülh və təhlükəsizliyi təmin edir. Çərçivə Konvensiyasının müddəalarına və Məşvərət Komitəsi tərəfindən hazırlanmış müvafiq tövsiyələrə, eləcə də Avropa Şurasının insan hüquqları və ayrı-seçkiliyə yol verilməməsi ilə bağlı digər standartlarına üzv dövlətlər COVID-19 pandemiyası ilə mübarizə zamanı və ondan sonrakı dövrdə qarşıya qoyulan və qarşıya çıxan müxtəlif problemlərin səmərəli şəkildə həll edilməsinə dair təlimat kimi yanaşmalıdırlar. Bəyanatın sonunda qeyd olunur ki, Məşvərət Komitəsi COVID-19 pandemiyasının milli azlıqlara mənsub şəxslərin hüquqlarına təsirini yaxından izləməyi davam edəcək və dövlətlərin bu böhranla mübarizəsinin onların insan hüquqları sahəsindəki öhdəliklərinə uyğunluğunu təmin edəcəkdir (3).

Beləliklə, COVID-19 pandemiyası ilə mübarizə şəraitində azlıq qrupu nümayəndələri ciddi problemlərlə üzləşirlər. Bu problemlər cəmiyyətdə parçalanma, qarşıdurma proseslərinin yaranması və yayılması üçün zəmin yaradır. Qeyd etmək lazımdır ki, belə hallara ilk növbədə azlıq qrupu nümayəndələrinə münasibətdə ayrı-seçkilik və dözümsüzlük siyasətinin həyata keçirildiyi ölkələrdə rast gəlinir.

BMT, Avropa Şurası, ATƏT və digər təşkilatlar müasir dövrdə COVID-19-la mübarizə şəraitində azlıqların müdafiəsi ilə bağlı dövlətlər üçün tövsiyələr hazırlamışlar. Bu tövsiyələr, ilk növbədə, azlıq qrupu nümayəndələrin tibbi xidmətə, sosial müavinətlərə, qida, təmiz su və elektrik enerjisinə çıxış imkanlarını asanlaşdırmaq üçün tədbirlərin görülməsini vacib hesab edir. Belə tədbirlərin həyata keçirilməsi pandemiya şəraitində azlıqların virusa yoluxma təhlükəsinin qarşısının alınmasına yönəlmişdir.

ATƏT-in Milli azlıqlar üzrə ali komissarı Lamberto Zannier iştirakçı dövlətlərin hökumətləri üçün COVID-19-la mübarizə şəraitində cəmiyyətdə dezinteqrasiya meyllərinin qarşısının alınmasına və sosial birliyin möhkəmləndirilməsinə yönələn tövsiyələri işləyib hazırlamışdır (11).

**1. İnsan hüquqlarını müdafiə etmək**

Milli azlıqlara mənsub şəxslərə hər bir zaman, o cümlədən müəyyən müddət üçün nəzərdə tutulmuş fövqəladə vəziyyət zamanı eyni münasibətin göstərilməsini və insan hüquqlarının, xüsusən də sağlamlığın qorunması və ayrı-seçkilik etmədən, dəqiq, asan başa düşülən və vaxtında məlumatın verilməsini təmin etmək vacibdir;

**2. İnklüzivliyi təmin etmək**

Hər bir kəs həyata keçirilən fövqəladə tədbirlərin cəmiyyətdəki bütün qrupların ehtiyaclarının qarşılanmasında maraqlıdır. Hökumət məsələ ilə bağlı qrupların təqdim etdikləri cavabların tərtibində və həyata keçirilməsində onlarla məsləhətləşməyə çalışmalıdır. Əgər bu və ya digər qrup öz ehtiyaclarının ödənilmədiyini qeyd edirsə, onları tərtib olunan proqramlara daxil etmək üçün lazımi tədbirlər görülməlidir. Bu prinsipi bərpa mərhələsində də tətbiq etmək lazımdır;

**3. Dil ehtiyaclarını nəzərə almaq**

Dövlətlər səhiyyə, xüsusilə sağlamlıq böhranı sahəsinə aid olan rəsmi cavabları mümkün qədər müxtəlif qruplar tərəfindən istifadə edilən dillərdə də təqdim etməlidir. Rəsmi dili (dilləri) pis bilən şəxslər, onlardan nə gözlənildiyini başa düşə bilmirlərsə, daha da həssas ola bilərlər. Distant təhsil proqramları bütün icmaların ehtiyaclarını ödəməlidir. Azlıqların qruplarına mənsub olan uşaqlar ana dilləri ilə yanaşı rəsmi dildə də təhsil almağa davam etməlidirlər;

**4. İqtisadi cəhətdən həssas qrupları müdafiə etmək**

Böhranın iqtisadi nəticələri ilk növbədə sosial təminata zəmanət verməyən, vaxtaşırı görülən işlə məşğul olanlara mənfi təsir göstərəcəkdir. Belə işlərlə məşğul olanlara əmək miqrantları, qeyri-rəsmi işçilər, eləcə də marqinal qruplara, o cümlədən azlıqlara mənsub olan şəxslər daxildirlər. Onların yoxsulluq və sosial izolyasiyaya düşmək təhlükəsi var. Bu cür təhlükə ilə ailələrində əlavə məsuliyyət daşıyan və ya tibbi xidmətin ön cəbhələrində gedən qadınlar da üzləşə bilərlər. Bu, xüsusilə ikiqat ayrı-seçkiliyə məruz qala biləcək azlıqların icmalarından olan qadınlara aiddir;

**5. Ayrı-seçkilik və ksenofobiya üçün sıfır dözümlülüyü qorumaq (yəni ayrı-seçkilik və ksenofobiyaya qarşı mübarizə)**

Hökumət nümayəndələri dözümsüzlük, ksenofobiya, eləcə də insanların identikliyinə, etnik mənsubiyyətinə, dilinə, dininə və mədəniyyətinə əsaslanan “özgələşmə” hallarının müşahidə olunmasında və onlarla mübarizə aparılmasında xüsusilə diqqətli olmalıdırlar. Qeyri-müəyyənlik dövründə dərin köklü problemlər özlərini büruzə verə bilər. Dövlətlər virusun yayılmasını izləmək üçün nəzarət texnologiyalarından istifadə etməyi düşünürlərsə, bu, hər bir etnik qrupu eyni dərəcədə əhatə etməlidir;

**6. Cəmiyyətdə sosial birliyi təşviq etmək üçün müsbət nümunələrə əsaslanmaq**

İcmalar arasında inklüziv ünsiyyətin və ATƏT dövlətlərində etnik, irqi, dini və digər mənşəyindən asılı olmayaraq bütün qrupları hədəf alan tədbirlərin çox müsbət nümunələri mövcuddur. COVİD-19 böhranına yanaşmalardakı hər hansı bir nümunənin istifadə edilməsi nikbinliyə səbəb olur və ölkələrin sağlamlığı, sabitliyi və dayanıqlığığı üçün fayda verir.

Ali komissar Lamberto Zannierin irəli sürdüyü bu tövsiyələrin məzmunundan göründüyü kimi onların həyata keçirilməsində cəmiyyətdəki etnik-mədəni müxtəlifliyi multikulturalizm siyasəti vasitəsilə tənzimləyən dövlətlərin daha çox imkanları vardır. Məsələn, belə ölkələrdən biri Azərbaycan Respublikasıdır. Məlum olduğu kimi, Azərbaycan dünyanın

əsas multikulturalizm mərkəzlərindən biri hesab olunur.

Azərbaycan COVID-19 böhranının yarandığı ilk günlərdən başlayaraq onunla mübarizə və yayılmasının qarşısını almaq üçün təcili olaraq lazımi tədbirlər həyata keçirmişdir. Azərbaycanda COVID-19-la mübarizə şəraitində əhalinin əsas həssas qruplarının, o cümlədən azlıq qrupunun nümayəndələrinin virusa yoluxma təhlükəsinin qarşısının alınması, eləcə də onların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması istiqamətində məqsədyönlü işlər görülmüşdür. Pandemiyanın əsas mənfi nəticələrindən biri Azərbaycanda karantin rejiminin tətbiqi nəticəsində işsizlərin sayının artması oldu. İşini itirmiş və qeyri-formal məşğulluqla məşğul olan şəxslərin sosial müdafiəsini gücləndirmək üçün bu kateqoriyaya aid olan insanlara dövlət müavinət ayırmışdır.

Azərbaycanın COVID-19 böhranı ilə mübarizəsi ölkədaxili tədbirlərin həyata keçirilməsi ilə məhdudlaşmır. Böhranın qlobal xarakter daşıdığını nəzərə alaraq Azərbaycan hökuməti ona qarşı mübarizəni qlobal səviyyədə, bütün dövlətlərin səylərini birləşdirməklə aparılmasına dair konkret təşəbbüslər irəli sürmüş və onların icra olunması istiqamətində olduqca mühüm və təsirli addımlar atmışdır. Məsələn, 2020-ci il aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının videokonfrans vasitəsilə koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr olunmuş fövqəladə Zirvə görüşü keçirilmişdir. Yeri gəlmişkən qeyd edək ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilən Türk Şurasının fövqəladə Zirvə görüşü koronavirus pandemiyası ilə mübarizəyə həsr olunmuş ilk beynəlxalq tədbir idi (1).

Ölkəmizin qlobal miqyasda COVİD-19-la mübarizə istiqamətdə atdığı növbəti addım Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda 2020-ci ilin mayın 4-də Bakıda Zirvə görüşünün keçirilməsi oldu (2). Zirvə görüşü zamanı dövlətimizin başçısı tərəfindən BMT Baş Assambleyasının COVID-19-a qarşı mübarizəyə həsr olunmuş xüsusi sessiyasının çağırılmasına dair olduqca əhəmiyyətli bir təklif irəli sürüldü. Qoşulmama Hərəkatına üzv olan 120 ölkə yekdilliklə Azərbaycan Prezidentinin təklifini dəstəkləyərək təklifin BMT Baş katibinə Hərəkat adından təqdim edilməsinə razılıq bildiriblər. 2020-ci ilin 13 may tarixində Azərbaycan Respublikasının Prezidenti Qoşulmama Hərəkatının sədri qismində Hərəkata üzv ölkələr adından BMT Baş katibinə Baş Assambleyanın xüsusi sessiyasının çağırılması ilə bağlı məktubla müraciət etdi. Baş katib, öz növbəsində, BMT-nin üzv dövlətlərinə müraciət edərək onlardan Azərbaycan Prezidentinin bu təşəbbüsünə münasibət bildirmələrini xahiş etdi. Nəticədə Prezident İlham Əliyevin təklifinə BMT-nin 130 ölkəsi, yəni üzvlərin üçdəikisi tərəfindən milli qisimdə dəstək ifadə olundu. BMT Baş Assambleyasının Prosedur Qaydalarının 9(a) bəndinə əsasən, Baş Assambleyanın xüsusi sessiyasının çağırılması üçün iştirakçı dövlətlərin əksəriyyətinin razılığı kifayət idi (14). Təklifə dəstək verən dövlətlər sırasında Qoşulmama Hərəkatına üzv dövlətlərlə yanaşı, Avropa İttifaqı üzvləri, Asiya, Afrika, Latın Amerikası regionlarının aparıcı dövlətləri də vardır.

Pandemiyanın ilk günlərindən Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) ilə fəal əməkdaşlıq edir. Mart ayında ÜST nümayəndə heyəti Azərbaycana səfər etdi və pandemiya ilə bağlı vəziyyəti araşdırdı. Nümayəndə heyəti Azərbaycanda pandemiya ilə mübarizə istiqamətində görülən işləri yüksək qiymətləndirdi. 2020-ci ilin mart ayında Azərbaycan ÜST-ə COVID-19 ilə mübarizəyə 5 milyon ABŞ dolları ianə verdi. Mayın əvvəlində Azərbaycan Qoşulmama Hərəkatı ölkələrinə COVİD-19 pandemiyası ilə mübarizədə kömək etmək üçün ÜST-ə əlavə 5 milyon dollar ayırmışdır.

Bundan başqa Azərbaycan indiyədək pandemiyadan əziyyət çəkən 30 çox ölkəyə humanitar yardım göstərmişdir.

Bu pandemiyanın yaranması və bütün dünyada yayılması BMT, Avropa Şurası, ATƏT, UNESKO tərəfindən milli azlıqların hüquq və azadlıqlarının, etnik-mədəni dəyərlərinin qorunmasına, dinlərarası, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa və əməkdaşlığın inkişafına, eləcə də cəmiyyətdəki ayrı-seçkiliyin və dözümsüzlüyün bütün formalarına qarşı mübarizə sahəsində dövlətlərarası birgə əməkdaşlığın inkişaf etdirilməsinə dair qəbul olunmuş sənədləri ratifikasiya edən dövlətlərin əksəriyyəti sənədlərdə əks olunan bir çox öhdəlikləri icra etməkdən imtina edirlər. Sözügedən dövlətlər yaranmış şəraitdə COVİD-19-la mübarizəni ön plana çəkərək milli azlıqların hüquq və azad-lıqlarının, etnik-mədəni dəyərlərinin qorunmasına, onların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına, eləcə də bir-birilə əməkdaşlıq etməyə əhəmiyyət vermirlər. Bu dövlətlərdə COVİD-19-la mübarizəyə yönəlmiş sərt məhdudlaşdırıcı tədbirlər əhalinin həssas qruplarının, o cümlədən azlıq qrupunun nümayəndələrinin, xüsusilə immiqrantların sosial-iqtisadi vəziyyətini daha da çətinləşdirmişdir. Düzdür, COVİD-19-la mübarizə şəraitində, xüsusilə fövqəladə vəziyyət elan olunduğu şəraitdə bütün insanların, o cümlədən azlıq qrupunun nümayəndələrinin hüquq və azadlıqlarının məhdudlaşdırılması çərçivəsində onların fikir, vicdan və din azadlığı, ifadə azadlığı, sərbəst toplaşmaq və birləşmək azadlığı, hərəkət azadlığı kimi bir sıra hüquqlarının məhdudlaşdırılması obyektiv zərurətdən irəli gəlir. Buna görə də bu məhdudiyyətləri qəbul etmək vacibdir. Lakin nəzərə almaq lazımdır ki, azlıq qrupunun nümayəndələri, xüsusilə immiqrantlar, cəmiyyətin əsas həssas qruplarından biri kimi hökumətin COVİD-19-la əlaqədar qoyduğu məhdudiyyətlərdən daha çox əziyyət çəkirlər. Bunun əsas göstəricisi azlıqlar arasında virusa yoluxanların sayının çox olmasıdır. Bu fakt cəmiyyətin əsas etnik və dini qrupları ilə müqayisədə azlıqların ilk növbədə sosial-iqtisadi vəziyyətlərinin ağır olması, aralarında işsizlərin sayının çox olması, məişət şəraitlərinin çətin olması ilə izah olunur.

Məlum olduğu kimi, yeni tipli koronavirus xəstəliyi hava ilə yayılır. Bu və ya digər dövlətdə azlıqların arasında bu xəstəliyinin geniş yayılması həyat səviyyəsindən asılı olmayaraq əhalinin digər təbəqələrini virusa yoluxma təhlükəsindən azad etmir. Əksinə, onların da həyatları bu təhlükəyə məruz qalır. Buna görə dövlətlər azlıqların koronavirus xəstəliyinə yoluxma təhlükəsi ehtimalını nəzərə alaraq onların həyat səviyyələrinin yaxşılaşdırılması istiqamətində lazımi tədbirlər həyata keçirməlidirlər. Bu o deməkdir ki, hətta COVİD-19-la mübarizəsi şəraitində multikulturalizmin prinsiplərinə əməl etmək lazımdır. Azlıqların nümayəndələrini koronavirus xəstəliyinin yayılmasında günahlandırmaqdansa bu xəstəliyin onların arasında daha çox yayılmasının kökünü kəsmək dövlət üçün daha sərfəlidir. Çünki birinci halda azlıqlar təqibə məruz qalırlar, onlara qarşı ayrı-seçkilik aparılır, cəmiyyətdə irqçilik, etnik millətçilik, ksenofobiya, dözümsüzlüyün digər formaları baş qaldırır, ölkə əhalisinin arasında parçalanma, qarşıdurma halları özünü büruzə verir. Bu isə son nəticə etibarı ilə dövlətin sosial-iqtisadi inkişafına mənfi təsir göstərir.

Müasir dövrdə bəşəriyyətin üzləşdiyi fəlakət olan COVID-19 miqrant böhranından sonra multikulturalizmə ağır zərbə vuran bir hadisədir. Onunla mübarizə aparmaq zərurəti dövlətləri bir sıra sərt, məhdudlaşdırıcı tədbirləri həyata keçirməyə vadar edir. Belə tədbirlərə milli azlıqların bəzi hüquq və azadlıqlarının, etnik-mədəni dəyərlərinin müdafiə olunmasından imtina etmək də daxildir. Dövlətin məhdudlaşdırıcı tədbirləri multikulturalizmin tənqid olunmasını, ona qarşı hücumları artırır. Lakin multikulturalizmə qarşı atılan bu addımlar cəmiyyətin əsas həssas qruplarından

biri olan azlıq qrupunun nümayəndələrinin, xüsusilə immiqrantların, sosial-iqtisadi vəziyyətini, həyat səviyyəsini daha da çətinləşdirərək onların virusa yoluxma ehtimallarını yüksəldir. Bu isə öz növbəsində virusun bütün cəmiyyətdə geniş yayılmasına gətirir. Buna görə də hazırki durumda COVID-19-la səmərəli mübarizə aparmağın mühüm şərtlərindən biri multikulturalizm siyasətinin təşviq və tətbiq olunmasıdır. Məhz multikulturalizm siyasəti çərçivəsində azlıq qrupunun nümayəndələrinin sosial-iqtisadi vəziyyətini və həyat səviyyəsini yaxşılaşdırmaqla, etnik-mədəni dəyərlərinin qorunmasını təmin etməklə onların virusa yoluxmaq təhlükəsini əhəmiyyətli dərəcədə azaltmaq mümkündür. Fövqəladə vəziyyət olan COVID-19-la mübarizə şəraitində multikulturalizm siyasətinin təşviq və tətbiq olunmasının daha bir mühüm əhəmiyyəti ondan ibarətdir ki, o, demokratiyanın, onun dəyərlərinin qorunmasına  kömək edir.

**Ədəbiyyat:**

1. İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirilib. 10 aprel 2020-ci il. https://president.az/articles/36412
2. İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında Zirvə görüşü keçirilib 04 may 2020. https://president.az/articles/37705
3. Advisory Committee on the Framework Convention for the Protection of National Minorities Statement on the COVID-19 pandemic and national minorities, adopted on 28 May 2020. https://rm.coe.int/acfc-statement-covid-19-and-national-minorities-28-05-2020-final-en/16809e8570
4. The Anti-discrimination, Diversity and Inclusion Dimensions of the Response to COVID-19. Introductory Note prepared by the Secretariat of the Steering Committee on Anti-discrimination, Diversity and Inclusion (CDADI). 8 April 2020, Strasbourg. https://www.coe.int/en/web/committee-antidiscrimination-diversity-inclusion/news
5. Bowen, J.R. 2011. Europeans Against Multiculturalism. Boston Review, July/August, 29.
6. Cameron D., My war on multiculturalism. // The Independent. February 5, 2011.
7. Convention for the Protection of Human Rights and Fundamental Freedoms as amended by Protocols No. 11 and No. 14 (adopted on November 4, 1950, Rome). https://rm.coe.int/1680063765. Article 15.
8. Multikulturalizmə giriş. (Ali məktəblər üçün dərslik). (Ön sözün müəllifi və elmi redaktor: AMEA-nın həqiqi üzvü Ramiz Mehdiyev), Bakı, 2019, s.271.
9. National Minorities and the Crisis of Multiculturalism in Europe. (Andreea Udrea. ed). An Interview with the Former OSCE High Commissioner on National Minorities Knut Vollebaek, with commentaries by Will Kymlicka, Keith Banting, Tariq Modood, and Jennifer Jackson-Preece. p.34.
10. Organization Racism Islamophobia Watch Report. 10 months (from October 2013 to July 2014) report on Islamophobia and racism in the French-speaking European countries (France, Belgium and Switzerland). Geneva, 2014, p. 12.
11. OSCE High Commissioner on National Minorities offers recommendations on short-term responses to COVID-19 that support social cohesion. March 26. 2020. https://www.osce.org/hcnm/449170
12. Protocol No. 4 to the Convention for the Protection of Human Rights and Fundamental Freedoms, securing certain rights and freedoms other than those already included in the Convention and in the first Protocol thereto. Strasbourg, 16.IX.1963, Article 2(3). https://rm.coe.int/CoERMPublicCommonSearchServices/DisplayDCTMContent?documentId=090000168006b65c
13. Respecting democracy, rule of law and human rights in the framework of the COVID-19 sanitary crisis.
A toolkit for member states. 7 April, 2020. https://rm.coe.int/sg-inf-2020-11-respecting-democracy-rule-of-law-and-human-rights-in-th/16809e1f40
14. Rules of Procedure of the General Assembly (embodying amendments and additions adopted by the General Assembly up to September 2007). http://dd.dgacm.org/editorialmanual/ed-guidelines/types_documents/a_520_rev17.pdf

***Açar sözlər:*** *COVİD-19, multikulturalizm, liberal demokratiya, miqrant böhranı, immiqrant multikulturalizmi, islamofobiya*

**Etibar Najafov**
*Head adviser of the Department of Humanitarian Policy, Diaspora, Multiculturalism and Religious Issues of the Administration of the President of the Republic of Azerbaijan, Chair of the Department of Philosophy and Social Psychology of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Doctor of Philosophical Sciences, Professor*

# COVİD-19 PANDEMIC AND MULTICULTURALISM

## SUMMARY

COVID-19 as a real disaster for humanity is a major blow to multiculturalism after the migrant crisis. The need to combat it forces states to take a number of severe restrictive measures. Such measures include denial of protection of certain rights and freedoms, ethnic and cultural values of national minorities. State restrictive measures intensify criticism and attacks on multiculturalism. However, these steps against multiculturalism further complicate the socio-economic situation and the standard of living of minorities, especially immigrants, as one of the most vulnerable groups in society, and increase their likelihood of contracting the virus. This, in turn, leads to the spread of the virus throughout society. Therefore, one of the most important conditions for effectively fighting against COVID-19 in this situation is the promotion and implementation of the multiculturalism policy. It is within the framework of multiculturalism policy that the risk of infection with the virus can be significantly reduced. Since this policy contributes to the improvement of the socio-economic situation and standard of living of minorities and also ensuring the protection of their ethno-cultural values.

***Keywords:*** *COVİD-19 pandemic, multiculturalism, liberal democracy, migrant crisis, immigrant multiculturalism, islamophobiya*

**Этибар Наджафов**
*Главный консультант отдела по гуманитарной политике,*
*вопросам диаспоры, мультикультурализма и религии*
*Администрации Президента Азербайджанской Республики,*
*заведующий кафедрой Философии и социальной психологии*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор философских наук, профессор*

## ПАНДЕМИЯ COVID-19 И МУЛЬТИКУЛЬТУРАЛИЗМ

### РЕЗЮМЕ

COVID-19, как настоящее бедствие для человечества, является серьезным ударом по мультикультурализму после кризиса мигрантов. Необходимость борьбы с ним вынуждает государства принимать ряд жестких ограничительных мер. Такие меры включают отказ в защите определенных прав и свобод, этнических и культурных ценностей национальных меньшинств. Ограничительные меры со стороны государства усиливают критику мультикультурализма и нападки на него. Однако эти шаги против мультикультурализма еще больше усложняют социально-экономическую ситуацию и уровень жизни меньшинств, особенно иммигрантов, как одной из наиболее уязвимых групп в обществе, и повышают вероятность их заражения этим вирусом. Это, в свою очередь, приводит к распространению вируса по всему обществу. Поэтому одним из важных условий эффективной борьбы с COVID-19 в этой ситуации является продвижение и реализация политики мультикультурализма. Именно в рамках этой политики риск заражения вирусом может быть значительно снижен. Поскольку эта политика способствует улучшению социально-экономического положения и уровня жизни меньшинств, а также обеспечивает защиту их этно-культурных ценностей.

***Ключевые слова:*** *пандемия COVID-19, мультикультурализм, либеральная демократия, мигрантский кризис, иммигрантский мультикультурализм, исламофобия*

# DÖVLƏT İDARƏÇİLİYİ
# PUBLIC ADMINISTRATION

**İBRAHİM MƏMMƏDOV**
**Azərbaycan Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri, tarix üzrə fəlsəfə doktoru**

## AZƏRBAYCAN PANDEMİYA DÖVRÜNDƏ (2020-Cİ İL, YANVAR-İYUN)

## KORONAVİRUSLA MÜBARİZƏ: MÜSTƏQİL DÖVLƏTİN YENİ TƏCRÜBƏSİ

*"İki seçim var idi – ya iqtisadiyyatı xilas etmək, ya da insanların sağlamlığını. Şəxsən mənim üçün birmənalı qaydada tərəddüdsüz insanların sağlamlığı həmişə birinci yerdə olubdur".*

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

*"Biz ilk döyüşdə qalib gəldik, amma pandemiya ilə müharibə hələ davam edir – bizim ölkəmizdə və bütün dünyada. Bütün ölkələrə və xalqlara bu qədər bəla və əzablar yaşadan virus hələ məğlub olmayıb. O, əvvəlkitək hamı üçün ciddi təhlükə olaraq qalır və əvvəlkitək bizim aramızdadır".*

*Mehriban Əliyeva*
*Azərbaycan Respublikasının*
*Birinci vitse-prezidenti*

2019-cu il milli təşkilatlanma institutu olaraq Dövlətin qarşısında qlobal miqyaslı yeni idarəçilik dilemmaları qoydu.

Çindən baş qaldırmış Covid-19 epidemiyası sürətlə bütün dünyaya yayılaraq qlobal pandemiya xarakteri aldı.

Son 100 ildə milli dövlət institutu hər növ təhlükə ilə üzləşmişdi və önləmək üçün hazırlıq gördüyü təhdidlər də əvvəlki illərdəki təcrübəyə əsaslanırdı.

Dövlətlər iki dünya və çoxsaylı regional müharibələrin təcrübəsinə əsaslanaraq daim mümkün xarici təcavüzün qarşısını almaq üçün hazır olmağa çalışırdılar.

XX əsrin sonları və XXI əsrdə terrorizm xalqların və dövlət institutunun qarşılaşdığı əsas qlobal təhdidlərdən biri olduğu üçün dövlətlər terror təşkilatlarına qarşı mübarizəyə hazır olmağı vacib sayırdılar.

XX əsrin ikinci yarısı və XXI əsrin ilk iyirimi ilini dövlətlər kütləvi qırğın silahlarının yayılmasının qarşısını almaq üçün çalışdılar.

Qısası, hər bir dövlət xarici təcavüz, terror, təcavüzkar separatizm, nüvə təhlükəsi, narkotiklərin yayılması, iqtisadi böhranların yaratdığı təhdidlərlə mübarizəyə az və ya çox dərəcədə hazır idi.

Ancaq, heç bir dövlət elmə məlum olmayan, müalicəsi mümkünsüz və öldürücü təsiri olan yeni növ koronavirusun sərhədləri aşaraq, dörd qitədə az qala bütün həyatı iflic edəcəyi təhlükəsinə hazır deyildi.

XXI əsrdə epidemiyanın yayılma sürəti və vasitələri, virusun qloballaşma mexanizmləri vasitəsilə yayılma imkanları Covid-19 pandemiyasını orta əsrlərin epidemiyalarından daha təhlükəli edir.

Nəticədə dövlət bir institut olaraq son yüz ildə həll etmək zərurəti ilə üzləşmədiyi, vacib təcrübəsinin olmadığı yeni növ problemlə üzləşdi.

### Vəziyyətin mürəkkəbliyi

Problemin mürəkkəbliyi ondan ibarətdir ki, birincisi, təhlükə haqda elmə çox az şey məlumdur, ikincisi, bütün səviyyələrdə – insanlararası, qruplararası, rayonlar, ölkələrarası bütün növ ünsiyyəti mümkünsüz edir. Əksər istehsal prosesləri dayandırılır, ticarət demək olar ki, donur, təhsil və iaşə müəssisələri bağlanır. Dövlətin və cəmiyyətin üzləşdiyi problemin çıxılmazlığı ondan ibarətdir ki, kütləvi fiziki təhlükə yaratmaqla yanaşı dərin iqtisadi böhrana da səbəb olur.

Belə ki, kütləvi özünütəcrid – iqtisadi aktivliyi minimuma qədər endirir. Nəticədə xərclərin artmasına paralel olaraq gəlirlər azalmağa başlayır. Vəziyyəti daha da mürəkkəbləşdirən məqam həm də odur ki, təhlükə qlobal xarakterli olduğu üçün həm tibbi ləvazimatlar, həm də iqtisadi yardım üçün beynəlxalq dəstəyə ümid etmək mümkün deyildi. Dövlətlər demək olar ki, vəziyyətdən təkbaşına çıxmaq məcburiyyəti ilə üz-üzə qalır.

Bir tərəfdən epidemiyaya qarşı istifadə olunan qoruyucu vəsitələrə və tibbi ləvazimatlara tələbatın qısa müddətdə yüz dəfələrlə artması, o biri tərəfdən istehsal potensialının epidemiyadan əvvəlki dövrə hesablanması, nəhayət, ölkələrin belə vəsaitlərin ixracına məhdudiyyət qoyması səbəbindən qoruyucu və dezinfeksiyaedici vasitələrin müvəqqəti qıtlığı ilə üzləşməli olduq.

Vəziyyəti mürəkkəbləşdirən daha bir məqam ölkədə olan qoruyucu vasitələrin xəstəliyin daha geniş yayıldığı ölkələrə ixracının sürətlənməsi, tələbatın artdığı məhsullar ətrafında möhtəkirlik cəhdləri idi.

Xarici ölkələrdə olan Azərbaycan vətəndaşlarının qlobal pandemiya səbəbindən təhsillərini dayandırmaları, işlərinin yarımçıq qoyub vətənə qayıtmaq məcburiyyətində qalmaları və gözlənilməyən bir axının başlaması da situasiyanı bir qədər də gərginləşdirdi.

Nəhayət, Covid-19 pandemiyasının təsiri altında qlobal iqtisadi aktivliyin enməsi neftə tələbatın azalmasına və nəticədə qiymətlərin proqnozlaşdırılması mümkün olmayan səviyyədə aşağı düşməsinə səbəb oldu.

İqtisadiyyatın mühüm sektorları fəaliyyətini ya dayandırdı, yaxud da minimum səviyyəyə endirmək məcburiyyətində qaldı. Ümumi Daxili Məhsulun (ÜDM) sürəti aşağı düşdü, vergi daxilolmaları azaldı və s. və i.

İqtisadi fəallığın və büdcə gəlirlərinin azalması ilə eyni vaxtda əhalinin sosial müdafiəsinə və itkiyə məruz qalan sektorlara maddi dəstək göstərilməsinə ehtiyac yarandı.

Beləliklə, dövlətimiz yüzillərlə müstəqillik təcrübəsi, böyük iqtisadi və insan resursları olan dövlətlərin belə qarşısında əlacsız qaldığı problemlər paketi ilə üzləşdi:

– Peyvəndi olmayan Covid-19 pandemiyası əhalinin fiziki sağlamlağını təhdid altına aldı;

– Səhiyyənin infeksion xəstəliklər bölümü ağır təzyiq altına düşdü;

– Beynəlxalq siyasi və iqtisadi əlaqələr minimuma endi;

– Zəruri tibbi məhsulların qıtlığı yarandı;

– Möhtəkirlik və süni qiymət artımı ilə mübarizəyə ehtiyac yarandı;

– Başqa ölkələr tərəfindən qoruyucu və dezinfeksiyaedici məhsulların ixracına məhdudiyyətlər tətbiq etdilər;

– Xarici istehsalçılar virusdan qorunmaq, müalicə və belə məhsulların istehsalı üçün zəruri olan avadanlıqların qiymətini artırdılar;

– Əhalinin tələbatının kəskin artdığı tibbi ləvazimatların Azərbaycanda istehsalının qısa müddətdə təşkili zəruriəti ortaya çıxdı;

– İqtisadi aktivlik aşağı düşdü;

– Neftin qiyməti minimal həddə endi;

– Büdcə gəlirləri azaldı, səhiyyə, sosial müdafiə və iqtisadi dəstək xərcləri artdı və s.

Dövlət idarəçiliyinin, sosial həyatın, iqtisadiyyatın elə bir sahəsi yoxdur ki, pandemiyadan itkiyə məruz qalmasın.

### Azərbaycanın təhlükəyə reaksiyası

#### Birinci mərhələ: birinci addım

Zaman faktoru. İstənilən təhlükəyə, xüsusilə də epidemiya təhlükəsinə münasibətdə reaksiyanı qiymətləndirərkən ilk növbədə zaman faktorunu təhlil etməyə və növbəti suallara cavab verməyə ehtiyac yaranır:

– Təhlükə vaxtında görülübmü?

– Təhlükənin yayılmasının qarşısını almaq üçün vaxtında zəruri addımlar atılıbmı?

Bu suallara cavab vermək üçün virus haqqında beynəlxalq miqyasda ilk rəsmi məlumatların yayılması və həyəcan siqnalı çalınması dövrü ilə Azərbaycanın atdığı addımları zaman etibarilə müqayisə edək.

2020-ci ilin yanvarın 03-də Çinin müvafiq xidmətləri Hubey əyalətinin Uhan şəhərində 44 pnevmaniya hadisəsinin qeydə alındığı haqda Ümumdünya Səhiyyə Təşkilatını məlumatlandırır.

2020-ci ilin yanvarın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə Nazirlər Kabinetində koronavirus epidemiyasına qarşı qabaqlayıcı tədbirlərin görülməsi üçün müşavirə keçirildi.

Xüsusi vurğulamağa ehtiyac var ki, Prezident İlham Əliyev Nazirlər Kabinetinə qabaqlayıcı tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi haqda tapşırıq verdiyi vaxtda hələ qlobal həyəcan siqnalı verilməmişdi. Amma, əvvəllər insanlarda müşahidə olunmamış virusun yayılması və Çinin sərhədlərini aşaraq Yaponiya, Cənubi Koreya və Taylandda yoluxma haqda məlumatlara əsaslanaraq ölkə rəhbərliyi məhz "qabaqlayıcı tədbirlər"in görülməsinə dair hökumətə tapşırıq vermişdi.

Nazirlər Kabinetinin qəbul etdiyi qərarlar da qabaqlayıcı xarakterli idi.

Müşavirənin yekununda:

– sərhəd-keçid məntəqələrinin gücləndirilmiş iş rejiminə keçirilməsi;

– ÇXR-dən, xüsusilə epidemiya zonasından ölkəyə gələn bütün şəxslərin mütləq şəkildə ciddi tibbi müayinədən keçirilməsi və nəzarət altına alınması;

– xüsusi riskli hesab olunan və virusun keçə biləcəyi ərzaq məhsullarının siyahısının hazırlanması və ərzaq bazarında həmin məhsullara nəzarətin gücləndirilməsi;

– səhiyyə ocaqlarında qaynar xətlərin yaradılması;

– virus və onunla mübarizə metodları haqda əhali ilə maarifləndirmə işlərinin aparılması;

– vəziyyətlə bağlı əhaliyə mütəmadi məlumatların verilməsi haqda qərarlar qəbul edildi.

İlk müşavirədə Səhiyyə nazirinin rəhbərliyi və aidiyyəti qurumların iştirakı ilə İşçi qrupu yaradıldı.

Yanvarın 30-da isə Nazirlər Kabinetinin sərəncamı ilə "Azərbaycan Respublikasında yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair Fəaliyyət Planı" təsdiq edildi. "Fəaliyyət Planı"nda konkret dövlət orqanlarının konkret zaman kəsiyində hansı işləri görəcəyi öz əksini tapmışdı.

#### Birinci mərhələ: İkinci addım

Fevralın 19-da Azərbaycanın sıx iqtisadi və humanitar əlaqələrinin olduğu qonşu İran İslam Respublikasında ilk yoluxma halına dair rəsmi məlumat verildi. Azərbaycan İranda yoluxma hallarının artmasına və ölüm hallarının müşahidə olunmasına dərhal adekvat reaksiya verdi və Azərbaycan-İran sərhəd-keçid məntəqələri xüsusi rejimdə fəaliyyətə keçdi.

Fevralın 22-dən başlayaraq sərhəd-keçid məntəqələrində sanitar-dezinfeksiya işləri gücləndirildi. Bu səbəbdən, keçid prosedurlarının sürəti azaldıldı.

Azərbaycan ərazisindən tranzit yüklərin daşınması üzərində də nəzarət gücləndirildi. Yüklərin ölkəyə girişi və çıxışında əlavə sanitar-dezinfeksiya tədbirlərinin görülməsi davam etdirildi. İran İslam Respublikasında yaranmış vəziyyətlə əlaqədar olaraq əhaliyə xüsusi zərurət olmadığı hallarda qonşu ölkəyə səfərlərini müvəqqəti olaraq təxirə salmaq tövsiyə olundu. Aidiyyəti qurumlara gücləndirilmiş rejimdə fəaliyyət göstərmək haqda tapşırıqlar verildi.

### İkinci mərhələ

Ancaq dünyada və ətraf ölkələrdə vəziyyət gərginləşməkdə davam edirdi. Qlobal gərginliyin artması fonunda artıq fevralın 27-də Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət orqanlarının rəhbər şəxslərindən ibarət Operativ Qərargahın yaradılması haqda qərar qəbul olundu.

Eyni zamanda qabaqlayıcı tədbirlərin görülməsi və Azərbaycan Respublikasının bütün ərazilərində monitorinqin aparılması üçün aidiyyəti sahələrin mütəxəssislərindən ibarət ekspert qrupları da təşkil edildi. Həmçinin, əhalinin məlumatlandırılması və əsassız dezinformasiyaların qarşısının alınması məqsədilə qərargahın qaynar xətləri fəaliyyətə başladı.

Azərbaycana xəstəliyin xaricdən daxil olmasının qarşısını almaq üçün, elə həmin gün, fevralın 27-də Nazirlər Kabinetinin yanında yaradılmış Operativ Qərargahın qəbul etdiyi qərara əsasən İran İslam Respublikası ilə sərhəd–keçid məntəqələrindən Azərbaycan ərazisinə daxil olan şəxslərin ilkin müayinəsini təşkil etmək məqsədilə səyyar hospitallarının yaradılmasına başlanıldı.

Fevralın 28-də ilk dəfə olaraq İran İslam Respublikasından gələn Rusiya Federasiyasının vətəndaşında virus aşkarlanaraq həmin şəxs xəstəxanaya yerləşdirildi.

Virusun yayılmasının qarşısının alınması üçün xəstənin təmasda olduğu adamların müəyyən edilməsinə başlandı.

Bununla da Azərbaycanda koronavirusla mübarizənin yeni mərhələsinə qədəm qoyuldu. Bu mərhələdə ölkə ərazisinə xaricdən, əsasən də İran İslam Respublikasından virusla yoluxmuş şəxslər daxil oldu.

Fevralın 28-də ÜST-ün qlobal riskin "yüksək"dən "ən yüksək" səviyyəyə yüksəltdiyi zaman Azərbaycan artıq bu vəziyyətə hazır idi.

### Üçüncü mərhələ

Bu mərhələdə yeni yaranmış Operativ Qərargahın əsas fəaliyyət istiqamətləri karantin zonalarının yaradılması, koronavirusa yoluxmuş xəstələrin aktiv müalicəsi və xarici aləmlə əlaqələrin məhdudlaşdırılması oldu.

Dünyada, regionda, qonşu ölkələrdə və Azərbaycanın daxilində vəziyyət sürətlə dəyişirdi. Operativ Qərargah bəzən gün ərzində iki dəfə toplaşaraq yeni yaranmış vəziyyəti dəyərləndirir, problemləri müzakirə edir, çıxış yolları axtarır və müxtəlif qurumlara konkret tapşırıqlar verirdi. Paralel olaraq pandemiyanın yaratdığı qlobal və yerli iqtisadi problemlər, proqnozlaşdırılan böhrana müqavimət yolları da müzakirə edilirdi.

Operativ Qərargah bir tərəfdən koronavirusun xaricdən ölkəyə daxil olmasının qarşısını almaq üçün xarici əlaqələri məhdudlaşdırmaq, o biri tərəfdən də iqtisadi-ticarət əlaqələrini mümkün qədər qoruyub saxlamaq dilemmasını həll etməli idi.

### Üçüncü mərhələ: birinci addım

Qərara alındı ki, xəstəliyin sürətlə yayıldığı İran İslam Respublikası ilə Azərbaycan arasında ikitərəfli və beynəlxalq yükdaşımaları istisna etməklə sərhəd keçidi fevralın 29-dan etibarən iki həftə müddətinə bağlansın.

Yaranmış vəziyyət İran İslam Respublikasının aidiyyəti dövlət qurumları ilə müzakirə olundu və Azərbaycan Respublikasının bu qərarı barədə İran İslam Respublikasına məlumat verildi.

Əlaqələndirilmiş şəkildə Azərbaycan ərazisində olan İran vətəndaşlarının ölkədən çıxması, İran ərazisində olan Azərbaycan vətəndaşlarının müvafiq rejim tətbiq olunmaqla ölkəyə gəlməsi üçün dəhliz təşkil olundu. Zəruri hallarda, İran İslam Respublikası vətəndaşlarına humanitar əsaslarla vizaların rəsmiləşdirilməsi də həyata keçirildi.

Martın 12-də İranla sərhədin məhdudlaşdırıcı rejimdə saxlanmasına dair qərar daha iki həftə müddətinə uzadıldı.

Fevralın 28-də ilk yoluxmuş şəxsin Azərbaycanda aşkarlandığı gündən martın 13-ə, xüsusi rejim tətbiq edilən günədək 19 nəfər xəstə müəyyənləşdirildi. Bu iki həftə həyəcan və ümid həftəsi idi.

Belə ki, martın 10-da 3 nəfərin xəstəlikdən sağalması ilk ümidverici işartılar oldu. İlk sağalma halları, səhiyyəmizin, elmə az məlum olan xəstəliyin öhdəsindən gələ bildiyinin çox vacib göstəricisi idi. Buna həm elmi-tibbi təcrübə, həm də psixoloji baxımdan böyük ehtiyacımız vardı. Martın 12-də isə təəssüf ki, ilk vəfat edən vətəndaş qeydə alındı.

Bu mərhələdə yoluxma halları xaricdən gələnlərdə müşahidə olunur, daxildən bir-birinə yoluxma halları qeydə alınmırdı.

Dünyada vəziyyət xeyli gərginləşdi. Martın 11-də dünyada bir sutkalıq yoluxmanın sayı 7 min 265 nəfər, bütövlükdə yoluxanların sayı isə 126 min 215 nəfər olmuşdu.

Azərbaycana qonşu olan ölkələrdə də xəstəliyin sürətlə yayıldığı müşahidə olunurdu. Martın 11-də İranda sutkalıq 958 yoluxma halı qeydə alınmışdı.

Gürcüstanda bütövlükdə 28 xəstə müəyyənləşdirilmişdi.

### Üçüncü mərhələ: ikinci addım

Qlobal vəziyyəti nəzərə alan ÜST 2020-ci ilin martın 11-də epidemiyanı pandemiya kimi tanıdı.

Azərbaycan yenə də qlobal prosesləri qabaqlaya bilmişdi. Artıq martın 2-də Nazirlər Kabinetinin Sərəncamı ilə martın 3-dən 9-dək bütün təhsil-tədris prosesi dayandırılmış, bu müddət ərzində Təhsil Nazirliyinə və tabeliyində təhsil müəssisələri olan müvafiq icra hakimiyyəti orqanlarına bütün təhsil müəssisələrində tibbi-profilaktik və dezinfeksiyaedici tədbirlərin davam etdirilməsi tapşırılmışdı. Martın 10-dan isə tətilin vaxtı martın 20-dək uzadıldı, Novruz şənlikləri ləğv edildi, qarşıdakı aylarda toy mərasimlərinin təxirə salınması, yas mərasimlərinin isə kütləvi keçirilməməsi tövsiyə olundu.

Addım-addım karantin rejiminin elementləri tətbiq olunur, paralel olaraq səhiyyə infrastrukturu pandemiya dövrünün tələblərinə uyğunlaşdırılırdı.

Beynəlxalq təcrübəyə uyğun olaraq koronavirus infeksiyalarının laborator diaqnostikası üçün xüsusi dövlət tibb müəssisələri müəyyənləşdirildi və test nəticələrinin düzgünlüyünün xüsusi proqramlarla nəzarət edilməsinə başlandı. Dövlət tibb müəssisələrindəki laboratoriyalarda ÜST-ün protokoluna əsasən yoluxmasına şübhə doğuran şəxslərin tibbi müayinələri dövlət büdcəsi hesabına həyata keçirilirdi.

Milli təhlükəsizlik baxımından vəziyyətin həssaslığı nəzərə alınaraq digər dövlət və qeyri-dövlət tibb müəssisələrində koronavirusun təyini məqsədilə laborator analizlərin aparılması qadağan olundu.

### Üçüncü mərhələ: üçüncü addım

Bu mərhələdə təhlükə mənbəyinin xaricdə olması və insanların səyahəti vasitəsilə daha sürətlə yayılmasını nəzərə alaraq İİR ilə sərhədlərin bağlanmasından (29 fevral) sonra xariclə əlaqələrin məhdudlaşdırılmasına növbəti addım atıldı. Bu addım bütün ölkələrdən Azərbaycana gəliş üzərində nisbi məhdudiyyət tətbiq edilməsini nəzərdə tuturdu. Martın 12-dən “ASAN Viza” elektron portalı vasitəsilə 45 gün müddətinə vizaların rəsmiləşdirilməsi dayandırıldı.

Azərbaycan Respublikasının səfirlik və baş konsulluqlarının konsulluq xidməti xüsusi rejimdə fəaliyyət göstərməyə başladı.

Ümumdünya Səhiyyə Təşkilatının təqdim etdiyi siyahıya əsasən xüsusilə COVİD-19 virusunun geniş yayıldığı ölkələrin vətəndaşlarından viza rəsmiləşdirilməsinə müraciət edərkən COVİD-19 testindən keçmələri barədə tibbi arayış da tələb olundu.

Çin Xalq Respublikası, Cənubi Koreya, İran İslam Respublikası, Yaponiya, İtaliya, İspaniya, Fransa, Almaniyadan qayıdan Azərbaycan Respublikası vətəndaşlarının 14 və ya tələb olunduğu halda, 28 günlük karantin rejiminə yerləşdirilməsi haqda qərar qəbul edildi.

Çin Xalq Respublikası, Cənubi Koreya, İran İslam Respublikası, Yaponiya, Avropa İttifaqı ölkələri, xüsusilə İtaliya, İspaniya, Fransa, Almaniya və digər ölkələrdə olan Azərbaycan Respublikası vətəndaşlarının ölkəmizin aidiy-

yəti səfirlik və konsulluqlarında konsulluq qeydiyyatına düşmələri və olduqları ölkələrin COVİD-19 virusu ilə əlaqədar müəyyən etdikləri karantin qaydalarına riayət etmələri xahiş olundu.

Azərbaycan Respublikası vətəndaşlarına yaxın iki ay müddətinə xüsusi zərurət olmadığı təqdirdə, xarici ölkələrə səfərlərdən çəkinmələri ciddi şəkildə tövsiyə olundu.

**Dördüncü mərhələ: xüsusi rejim qaydalarının tətbiqi (14 mart - 24 mart)**

Bu dövrdə daxildə yoluxma halları qeydə alınmağa başladı, xəstələrin sayı artdı və xüsusi rejim qaydalarının tətbiqi zərurəti yarandı.

**Dördüncü mərhələ: birinci addım**

Operativ Qərargah 14 mart 2020-ci il tarixdə saat 00:00-dan etibarən ölkə ərazisində ciddi sosial izolyasiya tədbirlərini elan etdi. Aptek, ərzaq mağazaları, market və supermarketlər istisna olmaqla bütün sahələrin fəaliyyətində müxtəlif formalarda məhdudiyyətlər tətbiq edildi. İlk növbədə kütləvi tədbirlərin – toy və s. şənliklərin keçirilməsi qadağan edildi, yas mərasimlərində iştirakın miqyası məhdudlaşdırıldı, kütləvi mədəni və idman tədbirləri təxirə salındı.

İqtisadiyyatın xidmət və ictimai iaşə sektorunda isə ikili yanaşma tətbiq edildi: çox kütləvi tədbirlərin keçirildiyi şadlıq evlərinin, əyləncə klubları və barların fəaliyyəti tam dayandırıldı.

İkinci kateqoriyaya aid edilənlərdə isə fəaliyyət məhdudlaşdırıldı: restoran və kafelərdə iş rejimi saat 21.00-dək qısaldıldı, amma, paralel olaraq kütləvi şənliklər qadağan edildi.

Fəaliyyəti məhdudlaşdırılan sahələrdə, habelə iri ticarət mərkəzlərində davranışı tənzimləyən metodik göstərişlərin hazırlanması haqda tapşırıq verildi. Aydın idi ki, artıq, hətta fəaliyyət göstərəcək obyektlərdə də ünsiyyət əvvəlki formada olmayacaq.

Xüsusi davranış qaydalarının tətbiq ediləcəyi ən vacib sahələrdən biri də ictimai nəqliyyatdır. İctimai nəqliyyatın fəaliyyəti hələlik dayandırılmamışdır, amma qoruyucu vasitələrdən istifadə və fiziki məsafənin saxlanması tövsiyə olunmuşdur.

Nəhayət, dövlət strukturlarında çalışan bütün şəxslərin və səhiyyə işçilərinin hərəkəti ilə bağlı məhdudiyyətlər tətbiq edildi. Belə ki, bu kateqoriyalara aid olan şəxslərin ölkədən kənara səfərləri Operativ Qərargahın icazəsi əsasında həyata keçirilə bilərdi. Dövlət və özəl sektorda çalışan şəxslərin yalnız ən vacib məqamlar istisna olmaqla ezamiyyə səfərlərinə məhdudiyyət tətbiq edildi.

Özəl tibb müəssisələrinə tapşırıldı ki, Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi ilə (TƏBİB) koordinasiya şəraitində çalışsınlar, yarana biləcək hər hansı hallar üçün yüksək hazırlıq səviyyəsini təmin etsinlər.

Dövlət qurumlarına, banklara və əhalinin çox sayda müraciət etdiyi digər qurumlarına tapşırıldı ki, vətəndaş qəbullarının və müraciətə baxılmanın təması istisna edən yeni qaydalarını işləyib hazırlasınlar.

Artıq bu mərhələdə karantin qaydalarını pozmağa cəhd halları müşahidə olunduğu üçün cəza tədbirləri haqda elan vermək zərurəti də yaranmışdı. Odur ki, koronavirus diaqnozu ilə xüsusi rejimli xəstəxanalarda müalicə alan və karantin qaydalarını pozan şəxslər barəsində cəza tədbirləri tətbiq olunacağı haqda qəbul olunmuş sənədlərdə xüsusi müddəa qeyd olundu.

Pandemiyanın əvvəlindən rast gəlinən daha bir mühüm məqam isə vəziyyəti gərginləşdirməyə yönələn dezinformasiyalar idi. Odur ki, ictimaiyyətdə yanlış fikrin formalaşdırılması məqsədi güdən və qəsdən bu qəbildən olan informasiyaların yayılmasını həyata keçirən kütləvi informasiya vasitələri, o cümlədən sosial şəbəkə istifadəçiləri barəsində ən ciddi tədbirlərin görüləcəyi barədə xəbərdarlıq edildi.

### Dördüncü mərhələ: ikinci addım

Bu addımdan başlayaraq artıq həyat yeni normalar əsasında davam etməyə başladı.

17 mart 2020-ci il tarixdə Operativ Qərargah alış-veriş mərkəzlərinin fəaliyyətini tənzimləyən qaydaları elan etdi. Elə həmin gün Baş Nazir mərkəzi və yerli icra hakimiyyəti orqanlarının və digər dövlət qurumlarının rəhbərlərinə xüsus rejimdə iş normalarına dair Təlimatı təqdim etdi.

Təlimata əsasən fiziki təmaslar minimuma endirilirdi. İclasların, müşavirələrin və toplantıların yalnız telefon (selektor) rabitəsi, mobil və internet rabitəsi vasitəsilə keçirilməsinə üstünlük verilməsi tapşırıldı, mümkün olduğu halda, əməkdaşların məsafədən işləməsinin təmin edilməsinin zəruriliyi qeyd olundu.

Xüsusi risk qrupuna daxil olan 60 yaşdan yuxarı şəxslərin və öhdəsində azyaşlı uşağı olan qadınların iş davamiyyətinə güzəştli şərtlər tətbiq edildi.

İşçilərin və onların ailə üzvlərindən birinin qrip, soyuqdəymə, halsızlıq və digər bu kimi halları olduğu təqdirdə həmin işçilərin işə çıxması qadağan edildi və s. və i.

Qeyd olunan tələblər hüquq-mühafizə və hərbi xidmət orqanlarına, dövlət əhəmiyyətli və həyat təminatlı obyektlərə, fasiləsiz iş rejimində fəaliyyət göstərən müəssisələrə, səhiyyə və digər tibb müəssisələrinin işçilərinə şamil edilmir.

Bu mərhələdə Operativ Qərargah ilk dəfə özünü təcridin yeni formasını tətbiq etdi. Vətəndaşları əməkhaqqı ödənilməklə özünütəcrid üçün imkan yaratdı. Bu məqsədlə bəzi dövlət qurumlarının əməkdaşlarının 1 ay müddətində – martın 29-dan aprelin 29-dək, əməkhaqqı saxlanılmaqla növbədənkənar məzuniyyətə göndərilməsi haqda qərar qəbul olundu.

### Dördüncü mərhələ: üçüncü addım

#### Uçuşların dayandırılması və sərhədlərin qarşılıqlı bağlanması

Karantin rejiminə tədrici keçidin ən təsirli və qeyri-adi elementi xarici ölkələrlə gediş-gəlişin məhdudlaşdırılması haqda qərarlar idi. Fevralın 29-da yükdaşımalar istisna olmaqla İran İslam Respublikası (İİR) ilə sərhədlərdən gediş-gəliş qarşılıqlı razılıq əsasında məhdudlaşdırılmışdı.

Martın 12-dən bütün ölkələrlə elektron portal üzərindən vizaların verilməsi dayandırılmışdı.

Martın 14-dən isə hər iki ölkənin vətəndaşlarının təhlükəsizliyinin təmin edilməsi və sağlamlığının qorunması məqsədilə hökumət başçılarının qarşılıqlı razılığına əsasən on günlük müddətə Azərbaycan və Gürcüstan arasında dövlət sərhədinin bütün nəqliyyat vasitələri üçün müvəqqəti bağlanması barədə qərar qəbul edildi. Azərbaycan ərazisində olan Gürcüstan vətəndaşlarının ölkədən çıxması, Gürcüstan ərazisində olan Azərbaycan vətəndaşlarının ölkəyə gəlməsini təşkil etmək üçün zəruri dəhliz təmin olundu. Eyni zamanda, yükdaşımaların həyata keçirilməsi üçün tranzit dəhlizin də fəaliyyəti təmin edildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Cümhuriyyətinin Prezidenti R.T.Ərdoğan martın 15-dən etibarən Türkiyə və Azərbaycan vətəndaşlarının hava və quru yolu ilə qarşılıqlı səfərlərinin müvəqqəti olaraq dayandırılması barədə razılığa gəldilər.

Bundan əlavə martın 16-dan 18-dək AZAL və Özbəkistan hava yolları vasitəsilə Bakı-Daşkənd-Bakı, AZAL vasitəsilə Bakı-Lvov-Bakı, Bakı-Dubay-Bakı, Bakı-Kazan-Bakı, Bakı-Minvodı-Bakı, Bakı-Ufa-Bakı, Bakı-Nyu-York-Bakı, Qatar hava yolları vasitəsilə Bakı-Doha-Bakı, Air Arabia, Ethiad, Fly Dubai vasitəsilə Abu-Dabi-Bakı-Abu-Dabi, Dubay-Bakı-Dubay, Şarja-Bakı-Şarja, S7 hava

yolları vasitəsilə Novosibirsk-Bakı-Novosibirsk, UralAirlines vasitəsilə Yekaterinburq-Bakı-Yekaterinburq, İrAero hava yolları vasitəsilə Krasnoyarsk-Bakı-Krasnoyarsk, Utair hava yolları vasitəsilə Surqut-Bakı-Surqut reysləri üzrə uçuşlar dayandırıldı.

Martın 16-da isə Azərbaycan və Rusiya vətəndaşlarının qarşılıqlı səfərlərinin 2020-ci il 18 mart saat 00.00-dan etibarən yük avtomobilləri istisna olmaqla müvəqqəti dayandırılması barədə qərar qəbul edildi.

Beləliklə, fevralın 29-dan martın 18-dək bütün xarici əlaqələr yükdaşımaları istisna olunmaqla minimuma endirildi.

Təxliyyə. Ancaq, xarici ölkələrlə gediş-gəlişin gözlənilmədən dayandırılması səfər prosesində olan vətəndaşları çıxılmaz vəziyyətə salmışdı.

Odur ki, müvəqqəti və ya qısamüddətli əsasda səfərdə olanlar, qarşıdan gələn günlər üçün geriyə qayıtma bileti almış və s. təxirəsalınmaz yerdəyişmə prosesində olanların təxliyyəsi üçün dövlət tərəfindən çarter reysləri təşkil olundu.

Martın 25-dək xüsusi çarter reysləri vasitəsilə 10.000 nəfərə yaxın Azərbaycan Respublikası vətəndaşı müxtəlif ölkələrdən Azərbaycana gətirildi.

Təxliyyə olunan vətəndaşlar mütləq şəkildə, vəziyyətdən asılı olaraq 14-28 gün müddətində karantin zonalarında yerləşdirildi.

Ölkə daxilində olan karantin məntəqələrinin qəbul etmək imkanlarını nəzərə alaraq, həftə ərzində 200-400 nəfərin xaricdən gətirilməsi haqda qərar qəbul edildi.

Xarici ölkələrdə yaşayan vətəndaşların Azərbaycana geri dönüşü ilə bağlı çoxsaylı müraciətlər nəzərə alınaraq, həmin müraciətlərə çevik baxılıb həll olunması, dövlət orqanlarının bu prosesi vahid mərkəzdən idarə etməsi və vətəndaşlarla onlayn qarşılıqlı əlaqənin təşkil olunması üçün www.evegedirem.info portalı yaradıldı.

Saytın məqsədi xaricdə yaşayan həmvətənlərimizə onlayn qeydiyyata düşmək imkanı yaratmaqla onların Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlik və konsulluqlarına müraciətlərini tezləşdirmək, vətənə qayıdış prosedurlarına köməklik göstərməkdir. Vətəndaşların Azərbaycana qayıdış tarixləri karantin rejiminin şərtlərinə uyğun tənzimlənir və ölkəyə qayıdan hər bir şəxs karantində yerləşdirilir.

**Dördüncü mərhələ: dördüncü addım**

**Bakı, Sumqayıt və Abşeron rayonunun təcrid edilməsi**

Bu mərhələdə ilk dəfə olaraq ölkə iki hissəyə bölündü. Əhalinin sıxlığının yüksək olduğu və yoluxma hallarının müşahidə olunduğu Bakı, Sumqayıt və Abşeron zonasının ölkənin yerdə qalan hissəsi ilə əlaqələri məhdudlaşdırıldı.

Martın 19-da saat 00.00-dan etibarən xüsusi təyinatlı, o cümlədən təcili tibbi yardım, qəza-bərpa, xilasedici, habelə yük daşıyan avtomobillərin hərəkəti istisna olmaqla respublikanın şəhər və rayonlarında qeydiyyatda olan nəqliyyat vasitələrinin və onların sərnişinlərinin Bakı, Sumqayıt şəhərlərinə və Abşeron rayonuna buraxılması martın 29-dək dayandırıldı.

Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda qeydiyyatda olan sərnişindaşıma nəqliyyat vasitələrinin (avtobus, mikroavtobus, taksi və s.) ölkənin başqa şəhər və rayonlarından Bakı, Sumqayıt şəhərlərinə və Abşeron rayonuna sərnişin daşımaları qadağan olundu.

Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda qeydiyyatda olan nəqliyyat vasitələrinin və onların sərnişinlərinin Bakı şəhərinə sərbəst giriş-çıxışına icazə verildi.

Sumqayıt və Abşeron istisna olmaqla ölkənin bütün şəhər və rayonlarından qatar vasitəsi ilə Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonuna sərinişin daşınması dayandırıldı.

Ölkə ərazisindəki hava limanlarından Bakıya sərnişin daşınmasına fasilə verildi. Ticarət əlaqələrinin saxlanması, ərzaq və başqa gündəlik tələbat mallarına ehtiyacı təmin etmək məqsədilə bütün nəqliyyat vasitələri ilə yükdaşımaları sərbəst saxlandı.

Türkiyə ilə quru sərhəd yolu ilə Naxçıvan Muxtar Respublikasından Azərbaycan Respublikası ərazisinə daxil olmaq istəyən Azərbaycan vətəndaşlarının müvəqqəti olaraq Türkiyə ərazisində sərhədyanı ərazilərdə yerləşdirilməsi, sonra qrup şəklində Naxçıvan Muxtar Respublikası ərazisində yaradılan səhra karantin məntəqələrində 14-28 gün müddətinə karantinə alınmaları nəzərdə tutuldu.

**Dördüncü mərhələ: beşinci addım**

**Yeni situasiya üçün Təlimatlar**

Yeni şəraitdə iş yerlərində, küçədə və hətta evdə belə vətəndaşların yeni davranış normalarının işlənib hazırlanması təxirəsalınmaz bir tapşırıq idi.

Qida Təhlükəsizliyi Agentliyi alış-veriş mərkəzlərində yerləşən ictimai-iaşə obyektlərində riayət edilməsi vacib olan metodiki göstərişlər işləyib hazırladı.

( http://afsa.gov.az/uploads/info/warning/food_pdf1584199415.pdf)

İş yerlərinin girişlərində hərarətölçmə qurğularının istifadəsilə girişdə bütün daxil olanların hərarətinin yoxlanılması, xidmət göstərən personalın xüsusi geyim vasitələri ilə təmin edilməsi, havalandırma sistemlərinin işlək olması, sabun və su əl yuma stansiyaları mövcud olmayan yerlərdə alkoqol əsaslı dezinfeksiya dispenserlərinin quraşdırılması və saxlanması, iş saatlarında dezinfeksiya tədbirlərinin mütəmadi həyata keçirilməsi (əsasən işlək sahələrdə giriş-çıxış, lift, kassa və s.), qeyri-iş saatlarında tam dezinfeksiya tədbirlərinin görülməsi, evlərə ərzaqların çatdırılması xidmətlərinin işə salınması, xəstə olan əməkdaşların əmək fəaliyyətinin müvəqqəti məhdudlaşdırılması, bu tədbirlərə əməl edilmədiyi təqdirdə cavabdeh şəxslər barədə ciddi tədbirlərin görülməsi haqda qərar qəbul edildi.

Nazirlər Kabinetinin təsdiqlədiyi, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının və digər dövlət qurumlarının rəhbərlərinə xüsus rejimdə iş normalarına dair təlimatlarda iclasların, müşavirələrin və toplantıların yalnız telefon (selektor) rabitəsi, mobil və internet rabitəsi vasitəsilə keçirilməsinə üstünlük verilməsi, mümkün olduğu halda, əməkdaşların məsafədən işləmələri haqda göstəriş verildi.

Təlimata əsasən, 60 yaşdan yuxarı şəxslərin və öhdəsində azyaşlı uşağı olan qadınların iş davamiyyətinə güzəştli şərtlərin tətbiq edilməsi, işçilərin və onların ailə üzvlərindən birinin qrip, soyuqdəymə, halsızlıq və digər bu kimi halları olduğu təqdirdə həmin işçilərin işə çıxması qadağan edildi.

Vətəndaş qəbulu ilə əlaqədar yeni qaydalara əsasən, qəbul otağında vətəndaşların qrup və fərdi surətdə qəbulları, yerlərdə səyyar qəbulların keçirilməsi təxirə salındı.

Təlimatda vətəndaşların müraciətlərinin fasiləsiz qəbulunun yalnız elektron və telefon rabitəsi vasitəsilə həyata keçirilməsi, bu məqsədlə hər orqan və qurumda qaynar xətlərin fasiləsiz fəaliyyəti təmin edilməsi tələb edilirdi.

Vətəndaş müraciətlərinin yalnız elektron və telefon vasitəsilə qəbul edilməsi məqsədilə hər orqan və qurumda məsul əməkdaşların təyin edilməsi, mümkün olduğu halda, vətəndaşlara səyyar xidmətlərin göstərilməsinin təşkil edilməsi tapşırılırdı.

Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, həmçinin digər dövlət qurumlarına göstəriş verildi ki, vətəndaşların müraciətlərinə xüsusi həssaslıqla yanaşsınlar.

Təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin dayandırılmasının müddəti növbəti dəfə aprelin 18-dək uzadıldı.

**Beşinci mərhələ**
**(24 mart-20 aprel)**

Bu mərhələ ərəfəsində yoluxmanın ciddi artımı müşahidə olunmurdu. Martın 19-da yeni yoluxanların sayı 10 nəfər, müalicə alanların sayı isə 33 nəfər idi. Martın 21-də yeni yoluxanlar 9 nəfər, xüsusi rejimli xəstəxanalarda müalicə alanlar 42 nəfər, 22 martda yeni yoluxan 12 nəfər, müalicəsi davam etdirilən 54 nəfər, 23 martda yeni yoluxan 7 nəfər, müalicəsi davam etdirilənlər 61 nəfər, 24 martda isə yeni yoluxan 15 nəfər, xüsusi rejimli

xəstəxanada müalicəsi davam etdirilənlər isə 76 nəfər olmuşdu.

Bu statistika narahatlıq üçün ciddi əsas vermirdi, amma Prezident İlham Əliyevin qabaqlayıcı addımlar atmaq planı var idi. Nəticədə Operativ Qərargah Xüsusi Karantin Rejimi (XKR) tətbiq etmək haqda qərar qəbul etdi.

23 mart 2020-ci il tarixdə Nazirlər Kabinetində keçirilmiş iclasda ölkədə koronavirus infeksiyası ilə bağlı vəziyyət müzakirə edildi Azərbaycan Respublikasında 24 mart 2020-ci il tarixdə saat 00:00-dan etibarən 20 aprel 2020-ci il tarixə saat 00:00-dək xüsusi karantin rejiminin tətbiq edilməsi haqda qərar qəbul edildi.

Bu karantin rejiminin keyfiyyətcə yeni mərhələsinə keçid idi. Məhdudiyyətlərin məzmunu və tədricən təsir dairəsi genişlənirdi. İri ticarət mərkəzlərinin bağlanması bu dövrün ən sərt addımı hesab oluna bilər. Amma, bütövlükdə bu hələ sərt karantin rejimi deyildi.

### Beşinci mərhələ: birinci addım

Bu mərhələdə artıq 65 yaşdan yuxarı insanlara evdən çıxmaq qadağan olundu, bu kateqoriyadan olan və tənha yaşayan şəxslərə qanunvericiliyə əsasən sosial xidmətlərin göstərilməsi təmin edildi.

Bakı, Sumqayıt və Abşerona giriş çıxış məhdudiyyəti aprelin 20-dək uzadıldı. Mülkiyyət növündən asılı olmayaraq, ölkə üzrə rayon və şəhərlərarası sərnişindaşıma fəaliyyəti dayandırıldı.

Sərnişinlərə metrodan az istifadə etmək, yerüstü nəqliyyatdan istifadə olunması tövsiyə olundu və Bakı Nəqliyyat Agentliyi metro stansiyaları arasında müəyyən edilmiş marşrut əsasında saat 06:00-dan 22:00-dək xüsusi ekspress avtobus xətlərinin tətbiq etdi.

İctimai yerlərdə, o cümlədən küçələrdə, bulvarlarda, parklarda və sair yerlərdə şəxslərin 10 nəfərdən artıq qruplarda cəmləşməsi qadağan edildi, insanlararası təmaslarda vətəndaşlar tərəfindən 2 metrlik məsafənin saxlanılması tövsiyə olundu.

İctimai iaşə müəssisələrində iş rejimi daha da qısaldıldı: müştərilərə yerində xidmət vaxtı saat 12:00-dan 15:00-dək müəyyən edildi, evə götürmə, çatdırma və onlayn satışlara məhdudiyyətsiz icazə verildi. Nəzdindəki supermarketlər, ərzaq mağazaları və apteklər istisna olmaqla, ölkə ərazisində ticarət mərkəzlərinin və "Mall"arın fəaliyyəti dayandırıldı.

### Beşinci mərhələ: ikinci addım

### Xüsusi karantin rejiminin gücləndirilməsi

Xəstələrin sayı artmaqda davam etdi. Martın 25-də xəstəxanalarda müalicə alanların sayı 81 nəfər idisə, 4 gün ərzində 2 dəfədən çox, 190 nəfərə qədər artdı.

Belə ki, 29 mart 2020-ci il tarixdə saat 00:00-dan etibarən xüsusi karantin rejiminin bəzi elementləri gücləndirildi.

Bu dövrdə ilk dəfə olaraq Bakı Metropolitenində qatarların hərəkəti dayandırıldı və vətəndaşların ən zəruri hallar istisna olmaqla evdən çıxmaları qadağan olundu. Ticarət və ictimai iaşə müəssisələri fəaliyyətini tam olaraq dayandırdı.

Əvvəlki məhdudiyyətlərə əlavə olaraq Bakı metrosunun iş vaxtı səhər saatlarında 07:00-dan 09:00-dək, axşam saatlarında isə 17:00-dan 20:00-dək müəyyən edildi.

Daha sonra isə Bakı Metropolitenində qatarların hərəkəti 31 mart 2020-ci il tarixdə saat 22:00-dan 20 aprel 2020-ci il tarixədək tam dayandırıldı. Bakı şəhərində sərnişindaşımaların müntəzəm və ekspres xətt avtobusları ilə həyata keçirilməsinə başlanılıdı.

Ticarət obyektləri üzrə: Xüsusi karantin rejimi dövründə supermarketlər, ərzaq mağazaları və apteklər istisna olmaqla, bütün ticarət obyektlərində müştərilərə yerində xidmət dayandırıldı, çatdırma və onlayn satışlara məhdudiyyətsiz icazə verildi.

İctimai iaşə obyektləri üzrə: xüsusi karantin rejimi dövründə bütün ictimai iaşə obyektlərində, o cümlədən restoran, kafe və çay evlərində müştərilərə yerində xidmət dayandırıldı və evə götürmə, çatdırma, və onlayn satışlara məhdudiyyətsiz icazə verildi.

Əhalinin hərəkəti üzrə: insanların sıxlığını tənzimləmək məqsədilə bulvar, park və istirahət məkanlarına giriş məhdudlaşdırıldı.

İlk dəfə olaraq insanların fərdi evlərində və mənzillərində, daimi və ya müvəqqəti yaşadıqları (olduqları) yerlərdə qalmaları tələb olundu.

Fərdi evlərdən və mənzillərdən insanların çıxışı – təxirəsalınmaz tibbi yardıma zərurət olduqda, həyat və sağlamlığa bilavasitə təhlükəli vəziyyət yarandıqda, fəaliyyətinə icazə verilən pərakəndə satış və əhaliyə xidmət göstərən obyektlərə getmək, məişət tullantılarının atılması hallarında, eləcə də xüsusi rejim dövründə fəaliyyət göstərən təşkilatlarda xidməti vəzifələrini icra etmək məqsədi ilə mümkün sayılırdı.

31 martdan 20 aprelədək olan müddət Azərbaycanda tətbiq edilən Xüsusi Karantin Rejiminin əvvəlki və ondan sonrakı mərhələləri ilə müqayisədə ən sərt və ən effektli mərhələsi oldu.

### Beşinci mərhələ: üçüncü addım

### XKR-nın təkmilləşdirilməsi: Xüsusi iş (əmək) rejiminin tətbiqi

XKR dövründə 31 mart 2020-ci il tarixdən 20 aprel 2020-ci il tarixinədək fəaliyyəti zəruri olan dövlət orqanlarında xüsusi iş (əmək) rejimi tətbiq edildi.

Xüsusi iş (əmək) rejiminə əsasən: rəhbər işçiləri və işçiləri işə cəlb edilən dövlət orqanlarının və qurumlarının siyahısı müəyyən edildi. Dövlət orqanlarının və qurumlarının rəhbər işçiləri ən zəruri strukturların fəaliyyətini təmin etmək üçün işçiləri məhdud sayda işə cəlb edir və cəlb edilən günlər üçün il ərzində onlara əlavə istirahət günlərinin verilməsini təmin edirdi. Eyni zamanda, dövlət orqanlarında və qurumlarında işə cəlb edilməyən işçilərin də əmək haqları saxlanılırdı.

Fəaliyyəti qadağan olunmuş və məhdudlaşdırılmış sahələrdə işə cəlb edilməyən işçilərin əmək haqlarının saxlanılması, imkan oduqda işə cəlb edilməyən işçilərin öz evlərində, habelə distant (məsafədən) iş və ya teleiş formasında işləmələri işəgötürənlərə ciddi tövsiyə edildi.

Bu rejim – fəaliyyəti zəruri olan dövlət qurumlarında həm işləmək, həm də səmərəli özünütəcridə imkan verirdi.

### SMS-icazə sisteminin tətbiqi

Eyni zamanda, karantin qaydaları tətbiq edildiyi müddətdə ilk dəfə olaraq vətəndaşların təxirəsalınmaz müalicə alması, ərzaq və digər gündəlik tələbat mallarının və dərman vasitələrinin əldə olunması, bank və poçt xidmətlərindən istifadə edilməsi zərurəti ilə və ya qohumlarının dəfnində iştirakı ilə əlaqədar yaşayış yerini tərk etmək məqsədilə icazə almaq üçün 8103 nömrəsinə ödənişsiz SMS-məlumatlamdırma sistemi tətbiq edildi.

### Altıncı mərhələ – karantin müddətinin uzadılması və rejimin yumşaldılması

Nazirlər Kabineti tərəfindən 18 aprel 2020-ci il tarixdə qəbul edilmiş qərara əsasən Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 4 may 2020-ci il tarixədək uzadılmış, xüsusi karantin rejimi ilə əlaqədar Nazirlər Kabineti və Operativ Qərargah tərəfindən müəyyən edilmiş bütün məhdudiyyətlər, tələblər və rejimlər bu müddət ərzində öz qüvvəsini saxlamışdı.

Aprelin 12-dən yoluxma ilə sağalma arasındakı nisbət əlverişli istiqamətdə dəyişməyə başladı. Aprelin 16-dək müsbət və mənfi tendensiyalar bir-birini əvəz etdi. Aprelin 16-dan 28-dək isə sağalma sayının yoluxma sayından artıq olması davamlı təkrarlanaraq tendensiya halını aldı.

Azərbaycan öz daxilində təhlükəni cilovlamağı bacardı: 1) ilk mərhələdə xəstəliyin alovlanmasının qarşısını aldı, 2) vəziyyəti nəzarət altına götürdü, 3) zəruri infrastrukturu formalaşdırdı, 4) karantin qaydalarını tətbiq etdi, 5) yoluxma ilə sağalma arasında nisbəti müsbət iqtiqamətə dəyişdi.

Nəticədə 27 aprel 2020-ci il tarixindən məhdudiyyətlərin bir qisminin yumşaldılması qərara alındı. Strategiya karantindən mərhələli çıxışın tətbiqindən ibarət idi. Ancaq, karantin rejimindən mərhələli çıxışin özü ikiistiqamətli idi. Yəni, bütövlükdə karantin rejiminin müddəti uzadılır, amma rejimin tələblərinin tədricən yumşaldılması kursu seçilirdi.

**Karantin rejiminin yumşaldılması: Birinci addım**

Beləliklə, ölkə üzrə 27 aprel 2020-ci il tarixdə saat 00:00-dan etibarən 1) "ASAN Xidmət" Mərkəzlərində vətəndaşların qəbulu ASAN mobil tətbiqi, internet saytı və çağrı mərkəzləri vasitəsi ilə əvvəlcədən onlayn növbə tutmaqla həyata keçirilməyə başlanıldı. Bundan başqa ən zəruri ticarət və kiçik xidmət sahələrinin fəaliyyətinə icazə verildi.

İri ticarət mərkəzləri və "Mall"ların nəzdində qeyd olunan sahələrin fəaliyyətinə məhdudiyyət qüvvədə saxlanılırdı.

Məhdudiyyətlərin aradan qaldırıldığı sahələrdə işləyən şəxslər barədə məlumatlar işəgötürən tərəfindən elektron imzadan istifadə edilməklə "icaze.e-gov.az" portalına daxil edildikdən sonra onların hərəkətinə icazə verilirdi.

Nazirlət Kabineti tərəfindən 1 may 2020-ci il tarixli digər Qərarı ilə xüsusi karantin rejiminin müddətinin 31 may 2020-ci il tarixədək uzadıldı.

Bununla yanaşı, 27 aprel 2020-ci il tarixdə saat 00:00-dan etibarən yaşayış yerini tərk etmək üçün 8103 nömrəsinə SMS-məlumatlandırmadan gələn icazələrin müddəti 2 saatdan 3 saatadək artırıldı.

Qeyd olunan Qərarın icrası olaraq 01 may 2020-ci il tarixdə Operativ Qərargah tərəfindən virusa yoluxma sürəti, xəstələrin sağalma dinamikası nəzərə alınaraq, tətbiq edilən bir sıra məhdudiyyətlərin yumşaldılması qərara alındı.

**Karantin rejiminin yumşaldılması: İkinci addım**

Mayın 04-dək yalnız Bakı, Sumqayıt və Abşeron ölkənin yerdə qalan ərazisindən təcrid edilmişdi. Ancaq, bu mərhələdən başlayaraq mövcud sanitar-epidemioloji vəziyyət, xəstələrin sayı və yoluxma sürəti əsas götürülərək ölkə iki zonaya – narıncı və sarı zonalara bölündü. Yoluxmaların faiz dərəcəsinin yüksək olduğu Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri, Abşeron rayonu narıncı zonaya, yoluxmaların faizinin aşağı və yaxud da heç olmadığı zona isə sarı zonaya aid edildi.

Karantindən mərhələli çıxışın narıncı və sarı zonada müxtəlif sürətlərlə həyata keçirilməsi qərara alındı. Sarı zonada karantindən çıxışın sürətinin daha yüksək olması məqbul hesab edildi.

Bununla əlaqədar Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu üzrə 4 may 2020-ci il tarixdə saat 00:00-dan etibarən, bütün sahələr üzrə fərdi ticarət obyektlərinin fəaliyyəti bərpa olundu, bərbərxanalar, gözəllik salonları və kosmetik xidmətlər üzrə fəaliyyət əvvəlki vəziyyətinə qayıtdı və s.

Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu istisna olmaqla Respublikanın digər rayon və şəhərlərində, həmçinin Naxçıvan Muxtar Respublikasında isə 4 may 2020-ci il tarixdə saat 00:00-dan etibarən, yaşayış yerini SMS-məlumatlandırma ilə, "icaze.e-gov.az" portalında qeydiyyatdan keçməklə, xidməti vəsiqə və ya iş yeri barədə arayış əsasında tərk etmək sistemi ləğv olundu, dövlət qurumlarının işçilərinin tam sayda fəaliyyəti bərpa olundu, restoran, kafe və çay evlərində müştərilərə yerində xidmətlər bərpa olundu, bulvar, park və istirahət yerlərində girişə tətbiq olunan məhdudiyyət götürüldü, rayonlar və şəhərlərarası gediş-gəliş bərpa olundu (ictimai nəqliyyatla sərnişindaşıma xidməti istisna olmaqla), bütün sahələr üzrə fərdi ticarət obyektlərinin, habelə bərbərxanalar, gözəllik salonları və kosmetik xidmətlər üzrə fəaliyyət bərpa olundu.

Paralel olaraq Respublika üzrə bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin dayandırılması 31 may 2020-ci il tarixədək uzadıldı.

Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonunda məhdudiyyətlər aradan

qaldırılan sahələrdə işləyən şəxslər barədə məlumatlar işəgötürən tərəfindən elektron imzadan istifadə edilməklə “icaze.e-gov.az” portalına daxil edildikdən sonra onların hərəkətinə yol verilirdi.

Eyni zamanda Nazirlər Kabinetinin 1 may 2020-ci il tarixdə qəbul etdiyi Qərara əsasən Azərbaycan Respublikasının ərazisində elan edilmiş xüsusi karantin rejimi dövründə aşağıda göstərilən sahələrdə və istiqamətlərdə xüsusi sanitar rejimi tətbiq edildi:

– qida məhsullarının ticarəti üzrə fəaliyyət;
– ictimai-iaşə müəssisələrinin fəaliyyəti;
– turizm və hotelçilik fəaliyyəti;
– ictimai nəqliyyatın fəaliyyəti;
– vətəndaşların qəbulunu həyata keçirən qurumların fəaliyyəti;
– müxtəlif ticarət və xidmət sahələrinin, ofislərin fəaliyyəti.

Bundan başqa həmin Qərarla Azərbaycan Respublikasının baş dövlət sanitariya həkiminə qida məhsullarının ticarəti ilə məşğul olan obyektlərdə, ictimai iaşə müəssisələrində, turizm və hotelçilik sektorunda, ictimai nəqliyyatda, vətəndaşların qəbulunu həyata keçirən qurumlarda, müxtəlif ticarət və xidmət sahələrində, ofislərdə koronavirus infeksiyasının profilaktikasına dair metodik göstərişlərin hazırlanmasına dair tapşırıq verdi.

Nazirlər Kabineti tərəfindən 1 may 2020-ci il tarixdə qəbul edilmiş Qərar karantin nəzarətinə götürülmə qaydalarını təsdiq etdi.

### Karantin rejiminin yumşaldılması: üçüncü addım

Yumşalma dövründə yoluxma hallarının sayında artım müşahidə olunmağa başladı. Amma, Operativ Qərargah yumşalma prosesinin davam etdirmək haqda yeni qərar qəbul etdi.

Qısa müddətdə aidiyyatı qurumların topladığı təşkilati, tibbi-müalicəvi, laborator müayinə təcrübəsi, əhalidə zəruri davranış vərdişlərinin yaranması, səhiyyə infrastrukturunun genişləndirilməsi və gücləndirilməsi, ölkə daxilində zəruri məhsulların istehsalının təşkil edilməsi, bəzi məhsullar üzrə xaricdən asılılığın minimuma endirilməsi, bəzi məhsullar üzrə aradan qaldırılması, qonşu ölkələrdə və dünyada koronavirusla bağlı ajiotajın azalması bizə imkan verirdi ki, karantin rejiminin qaydalarını tədricən yumşaldaq. (Bax: “Yerli istehsalın təşkili və Pandemiya dövrünün infrastrukturunun yaradılması” bölməsi)

Bakı Metropoliteninin fəaliyyətinin 9 may 2020-ci il tarixdə saat 06:00-dan etibarən bərpa edilməsinə dair qərar qəbul edildi.

Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejimi ilə əlaqədar tətbiq edilən bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə əlaqədar Nazirlər Kabineti tərəfindən 15 may 2020-ci il tarixdə qərar qəbul edildi.

Qərara əsasən 2020-ci il 18 may saat 00:00-dan etibarən Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisində yaşayış yerini SMS-məlumatlandırma sistemi ilə, “icaze.e-gov.az” portalında qeydiyyatdan keçməklə, xidməti vəsiqə və ya iş yeri barədə arayış əsasında tərk etmək sistemi ləğv edildi, bulvar, park və istirahət məkanlarına girişə tətbiq olunan məhdudiyyət 10 nəfərdən artıq qruplarda cəmləşməmək şərtilə aradan qaldırıldı, restoran, kafe və çay evlərində, eləcə də ictimai iaşə məkanlarında müştərilərə yerində xidmət saat 08:00-dan 18:00-dək bərpa edildi.

Azərbaycan Respublikasının ərazisi üzrə muzeylərin və sərgi zallarının fəaliyyəti bərpa edildi, 65 yaşdan yuxarı şəxslərin evdən çıxmasına tətbiq olunan qadağa ləğv olundu.

16 may 2020-ci il tarixdə Nazirlər Kabinetinin digər Qərarı ilə xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər təsdiq edildi.

Həmin Qərara əsasən 31 may 2020-ci il tarixdə saat 00:00-dək Azərbaycan Respublikasının ərazisində tətbiq edilən xüsusi karantin rejimi dövründə qüvvədə olan məhdudiyyətlərin siyahısını təsdiq etdi.

https://nk.gov.az/az/document/4450/

Bu Qərar yeni situasiyada qadağalar və icazələrlə bağlı mənzərəyə bir daha aydınlıq gətirdi.

**Karantin rejiminin yumşaldılması: dördüncü addım**

Gündəlik yoluxma hallarının artmasına baxmayaraq karantin rejiminin tələblərinin daha da yumşaldılması haqda qərar qəbul edildi.

Bu yanaşmanın baza prinsipi ondan ibarətdir ki, əmək fəaliyyəti, iqtisadi fəallıq mümkün qədər bərpa olunsun, eyni zamanda insanların qapalı yerlərdə, çox sayda, uzun müddətdə toplaşması istisna edilsin.

Əvvəlki yumşalma mərhələlərində olduğu kimi bu dəfə də ikiistiqamətli və ikipilləli qərar qəbul olundu. Yəni, bir tərəfdən karantin rejiminin müddəti iyunun 15-dək uzadıldı, o biri tərəfdən də onun şərtləri yüngülləşdirildi. Beləliklə, 31 may 2020-ci il saat 00:00-dan xüsusi karantin rejimi çərçivəsindəki məhdudiyyətlərin bir qisminin aradan qaldırılmasına qərar verildi. Bu yumşalma mərhələsi Xüsusi Karantin Rejiminin ən sərt məhduduiyyətlərini aradan qaldırdı və onun mahiyyətini tamamilə dəyişdi: Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonunda dövlət qurumlarında işçilərin say həddinin məhdudlaşdırılması ləğv olundu, ölkə ərazisində iri ticarət mərkəzlərinin və "Mall"arın fəaliyyəti bərpa olundu (nəzdindəki uşaq və digər əyləncə mərkəzləri, kinoteatrlar, ictimai iaşə məkanlarının fəaliyyəti istisna olmaqla), açıq havada keçirilən idman yarışlarının tamaşaçıların iştirakı olmadan təşkilinə icazə verildi, Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu üzrə restoran, kafe, çay evlərində, eləcə də bütün ictimai iaşə məkanlarında müştərilərə yerində xidmət saat 08:00-dan 22:00-dək həyata keçirildi (ölkə üzrə bütün ictimai iaşə obyektlərində qəlyan avadanlıqlarından istifadə və 10 nəfərdən artıq toplaşmaqla kütləvi şənliklər, məclislərin təşkili istisna olmaqla).

Bundan əlavə, Azərbaycan Respublikasının dövlət sərhədində giriş-çıxışa tətbiq olunan məhdudiyyət 15 iyun 2020-ci il tarixinədək uzadıldı.

Karantin rejiminin yumşaldılması özünüqoruma vasitələrindən istifadə və fiziki məsafə saxlama tələbi üzərində nəzarətin gücləndirilməsi zərurətini daha da gücləndiridi. Bu səbəbdən də Nazirlər Kabinetinin maskalardan istifadəyə dair Qərarı imzalandı.

https://nk.gov.az/az/document/4468/

Qərarda xüsusi olaraq vurğulanır ki, bu tələblərin pozulması Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

**Yeddinci mərhələ: yumşaldılma ilə sərt tədbirin uzlaşdırılması**

Bütün dünyada başlanmış karantin rejiminin yumşaldılması prosesi bir çox ölkələrdə yoluxmanın sayının artmasına səbəb oldu.

Azərbaycanda da aprelin 27-də ilk dəfə xüsusi karantin rejiminin yumşaldılması haqda qərar qəbul edildikdən sonra yoluxma halları artmağa başladı.

Mayın 01-dən sonra yoluxma hallarının sayı sağalmanın sayını üstələdi. Ancaq, artıq qeyd etdiyimiz kimi yaradılmış səhiyyə infrastrukturu, görülmüş tədbirlər vəziyyəti nəzarətdə saxlamağa imkan verdiyi üçün "işləyərək qorunmaq" formulasına üstünlük verildi. Əhaliyə sərt karantin rejimi tətbiq etmədən özünü qorumaq haqda müraciətlər olundu, iş yerlərində, ticarət mərkəzlərində, ictimai iaşə mərkəzlərində və s. məkanlarda özünüqorumanın metodlarına dair təlimatlar işlənib hazırlandı və yayıldı.

Ancaq, yoluxma halları artmaqda davam edir və sağalma ilə yoluxma hallarının sayı arasında fərq artmağa başladı. Mayın son günlərində yoluxmanın sayı ikiyüzün, iyunun əvvəllində isə üçyüzün üzərində qalxdı.

Operativ Qərargah mütəxəssislərin – epidemioloqların, infeksionistlərin təklifi ilə sərt karantin rejimi ilə yumşaq karantin rejiminin qaydalarını növbələşdirməyi qərara aldı.

**Həftəsonu sərt karantin**

Nazirlər Kabinetinin iyunun 4-də imzalanmış "Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisində xüsusi karantin rejiminin sərtləşdirilməsi ilə

bağlı əlavə tədbirlər barədə" Qərarına əsasən növbəti həftəsonu – iyunun 6 və 7-də sərt karantin rejimi elan edildi.

https://nk.gov.az/az/document/4478/

Qərara əsasən Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisində xüsusi karantin rejiminin sərtləşdirilməsini təmin etmək üçün 2020-ci il 6 iyun saat 00:00-dan 8 iyun saat 06:00-dək ən zəruri fəaliyyət sahələri istisna olmaqla küçəyə çıxmaq qadağan edildi. Xüsusi təyinatlı, qəzabərpa, təcili tibbi yardım və fəaliyyətinə icazə verilmiş orqanlara (qurumlara) və təşkilatlara məxsus xidməti avtomobillər istisna olmaqla, bütün digər avtomobillərin və ictimai nəqliyyatın hərəkəti qadağan edildi.

Sərt karantindən əvvəlki gün kiçik anlaşılmazlıqlardan irəli gələn və ərzaq, xüsusilə çörək alışı ilə bağlı bəzi kiçik narahatlıqlar müşahidə olundu. Amma, bu hallar o qədər azsaylı idi ki, ümumi atmosferi müəyyənləşdirmirdi və əksəriyyətin təəccübünə səbəb olmuşdu.

İki gün ərzində Bakı, Sumqayıt, Abşeron, Lənkəran və Gəncə əhalisi sərt karantin rejiminin qaydalarına tam əməl etdilər. Bu, ağır günlərdə dövlətlə vətəndaş həmrəyliyinə bir nümunə sayıla bilər.

İyunun 09-da bütövlükdə ölkə üzrə karantin rejimi, habelə ölkəyə giriş-çıxış və beynəlxalq uçuşların qadağan olunması rejiminin müddəti iyulun 01-dək uzadıldı.

Nazirlər Kabinetinin 04 iyun Qərarı əsasında iyununun 13 və 14-də tətbiq edilən növbəti ikigünlük sərt karantin rejiminin tətbiq edildiyi rayonların siyahısına daha dörd rayon – Yevlax, Kürdəmir, Salyan və İsmayıllı rayonları əlavə edildi.

### Yenidən sərtləşdirilmiş karantin rejiminə qayıdış

İyunun ortasından etibarən karantin rejiminin yumşaldılması haqda qərar qəbul etmiş bütün ölkələrdə, o cümlədən Azərbaycanda yoluxmanın artması müşahidə olundu. Hətta yoluxma ilk dəfə sutkada 500-ün üzərində çıxdı.

Operativ Qərargah yenidən sərt karantin rejimini yenidən ikihəftəlik müddətdə tətbiq etmək məcburiyyətində qaldı. Bakı, Sumqayıt, Gəncə, Lənkəran, Yevlax, Masallı, Cəlilabad şəhərlərinin və Abşeron rayonunun ərazisində 2020-ci il 21 iyun saat 00:00-dan 5 iyul saat 06:00-dək aşağıdakı məhdudiyyətlər tətbiq edildi. Yenidən SMS-icazə sistemi tətbiq edildi.

İyulun 5-dən isə sərtləşmə bir qədər də gücləndirildi və əhatə dairəsi genişləndirildi. Sərtləşdirilmiş xüsusi karantin rejimi zonasına Mingəçevir, Goranboy, Göygöl şəhərləri və Bərdə, Samux, Siyəzən, Şəki, Xaçmaz rayonları əlavə olundu. Metropolitenin fəaliyyəti iyulun 20-dək, şənbə və bazar günləri isə 16 rayon üzrə – Bakı, Sumqayıt, Gəncə, Lənkəran, Yevlax, Masallı, Cəlilabad, Mingəçevir, Goranboy, Göygöl şəhərlərinin və Abşeron, Bərdə, Samux, Siyəzən, Şəki, Xaçmaz rayonlarının ərazisində, ictimai nəqliyyatın fəaliyyəti dayandırıldı.

Bundan əlavə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən Baş Nazir Əli Əsədovun sədrliyi ilə sərtləşdirilmiş xüsusi karantin rejiminin tətbiq edilmədiyi şəhər və rayonlarda əhalinin karantin tələblərinə əməl etməsi üzərində nəzarətin gücləndirilməsi ilə bağlı Operativ Qərargahın geniş tərkibli Respublika videomüşavirəsi keçirildi. Müşavirədə sərtləşdirilmiş xüsusi karantin rejimi tətbiq edilməyən bölgələrdəki epidemioloji vəziyyət müzakirə olundu, karantin qaydalarının icra vəziyyəti qiymətləndirildi. Baş Nazir karantin rejiminin yumşaldılması nəticəsində bir sıra şəhər və rayonlarda pozuntuların artmasının müşahidə olunduğunu qeyd etdi.

Əhali tərəfindən sanitar-epidemioloji qaydalara riayət edilməsi üçün nəzarətin gücləndirilməsinə ehtiyac olduğunu bildirildi. Baş Nazir rayonlardakı vəziyyətlə bağlı dəqiq statistikanın aparılmasının, yoluxmanın daha çox qeydə alındığı yerlərə nəzarətin, dezinfeksiya və koronavirus xəstələri üçün ayrılmış xəstəxanalarda utilizasiya işlərinin gücləndirilməsinin vacibliyini vurğuladı.

Beləliklə, Azərbaycanda koronavirusa qarşı mübarizə özünün ən sərt mərhələsinə qədəm qoydu.

### Koronavirusa Qarşı Mübarizə Fondu

Qabaqlayıcı addımlar sırasında ümumxalq səfərbərliyi və həmrəyliyinin bir nümunəsi olan, Prezident İlham Əliyevin 19 mart 2020-ci il tarixdə imzaladığı Fərmana əsasən Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradıldı.

Prezident Ilham Əliyevin növbəti Fərmanı ilə Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Koronavirusla Mübarizəyə Dəstək Fonduna ilkin olaraq 20,0 (iyirmi) milyon manat pul vəsaiti ayrıldı. Fondun vəsaitinin şəffaf şəkildə istifadəsinə nəzarət və vəsaitdən istifadə barədə ictimaiyyətin mütəmadi məlumatlandırılması məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında ictimaiyyəti təmsil edən 5 (beş) və Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahı təmsil edən 2 (iki) nümayəndə daxil olmaqla 7 (yeddi) üzvdən ibarət Koronavirusla Mübarizəyə Dəstək Fondunun İctimai Nəzarət Şurası yaradıldı.

İctimaiyyətin bütün təbəqələrindən olan vətəndaşlar, hüquqi və fiziki şəxslər, sahibkarlar ölkə üçün çətin sınaq dövründə həmrəylik nümayiş etdirərək Koronavirusla Mübarizə Dəstək Fonduna könüllü ödəmələr həyata keçirir və 18 iyun 2020-ci il tarixində Fonda edilən ianələrin ümumi məbləği 113 milyon 518 min 674 manat, 157 min ABŞ dolları, 87,5 min avro və 150 min rubl təşkil edir, həmçinin ianələrin məbləğindən və ödənişi həyata keçirənin sosial statusundan asılı olmayaraq Fonda toplanan vəsaitlər haqqında məlumatlar ictimaiyyətə açıqdır və gündəlik olaraq rəsmi internet saytında (http://covid19fund.gov.az/az/) yerləşdirilir.

### Yerli istehsalın təşkili və Pandemiya dövrünün infrastrukturunun yaradılması

Əvvəldə qeyd etdiyimiz kimi dünyanın heç bir dövləti belə bir Pandemiyaya nə səhiyyə infrastrukturu, nə müalicə üsulları, nə də zəruri məhsulların istehsal həcmi baxımından hazır deyildi.

Qoruyucu və dezinfeksiyaedici məhsullara tələbatın bütün dünyada yüz dəfələrlə artması qlobal miqyasda qıtlığın yaranmasına səbəb olmuşdu. İstehsal müəssisələrinin maksimum gücü ilə çalışmasına baxmayaraq tələbatı ödəmək mümkün olmurdu. Bir tərəfdən, zəruri məhsulların bazar qiyməti artır, o biri tərəfdən də dövlətlər öz milli təhlükəsizliklərini təmin etmək üçün bu məhsulların ixracına məhdudiyyətlər tətbiq edirdilər.

Ölkə ərazisindən müxtəlif yollarla bəzi tibbi ləvazimat və preparatların kütləvi şəkildə aparılması halları da aşkar edilmişdi.

Bu səbəbdən Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən yeni koronavirusla (2019-nCoV) mübarizədə istifadə olunan bəzi tibbi ləvazimat və preparatların (steril əlcək, baxil, tibbi maska və eynəklər, dezinfeksiyaedici maddə və avadanlıqlar, xüsusi geyimlər və zəruri olan digər tibbi ləvazimat və preparatlar) Azərbaycan Respublikasının ərazisindən aparılmasının məhdudlaşdırılması ilə bağlı 14 fevral 2020-ci il tarixdə qərar qəbul edilmişdir. https://nk.gov.az/az/document/4269/

Koronavirus (COVID-19) pandemiyasının qarşısının alınması istiqamətində ölkə başçısı tərəfindən görülmüş digər tədbirlərdən biri də 27 mart 2020-ci il tarixli Prezident Fərmanı oldu. https://president.az/articles/36253

Bu Fərmana əsasən 1 iyun 2020-ci il tarixədək baxillərin, steril və qeyri-steril əlcəklərin, tibbi (cərrahiyyə əməliyyatı və ya prosedur üçün) maskaların və respiratorların idxalı əlavə dəyər vergisindən azad edilmişdir.

Nazirlər Kabinetinin 25 mart 2020-ci il tarixli qərarı ilə tibbi maskaların istehsalında istifadə olunan xammal gömrük rüsumlarından azad olundu.

https://nk.gov.az/az/document/4350/

Qoruyucu vasitələrin istehsalı üçün dövlətin vəsaitləri əsasında güzəştli kreditlər təklif olundu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanımı Mehriban Əliyeva aprelin 6-da Sumqayıt Kimya Sənaye Parkında “Bakı Tekstil Fabriki” MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisə-

sinin açılışını etdilər. Bu müəssisənin gündəlik maksimum istehsal gücü 250 min tibbi maskadır.

Mayın 12-də isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Sumqayıtda "Gilan Tekstil Park" Məhdud Məsuliyyətli Cəmiyyətinin tibbi maska fabrikinin və tikiş fabrikinin nəzdində fəaliyyət göstərən qoruyucu kombinezonların istehsalı müəssisəsinin açılışını etdilər. Bu fabrikin maksimal istehsal gücü sutkalıq 300 min tibbi maskadır.

Bununla da "Bakı Tekstil Fabriki" MMC ilə "Gilan Tekstil Park"ın birlikdə maksimum istehsal gücü gündəlik 500 min maskadır. Bu ölkəmizin ehtiyaclarını ödəmək üçün kifayətdir. Ən çox tələbat olan günlərdə ölkə üzrə təqribən 800 min (belə günlər 2-3 dəfə müşahidə olunub – *İ.M.*), yerdə qalan günlərdə isə orta hesabla gündəlik satış 350 min ilə 500 min arasında olub.

Eyni zamanda, karantin dövründə tibbi maska idxalı da davam etdirilir. İdxal olunan maskaların daxili bazarda 30 qəpikdən yuxarı qiymətə satılması qadağan olunduğu üçün idxal qiyməti ilə satış qiyməti arasındakı fərqi hökumət idxalçı şirkətlərə ödətdirir.

May və iyun aylarında hökumətin 10 milyonla 15 milyon arasında maska ehtiyatı olub və bu gün də var.

Bundan başqa, "Bakı Tekstil Fabriki" MMC-də birdəfəlik istifadə üçün qoruyucu kombinezonların da istehsalına başlanılıb. Burada gün ərzində 6 min ədəd qoruyucu kombinezonun istehsalı nəzərdə tutulur.

Aprelin 07-də Azərbaycan Respublikasının Prezidentinin "Koronavirus pandemiyası ilə mübarizənin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncamı ilə koronavirus pandemiyasına qarşı mübarizə sahəsində ölkədə həyata keçirilən səhiyyə tədbirləri çərçivəsində tibb müəssisələrinə və tibbi avadanlığa artan tələbatın qarşılanması və infeksiyaya yoluxmuş xəstələrin müalicəsinin səmərəli təşkili məqsədilə hər birində 200 çarpayı olan modul tipli xəstəxanların quraşdırılması məqsədilə 14,8 milyon manat ayrıldı.

Sərəncamın icrası ilə əlaqədar dərhal ölkə modul tipli yeni xəstəxananın tikintisinə başlanılmış və 08 may 2020-ci il tarixdə Bakı şəhərində ilk modul tipli xəstəxananın tikintisi və quraşdırılma işləri tamamlandı. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva ilk modul tipli xəstəxananın açılışını etdilər.

Bu tipli xəstəxanaların sayı artırılaraq, daha biri Bakı şəhərində, digərləri isə Gəncə, Sumqayıt, Abşeron, Şəki, İsmayıllı, Qəbələ, Qobustan və Şamaxıda quraşdırılacağı planlaşdırıldı.

İyulun 07-dək Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva 6 modul tipli xəstəxananın açılışını etdi.

Komplekslər müəyyən edilən şəhər və rayonlardakı mövcud xəstəxanaların yaxınlığında quraşdırılaraq onlara təhkim edilməli, bu da koronavirus xəstələrinin lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetməni və tibbi koordinasiyanı təmin edəcəkdir.

Prezident modul tipli xəstəxanaların tikilməsinin 3 strateji hədəfə hesablandığını dedi: 1) Koronavirusla bağlı hadisələri qabaqlamaq, hadisələrdən öndə olmaq, 2) çevik şəkildə çoğrafi məkanı və profili dəyişməklə başqa mümkün səhiyyə problemlərini önləmək potensialının formalaşdırılması, 3) müasir texnologiyanın tətbiqi və nəhayət, 4) ən çətin situasiyalara hazır olmaq.

### Tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi

Yeni növ koronavirus (COVİD-19) infeksiyası ilə mübarizə və profilaktika tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə ölkə 18 mart 2020-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən Sərəncam qəbul edildi.

https://president.az/articles/36210

Bu Sərəncamla koronavirus (COVİD-19) infeksiyası ilə əlaqəli əmək şəraitinə görə dövlət tibb müəssisələrində çalışan işçilərin

əməkhaqlarına aylıq vəzifə (tarif) maaşının 3–5 mislitək miqdarda müddətli artırılması müəyyən edildi və Azərbaycan hökumətinə tapşırıq verildi ki, bu əlavənin şamil olunacağı tibb işçilərinin əhatə dairəsini, əlavənin ödənilmə müddətini və işin xüsusiyyətindən asılı olaraq miqdarını, həmçinin yeni növ koronavirus (COVİD-19) infeksiyası ilə mübarizə tədbirlərinə cəlb edilən özəl tibb müəssisələrində çalışan tibb işçilərinin və könüllülərin əməyinin ödənilməsi şərtlərini müəyyən etsin.

Qeyd olunan Sərəncamın icrası ilə əlaqədar 25 mart 2020-ci il tarixdə Nazirlər Kabineti tərəfindən Qərar qəbul edilmişdir.

https://nk.gov.az/az/document/4349/

Həmin Qərara əsasən dövlət tibb müəssisələrində çalışan işçilərin əməkhaqlarına müddətli əlavənin məbləği müəyyən edildi:

– tibbi profilaktik tədbirləri həyata keçirən işçilərə – aylıq vəzifə (tarif) maaşının 3 misli;

– təcili tibbi yardım xidməti göstərən tibb işçilərinə, həmçinin bioloji materialın müayinəsi ilə məşğul olan laboratoriya işçilərinə, o cümlədən Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin və Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun işçilərinə - aylıq vəzifə (tarif) maaşının 4 misli;

– pasiyentlərə stasionar tibbi xidmət göstərən işçilərə – aylıq vəzifə (tarif) maaşının 5 misli.

**Milli Məclisin fəaliyyətinin vəziyyətə uyğunlaşdırılması**

Bundan başqa yaranmış vəziyyətdə 17 aprel 2020-ci il tarixdə "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Qanuna əlavələrin edilməsi zərurəti yaranmışdı.

Həmin əlavələrə əsasən karantin rejiminin tətbiq edilməsi, sanitar-epidemioloji və bu kimi digər tədbirlərlə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin 42 deputatının müraciəti əsasında Azərbaycan Respublikası Milli Məclisinin Sədrinə komitələrin iclaslarının müəyyən dövr üçün real vaxt rejimində videokonfrans sistemi vasitəsilə keçirilməsi barədə sərəncam qəbul etmək səlahiyyəti verilmişdir.

Vacib tədbirlərdən biri də vətəndaşların həqiqi hərbi xidmətə çağırışı ilə bağlı idi.

Məsələ ilə bağlı 30 mart 2020-ci il tarixdə yeni Qanun qəbul edilmişdir. Həmin Qanuna əsasən vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırışının müddəti 2020-ci il aprel ayının 1-dən may ayının 31-dək uzadılmışdır. Ötən illər ərzində qanunla çağırış üçün müddət bir ay (aprel ayı) müəyyən edilirdi.

**Məsuliyyət tədbirləri**

"Koronavirus (COVID-19) pandemiyası dövründə məhdudlaşdırma, iqtisadi və sosial tədbirlərlərlə yanaşı, bu sahələrin təminatında vətəndaşların və vəzifəli şəxslərin məsuliyyət dairəsi də müəyyən edilmişdir.

Belə ki, İnzibati Xətalar Məcəlləsinə 2020-ci il 17 mart, 30 mart və 24 aprel tarixli müvafiq Qanunlarla bir sıra əlavələr edilmişdir.

Onlar aşağıdakılardan ibarətdir:

– epidemiya əleyhinə rejimin, sanitar-gigiyena və karantin rejimlərinin pozulması ilə bağlı maddənin başlığına və dispozisiyasına karantin rejimi əlavə edilməklə vəzifəli şəxslərin məsuliyyət dairəsi müəyyən edilmiş (yüksək məbləğdə cərimə, həmçinin inzibati həbs);

– inzibati xətalar haqqında işlər üzrə icraatın başlanması haqqında qərarın prokuror tərəfindən qəbul edilən işlər sırasına "Məşğulluq haqqında" Qanunun müvafiq tələblərinin dövlət və yerli özünüidarəetmə orqanları tərəfindən pozulmasına görə aid işlər də daxil edilmiş;

– işsizlikdən sığorta haqqında qanunvericiliyin pozulmasına dair maddənin dispozisiyasında sığortaedənin üzərinə daha geniş vəzifələr qoyulmuşdur.

Cinayət Məcəlləsinə də 17 mart 2020-ci il tarixli Qanunla yeni maddə əlavə edilmişdir.

Həmin maddəyə əsasən epidemiya əleyhinə rejimin, sanitar-gigiyena və ya karantin rejimlərinin pozulması xəstəliklərin yayılmasına səbəb olduqda və ya xəstəliklərin yayıl-

ması üçün real təhlükə yaratdıqda, həmçinin eyni əməllər ehtiyatsızlıqdan insan ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda şəxsin cərimə, azadlığın məhdudlaşdırılması və ya azadlıqdan məhrumetmə ilə cəzalandırılması nəzərdə tutulmuşdur.

Koronavirus təhlükəsindən qorunmağa paralel olaraq ictimai və iqtisadi fəallığın artması karantin rejiminin tələblərinə nəzarətin gücləndirilməsini də aktuallaşdırdı. Rejimin yumşaldılması prosesində təcrübə göstərdi ki, qapalı iş yerlərində yoluxmanın miqyası artır. İqitsadi fəallığın saxlanması ilə artımın qarşısını almağın yeganə yolu isə nəzarətin gücləndirilməsi idi.

Milli Məclis İnzibati Xətalar Məcəlləsinə iyunun 02-də etdiyi dəyişiklik karantin rejiminin tələblərinə riayət olunmasına nəzarəti gücləndirmək üçün hüquqi əsas yaratdı.

Dəyişikliyə əsasən "epidemiya əleyhinə rejim, sanitar-gigiyena və karantin rejimləri dövründə fərdi qoruyucu vasitələrdən istifadə ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən tələblərin pozulmasına, habelə vəzifəli şəxslər və hüquqi şəxslər tərəfindən həmin tələblərin pozulmasının qarşısının alınmamasına görə – fiziki şəxslər əlli manat məbləğində, vəzifəli şəxslər yüz manat məbləğində, hüquqi şəxslər iki yüz manat məbləğində cərimə edilir".

Bundan əlavə "nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə –fiziki şəxslər yüz manat məbləğində, vəzifəli şəxslər iki yüz manat məbləğində, hüquqi şəxslər dörd yüz manat məbləğində cərimə edilməsi" nəzərdə tutulur.

### Pandemiya dövründə ölkənin iqtisadi vəziyyəti

Pandemiya dövrü qlobal iqtisadiyyata böyük zərbə vurdu. Qlobal iqtisadiyyatda resessiyanın başlanacağı proqnozlaşdırılır. Proqnozlara görə 2020-ci ildə dünya iqtisadiyyatı 3%, ABŞ iqtisadiyyatı 5.9%, avro zona iqtisadiyyatı 7.5% azalacaq. İl ərzində inkişaf etmiş iqtisadiyyatlarda azalmanın 6.1% olacağı gözlənilir.

https://www.imf.org/en/Publications/WEO/Issues/2020/04/14/weo-april-2020

Azərbaycanda ilin ilk iki ayında iqtisadi artım müşahidə olundu. Gərginliyə baxmayaraq, makroiqtisadi sabitlik qorunur, manatın məzənnəsi sabitdir, istehlak bazarında qiymətlər sabitdir, ərzaq ehtiyatı tam təmin olunur, kənd təsərrüfatı məhsullarının istehsalı təşkil olunur, tranzit yüklərin daşınması davam edir, şirkətlərin itkiləri dövlətin yardımı ilə minimallaşdırılır, əhalinin aztəminatlı təbəqəsinin sosial müdafiəsi gücləndirilir.

Bütün bu qlobal vəziyyətin, eləcə də ölkəmizdə karantin rejiminin tətbiqi milli iqtisadiyyatımızın azalacağını göstərir. Odur ki, Prezident İlham Əliyev hökumətə dövlət xərclərinə yenidən baxılması, prioritet olmayan xərclərin ixtisar edilməsi, xərclərə ciddi nəzarət olunması, yeni gəlir mənbələri aşkar edilməsi haqda tapşırıqlar verdi.

Prezidentin tələb etdiyi formula belədir: dövlət xərcləri maksimum azaldılır, kölgə iqtisadiyyatı üzərinə maksimum təzyiq göstərilir və şəffaflıq və dövlət xərclərinin azaldılması hesabına əldə olunan vəsait imkansız vətəndaşların dəstəklənməsinə yönəldilir.

Pandemiya ilə bağlı problemlərə baxmayaraq Prezident 2020-ci ilin də dərin islahatlar ili olacağını bəyan edib:

"Pandemiya bir daha göstərdi ki, uğurlu inkişaf üçün iqtisadiyyat dayanıqlı olmalıdır. Buna nail olmaq üçün mütləq bütün sahələrdə islahatlar aparılmalıdır – həm iqtisadi-sosial sahədə, eyni zamanda, siyasi sahədə. Mən hesab edirəm ki, siyasi islahatların aparılması bundan sonra da bizim imkanlarımızı daha da genişləndirəcək. Biz bu islahatların gözəl nəticələrini görürük. Azərbaycan bundan sonra da demokratik inkişaf istiqamətində önəmli addımlar atacaq. Bizim kifayət qədər güclü siyasi iradəmiz var. Biz görürük ki, siyasi və iqtisadi islahatlar paralel aparılarkən doğrudan da böyük uğurlara imza ata bilərik. Struktur islahatları aparılıb və hesab edirəm ki, struktur

islahatlarının davam etdirilməsi məsələlərinə yenə də baxmalıyıq”.

Prezident milli valyutanın məzənnəsi də daxil olmaqla makroiqtisadi sabitliyin qorunmasını hökumət qarşısında mühüm tapşırıq kimi qoyub.

Prezidentin islahatlarla bağlı çox mühüm bəyanatlarından biri də iqtisadiyyatda liberallaşmanın dərinləşdirilməsi haqdadır. Prezidentin bu sözləri iqtisadi strategiyanın mahiyyətini dəqiq ifadə edir: “Biz iqtisadi liberallaşmaya daha inamla getməliyik və investisiyalar üçün bütün sahələr bizdə açıq olmalıdır. Biz həm yerli investorları, həm xarici investorları inandırmalıyıq ki, onların investisiyaları səmərə verəcək, onlara gəlir gətirəcək”. Prezidentin siyasi iradəsi göstərir ki, iqtisadi siyasətin bütün prinsipləri qeyri-neft sektorunun, yerli sahibkarla yanaşı xarici investorun cəlb edilməsi üçün zəruri olan şərtlərə uyğunlaşdırılacaq.

Karantin rejimində kənd təsərrüfatı işlərinin davam etdirilməsi ərzaq təhlükəsizlyi üçün çox mühümdür. Prezident bununla bağlı qarşımıza tapşırıq qoydu: “Karantin rejimi kənd təsərrüfatı işlərinə mane olmamalıdır. ...bütün şərait yaradılmalıdır ki, kənd təsərrüfatı sahəsində karantin rejimi bizə problem yaratmasın və insanların gediş-gəlişi təmin edilsin”.

Kənd təsərrüfatında istehsalın səviyyəsini qaldırmaq üçün Prezident ehtiyat fondundan 30 milyon manat vəsat ayrılmasını tapşırıb. Prezidentin tapşırığı ilə bu vəsait Mikrokreditlərin verilməsinə sərf ediləcək.

### İqtisadi itkilərə məruz qalan sektorlara və aztəminatlı əhaliyə dəstək verilməsi

Pandemiya dünya iqtisadiyyatına mənfi təsir göstərməklə yanaşı, həmçinin bəzi sektorlar da daha çox ziyana məruz qaldı. Belə sektorların məruz qaldığı itkilərin minimallaşdırılması və işsiz vətəndaşların sosial müdafiəsinin təşkili üçün Prezident İlham Əliyev 19 mart 2020-ci il tarixli Sərəncam imzaladı.

Həmin Sərəncamla 2020-ci il ərzində bütün dünyada sürətlə yayılan Yeni növ koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyin, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsindən Azərbaycan Respublikasının Nazirlər Kabinetinə 1,0 (bir) milyard manat pul vəsaiti ayrıldı və Pandemiyanın Azərbaycan Respublikasının iqtisadiyyatına təsirini qiymətləndirmək üçün Azərbaycan Respublikası İqtisadiyyat nazirinin, Maliyyə nazirinin, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin, Mərkəzi Bankının sədrinin rəhbərliyi ilə ayrı-ayrı İşçi Qrupları yaradıldı.

İqtisadiyyat nazirinin rəhbərliyi ilə yaradılan İşçi Qrupa tapşırıldı ki,

– pandemiyadan zərər çəkməsi ehtimal olunan iqtisadi fəaliyyət sahələrinin və bu sahələrdə fəaliyyət göstərən hüquqi şəxslərin və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxslərin siyahısını müəyyən etmək üçün müvafiq meyarları təsdiq etsin və həmin meyarlar üzrə, mütəmadi olaraq, hüquqi və fiziki şəxslərin ehtimal olunan zərərinin məbləğini müəyyən etsin;

– pandemiyanın yaxın və orta müddətlərdə ölkənin biznes mühitinə mənfi təsirini azaltmaq, habelə bu dövrdə ölkədə iqtisadi artımın davam etməsinə dəstək göstərmək məqsədilə müvafiq təkliflər hazırlasın;

Maliyyə nazirinin rəhbərliyi ilə yaradılmış İşçi Qrupuna tapşırıldı ki,

– pandemiyadan zərər çəkməsi ehtimal olunan iqtisadi fəaliyyət sahələrinə, həmçinin sahibkarlıq fəaliyyəti göstərən hüquqi və fiziki şəxslərə dövlət dəstəyinin göstərilməsi barədə təkliflər hazırlasın.

Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin rəhbərliyi ilə yaradılmış İşçi Qrupuna tapşırıldı ki,

– pandemiyadan zərər çəkməsi ehtimal olunan iqtisadi fəaliyyət sahələrində çalışan

muzdlu işçilərin sosial müdafiəsi və onlara dövlət dəstəyinin göstərilməsi;

– yaxın və orta müddətdə məşğulluq tədbirlərinin gücləndirilməsi;

– pandemiyanın Azərbaycan Respublikasının iqtisadiyyatına ehtimal olunan mənfi təsirindən ölkədə yarana biləcək məşğulluq problemlərinin və sosial problemlərlə əlaqədar ölkə əhalisinin aztəminatlı hissəsinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı təkliflər hazırlasın.

Mərkəzi Bankının sədrinin rəhbərliyi ilə yaradılmış İşçi Qrupuna tapşırılmışdır ki,

– pandemiyanın Azərbaycan Respublikasının bank sektoruna və makroiqtisadi mühitinə ehtimal olunan mənfi təsirlərinin qiymətləndirilməsini həyata keçirsin;

– Azərbaycan manatının məzənnəsinin və istehlak qiymətlərinin sabitliyinin dəstəklənməsi və ölkədə makroiqtisadi sabitliyin qorunub saxlanması üçün həyata keçirilməli əlavə tədbirlərlərlə bağlı təkliflərini hazırlasın.

İşçi Qruplardan daxil olan məlumatların mütəmadi müzakirəsini təşkil etmək, onların fəaliyyətini əlaqələndirmək, verilmiş təklifləri ümumiləşdirərək Vahid Tədbirlər Planını təsdiq etmək, dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların ölkə iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün ayrılacaq vəsaitin mənbəyi barədə təkliflər hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək, Vahid Tədbirlər Planında müəyyən olunacaq tədbirlərin maliyyələşdirilməsinə yönəldilməsini təmin etmək isə Nazirlər Kabinetinə tapşırıldı.

### Vahid Tədbirlər Planında nəzərdə tutulan yardımın təməl prinsipləri

Aprelin 06-da Vahid Tədbirlər Planı Nazirlər Kabineti tərəfindən təsdiqləndi.

Bu Planın təməl prinsiplərindən birincisi ondan ibarətdir ki, dövlət tərəfindən göstərilən bütün yardımlar ünvanlıdır: 1) kiçik və orta sahibkarlar; 2) muzdlu işçilər; 3) işsizlər; 4) tənha ahıllara sosial xidmətçilər (65 yaşdan yuxarı).

İkinci təməl prinsip ondan ibarətdir ki, bu yanaşma sosial müdafiə ilə iqtisadi dayanıqlılığı uzlaşdırma metoduna söykənir: resursları kiçik, orta və mikro, fərdi sahibkarlığın dəstəklənməsinə yönəldir ki, iş yerləri ixtisara düşməsin və eyni zamanda muzdlu işçilər də dəstəklənsin. Yəni sahibkarla muzdlu işçi eyni zamanda dəstəklənir, iqtisadi sabitliklə sosial müdafiə bir paketdədir. Bu ya sahibkarı, ya ayrıca muzdlu işçini dəstəkləmək kimi ifrat liberal, və yaxud da ifrat sosial yanaşmadan fərqli olan optimal bir formanın tapılmasıdır. Həm sahibkar, həm də muzdlu işçi dəstəklənir və ictimai-iqtisadi konsensus əldə edilmiş olunur.

### Vergi güzəştləri və tətilləri

Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə (o cümlədən kiçik və orta sahibkarlığa) aşağıdakı vergi güzəştlərinin və tətillərinin verilməsi nəzərdə tutulur:

– mikro sahibkarlıq subyektlərinə sadələşdirilmiş vergi üzrə müddətli güzəştin verilməsi;

– əmlak və torpaq vergisindən müddətli azadolmaların verilməsi;

– vergi ödəyicilərinə mənfəət (gəlir) vergisi və sadələşdirilmiş vergi üzrə müddətli güzəştlərin verilməsi;

– mənfəət (gəlir) və əmlak vergisi üzrə cari vergi ödəmələrindən müddətli azad edilməsi;

– mikro sahibkarlıq subyektləri üzrə hesabatların (gəlir, mənfəət, əmlak və sadələşdirilmiş vergi) verilməsi və vergilərin ödənilməsi müddətinin uzadılması;

– pandemiyanın mənfi təsir etdiyi iqtisadi fəaliyyət sahələri üzrə vergilərin ödənilməsi müddətinin uzadılması;

– əhalinin ərzaq və tibbi ehtiyacları üçün zəruri olan bəzi məhsul növlərinin idxalının ƏDV-dən müddətli azad edilməsi;

– əhalinin ərzaq, tibb və digər zəruri məhsullara olan tələbatının qısa müddətdə ödənilməsi məqsədilə bəzi məhsul növlərinin istehsalı ilə bağlı xammal və materialların idxalının ƏDV-dən azad edilməsi;

– epidemiyanın qarşısının alınması və əhalinin həyat və sağlamlığının qorunması məqsədilə vergi ödəyicisi tərəfindən həyata keçirilən zəruri profilaktik, o cümlədən dezinfeksiya tədbirlərinə görə çəkilmiş xərclərin gəlirdən çıxılması;

– icarə haqqından tutulan vergilər üzrə güzəştin verilməsi;

– ödənilməmiş vergi, məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarına görə faizlərin hesablanmasının müəyyən müddətə təxirə salınması;

– bir sıra sahibkarlıq subyektlərinin sosial sığorta yükünün azaldılması.

**Kredit-zəmanət dəstəyi**

Vahid Tədbirlər Planında Pandemiya dövründə iqtisadi itkilərə məruz qalmış sektorlardakı şirkətlərə kredit-zəmanət dəstəyinin verilməsi də nəzərdə tutulur. Bu dəstək paketində:

– Yeni verilən 500 milyon manat həcmində kreditlərin 60%-nə dövlət zəmanətinin verilməsi;

– Zəmanət verilən kreditlər üzrə faiz dərəcəsinin 50%-nin dövlət büdcəsi hesabına subsidiyalaşdırılması;

– Kreditlərin maksimal faiz dərəcəsi, müddəti, fəaliyyət sahələri üzrə əhatə dairəsi və digər meyarların müəyyənləşdirilməsi;

– Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən aqrar sektorda girovsuz mikrokreditlərin verilməsi üzrə mexanizmin yaradılması;

– Sahibkarlığın İnkişafı Fonduna əlavə vəsaitlərin ayrılması;

– Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin (o cümlədən kiçik və orta sahibkarlığın) 2020-ci il 10 mart tarixinə 1 mlrd.manat həcmində mövcud kredit portfeli üzrə kredit faizlərinin subsidiyalaşdırılması;

– 2020-ci il 10 mart tarixinə dövlət zəmanəti olmayan mövcud bank kreditlərinin faiz dərəcəsinin bir il üzrə 10%-in subsidiyalaşdırılması;

– Güzəştli ipoteka kreditləri üçün ayrılan vəsaitlərin həcminin artırılması;

– Həyati vacib sərnişindaşıma sahəsinə maliyyə dəstəyinin verilməsi kimi çox təsirli tədbirlər nəzərdə tutulur.

Aprelin 25-də Mərkəzi Bank pandemiyadan təsirlənmiş sahələrə kreditlə bağlı ediləcək güzəştlərə dair paketi açıqlayıb. Belə ki, pandemiyadan təsirlənmiş sahələrdə fəaliyyət göstərən özəl biznes subyektlərinə, o cümlədən sahibkarlıqla məşğul olan fiziki şəxslərə kredit təşkilatları tərəfindən verilmiş, 01 mart 2020-ci il tarixinə keyfiyyəti qənaətbəxş olan və kredit faizləri dövlət tərəfindən subsidiyalaşdırılacaq kreditlərin restrukturizasiyasına imkan yaradılacaq.

**Özəl biznes sahəsində:**

Banklar tərəfindən sahibkarların müraciəti və qarşılıqlı razılaşma əsasında bu kreditlərin müddəti artırıla bilər. Bu halda borcalanın maliyyə vəziyyətindən və kreditin restrukturizasiya edilməsindən asılı olmayaraq kreditin keyfiyyəti 30 sentyabr 2020-ci ilədək pisləşdirilməyəcək.

01 mart 2020-ci il tarixinə keyfiyyəti qənaətbəxş olan və Dövlət fondlarının vəsaitləri hesabına verilmiş biznes təyinatlı kreditlərin restrukturizasiya imkanlarının yaradılması nəzərdə tutulur. Bu tədbir nəticəsində Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri hesabına verilmiş 1 mlrd. manat həcmində biznes kreditləri üzrə 10 minə yaxın iş adamının güzəştlərdən faydalanması üçün imkan yaranacaqdır.

Fiziki şəxslərin (sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan) dəstəklənməsi istiqamətində Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaitləri hesabına verilmiş ipoteka kreditlərinin restrukturizasiya imkanları yaradılacaqdır. Bu tədbir nəticəsində:

– 1.1 mlrd. manat həcmində ipoteka krediti üzrə 23 min nəfərə yaxın borcalanın faydalanması üçün imkan yaranacaq;

– Kreditlər borcalanların müraciəti əsasında restrukturizasiya olunacaq;

– 01 mart 2020-ci il tarixinədək verilmiş və keyfiyyəti qənaətbəxş olan belə kreditlərin restrukturizasiyası 30 sentyabr 2020-ci ilədək həyata keçirildiyi halda onların keyfiyyəti pisləşdirilməyəcək;

Eyni zamanda, bankların öz vəsaitləri hesabına ipoteka kreditləşməsini stimullaşdırmaq məqsədilə bu kateqoriyadan olan kreditlər üzrə risk dərəcələrinin 100%-dən 50%-dək azaldılması barədə qərar qəbul edilib.

Biznes və istehlak təyinatlı kreditlərin (əsas və ya faiz borcu) tam və ya qismən gecikdirilməsi halında 30 sentyabr 2020-ci ilədək borcludan cərimə faizi, dəbbə pulu və digər ödənişlərin tutulmaması kredit təşkilatlarına tövsiyə ediləcəkdir və bu zaman borcalanların kredit tarixçəsi pisləşdirilməyəcəkdir. Bu müddət ərzində kredit təşkilatları tərəfindən əsas borc üzrə faizlərin hesablanması davam etdiriləcək və borcalanlar tərəfindən kredit təşkilatlarına ödənilməsi təmin edilməlidir.

Bəzi iqtisadi sahələrin kredit resurslarına çıxış imkanlarının artırılması istiqamətində tibbi ləvazimat və avadanlıqlar istehsalçılarına verilən kreditlərin risk səviyyəsi 100%-dən 20%-ə qədər azaldılacaq və beləliklə bu sahəyə banklar tərəfindən daha ucuz və daha az kapital sərf etməklə kredit ayırmağa imkan yaradılacaq.

İqtisadi aktivliyin azalması, biznes və ev təsərrüfatlarının gəlirlərinin aşağı düşməsinin ödəniş xidmətlərindən istifadə göstəricilərinə mənfi təsir etməsini nəzərə alaraq nağdsız ödəniş xidmətlərinin stimullaşdırılması və xərclərin azaldılması məqsədilə 30 sentyabr 2020-ci il tarixinədək banklararası ödəniş sistemlərində banklardan tutulan xidmət haqlarının 50%-ə qədər endirilməsi və bank müştərilərinə göstərilən ödəniş xidmətləri üzrə tariflərin analoji qaydada azaldılması, eləcə də sahibkarların ödəniş kartlarının qəbulu üzrə tariflərinin 50%-ə qədər endirilməsi tədbirləri nəzərdə tutulur.

**Sığorta sahəsində** tədbirlərə gəldikdə isə:

Könüllü sığorta müqavilələri üzrə karantin rejimindən birbaşa təsirlənən sığortalılara sığorta haqlarının ödənilməsində 30 sentyabr 2020-ci il tarixinə kimi möhlət verilməsi, habelə sığorta xidmətlərinin elektron vasitələrdən effektiv istifadə etməklə göstərilməsi sığortaçılara tövsiyə edilmişdir.

Karantin rejimindən birbaşa təsirlənən sığortalılar üzrə sığorta haqlarının ödənilməsində veriləcək möhlətlər ilə bağlı olaraq sığorta şirkətlərinə münasibətdə ilin sonunadək müvafiq requlyativ yumşalmalar tətbiq ediləcəkdir.

Mərkəzi Bank tərəfindən koronavirus pandemiyasının kapital bazarı iştirakçılarına yaranmış vəziyyətin mənfi təsirinin azaldılması istiqamətində də tədbirlərin həyata keçrilməsi nəzərdə tutulur.

**Sosial müdafiə sahəsində**

"Koronavirus (COVID-19) pandemiyası dövründə məhdudlaşdırma tədbirlərinin tətbiqi ilə yanaşı sosial vəziyyəti tənzimləyən bir sıra qərarlar da qəbul edilmişdir.

Belə ki, ölkə Prezidentinin tapşırığına əsasən Nazirlər Kabineti tərəfindən 7 aprel 2020-ci il tarixdə vətəndaşların sosial müdafiəsi istiqamətində üç mühüm Qərar imzalandı.

– Koronavirus (COVİD-19) pandemiyası ilə mübarizə şəraitində dövlət məşğulluq xidməti qurumlarında işsiz kimi qeydiyyata alınmış şəxslərin sosial müdafiəsi haqqında – 129 №-li Qərar

– Yeni növ koronavirus (COVID-19) pandemiyası ilə mübarizə şəraitində əlilliyi olan şəxslərin əlillik müddətinin uzadılması barədə - 128 №- li Qərar

– "Koronavirus (COVID-19) pandemiyası dövründə xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin verilməsi şərtləri və qaydası"nın təsdiq edilməsi barədə - 127 №-li Qərar

129 №-li Qərar Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Məşğulluq" altsistemində işsiz kimi qeydiyyatda olan şəxslərə koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar xüsusi karantin rejiminin tətbiq olunduğu dövrdə

aylıq 190 (yüz doxsan) manat məbləğində birdəfəlik ödəmənin verilməsini nəzərdə tutuldu.

Bundan başqa Nazirlər Kabinetinin 13 aprel 2020-ci il tarixli Qərarı ilə tərəfindən əhali üzrə elektrik enerjisinin aylıq istehlak həcminin tənzimlənməsi ilə bağlı tədbirləri müəyyən etdi.

Qərara əsasən əhali üzrə elektrik enerjisinin 7 qəpik/kilovat-saat tarifi tətbiq olunan aylıq istehlak həcmi 2020-ci ilin aprel ayından etibarən ardıcıl iki hesabat ayı müddətində 100 (yüz) kilovat-saat artırılaraq, 400 (dörd yüz) kilovat-saat müəyyən edildi.

Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin iki semestr ərzində ödənilməsi haqda qərar qəbul olundu. Qərar 20 mindən artıq tələbəni əhatə edir və icrası üçün dövlət büdcəsindən 40 milyon manat vəsait ayrılıb.

Bundan əlavə:

– Dövlət sektoru üzrə işçilərin əsassız yerə işdən çıxarılması, ixtisarına yol verilməməsi və məzuniyyətə buraxılan işçilərin əməkhaqlarının saxlanması;

– Qeyri-dövlət sektoru üzrə işçilərin əsassız yerə işdən çıxarılması, ixtisarına yol verilməməsi məqsədilə işəgötürənlərlə bağlı qanunvericiliyə uyğun iş aparılması və gündəlik nəzarətin təmin edilməsi;

– 50 min haqqı ödənilən ictimai iş yerinin yaradılması vasitəsilə işsiz şəxslərin müvəqqəti məşğulluğunun təmin edilməsi;

– İşsizlikdən Sığorta Fondu, BMT İnkişaf Proqramı və Dünya Bankı ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən özünüməşğulluq proqramının genişləndirilməsi və icrasının sürətləndirilməsi;

– İşsizlikdən sığorta ödənişlərinin əhatə dairəsinin genişləndirilməsi və proaktiv təyinat mexanizminin yaradılması;

– İşsizlikdən sığorta ödənişi bitmiş, lakin işlə təmin olunmamış şəxslərə və peşə hazırlığı kurslarında fasilə yaranmış müdavimlərinə xüsusi karantin rejimi dövründə sığorta ödənişinin və təqaüdlərin davam etdirilməsi, əməkhaqlarının birgə maliyyələşdirilməsi proqramının təkmilləşdirilməsi də təsirli sosial müdafiə tədbirləridir.

Nəhayət, ünvanlı dövlət sosial yardımı xüsusi karantin rejimi dövründə bitən ailələrə (şəxslərə) yardımın verilməsinin xüsusi karantin rejimi bitənədək davam etdirilməsi və bu dövrdə ünvanlı dövlət sosial yardımın təyinatı sadələşdirildi və yaşı 65-dən yuxarı tənha şəxslərə evlərində sosial xidmətlərin göstərilməsi və xüsusi qayğıya ehtiyacı olan şəxslərə sosial xidmət müəssisələrində xidmət göstərilməsi haqda qərarlar qəbul edildi.

### Dezinformasiyalarla mübarizə

Pandemiya dövründə informasiya təhlükəsizliyinin əhəmiyyəti daha da artdı. Pandemiyanın ilk dövrlərində həm xəstəlik, həm hakimiyyət, həm də iqtisadi, xüsusilə də ən həssas amil olan valyuta bazarı haqda şaiyələr yayaraq gərginlik yaratmağa cəhdlər edildi. Xüsusilə də manatın məzənnəsi və ərzaq ehtiyatları barədə dezinformasiyalar yayılırdı.

Ancaq, İlham Əliyevin sürətli və dəqiq təşkilatçılıq bacarığı, aktiv və qabaqlayıcı informasiya təminatı, dəqiq valyuta siyasəti ilə bütün bu şaiyələrin təsiri heçə endirildi.

05 mart 2020-ci il tarixdə Operativ Qərargah ictimaiyyətdə yanlış fikrin formalaşdırılması məqsədi güdən və qəsdən bu qəbildən olan informasiyaların yayılmasını həyata keçirən kütləvi informasiya vasitələri, o cümlədən sosial şəbəkə istifadəçiləri barəsində ən ciddi tədbirlərin görüləcəyi haqda xəbərdarlıq etdi. Dəfələrlə vətəndaşlara müraciətlər edilərək yayılan bütün informasiyalara diqqətlə yanaşmaq tövsiyə olundu.

İnformasiya təminatı ilə məşğul olan qurumlar yalan informasiyaları dərhal təkzib etdilər və paralel olaraq cəmiyyəti doğru məlumatlarla təmin etdilər. Hüquq-mühfizə orqanları isə KİV və sosial şəbəkələrdəki dezinformasiya cəhdlərinin qarşısını qətiyyətlə aldılar.

### Beynəlxalq əməkdaşlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pandemiya dövründə apardığı

xarici siyasət daha çox həmrəylik prinsipi üzərində qurulur. Prezident daxildə elan etdiyi "Biz birlikdə güclüyük!" şüarını beynəlxalq müstəvidə də tətbiq etməkdədir. Azərbaycan Pandemiya dövründən daha sıx birləşmək və daha çox dostlar qazanmaq üçün istifadə edir.

Bütün qonşularla sərhədlər hər iki tərəfin maraqları gözlənilməklə qarşılıqlı razılıq əsasında bağlandı. İranda Pandemiya ilə mübarizəyə 5 milyon dollar yardım ayrıldı.

06 mart 2020-ci il tarixdə Azərbaycan Respublikası Hökuməti dünyada koronavirus infeksiyasının yayılması riskinin qarşısının alınması istiqamətində beynəlxalq birliyin səylərinə töhfə məqsədilə ÜST-nin "Strateji Hazırlıq və Cavab Planı" çərçivəsində "COVID-19 müraciəti" adlı Fonduna 5 milyon ABŞ dolları məbləğində könüllü maliyyə yardımı etdi.

Heydər Əliyev Mərkəzində hər gün pandemiyanın xüsusi ziyan vurduğu ölkələrin bayraqları dalğalanaraq həmin ölkələrlə həmrəylik nümayiş etdirildi.

Azərbaycan Prezidenti Türk Şurasının üzv dövlətlərinin Zirvə görüşünü təşkil etmək təşəbbüsünü irəlü sürdü və sonradan nazirlər səviyyəsində də davamı olan səmərəli bir sammiti təşkil etdi.

Zirvə görüşündə Prezident İlham Əliyevin nitqindəki iki məqamı xüsusi qeyd etmək istəyirəm: "Türk Şurası dünya miqyasında ilk beynəlxalq təşkilatdır ki, dövlət başçıları səviyyəsində pandemiyaya həsr olunmuş Zirvə görüşünü keçirir". "Qlobal təhlükə, qlobal cavab tələb edir".

Bu əslində dünyaya bir nümunə göstərməkdədir ki, pandemiyaya qarşı bütün istiqamətlərdə – təcrübənin paylaşılmasından dərmanların hazırlanmasına qədər səyləri birləşdirmək lazımdır.

Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında mayın 4-də videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda sammit keçirildi.

Məqsəd üzv ölkələrin beynəlxalq arenada mövqeyinin gücləndirilməsi, həmrəyliyin gücləndirilməsi və qarşılıqlı dəstəyin verilməsi idi. Azərbaycan Prezidenti Beynəlxalq əməkdaşlığın istiqamətlərini göstərdi. Bunlar:

– Beynəlxalq yükdaşımaların fasiləsizliyi və ticarətin davam etdirilməsi;

– Azərbaycandan keçən nəqliyyat dəhlizlərinin fəaliyyətinin davam etdirilməsi;

– Tibb mütəxəssislərinin təcrübə mübadiləsinin aparılması;

– Elmi bilikləri bölüşmək;

– Ehtiyacı olan ölkələrə yardım göstərilməsi;

– Üzv ölkələrin pandemiya ilə bağlı ehtiyaclarının vahid məlumat bazasına daxil edilməsidir.

Azərbaycan Afrika, Asiya və Latın Amerikası regional qruplarından olan ölkələrin ehtiyacları üçün 5 milyon dollar ayırdı.

Azərbaycan beynəlxalq təşkilatlar vasitəsilə ən çox ehtiyacı olan 29 ölkəyə maliyyə, avadanlıq və tibbi ləvazimatlarla yardım etdi.

Prezident İlham Əliyevin Qlobal Pandemiya dövründə yürütdüyü xarici siyasət Azərbaycanın ümumbəşəri dəyərlərə, beynəlxalq əməkdaşlığa, sülhə və dinc yanaşı yaşamaya nə qədər sadiq olduğunu bütün dünyaya nümayiş etdirdi. Azərbaycanın bu dövrdə apardığı xarici siyasət sübut etdi ki, bizim xalqımız dilindən, dinindən, irqindən və yaşadığı coğrafiyadan asılı olmayaraq hər kəsə imkanları daxilində yardım etməyə, xalqları xeyirxah niyyətlər ətrafında birləşdirmək üçün səylər göstərməyə ən ağır zamanlarda da hazırdır.

**Yekun**

Qlobal Pandemiya hələ başa çatmayıb. Yeni koronavirus (Covid-19) təhlükəsi ətrafında qeyri-müəyyənlik ona qarşı vaksinin tapılması ilə başa çata bilər. Vaksinin tapılması və qeyri-müəyyənliyin aradan qaldırılmasına qədər isə bizim görə biləcəyimiz iş onun ölkəmizdə idarəolunmaz miqyasda yayılmasının qarşısını almaq, situasiyanı nəzarətdə saxlamaqdır.

Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu və miras buraxdığı dayanıqlı dövlət

strukturları, təməl idarəçilik prinsipləri, Prezident İlham Əliyevin qurduğu infrastruktur, iqtisadi, maliyyə və sosial müdafiə bazası, son illər aparılan və bütün sahələri əhatə edən islahatlar, Birinci vitse-prezident Mehriban Əliyevanın sosial siyasət sahəsindəki fəallığı, islahatlara verdiyi güclü dəstək imkan verdi ki, müstəqil Azərbaycanın qarşılaşdığı ən ciddi fiziki sağlamlıq, iqtisadi və siyasi təhlükəsizlik sınağı qarşısında təhlükəni neytrallaşdıraq. Artıq deyə bilərik ki, ölkəmiz təhlükənin birinci mərhələsindəki gözlənilməzlik amilindən irəli gələn ajiotaj dövründən uğurla çıxa bildi.

Qarşıda Pandemiya ilə mübarizənin yeni mərhələsi durur. Bu mərhələnin əsas hədəfləri epidemiyanın dərin iqtisadi böhrana keçməsinin qarşısını almağa, infeksiya ilə mübarizə aparılmasına paralel olaraq iqtisadi aktivliyi bərpa ettməkdir. Növbəti mərhələnin fəaliyyət formulası belədır: "karantin rejimində iqtisadi aktivlik".

Bu mərhələdə özünü qoruma bir şəxsi məsələ deyil, milli təhlükəsizlik məsələsidir. Hər bir vətəndaş özünü maksimum qorumaqla öz ailəsini, küçədə rastlaşdığı həmvətənlərini, işdəki həmkarlarını, ölkə iqtisadiyyatını, bütövlükdə milli təhlükəsizliyimizi qorumuş olur.

Prezident İlham Əliyevin rəhbərliyi ilə vətəndaşların qorunması və müalicəsinin təşkili üçün mümkün olan hər şey edilib və edilməkdədir. Yaradılmış imkanlar bizə karantin rejimini mərhələli şəkildə yumşaltmağa və iqtisadi aktiv həyata qayıtmağa imkan verir.

Azərbaycan Prezidentinin Avropa Yenidənqurma və İnkişaf Bankının, Asiya İnkişaf Bankının rəhbərləri ilə görüşündə müzakirə olunmuş məsələlər, dünyanın aparıcı maliyyə qurumlarındam birinin Azərbaycan iqtisadiyyatına göstərdiyi maraq, CİSCO və Signify kimi transmilli şirkətlərin Azərbaycanla əməkdaşlıqda maraqlı olmaları postpandemiya dövrü üçün iqtisadiyyatımızın yaxşı perspektivlərindən xəbər verir. Azərbaycan iqtisadiyyatı nəinki investisiyalar üçün rentabelliyini qoruyub saxlayır, hətta aparılan islahatlar sayəsində öz cəlbediciliyini daha da artırmaqdadır.

Bütün bunlar və ölkədəki makroiqtisadi sabitlik yerli və xarici investorlar üçün əlverişli iqtisadi mühit formalaşdırır, tezliklə iqtisadiyyatımızı bərpa edə biləcəyimizi proqnozlaşdırmağa əsas verir.

D Ö V L Ə T İ D A R Ə Ç İ L İ Y İ
P U B L I C A D M I N I S T R A T I O N

UOT 328;342,5;352/354
UOT 338.24

**RƏCƏB RƏHİMLİ**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının**
**Elmi təşkilat və beynəlxalq əlaqələr şöbəsinin müdiri,**
**siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent**
*e-mail: rehimli@yahoo.com*

# DÖVLƏT İDARƏÇİLİYİNİN RƏQƏMSAL GƏLƏCƏYİ: DÜNYA TRENDLƏRİ VƏ MÜASİR DÖVLƏT QULLUĞU

Bu gün dünya ölkələrində dövlət idarəçiliyi yeni fazaya qədəm qoyur. Həyatımızın bütün sahələrində olduğu kimi idarəetmədə də elektronlaşma və rəqəmsallaşma prosesi baş verir. Məhz ona görədir ki, bu gün dövlət idarəçiliyinin aktual problemlərindən biri dövlət idarəçilik sisteminin yeni dövrün çağırışlarına uyğun formalaşdırılmasıdır. Bu həm dövlət idarəçiliyinin milli, regional və yerli özünüidarəetmə səviyyələrində təşkili problemini, həmçinin idarəçi kadrların hazırlığını, dövlət aparatının optimal strukturlaşdırılmasını, dövlət qurumlarında personalın idarəedilməsini, dövlət qulluqçularının iş şəraitinin yaxşılaşdırılmasını və peşəkar hazırlığını nəzərdə tutur. Ümumiyyətlə dövlət idarəçilik sistemində aparılan islahatlar innovasiyaların tətbiqi ehtiyacı ilə xarakterizə olunur. Bu isə hər bir dövlətin milli xüsusiyyətlərini nəzərə alaraq yeni idarəçilik ideologiyasının formalaşması, dövlət idarəçilik aparatının kompleks şəkildə yenidən qurulmasına sistemli yanaşmanı tələb edir. Başqa sözlə, qeyd olunanların hamısı qabaqcıl idarəetmə yanaşmalarına əsaslanan yeni dövlət idarəetmə paradiqmasının təbii mənbələri kimi görünür ki, bu da ilk növbədə vətəndaşa yönəlik dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, rəqabət mühitində işləmək, korporativ ideologiyanın tətbiq edilməsinə əsaslanır.

## Dövlət idarəçiliyində innovasiyaların tətbiqi

Bildiyimiz kimi innovativ fəaliyyət qarşıya qoyulmuş vəzifələrin səmərəli və alternativ üsullarla həlli kimi başa düşülür. Onun məqsədi cəmiyyətin sosial-iqtisadi inkişaf səviyyəsinin yeni texnoloji proseslərin tətbiq edilməsi vasitəsilə yüksəldilməsindən ibarətdir. İnnovasiyalar mahiyyətinə görə texnoloji və qeyri-texnoloji innovasiyalara bölünür. Texnoloji innovasiyalarda problemin həllində vahid sistem kimi yeni biliklərin tətbiqi və istifadəsi əsas götürülür, qeyri-texnoloji innovasiyalar isə təşkilati-idarəçilik innovasiyalarından ibarətdir [25, s.37-42]. Qeyri-texnoloji innovasiyalara həmçinin təşkilati-idarəçi, hüquqi, sosial və ekoloji xarakterli innovasiyalar da aid edilir. Təşkilati-idarəçi innovasiyalar müəssisənin idarəetmə sistemində və təşkilində səmərəliliyin və rəqabətqabiliyyətliliyin artırılması məqsədi ilə edilən funksional dəyişikliyə deyilir. Üç təşkilati-idarəedici innovasiyanı qeyd edə bilərik.

Ümumiyyətlə innovasiya fəaliyyəti iqtisadi inkişafı və rəqabətliliyi təmin etmək üçün yeni ideyaların, elmi biliklərin, texnologiya və məhsulların müxtəlif istehsal və idarəetmə sahələrinə tətbiq edilməsidir. İnnovasiya latın dilində “innovato” sözündən götürülüb və mənası yenilənmə, yaxşılaşma kimi başa düşülür. İnno-




**Sxem 1.** Təşkilati-idarəedici innovasiyalar.

vasiya terminini avstriya-amerika iqtisadçısı, politoloqu, sosioloq və iqtisadi fikir tarixçisi “dağıdıcı yaradıcılıq” və “elitar demokratiya” terminlərinin müəllifi Yozef Şumpeter (Joseph Alois Schumpeter) 1934-cü idə yazdığı “İqtisadi inkişaf nəzəriyyəsi” (The Theory of Economic Development) əsərində dövriyyəyə buraxdı və bu termin sonrakı illərdə elmi tədqiqatlarda geniş istifadə edilməyə başladı [26].

Azərbaycanda isə texnoloji və qeyri-texnoloji innovasiyaların tətbiqinə müstəqilliyin ilk illərindən (1993-cü ildən) başlanılmışdır. İdarəetmənin bütün sahələrində olduğu kimi dövlət idarəetmə aparatının səmərəli fəaliyyəti üçün texnoloji və qeyri-texnoloji innovasiyaların tətbiqi zərurəti yarandı. Bu proseslərin, o cümlədən Azərbaycan Respublikasında müasir dövlət qulluğu sisteminin formalaşmasının əsası 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul edilməsi ilə qoyuldu [1]. Ölkədə müasir dövlət idarəçiliyinin və dövlət qulluğu sisteminin yaradılmasının hüquqi bazası formalaşdırıldı, 1996-cı ildə Hüquqi İslahatlar, 1998-ci ildə isə Dövlət İdarəçiliyi Sistemində İslahatların Aparılması üzrə Dövlət Komissiyası yaradıldı. Respublikada vahid dövlət siyasətinin formalaşması məqsədilə 2000-ci ildə “Dövlət qulluğu haqqında” qanun qəbul olundu və onun həyata keçirilməsini təmin edən hüquqi baza yaradıldı [3]. Dövlət qulluğu haqqında qanunun davamı olaraq dövlət qulluğuna aid 10 qanun qəbul edilmiş, onlardan ikisi qüvvədən düşmüşdür. Ümumilikdə bu qanunlara 83 dəyişiklik edilmişdir. Bunar aşağıdakılardır: “Dövlət qulluğu haqqında” 21 iyul 2000-ci il № 926-IQ (qəbul olunandan 69 dəyişiklik edilib); “Dövlət qulluqçularının ayrı-ayrı kate-

qoriyaları üçün qısaldılmış iş vaxtı haqqında" 22 iyun 2001-ci il № 156-IIQ (2 dəyişiklik edilib); "Dövlət qulluqçularının vəzifə maaşlarına yerli əmsalların müəyyən edilməsi haqqında" 31 may 2002-ci il № 335-IIQ (1 dəyişiklik edilib); "Qulluq şəraiti həyat və sağlamlıq üçün təhlükəli olan, yaxud xüsusilə ağır olan dövlət orqanlarında dövlət qulluqçularının vəzifə maaşları üçün artıq əmsalın müəyyən edilməsi haqqında" 5 dekabr 2003-cü il № 537-IIQ; "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" 31 may 2007-ci il № 352-IIIQ (2 dəyişiklik eilib)[7]; "Dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın təyin edilməsi haqqında" 31 may 2002-ci il № 334-IIQ (2 dəyişiklik edilib); "Azərbaycan Respublikasının "Dövlət qulluğunda fərqlənməyə görə" medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi barədə" 7 noyabr 2003-cü il № 515-IIQ (2 dəyişiklik edilib);"Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" 29 mart 2002-ci il № 283-IIQ (5 dəyişiklik edilib).

Bundan əlavə dövlət qulluğuna və dövlət qulluqçularına aid Azərbaycan Respublikası Prezidentinin 36 Fərmanı və 2 Sərəncamı olmuşdur ki, bunlar da Dövlət qulluqçularının peşə bayramı gününün təsis edilməsi haqqında № 1476, 2006-cı il və "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya"nın təsdiq edilməsi haqqında № 739, 2018-ci il sənədləridir. 2004-2017-ci illərdə Nazirlər Kabinetinin də dövlət qulluğu və dövlət quluqçularına aid bəzi Qaydaların təsdiq edilməsi barədə 14 Qərarı olmuşdur ki, hal-hazırda onlardan 11-i qüvvədədir.

**Rəqəmsal inzibatçılar korpusunun formalaşdırılması**

Müasir elmin atası Qaliley deyirdi ki, Tanrı dünyanı riyazi dildə xəlq etmişdi, onu dərk etmək üçün bu dili bilmək lazımdır. Dünyanın inkişaf etmiş ölkələri ənənəvi dövlət idarəçiliyindən rəqəmsal dövlət idarəçiliyinə keçid dövründə müxtəlif innovativ metodlardan istifadə edərək müasir dövlət idarəçiliyi sistemi formalaşdırır və bu sistemi idarə edə biləcək kadr hazırlığı ilə məşğuldurlar. Çox güman ki, ikinci dünya ölkələri bir müddət sonra bu tendensiyalarla ayaqlaşmaq üçün artıq formalaşmış və təcrübədən keçmiş rəqəmsal idarəçilik sistemlərini öz ölkələrində tətbiq edəcəklər. Bu gün artıq dünyada yaxşı idarəçilik, dövlətlərin korrupsiyaya qarşı mübarizə səviyyəsi, dövlət xidmətlərinin keyfiyyəti və əlçatanlığı, dövlət idarəçiliyində məmur və vətəndaş ünsiyyətini minimuma endirmək, dövlət idarəçiliyində elektron xidmətlərin tətbiq edilməsi səviyyəsi və dövlət qulluğunun təkmilləşdirilməsinə yönəlik digər təşəbbüslərin inkişaf etdirilməsi xüsusi indikatorlarla qiymətləndirilir və reytinq cədvəlləri tərtib olunur. Misal üçün BMT-nin İqtisadi və Sosial Məsələlər Departamenti (BMT DESA) tərəfindən 193 üzv dövlətin rəqəmsal hökumət baxımından – onlayn xidmətlərin həcmi və keyfiyyəti, telekommunikasiya infrastrukturunun vəziyyəti və mövcud insan potensialı səviyyəsinə görə 2020-ci il üzrə reytinq cədvəlləri tərtib edilmiş və BMT Elektron Hökumət Sorğusunun 11-ci nəşri hazırlanaraq 10 iyul 2020-ci ildə çap edilmişdir. Hesabatın ön sözündə BMT-nin İqtisadi və Sosial məsələlər üzrə baş katibinin müavini cənab Liu Zhenmin (LIU Zhenmin) üzv ölkələrə çağırış edərək qeyd edir ki, "Davamlı İnkişaf Məqsədlərinə (SDGs) çatmaq üçün cəmi 10 il qalıb – bütün ölkələrin yoxsulluğa son qoyması və bütün insanlar üçün dinc, davamlı inkişafa əsaslanan bir dünya qurmaq naminə ortaq görüş – "SDG"-lərə çatmaq üçün iddialı bir fəaliyyət ongünlüyü başlanıb. Bu, hökumətləri, vətəndaş cəmiyyətini və müəssisələri səfərbər olmağa və bütün insanları tədbir görməyə çağırır. Rəqəmsal hökumət hər yerdə hər kəsə davamlı, bərabər xidmətlərin göstərilməsindəki artan rolu ilə heç kimdən geri qalmamaq üçün Fəaliyyət Dekadasını (ongünlüyünü) dəstəkləyir". Nəşr olunan hesabatda həmçinin ölkələr elektron hökumətin inkişafı

indeksinə görə ən yüksək, yüksək, orta və aşağı qruplarda təsnifləşdirilmişdir.

Azərbaycan elektron hökumətin inkişafı indeksinə görə yüksək qrupa aid edilib. Hesabatda xüsusi olaraq vurğulanıb ki, Azərbaycan ən yüksək qrupa keçməyə real namizəddir. Ölkəmiz bu reytinqdə 2018-ci ilə nisbətən öz indeksini 0,66-dən 0,71-ə qədər yüksəltmişdir. Hansı ki, indeks 0,75 olanda ölkə elektron hökumətin ən yüksək inkişaf səviyyəsinə çatmış sayılır. Müqayisə üçün deyək ki, Azərbaycanda elektron hökumətin inkişafı indeksi 0,71 olmaqla, orta dünya göstəricisi – 0,6-dan 11 bənd yüksəkdir. Elektron hökumətin inkişaf indeksinə görə Azərbaycan yerləşdiyi Asiya bölgəsinin malik olduğu 0,64 həddində olan orta göstəricini də 7 bənd qabaqlayır [28].

BMT-nin elektron hökumətin inkişafı səviyyəsinə görə reytinqində birinci onluğa daxil olan ölkələr sırasında Danimarka, Koreya Respublikası, Finlandiya, Avstraliya, İsveç, İngiltərə, Yeni Zelandiya, Sinqapur və digər ölkələr yer almışdır ki, bu ölkələrin əksəriyyəti cəmiyyətin rəqəmsallaşması strategiyasını qəbul etmiş və aktiv şəkildə yeni müasir texnoloji yenilikləri, blokçeyn, süni intellekt və böyük məlumatlar bazası sistemlərini tətbiq etməyə başlamışlar. Məsələn, Danimarka rəqəmsal dövlət idarəçiliyinə keçid üçün dövlət xidmətləri portalı “border.dk” yaratdı ki, bu portala fiziki və hüquqi şəxslər haqqında fərdi məlumatlar daxil edildi, hətta “sundhed.dk” portalında vətəndaşların sağlamlığı haqqında da məlumatlar yer aldı. Danimarkada biznes

| | Country | Rating class | Region | OSI value | HCI value | TII value | EGDI value (2020) | EGDI value (2018) |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | Denmark | VH | Europe | 0.9706 | 0.9588 | 0.9979 | 0.9758 | 0.9150 |
| 2 | Republic of Korea | VH | Asia | 1.0000 | 0.8997 | 0.9684 | 0.9560 | 0.9010 |
| 3 | Estonia | VH | Europe | 0.9941 | 0.9266 | 0.9212 | 0.9473 | 0.8486 |
| 4 | Finland | VH | Europe | 0.9706 | 0.9549 | 0.9101 | 0.9452 | 0.8815 |
| 5 | Australia | VH | Oceania | 0.9471 | 1.0000 | 0.8825 | 0.9432 | 0.9053 |
| 6 | Sweden | VH | Europe | 0.9000 | 0.9471 | 0.9625 | 0.9365 | 0.8882 |
| 7 | United Kingdom of Great Britain and Northern Ireland | VH | Europe | 0.9588 | 0.9292 | 0.9195 | 0.9358 | 0.8999 |
| 8 | New Zealand | VH | Oceania | 0.9294 | 0.9516 | 0.9207 | 0.9339 | 0.8806 |
| 9 | United States of America | VH | Americas | 0.9471 | 0.9239 | 0.9182 | 0.9297 | 0.8769 |
| 10 | Netherlands | VH | Europe | 0.9059 | 0.9349 | 0.9276 | 0.9228 | 0.8757 |
| 11 | Singapore | VH | Asia | 0.9647 | 0.8904 | 0.8899 | 0.9150 | 0.8812 |
| 12 | Iceland | VH | Europe | 0.7941 | 0.9525 | 0.9838 | 0.9101 | 0.8316 |
| 13 | Norway | VH | Europe | 0.8765 | 0.9392 | 0.9034 | 0.9064 | 0.8557 |
| 14 | Japan | VH | Asia | 0.9059 | 0.8684 | 0.9223 | 0.8989 | 0.8783 |
| - | - | - | - | - | - | - | - | - |
| **70** | **Azerbaijan** | **HV** | Western Asia | **0.7059** | **0.7713** | **0.6528** | **0.7100** | **0.6574** |

**Sxem 2.** BMT-nin Elektron Hökumət Sorğusunun elektron hökumətin inkişafı indeksinə görə tərtib etdiyi reytinq cədvəli. (11-ci nəşr). Mənbə: 2020 United Nations E-Government Survey. p.58

qurumlarının təhlükəsiz hesab-faktura sənədlərini göndərmək üçün "Virk.dk" və "NemHandel" resursları yaradıldı [19]. Danimarka 2016–2020-ci illər üçün dövlət sektorunun rəqəmsallaşdırılması strategiyasının tətbiq edilməsi nəticəsində dövlət idarəçiliyinə nəzərdə tutulmuş xərclərin 3 milyard kronuna qənaət etmiş oldu. Dövlət idarəçiliyinin elektronlaşması və rəqəmsallaşdırılması sahəsində dünyada ikinci yerdə qərarlaşan Koreya Respublikasında isə 2011-ci ildə ağıllı elektron hökumət və dövlət xidmətlərinin mobil platforması planı işlənib hazırlandı və uğurla tətbiq edilməyə başlanıldı. Ölkə vətəndaşları üçün gömrük, vergi, patent xidməti həmçinin vətəndaşların dövlət orqanlarına onlayn-müraciət platforması "e-People", o cümlədən hökumətin onlayn rejimdə biznes prosedurlarının açıq idarəedilməsi sistemi "Onnara" işə salındı [21]. Koreya Respublikası 2020-ci ilədək ölkədə dövlət idarəçiliyinin intellektual informasiya texnologiyaları bazasında yaradılan yeni ekosistemə transformasiyasını nəzərdə tutan planın həyata keçirilməsi, davamlı inkişaf və innovativ hökumət platformasının yaradılması məqsədlərini prioritet elan edib. Əsas məqsədlər sırasında dövlət sektoru tərəfindən idarəedilən yeni rəqəmsal sahələrin və yeni nəsil inzibati informasiya strukturunun formalaşdırılması yer alıb. E-Hökumətin e-xidmətləri vasitəsilə Koreya vətəndaşları istənilən xidməti olduqları yerdəcə onlayn şəkildə əldə edirlər. Bu zaman dövlət qurumlarına olunan müraciətlərin sayının azalması ilə müvafiq məntəqəyə getmək üçün sərf olunun xərclər azalır, əksinə itirilməmiş vaxta istinadən qazanılan gəlir artır. Həmçinin, sosial informasiyanın dövlət qurumları arasında paylaşımı sayəsində vətəndaşların təqdim etməli olduqları sənədlərin sayı da sürətlə azalmaqdadır. Bu səmərəli proseslər sayəsində əlaqədar işlə məşğul olan məmurların iş yükü azalır, tədricən bir çox sahələrdə qazanılan işçi qüvvəsi digər daha innovativ sahələrə yönəldilir və nəticədə Koreyada ildə 1.8 trilyon əlavə vəsait əldə edilir.

Bir sözlə müasir dünyada dövlət idarəetmə sistemlərində tətbiq edilən rəqəmsal həllər və elektron idarəetmə formaları vətəndaşın dövlət xidmətlərindən az məsrəflə maksimum dərəcədə yararlanmaq imkanı əldə etməsinə xidmət edir və bu proseslər ilbəil informasiya texnologiyalarının inkişafı nəticəsində daha da təkmilləşir. Bütün bu prosesləri idarə edə biləcək kadrların hazırlanması məsələsi də aktual olaraq daim diqqət mərkəzində saxlanılır. Azərbaycanda dövlət qulluqçuları rəqəmsal dövlət idarəçiliyi üzrə magistr proqramlarına Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında yiyələnirlər. Onlar 2 illik proqram çərçivəsində "Dövlət və bələdiyyə idarəçiliyinin müasir problemləri", "Elektron və rəqəmsal iqtisadiyyat", "Sosial sferanın elektron idarəetməsi", "Davamlı inkişaf və yüksək texnologiyalar", "Elektron idarəetmədə proqramlaşdırma dillərinin əsasları", "Elektron idarəetmədə web-proqramlaşdırma", "Dövlət idarəçiliyi və informasiya təhlükəsizliyi nəzəriyyəsi", "Data Science və tədqiqat metodları", "Elektron hökumətdə verilənlər bazasının idarəetmə sistemləri", "Dövlət orqanlarında E-sənəd dövriyyəsi sistemləri", "Elektron idarəetmədə informasiya təhlükəsizliyinin tətbiqi", "Dövlət orqanlarında elektron xidmətlərin texniki-proqram təminatı", "Süni intellekt və neyron şəbəkələr", "Dövlət idarəçiliyində verilənlərin intellektual analizi (Data Mining)" və s. fənlər üzrə hazırlıq görürlər [11]. Artıq əminliklə qeyd etmək olar ki, Azərbaycanda yeni nəsil dövlət qulluqçuları korpusu formalaşmışdır. Bundan əlavə onu da qeyd etmək yerinə düşərdi ki, Azərbaycanda aparılan uğurlu islahatlar nəticəsində "Elektron hökumət"in formalaşması təmin olunmuş, dövlət qurumları informasiya sistemləri və ehtiyatlarından onlayn rejimdə istifadə etmək imkanı əldə etmiş və elektron xidmətlərin geniş istifadəsinə başlanılmışdır.

### Elektron hökumət modelləri

Bu gün dünyada elektron hökumətin qurulmasının 3 inkişaf modeli məlumdur ki, bunlar Kontinental Avropa modeli, İngilis-Amerikan modeli və Asiya modelidir. Bu modellərin fərqli cəhətləri isə bunlardır:

**Kontinental Avropa modeli**
- -Dövlət qulluqçularının öhtəliklərinin səmərəli icrası;
- -İKT vasitələri ilə əks-əlaqə mexanizmlərinin inkişafı;
- -Müəssisələr barədə informasiya əldə etmə;
- -Millətin birliyinə istiqamətlənmək;
- -İnsana investisiya qoymaq;
- -Dövlət-vətəndaşın portnyorudur;
- -Elektron tenderlərin axtarış rahatlığı.

**İngilis-Amerikan modeli**
- -İnternetdə ən çox sayda xidmət üçün ödəniş;
- -Statistik məlumat vermək xidmətlərinin inkişafı;
- -Veb-nümayəndəliklərin inteqrasiyası;
- -Dövlətin servis modeli;
- - Dövlətin aşırı funksiyalarının xaric edilməsi;
- - Vətəndaşların ehtiyaclarını tez təmin etmək;
- - Qəbul olunmuş qərarların dərhal açıqlanması.

**Asiya modeli**
- -İnformasiya texnologiyaları sahəsində elmə dəstək;
- -Elektron ticarətin inkişafı üçün şərait;
- -Dövlət xidmətləri portallarının mobil telefonlara inteqrasiyası.
- -Sosial sahənin informasiyalaşmasına diqqət;
- -İKT-nin tətbiqi ilə dövlət idarələrinin ixtisarı;
- -Tez-tez ziyarət edilən müəssisələrdə elektron xidmətlərin alınması üçün terminal şəbəkəsinin inkişafı.

**Elektron Hökumətin Azərbaycan modeli**
- -Bütün vətəndaşlara informasiya və elektron xidmətlərin göstərilməsinə şərait yaratmaq;
- -Dövlət qulluqçuları və vətəndaşlar arasında olan "məsafəni" azaltmaq, münasibətləri sadələşdirmək və şəffaflaşdırmaq;
- -Dövlət orqanları tərəfindən e-xidmətlərin geniş tətbiqi, onların sayının və keyfiyyətinin artırılması, vətəndaşların xidmətlərdən məmnunluğunun yüksəldilməsi;
- -"Bir pəncərə" prinsipi əsasında təşkil olunan və dövlət orqanlarının göstərdiyi e-xidmətlərin cəmləşdirildiyi "Elektron hökumət" portalının tətbiq edilməsi;
- -Elektron imzaların istifadəsi;
- -Müasir texnologiyaların geniş tətbiqi ilə dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin artması;
- -Büdcə vəsaitlərinə qənaət edilməsi, dövlət xidmətlərinin göstərilməsi müddəti və xərclərinin azalması;
- -Vətəndaşların dövlət idarəçiliyində fəal iştirak etməsi;
- -Məhdud imkanlı insanların dövlət xidmətlərinə çıxış imkanı əldə etməsi;
- -İqtisadi aktivliyin, rəqabət qabiliyyətinin və xarici bazarlara çıxış imkanlarının artması

**Sxem 3.** Elektron Hökumətin inkişaf modelləri. Sxem SWOT analizi tətbiq edilməklə (güclü və zəif tərəfləri təhlil edilərək) müəllif tərəfindən tərtib edilmişdir).

Ölkəmizdə "Elektron Hökumət"in formalaşdırılması beynəlxalq təcrübəyə əsaslanır və fəaliyyəti Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında Sərəncamı, "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 23 may 2011-ci il tarixli Fərmanı və digər normativ hüquqi aktlarla tənzimlənir. "Elektron Hökumət" – müasir informasiya texnologiyalarından istifadə etməklə dövlət qurumları tərəfindən Azərbaycan Respublikasının ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və e-xidmətlərin göstərilməsininə şərait yaradır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 14 mart 2018-ci il tarixli 1885 nömrəli "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı

tədbirlər haqqında" Fərmanına əsasən Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində yaradılmış "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxsi bu sahədə görülən işlərin əlaqələndiricisi olaraq "Elektron Hökumət"in formalaşması üzrə digər dövlət orqanları ilə sıx əməkdaşlıq edir və müvafiq infrastrukturun yaradılması üzrə fəaliyyət həyata keçirir. Cənubi Qafqaz regionunda ilk olaraq Azərbaycan Respublikasının TIER III səviyyəli, ISO 20000 və ISO 27001 standartlarına uyğun Data Mərkəzi yaradılmışdır. Görülmüş işlərin davamı kimi, ölkədə "Elektron hökumət"in inkişafı, "rəqəmsal hökumət"ə keçidin təmin edilməsi, dövlət qurumlarının informasiya texnologiyalarının inkişafı, elektron xidmətlərin yaradılması və göstərilməsi üçün tələb olunan dövlət xərclərinin optimallaşdırılması, informasiya sistemlərinin fəaliyyətinin daha müasir standartlar əsasında keyfiyyətli, dayanıqlı və təhlükəsiz infrastrukturda təşkilinin təmin edilməsi, vətəndaşların bu imkanlardan sərbəst istifadəsi məqsədilə "bulud" texnologiyasının tətbiqi məqsədilə 3 iyun 2019-cu ildə "Hökumət buludu"nun (G-cloud) yaradılması və "bulud" xidmətlərinin göstərilməsi sahəsində tədbirlər haqqında Fərman imzalandı [7]. Bu Fərman Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"nin Tədbirlər Planı"nın 2.4.5-ci yarımbəndinin icrası ilə birbaşa bağlıdır. Fərmanla "Hökumət buludu" (G-cloud) Konsepsiyası" təsdiq edilib. Bu texnologiyanın tətbiqi ilə dövlət informasiya sistemlərinin təhlükəsiz saxlanıldığı, dayanıqlı infrastrukturda mərkəzləşdirilmiş qaydada formalaşdırıldığı və aparıldığı, beynəlxalq standartlara cavab verən data mərkəzi isə hökumətin milli məlumat məkanıdır. "Hökumət buludu" dövlət idarəçiliyində İKT-dən, onun verdiyi üstünlüklərdən daha səmərəli istifadə edilməsi, mövcud infrastrukturun idarə edilməsinin təkmilləşdirilməsi, bunun vasitəsilə təmin edilən xidmətlərin keyfiyyətinin və təhlükəsizliyinin artırılması baxımından önəmlidir. Son illər Azərbaycanda dövlət idarəçiliyinin rəqəmsallaşması sahəsində aparılan geniş miqyaslı islahatlar onu deməyə əsas verir ki, qəbul edilmiş normativ hüquqi aktlar, o cümlədən sözügedən Konsepsiya ilə "Elektron hökumət"in (eGov) inkişafına və "rəqəmsal hökumət"ə keçidə təkan veriləcək, dövlət xidmətlərinin yüksək keyfiyyət səviyyəsi təmin ediləcək, istifadəçi məmnuniyyəti artacaq, "açıq məlumatlar"a (Open Data) əsaslanan xidmətlər göstəriləcək, "Süni intellekt"ə (Artificial İntelligence) və robot texnologiyalarına əsaslanan innovativ həllər dəstəklənəcəkdir. Bütün bunlar əlbəttə ki, dövlət idarəçiliyində qabaqcıl və yüksək texnologiyaların tətbiqinə, informasiya sistemlərinin yaradılması və istifadəsi zamanı məsrəflərin qarşısının alınmasına və kadr ehtiyatına tələbatın optimallaşdırılmasına və kadrların ixtisas səviyyəsinin yüksəlməsinə töhfə verəcəkdir.

Bu sistemin tətbiqi vasitəsilə bütün dövlət qurumlarının elektron əlaqəsi təmin ediləcəkdir. Azərbaycanın brendi olan "ASAN xidmət" ilə digər dövlət qurumlarının qarşılıqlı fəaliyyətinin təmin olunması bunun bariz nümunəsidir. "ASAN xidmət" mərkəzləri dövlət orqanları tərəfindən göstərilən xidmətlərin vahid və əlaqələndirilmiş formada həyata keçirilməsini təmin edən qurumlardır. Bu xidmət mərkəzləri dövlət qulluqçularının fəaliyyətində əhaliyə münasibətdə vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində yeni yanaşmanın formalaşdırılmasına, ölkədə dövlət qulluqçusu-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsinə xidmət edir. Mərkəzlərin fəaliyyəti operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında qurulmuşdur."ASAN xidmət" mərkəzlərinin yaradılmasında məqsəd vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azalması,




**Sxem 4.** Mənbə: "Hökumət buludu" (G-cloud) Konsepsiyası. 3 iyun 2019-cu il.

vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinə nail olunması, peşəkarlıq səviyyəsinin artırılması, dövlət strukturlarına etimadın daha da gücləndirilməsi, şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, elektron xidmətlərdən daha geniş istifadə olunması və bu sahədə aparılan institusional islahatların səmərəliliyinin artırılması olmuşdur.

3 iyun 2020-ci ildə növbəti "ASAN Həyat" Mərkəzinin açılışında Prezident İlham Əliyev qeyd etmişdir ki, "biz qısa müddət ərzində "ASAN xidmət" mərkəzlərinin sayını 19-a çatdırdıq və bu proses davam etdirilir. Hazırda səkkiz mərkəzin tikintisi nəzərdə tutulur. "ASAN xidmət"in fəaliyyətə başladığı dövrdən indiyə qədər təxminən 38 milyon müraciət olmuşdur. "ASAN xidmət"in fəaliyyətini ən gözəl əks etdirən fakt odur ki, vətəndaşların bəyənmə dərəcəsi 99,4 faizdir. Demək olar ki, 100 faiz vətəndaşlarımız "ASAN xidmət" mərkəzlərindən məmnundurlar. Bu da təbiidir. Əslində bizim niyyətimiz də, istəyimiz də insanlar üçün çox gözəl, rahat və şəffaf xidmət yaratmaqdır. Biz buna nail ola bildik" [9].

Ümumiyyətlə, Azərbaycanda "ASAN xidmət" mərkəzlərinin yaradılmasını ölkədə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən islahatların uğurlu nəticəsi kimi də dəyərləndirmək olar. Belə ki, ölkəmizdə son illər korrupsiyaya qarşı mübarizə sahəsində uğurlu nəticələr əldə edilmişdir. İlk öncə bu problemin aradan qaldırılması üçün hüquqi baza formalaşdırıldı, ölkə Prezidentinin imzası ilə müvafiq sərəncamlar, o cümlədən korrupsiyaya qarşı mübarizə və açıq hökumətin təşviqi sahəsində 6 strateji sənəd qəbul edildi [3;4;5]. 2004-cü ildə "Korrupsiyaya qarşı mübarizə haqqında", 2005-ci ildə "Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunları qəbul edildi. Qeyd edək ki, bu problemin aradan qaldırılması sahəsində aparılan səmərəli tədbirlərin nəticəsidir ki, ölkəmiz Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu (QREKO), Çirkli Pulların leqallaşdırılmasına qarşı Ekspertlər Komitəsinin (MONEYVAL)

və BMT-nin Korrupsiya əleyhinə Konvensiyasının müvafiq qiymətləndirmə mərhələlərini uğurla keçmişdir [6, s.26].

Ümumiyyətlə Azərbaycanda dövlət idarəçiliyinin rəqəmsal gələcəyi haqqında danışarkən onu da xüsusi vurğulamalıyıq ki, 16 iyun 2020-ci ildə Prezident İlham Əliyev "Microsoft" şirkətinin vitse-prezidenti və şirkətin digər nümayəndələri ilə keçirdiyi videokonfransda qeyd etdi ki, hazırda Azərbaycanda Rəqəmsal Transformasiya üzrə Hökumət Strategiyası üzərində işlər aparılır [15]. Bu, qlobal müstəvidə yeni risk mədəniyyətinin və blokçeyn texnologiyalarının formalaşdığı dövrdə dövlət idarəçiliyinin yeni metodlar əsasında fəaliyyət göstərməsi zərurətindən irəli gəlmişdir. Müasir dövrün ən qabarıq xüsusiyyətləri qloballaşma və informasiyalaşma ilə bağlıdır. Yeni texnologiyalar insan fəaliyyətinin ən vacib komponenti kimi qəbul olunur. "Elektron demokratiya", "Kiberokratiya", "Virtual icma", "Elektron hökumət" və bu kimi yeniliklər həyatımızın ayrılmaz atributlarına çevrilmişdir. Cəmiyyətin informasiya texnologiyaları sahəsindəki inqilaba əsaslanan, bütün dünyaya yayılan yeni informasiya epoxasına keçidi sosial və iqtisadi strukturların dəyişməsinə də şərait yaradıb. Sərt iyerarxik sosial "ehramlar", "şaquli" idarəçilik institutları çevik, "üfüqi" şəbəkələrlə əvəzlənir. Məhz sonuncuların vasitəsilə də hazırda idarəetmə və resurslar mübadiləsi prosesi təşkil olunur. Həyatın demək olar bütün sferaları – gündəlik həyatdan tutmuş milli dövlətlərin geosiyasətinədək bütün fəaliyyət sahələri qlobal şəbəkənin informasiya fəzasına transfer olunub. Dünyanı bürümüş Covid-19 infeksiyasının yaratdığı qlobal pandemiya şəraitində bir çox dövlətlər öz dövlət aparatının böyüməsi, dövlətin sosial, səhiyyə, nəqliyyat və digər sahələrinin zəif işləməsi, büdcə xərclərinin kəskin şişməsi, buradan irəli gələrək nəzarət imkanlarının məhdudlaşması və korrupsiya hallarının artması, bir sözlə mövcud sistemin ləng işləməsi və dövrün tələblərinə cavab verə bilməməsi kimi "simptomlarla" müşayiət olunan "bürokratik xəstəliyin" təcili, təxirəsalınmaz "müalicəsi" zərurəti ilə üz-üzə qaldılar. Bu isə dövlət sektorunda hibrid idarəetmə sistemin tətbiqi imkanlarının araşdırılması məsələsini yenidən gündəmə gətirdi.

Dünya İqtisadi Forumunun təsisçisi Klaus Şvabın (Klaus Schwab) "Dördüncü sənaye inqilabı" kitabının giriş hissəsində qeyd edilir ki, "biz hələ yeni inqilabın inkişaf tempini və miqyasını tam dərk edə bilmirik. Milyardlarla insanın bir-birilə mobil cihazlarla bağlanmasını, inkişaf edən texnoloji kəşfləri, süni intellekt, robot texnologiyası, əşyaların interneti, kvant hesablamaları, biotexnologiyalar və enerji saxlanması kimi yeniliklər hələ başlanğıc mərhələsini yaşayırlar. Bütün bu yeniliklərin əsl gücünü onlar inkişaf edərək birləşib vahid bir qüvvə kimi çıxış edəndə görəcəyik" [22]. Respublikamızda göstərilən sahədə fəaliyyətin təhlili deməyə əsas verir ki, Azərbaycan nəinki region ölkələri, hətta dünyanın bir çox inkişaf etmiş ölkələrindən də öncə bu istiqamətdə əsaslı işlər görmüşdür. Belə ki, dövlətin rəqəmsal idarəçiliyi istiqaməti üzrə hüquqi baza formalaşdırılmış, dövlət qurumları arasında elektron sənəd mübadiləsi tənzimlənmişdir. Ölkəmizin rəqəmsallaşdırılması, informasiya texnologiyalarının bütün sahələrdə tətbiq edilməsi artıq prioritetdir. Hazırda Azərbaycanda ağıllı şəhər "Smart City" layihəsi üzərində işlər aparılır. Növbəti mərhələdə isə "Smart Nation" – yəni, "Ağıllı ölkə" proqramı üzərində işlərə başlanacaq [16]. Qeyd olunanlarla yanaşı dövlət idarəçiliyində "Süni intellekt" (Artificial intelligence) kompüter proqramlarının tətbiqi yolları araşdırılır. Buna misal olaraq Azərbaycanda dünyanı bürümüş pandemiya ilə mübarizədə yeni üsulların tətbiqi göstərilə bilər. Belə ki, 19 iyun 2020-ci il tarixindən Nazirlər Kabineti yanında fəaliyyət göstərən Operativ Qərargahın Mobil Tətbiqi istifadəyə verilmişdir. "E-Təbib" mobil tətbiqi vasitəsilə insanlar ictimai yerlərdə olarkən ətrafdakıların potensial virus daşıyıcısı olub-olmaması barədə xəbərdar edilirlər. Təsadüfən infeksiyanın daşıyıcısı ilə əlaqəsi olanlara (əhalinin sıx

toplaşdığı yerlərdə, növbədə, mağazada və s.) bildiriş göndərilir və onlar laboratoriya testinə dəvət edilirlər [17]. Eyni zamanda ölkə Prezidenti İlham Əliyevin 08 iyul 2020-ci il tarixdə Qoşulmama Hərəkatının sədri statusunda üzv dövlətlər adından BMT Baş Assambleyasının COVID-19-a həsr olunmuş xüsusi sessiyasının çağırılması təşəbbüsü və Azərbaycanın 130-dan çox üzv dövlətinin dəstəklədiyi tədbirin keçirilməsi ilə əlaqədar texniki-logistik məsələlərin həllində öz töhfəsini verməyə hazır olması sadalanların göstəricisidir. Göründüyü kimi, artıq Azərbaycan rəqəmsal texnoloji imkanlarından istifadə edərək dünya miqyaslı tətbirlər təşkil edir, nəinki dövlət idarəçiliyi və dövlət qulluğu sahəsində rəqəmsal tranformasiya, hətta dünyanı narahat edən problemlərin həllində qlobal səviyyədə ön plana çıxır. Bütün bunlar isə onu deməyə əsas verir ki, ölkəmiz dövlət idarəçiliyi sahəsində informasiya-kommunikasiya texnologiyalarının tətbiqində dünyanın inkişaf etmiş dövlətləri sirasında öz layiqli yerini tutur.

Yuxarıda qeyd olunanları ümumiləşdirirək dövlət idarəçiliyinin rəqəmsal gələcəyini, e-hökumət quruculuğunun strategiyasını, mərhələlərini, onun inkişaf etmiş ölkələrdəki fəaliyyətini təhlil edərkən görürük ki, Elektron hökumətin inkişaf tarixinin qısa olmasına baxmayaraq, bu gün dövlət idarəetmə sistemində elektron qarşılıqlı əlaqə metodlarının tətbiqi və inkişafı inzibati islahatlar praktikasında ən aktual istiqamətlərdən biridir. Dövlətin rəqəmsal idarəçiliyi təkcə idarəetmənin səmərəliliyini artırmaq məqsədi ilə islahatlara perspektivli bir yanaşma kimi deyil, həm də yeni bir post-sənaye iqtisadiyyatı və informasiya cəmiyyətində dövlətlə cəmiyyət arasında münasibətlərin dəyişdirilməsi yolu kimi nəzərdən keçirilir. Dövlət idarəçiliyi sahəsində islahatlardakı qlobal tendensiyalar ölkəmizdə həyata keçirilən inzibati islahatlarda öz əksini tapır. Həyata keçirilən islahatların məqsədləri isə icra hakimiyyəti sisteminin modernləşdirilməsi (o cümlədən İKT köməyi ilə), dövlət funksiyalarının optimallaşdırılması və idarəetmə proseslərinin səmərəliliyinin artırılmasıdır. Azərbaycanda Elektron hökumət konsepsiyasının prinsiplərinin həyata keçirilməsi və dövlət idarəetmə sisteminin rəqəmsallaşması siyasi, hüquqi, iqtisadi, sosial, texnoloji, təşkilati xarakterli bir sıra maneələrin aradan qaldırılmasından, habelə tələbin xüsusiyyətlərini öyrənməyə əsaslanan effektiv strategiyanın hazırlanması və həyata keçirilməsindən də çox asılıdır. Zənnimizcə Elektron hökumət xidmətləri və əldə edilmiş inkişaf səviyyəsinin izlənməsi və aşağıdakı həllərin tətbiqi qarşıda duran problemlərin çözümündə yardımçı olardı:

– Uzun illərə hədəflənmiş dövlət idarəçiliyinin rəqəmsallaşması strategiyası qəbul olunmalıdır. Eyni zamanda dövlət qulluqçularının, habelə dövlət qulluğunun xüsusi növünə aid edilən qulluqçuların səmərəli fəaliyyətini təmin etmək üçün texnoloji infrastrukturu təkmilləşdirmək lazımdır;

– Ömürboyu təhsil prosesində rəqəmsal texnoloji savadlanma proqramlarının distant tədrisi təşkil edilməli, dövlət strukturlarında icra və hesabatlılığın elektron imza vasitəsi ilə təsdiqi platforması tətbiq olunmalıdır;

– Məlumatların təhlükəsiz saxlanılması, emalı və istifadə olunması üçün dövlət sirri və etik davranış qaydalarına uyğun dövlət qulluqçularının təlim proqramları təşkil edilməlidir;

– Müasir dövrdə istifadəçinin yerləşdiyi coğrafi məkandan asılı olmayaraq ölkənin bütün ərazisində təqdim olunan elektron xidmətlərdən istifadənin mümkünlüyü üçün dövlət xidmətlərinin mobil platformalara daşınması labüddür.

– Dövlət qurumlarının və yerli özünüidarəetmə orqanlarının işinin səmərəliyinin artırılması və keyfiyyətin yüksəldilməsi məqsədilə istifadəçilərə dövlət qurumları tərəfindən təqdim olunan elektron xidmətlərin optimallaşdırılması və yerinə yetirilmə prosedurlarının sadələşdirilməsi vacibdir.

– Azərbaycan Respublikasında dövlət orqanlarında qulluq keçmə qaydalarını və şərtlərini, dövlət qulluqçusunun statusu ilə bağlı münasibətləri tənzimləyən 26 fəsil 147

maddədən ibarət olan "Dövlət qulluğu məcəlləsi" layihəsinə "Rəqəmsal inzibatçılıq"la bağlı bir fəslin və dövlət qulluqçularının vətəndaşa distant xidmət göstərməsi, hesabatlılığı, məsuliyyəti, o cümlədən "fövqəladə vəziyyətlərdə idarəçilik" və bu fəaliyyətə görə müavinətlərə dair maddələrin də əlavə edilməsi məqsədə müvafiq olardı.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası, "Hüquq" Yayın Evi, Bakı, 2020. http://www.e-qanun.az/framework/897
2. "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı şəhəri, 23 noyabr 2018-ci il, №739. http://www.e-qanun.az/framework/40748 Elektron resurs. Müraciət vaxtı: 19.06.2020
3. "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 5 sentyabr 2012-ci il, № 2421. http://www.e-qanun.az/framework/24193. Elektron resurs: Müraciət vaxtı: 19.06.2020
4. "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 27 aprel 2016-cı il. № 1993. http://e-qanun.az/framework/32647 Elektron resurs: Müraciət vaxtı: 19.06.2020
5. "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 27 fevral 2020-ci il. № 1859. http://www.e-qanun.az/framework/44619 Elektron resurs: Müraciət vaxtı: 20.06.2020
6. "Dövlət qulluğu haqqında" qanun. Bakı şəhəri, 21 iyul 2000-ci il, № 926-IQ. http://www.e-qanun.az/framework/4481 Elektron resurs. Müraciət vaxtı: 16.06.2020
7. "Dövlət qulluqçusunun etik davranış qaydaları haqqında" qanun. Bakı şəhəri, 31 may 2007-ci il № 352-IIIQ http://www.e-qanun.az/framework/13685 Elektron resurs. Müraciət vaxtı: 16.06.2020
8. "Dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi qaydalarının təsdiq edilməsi haqqında" qanun. Bakı şəhəri, 3 sentyabr 2001-ci il. № 569. http://www.e-qanun.az/framework/2717 Elektron resurs. Müraciət vaxtı: 17.06.2020
9. "Dövlət orqanlarında dövlət qulluqçusuna vəzifədə qulluq stajına görə əlavə haqqın müəyyənləşməsi qaydaları haqqında" qanun. Bakı şəhəri, 28 yanvar 2002-ci il, № 665. http://www.e-qanun.az/framework/1076 Elektron resurs. Müraciət vaxtı: 17.06.2020
10. "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 4 avqust 2003-cü il, №91. http://www.e-qanun.az/framework/2238 Elektron resurs. Müraciət vaxtı: 18.06.2020
11. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Rəhbər Dövlət İdarəçiliyi Kadrlarının İxtisasının Artırılması İnstitutu"nun kadr hazırlığı üzrə hesabatı (2019-cu il üzrə). 16 səh.
12. World e-government leaders based on E-Government Development Index (EGDI) in 2018 (index rating) https://www.statista.com/statistics/421580/egdi-e-government-development-index-ranking/ Elektron resurs: Müraciət vaxtı: 19.06.2020

13. "Hökumət buludu"nun (G-cloud) yaradılması və "bulud" xidmətlərinin göstərilməsi sahəsində tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 03 iyun 2019, https://president.az/articles/33423 Müraciət vaxtı: 21.06.2020
14. Prezident İlham Əliyev Ağcabədidə ASAN Həyat Kompleksinin açılışındakı söylədiyi nitqdən. https://asan.gov.az/az/media/news/ilham-eliyev-agcabedide-asan-heyat-kompleksinin-acilisinda-istirak-edib Müraciət vaxtı: 21.06.2020
15. Prezident İlham Əliyevin "Microsoft" şirkətinin vitse-prezidenti və digər nümayəndələri ilə keçirdiyi videokonfrans zamanı söylədiyi çıxışından. 16 iyun 2020, https://president.az/articles/39176 Müraciət vaxtı: 21.06.2020
16. Prezident İlham Əliyevin 3 saylı DOST mərkəzinin açılışındakı söylədiyi çıxışından. http://sosial.gov.az/3446 Müraciət vaxtı: 21.06.2020
17. Nazirlər Kabineti yanında Operativ Qərargahın Koronavirus info saytı https://koronavirusinfo.az/az/page/haqqimizda/e-tebib-mobil-tetbiqini-yukleyin Müraciət vaxtı: 21.06.2020
18. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 6 dekabr 2016-cı il, № 1138. http://www.e-qanun.az/framework/34254 https://ru.president.az/articles/21953
19. A stronger and more secure digital Denmark. The Digital strategy 2016 – 2020.Denmark,May,2016. https://digst.dk/media/16165/ds_singlepage_uk_web.pdf https://www.sundhed.dk/borger/service/om-sundheddk/ehealth-in-denmark/
20. Доклад Всемирного банка «Конкуренция в цифровую эпоху: Стратегические вызовы для Российской Федерации» http://documents.worldbank.org/curated/en/848071539115489168/pdf/AUS0000158-RUSSIAN-WP-REVISED-P160805-PUBLIC-Disclosed-10–15–2018.pdf
21. Korea e-Government Master Plan 2020 [Electronic resource]: National Information Society Agency //https://www.nia.or.kr/common/board/Download.do?bcIdx=19053&cbIdx=37989&fileNo=1
22. Dördüncü sənaye inqilabı. Klaus Şvab. (Azərbaycan dilinə tərcümə). Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2020, 200 s.
23. Rəhimli R. "Rəqəmsal texnologiyalar dövründə dövlət qulluğunun inkişaf dinamikası" Azərbaycan qəzeti, 23.06.2020. http://www.azerbaijan-news.az/view-191797/reqemsal-texnologiyalar-dovrunde-dovlet-qullugunun-inkisaf-dinamikasi
24. GROUP OF STATES AGAINST CORRUPTION (GRECO) Anti-corruption trends, challenges and good practices in Europe & the United States of America https://rm.coe.int/19th-general-activity-report-2018-group-of-states-against-corruption-g/1680951d14, https://rm.coe.int/090000168094f9b0 Elektron resurs: Müraciət vaxtı: 20.06.2020
25. Proposed Guidelines for Collecting and Interpreting Technological Innovation Data: Oslo Manual. Paris: OECD, Eurostat, 1997.https://www.oecd.org/science/inno/2367614.pdf
26. Шумпетер Й.А. История экономического анализа /пер. с англ. под ред. В.С. Автономова, в 3-х т. Т. 1. – 552 с., Т. 2. – 504 с., Т. 3. – 688 с. СПб.: Экономическая школа, 2001 г.
27. EDUNIVERSAL BEST MASTERS RANKING 2019 https://www.best-masters.com/master-at-institute-of-business-studies-the-russian-presidential-academy-o

f-national-economy-and-public-administration.html
28. Birləşmiş Millətlər Təşkilatının 2020-ci il Elektron Hökuməti Anketi (2020 United Nations E-Government Survey) p.58 ttps://www.un.org/development/desa/publications/publication/2020-united-nations-e-government-survey

***Açar sözlər:*** *Rəqəmsal dövlət idarəçiliyi, "Hökumət buludu", dövlət quluğu, kadr siyasəti, innovasiyalar, elektron hökumət*

**Rajab Rahimli**
*Head of Scientific Research and International Relations Department of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Doctor of Philosophy in Political Science, Associate Professor*

## THE DİGİTAL FUTURE OF PUBLİC ADMİNİSTRATİON: GLOBAL TRENDS AND MODERN PUBLİC SERVİCE

### SUMMARY

The paper examines the reforms carried out in the field of expanding e-government activities in the public service, in Azerbaijan and around the world, analyzes modern innovative methods of digital public administration at the international level and explores the ways to apply them in our country. In addition, the paper indicates the successful reforms carried out by President Ilham Aliyev in recent years. These reforms include making civil servants more accountable, improving government performance, streamlining public service, accelerating the transition from e-government to digital governance, and increasing citizen satisfaction with these services.

***Keywords:*** *Digital governance, "Government cloud", civil service, personnel policy, innovations, e-government*

**Раджаб Рагимли**
*Заведующий отделом Научной организации и международных связей*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор философии по политическим наукам, доцент*

# ЦИФРОВОЕ БУДУЩЕЕ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ: МИРОВЫЕ ТРЕНДЫ И СОВРЕМЕННАЯ ГОСУДАРСТВЕННАЯ СЛУЖБА

## РЕЗЮМЕ

В статье рассматриваются реформы, проводимые в области расширения деятельности электронного правительства в государственной службе в Азербайджане и во всем мире, анализируются современные инновационные методы цифрового государственного управления на международном уровне и рассматриваются пути их применения в нашей стране. Показаны успешные реформы, проводимые Президентом Ильхамом Алиевым в последние годы в сфере государственного управления, которые включают в себя повышение подотчетности государственных служащих, улучшение работы государственных органов, оптимизацию государственной службы, ускорение перехода от электронного правительства к цифровому управлению и служат повышению степени удовлетворенности граждан этими услугами.

***Ключевые слова:*** *Цифровое государственное управление, «Правительственное облако», государственная служба, кадровая политика, инновации, электронное правительство*

DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ
SUSTAINABLE DEVELOPMENT MANAGEMENT

UOT 351/354; UOT 351

**KHATIRA HUSEYNOVA**
**The Academy of Public Administration under the President of the Republic of Azerbaijan**
**Dean of the Faculty of Administrative Management,**
**Doctor of Economic Sciences, professor**
*e-mail: khatira.huseynova@dia.edu.az*

# PERSPECTIVES OF INNOVATIVE PUBLIC ADMINISTRATION IN THE DIGITAL ERA IN AZERBAIJAN

## Introduction

The goal of digital transformation of public administration is to create a digital government that is based on the ideas of customer focus, maximizing the usefulness of government for citizens and “digitalization by default”. In the sphere of public administration, the principles of “flexible management” are being developed, which imply constant use of feedback mechanisms during the whole period of implementation of measures and programs. In today's era when technology makes a significant presence felt, it has become imperative that the information technologies used by the states both in ensuring international competition, in increasing the efficiency of the national services and in the provision of public services. States have to abandon traditional state conceptions and switch to innovative state conceptions.

New technologies are at the core of successful inclusive and sustainable industrial development. They enable the creation of new goods, which leads to the emergence of new industries. And they support an increase in production efficiency, which brings prices down and opens consumption to the mass market.

The use of modern information and telecommunication technologies (ICT) provides fundamentally new opportunities for improving public administration and reviewing the relationship between the State, its governing and self-governing bodies and society, while the creation of “e-governance” leads to an objectively new type of citizen-state relationship based on the openness of decision-making and the exclusion of subjective factors from governance as a decision-making process.

The development of information and electronic technical tools has seriously impacted the structures and processes of public administration.

**Stages of development of the Information technology tools:**

- 1st stage (until the second half of the 19th century) – “manual” information technology tools, which were: pen, book, Inkwell;
- 2nd stage (late 19th century) – “mechanical” technology, which were: the typewriter, the telephone, voice recorder;
- 3rd stage (40-60-ies XX century) – “electric” technology Toolkit, which were: mainframe computers and related software, electric typewriters, copiers, portable voice recorders;
- 4th stage (early 70's XX century) “electronic” technology, which are primary tools of mainframe computers and created on the basis of automated control systems;
- 5th stage (mid 80's XX century) “the computer” technology,which is the main tool for a personal computer with a wide range of standard software products for different purposes;

• 6th stage – “network” technology- Begin to be widely used in various fields of global and local computer networks [6].

In the beginning this impact expressed in increase of efficiency of data collecting, processing and use of information in the decision-making process, then further there started to happen notable transformations in institutions and methods of organization of whole public administration system. Information technologies in public administration became especially intensive in the mid 90s, which is expressed by the appearance of a new concept of “e-government” (“e-government”).

**Functions of information technologies in the civil service and tasks of information technologies in the civil service:**

**Communication**

– Searching and gathering information;
– Storage and distribution;
– Information;
– Citizen information.

**Management**

– Intend to inform management decision-making;
– Communicating decisions to line managers and subordinates.

**Educational**

– Training of personnel of ministries and departments through webinars, video lectures, educational portals;
– Employee knowledge management through electronic testing.

**Administrative**

– Electronic document management;
– Electronic records management.

**Control**

– Measurable performance enhancement;
– Online parameter control;
– Video fixation and control.

**Storage**

– Data warehousing;
– Data archiving.

**Research**

– Research for new information;
– Relevant experience.

**Security**

– Protection of restricted or sensitive information;
– Preventing and neutralizing cyber threats and attacks.

Since 2000 year, managers and experts have, on the one hand, been trying to understand the socio-economic and technological transformations and, on the other hand, the growing and diversified civil desires and aspirations, in order to be able to respond to these requests and requirements, it became necessary to process big data.

**Public administration of digitalization**

When we talk about digitalization, we must talk about Industrial Revolutions.

In the 18th century – Mechanical production, Equipment powered by steam and water has led to the first Industrial Revolution (Industry 1.0).

In the 19th century – mass production, assembly lines requiring labor and electrical energy has led to the Second Industrial Revolution (Industry 2.0).

In the 20th century – Automated production using electronics and IT has led to the 3rd Industrial Revolution (Industry 3.0).

Today – Intelligent production incorporated with Cloud technology and big data has led to the 4th Industrial Revolution (Industry 4.0).

And we see that the Internet is developing very fast. Really, it's grown even more attractive in the last few years:

1981: The term internet introduced;

1989: World Wide Web developed distributing information on the internet; Dual-up internet access for consumers introduced;

1993: World Wide Web accounts for 1% of all internet traffic;

1996: 45 milion people using the internet 44% of U.S. households own a personal computer;

1998: Google launched;

1999: 150 million internet users;

2001: 9.8 billion elektronic messages sent daily;

2002: 544.2 million internet users;

2004: 117 billion in online spending;

2005: Facebook and Youtube launched;

2007: İphone launched;

2010: 4 billion cell phone subscribers 67% of the world's population;

2018: 4.2 billion internet users (54.5% of global population).

What do we see in the analysis of the dominant trends in public administration and ICT?

Analysis by years of dominance:

1. After 1980: Public Administration dominance – administrative reforms; ICT dominance – applications and local computer solutions.

1 Since 1990: Public Administration dominance - e-government; ICT dominance - Web-based networks.

2 After 2000: Public Administration dominance – Open government; ICT dominance - Cloud Technology.

3 Current and last 20-30: Public Administration dominance – Smart Government; ICT dominance – Neuron computer systems (international data analysis; big data); Artificial intelligence and human convergence.

Today, the country is focused on the development of its ICT sector.

Skills to detect, store and transfer data are increasing every day with the use of digital computers and Internet technology, the Internet of Things, search systems and social networks. It has also radically impacted the processes, methods and speed of research, information collection and registering, classification and data analysis. It has expanded and increased the limits of possible and accessibility for researchers. It has now been possible to generate and collect data, and to collaborate in a variety in formats. Many bigger data collections can be easily compiled, stored, classified and analyzed digitally with a less of effort.

Now it is possible to access all databases accessible from the Internet, from laptops, mobile phones and similar smart devices. In addition, it is now possible to conduct online surveys, collect, and analysis, table and graph data. In addition, open access to data and overall data productions have become important. Leading universities around the world, such as Harvard, Princeton and Cambridge, also struggled for open data and lessons learned. Innovative steps have been taken in this direction in Azerbaijan. All this ensures innovation and rapid production of information, mass cooperation by creating information and thus the economy of digital exchange on a global scale, in all disciplines and sectors.

The subject of public administration and policy research, or in all social sciences in general, continues to shape mainly human behavior. While human behavior does change the form in research. Research method and design (big observation data, screening, experiments and the use of massive data – crowdsourcing, wikis, Facebook, Tweet, etc.) is changing. E.) the answers were still being searched.

Previous knowledge, methods and approaches have informed today's research work. However, there have been some important changes in this process. For example, it is usually impossible to analyze large data using old methods. It is now difficult or even impossible to get millions of tweets or Facebook messages using old research and analysis methods.

Therefore, there is a need to understand the big data that are often cited, to use them more frequently in public administration and political research and the political cycle, and to develop publicly available evidence policy.

Today, self-generating data from one device to another, from one device to a client, to the opposite, from government agencies and organizations to citizens, to the opposite, from person to person, from person to smart machine or object now and everywhere, or production.

Activities and communications from the private, civil and public sectors and individuals are digitally recorded (digital recording), stored and processed. These data are growing exponentially and create large data sets.

Comparison of large data analysis with classical analysis will help to better understand large data and what large data and digitalization mean for public administration and policy. For example, let's assume that a large telecom company wants to investigate the socio-economic status and distribution of its own service users where a random user from among the users of the service selected two thousand people. In this study, the two thousand people who have been interviewed, and after explanation of its purpose and characteristics, participants are asked about their demographic, social and economic characteristics. In fact, some studies are still the same as our old research methods. However, there is a difference in the digital period. First of all, the first difference is that data on the twenty million recipients of telecommunications company services are open for access and use by researchers. Interviews with two thousand people are actually experimental studies.

The power of digital technology and synthetic intelligence can be seem terrifying in here. This power can be used to determine the propensity of individuals to commit crimes in the field of crime prevention, the probability of residence or death of the insured in the field of insurance, the possibility of repayment of clients who receive credit in the banking sector, the voting status of citizens in election campaigns.

The way this power is used and limited is in fact a function that can be described as serious violations of personal freedoms and privacy.

In addition, big data can appear as data sets that can reach sizes that are really hard to perceive and reveal very random connections. To prevent this, balanced large data sets containing data on many variables should be used together and different methods and techniques of analysis and research should be used together. In addition, it should be made clear which questions are being asked to answer those that are gasping for a larger data set and should not deviate from the purpose of the study.

Digitalization and technology have created a new momentum for public administration reform, seeking reliable and reliable data and evidence for public policy. Digital technologies have incredibly reduced costs and increased speed, access and service quality. Almost infinitely large data sources are analyzed in more detail, simpler and faster and become available to public administrators and policy makers. This allows you to make decisions and policies that are more responsive to citizens' needs, deliver faster and better services, and make necessary patches to track applications more closely and instantly. Thus, it is possible to closely follow the changes in the requirements and requests of citizens and beneficiaries of services and to be able to instantly monitor them and develop solutions. It also opens new and more functional and widespread channels of participation in terms of governance and political participation. In this sense, one of the first things to do is to quickly expand Internet services and make them free, evaluating them as full-fledged public services.

It is necessary to think about the approach of the State and public administration that the new digital age requires. The most important trend that digitalization brings is decentralization in the provision of and access to dynamic services. This trend points to the need for a smaller but effective decentralized approach to public regulation that works with the Internet and artificial intelligence. The fact that the Internet has developed and expanded channels and opportunities for participation and access has increased the need for improved and democratic public administration and decision-making models. The Internet, as a more rapid and widespread full public service, is a fundamental requirement for innovation, research and more effective solidarity and cooperation networks.

Therefore, it is evident there is a need for a public administration that promotes, supports and guides cooperation, the production of new knowledge and technologies and innovation.

That seems an integral part of a faster and digital strategy for development.

The directions of implementation of the State Innovation Policy in Azerbaijan.

The legislative act on the creation of the space industry in Azerbaijan, prepared and successfully implemented by the Government, is called "On the creation of the space industry and the launch of telecommunications satellites". This guiding document was approved by an order of the President of Azerbaijan on 4 November 2008. In addition, the State Program on Establishment and Development of the Space Industry (17 August 2009) is an indicator of the importance attached by the State to the development of the space sector in Azerbaijan. As a logical consequence, the first artificial satellite of Azerbaijan, the telecommunication satellite Azerspace-1, was launched into orbit in 2013. The presence of this satellite is not only of scientific, innovative or economic significance for our country, but also directly affects Azerbaijan's military potential and its image in the world.

The law on the general development of the Republic of Azerbaijan, prepared and successfully implemented by the government, is called the "Azerbaijan 2020: Vision for the Future" development concept. [1]

The next legislative act prepared and successfully implemented by the Government for the development of education in the Republic of Azerbaijan is the "State Strategy for the development of education in the Republic of Azerbaijan", and this strategy was approved by the Presidential Decree of October 24, 2013. [www.president.az]

The next legislative act prepared and successfully implemented by the government on development of information society in the Republic of Azerbaijan is "National Strategy for Development of Information Society in 2014-2020". [.[www.president.az]

The legislative act on development of information society in the Republic of Azerbaijan, prepared and implemented by the government, is "National Strategy on Development of Information Society for 2014-2020". [www.president.az]

The legislative act prepared and implemented by the Government in connection with the development of industry in the Republic of Azerbaijan is the "State Program on Industry Development in the Republic of Azerbaijan for 2015-2020". [www.president.az]

The Law of the Republic of Azerbaijan "On Science" is a legislative act that serves and implements the development of science in the Republic of Azerbaijan and the emergence of innovative ideas based on scientific research.

The legislative act on the development of national economy in the Republic of Azerbaijan, prepared and successfully implemented by the Government, is a "Strategic road map for national economic prospects of the Republic of Azerbaijan". [http://mida.gov.az]

In terms of policy, a strategic ICT road map outlines 3 key strategies and 10 priorities, with achievement targeted for 2020:

1. Improve governance structures, and strengthen ICT;

1.1. Establish an independent regulatory body;

1.2. Liberalize the telecommunication market;

1.3. Increase mobile infrastructure investments.

2. Increase productivity and operational efficiency of the business environment;

2.1. Extend digital payments

2.2. Extend technology-based operations in business environment

2.3. Upgrade technology education with the involvement of businesses

2.4. Improve the electronic systems of government institutions

2.5. Increase knowledge and skills in the ICT sector, and apply ICT in education system.

3. Digitize government and social environment

3.1. Improve the information systems of government institutions

3.2. Create an end-to-end integrated e-health infrastructure

[Source: Government of Azerbaijan. 2016. Strategic Roadmap for Development of Telecommunications and Information Technologies in Azerbaijan Republic. Baku.]

Azerbaijani brands created with the use of innovative ideas can be considered as national brands created as a result of three different aspects of the Republic, namely, the development of business in the country, the growth of intelligence and increasing transparency: as a result of business development in Azerbaijan as developing national brands, public sector of Azerbaijan giant oil brand - Azeri light; AZERSPACE-1 telecommunication satellite, the Azercosmos product; our national brands such as AZPETROL; an example of a brand created as a result of increased transparency in Azerbaijan is a national brand such as State Agency for Service to Citizens and Social Innovations under the President of the Republic of Azerbaijan (ASAN) [5].

**Conclusion**

Finally, some other points that need to be taken into account in the process of adaptation and reform in the digital age can be summarized:

– Azerbaijan was highlighted in the first Global Competitiveness Report of the new era – 2018-2019 as the country with the highest level of social equality.

– Azerbaijan ranks first in the world in terms of the level of electricity supply to the population, receiving a maximum of 100 percent.

– Digital talents in society in all sectors need to be developed and promoted as soon as possible, especially in the area of data analysis. This increase in employment and productivity is important to speed up the innovation and development process.

– To bridge the gap with digital talent, changes must be made at all stages of educational institutions, especially universities, education systems and curricula. There is also a need for courses such as computer software and coding to be considered and applied urgently in all areas, such as mathematics.

– This is important for the innovative activity of state servants:

- to know the basic principles of the information of state authorities;
- know the features and capabilities of information technologies;
- administrative context of processes of introduction of IT in activities of state authorities;
- be able to apply analytical tools from the sphere of strategic management to assess the prospects and limitations of information technology implementation in the public administration system;
- Ability to use Internet technologies of search and analysis of the information in digital library resources in e-government registries to evaluate suitability of information technologies for specific government tasks.

**Reference:**


1. Government of Azerbaijan. 2012. Azerbaijan 2020: Look into the Future Concept of Development. Baku.
2. State Statistical Committee of the Republic of Azerbaijan. Azerbaijan Census 2019. Baku.
3. Strategic Roadmap for Development of Telecommunications and Information Technologies in Azerbaijan Republic. Baku.2016
4. Decree of the President of the Republic of Azerbaijan No 448 dated December 28, 2018 "On Approval of Rules for the Development and Integration of National Spatial Information"
5. ASAN . http://www.asan.gov.az/en
6. Citation Code - K. Huseynova, 2013 Contemporary information technology in education, EDULEARN13 Proceedings


***Keywords:*** *Azerbaijan, public administration, Information and communication technologies, electronic government, digitization*

**Xatirə Hüseynova**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının İnzibati idarəetmə fakültəsinin dekanı, iqtisad elmləri doktoru, professor*

## AZƏRBAYCANDA DİGİTAL DÖVRDƏ İNNOVATİV DÖVLƏT İDARƏÇİLİYİ PERSPEKTİVLƏRİ

### XÜLASƏ

Rəqəmsal dövr bir çox sahələrdə dəyişikliklərə rəvac vermişdir. Bu dəyişikliklər həmçinin dövlət idarəçiliyindən və dövlət siyasətindən qaçılmazdır. Odur ki, bu dəyişikliklərin texnologiya siyasətin hazırlanması prosesində necə istifadə ediləcəyi ilə bağlı tədqiqatlar aparmaq zərurəti yaranır.

Məqalədə, bu məqsədlə rəqəmsallaşdırma və bu hadisələrin inkişafı tədqiq olunmuş, sonra bu inkişafın dövlət idarəçiliyinə və siyasətlərinə təsiri müzakirə edilmiş, informasiya kommunikasiya texnologiyalarının rolu və bu sahədə biliklərin əhəmiyyətliliyi xüsusi vurğulanmışdır.

***Açar sözlər:*** *Azərbaycan, dövlət idarəetməsi, İnformasiya və kommunikasiya texnologiyaları, elektron hökumət, rəqəmsallaşma*

**Хатира Гусейнова**
*Декан факультета Административное управление*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор экономических наук, профессор*

# ПЕРСПЕКТИВЫ ИННОВАЦИОННОГО ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ В АЗЕРБАЙДЖАНЕ В ЦИФРОВОЙ ПЕРИОД

## РЕЗЮМЕ

Цифровой период способствовал изменениям во многих сферах. Эти изменения неизбежны и в сферах государственного управления и государственной политики. Поэтому возникает необходимость проведения исследований в связи с тем, как будут использованы эти изменения в процессе разработки технологической политики. В представленной статье с этой целью были исследованы цифрование и развитие этих процессов, затем обсуждены влияние этого развития на государственное управление и государственную политику, особо отмечена роль информационно-коммуникационных технологий и значимость знаний в этой области.

***Ключевые слова:*** *Азербайджан, государственное управление, информационные и коммуникационные технологии, электронное правительство, цифровизация*

## DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ
## SUSTAINABLE DEVELOPMENT MANAGEMENT

UOT 351/354; UOT 351

**NIGAR VALIYEVA**
**Professor of English Lexicology and Stylictics Department**
**of the Azerbaijan University of Languages, Doctor of Philological Science**
*e-mail: nigar_veliyeva@yahoo.com*

# THE ACTIVITIES OF THE HEYDAR ALIYEV FOUNDATION FOR THE SAKE OF A MODERN MULTICULTURAL AND HEALTHY SOCIETY'S DEVELOPMENT

Up-to-date there is observed a great progress, development, highly positive tendencies in all spheres of the Azerbaijan's life, particularly in the sphere of economics, politics, in the consolidation of the Azerbaijan's position in the world, in the domain of social processes and sport. On the base of present policy is the way, which pointed by the National Leader of the Azerbaijani people – Heydar Aliyev. In the beginning of the 90's years of the XX century due to his sagacity, policy, long-sightedness, political experience Azerbaijan had been saved from many problems and misfortunes and was lead out of that to the way of evolution.

According to the estimates of international organizations held in 2018, the indicators of inclusive development of Azerbaijan are higher than those of the more economically developed countries, members of the G7, the European Union, the Organization for Economic Cooperation and Development. In the Republic of Azerbaijan, this achievement is attributed to the use of innovative technologies in the management of development processes (2, s.202).

Today a successful development of the Azerbaijan Republic together with many other factors depends of such agencies. For a comprehensive elaboration of all spheres, also the good formation and consolidation of the civilian society in Azerbaijan, it is necessary to reinforce the intercultural dialogue. The representatives of various nations and religions in Azerbaijan live as a whole one family. It is a main factor for the progressing of our country. It is a course of our state policy, and also the activity of the representatives of the spirituality on the basis of a great feeling of the Azerbaijani people.

The national security system has many components – economic security, transport security, energy security, food security and so on. Each of them taken separately or together is an important component in the life of the state. It is also important to include multicultural values as a national security component, as they are integral parts of moral, spiritual and ideological life. The country has to ensure multicultural security, as it ensures energy security, economic and national security. Multicultural security essentially means the protection of cultural values of all peoples, irrespective of their ethnicity, religion, race and culture (1, p.43).

The National Leader of the Azerbaijani People introduced multiculturalism as an integral part of the ideology of Azerbaijan. He is, therefore, considered the political founder of multiculturalism in Azerbaijan (1, p.54).

From year to year the positions of Azerbaijan's diplomacy in all directions, from the CIS to South America, are strengthening, bringing visible dividends. Having become a leader in socio-economic development in the post-Soviet space, and declared by the state with the

fastest growing economy in 2012, the country is known first-hand in the world. Azerbaijan's President Ilham Aliyev has proven for many years that he is able to skillfully transform uncomfortable, unfavorable realities into accompanying conditions. This allows extracting maximum benefits for the country and at the same time dominates the mood for equal partnership with all states, regardless of the geopolitical weight, the strategy of actions of venerable defendants in an immense field.

A subtle understanding of the trends of world geo-economics, the desire to always be in the orbit of predictability certainly responds positively. Due to the efforts of Ilham Aliyev, this lesson has been learned for modern Azerbaijani diplomacy, as the following principles of the foreign policy work of the President of Azerbaijan exist: openness, predictability, systemic multi-vector approach, pragmatism, and consistent promotion of national interests.

Today, thanks to the great efforts of the President, Azerbaijan has strengthened its historical status of the most significant state in the South Caucasus in volume and dynamics of the economy, and its natural resources act as a means for the development of other areas. As a result, the country's modern industry is in the list of the forty most efficient global economies.

The advantageous geostrategic position, the presence of rich natural resources and an independent foreign and domestic policy are of great interest to our country and attract attention from the world's leading centers. Managing such a state requires from a political leader not only a clear and large-scale, but at the same time sensitive, down to the smallest nuances, vision of the geopolitical picture, as well as having a political, analytical mind, logical thinking, and, if necessary, the ability to show diplomatic flexibility, softness, strength or hardness.

All the above-mentioned qualities inherent to the President of Azerbaijan proceed from the main postulate – selfless and devoted love to the Motherland and the people.

Everyone knows from history the fact that a great leader always has a strong representative of the weaker sex nearby. This can be a mother, sister or spouse. The Azerbaijani people remember and deeply respect the mother and sister of Mr. President. But now the Vice President of Azerbaijan Mrs. Mehriban Aliyeva, who leads the Heydar Aliyev Foundation, is reliable sister-in-arms, solid supporter and trusty associate.

External and internal beauty, simplicity, sincerity, sensitivity, humanism, humanity, goodwill, wisdom, integrity, justice, exquisite taste, charisma, inherent in the First Lady of Azerbaijan, are manifested in all aspects of her life. It is difficult to understand how in the modern time of the globalization of the world all these features can be embodied in one person. In all likelihood, this is the historical mission from the Most High to our esteemed Mehriban Khanum, because in the broad sense of the word, this mission goes beyond the limits of the protocol, administrative rules, official norms and this distinguishes it from all the first ladies of the leading advanced countries of the world.

Bringing the rich spiritual heritage of the Great Leader, his Azerbaijanism ideas to the younger generations, to take an active part in the further prosperity of the independent Azerbaijan created by the National Leader, to extend a helping hand to people and to do good deeds constitute the core of the activities of Heydar Aliyev Foundation and its President Mehriban Aliyeva.

One of the main directions of Heydar Aliyev Foundation's multifaceted activity, headed by Mehriban Aliyeva, is the promotion of our culture, statehood traditions and history throughout the world. Nowadays, serious achievements are achieved thanks to the fact that the true facts about the Armenian–Azerbaijani conflict are presented to the world community, the recognition of the Khojaly genocide, the proper propagation of our culture, history, nature, and statehood traditions.

In February 26, 1992, during occupation of Khojaly, was the act of vandalism of civilians. Studies on the Khojaly genocide, its political and legal assessment, as well as the recognition of Khojaly tragedy are presented in the book of Ali Hasanov, which was presented in different languages. The main purpose of the book's author is to bring the perpetrators of the crime to the world community and to bring them to justice, combining all humanity in the fight against violence. Ali Hasanov noted that for over twenty years Armenia hasn't been fulfilling the four UN resolutions adopted on the Nagorno-Karabakh conflict. The book is intended for foreign policy experts, as well as for a wide audience of readers: peace-loving people all over the planet, the civilized nations, authoritative international organizations, and the global community should be aware of this better truth and that crime against humanity (3).

Every year a series of events are being held within the framework of the international campaign "Justice for Khojaly" initiated by Vice President of the Heydar Aliyev Foundation Leyla Aliyeva. As a result of these measures, the fact that the Khojaly tragedy is genocide is recognized by many countries and international organizations. Parliaments of Canada, Mexico, Colombia, Peru, Pakistan, Bosnia and Herzegovina, Romania, the Czech Republic, Jordan, Honduras and other countries, as well as the legislative bodies of several US states and the Organization of Islamic Cooperation recognize the Khojaly genocide.

The organization of various events dedicated to the 100-th anniversary of the Azerbaijan Democratic Republic in London, Paris, Rome, Vatican, Warsaw and Berlin, as well as the 20-th anniversary of the restoration of our independence, is an invaluable contribution of the Foundation to the promotion of our country's rich statehood traditions.

Fifteen years have passed since the found of the Heydar Aliyev Foundation, which activity is based on National Leader's ideas, who was genius personality, has gained great popularity in Azerbaijan, in the region as well as throughout the world as has made significant achievements in the field of science and education, health, culture, social, sport, ICT, environmental protection and other important projects.

The Heydar Aliyev Foundation successfully performs the mission of promoting the unique culture of Azerbaijan in the world. The Foundation is organizing international exhibitions, cultural events and other events in our country, in the magnificent city of the world. An example is the holding of Days of Azerbaijani Culture in Athens, Cannes, Cannes and other countries around the world, opening of the Azerbaijan Cultural Center in the French capital, as well as the construction of monuments of our outstanding personalities in various cities around the world. London, Paris, Berlin, "Fly to Baku. Contemporary Art of Azerbaijan", as well as photo exhibitions "Azerbaijan – space of tolerance" organized in various cities of the world, exhibitions in Azerbaijani pavilions organized at the Venice Biennale, along with the special importance of Azerbaijan in the world, and the international community's interest in our country served.

The great personality Heydar Aliyev, with his tense and tireless activity, has quickly put Azerbaijan on the path of dynamic development. The Great Leader always pays special attention to young people and draws attention to their role in ensuring the future of independent Azerbaijan: "I wish our youths to be always healthy, well-educated, well-educated, able to hold their positions in the community, be useful to the community, to live our national traditions, to be faithful to their parents, to always respect their parents, to demonstrate a high culture".

It is well-known that the greatness of a nation is estimated by the degree of its culture. The culture of every nation is a complex of moral values that make up the spiritual life of a nation. Religion, art, ethnographic customs and traditions are a special part of the cultural heritage of society. If we conduct a historical excursion, we will witness that only outstanding individuals are those who preserve, develop,

and give a start in the long life of national cultural values.

It is necessary to mention that "globalization of culture includes the synthesis of the world cultural values and an organization of its new form. An enlargement of the cultural relations between nations in the modern world, their communication and mutual understanding come to close connections among these peoples. However such kind of contiguity is not existed of the little peoples under the influence of big nation's culture and also comes to the union cultural sameness, identity" (5, p. 29).

"The Foundation will study Heydar Aliyev's political heritage, analyze, research and propagate it. The Foundation faces great challenges. Fund is a public organization. I hope that the Fund's role in the public life of Azerbaijan will be great ". President Ilham Aliyev said in his speech at the opening ceremony of the Heydar Aliyev Foundation in 2004. These ideas, reflected by the head of state, have been reflected in the activities of the Heydar Aliyev Foundation over the past 15 years.

The great leader Heydar Aliyev believes that culture is a great asset of the people, always paying special attention to the development of this sphere. The National Leader often met sincere conversations with the culture figures and was interested in existing problems. In the early years of independence, our culture, which has been in a period of recession, has embarked on a new path of development after the Great Leader regained power. Theaters, museums opened their doors again to people, and talented artists who left the country returned to their homeland.

Today, Azerbaijani culture is taking care of these new achievements. On March 1, 2019 President Ilham Aliyev and first lady Mehriban Aliyeva met with a group of cultural figures, their sincere talk with them about the current problems and ways to resolve them once again confirms that this care is sustained by the Great Leader in our country. The restoration of historical and cultural monuments, building and putting into operation of new cultural centers, and steps taken to improve the social welfare of cultural workers are the key factors that contribute to the prosperity of this sphere and the acquisition of new achievements. A significant contribution to the achievements of Heydar Aliyev Foundation should also be emphasized in this area. The Foundation constantly participates in the development of Azerbaijani culture with its projects.

In this regard, we need to emphasize the preservation and restoration of our historical and cultural monuments and the introduction of new cultural facilities. Over the past 15 years, the mausoleum was erected on the grave of Javad Khan in Ganja, restoration of Ganja gates, reconstruction of "Birds of Flies", Modern Art, "From Waste to Art", "Painting of Azerbaijan in XX-XXI Centuries", Azerbaijan Carpet, Stone Chain, Silk Road Archeology and Museums, new cultural palaces, mugham centers and music schools are part of the large-scale work carried out by the Heydar Aliyev Foundation in this field.

The revival of mugham is one of the main achievements of the activities of the first lady of Azerbaijan in the field of culture. In all likelihood, the genetic roots and genetic code from Shushi, from which the deceased grand-mother Pusta khanum, the mother of father Mehriban khanum, originated, played a role here.

It is worth mentioning the various musical projects organized by the Foundation and tradition, including the Music Festival held in Gabala, Ashug, "World of Mugam" – the Mugam International Festival, Uzeyir Hajibeyli International Festivals, the International Bulbul Vocalists' Competition, Mstislav Rostropovich Festival, Mugham television competitions and numerous concerts.

The richness and diversity of Azerbaijani culture can be explained by its foundation on elements of Zoroastrianism, Christianity and Islam (1, p.151). The ancient and rich cultural heritage is the pride of the Azerbaijani people. This includes the art of carpet weaving, whose

age is estimated at centuries, literature, Azerbaijani music, representing the fascinating harmony of Eastern and Western music, as well as monuments of Azerbaijani architecture called "frozen history". Owing to Heydar Aliyev Foundation the Azerbaijani mugam, Novruz holiday, ashug art, carpet weaving is included in the UNESCO list of tangible cultural heritage.

The musical culture of Azerbaijan is rich in the traditions of multiculturalism. We can see their diversity in the heritage of traditional oral music and in the work of composers (1, p.188). So, in 2008 Azerbaijan debuted at the Eurovision Song Contest. In 2011, Azerbaijan won Eurovision Song Contest for the first time, and successfully hosted the 2012 contest with the high level of Heydar Aliyev Foundation. The multi-faceted work of the Heydar Aliyev Foundation under the leadership of Mehriban Aliyeva is invaluable. The construction of the Crystal Hall, the organization of reception and departure of guests from all countries of the world, entertainment events were held at the highest level.

Generally, every project implemented by the Heydar Aliyev Foundation promotes education, peace, and respect for human values through its high organization, publicity, and reference to our rich culture.

Nasimi – Poetry, Arts and Spirituality Festival organized by Heydar Aliyev Foundation for the first time in Azerbaijan last year included these values. Numerous cultural projects, events, symposiums, exhibitions, concerts and performances organized by the Foundation are greatly appreciated by our society, and attract large audiences.

The Heydar Aliyev Foundation under the leadership of Mehriban Aliyeva represents internationally various works of music, architecture, visual and artistic art. As a result of these works, the Azerbaijani society today recognizes Mehriban Aliyeva as the holder of our culture.

In 2015, the First European Games were held in Azerbaijan from 12 to 28 June. Mehriban khanum was the Chairman of the Organizing Committee of the First European Games. The official games budget was 1.12 billion dollars. About 20,000 volunteers took part in the preparation of the First European Games. The first European Games were broadcast in more than 50 countries of the world. Azerbaijan ranked second after Russia (164 medals), winning 56 medals. Mass media and international expert organizations noted a high level of organization during the preparation and holding of the Games. The Heydar Aliyev Foundation, under the leadership of Mehriban Aliyeva, organized the data of the First European Games at a very high international level and for his great services Mehriban Aliyeva was awarded the Order of Heydar Aliyev. The first lady of Azerbaijan was awarded the Highest Order of the European Olympic Committees.

President of the Heydar Aliyev Foundation has acted as the Head of the Organizing Committee not only of the First European Games and but also of the IV Islamic Solidarity Games, playing an important role in organizing these competitions at the Olympic Games. Azerbaijan, which has been in the focus of the world for a long time, has successfully hosted these prestigious events thanks to the highly organized organizational capacity of Mehriban Aliyeva.

The National Leader has determined the coordinates of the bright future of modern-independent Azerbaijan, ways of ensuring national solidarity, independence, prosperity and development. Our grateful nation, always remembering the historical services of the Great Leader, perceives Heydar Aliyev's ideas as the guarantor of the future development of our country and supports the path established by the National Leader. Therefore, every period of genius Heydar Aliyev's ideas, philosophy, social and political activity should be studied and presented to future generations.

During fifteen years the Heydar Aliyev Foundation always gives great support to the implementation of the ideas set by the National Leader for the socio-economic, cultural progress

of our country, the improvement of the material wellbeing of our people, and the formation of a healthy, educated Azerbaijani society. For the last years Heydar Aliyev Foundation has made significant progress in various spheres of education, health, culture and sports, protection and promotion of the spiritual heritage of our people, proper delivery of fair position of our country in the Armenia-Azerbaijan Nagorno-Karabakh conflict, and other areas.

The establishment of modern education system in our country, and the enlightenment of young people at the highest educational schools and universities were an integral part of the ideas of the National Leader.

Today, educational institutions in every part of Azerbaijan are fundamentally restored or reconstructed. The Heydar Aliyev Foundation is also supporting the work done by the President Ilham Aliyev to modernize the education system of our country and to provide young people with better education. Projects implemented at the initiative of Heydar Aliyev Foundation's Mehriban Aliyeva and Vice-President of the Foundation, Leyla Aliyeva, make significant contributions to the successes achieved in this direction. The scale of the work done to improve the quality of education in Azerbaijan as well as within the country is evident in the framework of the Foundation's "Development of children's homes and boarding schools", "New school for renewable Azerbaijan", "Education support", "Preschool educational institutions development" and other programs.

Within the framework of the program "Development of children's homes and boarding schools", 39 childcare facilities have been rebuilt in the country, equipped with modern equipment, additional support facilities have been built and utilities have been improved. Also, the dwelling houses for girls who have been brought up in orphanages and over 18 years of age have been built. The Foundation also pays special attention to children's homes and boarding schools, where the students hold mass events, festivals and competitions in order to effectively spend their leisure time and educate them on patriotism.

About 500 schools have been built and rebuilt within the framework of the "New school to renewed Azerbaijan" program since 2005, with more than 100,000 pupils trained. Each of these schools has modern laboratories, libraries, cafes and cafeterias, computer rooms equipped with computer rooms, workshops, gyms and wide courtyards.

Mehriban Aliyeva – President of the Heydar Aliyev Foundation always pays special attention to the children of refugee and IDP families. Within the framework of the Foundation's "Support to Education" program, school supplies are regularly donated to first-class pupils from refugee and IDP families.

At the initiative of Mehriban Aliyeva, a number of kindergartens throughout the country have been overhauled and equipped with modern equipment, as well as regularly distributing various visual aids to pre-school institutions. It is necessary to mention that with the support of the Heydar Aliyev Foundation some schools of foreign countries have been reconstructed and capital repaired, for instance: the construction of a new secondary school for girls in the Rafah region of Muzaffarabad, Pakistan, the construction of a new school building for the disaster-affected girls, projects implemented in Georgia and other similar initiatives is an indicator of the Foundation's goodwill. Heydar Aliyev Foundation's one of the main tasks is to raise the healthcare system in Azerbaijan to the highest level as in the world's leading countries. Today, health institutions are equipped with state-of-the-art medical facilities, professional cadres are created, and people are involved in free examinations in the capital Baku and in all regions of our country.

The Foundation, led by the First Vice President of the Republic of Azerbaijan Mehriban Aliyeva, has carried out large-scale projects in all spheres of the country's life, extending its hand to the needy and supporting them. Heydar Aliyev Foundation realized unique projects such as "High care for children

with diabetes", "For the sake of life without thalassemia", "Rebuilding and reconstruction of medical facilities". The realization of such projects is the important contributions for our people. A modern Thalassemia Center has been built in Baku by the initiative of the Foundation. Thanks to the care and attention of Mehriban Aliyeva, Rehabilitation Center for Children with Special Needs, Center for Surgery and Organ Transplantation at the Central Oil Workers' Hospital, Psycho-Neurological Child Center and other healthcare facilities were built or substantially rebuilt and put into operation.

Projects realized by Heydar Aliyev Foundation in this field have been successfully implemented throughout Azerbaijan, along with all regions of Azerbaijan. Projects, implemented in Djibouti, Bosnia and Herzegovina, Russia and Georgia, demonstrate the humanity and nobility of the Azerbaijani people in the face of Mehriban Aliyeva, President of the Heydar Aliyev Foundation. It should be noted that in the period of globalization of the world and intercultural communication, the hero of our modern time is the first lady of Azerbaijan, whose contribution is invaluable, since there is no such area of activity where Mehriban Aliyeva would not render special assistance in solving various problems.

The fact is that ancient science speaks of the sacrament and the fate-bearing nature of human names. I believe in it. The name "Mehriban" in Azerbaijani means "affectionate, gentle, kind, benevolent, merciful". This name fully reveals the character of the country's first lady, who has headed the Heydar Aliyev Foundation since 2004 and the culture fund of Azerbaijan.

The Heydar Aliyev Foundation is actively involved in the construction of a new society, in the socio-economic and cultural development of Azerbaijan, thanks to the implementation of projects in the fields of science, education, technology, health, environment, culture and sports. The main goal of the Heydar Aliyev Foundation is to transfer the ideas of national statehood to the younger generations and explain the philosophy of Azerbaijanism to Heydar Aliyev, promote healthy lifestyles, and bring Azerbaijani realities to the world community.

Azerbaijanism is an idea designed to promote the political, economic, social and cultural development of the Azerbaijani people (1, p.46).

Ramiz Mehdiyev in his book "The National Idea of Azerbaijan in a Period of Global Transformation" refers to eight stages in the birth and formation of the national idea of Azerbaijan from 1828 to the present day. Each stage begins with an important historical event. The seventh stage of the formation of the national idea of Azerbaijan covers the period from 1993 to 2003, when the National Leader of the Azerbaijani People Heydar Aliyev was in power. Highly appreciating the work done by Heydar Aliyev in shaping the national idea, Ramiz Mehdiyev writes: "At this stage the national idea is reflected in the ideas of state and national independence. As a result of the policy pursued by Heydar Aliyev, all the collective forms of self-identification – ethnic, religious, socio-cultural, economic, and political, etc., were included in the concept of the "nation". The idea of Azerbaijan is becoming the idea of all the ethnic groups that live in Azerbaijan and see Azerbaijan as their motherland" (4, p. 52-88).

The foundation's activities are multidimensional: in a globalizing world, implementing projects in the fields of science, education, health care, culture, ecology, and sports; solving local social problems of the population; identifying and contributing to the development of the creative potentiality, knowledge, abilities and skills of people; preservation of Azerbaijani culture and spiritual and moral values; conducting research; development of medicine, health facilities, infrastructure of children's organizations; organization of conferences, exhibitions of talented youth, scientists and art workers.

Since Mehriban Khanum, having graduated from the Moscow State Medical Institute named after IM Sechenov, is a doctor by profession,

it is not surprising that she chose this specialty. Nobility, philanthropy, mercy and benevolence are prophetic, and genetically embedded in this person. The Heydar Aliyev Foundation, under the leadership of Mehriban Aliyeva, always helps people in need, for example, in the area of restoring health – is engaged in constant treatment of people suffering from serious genetic diseases, such as thalassemia, hemophilia, diabetes; in the field of education, art, sports.

Mehriban Aliyeva, who was appointed First Vice President of the Republic of Azerbaijan by the Order of President Ilham Aliyev in 2017, is worthy of this responsible and glorious task. Mehriban Aliyeva, who is the first vice-president to address refugee and IDP problems, is always at the sensitive layer of the population, listening to issues that concern them. So far, 103 settlements, towns have been built and more than 300,000 IDP families have been provided with housing. The Heydar Aliyev Foundation, led by Mehriban Aliyeva, also takes an active part in these works. So, the Fund regularly organizes charitable campaigns for IDPs.

Heydar Aliyev Foundation and its President Mrs. Mehriban Aliyeva enjoyed great love for people of Azerbaijan and far beyond the borders of our country. In recent years, the Heydar Aliyev Foundation has restored a number of architectural monuments, including the Palace of Versailles included in the List of World Cultural Heritage. Among other things, the Heydar Aliyev Foundation helped to restore the 14-th century Notre Dame Cathedral, the Cathedral in Strasbourg, destroyed during the Second World War, the Berlin Castle, as well as medieval Azerbaijani manuscripts stored in the Vatican archives. The Heydar Aliyev Foundation continues the restoration of cultural monuments in the Vatican.

The restoration of five windows of the XIV-th century of the Strasbourg Cathedral, the restoration of the "Amazonka" in the park of the Versailles Palace and the "Vase decorated with carpet heads", the seven churches belonging to the X-XII-th centuries in France, the restoration of the Trapezitsa Architectural Museum Reserve located in Veliko Tarnovo, The Heydar Aliyev Foundation, renovating the "Philosopher's Hall" of the Capitolini Museum in Rome, participated in the creation of new halls devoted to the Islamic art at the Louvre Museum in Paris, and joined the initiative to restore the destroyed castle of the Berlin castle during World War II. Moreover, the Fund has closely participated in the recovery of catacombs of the most important monuments for the Christian world on the basis of the "Treaty on the Roman Catacomb Reconstruction", signed between the Heydar Aliyev Foundation and the Holy Trinity.

Mrs. Mehriban Khanum is the head of the working group on Azerbaijani-French inter-parliamentary relations, the President of the Friends of Azerbaijan Culture Foundation, the President of the Azerbaijan Gymnastics Federation and the Goodwill Ambassador of UNESCO, UN, OIC and ISESCO. The international activities of the Heydar Aliyev Foundation are not limited to cultural events. The foundation built a new school for girls in the Pakistani city of Muzaffarabad, as the old school was destroyed by an earthquake. Also, educational schools were built and repaired in Egypt, Holland, Romania, Russia and Georgia. The Heydar Aliyev Foundation helped the people affected by floods in Romania, the earthquake in Haiti. The Fund contributes to the expansion of intercultural dialogue between Azerbaijan and other countries.

The Heydar Aliyev Foundation, based on the ideas of the Great Leader in its basic principles, has made a great contribution to the prosperity of our country, successfully carries out its mission of goodness, propagation of Azerbaijan, its culture and serves the country and the people dignity. In contemporary world politics, Ilham Aliyev can fully and confidently reflect all his political qualities, and thus the people of Azerbaijan once again sincerely support the worthy follower of Heydar Aliyev and his political course. We should not forget that today's sovereign modern Azerbaijan is Heydar Aliyev's work. And the Azerbaijanis of the world should not betray this savings; they should always preserve their homeland as an eye.

**References:**

1. Abdulla Kamal & Etibar Najafov. (2018) Azerbaijani Multiculturalism. Baku, Şərq-Qərb, 487 p.
2. Alakbarov Urkhan. (2019) Fundamentals of Inclusive Development Management. Bakı, Təhsil, 215 p.
3. Ali Hasanov. (2018) Khojaly genocide. Bishkek, Turar.
4. Mehdiyev Ramiz. (2017) The National Idea of Azerbaijan in a Period of Global Transformation. Book II, Moscow, Столица, 684 p.
5. Valiyeva Nigar. (2018) Synergetics of the Language, National Consciousness and Culture by Globalization. Germany, Saarbrükken, Lambert Academic Publishing House, 227 p.

***Keywords:*** *Heydar Aliyev Foundation, activities, philosophy of Azerbaijanism, intercultural dialogue, multiculturalism, mercy*

**Nigar Vəliyeva**
*Azərbaycan Dillər Universitetinin İngilis dilinin leksikologiyası və üslubiyyatı kafedrasının professoru, filologiya elmləri doktoru*

## MÜASİR MULTİKULTURAL VƏ SAĞLAM CƏMİYYƏTİN İNKİŞAFI NAMİNƏ HEYDƏR ƏLİYEV FONDUNUN FƏALİYYƏTİ

### XÜLASƏ

Müasir dünya siyasətində Prezident İlham Əliyev bütün siyasi keyfiyyətlərini tam və inamla əks etdirə bilir və, beləliklə, Azərbaycan xalqı bir daha Heydər Əliyevin layiqli davamçısını və onun siyasi kursunu bir daha səmimi şəkildə dəstəkləyir. Ulu Öndərin əsas prinsiplərinə söykənən Heydər Əliyev Fondu, ölkəmizin çiçəklənməsinə böyük töhfələr vermiş, xeyirxahlıq, Azərbaycanın, onun mədəniyyətinin təbliği missiyasını uğurla yerinə yetirir. Unutmamalıyıq ki, bugünkü suveren müasir Azərbaycan Heydər Əliyevin əsəridir. Dünya azərbaycanlıları bu əmanətə xəyanət etməməlidir; hər zaman vətənlərini bir göz bəbəyi kimi qorumalıdır. Diqqətinizə təqdim olunmuş məqalə Heydər Əliyev Fondunun 15 illik çoxşahəli fəaliyyətinin qısa ekskursuna həsr edilib.

***Açar sözlər:*** *Heydər Əliyev Fondu, fəaliyyət, Azərbaycançılıq fəlsəfəsi, mədəniyyətlərarası dialoq, multikulturalizm, mərhəmət*

**Нигяр Велиева**
*Профессор кафедры Лексикологии и стилистики английского языка Азербайджанского Университета Языков, доктор филологических наук*

## ДЕЯТЕЛЬНОСТЬ ФОНДА ГЕЙДАРА АЛИЕВА ВО ИМЯ РАЗВИТИЯ СОВРЕМЕННОГО МУЛЬТИКУЛЬТУРНОГО И ЗДОРОВОГО ОБЩЕСТВА

### РЕЗЮМЕ

В современной мировой политике Президент Азербайджана Ильхам Алиев в полной мере и совершенно уверенно выражает все свои политические качества, и, таким образом, Азербайджанский народ вновь искренне поддерживает достойного последователя Гейдара Алиева и его политический курс. Фонд Гейдара Алиева, основанный на основных принципах и идеях Великого лидера, внёс большой вклад в процветание нашей страны, успешно выполняет свою миссию добра и благотворительности, пропаганды Азербайджана, его культуры. Мы не должны забывать, что сегодняшний суверенный современный Азербайджан - это произведение Гейдара Алиева. И азербайджанцы всего мира всегда должны беречь это наследие; беречь свою Родину как зеницу ока. Представленная статья посвящена краткому экскурсу деятельности Фонда Гейдара Алиева.

***Ключевые слова:*** *Фонд Гейдара Алиева, деятельность, философия азербайджанства, межкультурный диалог, мультикультурализм, милосердие*

# KONSTİTUSİYA HÜQUQU; İNZİBATİ HÜQUQ
# CONSTITUTIONAL LAW; ADMINISTRATIVE LAW

UOT 340.1; 321.01
UOT 342.951; 351.9

**ƏLİ RZAYEV**
**Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutunun baş elmi işçisi, hüquq üzrə elmlər doktoru, professor**
*e-mail: doktor-rzayev-ali@mail.ru*

## İDARƏETMƏ QƏRARI: ANLAYIŞI VƏ MƏZMUNU

*Əgər istəyirik ki, bizim qərarlar qoyulan məqsədə çatsın, onda onlar təbiət qanununa zidd olmamalıdır, çünki əgər zidd olarsa, onda qərarlar yerinə yetirilməz vəziyyətdə olacaq.*
*K.Popper*

*Tez-tez müzakirə etmək, bir dəfə həll etmək lazımdır.*
*Publiy Sir*

İdarəetmənin müasir təcrübəsində idarəetmə qərarlarının icrasına sosial məsuliyyətin miqyası genişlənir. Müasir idarəetmə sisteminin mürəkkəbləşməsi qabaqcıl informasiya texnologiyalarının istifadəsi idarəetmənin prinsipial təkmilləşməsinə zərurət yaradır. Bu cür baxış idarəetmənin innovasion mexanizmlərini nəzərə almaqla həyata keçirilir. Burada idarəetmə subyektlərinin üzərinə idarəetmə qərarlarının hazırlanması, qəbulu və icrasının daha effektiv forma və metodlarının tətbiqi əsasında təmin olunan nəticələrə çatmağın təşkili məsələsi qoyulur. İdarəetmə qərarı hakimiyyət – idarəetmə subyektinin fəaliyyətinin əsas məhsuludur. Hər bir idarəetmə qərarı dövlətin iqtisadi, təşkilati, sosial, hüquqi maraqlarına istiqamətlənir.

İdarəetmə orqanının işinin uğuru idarəetmə qərarlarının effektivliyindən asılıdır. Odur ki, hər bir idarəetmənin qərarı elmi əsaslandırılmalı və vaxtında qəbul edilməli, qanunvericilik aktlarına və hadisələrin gedişinə uyğun olmalı, inkişafın obyektiv şərtlərinə cavab verməli və idarəetmə obyektinin inkişafına istiqamətlənməlidir (1, s.117).

Hər bir insan hər gün müxtəlif xarakterli qərar qəbul edir və çox halda bunu sağlam düşüncə səviyyəsində xüsusi hazırlıq olmadan edir. İdarəetmə qərarı idarəetmə proseslərinin (funksiyalarının) bir hissəsi olduğundan “idarəetmə” adlanır. İdarəetmə qərarı bütün idarəetmə fəaliyyətindən – məqsədlərin formalaşdırılmasından başlayaraq onun realizəsinə qədər fəaliyyəti əhatə edən istənilən idarəetmə prosesinin tərkib hissəsidir.

İdarəetmə qərarlarının hazırlanması və qəbulu prosesinin effektivliyinin artırılması üçün birinci növbədə, “idarəetmə qərarı” anlayışının və onun məzmununun müəyyən edilməsi, onun səciyyəvi xüsusiyyətlərini və prosessual təşkilini tədqiq etmək zərurəti yaranır. İdarəetmə qərarları şüurun, ağılın və emosiyanın məhsulu, düşüncə prosesinin ifadəsi olan məntiqi və iradi aktdır. İnsanın hansı tələbatı, hansı marağı olmasına, hansı idealları, dəyərləri və məqsədləri əsas götürülməsinə baxmayaraq, o bütün bunları öz şüurundan “buraxır” və onun daxilində idrak, davranış və fəaliyyətin çoxlu mümkün variantlarından seçim edir (3, s.256).

Hüquqi ədəbiyyatda idarəetmə qərarına: təşkilatın məqsədlərinə çatmağa istiqamətlənmiş idarəetmə subyektinin vəzifə səlahiyyət və kompetensiyası cərçivəsində həyata keçirdiyi alternativlərdən seçim; bu təhlilin, proqnozlaşdırmanın, optimallaşmanın, iqtisadi əsaslandırmanın nəticəsi, konkret məqsədə çatmaq üçün çoxlu variantdan alternativin seçimi; təşkilatın real vəziyyətinin arzu olunan vəziyyətə uyğunlaşdırmaq üçün nəzərdə tutulanları həyata keçirilən fəaliyyətinin məcmusu; vəzifəli şəxsin daha effektiv, daha rasional və ya daha optimal variantların axtarışı və tapılması; idarəetmə qərarlarının qoyuluşu və hazırlığının son nəticəsi; öz səlahiyyəti çərçivəsində vəzifəli şəxsin, rəhbər işçinin həyata keçirdiyi çoxlu alternativdən birini seçmək üçün təfəkkür, emosional və hüquqi akt kimi baxılır. Beləliklə, ümumi şəkildə idarəetmə qərarının qəbulu anlayışına bütün hallarda məqsədlərin və onlara çatmağın, informasiyanın təhlili və onun qiymətləndirilməsi, düşüncədə hərəkətin edilməsini (modelləşdirilməsi) əhatə edən müəyyən mərhələləri nəzərdə tutan hadisələrin inkişafının mümkün alternativdən birini seçmək prosesi kimi dərk edilir.

İdarəetmə subyektlərinin idarəetmə qərarları ilə əlaqədar fəaliyyəti əhəmiyyətli yer tutur. Onlar idarəetmə qərarlarının hazırlanması, qəbulu və realizasiyası ilə əlaqəli daim olaraq nəsə edirlər. Bir qismi qərarı hazırlayır, başqaları – qəbul edir, üçüncülər – icra edir, dördüncülər – yekunlaşdırır, beşincilər isə proqramlaşdırır. Xətti və funksional təşkilatı strukturda rəhbərlərin həyata keçirdiyi idarəetmə qərarı qərarların əsas növüdür. İdarəetmə qərarı – bu kollektiv yaradıcı əməyin nəticəsidir, o həmişə sosial və ictimai xarakter daşıyır. İdarəetmə subyekti tərəfindən qəbul olunan qərar institusional xarakter alır, sərbəst həyata başlayır. İdarəetmə qərarlarının institutlaşması qərar subyektlərini məcbur edir ki, onlar idarəetmə qərarlarının elementlərinə: niyyətinə, məzmununa, formasına, vəsaitlərin istifadəsinə, icra metodlarına və b. olduqca diqqətli yanaşsınlar.

İdarəetmə qərarı geniş mənada bütün idarəetmə prosesi ilə eyniləşdirilir; dar mənada isə çoxlu alternativ variantlardan yaxşını seçmək kimi baxılır. İdarəetmə qərarı termini iki əsas mənada – həm proses və həm də təzahür kimi baxılır. Proses kimi: qərarın hazırlanması; qəbulu; realizəsi; təzahür kimi isə: plan, qərar, şifahi sərəncam kimi ifadə olunur.

**Dövlət idarəetmə qərarına hüquqi tələblər**

*"Kim qəzəblidirsə yaxşı olar ki, qərarın qəbulunu başqa vaxta dəyişdirsin".*

*Seneka*

İdarəetmə qərarlarında dövlət idarəetmə qərarı daha mühüm əhəmiyyət daşıyır. Dövlət idarəetmə qərarı dövlət hakimiyyəti – idarəetmə subyektinin düşünərək rəsmi formada ifadə etdiyi, sosial gerçəkliyə məqsədəyönlü təsir seçimidir. Bu anlayışa daha geniş mənada – öz səlahiyyəti daxilində dövlət orqanının və ya vəzifəli şəxsin qəbul etdiyi mövcud dövlət aktlarında təsbit olunan, rəsmi ifadə forması alan dövlətin hakimiyyət iradəsi kimi göstərilir.

Atamançuk Q.V. idarəetmə qərarlarının qəbulu və realizəsində aşağıdakı hüququ tələblərə cavab verməli olduğunu göstərir:

Birinci, idarəetmə qərarları kim tərəfindən, nə vaxt və nə səbəbdən qəbul edilməsinə baxmayaraq özündə hüququ dəyərlər daşımalı və həyatda təsdiq olunmalıdır.

İkinci, idarəetmə subyektlərinin istənilən növlərindən idarəetmə qərarları qanunların praktiki icrası naminə, qanunlar əsasında, onun ruhuna və hər bir nöqtəsinə uyğun olmalıdır. Üç hüququ təzahür – qanun, qanunçuluq və hüquq qaydaları – bunlar birlikdə idarəetmə qərarları və onların mənasını əks etdirən sistemi yaradır, və onların inkişafını təmin edir.

Üçüncü, hüququ tənzimləməyə uyğun hər bir hakimiyyət – idarəetmə subyekti onun yurisdiksiyası istiqamətində və çərşivəsində hərəkət edə bilər.

Dördüncü, hüququ statusun və yurisdiksiyanın parametrlərin möhkəm olduğu nizama salınmış cəmiyyətdə müxtəlif növ münasibət

iştirakçılarının, idarəetmə subyektlərinin səlahiyyəti, hüquq qabiliyyəti, nizamnamə imkanları, hüquq və azadlıqları onlar üçün göstərilən hüququ formada həyata keçirilir.

Beşinci, hakimiyyət – idarəetmə subyektlərində onların idarəetmə qərarları müəyyən edilmiş rasional texnologiyadan istifadə etməklə hüququ qaydada qəbul edilir, o isə onların aktuallığını, doğruluğunu və zəruri idarəedici gücə çatmağa imkan verir.

Altıncı, idarəetmə qərarları o zaman qanunu forma və bütün özünün idarəetmə keyfiyyətləri alır ki, nə vaxt ki onlar müəyyən edilmiş hüququ rekvizit alır.

Yeddinci, müasir cəmiyyətdə idarəetmə qərarları aşkarlıq, kütləvi xarakter əldə etməlidir, yalnız onların bilavasitə icraçılarına yox, həm də başqa şəxslərə, başqa idarəetmənin subyektlərinə, maraqlı kollektivlərə əlçatan edir (3, s.270-272).

İdarəetmə qərarının hüquqi mahiyyəti Azərbaycan Respublikasının qanunvericilik aktlarına, beynəlxalq öhdəliklərə və başqa sənədlərə dəqiq riayət etməkdən ibarətdir. Qanunvericiliyin pozulması qərarın ləğvinə, onun hazırlanmasına və icrasına görə məsuliyyətə gətirə bilər.

**İdarəetmə qərarının qəbul prosesi**

*"Yalnız bir tərəfi dinləməklə qərar qəbul etmə".*
*Yapon atalar sözü*

*"Təcrübədə hər ana ondan əvvəl gələn alternativ qərar olur"*
*D. Lukaç*

İdarəetmə qərarı öz mövcudluğu prosesində – ideyanın yaranmasından tam yerinə yetirilməsinə və yeniləri ilə dəyişilənə qədər – o düşünülmüş hərəkət, müəyyən mərhələlər və ardıcıl prosedurlarla həyata keçirilir. Mərhələ və prosedurlar idarəetmə tsikli kimi xarakterizə olunan müəyyən dövretmədə yaranır. İdarəetmə qərarı proses kimi – tələb olunan informasiyanın axtarışı, qruplaşdırılması və təhlili, idarəetmə qərarının hazırlanması təsdiqi və realizasiyasıdır. Qərarların əsaslandırılması, qəbulu və icrasının təşkili idarəetmə prosesinin əsas məzmunun təşkil edir.

İdarəetmə qərarının qəbulu prosesi müəyyən mərhələləri əhatə edir: qərarın hazırlanması; problemin formalaşması; məqsədləri, kriteriyaları və məhdudiyyətləri müəyyən etmək; problemi həll etmək üçün informasiyanın yığılması və təhlili; qərarın müəyyən şəkilə salınması; alternativ qərarın hazırlanması; alternativlərin təhlili və seçilməsi; qərarın qəbulu, qərarın realizasiyası; qərarın yerinə yetrilməsinin təşkili; qərarın icrasına nəzarət həyata keçirilir.

İdarəetmə qərarının qəbulu prosesində həmçinin qərara tələbatın olması, vəziyyətin diaqnostikası və təhlili, qərarın variantlarının hazırlanması, ən yaxşı qərarın seçilməsi, qərarın icrası, nəticələrin qiymətləndirilməsi və əks əlaqə məsələləri məntiqi ardıcıllıqla yerinə yetirilməlidir.

Qərarın qəbulu prosesi – təşkilatın problemlərinin həllinə istiqamətlənmiş idarəetmə subyektinin ardıcıllıqla tsikli fəaliyyətidir. Hüquqi ədəbiyyatda idarəetmə tsiklində yeddi mərhələ ayrılır: 1. İdarəetmə situasiyasının təhlili və qiymətləndirilməsi. 2. İdarəetmə situasiyasını saxlamaq və yeniləşdirmək, mümkün hərəkətinin proqnozlaşdırılması və modernləşdirilməsi. 3. Nəzərdə tutulan idarəetmə qərarlarının hazırlanması. 4. İdarəetmə qərarlarının müzakirəsi və qəbulu. Bu mərhələdə idarəetmə qərarları yekun şəkil və müvafiq hüquqi güc aldığı ən məsuliyyətli və müəyyənedici mərhələ hesab olunur. 5. Qəbul olunmuş idarəetmə qərarlarının icrası mərhələsi. 6. İcraya nəzarət və operativ informasiya almaq. 7. Aparılmış idarəetmə fəaliyyətinin ümumiləşdirilməsi və yeni idarəetmə situasiyasının qiymətləndirilməsi (3, s.273-275).

İdarəetmə qərarları ənənəvi olaraq iki hissədən: konstatasiyadan (təsdiq edilən – anali-

tik, əsaslandırılan, qiymətləndirilən); qərar hissəsindən (xülasədən, direktivdən, normativlərdən) ibarət olur. İdarəetmə qərarlarının hazırlanmasına milli və xarici alimlərin nəzəri və metodoloji işlərindən, həmçinin toplanılmış və sistemləşmiş praktiki təcrübədən istifadə etməklə yüksək peşəkar əmək olmalıdır.

Ədəbiyyatda idarəetmə qərarlarına müxtəlif təsnifatlar verilir: funksional yönümlülüyünə görə: planlaşdirma, təşkilatı, koordinasiya, nəzarət, informasiya; təşkilinə görə: fərdi, kollegial və korporativ; səbəblərinə görə: situasiyalı, sərəncamlı, proqramlı, təşəbbüslü; yerinə yetirmənin təkrarlığına görə: eyni tipli, müxtəlif tipli və innovasiya tipli; təsir miqyasına görə: ümumi və xüsusi; hərəkət müddətinə görə: strateji, taktiki və operativ; nəticələrin proqnozlaşmasına görə: müəyyən nəticə ilə, ehtimal olunan nəticə ilə; hazırlanma və realizasiyasının xarakterinə görə: tarazlaşdırılmış, impulsiv, inersiyalı, riskli, ehtiyatlı; informasiyanın yenidən işlənməsi metodlarına görə: alqoritmili, evristik; kriteriyaların sayına görə: bir kriteriyalı, çox kriteriyalı; təsirin istiqamətinə görə: daxili və xarici; təsirin səviyyəsinə görə: bir səviyyəli, çox səviyyəli; vəsaitlərə məhdudiyyətə görə: məhdudiyyətlə və məhdudiyyətsiz; təsbit edilməyə görə: yazılı və şifahi; miqyasına görə: 1) şəxsi, 2) qrup, 3) korporativ, 4) bələdiyyə (rayon və şəhər), 5) regional, 6) dövlət, 7) kontinental (kontinentlər arası), 8) qlobal (4,5,6).

İdarəetmə qərarları aşağıdakı istiqamətlərə yönəldilir: sosial sistemdə qəbul edilir və strateji planlaşdırmaya; idarəetmə fəaliyyətinin, insan resurslarının; istehsalat və xidmət fəaliyyətinin idarəedilməsinə; təşkilatın idarəetmə sisteminin formalaşmasına. Xarici mühitlə kommunikasiyaya və strateji planlaşdırma sahəsində idarəetmə qərarının nümunəsi ölkənin Konstitusiyası tutur.

**İdarəetmə qərarının qəbulun prosesində insan faktoru**

*“Xarizm – insanda pulla alınmayan qığılcımdır. Bu görünən effektlə görünməyən enerjidir”.*
*M.Ulyamson*

*“Xarizm – bu müqəddəs ruhla, həm də cin-şeytanla doldurula bilən, ilahi tərəfindən verιən damardır.”*
*V.Çernov*

İdarəetmə sistemin əsas elementi – insan, onun maraqları və tələbatıdır.

Subyektiv faktorlar və sistemin obyektiv vəziyyətinə adekvat təsir edən qərar qəbul edən şəxslə əlaqəlidir. Təşkilatı qərar – rəhbərin tutduğu vəzifəyə uyğun vəzifəsini yerinə yetirmək üçün onun etməli olduğu seçimdir. Təşkilatı qərarın məqsədi – təşkilat qarşısında qoyulmuş inkişafdır. Qərar qəbul edən şəxsdən ətraf mühitlə qarşılıqlı əlaqəli elementlərdən ibarət sistem kimi baxmasını tələb edir. Qərar – rəhbərin tutduğu vəzifəyə uyğun vəzifəsini yerinə yetirmək üçün onun etməli olduğu seçimdir. İstənilən rəhbərin fəaliyyəti idarəetmə funksiyaların, o cümlədən planlaşdırma, təşkilati, koordinasiya və nəzarətin yerinə yetirilməsi ilə əlaqəlidir. Bu fəaliyyət təşkilatı qərar, sərəncam, işgüzar söhbət, təlimat, kontrakt, plan, əsasnamələr, qaydalar və b. formasında realizə olunur.

İdarəetmə qərarlarının qəbulunda insan faktorunun rolu iki aspektdə özünü: idarəetmə qərarının hazırlanması prosesində şəxsiyyət xarakteristikasının təsiri və mövcud idarəetmə qərarının şəxsiyyət qiymətləndirilməsi göstərir. Şəxsiyyət xarakteristikalarına, iradə, inanma, emosionallıq səviyyəsi, temperament, peşəkarlıq, təcrübə, məsuliyyət, sağlam, reaksiya, diqqət xarakteri, təhlükəlilik, idrak parametri aiddir. İdarəetmə təcrübəsində insanlarla işi yüngülləşdirən, idarəetmə qərarlarının mü-

vəffəqiyyətlə icrası imkanlarını artıran rəhbər keyfiyyətlər mövcuddur.

Qərar qəbul edən səxsin psxoloji durumu, şəxsi keyfiyyətləri, o cümlədən xarakteri mühüm rol oynayır. Səxsi keyfiyyətləri arasında iradə, məsuliyyət, kommunikabellik, şəxsiyyət xarizması, temperament, sağlamlıq, reaksiya; inam, emosionallıq səviyyəsi, peşəkarlıq, təcrübə, diqqət xarakteri, risklilik, idrak parametri əsas keyfiyyətlərdir.

Şəxsiyyət xarizmasına mühüm əhəmiyyət verilir, yəni sağlam mənada əhəmiyyətli insan kütləsini özünə cəlb etmə və tabe etdirmə şəxsiyyətin qabiliyyətidir. Xarizm – hakimiyyət səxsiyyətin keyfiyyətlərinə əsaslanır. Şəxsiyyət xarizmasına mühüm əhəmiyyət verilir, yəni sağlam mənada əhəmiyyətli insan kütləsini özünə cəlb etmə və tabe etdirmə şəxsiyyətin qabiliyyətidir. Hər bir rəhbər tabeçiliyində olanların ona diqqətini hiss edir. Onun səxsi xüsusiyyətləri tabesində olanlarla və kolleqiyaları, həmçinin idarəetmə qərarlarının icrasında münasibətlər prosesinə əhəmiyyətli dərəcədə təsir edir.

Qərar qəbul edən rəhbərin keyfiyyətlərində temperament əsas rol oynayır. İnsanın fərdililiyi ətraf gerçəkliyə münasibətdə, temperament hissiyyat gücünə, davranışına münasibətdə baş verən təsirlənmə dərəcəsini xarakterizə edir.

Temperament idarəetmə qərarının hazırlanmasına şəxsiyyətin baxışı əhəmiyyətli təsir göstərir. Qədim dövrlərdən başlayaraq temperament haqqında hamı tərəfindən qəbul edilmiş Hippokratın verdiyi təsnifat – sanqvinik, xolerik, melanxolik və fleqmatik temperamentlər üzrə insanları bir-birindən fərqləndirmək mümkündür (2, s.51-52).

Sanqvinik temperamentinin şəxsiyyəti təfəkkür fəaliyyətinin daha sakit tipinə malikdir. Onlar da xoleriklər kimi idarəetmə qərarlarının hazırlanmasında cəld və operativ olurlar, lakin onlar tərəfindən qəbul olunan qərarların əsas problemlərini və ya əsas elementlərini kollektiv müzakirəsinə verilməsinə üstünlük verirlər.

Xolerik temperamentdə idarəetmə qərarının hazırlanmasında cəldlik, operativlik və fərdlilik üstünlük təşkil edir. Xolerikin qəbul etdiyi qərar, yüksək səviyyəli risklə, qətiyyətli, sabit və güzəştsizliyi ilə xarakterizə olunur. Lakin xolerik vəziyyətlərindən qiymətləndirməyə həmişə müvəffəq olmur. Onların qərarları bəzən öz-özünə əmələ gələn xarakter daşıyır.

Melanxolik temperamentlı şəxsiyyət idarəetmə qərarlarının hazırlanmasına çox məsuliyyətli yanaşır. Onlar qərarların icrasının bütün mümkün mənfi nəticələrini nəzərə almağa səy göstərirlər. Onlarda çox halda ikinci dərəcəli problemlər birinci dərəcəli səviyyəyə qaldırılır. Melanxolikin qəbul etdiyi qərarı dəqiq işlənməsi və icrasının reallığı ilə fərqlənir. Onlar öz qərarlarının icrasının yerinə yetirilməsini daimi diqqətdə saxlayır, icraçılara kömək edir, bütün yaranmış problemlərinin incəliklərinə diqqət yetirir.

Fleqmatik temperamentin şəxsiyyəti idarəetmə qərarlarının icrasına nisbətən, onun hazırlanmasına daha çox vaxt itirməyə üstünlük verir. Onlar üçün həll olunan vəzifələrə görə informasiyanın, fikir və məsləhətlərin çoxluğu mühümdür. Onların qərarları təhlükəsizliyin yüksək səviyyəliyi və ətraflı düşünülmüşlüyü ilə xarakterizə olunur. Fleqmatiklər öz qərarlarının icrasında qətiyyətli və israrlı olurlar. Onlar informasiya sisteminə nisbətən daha çox mütəxəssislərə etibar edirlər. Real gerçəklikdə xolerik, sanqvinik, fleqmatik və melanxolik tiplərinin aydın ifadə olunan insanlara nadir halda rast gəlinir.

Rəhbərin şəxsiyyətindən asılı olaraq – qərarların xarakterizəsi müxtəlif olur. Rəhbər təmkinli, mülayim, özünə tənqidi yanaşırsa – tarazlaşdırılmış və ya ehtiyatlı qərar qəbul edir. Heç kəsə etibar etməyən, skeptik əhval-ruhiyyəli olanlar – inersiyalı qərarlar, xoleriklə ideyaları asan generasiya, qeyri-iradi və riskli qərarlar qəbul edirlər.

**Ədəbiyyat:**


1. Rzayev Ə.H. Dövlət qulluğunun hüquqi əsasları. B.: Elm, 2011, 480 s.
2. Rzayev Ə.H. Şəxsiyyət Dövlət Möcüzə. Əlavələr və dəyişiklilərlə edilməklə. II buraxılış. B.: Bakı Dövlət Universiteti, 2017, 528s.
3. Атаманчук Г.В. Управление в жизнедеятельности людей. М.: РАГС, 2008, 400с.
4. Смирнов Э. А. Разработка управленческих решений: учебник для вузов. — М: ЮНИТИ-ДАНА, 2000. — 271 с.
5. Злобина Н. В. Управленческие решения. Учебное пособие. — Тамбов: Изд-во Тамб. гос. техн. ун-та, 2007. — 80 с.
6. href='http://center-yf.ru/data/Menedzheru/Upravlencheskoe-reshenie.php'>Управленческое решение</a>


***Açar sözlər:*** *idarəetmə, dövlət idarəetməsi, idarəetmə qərarı, proses, idarəetmə subyekti, idarəetmə obyekti, xarizm, temperament*

**Ali Rzayev**
*Chief researcher of the Institute of Law and Human Rights of ANAS,*
*Doctor of Law, Professor*

## MANAGEMENT DECISION: CONCEPT AND CONTENT

### SUMMARY

The paper analysis of the concept of managerial, which is considered as the most important type of managerial work as well as a set of interrelated, purposeful and logically consistent managerial actions that ensure the implementation of managerial tasks. Management as a process is a continuous chain of development, adoption and implementation of decisions. The managerial decision-making performs a guiding, organizing, coordinating, providing and stimulating roles. The solution is the form in which the control action of the subject of control on the control object is carried out.

The paper also indicates that the process of making a managerial decision consists of the following stages: identifying a problem, analyzing a problem and formulation of diagnosis, finding options for solving problems, evaluating alternatives and selecting the best solution, adjustment a draft decision project, approving a decision, preparation a solution for implementation, realization of the decision and control.

Furthermore, the paper reveals the legal requirements for managerial decisions, criteria for the effectiveness of decisions and the role of the human factor in managerial decision-making.

***Keywords:*** *governance, public administration, managerial decision, process, subject of management, object of management, charisma, temperament*

**Али Рзаев**
*Старший научный сотрудник Института Права и прав человека Национальной Академии Наук Азербайджана, доктор юридических наук, профессор*

## УПРАВЛЕНЧЕСКОЕ РЕШЕНИЕ : ПОНЯТИЕ И СОДЕРЖАНИЕ

## РЕЗЮМЕ

В статье анализируются понятие управленческого решения, которое понимаетсякак важнейший вид управленческого труда, а также совокупность взаимосязанных, целенаправленных и логически последовательных управленческих действий, обеспечивающих реализацию управленческих задач.Управление как процесс представляет собой непрерывную цепь разработки, принятия и реализации решений. Управленческое решение выполняют направляющую, организующую, координирующую, а также обеспечивающую и стимулирующую роли. Выделяются этапы процесса принятия управленческого решения: выявление проблемы, анализ проблемы и постановка диагноза,поиск вариантов разрешения проблем, оценка альтернатив и выбор наилучшего решения, согласование проекта решения, утверждение решения, подготовка решения к реализации,реализация решения и контроль.

Анализируются и правовые требования к управленческим решениям, критерии их эффективности и роль человеческого фактора в принятии управленческого решения

***Ключевые слова:*** *управление, государственное управление, управленческое решение, процесс, субъект управления, объект управления, харизма, темперамент*

# D Ö V L Ə T İ D A R Ə Ç İ L İ Y İ
# P U B L I C A D M I N I S T R A T I O N

UOT 327.8

**ELVİN TALIŞINSKİ**
**Bakı İslam Universitetinin İctimai elmlər kafedrasının müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru**
*e-mail: e.talishinski@inbox.ru*

## QLOBALLAŞAN DÜNYADA DÖVLƏT İNFORMASİYA SİYASƏTİNİN ƏHƏMİYYƏTİ

Qloballaşma sivilizasiyanın təkamül prosesi olaraq hazırda qlobal, kontinental və regional səviyyələrdə baş verir ki, bu da xüsusilə insanların, xalqların və dövlətlərin həyatının bütün sahələrinə təsir göstərən inteqrasiya proseslərində ifadə olunur. Qloballaşma dövlət və milli sərhədləri, eləcə də müxtəlif əngəlləri aradan qaldıraraq qlobal informasiya sferasını formalaşdırır və genişləndirir.

İnformasiya məkanının inkişaf səviyyəsi əlbəttə ki, ilk növbədə cəmiyyətin əsas sahələrinə ictimai-siyasi, iqtisadi, mədəni və ideoloji cəhətdən əsaslı təsir göstərir. Beləliklə də insanların davranışı, ictimai-siyasi hərəkatların formalaşması, sosial təminat məhz bu səviyyədən asılı olmağa başlayır. İnformasiya məkanı demək olar ki, rabitə sistemləri və telekommunikasiya sahələrinin inkişaf etmiş infrastrukturuna malik olan bütün dünya ölkələrini müxtəlif səviyyələr üzrə birləşdirib inteqrasiya edərək onlar arasındakı sərhədləri aradan qaldırır. Bu isə öz növbəsində qloballaşmanın mühüm amillərindən biri və bu prosesin məntiqi nəticəsi hesab olunur.

Bu baxımdan qloballaşan dünyada dövlət siyasəti kontekstində aparılan informasiya siyasətini müəyyənləşdirmək lazımdır. Ümumilikdə siyasət, qanuna uyğun olaraq vətəndaşların, insan icmalarının yaşamaq qabiliyyətinə, ortaq iradələrinin, maraqlarının və ehtiyaclarının həyata keçirilməsinə zəmanət verən hakimiyyət münasibətləri, dövlət quruluşu və sosial institutlarla əlaqəli insanların həyatının xüsusi bir sahəsidir.

Siyasət ilk növbədə cəmiyyətin güc vasitələrinin mövcud potensialının birliyini və mütəşəkkilliyini təmin edə bilən bir vasitə kimi çıxış edir, ikincisi, əhalinin hakimiyyət resurslarını (səlahiyyətini, imkanını), onun ümumxalq (kollektiv) məsələlərinin həllində iştirak hüququnu müəyyənləşdirir.

"Siyasət" termini Orta əsrlər Avropasında 1256-cı ildə Aristotelin eyniadlı əsərinin yunan dilindən latın dilinə tərcüməsindən sonra meydana gəlmişdir. Dövlət müəssisələri inkişaf edərək onların ictimai həyatının bütün sahələrinə təsiri gücləndikcə, "siyasət" deyəndə ilk olaraq dövlətlə şəxsiyyət, hakimiyyət piramidasının yuxarı pilləsi ilə onun aşağı hissəsi arasındakı qarşılıqlı əlaqələri, hakimiyyətin həyata keçirilməsi qaydaları, başqa dövlətlərlə qurulan (aparılan) diplomatik münasibətlər və s. başa düşülürdü.

Antik dövrdə siyasət haqqında aşağıdakı təsəvvürlər mövcud idi:

– ictimai fəaliyyət;

– qərarların kollegial qəbulu;

– dövlətin həyatında bütün vətəndaşların iştirakı. [1, 13-14]

Orta əsrlərdə insanlar ilkin olaraq siyasəti dini ehkamların yerinə yetirilməsi kimi başa düşür, bu istiqamətdə xalqların və ölkələrin birləşdirilməsində əsas amili məhz dində görürdülər. Yeni dövrdən başlayaraq isə siyasət ayrıca müstəqil bir sahəyə çevrildi.

Siyasət dövlət aktlarından ibarətdir ki, bunun da formalaşmasını məhz dövləti təşkil edən elementlər (subyektlər) yaradır. Dövlət siyasətinin mənbəyi kimi xalq çıxış edir. Buna görə də, xalqın və cəmiyyətin siyasi ruhu dövlətin və hakimiyyətin fəaliyyətində qərarlaşa bilir.[2, 27]

Dövlət anlayışı isə siyasət məfhumunu bir növ şərtləndirəndir. Siyasət düşüncələrdə həm bütöv, həm də tərkiblərlə qavranılır. Başqa sözlə desək, siyasət ümumilikdə dövləti və onun fəaliyyətini özündə cəmləşdirən bir məfhumdur. Dövlət siyasəti, dövlət orqanlarının, ilk növbədə icra hakimiyyəti orqanlarının, fəaliyyətlərinin müəyyən sahələri ilə əlaqəli, qanunlara və sosial adətlərə uyğun fəaliyyətinin təməl bələdçisidir. Dövlət siyasəti kimi həmçinin bir dövlət orqanı və ya onun nümayəndələri tərəfindən aparılan bu və ya digər istiqamətdə fəaliyyət, tənzimləmə tədbirləri, qanunlar və maliyyə prioritetləri sistemi çıxış edir.

Problemləri səmərəli və effektiv şəkildə həll edən, ədalətə xidmət edən, dövlət qurumlarını və onların fəaliyyətini dəstəkləyən və aktiv vətəndaşlığı stimullaşdırdıqda dövlət siyasəti güclü hesab olunur. Xüsusilə, dövlət siyasətini məqsəd və vəzifələrin müəyyənləşdirilməsi, bu dövlətin və onun orqanları tərəfindən mərkəzdə və yerlərdə, ölkədə və xaricdə həyata keçirilən bir istiqamət, kurs, məqsəd və vəzifələrin təyin edilməsi olaraq müəyyən etmək olar. [7, 37]

Son onilliklərdə cəmiyyətdə baş verən dəyişikliklər dövlət siyasətinin formalaşmasında da dəyişikliklərə səbəb oldu. Bu gün dövlət siyasəti, dərhal qəbul edilməli qərarlara diqqət yetirilməklə, ölçülə bilən nəticələrə və hədəflərə yönəldilməkdədir. Bundan əlavə, kütləvi kommunikasiya və texnoloji dəyişikliklər dövlət siyasəti sistemini daha mürəkkəbləşdirmiş və bir-biri ilə qarşılıqlı əlaqədə olması vacibliyini ortaya qoymuşdur. Bütün bu dəyişikliklər hazırkı dövlət siyasəti üçün yeni çağırışlar doğurur və onu bütün sahələrdə inkişaf etməyə, effektiv və səmərəli qərarlar qəbul etməyə sövq edir.

Öz növbəsində dövlətin informasiya siyasəti əsasən bir sıra elmi sahələrlə qarşılıqlı fəaliyyət göstərən dövlətin funksiyalarından birini - informasiya funksiyasını həyata keçirməklə əlaqələndirilir. Qeyd etmək lazımdır ki, hazırda “dövlətin informasiya funksiyası” anlayışının ümumdünya tərəfindən qəbul edilmiş tərifi mövcud deyil və buna görə də onun “dövlət informasiya siyasəti” anlayışına daxil edilməsi sonuncunun məzmununun qeyri-müəyyənliyinə səbəb ola bilər.

Dövlət informasiya siyasəti, informasiya sahəsindəki milli maraqları, strategiyaları, taktikaları, dövlət idarəçiliyinin vəzifələrini, idarəetmə qərarlarını və onların həyata keçirilmə üsullarını hökumət tərəfindən cəmiyyətin bütün sahələrində və xüsusilə informasiya sahəsində qarşılıqlı fəaliyyətin aktual proseslərini tənzimləmək və inkişaf etdirmək üçün hazırlanan və həyata keçirən məqsədlər toplusudur. Dövlətin informasiya siyasəti yalnız telekommunikasiya, informasiya sistemləri və ya medianı deyil, həm də yaradılması, saxlanılması, emal edilməsi, nümayiş etdirilməsi, ötürülməsi ilə əlaqəli bütün sahələri və münasibətləri əhatə edən cəmiyyətin və dövlətin informasiya sahəsini inkişaf etdirməyə yönəldilmiş tənzimləmə funksiyasıdır. [4, 10]

Dövlətin informasiya siyasəti, cəmiyyətin və dövlətin həyatının digər sahələrindəki mövcud siyasət kimi konseptual, elmi və metodoloji prinsiplərə əsaslanmalı, sistemləşdirilmiş və vahid konsepsiyaya inteqrasiya olunmalıdır. Dövlət informasiya siyasəti konsepsiyasının formalaşdırılması dövlət hakimiyyətinin ilk əsas vəzifəsidir. Bu isə öz növbəsində sistematik bir yanaşma tələb edir: dövlət informasiya siyasətinin strateji məqsədləri və ümumiləşdirilmiş funksiyaları dövlətin idarəetmə obyekti və ümumilikdə informasiya axınlarının funksional məqsədi kimi ölkənin

informasiya məkanının sistematik təhlili əsasında müəyyənləşdirilməlidir. Bu yanaşma, dövlətin informasiya məkanını bütövlükdə birləşdirən vahid ümummilli sistem və quruluşa bağlı funksional problemlərin həllinin mühüm komponentlərini müəyyən etməyə imkan verir.

Dövlətin informasiya siyasəti, siyasi subyektlərin insanların şüuruna, psixikasına, davranışlarına və fəaliyyətlərinə dövlət və vətəndaş cəmiyyətinin maraqlarına təsir etmək qabiliyyətidir. [5, 38] Hüquqi demokratik dövlətdə, dövlət siyasətinin aparılması, cəmiyyətin və dövlətin həyatının hər hansı bir sahəsində dövlət idarəetməsinin həyata keçirilmə mexanizmlərinin işə salınması üçün əsas normativ hüquqi tənzimləmədir. Əsas mahiyyəti normativ hüquqi aktlar şəklində idarəetmə qərarlarını verməkdir ki, normativ hüquqi tənzimləmənin əsasını da milli qanunvericilik aktları təşkil edir. Ölkəmizdə bu sahədə dövlət tərəfindən qəbul edilmiş müxtəlif proqram və konsepsiyalar, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında, Azərbaycan Respublikasında İnformasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramında və s. dövlət informasiya siyasətinin əsas istiqamətləri nəzərdə tutulmuşdur.

Dövlət informasiya siyasətində heç şübhəsiz mühüm ayerlərdən biri də məhz dövlətin informasiya təhlükəsizliyinin təminatı tutur. Belə ki, informasiya təhlükəsizliyi – vətəndaşların, təşkilatların və dövlətin maraqları çərçivəsində cəmiyyətin informasiyalaşmasını təmin edən informasiya mühitinin qorunmasıdır. Burada əsas vəzifələrdən biri informasiyanın və ya informasiyanı saxlayan infrastrukturun onun sahiblərinə və istifadəçilərinə ziyan vura biləcək süni və təbii xarakterli, təsadüfi və ya qəsdən törədilən təsirlərdən qorunması vəziyyətini özündə ehtiva edir. [3, 27] Bu mənada müasir dövrdə hər bir dövlət, o cümlədən Azərbaycan üçün aktual məsələlərdən biri də informasiya təhlükəsizlyinin təmin olunmasıdır. Elə bu səbəbdən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 23 may 2007-ci ildə Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası təsdiq edilmişdir. [8] Heç şübhəsiz Azərbaycanın milli təhlükəsizliyinin əsas problemlərindən biri ölkənin vahid informasiya siyasətinin formalaşdırılması və təhlükəsizliyinin təminatı, milli informasiya mühitinin yaradılması, qorunması və idarə edilməsi ilə bağlıdır.

Milli təhlükəsizlik konsepsiyası həmçinin hərbi doktrinanın, xarici siyasət strategiyasının, iqtisadi, informasiya təhlükəsizliyi konsepsiyasının hazırlanmasında, mədəni, elmi, təhsil, tibbi, nəqliyyat və hökumət fəaliyyətinin formalaşmasında böyük rol oynayır. İndiki mərhələdə informasiya müharibəsi milli təhlükəsizliyə ciddi şəkildə təhlükə yaradır ki, bu da Milli Təhlükəsizlik Konsepsiyasında öz əksini tapmışdır. Bu sənəddə göstərildiyi kimi, informasiya təhlükəsizliyi informasiya sahəsində milli maraqların qorunmasına, cəmiyyətin və şəxslərin informasiya ehtiyatlarının qorunmasına yönəlmiş tədbirlərdən ibarətdir. İnformasiya sahəsində Azərbaycanın milli təhlükəsizliyini təmin etmək üçün hazırda milli sistem və informasiya infrastrukturu inkişaf etdirilir.[6, 112]

Ümumiyyətlə, informasiya sahəsində mövcud dövlət siyasəti, dövlət idarəetməsinin strategiya və taktikasında milli maraqların üstünlüyü aparıcı rol kimi çıxış etməlidir. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demək olar ki, bütün çıxışlarında informasiya siyasətinin olduqca vacib element olduğunu qeyd edir. Bununla yanaşı, dövlət informasiya siyasəti mahiyyət etibarilə qarşılıqlı informasiya proseslərinin nizamlanmasına və təkmilləşdirilməsinə xidmət edir. Bu da öz növbəsində təkcə transmilli əhəmiyyətli nəqliyyat kommunikasiyalarının deyil, həm də beynəlxalq informasiya trafiklərinin qovşağında

yerləşən Azərbaycan üçün müstəsna geosiyasi üstünlük təşkil edir.

Müstəqillik qazandıqdan sonrakı dövrdə Azərbaycan dövlətinin həyata keçirdiyi xarici siyasət ölkəmizin beynəlxalq aləmdəki mövqeyini daha da möhkəmləndirdi. Ölkəmizin mövqeyinin möhkəmlənməsinin əsas səbəblərindən biri xarici siyasətdə mühüm amillərdən hesab olunan – beynəlxalq aləmdə tanınan sərhədlər daxilində ölkəmizin müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü qorumaq və təhlükəsizliyini regional və beynəlxalq təhlükəsizlik sistemi ilə əlaqələndirməkdir. Bununla yanaşı, dünyanın bütün ölkələri ilə bərabər qarşılıqlı əlaqələrin yaradılması, bu əlaqələrin ölkələrin iqtisadiyyatının, elminin və mədəniyyətinin inkişafı istiqamətində istifadə edilməsi xarici siyasətin prioritet vəzifələrindən biridir.

Müstəqil Azərbaycanın xarici siyasətinin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Əsası Heydər Əliyev tərəfindən qoyulmuş xarici siyasət kursu indi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Prezidentin informasiya müharibəsi sahəsindəki obyektiv və ədalətli mövqeyi ölkəmizi dünyaya sülhsevər, beynəlxalq hüquq normalarına sadiq, Ermənistanı isə təcavüzkar bir dövlət kimi təqdim etmişdir. Ermənistanla Azərbaycan arasındakı mövcud informasiya müharibəsini 90-cı illərin əvvəllərindəki vəziyyətlə müqayisə etsək, ölkəmizin informasiya müharibəsi sahəsində böyük uğurlara imza atdığını aydın şəkildə görərik. XX əsrin 90-cı illərinin əvvəllərində böhtan üzərində qurulmuş və hazırda da davam edən erməni informasiya təbliğatı özünü dünya ictimaiyyətinə dinc xalq kimi, azərbaycanlıları (ümumiyyətlə, türkləri) təcavüzkar kimi təqdim edərək, Avropada bu məqsədə nisbətən çatdılar. Qərbdə yaşayan ermənipərəst qüvvələrin, diaspor və lobbinin bütün imkanlarından istifadə edərək, şovinist ermənilər tez-tez mətbuatda məqalələr dərc edir, azərbaycanlılar arasında düşmən obrazı yaratmaq üçün respublikamıza qarşı böhtanlarla dolu müxtəlif televiziya proqramları təşkil edir, bununla da dünya birliyinin diqqətini real vəziyyətdən yayındırmağa çalışırdılar.

Lakin, məhz Ulu öndərin başlatdığı və Azərbaycan Prezidenti İlham Əliyevin apardığı siyasət nətincəsindədir ki, BMT başda olmaqla, ATƏT, AŞPA, İƏT və digər beynəlxalq qurumların qəbul etdiyi qətnamələr, xarici dövlətlərin rəsmi bəyanatları Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və illərdir olunan çağırışlar işğalçı Ermənistanın Azərbaycan torpaqlarını şərtsiz tərk etməsini tələb edir.

Prezident İlham Əliyevin uğurlu xarici siyasət kursu artıq illərdir informasiya məkanında yalan və böhtan üçün istifadə olunan Ermənistanın təbliğat mexanizmini məhv edir. Bu gün Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda apardığı ədalətli mübarizə təkcə sosial-iqtisadi deyil, həm də diplomatik və xüsusilə də informasiya sahədə də özünü büruzə verir.

Həmçinin, dövlət informasiya siyasəti informasiya sahəsində Azərbaycanın milli maraqlarının həyata keçirilməsinə yönəldilməlidir:

– məlumat əldə etmək və ondan istifadə etmək sahəsində insan və vətəndaşların konstitusiya hüquq və azadlıqlarına riayət edilməsi, cəmiyyətin milli-mənəvi dəyərlərinin, ölkənin mədəni və elmi potensialının qorunması və möhkəmləndirilməsi;

– ölkənin dövlət siyasəti haqqında dolğun məlumatın Azərbaycan vətəndaşlarına və beynəlxalq ictimaiyyətə çatdırılması ilə bağlı Azərbaycanın dövlət siyasətinə informasiya dəstəyinin verilməsi, vətəndaşların açıq dövlət informasiya ehtiyatlarına çıxışını təmin etməklə ölkədə və beynəlxalq aləmdə baş verən siyasi və ictimai əhəmiyyətli hadisələrə dair rəsmi mövqeyin bildirilməsi;

– müasir informasiya texnologiyalarının, daxili informasiya sənayesinin, o cümlədən məlumatlandırma vasitələri, telekommunikasiya

və rabitə sənayesinin inkişafı, daxili bazarın öz məhsulları ilə tələbatını ödəmək və bu məhsulların dünya bazarına çıxarılması, həmçinin yerli informasiya ehtiyatlarının toplanmasının, qorunub saxlanmasının və səmərəli istifadəsinin təmin edilməsi;

– informasiya mənbələrinin icazəsiz girişdən qorunması, Azərbaycanda quraşdırılmış və yaradılan informasiya və telekommunikasiya sistemlərinin təhlükəsizliyinin təmin edilməsi.

Yuxarıda da qeyd etdiyimiz kimi, dövlət informasiya siyasəti yalnız daxili deyil, həm də xarici siyasət fəaliyyətinin vacib elementidir. Belə ki, məqsəd zəngin tarixi, yüksək mənəvi potensialı və davamlı inkişaf perspektivləri olan ziyalı, mədəni şəkildə inkişaf etmiş bir cəmiyyət, elmi və texnoloji baxımdan səmərəli fəaliyyət göstərən ölkəni dünya ictimaiyyətində təbliğ etməkdir. Dövlət informasiya siyasəti məsələlərinin həlli, beynəlxalq mədəniyyət və biznes layihələrində mədəniyyətlərarası rabitə və yüksək texnologiyalarının effektivliyi müasir jurnalistika, kommunikasiya nəzəriyyələri, ictimaiyyətlə əlaqələr və beynəlxalq münasibətlər anlayışlarına söykənən inteqrasiya olunmuş bir yanaşma ilə əsaslandırılmışdır.

Xaricdə milli dəyərlərin təbliği ilə bağlı dövlətin informasiya siyasətinə aşağıdakılar daxildir:

– öz fəaliyyəti haqqında daimi olaraq informasiya təminatının həyata keçirməsi (həm ənənəvi, həm yeni media, həm də İnternet və ən yeni informasiya texnologiyalarının imkanlarından maksimum istifadə etməklə);

– çap və elektron beynəlxalq KİV-lərdə maarifləndirmə işləri aparmaq üçün yüksək texnologiyalarla təmin edilmiş informasiya-kommunikasiya infrastrukturunun yaradılması;

– öz informasiya resurslarının idarə edilməsi və əldə olunan məlumatların tərəfdaşlar arasında bölüşdürülməsi;

– vətəndaş cəmiyyətinin və onun institutlarının xarici mühitinin öyrənilməsi və monitorinqi, dialoqun, müzakirə platformasının formalaşdırılması, informasiya və rabitə məsələlərinin yaradılması;

– geniş humanitar siyasət ölçüləri ilə xarici auditoriyaya təsir edə biləcək sabit münasibətlər və qarşılıqlı əlaqə kanallarının formalaşdırılması.

Xaricdə dövlət informasiya siyasətinin aparılması vasitələri kimi aşağıdakıları qeyd etmək olar:

– kütləvi informasiya vasitələri;

– maliyyə və maddi-texniki vasitələr (informasiya infrastrukturu və onun genişləndirilməsi və normal fəaliyyətinin saxlanması üçün ayrılan vəsaitlər);

– kadrlar (jurnalist, pedaqoji, diplomatik kadrların hazırlanması məsələsi) və s.

Dövrümüzdə hər bir dövlət, o cümlədən Azərbaycan üçün aktual məsələlərdən biri də informasiya siyasətinin düzgün şəkildə qurulması və aparılmasıdır. Xüsusilə müharibə şəraitində yaşayan və torpaqlarının iyirmi faizi təcavüzkar Ermənistanın işğalı altında olan ölkəmiz üçün informasiya müharibəsinin aparılması, eyni zamanda vətəndaşların, cəmiyyətin və dövlətin informasiya təhlükəsizliyini təmin edilməsi mühüm əhəmiyyət kəsb edir.

Müasir informasiya texnologiyalarının hazırkı inkişaf səviyyəsi effektiv informasiya müharibəsinin aparılmasına imkan yaradır. Bu gün əminliklə deyə bilərik ki, respublikamız passiv informasiya vəziyyətdən çıxaraq, aktiv informasiya hücumuna başlamış və bir əsrdir fəaliyyət göstərən ermənilərin təbliğat aparatını demək olar ki, tamamilə məhv etmişdir. Azərbaycan üçün informasiya siyasətinin qurulması kimi mühüm bir mərhələdə Ulu öndər Heydər Əliyevin bünövrəsini qoyduğu xarici siyasətdə ölkəmizin, Qarabağ həqiqətlərinin istər beynəlxalq qurumlar, istərsə də dövlətlərlə ikitərəfli dost münasibətlər fonunda geniş təbliğatını xüsusi qeyd etmək lazımdır. Bununla yanaşı, Azərbaycana Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Böyük İpək Yolu proqramı kimi uğur gətirən layihələr və ölkəmizdə keçirilən nüfuzlu

beynəlxalq turnirlərin təşkili və s. informasiya müharibəsinin aparılması sahəsində mühüm amillər oldu. Bu gün ölkənin həm də davamlı iqtisadi inkişafının vacib hissəsinə çevrilən informasiya siyasətinin əhəmiyyəti günü-gündən artmaqdadır [6, 98].

Respublikamız haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırmağın əsas vəzifələrindən biri də Azərbaycan diasporunu informasiya müharibəsində aktivləşməsidir. Xaricdə yaşayan azərbaycanlıların istər respublikamızın beynəlxalq aləmdə qazandığı layihələr, istərsə də Dağlıq-Qarabağ haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rolu vardır. Əbəs yerə deyil ki, Ulu öndərin təşəbbüsü ilə Dünya azərbaycanlılarının Forumlarının təşkil edilməsi, "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi və ümumiyyətlə Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılması məhz müstəqil Azərbaycann informasiya siyasətinin təməlini təşkil edərək birliyimizi möhkəmləndirdi. Heç şübhəsiz, bu gün diaspora və lobbi hər bir dövlətin informasiya siyasətinin aparıcı qüvvəsinə çevrilmişdir.

Beləliklə, ideal şəkildə inkişaf etmiş dövlətdə informasiya siyasəti dövlət siyasətinin ən vacib iki vəzifəsini həll edir. Beynəlxalq səviyyədə informasiya siyasəti dövlətin imicini artırır, informasiya cəmiyyəti və informasiya müharibələri riskləri şəraitində ölkənin informasiya təhlükəsizliyini təmin edir.

Buna görə dövlətin informasiya siyasəti, xarici siyasət çərçivəsində hökumətin səmərəliliyini əhəmiyyətli dərəcədə artıra biləcək təsirli mexanizm və qərarların böyük potensialını əhatə edir.

Qloballaşma dövründə Azərbaycanda da bu gün yeni medianın istifadəsi artmaqda davam edir. Sərbəst bazar prinsipinə əsaslanan informasiya və telekommunikasiya texnologiyaları sektoru yeni medianın yaranmasına öz töhfəsini vermişdir. İnternet istifadəçisi olan Azərbaycan Respublikası vətəndaşları üçün informasiya texnologiyalarından istifadənin ən populyar tərəfi kimi İnternet platformalar, KİVlər üçün isə platforma kimi mobil tətbiqetmələr, habelə təhsil, səhiyyə, siyasət, biznes, menecment və digər sahələrdə biliklərin ötürülməsi mühüm aspektlərdən hesab olunur.

Beləliklə, ümumiləşdirmə apararaq informasiya mühitinin qlobal hala gəldiyinə diqqət yetirmək lazımdır ki, burada əsas məqam qloballaşmanın həm də müasir beynəlxalq inkişafın vacib şərtini əsaslandırmasıdır - qarşılıqlı asılılıq. Bu isə normaldır, çünki bütün dövlətlər müstəqil olmaqla yanaşı, eyni zamanda bir-birləri ilə də qarşılıqlı asılılıq xarakteri daşıyırlar. Daha dəqiq desək, bir ölkədə baş verən hadisələr digər ölkələrdə də hadisələrin baş verməsinə səbəb ola bilər. Bu qarşılıqlı asılılıq son dərəcə vacib amil hesab olunur. Buna görə də qlobal informasiya xidmətləri şəraitində və qlobal məlumat əldəetmə kontekstində müxtəlif vasitələrin, məlumat mənbələrinin qarşılıqlı əlaqəsini - birincisi, milli çərçivədə, ikincisi, qlobal çərçivədə həyata keçirmək çox vacibdir. Müasir dünyanın reallıqlarına nəzər saldıqda həqiqətən bütün dünyaya və bütün ölkələrə böyük miqyasda xidmət edən qlobal media vasitələrinin (KİVlərin) olduğunu görərik.

Müasir qloballaşma şəraitində informasiyaya çıxış və məlumatın təbiəti milli nizamda deyil, ümumi beynəlxalq qlobal qaydada müəyyən edilir. Bu, qlobal informasiya axınının qloballaşması ilə müəyyən edilir. Bu gün medianın demokratik cəmiyyətin bir quruluşu olması haqqında danışarkən bir daha vurğulamaq lazımdır ki, ən başlıcası cəmiyyətə doğru, düzgün təhlil edilmiş və şərh olunan məlumatlar verməkdir. Bu, demokratik bir qurum olaraq mətbuatın vəzifəsidir. Yalnız bu istiqamətdə düşünülmüş dövlət siyasəti aparıldıqda elita və vətəndaşlar ölkənin inkişafı ilə bağlı daha şüurlu olmaq imkanı əldə edəcəklər.

**Ədəbiyyat:**

1. İsgəndərzadə M. Siyasət nəzəriyyəsi. Dərs vəsaiti. Bakı, "Apostroff" MMC, 2013, səh.152.
2. Nəsibov E. Dövlət və siyasət fəlsəfəsi. Siyasət III cild. Kitabın Birinci bölümü. Bakı, "Elm və təhsil " nəşriyyatı, 2015, səh.108.
3. Qasımov V.Ə. İnformasiya təhlükəsizliyinin əsasları. Dərslik. Bakı: MTN Maddi-texniki Təminat Baş İdarəsinin Nəşriyyat-Poliqrafiya Mərkəzi. 2009, 340s.
4. Нисневич Ю.А. Информационная политика России: проблемы и перспективы. – М.: Фонд «Ноосфера», 1998. – 349 с.
5. Попов В.Д. Информационные процессы в обществе и модели управления ими // Управление общественными отношениями: Учебник, М., РАГС, 2003. 315с.
6. Талышинский Э.Б. Современные информационные войны и Азербайджан. – Баку: Мутарджим, 2016. – 152 стр.
7. Халипов В. Ф., Халипова Е. В. Власть. Политика. Государственная служба. Словарь. – М.: Луч, 1996, с.271.
8. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 23 may 2007-ci il. http://www.e-qanun.az/framework/13373.

***Açar sözlər:*** *qloballaşma, informasiya siyasəti, informasiya məkanı, informasiya cəmiyyəti, daxili və xarici siyasət*

**Elvin Talishinsky**
*Head of the Department of Social Sciences of the Baku Islamic University, PhD in Political Sciences*

## THE IMPORTANCE OF STATE INFORMATION POLICY IN THE GLOBAL WORLD

### SUMMARY

On the basis of a systematic study of approaches to determination, principles and directions of public policy, the paper outlines the conceptual foundations of the formation of the state information policy. The importance of forming a public and state information policy to promote and form the country's reputation in the global information space is also noted. Information policy is essentially aimed at regulating and improving interrelated information processes. State information policy occupies a special place among the fundamental elements of the public administration system, which necessitates its theoretical and methodological study.

Nowadays, one of the topical issues for every state, including Azerbaijan, is the correct conduct of information policy, especially for our country, which lives in a state of war and twenty percent of its land is occupied by Armenia, it is important to wage an information war, as well as to ensure the information security of citizens, society and the state. In the context of modern globalization, there is an urgent need for a gradual substantiation of the state policy of information security at a time when access to information and the nature of information are determined not in the national order, but also the general international global order.

***Keywords:*** *globalization, information policy, information space, information society, internal and foreign policies*

**Эльвин Талышинский**
*Заведующий кафедрой Общественные науки*
*Бакинского Исламского Университета,*
*доктор философии по политическим наукам*

# ЗНАЧИМОСТЬ ГОСУДАРСТВЕННОЙ ИНФОРМАЦИОННОЙ ПОЛИТИКИ В ГЛОБАЛИЗИРУЮЩЕМСЯ МИРЕ

## РЕЗЮМЕ

В статье на основе системного изучения подходов к определению, принципов и направлений государственной политики обозначены концептуальные основы формирования информационной политики государства. Также отмечается важность формирования общественно-государственной информационной политики по продвижению и формированию репутации страны в глобальном информационном пространстве. Информационная политика, по существу, направлена на регулирование и усовершенствование взаимосвязанных информационных процессов. Государственная информационная политика занимает особое место среди основополагающих элементов системы государственного управления, что обуславливает необходимость в ее теоретическом и методологическом изучении.

В наше время одним из актуальных вопросов для каждого государства, особенно для Азербайджана, который более 30 лет живет в состоянии войны с Арменией, захватившей двадцать процентов ее земель, является правильное проведение информационной политики. В условиях информационной войны с армянским агрессором, осуществляемая под руководством Президента Ильхама Алиева государственная информационная политика Азербайджана носит наступательный характер и призван обеспечивать информационную безопасность граждан, общества и государства. В условиях современной глобализации существует острая необходимость в постепенном обосновании государственной политики информационной безопасности в то время, когда доступ к информации и характер информации определяются не в национальном порядке, а в общем международном глобальном порядке.

***Ключевые слова:*** *глобализация, информационная политика, информационное пространство, информационное общество, внутренняя и внешняя политика*

# DÜNYA İQTİSADİYYATI
# WORLD ECONOMY

UOT 339.9; 339.9:061 (100)

**GÜLARƏ SÜLEYMANOVA**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət idarəetməsi və menecment" kafedrasının dosenti, iqtisadiyyat üzrə fəlsəfə doktoru**
*e-mail: gulyara_s@yahoo.com*

## QLOBALLAŞMA PROSESİNİN AZƏRBAYCAN İQTİSADİYYATINA TƏSİRİ VƏ İQTİSADİ PERSPEKTİVLƏR

XXI əsrin ilk onilliyində sürətlə inkişaf edən və yayılan informasiya və kommunikasiya texnologiyaları, bununla bağlı yeni vüsət almış qloballaşma prosesləri ölkələrin sosial-iqtisadi həyatına ciddi şəkildə təsir etməkdədir. Bu mənada Azərbaycan da istisna deyildir. Qlobal, planetar xarakterli amillər ölkə həyatının, demək olar ki, bütün sahələrində – iqtisadi, sosial, siyasi, humanitar-mədəni və s. sahələrdə gedən proseslərə nüfuz edir. Qloballaşma şəraitində innovasiya fəaliyyətinin keyfiyyətcə yeni müstəvidə genişlənməsi ilə bütün dünyada iqtisadi və təsərrüfat proseslərinin dəyişmə tempi, innovativ yeniliklərin yayılması, onların istehsal sahəsində tətbiqi misli görünməmiş şəkildə sürətlənir. Bu, əslində qloballaşmanın "müsbət yüklü" effektidir və getdikcə daha çox ölkənin innovasiya sahəsindəki nailiyyətlərdən, qabaqcıl texniki standartlardan və idarəetmədə yeni metodlardan yararlanmasına imkan verir. Belə bir şəraitdə Azərbaycanın qarşısında duran əsas məsələ dünya ölkələrinin inkişaf sürəti ilə müqayisədə geriliyə yol verməməkdir. Bu isə ilk növbədə iqtisadiyyatda karbohidrogen ehtiyatların ixracından mövcud asılılığı aradan qaldırmaqla orta və uzunmüddətli perspektivdə dünya iqtisadiyyatının xammal əlavəsinə və texnoloji "autsayderə" çevrilmək təhlükəsinin qarşısını almaq kimi mühüm məsələnin daim diqqət mərkəzində saxlanılmasını tələb edir. Karbohidrogen ixracı amili son onillikdə iqtisadi artımın əsas aparıcı qüvvəsi olsa da, hazırkı mərhələdə qarşıda duran əsas vəzifə qeyri-neft sektorunun daha sürətli inkişafına nail olmaq, iqtisadiyyatın səmərəliliyini və rəqabət qabiliyyətini artırmaq və onun innovasiya əsaslı irəliləyişini təmin etməkdir. Başqa sözlə, artıq indidən ənənəvi iqtisadiyyatdan "bilik iqtisadiyyatına" keçidin əsası qoyulmalı, bunun üçün həlledici olan insan kapitalının adekvat inkişafi ön plana çəkilməlidir. Bu isə iqtisadi modelin formalaşdırılmasında müvafiq tələblər irəli sürməklə bərabər, təhsil sisteminin də kökündən dəyişdirilməsinə, əlavə təhsil, həyat boyu təhsil kimi komponentlərin əhəmiyyətinin artırılmasına gətirib çıxarır, həmçinin IKT və virtual tədrisin, kompyuter-şəbəkə biliklərinin rolunun artırılmasını nəzərdə tutur. Eyni zamanda, əsas missiyası yaradıcılığın, innovasiyaların stimullaşdırılmasına və bazarın tənzimlənməsinə dəstək olan əqli mülkiyyətin əhəmiyyəti də yüksələcəkdir.

Qloballaşmanın səciyyəvi xüsusiyyətlərindən biri də yeni texnologiyaların, innovasiyaların yayılması kimi müsbət təsirli amillə yanaşı, mənfi yüklü iqtisadi proseslərin də yayılması, bu proseslərin ümumdünya təsərrüfat inteqrasiyasına cəlb olunmuş ölkələri öz cənginə almaq bacarığıdır. Bu mənada 2008-ci ildə başlayan və indi də yeni dalğada davam edən qlobal iqtisadi böhran tarixdə öz əhatə dairəsinin genişliyi ilə seçilir. Azərbaycan iqtisadiyyatı

qlobal böhranı kifayət qədər hazırlıqlı qarşılamış, böhran dövründə investisiya risklərinin yüksək olmasına, qonşu ölkələrdəki devalvasiya dalğasının təsirinə baxmayaraq, beynəlxalq investisiya mövqeyindəki xalis profisit və manatın məzənnəsinin sabitliyi qorunmuşdur. Bu, böhrandan öncəki dövrdə ölkədə həyata keçirilmiş rasional makroiqtisadi və monetar siyasət, yaradılmış valyuta ehtiyatları, maliyyə risklərinin qabaqlayıcı rejimdə idarə edilməsi sayəsində mümkün olmuşdur. Bununla belə, qlobal böhran və onun fəsadları müasir iqtisadi arxitekturada mütləq depressiv ssenarilərə qarşı qoruyucu mexanizmlərin yaradılmasını və gücləndirilməsini gündəmə gətirir. Ənənəvi xilas təyinatlı maliyyə fondları ilə yanaşı, bu sırada iqtisadiyyatın dövlət tənzimləməsində istifadə olunacaq antiböhran xarakterli xüsusi tədbirlər, həmçinin milli iqtisadiyyatın strukturunun şaxələndirilmiş olması və yeni şəraitə çevik uyğunlaşmaq qabiliyyəti xüsusi əhəmiyyət kəsb edir.

Ölkəmiz 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq hüququn tam səlahiyyətli subyekti kimi beynəlxalq iqtisadi münasibətlər sisteminə qoşulmuş və dövlətin iqtisadi siyasətinin strateji hədəflərindən biri kimi dünya iqtisadiyyatına səmərəli inteqrasiyanın həyata keçirilməsi müəyyən edilmişdir ki, bunun da reallaşdırılmasında beynəlxalq təşkilatlarla, xüsusilə də beynəlxalq maliyyə-kredit institutları ilə münasibətlərin qurulması və inkişafı mühüm rol oynamışdır. Ölkəmiz Beynəlxalq Valyuta Fondu (BVF), Dünya Bankı Qrupu, Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), İslam İnkişaf Bankı (İİB), Asiya İnkişaf Bankı (AİB) və Qara Dəniz Ticarət və İnkişaf Bankı (QDTİB) kimi nüfuzlu beynəlxalq və regional maliyyə-kredit təşkilatlarına üzv qəbul olunmuş və səmərəli əməkdaşlıq əlaqələri qurmuşdur. Beynəlxalq əməkdaşlıq strategiyası bu gün də uğurla davam etdirilir. Bu siyasət nəticəsində müstəqil dövlətimizin beynəlxalq nüfuzu artmış, mövqeləri xeyli möhkəmlənmiş və xarici iqtisadi əlaqələri genişlənmişdir. Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə maliyyə sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində tədbirlər davam etdirilmiş və Azərbaycan Respublikası İqtisadi Əməkdaşlıq Təşkilatının Ticarət və İnkişaf Bankı (ECOBANK) və Asiya İnfrastruktur və İnvestisiya Bankı (AİİB) kimi yeni beynəlxalq maliyyə institutlarına üzv qəbul olunmuş, ölkəmizin maliyyə-kredit münasibətləri sahəsində beynəlxalq əməkdaşlığı daha da genişləndirilmişdir. Keçən dövr ərzində ölkəmizdə bazar iqtisadiyyatına keçid üzrə islahat proqramlarının həyata keçirilməsi, makroiqtisadi stabitləşdirmə və neft gəlirlərinin idarə edilməsi, qaçqın və məcburi köçkünlərin problemlərinin həlli, infrastrukturun (su, irriqasiya, avtomobil yolları) bərpası, təhsil, səhiyyə və enerji sektorlarının inkişafi, dövlət sektorunda islahatlar, kənd təsərrüfatında və ümumiyyətlə, qeyri-neft sektorunda artım və istiqamətlərdə həyata keçirilən tədbirlərdə beynəlxalq və regional maliyyə-kredit təşkilatları ilə əməkdaşlıq mühüm rol oynamışdır. 2006 və 2013-cü illərdə Qara Dəniz Ticarət və İnkişaf Bankının, 2010-cu ildə İslam İnkişaf Bankı Qrupunun və 2015-ci ildə Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının 48-ci illik toplantılarının Bakı şəhərində keçirilməsi bu təşkilatlarla uğurlu əməkdaşlığımızın göstəricisidir. “Doing Business 2017” hesabatına görə 2009-2016-cı illərdə Azərbaycanda aparılmış 27 islahatdan 7-si qeydiyyat sahəsi ilə, 5-i vergitutma sahəsi ilə bağlı olmuşdur [4, s.76-77]. “Biznesə başlama” indikatorunda Azərbaycan üçün müəyyən edilmiş “Etalon Qanunvericiliyə Yaxınlıq” (DTF) indeksi 97,75% təşkil etmişdir ki, bu da ölkəmizin dünyada kifayət qədər yüksək standartlara uyğun olduğunu göstərir. Bu gün ölkəmiz “Biznesə başlama” indikatoru üzrə dünyada 5-ci, post-sovet ölkələri arasında isə 1-ci yerdədir. Azərbaycan Respublikası 53 dövlətlə ikiqat vergitutmanın aradan qaldırılması haqqında ikitərəfli müqavilələr imzalamış, onlardan 49-u qüvvəyə minmiş və tətbiq olunmaqdadır. Bununla yanaşı, Danimarka, İspaniya, İsrail və İordaniya ilə imzalanmış analoji sənədlərin qüvvəyə minməsi üçün müvafıq prosedurlar bitdikdən sonra

qüvvəyə minəcəkdir. 10 ölkə ilə ikitərəfli və 2 çoxtərəfli "Vergi qanunvericiliyinə əməl olunması üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında" Sazişlər imzalanmışdır. 7 ölkə ilə ikitərəfli və 1 çoxtərəfli "Vergi cinayətlərinə qarşı mübarizədə əməkdaşlıq haqqında" Sazişlər imzalanmışdır. 8 ölkə ilə ikitərəfli "Əməkdaşlıq haqqında" Sazişlər imzalanmışdır.

### Nəqliyyat, tranzit və logistika infrastrukturunun təkmilləşdirilməsi

Azərbaycanı regionun ticarət mərkəzinə çevirmək məqsədi ilə ölkənin strateji coğrafi mövqeyindən səmərəli istifadə etməklə tranzit və nəqliyyat xidmətlərinin inkişafı, ölkənin bölgələrində logistika mərkəzlərinin yaradılması nəzərdə tutulur. Bütün bunlar eyni zamanda istehsal və investisiya mərkəzi kimi də ölkənin cəlbediciliyinin artmasına, yeni biznes və məşğulluq imkanlarının yaranmasına yol açacaqdır. Azərbaycanın rəqabət qabiliyyətinin artırılması məqsədi ilə ölkə ərazisində Avropa-Qafqaz-Asiya və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərində daşıma xərclərinin azaldılması, idxal, ixrac əməliyyatları və tranzit daşımaları üçün sərf edilən vaxtın qısaldılması və sərhəd-keçid prosedurlarının sadələşdirilməsi üçün tədbirlər görülməkdədir. TRACECA Proqramı Cənubi Qafqaz və Mərkəzi Asiyanın yeni müstəqillik qazanmış dövlətlərinin nəqliyyat infrastrukturunun bərpasına yardım göstərilməsi, Avropa və Asiyanı birləşdirən ən qısa nəqliyyat dəhlizinin yaradılması və bununla regionun Qərbə inteqrasiyası, həmçinin bu dövlətlərin iqtisadiyyatlarının dirçəldilməsinə və inkişafına yönəldilmiş Avropa İttifaqı proqramlarının reallaşdırılmasına xidmət edən etibarlı nəqliyyat sisteminin qurulması məqsədini daşıyır. 7-8 sentyabr 1998-ci il tarixlərində Bakı şəhərində 9 ölkənin dövlət başçısı – Azərbaycan, Bolqarıstan, Gürcüstan, Qırğızıstan, Moldova, Rumıniya, Türkiyə, Özbəkistan, Ukrayna, 13 beynəlxalq təşkilat və 32 dövlətdən nümayəndə heyətinin iştirak etdiyi Tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirilmiş və TRACECA Proqramı əsasında "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalanmış, Bakı Bəyannaməsi qəbul edilmişdir. Əsas Çoxtərəfli Saziş (ƏÇS) Avropa, Qara dəniz, Qafqaz, Xəzər dənizi və Asiya regionunda iqtisadi, ticarət va nəqliyyat əlaqələrinin inkişaf etdirilməsi, avtomobil, hava və dəmir yolu, eləcə də ticarət gəmiçiliyi bazarlarına çıxışın asanlaşdırılması, yük və səmişinlərin, həmçinin karbohidrogen resurslarının beynəlxalq daşımalarının inkişaf etdirilməsi, nəqliyyatın təhlükəsizliyinin, ətraf mühitin mühafizəsi, müxtəlif nəqliyyat növləri arasında bərabər rəqabət şəraitinin yaradılması kimi məsələlər üzrə əməkdaşlığı nəzərdə tutur.

**Şimal-Cənub Dəhlizi.** 2000-ci il 12 sentyabr tarixində Rusiya, İran və Hindistan arasında imzalanmış hökumətlərarası Saziş əsasında Şimal-Cənub nəqliyyat dəhlizinin təməli qoyulub. Azərbaycan bu Sazişə 2005-ci ildə qoşulub. Ümumilikdə 13 ölkə sözügedən Sazişi ratifikasiya etmişdir (Azərbaycan Respublikası, Belarus Respublikası, Bolqarıstan Respublikası, Ermənistan Respublikası, Hindistan, İran Islam Respublikası, Qazaxıstan Respublikası, Qırğızıstan Respublikası, Oman Sultanlığı, Rusiya Federasiyası, Tacikistan Respublikası, Türkiyə Respublikası, Ukrayna). Dəhlizin yaradılmasında məqsəd Hindistandan Rusiyaya, eləcə də Şimali və Qərbi Avropaya gedən yüklərin çatdırılma müddətini azaltmaqdır.

**Bakı Ticarət Limanı.** Bakı Limanı ölkəni qərblə (Türkiyə və Aİ), şərqlə (Mərkəzi və Şərqi Asiya), cənubla (İran və Hindistan) və şimalla (Rusiya) birləşdirən nəqliyyat qovşağıdır. Bundan əlavə, yeni limanın yerləşdiyi ərazi (Ələt) ölkənin daxili rayonlarını birləşdirən mövcud avtomobil və dəmir yolları ilə kəsişir. Azərbaycan daxilindən keçən üç beynəlxalq dəmiryolu xətti məhz Ələtdə kəsişir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 17 mart 2016-cı il tarixdə Bakı şəhəri Qaradağ rayonunun Ələt qəsəbəsində yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi

daxil olmaqla, Azad Ticarət Zonası tipli xüsusi iqtisadi zonanın yaradılması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb. Artıq kompleksdə Ro-Ro terminalının açılışı olub.

**TASİM.** "Trans-Avrasiya Super İnformasiya Magistralı" (TASİM) layihəsi vacib regional təşəbbüsdür və onun məqsədi əsasən Frankfurt şəhərindən Honq-Konq şəhərinə, Qərbi Avropadan Şərqi Asiyaya qədər Avrasiya ölkələrini əhatə edən transmilli fiber-optik xəttin çəkilməsidir. Tranzit xətti Çin, Qazaxıstan, Azərbaycan, Gürcüstan, Türkiyədən keçərək Almaniyaya çatacaqdır. Strateji baxımdan TASİM-in reallaşması iki mərhələdən ibarət olacaqdır. Birinci mərhələdə aparıcı region ölkələri və operatorları Qərbi və Şərqi birləşdirən əsas internet tranzit infrastrukturunu yaradacaqlar. İkinci mərhələdə TASİM qurulan tranzit infrastrukturundan istifadə edərək Mərkəzi Asiya olmaqla, açıq dənizə çıxışı olmayan Avrasiya ölkələrini münasib qiymətli bağlantı ilə təmin edəcəkdir.

Bu layihə Azərbaycan, Çin (Chinatelecom), Qazaxıstan (Kaztranscom), Rusiya (Rostelecom), Türkiyə (Turktelekom) iştirakını nəzərdə tuturdu.

### Avropa ilə Asiyanı birləşdirən Bakı-Tbilisi-Qars nəqliyyat dəhlizi

2017-ci il oktyabrın 30-da istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrinin birləşdirilməsini təmin etməklə, qədim İpək Yolunun polad magistrallar üzərində bərpasıdır. Bu layihənin tarixi İpək Yolu üzərində qurulması region ölkələri üçün onun cəlbediciliyini artırır və eyni zamanda, Mərkəzi Asiya ölkələrinin – Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistanın, həmçinin Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırır, onların ticarət əlaqələrinin, iqtisadiyyatlarının inkişafında, inteqrasiyasında mühüm əhəmiyyət daşıyır. Bakı-Tbilisi-Qars layihəsinin əsas üstünlüklərindən biri də odur ki, Azərbaycan Gürcüstan ərazisindən keçməklə Türkiyə ilə birbaşa dəmir yolu əlaqəsinə sahib olur, bu isə iki dövlət arasında münasibətləri daha da möhkəmləndirməyə xidmət edir. Digər məsələ bu layihənin Naxçıvan Muxtar Respublikasına qədər uzanmasıdır. Gələcəkdə Qarsdan Naxçıvana ayrıca dəmir yolu xəttinin çəkilməsi nəzərdə tutulur ki, bu da muxtar respublikanın Ermənistanın blokadasından çıxarılmasına və onun nəqliyyat müstəqilliyinin təmin edilməsinə səbəb olacaq [7, s.181].

### Neft Sektoru

Gənc müstəqil Azərbaycanı müasir, güclü, davamlı iqtisadi inkişafa malik dövlətə çevirmək üçün ümummilli lider Heydər Əliyev gələcək siyasi-iqtisadi islahatların köklü transformasiyasının əsası olacaq neft strategiyasını müəyyənləşdirdi. 1994-cü il sentyabrın 20-də Azərbaycanın XX əsr tarixində siyasi, iqtisadi və strateji əhəmiyyətinə görə ən mühüm müqavilələrdən biri – Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş imzalanıb. Bu, neft strategiyasının əsasını təşkil edən, ölkənin gələcəyi üçün yeni perspektivlər açan və sonrakı illərin təcrübəsində öz layiqli tarixi qiymətini alan "Əsrin müqaviləsi"dir. Dəyəri 7,4 milyard dollar olan "Əsrin müqaviləsi"ndə dünyanın 7 ölkəsini (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç və Səudiyyə Ərəbistanı) təmsil edən 11 beynəlxalq neft şirkəti (Amoco, BP, McDermott, UNOCAL, ARDNŞ, Lukoil, Statoil, Türkiyə Petrolları, Pennzoil, Ramco, Delta) iştirak etmişdir. 1994-cü il dekabrın 12-də Milli Məclis "Əsrin müqaviləsi"ni ratifikasiya etdi. "Əsrin müqaviləsi"ndən sonra 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 26 saziş imzalanıb. Müqavilənin müddəalarını nəzərdə tutulan müddətdə icra etmək və artan neft hasilatını beynəlxalq bazarlara daşımaq üçün yeni neft kəmərləri tikilib istifadəyə verildi. 1997-ci ilin sonlarında neft Bakı-Novorossiysk kəməri ilə Qara dənizə ixrac

edilməyə başlanıldı, 1999-cu ildə Qara dənizin digər limanına – Supsaya Bakıdan neft kəməri çəkilib istifadəyə verilib. 1999-cu ilin dekabrında Azərbaycan nefti ilə doldurulmuş ilk tanker dünya bazarlarına çıxarılıb, 2002-ci ildə əsas neft kəməri Bakı-Tbilisi-Ceyhanın təməli qoyulub. Qlobal əhəmiyyət kəsb edən kəmər Azərbaycanın enerji dəhlizinə çevrilməsi istiqamətində mühüm addım idi. 2005-ci il mayın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılış mərasimi keçirilib, 2006-cı ildə Türkiyənin Ceyhan limanından Azərbaycan neftinin nəqlinə başlanılıb.

2017-ci il sentyabrın 14-də Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və neft hasilatının pay bölgüsü haqqında yeni Saziş imzalanıb. Bununla da, “Azəri-Çıraq-Günəşli” nəhəng neft yataqları blokunun işlənilməsində yeni dövr başlanıb. Sazişi Azərbaycan hökumətinin, SOCAR-ın, BP, “Chevron”, IMPEX, “Statoil”, “ExxonMobil”, “TP”, ITOCHU və “ONGC Videsh” şirkətlərinin rəsmiləri imzalayıblar. Hasilatın Pay Bölgüsü haqqında yenidən işlənmiş və 2050-ci ilə qədər sektorunda yerləşən “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş imzalanıb. Bu, neft strategiyasının əsasını təşkil edən, ölkənin gələcəyi üçün yeni perspektivlər açan və sonrakı illərin təcrübəsində öz layiqli tarixi qiymətini alan “Əsrin müqaviləsi”dir. Dəyəri 7,4 milyard dollar olan “Əsrin müqaviləsi”ndə dünyanın 7 ölkəsini (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç və Səudiyyə Ərəbistanı) təmsil edən 11 beynəlxalq neft şirkəti (Amoco, BP, McDermott, UNOCAL, ARDNŞ, Lukoil, Statoil, Türkiyə Petrolları, Pennzoil, Ramco, Delta) iştirak etmişdir. 1994-cü il dekabrın 12-də Milli Məclis “Əsrin müqaviləsi”ni ratifikasiya etdi. “Əsrin müqaviləsi”ndən sonra 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 26 saziş imzalanıb. Müqavilənin müddəalarını nəzərdə tutulan müddətdə icra etmək və artan neft hasilatını beynəlxalq bazarlara daşımaq üçün yeni neft kəmərləri tikilib istifadəyə verildi. 1997-ci ilin sonlarında neft Bakı-Novorossiysk kəməri ilə Qara dənizə ixrac edilməyə başlanıldı, 1999-cu ildə Qara dənizin digər limanına - Supsaya Bakıdan neft kəməri çəkilib istifadəyə verilib. 1999-cu ilin dekabrında Azşrbaycan nefti ilə doldurulmuş ilk tanker dünya bazarlarına çıxarılıb, 2002-ci ildə əsas neft kəməri Bakı-Tbilisi-Ceyhanın təməli qoyulub. Qlobal əhəmiyyət kəsb edən kəmər Azərbaycanın enerji dəhlizinə çevrilməsi istiqamətində mühüm addım idi. 2005-ci il mayın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılış mərasimi keçirilib, 2006-cı ildə Türkiyənin Ceyhan limanından Azərbaycan neftinin nəqlinə başlanılıb.

2017-ci il sentyabrın 14-də Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və neft hasilatının pay bölgüsü haqqında yeni Saziş imzalanıb. Bununla da, “Azəri-Çıraq-Günəşli” nəhəng neft yataqları blokunun işlənilməsində yeni dövr başlanıb. Sazişi Azərbaycan hökumətinin, SOCAR-ın, BP, “Chevron”, IMPEX, “Statoil”, “ExxonMobil”, “TP”, ITOCHU və “ONGC Videsh” şirkətlərinin rəsmiləri imzalayıblar. Hasilatın Pay Bölgüsü haqqında yenidən işlənmiş və 2050-ci ilə qədər uzadılmış sazişə əsasən, BP fəaliyyətini layihənin operatoru kimi davam etdirir, SOCAR-ın payı 11 faizdən 25 faizə artırılır, mənfəət neftinin isə 75 faizi Azərbaycana qalır. Bu Sazişin ardınca SOCAR və tərəfdaşları arasında “Azəri-Çıraq-Günəşli” müqavilə ərazisi üçün əlavə bir hasilat platformasının qiymətləndirilməsi məqsədilə mühəndis-layihə işlərinin aparılması haqqında razılaşma əldə olunub. “Yeni əsrin müqaviləsi”nin imzalanması Azərbaycanın neft strategiyasının yeni mərhələsinin əsasını qoyur. Bu, müasir Azərbaycan tarixində yeni eranın başlanması, ölkənin siyasi və iqtisadi təhlükəsizliyinə əlavə təminat, yeni

investisiya qoyuluşu, ÜDM-in artımı, yeni iş yerləri və sosial rifahın yaxşılaşdırılması deməkdir. 2018-ci il oktyabrın 18-də Türkiyənin İzmir şəhərində "Star" neft emalı zavodunun açılış mərasimi keçirilib. Azərbaycan və Türkiyənin dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan mərasimdə iştirak ediblər. "Star" zavodunun ümumi neft emalı gücü 10 milyon tondur, o, 5 milyon ton dizel yanacağı istehsal etmək imkanına malikdir. Zavod Türkiyənin təyyarə yanacağına olan tələbatını da tam ödəmək iqtidarındadır.

**Qaz Sektoru**

Dünyanın ən zəngin qaz yataqlarından biri olan "Şahdəniz" keçən əsrin ortalarında azərbaycanlı geoloqlar tərəfindən kəşf edilib, lakin müvafiq texnologiyaların olmamasına görə istismarı dayandırılıb, yatağın potensial imkanları təyin edilməyib. 1996-cı ildə Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin beynəlxalq neft şirkətləri ilə yaratdığı konsorsium yatağın qazla zəngin olmasını aşkar edib və nəticə gözləniləndən böyük olub. Yataqda 1,2 trln kubmetr qaz və 240 mln ton qaz kondensatın olması ehtimal edilir. Bu, dünyada azsaylı nəhəng qaz yataqlarından biri hesab olunur. Sonrakı illərdə "Ümid" və "Abşeron" yataqlarının kəşfi Azərbaycanın böyük qaz ehtiyatlarına sahib olduğunu təsdiq etdi. Bununla da, Azərbaycanın təbii resurslar tarixində yeni bir səhifə açıldı. "Şahdəniz" yatağının ikinci mərhələsinin işlənməsi üçün konsorsium üzvləri 2013-cü il dekabrın 17-də Bakıda növbəti tarixi qərara imza atdılar. İmzalanma mərasimi Heydər Əliyev Mərkəzində müxtəlif ölkələrin rəsmi nümayəndələrinin iştirakı ilə keçirildi. Müqaviləyə əsasən, layihəyə 28 milyard dollar sərmayənin cəlb edilməsi nəzərdə tutulur.

Cənub Qaz Dəhlizi ideyası Azərbaycanın iradəsi və liderliyi sayəsində reallığa çevrilməyə başlayıb, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2013-cü il oktyabrın 29-da imzaladığı Sərəncam ilə "Cənub Qaz Dəhlizi" layihəsi çərçivəsində Azərbaycanın mənafeyini qorumaq və layihə iştirakçılarına dövlət dəstəyinin təmin edilməsi məqsədilə Dövlət Komissiyası yaradılıb. 2014-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin iyirmi illiyində Səngəçalda Cənub-Şərqi Avropa ölkələrinin dövlət və hökumət başçılarının, nazirlərinin və beynəlxalq şirkətlərin rəhbərlərinin iştirakı ilə "Cənub Qaz Dəhlizi" layihəsinin təməlqoyma mərasimi keçirilib. Artıq Azərbaycan hasil etdiyi qazı qonşu dövlətlərə ixrac edir və Avropa bazarına ixraca başlamaq üçün yeni kəmərlər tikilib: 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri (Cənubi Qafqaz qaz boru kəməri) istifadəyə verilib və "Şahdəniz" yatağının birinci mərhələsi çərçivəsində hasil edilən qaz Gürcüstan, Türkiyə və Yunanıstana ixrac edilməyə başlanıb; 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın təşəbbüsü ilə İstanbulda Azərbaycan ilə Türkiyə arasında TANAP (Trans-Anadolu təbii qaz boru kəməri) layihəsinə imza atılıb; 2013-cü ildə "Şahdəniz" konsorsiumu TANAP qaz kəməri ilə daşınacaq Azərbaycan qazının Avropa bazarına çatdırılması üçün Türkiyə sərhədini İtaliyanın cənubuna birləşdirən TAP (Trans-Adriatic-Pipeline) layihəsini seçib və hazırda kəmərin çəkilməsi istiqamətində işlər davam etdirilir.

Bu layihələr "Şahdəniz" yatağını İtaliyanın cənubuna birləşdirməklə "Cənub Qaz Dəhlizi" layihəsinin reallaşmasına imkan verir. 2015-ci ildən başlayaraq hər il Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin görüşləri keçirilir və Bakı bu görüşlərə ev sahibliyi edir. 2018-ci il mayın 29-da rəsmi açılış mərasimi keçirilən Cənub Qaz Dəhlizinin önəmli hissəsi olan TANAP enerji təhlükəsizliyi məsələlərinin həlli üçün əvəzolunmaz infrastruktur layihəsidir. 2018-ci il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP – Trans-Anadolu qaz kəmərinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasim keçirilib, 2020-ci ilədək TAP layihəsi də tamamlanacaq. Beləliklə, Azərbaycanın zəngin qaz ehtiyatları Türkiyə

və Avropa bazarlarına qısa və təhlükəsiz yolla, şaxələndirilmiş formada çatdırılacaq. Azərbaycanın enerji sahəsində məqsədyönlü fəaliyyəti onu regional enerji mərkəzinə çevirir.

### İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı

İnformasiya cəmiyyətinə keçidin təmin edilməsi, innovasiya yönümlü və biliyə əsaslanan iqtisadiyyatın qurulması, dövlət və yerli özünüidarəetmə orqanlarında İKT-nin tətbiqinin və elektron xidmətlərin, həmçinin informasiya təhlükəsizliyi sahəsində fəaliyyətin genişləndirilməsi, cəmiyyətin informasiya məhsul və xidmətlərinə tələbatının dolğun ödənilməsi, rəqabətqabiliyyətli və ixrac yönümlü İKT potensialının gücləndirilməsi, yüksəkixtisaslı mütəxəssislərin və elmi kadrların hazırlanması dövlət qarşısında duran prioritet vəzifələrdəndir. Ümummilli lider Heydər Əliyevin 2003-cü ildə təsdiq etdiyi "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" bu sahədə dövlətin siyasəti, məqsəd və vəzifələri, prioritetləri və fəaliyyət istiqamətlərini müəyyən edən əsas sənəd olmuşdur [3, s.3-4]. Bununla ölkəmiz 2000-ci ildə BMT-nin keçirdiyi Minilliyin Sammitinin qərarına müvafiq olaraq İKT vsahəsi üzrə Milli Strategiya qəbul etmiş ilk ölkələr sırasında, Cənubi Qafqazda isə birinci olmuşdur. Bu sənəd Azərbaycan dövlətinin İKT sahəsinə diqqətini cəmiyyətimizə və bütün dünyaya bəyan etmişdir. Həmin il Cenevrədə keçirilmiş informasiya cəmiyyəti üzrə Dünya Sammitində qəbul edilən Prinsiplər Bəyannaməsi və Fəaliyyət Planı informasiya cəmiyyətinin yaradılması yolunda olduqca uğurlu addım olaraq, bəşəriyyətin qlobal problemlərinin həlli üçün möhkəm təməl yaratmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Sammitdə "Qara qızılı insan qızılına çevirək" tezisini səsləndirməklə ölkəmizdə informasiya cəmiyyətinin qurulması istiqamətində dövlət səviyyəsində məqsədyönlü işlərə başlanğıc vermişdir. 2005-ci ildə keçirilmiş informasiya cəmiyyəti üzrə Tunis Sammitində Azərbaycan İKT-nin cəmiyyətin demokratikləşməsindəki xüsusi rolunun bu texnologiyaların yeni tətbiq istiqaməti kimi əsaslandırılmasında təşəbbüskar ölkələrdən biri olmuşdur. Sammit çərçivəsində BMT Baş Assambleyasına 17 may tarixinin "Beynəlxalq İnformasiya Cəmiyyəti Günü" elan edilməsi ilə bağlı müraciət qəbul edilmiş və bu qərara uyğun olaraq BMT Baş Assambleyası 27 mart 2006-cı ildə 17 may tarixini "Beynəlxalq İnformasiya Günü" elan etmişdir. Nəticədə Beynəlxalq Telekommunikasiya İttifaqı 2006-cı ilin noyabrında gələcəkdə 17 may tarixini "Ümumdünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Günü" kimi qeyd etməklə bağlı qərar vermişdir.

"Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasından nəzərdə tutulmuş qaydada ölkədə uzunmüddətli, uğurlu və dayanıqlı inkişafın təmin edilməsi və informasiya və biliklərə əsaslanan rəqabətədavamlı iqtisadiyyatın qurulması üçün Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya" təsdiq edilmiş və Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir [2, s.5]. Qəbul olunmuş Milli Strategiya Azərbaycan hökumətinin informasiya cəmiyyəti siyasətinin ardıcıl olduğunu, onun daha da inkişaf etdirilməsində əzmini nümayiş etdirmiş və bu sahədə aparılan fəaliyyətin ölkənin gündəlik həyatı, gələcəyi, beynəlxalq əlaqələri və imici baxımından əhəmiyyətini önə çəkmişdir.

Azərbaycanda İnternet 1991-ci ildən inkişaf etməyə başlamışdır. 1993-cü il avqustun 25-də ".AZ" domeni rəsmi olaraq Azərbaycan Respublikasının yüksəksəviyyəli domen adı kimi "İnternetdə Adların və Nömrələrin Bölüşdürülməsi üzrə Beynəlxalq Korporasiya" – "ICANN" (The İnternet Corporation for Assigned Names and Numbers) tərəfindən qeydiyyata alınmış və yüksəksəviyyəli milli".AZ" domeninin inzibatçılığı həyata keçirilməyə başlanmışdır.

Son on ildə mobil abunəçilərin sayı 7 dəfə artmışdır. Ölkədə fəaliyyət göstərən hər 3 mobil rabitə operatoru "3G", 2012-ci ildən isə ən son texnologiya "4G" tətbiq edilməklə İnternetə yüksək sürətli çıxış təmin edilir. Azərbaycan dünyada "4G" texnologiyasını tətbiq etmiş 37-ci, Avropada isə 9-cu ölkə olmuşdur. Ümumilikdə mobil rabitə ilə ölkə ərazisi 100 faiz əhatə olunduğundan, faktiki hər bir şəxsin İnternetə çıxış imkanının olduğunu söyləmək olar. Ölkəmiz eyni zamanda tranzit funksiyasını yerinə yetirməkdədir. Belə ki, Gürcüstan, İran, İraq, Orta Asiya ölkələrinə internet trafiki Azərbaycan üzərindən ötürülür. Dünya İqtisadi Forumunun "The Global Information Technology Report 2013" hesabatında Azərbaycan "Şəbəkələşmə hazırlığı indeksi"nə görə (Networked Readiness Index) əvvəlki mövqeyindən 5 pillə irəliləyərək dünyanın 144 ölkəsi arasında 56-cı yerə yüksəlmişdir [8, s.42]. Hesabata əsasən, Azərbaycan internet istifadəçilərinin sayı göstəricisinə görə MDB və Orta Asiya ölkələri arasında lider mövqedə, eləcə də, 144 ölkə arasında "İKT-yə dəstəkdə hökumətin uğurları" indeksi üzrə 8-ci, "Hökumətin gələcək baxışlarında İKT-nin əhəmiyyətliliyi" indeksi üzrə 9-cu, internetin əlçatanlığı göstəricisinə görə isə 20-ci yerdə qərarlaşmışdır. Həmçinin, Dünya İqtisadi Forumunun "The Global Competitiveness Report 2016-2017" hesabatında "Qlobal rəqabətqabiliyyətlilik indeksi" üzrə Azərbaycan dünyanın 138 ölkəsi arasında 37-cu yeri tutmuş və əvvəlki hesabatla müqayisədə 3 pillə irəliləyərək yenə də MDB məkanında öz liderliyini qoruyub saxlaya bilmişdir.

**Ədəbiyyat:**


1. Antiinhisar fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu. B., 2017
2. "Azərbaycan-2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası, 2012. https://president.az/files/future_az.pdf
3. "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər).
4. "Doing Business 2017" hesabatı
5. Hüseynova X., Quliyev M. Qlobal rəqabətlilik. Bakı: Müəllim, 2016, 132s.
6. Hüseynova X. Azərbaycan regionlarının inkişafında innovativ aspektlər / Respublika elmi-praktik konfransın materialları. Bakı, 2015.
7. Quliyev M. Beynəlxalq ticarət sistemi qloballaşma fonunda. Bakı, 2015.
8. The Global İnformation Technology Report 2013, World Economics Forum
9. The Global Innovation Index. 2015
10. Овчинников В. Технология глобальной конкуренции. М., 2012.
11. Портер М. Конкурентная стратегия: методика анализа отраслей и конкурентов. М., 2005.


***Açar sözlər:*** *qloballaşma, beynəlxalq iqtisadi əməkdaşlıq, iqtisadi layihə və proqramlar, inkişaf konsepsiyası, qlobal rəqabətlilik indeksi*

**Gulara Suleymanova**
*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Associate Professor of Department of Public Administration and Management, PhD in Economics*

## IMPACT OF THE GLOBALIZATION PROCESS ON THE ECONOMY OF AZERBAIJAN AND ECONOMIC PROSPECTS

### SUMMARY

The paper examines the issues of the effectiveness of the process of globalization in Azerbaijan for the period from the formation of the Republic of Azerbaijan to the present, owing to the successful strategy of international cooperation. Azerbaijan takes part in numerous international projects and programs.

Globalization in Azerbaijan covers almost all spheres of the economy and social sphere. Construction of new innovative facilities, information and communication technologies, Azerbaijan's entry into world markets with competitive products are the main parameters of the globalization process in Azerbaijan.

***Keywords:*** *globalization, international economic cooperation, economic projects and programmes, development concept, global competitiveness index*

**Гюлара Сулейманова**
*Доцент кафедры Государственное управление и менеджмент Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по экономике*

## ВЛИЯНИЕ ПРОЦЕССА ГЛОБАЛИЗАЦИИ НА ЭКОНОМИКУ АЗЕРБАЙДЖАНА И ЭКОНОМИЧЕСКИЕ ПЕРСПЕКТИВЫ

### РЕЗЮМЕ

В статье рассматриваются вопросы эффективности процесса глобализации в Азербайджане за период с момента становления Азербайджанской Республики по настоящее время, благодаря успешной стратегии международного сотрудничества. Азербайджан принимает участие в многочисленных международных экономических проектах и программах. Глобализация в Азербайджане охватывает практически все области экономики и социальной сферы. Строительство новых инновационных объектов, информационно-коммуникационных технологий, выход Азербайджана на мировые рынки с конкурентноспособной продукцией – основные параметры процесса глобализации в Азербайджане.

***Ключевые слова:*** *глобализация, международное экономическое сотрудничество, экономические проекты и программы, концепция развития, индекс глобальной конкурентоспособности*

# VƏTƏN TARİXİ
# NATIONAL HISTORY

UOT 94 (479.24)

**SAHİBƏ BUDAQOVA**
**Azərbaycan Milli Elmlər Akademiyasının**
**A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi,**
**tarix üzrə fəlsəfə doktoru, dosent**
*e-mail: sahiba_ibrahim@yahoo.com*

## AZƏRBAYCAN ƏRAZİSİNDƏ ERMƏNİLƏRİN TÖRƏTDİKLƏRİ QIRĞINLAR (1918–1921-Cİ İLLƏR)

XX əsrin əvvəllərində ermənilər təkcə bu gün Ermənistan adlanan ərazidə deyil, Bakı quberniyasının Bakı, Şamaxı, Quba, Göyçay qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda da vaxtaşırı xalqımıza qarşı qırğınlar, talanlar, yanğınlar, terror və digər zorakılıq aktları həyata keçirmişlər. Erməni daşnakları bu ərazilərdə on minlərlə dinc azərbaycanlı əhalini – qadını, uşağı, qocanı yalnız milli mənsubiyyətlərinə görə vəhşicəsinə qətlə yetirmiş, yaşayış yerlərini talan edərək yandırıb viran qoymuş, xalqımızın milli mədəniyyət abidələrini, məscidləri dağıtmış və yandırmışlar.

1918-ci ildə Bakıda və Azərbaycanın digər bölgələrində ermənilərin törətdikləri qırğınlardan 100 il ötməsinə baxmayaraq, bu vəhşiliklər xalqın qan yaddaşında əbədi iz buraxmışdır. Ötən əsrin əvvəllərindən başlayaraq ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri təcavüzkar siyasət 1918-1920-ci illərdə xüsusən genişlənmişdir. Həmin illərdə ermənilərin törətdikləri qırğınlar haqqında bizə çatan faktlar Bakıda, Şamaxıda, Qubada, Muğanda, Zəngəzur qəzasında, Qarabağda, İrəvan quberniyasında və ölkənin digər ərazilərində azərbaycanlıların amansızlıqla qətlə yetirildiyini, şəhər və kəndlərin talan edilərək dağıdıldığını sübut edir.

Azərbaycanın ayrı-ayrı bölgələrində olduğu kimi, Bakıda da həmin illərdə azərbaycanlıların soyqırımı həyata keçirilmiş və şəhər erməni silahlı dəstələri tərəfindən dağıdılmışdır. 1918-ci ilin mart ayının son üç günündə təkcə Bakıda on iki mindən çox əhalini ermənilər xüsusi amansızlıqla qətlə yetirmişlər. Mart soyqırımı zamanı Bakının şəhər camaatından o dövrün pulu ilə 400 milyon manatlıq daş-qaş və əmlak ələ keçirilmişdi. Mart qırğınları haqqında təhqiqatçı Kluqe yazır: "Ermənilər müsəlman əhalisini işgəncələrlə öldürür, şəmşirlərlə parçalayır, süngü ilə dəlik-deşik edir, körpə uşaqları süngüyə keçirir, cəsədlərin burun, qulaq və başlarını kəsir, evlərə od vurub sakinlər qarışıq yandırır, qadınların saçlarını bir-birinə bağlayaraq tüfəngin qundağı ilə ölüncəyə qədər döyürdülər". Kluqe ermənilər tərəfindən üzü divara çevrilərək itlərə parçaladılan azərbaycanlıların şəkillərini də çəkmişdir. Bu faktlar erməni daşnaklarının azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərin kiçik bir hissəsidir və yalnız 1918-ci ilin mart ayının son üç günündə törədilən Bakı qırğınını əks etdirir.

1918-ci ildə ermənilər dinc əhaliyə qarşı vəhşiliklər, görünməmiş amansızlıqlar etdikləri kimi, mədəniyyət və tarixi abidələri də vəhşicəsinə dağıdır, məscidləri yandırır, memarlıq incisi sayılan binaları yerlə-yeksan edirdilər. Mart qırğını haqqında olan mənbələrdə göstərilir ki, ermənilər bir çox qədim binaları, o cümlədən Cümə məscidini, İsmailiyyə binasını top atəşinə tutaraq dağıtmışlar. Həmin dövrü əhatə edən, 1918-ci ildə Bakının dağıdılmasını əks etdirən tarixi fotoşəkillər də tarixçilərin yazdıqlarını əyani şəkildə təsdiqləyir [1].

Ötən əsrdə ermənilərin dörd dəfə – 1905-1906, 1918-1920, 1948-1953 və 1988-ci ildən başlayan və bu gün də davam edən azərbaycanlılara qarşı törətdikləri soyqırımı və deportasiya siyasəti özünü Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin həllinə münasibətdə aydın şəkildə göstərir və onu deməyə əsas verir ki, ermənilərin xalqımıza olan tarixi münasibəti dəyişməyibdir. Ancaq Azərbaycanın beynəlxalq aləmdə möhkəmlənən mövqeyi və real beynəlxalq vəziyyət ötən əsrdən tamamilə fərqli olduğuna görə, tezliklə Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli, erməni işğalçılarının torpaqlarımızdan çıxarılması, daşnak ideyalarının davamçılarının yerində oturdulması mümkün olacaqdır.

1918-ci ilin mart soyqırımı zamanı Bakı ilə yanaşı Şamaxı da dəhşətli talan və vəhşiliklərə məruz qalmışdı. Şamaxının müsəlmanlar yaşayan hissəsinin hamısına od vurulmuş, 13 məhəllə məscidi və məşhur müqəddəs ocaq Cümə məscidi yandırılmışdı. Həmin günlərdə Şamaxı qəzasının 110 kəndində ermənilər 10 mindən çox azərbaycanlını qətlə yetirmişdilər ki, onlardan 5050 nəfəri kişi, 4359 nəfəri qadın və uşaqlar olmuşdur. Əvvəlcədən qurulmuş plana görə, daşnak-bolşevik qoşunu Şamaxını işğal etdikdən sonra Quba qəzasına daxil olmalı idi. Ermənilər bolşeviklərin köməyi ilə Quba qəzasında üç dəfə qırğın törətmişlər. Daşnak-bolşevik birləşmələri Quba qəzasında 167 kəndi dağıtmışdılar ki, bunlardan 35-i hazırda mövcud deyildir.

İrəvan quberniyası, Şərur – Dərələyəz, Sürməli, Qars və digər ərazilərdə azərbaycanlıların qırğının fəal iştirakçılarından biri olmuş erməni zabiti Ovanes Apresyanın xatirələri əsasında amerikalı aqronom Leonard Ramsden Hartvill "İnsanlar belə imişlər" adlı kitab yazmışdır.

Ovanes Apresyan kitabın müəllifi ilə söhbəti zamanı ermənilərin, ingilislərin və rusların yardımı ilə öz məqsədlərinə çatdıqlarını qeyd edərək, təkcə Bakıda Mart Qırğını zamanı 25 min azərbaycanlının qətlə yetirildiyini bildirmişdir.

1918-ci ilin yazından başlayaraq, İrəvan quberniyasında yaşayan azərbaycanlılar da erməni dəstələri tərəfindən soyqırımına məruz qalmışlar. Ermənilər "Böyük Ermənistan" yaratmaq üçün ilk növbədə İrəvan quberniyasındakı müsəlman əhalini buradan çıxarmağa və bu məkrli planın reallaşmasına çalışırdılar. Təkcə 1918-ci ilin aprel ayının sonunda bu ərazidə dağıdılmış müsəlman kəndlərinin sayı 199-a çatırdı.

1918-ci ilin mart ayında Bakı şəhərində və Azərbaycan qəzalarında daşnak-bolşevik birləşmələrinin türk-müsəlman əhalisinə qarşı törətdikləri vəhşiliklər istər hüquqi baxımdan, istərsə də siyasi cəhətdən soyqırımı kimi qiymətləndirilməlidir.

1918-ci ilin mart hadisələrinə ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qiymət verməyə cəhd göstərilmişdir. Nazirlər Şurası baş vermiş soyqırımın təhqiqi məqsədilə 1918-ci il iyulun 15-də Fövqəladə Təhqiqat Komissiyasının yaradılması barədə qərar qəbul etdi. Komissiya müsəlmanlara qarşı törədilmiş vəhşilikləri və cinayətləri araşdırmışdır. Baş vermiş hadisələr barədə dünya ictimaiyyətinin ətraflı və düzgün məlumatlandırılması məqsədilə Xarici İşlər Nazirliyində xüsusi qurum yaradılmışdır. Azərbaycan Xalq Cümhuriyyəti 1919 və 1920-ci illərdə martın 31-ni milli hüzn günü kimi qeyd etmişdir. Bu əslində azərbaycanlılara qarşı törədilən soyqırım hadisəsinə siyasi qiymət vermək cəhdi idi.

Sovetlər İttifaqının dağılması nəticəsində müstəqillik əldə etmiş Azərbaycan Respublikası soyqırımına siyasi qiymət verməyi tarixin ona verdiyi fürsət kimi qiymətləndirdi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci il martın 26-da, 1918-ci ilin mart hadisələrinin 80-cı ildönümü ərəfəsində, imzaladığı fərmanda erməni millətçiləri tərəfindən törədilmiş hadisələrə siyasi qiymət verildi. Bu fərman XX əsrdə

azərbaycanlılara qarşı törədilmiş soyqırımı barədə müasir və gələcək nəsillərdə möhkəm milli yaddaşın formalaşdırılması, dünyada bu hadisələrə düzgün siyasi və hüquqi qiymət verilməsi, belə halların qarşısının alınması və bir daha təkrarlanmaması üçün proqram mahiyyətli sənəd oldu.

1998-ci ildə Azərbaycanın Milli Məclisi Birləşmiş Millətlər Təşkilatına, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına, Avropa Şurasına, MDB ölkələrinə və digər beynəlxalq təşkilatlara, ölkələrin parlament və hökumətlərinə müraciət edərək azərbaycanlılara qarşı törədilmiş soyqırımı kimi hallarla dünyanın hər bir yerində amansız mübarizə aparmaq üçün səylərin birləşdirilməsinə çağırmışdır.

Azərbaycan xalqının hər il qeyd etdiyi "Azərbaycanlıların soyqırımı günü" həmin məqsədlərə və dünya ictimaiyyətinin diqqətini bu gün də davam edən şovinizm, separatçılıq hallarına cəlb edilməsinə xidmət edir. Yaddan çıxarmaq olmaz ki, biz hamımız – dünyanın bütün xalqları bəşəriyyətin gələcək əmin-amanlığına məsuliyyət daşıyır.

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır.

Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir.

1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına "bəraət qazandırmaq məqsədilə" erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş geniş miqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi.

"Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə geniş miqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişlər [2].

Birinci dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci il Fevral inqilabı və Oktyabr çevrilişindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən əks-inqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı

əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər.

Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqlarla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi.

Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzurun bir hissəsini və Azərbaycanın bir sıra digər torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atdılar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il “Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında” xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldular.

Erməni millətçiləri öz havadarlarının köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kompaniyasına başladılar. Keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar. Eyni zamanda onlar tərəfindən bütün dünyada azərbaycanlıların mənfi obrazını formalaşdırmaq cəhdləri də güclənirdi. “Yazıq, məzlum erməni xalqı”nın surətini yaradaraq əsrin əvvəlində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olunur, azərbaycanlılara qarşı soyqırım törədənlər soyqırım qurbanları kimi qələmə verilirdi [3].

Əsrin əvvəlində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-in digər bölgələrindən soydaşlarımız təqiblərə məruz qalaraq kütləvi surətdə qovulur. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən kobudcasına pozulur, ana dilində təhsil almasına əngəllər törədilir, onlara qarşı repressiyalar həyata keçirilir. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilir, toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunma prosesi baş verir.

Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhunda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılır. Böyük humanist ideallara xidmət edən Azərbaycan ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalır.

Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradırdı. Xalqımıza qarşı aparılan soyqırım

siyasəti özünün siyasi-hüquqi qiymətini tapmadığı üçün tarixi faktlar sovet mətbuatında ermənilər tərəfindən təhrif olunur və ictimai fikir çaşdırılırdı. Ermənilərin sovet rejimindən bəhrələnərək həyata keçirdikləri və 80-cı illərin ortalarında daha da güclənən anti-azərbaycan təbliğatına Azərbaycan respublikasının rəhbərliyi vaxtında lazımi qiymət vermədi.

1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ konfliktinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına da respublikada düzgün siyasi qiymət verilmədi. Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında ermənilərin qeyri-konstitusion qərarını və Moskvanın əslində bu vilayəti Xüsusi İdarəetmə Komitəsi vasitəsilə Azərbaycanın tabeliyindən çıxarmasını xalqımız ciddi narazılıqla qarşıladı və mühüm siyasi aksiyalara əl atmaq məcburiyyəti qarşısında qaldı. Respublikada keçirilən mitinqlər zamanı torpaqlarımızın işğalı siyasəti qətiyyətlə pislənsə də Azərbaycan rəhbərliyi öz passiv mövqeyindən əl çəkmədi. Məhz elə bunun nəticəsi olaraq 1990-cı ilin yanvar ayında getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı məhv və şikəst edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qoyuldu.

1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə azərbaycanlıların məhv edilməsi, əsir alınması, şəhərin yerlə-yeksan edilməsi ilə nəticələndi.

Millətçi-separatçı ermənilərin Dağlıq Qarabağda başladığı avantürist hərəkətin nəticəsi olaraq bu gün bir milyondan artıq soydaşımız erməni qəsbkarları tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmış, çadırlarda yaşamağa məhkum edilmişdir. Ərazimizin 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğalı zamanı minlərlə vətəndaşımız şəhid olmuş, xəsarət almışdır.

Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir.

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" fərmanının tariximizin bu qaranlıq səhifələrinə işıq saçan ilk rəsmi sənəd kimi böyük əhəmiyyətini qeyd edir və 80 il bundan əvvəl azərbaycanlılara qarşı törədilmiş cinayətlərin ildönümü ərəfəsində 31 mart gününü "Azərbaycanlıların soyqırımı günü" elan etməsini milli yaddaşımızı dirçəldən, tarixi həqiqətlərin üzə çıxmasına və öz yerini tutmasına təkan verən mühüm siyasi-hüquqi və mənəvi aksiya sayır.

Bu mühüm sənəddə tariximizdə ilk dəfə olaraq Azərbaycanın XIX əsrdə zorakılıqla parçalandıqdan sonra azərbaycanlılara qarşı törədilmiş, bəşər tarixində görünməyən vəhşiliklərlə həyata keçirilmiş kütləvi qırğınların – soyqırımların rəsmən adı çəkilir, xüsusilə 1905-1906, 1918-1920, 1948-1953 və 1988-1993-cü illərdə erməni millətçi, şovinist dairələri və onları dəstəkləyən böyük dövlətlərin mürtəce qüvvələri tərəfindən bütün Cənubi Qafqaz miqyasında azərbaycanlı əhaliyə qarşı aparılmış etnik düşmənçilik siyasətinin kökləri açılır, "Böyük Ermənistan" xülyasını həyata keçirməyin əsas və real yolunu tarix boyu bu ərazilərin yerli sakini olmuş azərbaycanlıların məhv edilməsində, köçürülməsində, onların tarix və mədəniyyət abidələrinin dağıdılmasında, yer adlarının dəyişdirilməsində görmüş antiazərbaycan qüvvələrinin mənfur fəaliyyətinə siyasi qiymət verilir.

Azərbaycanın çar Rusiyası tərəfindən işğalını rəsmiləşdirən Gülüstan və Türkmənçay sülh müqavilələrindən sonra Azərbaycana yüz minlərlə erməninin köçürülməsi, həm də din birliyi əsasında onlara yerli əhali ilə müqayisədə böyük hüquq və imtiyazların verilməsi tezliklə

rus-erməni alyansı tərəfindən azərbaycanlı əhalinin hər vasitə ilə sıxışdırılmasına gətirib çıxardı. "Daşnak" və "Qnçak" kimi erməni millətçi partiyalarının fəaliyyətə başlamasından və fanatik erməni kütlələrini şovinist ideyalar ətrafında birləşdirməsindən sonra isə bu proses daha da sürətləndi. Birinci rus inqilabının başladığı 1905-ci ildə silahlanmış mütəşəkkil erməni dəstələri etnik zəmində soyqırımı kimi dəhşətli bir cinayətin Qafqazda ilk müəllifləri olmuşlar. 1905–1907-ci illərdə onlar Bakıda, Tiflisdə, İrəvanda, Naxçıvanda, Gəncədə, Qarabağda, Zəngəzurda kütləvi şəkildə azərbaycanlılara divan tutmuş, şəhər və kəndləri yandırmış, uşaqları, qadınları, qocaları misilsiz qəddarlıq və vəhşiliklə öldürmüşlər. Həmin dövrdə təkcə Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarında 75 Azərbaycan kəndi yerlə-yeksan edilmiş, İrəvan və Gəncə quberniyalarında ümumən 200-dən artıq yaşayış məntəqəsi viran edilmişdir. Erməni vəhşiliyindən sağ qurtara bilən on minlərlə azərbaycanlı öz doğma yurd-yuvasını tərk etmək məcburiyyəti qarşısında qalmış, bununla da Azərbaycanda tarixi artıq bir əsrə yaxınlaşmaqda olan hərarətli qaçqınlıq ənənəsinin əsası qoyulmuşdur [4].

**Ədəbiyyat:**

1. "Osmanlı yönetiminden sovet yönetimine kadar" (1918–1921) Kizim Merve suyunbikeye.
2. Abışov V.Ş. 1917–1918-ci illərdə erməni millətçilərinin Azərbaycan xalqına qarşı soyqrımı siyasəti. Bakı, 2007, 25 s.
3. Babayev L.S. Azərbaycan Xalq Cümhuriyyətinin sərhəd mühafizəsi tarixi (1918–1920-ci illər). Bakı, 2007, 24 s.
4. Əlizadə M.C. Azərbaycanda türk–müsəlman soyqrımını öyrənmək üçün mənbələr (1918–1920-ci illər). Bakı, 2007, 27 s.

***Açar sözlər:*** *Azərbaycan, Quba, İrəvan, Şamaxı, soyqırım, müsəlman qırğınları, ermənilər*

**Sahiba Budagova**
*Leading researcher of the Institute of History named after A.A.Bakikhanov*
*of the Azerbaijan National Academy of Sciences,*
*PhD in History, Associate Professor*

## THE MASSACRES COMMITTED BY ARMENIANS IN AZERBAIJAN (1918–1921)

### SUMMARY

Genocide of Azerbaijanis was carried out in a number of regions and cities were destroyed by Armenian armed detachments. The policy of genocide and deportation of Armenians against Azerbaijanis, which began in the last century and continues to this day, is clearly manifested in the settlement of the of the Armenian-Azerbaijani, Nagorno-Karabakh conflict. After the proclamation of its independence, the Republic of Azerbaijan was given the opportunity to create an objective picture of the historical past of our nation truths were revealed, that had been kept secret for many years and were forbidden, the distorted events acquired their true meaning. As the result of the adventurous actions that began by the Armenian nationalists and separatists in Nagorno-Karabakh, today more than one million Azerbaijanis were expelled from their native lands by the Armenian aggressors and, as forced refugees and displaced persons, were sentenced to living in difficult conditions.

***Keywords:*** *Azerbaijan, Guba, Yerevan, Shamakhi, genocide, Muslim massacres, armenians*

**Сахиба Будагова**
*Ведущий научный сотрудник Института Истории имени А.А.Бакиханова Национальной Академии Наук Азербайджана, доктор философии по истории, доцент*

# МАССОВЫЕ УБИЙСТВА, СОВЕРШЕННЫЕ АРМЯНАМИ В АЗЕРБАЙДЖАНЕ (1918-1921 ГГ.)

## РЕЗЮМЕ

Политика геноцида и депортации армян против азербайджанцев, начавшаяся с прошлого века и продолжающаяся по сей день, отчетливо проявляется в урегулировании армяно-азербайджанского, нагорно-карабахского конфликта. После провозглашения своей независимости Азербайджанской Республике была предоставлена возможность создать объективную картину исторического прошлого азербайджанского народа, открылись истины, которые долгие годы держались в секрете и были запрещены, искаженные события обрели свое истинное значение. В результате авантюристского движения, начавшегося армянскими националистами-сепаратистами в Нагорном Карабахе сегодня более миллиона азербайджанцев армянскими захватчиками изгнаны со своих родных земель и, как вынужденные беженцы и переселенцы приговорены к проживанию в тяжелых условиях.

***Ключевые слова:*** *Азербайджан, Губа, Ереван, Шамаха, геноцид, мусульманские погромы, армяне*

# VƏTƏN TARİXİ
# NATIONAL HISTORY

UOT 94 (479.24)
UOT 327

**AQİL ƏHMƏDOV**
**AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun Beynəlxalq münasibətlər tarixi ixtisası üzrə elmlər doktoru proqramının dissertantı, tarix üzrə fəlsəfə doktoru, dosent**
*e-mail: agilahma@gmail.com*

## HEYDƏR ƏLİYEVİN MİLLİ İNKİŞAF SİYASƏTİNDƏ MİQRASİYA PROSESLƏRİ

*"Fikrimcə, miqrasiya sahəsində ölkənizdə həyata keçirilən işlər, ümumilikdə miqrasiya idarəetməsi üçün çox yaxşı nümunə ola bilər".*
*Uilyam Leysi Svinq*
*Beynəlxalq Miqrasiya Təşkilatının baş direktoru*
*Bakı, 2 sentyabr 2015-ci il*

Demokratik-hüquqi inkişaf yolu tutmuş ölkələrin sosial-iqtisadi tərəqqisində stabil siyasi idarəçilik, konstitusional hüquqların müdafiəsi vacib amillərdir. Azərbaycan Respublikası ötən dövr ərzində, görkəmli dövlət və siyasi xadim Heydər Əliyevin müəyyən etdiyi praqmatik siyasi kursu bu baxımdan inkişaf etdirərək, hazırda davamlı və dayanıqlı tərəqqi dövrünü yaşayır. Heydər Əliyevin istər sovet, istərsə də müstəqil Azərbaycan Respublikasına rəhbərliyi dövründə, təməli qoyulmuş milli inkişaf siyasətindən öz nəsibini almış sahələrdən biri heç şübhəsiz, respublikada miqrasiya siyasətinin inkişafı ilə bağlı olmuşdur. Ümummilli lider, çoxcəhətliliyi ilə beynəlxalq mahiyyət daşıyan əmək miqrasiyasını müsbət dəyərləndirərək dünya azərbaycanlılarının emiqrasiya proseslərində yaxından iştirakını yüksək qiymətləndirmişdir. Heydər Əliyev qlobal prosesdə Azərbaycan elminin, mədəniyyətinin, iqtisadiyyatının, ən əsası isə Azərbaycan torpaqlarının 20 faizinin işğal faktının dünya birliyinə doğru-düzgün çatdırılması işinin əhəmiyyətinə diqqət çəkmişdir. Məhz Heydər Əliyevin yüksək siyasi erudisiyası Azərbaycanda insan və vətəndaş hüquqlarının qorunması kimi mühüm sahələrin inkişafında və miqrasiya ilə bağlı olan əməkçi miqrantların hüquqlarının müdafiəsində həlledici rol oynamışdır. Görkəmli dövlət və siyasi xadim Heydər Əliyev fenomeni Azərbaycanda davamlı inkişafa dəstək verən miqrasiya qanunvericiliyinin təkmilləşdirilməsi, beynəlxalq əməkdaşlığa nail olunmasında və mövcud sahədə yeni fərman və sərəncamların imzalanmasında müstəsna əhəmiyyət daşımışdır. Lakin bu da bir həqiqətdir ki, Heydər Əliyevin 1993-cü ildə xalqın iradəsi ilə yenidən ölkə rəhbərliyinə qayıdışı stabil siyasətin və davamlı inkişafın qarantına çevrilməklə, ölkə daxilində bir sıra sahələrlə yanaşı miqrasiya proseslərinin tənzimlənməsi işində böyük səmərə təşkil etmiş, Azərbaycan vətəndaşlarının xaricə emiqrasiyası kəskin azalmışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycanın hərtərəfli və dinamik inkişafının Heydər Əliyev konsepsiyası öz başlanğıcını 1969-cu ildən götürür. Azərbaycanın Heydər Əliyev siyasəti əsasında irəliləməsinin indinin özündə də davam etməsi 1969-cu ildən başlayan yüksəliş yolunun böyük zaman kəsiyini əhatə edən

dövlətçilik konsepsiyası funksiyasını yerinə yetirdiyini təsdiqləyir [13, 37]. O da birmənalı şəkildə qəbul edilmiş həqiqətdir ki, Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən sonra, uğurlu sosial-iqtisadi inkişafın, eləcə də dövlətçilik bazasının əsası Heydər Əliyev tərəfindən qoyulmuşdur. Xalqının sosial rifah halının yüksəldilməsi ulu öndərin fəaliyyətinin əsas məqsədlərindən birini təşkil etmişdir. Ölkəmizin yeni tarixinə həlledici zaman kəsiyi kimi daxil olmuş 1993-2003-cü illərdə Azərbaycan Heydər Əliyevin titanik əməyi sayəsində sürətli və sabit sosial-iqtisadi inkişaf yoluna qədəm qoymaqla yanaşı, daxili əmin-amanlığa da qovuşmuş, özünü beynəlxalq hüququn müstəqil subyekti kimi təsdiqləməyi bacarmışdır [15, 7]. Ümummilli liderin sovet dövründən başlanan sosial-iqtisadi inkişaf yolu, onun respublikada hakimiyyətə gəlişinin 51-ci ilində, yəni 1969-cu ildən 2020-ci ilə qədər keçən yarım əsr vaxt ərzində müasir Azərbaycanın sürətli yüksəliş dövrü olaraq səciyyələnir. Göründüyü kimi, Heydər Əliyev milli inkişafın bir parçası kimi əmək miqrasiyasına ümumilikdə müsbət yanaşmış, onun çoxcəhətli tərəflərinin aktuallığına diqqət yetirmişdir. Görkəmli dövlət xadimi Azərbaycana olan immiqrasiya ilə yanaşı, ölkə vətəndaşlarının da emiqrasiya proseslərində iştirakının təbii olduğunu qeyd edərək, miqrasiya proseslərinə müdaxilənin yolverilməz olduğunu çıxışlarında vurğulamışdır.

Azərbaycan Cənubi Qafqaz ölkələri sırasında əhalisinin sayı ən çox olan respublikadır. Burada 86,6 min kv.km ərazidə 9 477.1 min nəfər əhali yaşayır (1 yanvar 2014-cü il). Azərbaycan Respublikasında sənayenin, nəqliyyatın güclü inkişafı urbanizasiyanın da inkişafına səbəb olmuşdur. Hal-hazırda Abşeron yarımadasının böyük hissəsi yaşayış məntəqələri ilə tutulmuşdur [2, 286-287]. Heydər Əliyevin milli inkişaf siyasətində paytaxt Bakının abadlaşdırılması keçən əsrin 70-ci illərində olduğu kimi, dövlət müstəqilliyinin ilk illərində də diqqət mərkəzində olmuşdur. Bununla yanaşı Heydər Əliyev Azərbaycanın regionlarının inkişaf etdirilməsi məqsədilə dövlət proqramlarının səmərəliliyini də diqqətdən kənarda qoymamışdır. Məhz ümummilli liderin respublikaya rəhbərliyi dövründə milli inkişafa və miqrasiya siyasətinin genişlənməsinə səbəb yaradacaq yeni istehsal vasitələrinin yaradılması, yəni, qeyri neft sektorunun inkişaf etdirilməsinin səmərəsi hazırda özünü göstərir. Azərbaycanda stabil siyasətlə yanaşı, sosial-iqtisadi, demoqrafik vəziyyət ölkə qanunları ilə yüksək səviyyədə tənzimlənir, vətəndaşların sosial müdafiəsinə diqqət gün keçdikcə daha da artır. Respublikada bütün sahələrdə müşahidə olunan tərəqqi Azərbaycan vətəndaşlarının yeni, yüksək gəlirli işlərə cəlb olunması ilə yanaşı, əmək miqrasiyasının müsbət inkişafına əlverişli şərait yaradır, dinamik inkişaf tempi respublikaya immiqrasiya edən xarici ölkə vətəndaşlarının da diqqətini çəkir.

Hazırda respublikada sosial-iqtisadi və demoqrafik cəhətdən əhali miqrasiyası prosesinin üç əsas istiqaməti – respublika ərazisinin bir hissəsinin işğal olunması nəticəsində əhalinin mərkəzi şəhərlərə və ayrı-ayrı rayonlara məcburi miqrasiyası; əhalinin kəndlərdən şəhərlərə axını; urbanizasiya prosesinin sürətlənməsi və iri şəhərlərin yaranması ilə əlaqədar olaraq şəhər əhalisinin sayının artması özünü daha qabarıq şəkildə büruzə verir. Azərbaycan üçün sonuncu iki hal istər ikinci dünya müharibəsinədək, istərsə də ondan sonrakı dövrlərdə səciyyəvi olmuşdur. Lakin bununla belə respublikanın müxtəlif ərazilərinin, şəhər və kənd yerlərinin sosial-iqtisadi inkişafında baş verən dəyişikliklərdən asılı olaraq əhali miqrasiyasının xüsusiyyətləri, yaranma mənbələri və miqyası müxtəlif olmuşdur. Bir qayda olaraq, miqrasiya edən əhalinin 85-90%-ini əmək qabiliyyəti olanlar təşkil edir. Buna görə də ərazi üzrə hərəkət edən əhalinin əmək ehtiyatlarının təkrar istehsalında, onun kəmiyyət və keyfiyyətcə dəyişməsində miqrasiyanın rolu olduqca böyükdür [1, 95-96]. Ölkə iqtisadiyyatında əldə olunan uğurlar, Heydər Əliyevin təməl siyasəti üzərində irəliləyərək bu günlərə çatmışdır. Daxili miqrasiyanın tənzimlənməsində

bir nömrəli problem olan müharibə və onun yaratdığı fəsadlar Heydər Əliyevin quruculuq və inkişaf yolunda son dərəcə həssas məsələ idi. İllər ötür və Azərbaycan Ermənistanın işğalçı siyasəti nəticəsində bir zamanlar təsis etdiyi çoxsaylı qaçqın düşərgələrini ləğv edir, onları yeni mənzillərlə əvəz edə bilir. Bu onu göstərir ki, Heydər Əliyevin tərəqqi siyasəti xalqımızın ağrılı yeri olan məcburi qaçqın və köçkün problemlərinin həllində mühüm rol oynamaqla milli inkişafı bütün regionlara yaymışdır. Bu baxımdan milli inkişaf və miqrasiya prosesləri Heydər Əliyevin sülhməramlı siyasətində vəhdət təşkil etmişdir.

Ötən dövr ərzində Azərbaycan Respublikasına immiqrasiya edən xarici ölkə vətəndaşlarının sayında müxtəlif vaxtlarda artım və azalma müşahidə olunmuşdur. Belə ki, 1990-cı ildə bu rəqəm 84 279 nəfər idisə, 1995-ci ildə 6 222 nəfər, 2000-ci ildə 4 361 nəfər, 2012-ci ildə isə 42 273 nəfər təşkil etmişdir [2, 296]. Göründüyü kimi 1995, 2000-ci illərdə Azərbaycana artan immiqrasiya növbəti illərdə də yüksəlmiş və bu da ölkəyə Heydər Əliyev kimi dühanın rəhbərliyi dövründə respublikanın iqtisadi qüdrətinin dinamik inkişaf mərhələsi kimi yadda qalmışdır. Son illər Azərbaycanda mövcud olan stabil siyasi mühit, insan hüquq və azadlıqlarına göstərilən yüksək dəyər və milli inkişafın genişlənməsi, bütün regionlarda yeni istehsal sahələrinin yaranması, bir sözlə qeyri neft sektorunun inkişafı və insan kapitalına artan diqqət, ölkəyə immiqrasiya edən insanların sayında artımın olduğunu açıq şəkildə göstərir.

Həmçinin, qeyd olunan illərdə Azərbaycan Respublikasının vətəndaşları da emiqrasiya proseslərində iştirak etmişlər. Dövlət müstəqilliyinin ilk illərində Azərbaycan vətəndaşlarının emiqrasiyası yüksək idisə, illər ötdükcə respublikada müşahidə olunan sosial-iqtisadi inkişaf, yeni iş yerlərinin açılması, beynəlxalq və regional əhəmiyyətli layihələrin reallaşması emiqrasiyanın qarşısını kəskin şəkildə almış və vətəndaşların rifah halının yüksəlməsi baş vermişdir. 1990-cı ildə Azərbaycandan emiqrasiya 137 900 nəfər idisə, 1995-ci ildə 16 033 nəfərə qədər aşağı düşmüşdür. 2000-ci ildə 9 947 nəfər idisə, bu rəqəm 2012-ci ildə 226 nəfərə qədər azalmışdır. Qeyd etmək lazımdır ki, Azərbaycan vətəndaşlarının emiqrasiya etdikləri ölkələr sırasında birinci yerdə Rusiya Federasiyası gəlir və müxtəlif illərdə 56 (1990), 70 (1995), 84 (2000), 42 (2012) faiz arasında dəyişmişdir. Azərbaycan vətəndaşlarının emiqrasiyası baxımından ikinci yerdə Afrika və Avstraliya ölkələri gəlir ki, emiqrasiya 21 (1990), 4 (1995), 1 (2000), 3 (2012) faiz təşkil etmişdir. Üçüncü yerdə Avropa və Asiya ölkələrini görmək olar – 11 (1990), 7, 15 (1995), 7 (2000), 12, 39 (2012) faiz emiqrasiya baş vermişdir. Son dövrlərdə respublika vətəndaşlarının emiqrasiya proseslərində, çox aşağı fazilərlə dördüncü sırada ABŞ dayanır – 1 (1990), 4 (1995), 1 (2000), 4 (2012) faiz təşkil etmişdir [2, 296]. 1993-2000-ci illərdə Azərbaycanda immiqrasiya və emiqrasiya prosesləri ölkədə baş verən iqtisadi islahatlar, bölgələrdə fabrik və zavodların tikilib istifadəyə verilməsi, yeni iş yerlərinin, istehsal vasitələrinin artması, qeyri-neft sektorunun inkişafı ilə müxtəlif inkişaf faizləri ilə yadda qalmışdır. Bu isə miqrasiya proseslərinin sosial əhəmiyyətinin Heydər Əliyevin milli inkişaf siyasətində nə qədər yüksək olduğunu bir daha əks etdirmiş olur.

Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasına rəhbərliyi dövründə keçirdiyi görüş və toplantılarda miqrasiya məsələlərinə, mövcud sahədə yaranan problemlərin həllinə böyük diqqət yetirilmişdir. Bununla bağlı Heydər Əliyevin rəhbərliyi ilə 13 aprel 2000-ci ildə Bakı Hava Limanı Kompleksi işinin yaxşılaşdırılmasına həsr olunan müşavirədə miqrasiya məsələlərinə ciddi əhəmiyyət verilmişdir. Qeyd olunmuşdur ki, sərhəd nəzarətinin mövcud struktur bazasında yüksək ixtisaslı immiqrasiya xidmətinin yaradılması pasport-viza nəzarəti məsələləri sahəsində yarana biləcək problemlərin həllində səmərə təşkil edəcək. Həmçinin, axtarışda və ya operativ nəzarətdə olan sərnişinlərin axtarışı sistemlərinin birləşdirilərək bütün funksiyaların immiqrasiya

xidmətinə verilməsi təklif olunmuşdur [4, 111]. Məhz Heydər Əliyevin miqrasiya ilə bağlı hava limanında verilən təklifə münasibət bildirməsi və problemin həllinə dəstək verməsi hazırda onun adını daşıyan beynəlxalq hava limanında immiqrasiya məsələlərinin hüquqi yolla, ölkə qanunları əsasında, yüksək səviyyədə tənzimləndiyini göstərir.

Heydər Əliyev miqrasiya məsələlərini xarici səfərləri çərçivəsində də gündəmə gətirmiş, beynəlxalq aktuallığına diqqət çəkmişdir. Ümummilli lider 8 sentyabr 2000-ci ildə ABŞ-a rəsmi səfəri çərçivəsində bu ölkənin nüfuzlu yəhudi təşkilatlarının rəhbərləri ilə görüşündə Azərbaycan vətəndaşlarının emiqrasiya məsələlərinə toxunaraq demişdir: "Bilirsiniz, təxminən 1988, 1989-cu illərdən başlayaraq Sovetlər İttifaqından Qərb ölkələrinə, Amerikaya, İsrailə yəhudilərin axını güclü olmuşdur. Azərbaycandakı bu proses, eyni zamanda Azərbaycanda gedən ictimai siyasi proseslər Ermənistan-Azərbaycan müharibəsinə görə və daxildə vəziyyət çox gərgin olduğuna görə daha da çətin olmuşdur. Ancaq 1993-cü ildən biz Azərbaycanda daxili ictimai-siyasi sabitliyi təmin edə bildik və insanların miqrasiyası çox kəskin şəkildə dayandı. Hətta sizə deyə bilərəm ki, vaxtilə Azərbaycandan İsrailə köçmüş insanlar – yəhudilər indi artıq Azərbaycana dönürlər. Son zamanlar Azərbaycana 40 belə ailə dönübdür" [5, 18]. Heydər Əliyev düzgün olaraq vurğulamışdır ki, dövlət müstəqilliyinin ilk illərində yaşanan gərginlik, iqtisadi tənəzzül və Ermənistanın Azərbaycana qarşı işğalçı siyasəti ölkədən emiqrasiyanı yüksəltmişdir. Lakin, Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra yaranan siyasi sabitlik, respublikada həyata keçirilən nəhəng enerji layihələri, əsrin müqaviləsi, qeyri-neft sektorunun və bölgələrin əsaslı inkişafı nəticəsində açılan yeni iş yerləri, məhz dahi liderin uzaqgörən siyasətinin davamı olaraq Azərbaycanı tərk edən vətəndaşların sayını azaltmaqla yanaşı, bir zamanlar emiqrasiya etmiş intellektual təbəqənin geri dönüşündə səmərəli olmuşdur.

Görkəmli dövlət və siyasi xadim Heydər Əliyev Azərbaycanda milli inkişafa dəstək verən əmək miqrasiyasının inkişafı ilə bağlı beynəlxalq əməkdaşlığa da xüsusi diqqət yetirmişdir. Dahi liderin 31 oktyabr 2000-ci ildə Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) baş direktoru Brunson Mak Kinli ilə Bakıda keçirdiyi görüş mühüm əhəmiyyət daşımış və mövcud sahədə yeni əməkdaşlıq münasibətlərinin formalaşmasına yol açmışdır. BMqT baş direktoru Azərbaycana ilk dəfə səfər edərək, ikitərəfli münasibətlərin qurulmasında maraqlı olduğunu ifadə etmişdir: "Azərbaycanda kiçik biznesin inkişaf etdirilməsi üçün mikrokreditlərin verilməsindən tutmuş, qaçqınlara yardım göstərilməsi və Dağlıq Qarabağ münaqişəsi başa çatdıqdan sonra bərpa işlərində yaxından iştiraka qədər xeyli məsələləri müzakirə etdik. BMqT ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq üçün yaxşı perspektivlər var. Azərbaycanda bizimlə əlaqədə çalışan nazirliklər ilə səmərəli görüşlərimiz oldu. Bu görüşlər zamanı gələcək əməkdaşlığımız barədə ətraflı müzakirələr apardıq" [5, 169]. Çıxışa cavab olaraq Heydər Əliyev BMqT baş direktorunun Azərbaycanla əməkdaşlığa göstərdiyi marağı yüksək qiymətləndirərək demişdir: "...biz istəyirik ki, bütün beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edək. Sizin təşkilatınız bu baxımdan, təbiidir ki, bizim ölkə üçün vacib bir təşkilatdır. Dünyada gedən indiki proseslər onu göstərir ki, miqrasiya məsələləri dünyanın problemlərindən biri olubdur. Ona görə bəlkə də sizin beynəlxalq təşkilatın işi indi daha da artıb və bu proseslərə təsir etmək imkanları da çoxalıbdır" [5, 169-170]. Qlobal prosesə münasibət bildirən Heydər Əliyev Azərbaycan hökumətinin miqrasiya sahəsində fəaliyyət göstərən BMqT ilə əlaqələrinin qurulması və inkişafında bu baxımdan mühüm rol oynamış, iqtisadi məsələlərlə yanaşı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində qurumun siyasi dəstəyinin əhəmiyyətinə xüsusilə vurğu etmişdir.

Ardından Azərbaycan Respublikası miqrasiya sahəsində qonşu Rusiya ilə əməkdaşlığa diqqət yetirmişdir. Belə ki, 2000-ci ilin 16 ok-

tyabrında Azərbaycan Respublikası hökuməti ilə Rusiya Federasiyası hökuməti arasında informasiya və miqrasiya sahələrində əməkdaşlıq haqqında saziş imzalanmışdır [14, 551]. O dövrdə olduğu kimi indi də Azərbaycanın Rusiya ilə əməkdaşlığında miqrasiya məsələləri aktual olaraq qalır. Nəzərə alsaq ki, azərbaycanlıların emiqrasiya etdikləri ölkələr sırasında birinci yerdə Rusiya Federasiyası dayanır, o zaman bu ölkə ilə münasibətlərin siyasi və sosial-iqtisadi istiqamətlərinin perspektivləri meydana çıxmış olur. Heydər Əliyevin müdrik siyasəti bu baxımdan Azərbaycan-Rusiya münasibətlərinin möhkəm təməl üzərində qurulduğunu deməyə əsas verir. Azərbaycanın MDB və bu təşkilata üzv olan dövlətlərlə münasibətlərində də əmək miqrasiyası hər zaman ön sıralardadır və geniş müzakirələrə yol açır.

Çox sevindirici haldır ki, Heydər Əliyev miqrasiya kimi beynəlxalq problemi yüksək səviyyəli tədbirlərdə də hər zaman dilə gətirmişdir. Bununla əlaqədar görkəmli dövlət xadimi 9 noyabr 2001-ci ildə Dünya Azərbaycanlılarının I Qurultayındakı çıxışında dünyada gedən bir sıra qlobal məsələlərlə yanaşı azərbaycanlıların emiqrasiya proseslərində yaxından iştirak etdiyini qeyd edərək, bunun müsbət hal olduğunu və Azərbaycan üçün sosial, mədəni və siyasi əhəmiyyətinə diqqət çəkərək demişdir: “Azərbaycanlılar dünyada gedən miqrasiya prosesi nəticəsində bir çox ölkələrə səpələnmişlər. Bu, təbii bir prosesdir, onun qarşısını almaq olmaz, almaq da lazım deyil və ümumən müsbət xarakter daşıyır. Doğrudur, indi müstəqil dövlət olandan sonra bəzi müxalifət dairələri bizi tənqid edirlər ki, Azərbaycan əhalisinin xeylisi – biri deyir 1 milyon, biri deyir 2 milyon – kənarda yaşayır. Ancaq mən bunu heç də mənfi bir hadisə kimi qəbul edə bilmərəm. Çünki hər bir millət, hər bir xalq yalnız öz doğma torpağı çərçivəsində, milli məhdudiyyət şəraitində yaşaya bilməz. Bir də qeyd edirəm, dünyada miqrasiya prosesi bütün ölkələrə, xalqlara aiddir. Əgər azərbaycanlılar bu proses nəticəsində dünyanın bir çox ölkələrində məskunlaşıblarsa, orada özləri üçün həyat qurublarsa, özlərinin həyat şəraitini təmin ediblərsə – bunlar hamısı dünyada azərbaycanlıların nə qədər geniş şəkildə yayıldığını göstərir” [6, 196-197]. Heydər Əliyev haqlı olaraq qeyd etmişdir ki, miqrasiya proseslərində bütün dövlətlər iştirak edə bilər. Bu da bir həqiqətdir ki, azərbaycanlıların yer üzərində səpələnmələri xalqımızın varlığından, onun tarixindən, dilindən, mədəniyyətindən, sahib olduğu mənəvi dəyərlərindən xəbər verir və ölkəni tanıdır. Həmçinin qeyd etmək lazımdır ki, Heydər Əliyevin Azərbaycandan xaricə olan intellektual miqrasiyanın, yəni beyin köçünün qarşısının alınmasında da praqmatik siyasəti mühüm əhəmiyyət daşımışdır və bunu yalnız dahi lider edə bilərdi. Azərbaycanın tanınmış elm və mədəniyyət xadimlərinin ölkədə yaşanan milli inkişaf məsələlərinə cəlb edilməsi və rifah halına yönəldilməsində Heydər Əliyev şəxsiyyəti həlledici rol oynamışdır.

Heydər Əliyev xarici səfərlərində vaxt tapıb, mütləq Azərbaycanın tanınmış simaları, elm və mədəniyyət sahəsində, tibdə yüksək nəticələr göstərmiş soydaşlarımızla görüşlər keçirər və söhbət zamanı miqrasiya məsələləri müzakirə olunardı. Belə yadda qalan görüşlərdən biri, Heydər Əliyevin 20 iyul 2002-ci ildə Yaltada Ukraynada yaşayan soydaşlarımızla görüşündə də miqrasiya proseslərinin müsbət aspektlərinə toxunulmuş, azərbaycanlıların emiqrasiya proseslərində iştirakına mənfi baxmadığını, əksinə onun təbii proses olduğunu dilə gətirmişdir: “Son əsrdə dünya elə dəyişibdir ki, insanlar çox böyük miqrasiya edirlər. Bu, təkcə bizim bölgədə, keçmiş sovetlər məkanında deyil, dünyanın hər yerində belədir. İndi dünyada gedən proseslərdir və bu prosesləri də heç kim idarə etmir. Bunlar obyektiv proseslərdir. Biz azərbaycanlılar da bu proseslərdə istər-istəməz iştirak edirik. Məsələn, mən hesab edirəm ki, bizim azərbaycanlılar üçün belə miqrasiya prosesinin meydana çıxması və azərbaycanlıların öz ərazisindən, öz torpağından çıxaraq dünyanın başqa ölkələrində yaşaması, məskən salması, özü üçün orada iş yaratması, həyat qurması, oradakı cəmiyyətdə özünə yer

tutması – bunların hamısı bizim ümumi milli mənafeyimizə xidmət edən hallardır" [7, 38]. Doğrudan da xaricdə yaşayan soydaşlarımızın oradakı fəaliyyəti, xüsusilə Azərbaycan mədəniyyəti mərkəzlərinin, dostluq cəmiyyətlərinin təsis edilməsi həmin ölkələr ilə respublika arasında körpü rolunu oynayır və siyasi əhəmiyyəti ilə diqqət çəkir.

Heydər Əliyev 10 oktyabr 2002-ci ildə "Demokratik cəmiyyətdə dinin və əqidənin rolu: terrorizmə və ekstremizmə qarşı mübarizə yollarının araşdırılması" mövzusunda Bakıda keçirilən beynəlxalq konfransdakı nitqində qanunsuz əməllər, sərhəd pozuntuları və qeyri-qanuni miqrasiya ilə mübarizədə Azərbaycanın qazandığı nailiyyətləri şərh edərək demişdir: "Ölkədə sərhəd rejiminin gücləndirilməsi, qeyri-qanuni miqrasiya kanallarının aşkar edilib qarşısının alınması, terror fəaliyyətinin maliyyələşdirilməsinə yönəldilməsi ehtimal olunan maliyyə vəsaitinin, müxtəlif iqtisadi mənbələrin aşkar edilməsi və digər istiqamətlərdə bir çox işlər görülmüşdür" [8, 183]. Heydər Əliyev burada dövlətlərin təhlükəsizliyi kimi mühüm məsələlərdə qanunsuz miqrasiyanın qarşısının alınmasında ikitərəfli və çoxtərəfli əməkdaşlığa, siyasi dialoqa diqqət çəkə bilmişdir. Azərbaycanda milli qanunvericiliyin inkişaf etdirilməsi miqrasiya sahəsində daha uğurlu addımlar atmağa imkan verdi və Heydər Əliyev respublikada miqrasiya qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində mühüm dövlət sənədləri imzaladı. Bu baxımdan dahi liderin səyləri nəticəsində 1996-cı il martın 13-də "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında" Azərbaycan Respublikasının qanunu qəbul edildi. Ardınca 1997-ci ildən başlayaraq BMqT ilə vətəndaşlıq çərçivəsində "Azərbaycanda miqrasiyanın idarəetmə potensialının yaradılması adlı xüsusi proqram" həyata keçirilməyə başlanmışdır. 1998-ci il dekabrın 22-də "İmmiqrasiya haqqında qanun" qəbul edildi. Heydər Əliyevin 28 dekabr 1998-ci il tarixli sərəncamına əsasən, "Azərbaycanda demoqrafik inkişaf konsepsiyası" miqrasiya proseslərinin tənzimlənməsi sahəsində qəbul olunan vacib sənədlərdən biri idi. 2000-ci ildə isə "Əmək miqrasiyası haqqında Azərbaycan Respublikasının qanunu" qəbul edildi [3, 193]. Heydər Əliyevin ölkədə miqrasiya proseslərinin tənzimlənməsində hüquqi bazanın yaradılmasına və möhkəmləndirilməsinə göstərdiyi münasibət problemin sosial-iqtisadi aspekti ilə yanaşı təhlükəsizlik məsələlərinin də müzakirəsinə yol açır.

Bu səbəbdən, ölkənin sosial-iqtisadi maraqlarının qorunmasında milli təhlükəsizlik məsələsi miqrasiya proseslərində müzakirəsi vacib olan problemlərdəndir. Bu baxımdan Heydər Əliyevin 6 fevral 2003-cü ildə Dövlət Sərhəd Xidmətinin rəhbər heyəti və sərhəd dəstələrinin rəisləri ilə görüşündə qanunsuz miqrasiya kimi vacib məqamlara diqqət yetirilmişdir. Qeyd olunmuşdur ki, BMqT ilə əlaqələrin genişləndirilməsi nəticəsində 15 nəfər hərbi qulluqçu Polşa Respublikasında 1 illik təlimə göndərilmişdir. Eləcə də bildirilmişdir ki, sərhəd-keçid məntəqələrinin xidmətinin Avropa standartları səviyyəsində təşkil edilməsi üçün bir sıra beynəlxalq təşkilatlar, xüsusən BMqT ilə sıx əlaqələr yaradılmış, Binə hava limanında sərhəd fəaliyyətinin sadələşdirilməsi məqsədi ilə monitorinq keçirilmişdir [9, 17-18]. Təbii ki, stabil siyasət və təhlükəsizlik Azərbaycanda davamlı inkişafın davamlılığını təmin edən əsas amillərdəndir. Burada miqrasiya sahəsində yüksək təhsilin də əhəmiyyəti böyükdür. Bu baxımdan Azərbaycanın sərhədlərinin qorunmasında yüksəkixtisaslı zabitlərin miqrasiya sahəsində hüquqi məlumatlar alması, tez-tez kurs və treninqlərdə iştirakı olduqca zəruridir.

Heydər Əliyevin milli inkişaf siyasətinin genişlənməsi, yeni təşəbbüslərin qəbul olunması, beynəlxalq iqtisadi münasibətlərin inkişafı və respublikada uğurlu miqrasiya idarəçiliyinin yeni mərhələsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yürütdüyü təməlli siyasət ilə daha da genişlənmiş və regionlarda yeni iş yerləri açılmış, xalqın sosial rifahı yüksəlmişdir. Dövlət başçısı miqrasiya sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlığı möhkəmləndirə bilmişdir. Bu baxımdan, Prezident İlham

Əliyevin 20 iyun 2006-cı ildə BMqT-nin baş direktoru B.M.Kinli ilə Bakıda keçirdiyi görüş, Azərbaycanın möhkəm təməl üzərində qurulan milli inkişaf siyasətində aktuallıq kəsb edən miqrasiya siyasətinin keyfiyyətcə yeni mərhələyə keçid aldığını göstərdi. Baş direktor Bakıya əvvəlki səfəri zamanı xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşünü xatırlayaraq demişdir ki, cənab Prezident miqrasiya məsələlərinə xüsusi diqqət yetirirdi. Sizin də bu sahəyə verdiyiniz önəm bizi sevindirir [10, 57]. BMqT baş direktorunun Azərbaycana növbəti səfəri və dahi lider Heydər Əliyev ilə görüşünü xatırlaması görkəmli dövlət xadiminin dünya səviyyəsində tanınan lider olduğunu bir daha göstərmiş oldu. Hər iki halda Azərbaycan ilə əməkdaşlığa hazır olduqlarını qeyd edən baş direktor əmək miqrasiyası, əməkçi miqrantların sosial müdafiəsinin müdafiəsində Azərbaycan hökumətinin beynəlxalq təcrübəyə əsaslanan idarəçilik sistemini yüksək qiymətləndirmişdir.

Heydər Əliyevin milli inkişaf siyasətinə xidmət edəcək mühüm addımlarından biri Prezident İlham Əliyev tərəfindən gerçəkləşdirilmişdir. Əsası ümummilli lider tərəfindən qoyulan miqrasiya siyasətinin ölkə daxilində tənzimlənməsi və inkişafının sürətləndirilməsi məqsədilə Prezident İlham Əliyevin Dövlət Miqrasiya Xidmətinin (DMX) yaradılması haqqında 19 mart 2007-ci il tarixli fərmanı mövcud sahədə əsaslı irəliləyişə və innovativ miqrasiya idarəçiliyi sisteminin yaranmasına təkan verdi. Bu addım bir daha sübut etdi ki, Azərbaycanda Heydər Əliyev ideyaları yaşayır və yaşayacaq və milli ideyalardan yaranan davamlı inkişaf siyasəti xalqımızın rifah halının yüksəlməsi işinə uzun illər xidmət edəcək. Ardından 25 may 2010-cu ildə isə dövlət başçısının iştirakı ilə DMX-nin inzibati binasının açılışı olmuşdur [11, 61]. Bununla da əlamətdar hadisə, Heydər Əliyevin quruculuq siyasətinin layiqli davamçısı Prezident İlham Əliyevin ölkədə əmək miqrasiyasının inkişafına töhfə verdiyini sübut etdi. Daha sonra BMqT baş direktorunun Azərbaycana 3-cü mühüm səfəri baş tutdu və təşkilatın yeni rəhbəri Uilyam Leysi Svinq ilə ölkə başçısının səmərəli görüşləri öz müsbət nəticəsini sonrakı illərdə göstərdi, mövcud sahədə beynəlxalq praktika daha yaxından öyrənildi. Görüş zamanı BMqT baş direktoru Azərbaycanın miqrasiya sahəsində digər ölkələrə nümunə ola biləcək idarə sisteminə malik olduğunu xüsusilə vurğulayaraq demişdir: "Fikrimcə, miqrasiya sahəsində ölkənizdə həyata keçirilən işlər, ümumilikdə miqrasiya idarəetməsi üçün çox yaxşı nümunə ola bilər" [12, 76]. Göründüyü kimi ötən 1969-2020-ci illər ərzində Azərbaycan xalqı Heydər Əliyevin təməl siyasəti üzərində qurulan, sosial dövlətin uğurlarına şahidlik etmiş, ölkədə iqtisadi tərəqqi milli inkişafın əsas hərəkətverici qüvvəsi kimi çıxış edərək, regionların inkişafına əhəmiyyətli təsir göstərmişdir. Respublikada qeyri-neft sektorunun uğurlu inkişafı, neft amilinin insan kapitalına çevrilməsi prosesini sürətləndirmiş, əmək miqrasiyası sahəsində mühüm sənədlər qəbul olunmuşdur. Heydər Əliyevin Azərbaycan Respublikasında bərqərar etdiyi siyasi sabitlik xarici sərmayələrin ölkə ərazisinə daxil olmasına, nəhəng enerji layihələrinin gerçəkləşməsinə, Cənubi Qafqaz regionunda "Böyük İpək Yolu"nun bərpasına, insan hüquq və azadlıqlarının, vətəndaş hüquqlarının təmin olunmasına, nəhayət paytaxt Bakı ilə yanaşı bütün regionların əsaslı inkişafına, bir sözlə milli inkişafa gətirib çıxarmışdır.

Sonda "Heydər Əliyevin milli inkişaf siyasətində miqrasiya prosesləri" mövzusunda xalqımızın ümummilli lideri Heydər Əliyevin hakimiyyətə gəlişinin 51-ci ilinə həsr olunmuş məqalədə, göstərilən bütün müsbət məqamları aşağıda göstərildiyi şəkildə sadalamaq mümkündür:

– Demokratik-hüquqi dövlət quruculuğu ölkələrin milli inkişafında mühüm amildir. Bu baxımdan Azərbaycan Respublikasında müşahidə olunan sosial-iqtisadi tərəqqi Heydər Əliyevin 1969-cu il, Azərbaycana rəhbərliyi dövründən başlamış, hazırda Prezident İlham Əliyevin davam etdirdiyi davamlı inkişaf siyasəti idarəçiliyi respublikada milli inkişafın qarantı rolunda çıxış edir;

– Müasir dövrdə milli inkişafa dəstək verən əmək miqrasiyası sahəsində Heydər Əliyevin imzaladığı sənədlər hüquqi bazanın, miqrasiya qanunvericiliyinin təşkil olunmasında mühüm addım olmuşdur;

– Məhz Heydər Əliyevin mövcud sahənin inkişafında ikitərəfli və çoxtərəfli formatda təqdir etdiyi beynəlxalq əməkdaşlıq əlaqələri BMqT, BMT, Aİ kimi nüfuzlu qurumlarla miqrasiya sahəsində əsaslı əməkdaşlığa yol açdı;

– Heydər Əliyevin xarici səfərlərdə soydaşlarımızla yaratdığı səmimi münasibətlər, ölkənin emiqrasiya proseslərinin tənzimlənməsinə müsbət təsir göstərdi və intellektual miqrasiyanın geri axınına əlverişli şərait yaratdı;

– Heydər Əliyevin milli inkişaf siyasətində regionların dirçəldilməsi məsələsi hər zaman öndə olmuş və mövcud sahədə işlənib hazırlanan dövlət proqramları öz bəhrəsini vermişdir. Bunun nəticəsi kimi Azərbaycanın bölgələrində yeni zavod və fabriklər tikilmiş, yeni istehsal vasitələri və iş yerləri açılmışdır ki, milli inkişaf davamlı iş yerlərində çalışanların sayını artırmış və paytaxta emiqrasiyanın qarşısı alınaraq stabil sosial həyat nizamlanmışdır;

– Cənubi Qafqaz kimi mühüm regionda "Böyük İpək Yolu"nun bərpası Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində mümkün oldu və 1998-ci ildə Bakıda keçirilən beynəlxalq tədbir Azərbaycanın dünyaya açılması üçün mühüm addım oldu;

– Azərbaycanın regionda söz və nüfuz sahibinə çevrilməsi Heydər Əliyev şəxsiyyəti və siyasi xarizması ilə birbaşa bağlıdır. Məhz dahi liderin siyasi erudisiyası bölgədə daimi sülh və əmin-amanlığın davamlılığına xidmət edir;

– Heydər Əliyev miqrasiya proseslərini müsbət dəyərləndirərək dünya azərbaycanlılarının bu işdə iştirakını yüksək qiymətləndirmiş, Azərbaycan elminin, tarixinin, mədəniyyətinin, həqiqətlərinin təbliğ olunmasında siyasi əhəmiyyətinə diqqət çəkmişdir;

– Əmək miqrasiyasını təbii hal hesab edən Heydər Əliyev bunun qarşısının alınmasının insan hüquq və azadlıqlarına zidd olduğunu qeyd etmişdir;

– Hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev ideyalarını yaşadaraq, ölkənin milli inkişafdan qaynaqlanan davamlı və dayanıqlı inkişafını yüksəklərə qaldırmışdır. Dövlət başçısının sərəncamı ilə təsis edilən Dövlət Miqrasiya Xidməti isə ölkə ərazisində miqrasiya siyasətinin həyata keçirilməsində əvəzsiz rol oynayır və hökumətin daxildə olduğu kimi, həmçinin beynəlxalq əməkdaşlıq münasibətlərini inkişaf etdirir.

**Ədəbiyyat:**


1. Azərbaycan Milli Ensiklopediyası. 25 cilddə, "Azərbaycan" cildi / redaksiya heyətinin sədri İlham Heydər oğlu Əliyev. Bak: Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi, 2007, 884 s.
2. Azərbaycan Respublikası. Milli atlas (azərbaycan, ingilis, rus dillərində). Dövlət Torpaq və Xəritə çəkmə komitəsi. Bakı: Bakı Kartoqrafiya Fabriki, 2014, 444 s.
3. Abdullayev F.N. Müasir Azərbaycanda miqrasiya siyasəti və beynəlxalq əməkdaşlıq. Bakı: Elm və təhsil, 2009, 328 s.
4. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 46 kitabda, 26-cı kitab (mart 2000 – aprel 2000) / buraxılışa məsul: R.Mehdiyev. Bakı: Azərnəşr, 2009, 512 s.
5. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 46 kitabda, 30-cu kitab (sentyabr 2000 – noyabr 2000) / buraxılışa məsul: R.Mehdiyev. Bakı: Azərnəşr, 2010, 512 s.
6. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 46 kitabda, 36-cı kitab (sentyabr 2001 – noyabr 2001) / buraxılışa məsul: R.Mehdiyev. Bakı: Azərnəşr, 2011, 512 s.

7. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 46 kitabda, 40-cı kitab (iyul 2002 – sentyabr 2002) / buraxılışa məsul: R.Mehdiyev. Bakı: Azərnəşr, 2012, 512 s.
8. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 46 kitabda, 41-ci kitab (sentyabr 2002 – oktyabr 2002) / buraxılışa məsul: R.Mehdiyev. Bakı: Azərnəşr, 2012, 488 s.
9. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 46 kitabda, 44-cü kitab (fevral 2003 – may 2003) / buraxılışa məsul: R.Mehdiyev. Bakı: Azərnəşr, 2013, 376 s.
10. Əliyev İlham. İnkişaf məqsədimizdir. Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. 80 kitabda, 18-ci kitab (iyun 2006 – avqust 2006) / buraxılışa məsul: R.Mehdiyev. Bakı: Azərnəşr, 2014, 424 s.
11. Əliyev İlham. İnkişaf məqsədimizdir. Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. 80 kitabda, 41-ci kitab (may 2010 – iyul 2010) / buraxılışa məsul: R.Mehdiyev. Bakı: Azərnəşr, 2017, 400 s.
12. Əliyev İlham. İnkişaf məqsədimizdir. Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. 80 kitabda, 70-ci kitab (iyul 2015 – oktyabr 2015) / buraxılışa məsul: R.Mehdiyev. Bakı: Azərnəşr, 2018, 392 s.
13. Əhmədov Ə. Heydər Əliyev irsi və Azərbaycanın davamlı inkişafı // Dayanıqlı inkişafın Heydər Əliyev modeli. Heydər Əliyev idarəetmə məktəbinin III buraxılışı, 2009, s. 36-49.
14. Qasımlı M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə, I hissə. Bakı: Mütərcim, 2015, 648 s.
15. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: Dayanıqlı və davamlı inkişafın təntənəsi. Bakı: İqtisad Universiteti, 2011, 543.

***Açar sözlər:*** *miqrasiya prosesləri, miqrasiya siyasəti, milli inkişaf, beynəlxalq əməkdaşlıq, əməkçi miqrant*

**Agil Ahmadov**
*Dissertation candidate of the doctor of science program specializing "History of international relations" of the Institute of History named after A.A. Bakykhanov ANAS, Associate Professor, PhD in History*

## MIGRATION PROCESSES IN HEYDAR ALIYEV'S NATIONAL DEVELOPMENT POLICY

### SUMMARY

Currently, migration processes are developing in line with the requirements of the modern period and its socio-economic aspects remain relevant. The Republic of Azerbaijan has expanded cooperation in the field of migration by participating in the international process. The observed economic progress of the country over the past period had a positive impact on the increase in labour migration. The policy of national development of the national leader Heydar Aliyev played an important role in accelerating the migration processes of the republic. The meeting held by Heydar Aliyev in Baku in 2000 with the Director-General of the International Organization for Migration in Baku opened the way for promising cooperation in this area. The paper examines the socio-economic significance of migration processes in Heydar Aliyev's national development policy.

***Keywords:*** *migration policy, sustainable development, international cooperation, labor migrant*

**Агиль Ахмедов**
*Диссертант программы доктора наук по специальности «История международных отношений» Института Истории им. А.А.Бакиханова Национальной Академии Наук Азербайджана, доктор философии по истории, доцент*

## МИГРАЦИОННЫЕ ПРОЦЕССЫ В ПОЛИТИКЕ НАЦИОНАЛЬНОГО РАЗВИТИЯ ГЕЙДАРА АЛИЕВА

### РЕЗЮМЕ

В настоящее время миграционные процессы развиваются в соответствии с требованиями современного периода, и их социально-экономические аспекты остаются актуальными. Участвуя в международном миграционном процессе, Азербайджанская Республика расширила сотрудничество в данной сфере. Экономический прогресс страны в течение минувшего периода оказал позитивное влияние на повышение трудовой миграции. Политика национального развития общенационального лидера Азербайджанского народа Гейдара Алиева сыграла важную роль в ускорении миграционных процессов республики. Встреча Гейдара Алиева в 2000 году с генеральным директором Международной Организации по Миграции (МОМ) в Баку, открыла путь к перспективному сотрудничеству в этой области. В статье исследуется социально-экономическая значимость миграционных процессов в политике национального развития Гейдара Алиева.

***Ключевые слова:*** *миграционные процессы, миграционная политика, устойчивое развитие, международное сотрудничество, трудовой мигрант*

# VƏTƏN TARİXİ
# NATIONAL HISTORY

UOT 94 (479.24)

**НИГЯР ГЕЗАЛОВА**
**Ведущий научный сотрудник отдела “История международных отношений” Института Истории имени А.А.Бакиханова Национальной Академии Наук Азербайджана, доктор философии по истории, доцент**
*e-mail: nigar22@gmail.com*

## О СИМВОЛАХ ВЛАСТИ ГОСУДАРСТВА НАДИР ШАХА АФШАРА

Изучение политической истории государств на территории Азербайджана невозможно без рассмотрения их символов. На протяжении всей истории, начиная с древнейших времен, государства отождествляли свою власть с определенными символами. Каждая правящая династия имела собственную символику. Исследования, посвященные символам власти и государственной атрибутике государств на территории Азербайджана, актуальны и, вместе с тем, слабо изучены. Анализу возникновения и генезиса символов власти и государственной атрибутики государств на территории Азербайджана посвящено не много работ [26; 1; 2; 17]. Но и среди них нет исследований, посвященных атрибутам власти государства Надир шаха Афшара.

В каждом государстве верховная власть имеет особую культурно-историческую своеобразность, выражающуюся в государственной символике. Не являются в этом отношении исключением и средневековые государства на территории Азербайджана. Атрибутами и символами государств XVIII в. можно считать трон, корону, скипетр, печать и фирман, оружие (сабля), монеты, флаг и штандарт, и т.д. [17, 38] Все эти атрибуты власти символизировали законность властвующей особы или династии в стране.

### Фирманы и печати

Одними из важнейших атрибутов государства являются официальные фирманы и печати правителей. Фирманом считается шахский указ непременно с шахской печатью. Необходимым первым этапом научного использования, публикации, историко-культурного, текстологического и филологического изучения фирмана является его описание, анализ и интерпретация. В то же время невозможно недооценить применение методов сфрагистики [Сфрагистика или сигиллография вспомогательная историческая дисциплина, изучающая печати.] при изучении документа. Печати следует рассматривать с позиций не только источниковедческой критики документа, но и самостоятельного исторического источника. Печать является средством, подтверждающим законность документа и правомочность деяния. В период XII-XV веков печати в Азербайджане обозначались тюркским термином «дамга», однако в исследуемое нами время для обозначения государственных печатей используется термин «мохур» (азерб. «möhür»), в то время как «дамга» обозначает уже клеймо. Шахские печати, оттиски которых имеются в рукописях, дают ценный материал для изучения текстовых источников на восточных языках. Несомненно, что факты сфрагистики должны

быть поставлены в тесную зависимость от фактов политических. В мусульманских печатях надпись занимает центральное место, в отличие от европейских печатей, которые в основном характеризуются наличием изображений. Для современной историографии характерно комплексное, трехстороннее рассмотрение государственных печатей: как правового памятника, как части акта (документа), как произведения художественного творчества эпохи. Если в более ранних мусульманских печатях, как правило, нет даты, то примерно с XVI века мусульманские печати были датированы по летоисчислению хиджры. Для оттиска в средневековом документе обычно использовали черные чернила или китайскую тушь [21, 85].

В нашу задачу входит вопросы изучения и классификации официальных печатей Надир шаха Афшара (1736-1747). Как известно любому исследованию печатей должно предшествовать максимально возможное выявление материала изучаемого периода и его классификация. В хранилищах различных стран храниться огромное количество письменных памятников эпохи Надир шаха, которые дают основательные и точные сведения о внутренней и внешней политике великого завоевателя. Для написания статьи были обработаны печати и их оттиски, которые имеются на фирманах и указах, хранящихся в архивах и различных сборниках, опубликованных в Турции, Иране, Грузии и Армении. Мы рассмотрим печати в хронологическом порядке, отмечая при этом преемственность, влияния и взаимодействия исторических событий.

Фирманы в основном состоят из трех частей, написанных на одном большом листе: 1) прошения на имя шаха, 2) донесения специальных чиновников – мирвеизов или забитов, содержащие заключения об описи государственных налогов, и 3) собственно фирман шаха, заключающее в себе резолюцию на прошение. Эта форма изложения указов, за малым исключением, господствовала вплоть до XIX века. Но, иногда, при повторном утверждении старых указов и, особенно при даровании прерогатив и муафства [Муафство – налоговый иммунитет, освобождение от государственных налогов.] или других привилегий, сохранялась и старая форма. Интересно, что если внутри страны адресатами указов Надир шаха могли быть, например, представители правящей элиты и целые христианские общины, то за пределами Афшарского государства – правители и главы местных администраций. Прошения, фетвы и шахские фирманы писались по определенному образцу. Любое прошение на имя шаха писалось от имени «ничтожнейшего из рабов», просящего о пожаловании «справедливого указа в виде милостыни благословенной, благороднейшей, священнейшей, возвышеннейшей высочайшей главы», и завершалось заверением в том, что «это деяние (т. е. «милость» правителя) перед Аллахом не будет напрасным». Все фирманы Надир шаха начинаются словами «Августейший указ был дан следующего содержания». Также следует отметить выражения «Принимая прибежище у Всевышнего», а также «Во имя Аллаха, лучшее из имен», «Вся власть принадлежит Аллаху», «Во имя Аллаха, Милостивого и Милосердного», «Он [Аллах]», «Во имя Аллаха», с которыми начинаются фирманы.

В тексте указов (фирманов) [На копиях указов место шахской печати отмечено словами «место благословенной печати его священнейшего величества государя».], изданных до марта 1736 г. печать Надира ставилась внизу основного текста [Местоположения печатей вначале фирмана документа, привилегия правителей, остальные должные лица ставили печать в конце указа (фирмана, хокма). Со времени шаха Тахмаспа I (пр.1524-1576) замечается некоторое изменение и в общей форме фирманов. Если в указах Гара-гоюнлу, Аг-Гоюнлу, равно как шаха Исмаила (пр.1501-1524), шахская печать часто ставилась в конце указа, в дальнейшем печать ставится уже в начале.]. После официальной коронации Надира на Мугани, печати были отпечатаны

в верхних частях документов. Каждый опубликованный фирман имел печать или было отмечено место для печати (если копия) с легендой (текст печати) на арабском и персидском языках. На фирманах до 1736 г. Надир в основном упоминается как навваб (букв. представитель, наместник), то есть тот, кто временно представляет власть Тахмасиба II (пр. 1723-1732).

Анализ многочисленных фирманов позволяет нам утверждать, что в 1734-1736 гг. [11, 130-134; 28, 48-49] Надир хан пользовался печатью со следующий легендой на персидском языке: «Нет другого героя, кроме Али, нет меча, кроме Зульфикара [Зульфикар (араб.) - название меча пророка Мухаммеда, который после смерти Мухаммеда перешёл к праведному халифу Али ибн Абу Талибу.]. По воле Бога я презренный Надир слуга четырех и восьми [«Четырех и восьми» - двенадцать, т.е. двенадцать почитаемых шиитских имамов.]» [Lafata illa Ali, la sayfa illa Zual-Faqar, Nadir-i asram zi lutf-i Haqq ghulam-i hasht ū char.].

После коронации на протяжении 1736-1747 гг. легенды печатей шахских фирманов несколько раз меняются. Сразу после коронации Надир шаха в фирманах за 1736 г. [11, p.144-145] [В то же время, очевидно, что печати Надир использовались не одна сменяя другую, а по-видимому одновременно, если на фирманах из коллекции Матенадарана печати Надир шаха представлены в строго хронологическом порядке, то в указах из грузинских архивов эту печать можно встретить на одном фирмане за 1742 г. [28, 54-55]] используется новая квадратная печать с короной и с легендой на персидском: «Надир - проявление божественной милости». Это же легенда используется на печатях в указах за 1738 г. [11, 146-147], и за 1741 г. [11, 154-159] Хотя, очевидно, что наряду с этой печатью в фирманах Надир шаха использовалась, и новая печать с легендой на персидском языке: «Во имя Аллаха! Когда драгоценный камень державы и веры пошатнулся, Надир был поставлен Аллахом над Ираном» [Nigin-i dawlat ū din rafta būd chūn az ja/bi-nam-i Nadir Iran qarar dad Khuda Besmellah – nagin-e dawlat-e din rafta bud čun az ja / be-nam-e Nader Iran qarar dad 'oda]. Это же печать используется на фирманах вплоть до 1745г. включительно. [11, 160] [В сборнике грузинской коллекции персидских фирманов есть фирманы Надир шаха, с этой печатью уже начиная с 1738/9 г. [28, 50-51, 52, 53-54, 56-58, 59-60, 62-63, 64, 65-66, с.66, 71-72, 72-73], в то время как в Матенадаранской коллекции — это печать есть только на фирманах, изданных с 1741г. [11, 163-165]]

Еще одна печать Надир шаха известна нам из турецких архивов с легендой на персидском языке: «Выбор Всемогущего (Аллаха) Надир», который используется одновременно с другими на письмах и фирманах за 1738-1745 годы. [28, 81-84; 91-93; 107-111]

Несомненный интерес представляет также печать Надир шаха используемая на фирманах за 1746г. где впервые на государственной печати, скрепляющий шахский акт, встречаются изображения «льва и солнца» (шир и хуршид). Это печать впервые была обнаружена и опубликована в грузинском сборнике персидских фирманов. [22, 119] На этой печати, на солнце вписано выражение на арабском Меликуллах Аллах (араб.: Власть принадлежит богу). [28, 70]

Таким образом, содержания легенд на официальных печатях Надир шаха должны были быть направлены на обеспечение стабильности в стране. Причем, в отличие от сефевидских правителей, ни в одной легенде печатей Надир шах не указывает на себя как на шаха. [6, 53] [Интересно, что в названиях двух хроник официальных летописцев Надир шаха Мухаммада Казима Мерви «Тарих-и ‘Аламара-йе Надири» (Мироукрашающая Надирова история) и Мирза Махди Астрабади «Тарих-и джахангуша-йи Надири» (Мирозавоевательная Надирова история) авторы избегают называть титул правителя.]

### Монеты

Нумизматическая символика чрезвычайно разнообразна. Каждая страна и эпоха обладала собственным набором символов, эмблем, аллегорий и персонификаций, запечатленных на монетах.

На монетах, отчеканенных от имени великого полководца и правителя, Надир был еще более консервативен в своих притязаниях на легитимность. Первые монеты, отчеканенные от имени Надира в 1148/1736 г. после его избрания шахом, носят явно выраженный констатационно-тенденциозный характер. [26, 115] Для этих монет, которые вначале чеканились (1736) в Мешхеде, затем в других городах, была подобрана хронограмма джулуса [Чеканки монет от имени нового правителя по обычаю предшествовала торжественная церемония «джулуса» (восшествия на престол).] Надира: «Благо в том, что свершилось». Впоследствии на монетах типа аббаси [Это хронограмма: сумма числовых значений всех букв равна 1148, т.е. указывает на дату воцарения Надира. [23, 231]], отчеканенных от его имени, было нанесено «ас-Солтан Надир». [12, lxx] [В ободке в основном всех монет Надир шаха, отчеканено: “ас-султан Надир". В точечном ободке: “Да сделает Аллах его правление вечным” и “Да продлит господь его царствование" город и год чеканки. [10, 13-15]] Символика монет не так однозначна, как может показаться на первый взгляд. Совершенно очевидно, что на монетах, отчеканенных от имени Надира, он именует себя титулом Султан, а не Шах, свойственным правителям из Сефевидской династии.

### Государственный флаг

Не менее важным символом политической власти является флаг или байрак, который в основном в исследуемый период являлись одним из эффективных средств управления войсками на марше и в бою. По мнению Шахбази, флаг Надир шаха представляет собой большое желтое (оранжевое), полотнище с ярко-красной каймой по краям, на котором изображены мотив Льва-Солнца в качестве основной эмблемы флага. Два цвета – красный и желтый являются превалирующими в афшарских штандартах (в отличие от зеленного который превалировал у Сефевидов). [14] Известно также что, в государстве Надир шаха было два имперских штандарта: «Один из них был в полосах красного, синего и белого цветов, а другой – в красных, синих, белых и желтых без каких-либо орнаментов на них ... чтобы двигать штандарты требовалось двое людей … они были сделаны такого огромного размера, чтобы не допустить того чтобы во время сражений их смог унести противник, за исключением полного поражения». [4, 248-249] В российских архивах можно найти подробные описания Каспийского флота Надир шаха, и соответственно также его военно-морского флага: «Марта 8 числа прибыло к Зинзилямъ одно персидское судно под флагом гюйсом и вымпелом, а вымпел отъ штока синий с желтым съ угла в уголъ; хвосты, один синий, другой желтый, длиною оное судно по килю 30 фунт….. А по справке которую над портомъ съ прежде присланными прошлого 1747 от него Рагозео из Дербента рапортом, показаны флаг синий, въ середине желтый лев и над ним солнечные лучи желтые же, гюйсь синий съ желтым полосатый съ угла на угол, чего ради во известие адмиралтейской коллегии и доноситься» [27, 1; 18, 310]. Кроме того, согласно музейным каталогам, на флаге времени Надир шаха также как на монетах его упоминают как султан и хаган [Так на одном из флагов времен Надир шаха Афшара, хранящемся в Национальном музее истории Азербайджана, есть надпись: «Великий сул¬тан, самый великий хаган, повелитель людей Надир шах (?), да сделает Аллах его правление вечным. 1155». Судя по дате, надпись

была сделана в 1742-1743 годах. [22, 22-23] К сожалению, в настоящее время эту надпись невозможно прочесть. Поэтому, у нас вызывает сомнение упоминание титула Шах наряду с титулами Султан и Хаган, по-видимому, при прочтении титул Шах был добавлен, для идентификации принадлежности флага.].

Таким образом, Надир шах создавая свою империю, если в основном полностью повторял Сефевидов в традициях управления, однако в выборе своего титула исходил в основном из тюркского элемента, что отразилось и на государственной символике. Что было связано на наш взгляд с его попытками легитимизации собственной власти. Использование тюркских элементов на государственной символике подтверждает приверженность Надир шаха Афшара тюркским корням и традициям.

**Проблема легитимации власти**

Как известно, кризис Сефевидского государства в первой половине XVIII в. привел к полному упадку династии и возвышению новой тюркской династии - Афшаров. В таких условиях особую актуальность приобрела для Надир шаха Афшара проблема легитимации власти. Если представители Сефевидской династии обосновывали легитимность своей власти тем, что они являются потомками седьмого Имама, то Надир шах стремился создать новое основание для законности своей власти. Он пытался несколько пересмотреть религиозную политику Сефевидов (он добивался признания Османским халифом джафаризма пятым толком или мазхабом), и, в отличие от последних, открыто заявлял об общих тюркских корнях с Османским и Могольским государством [15; 7]. Имен-но «этническая» политика Надир шаха была совершенно новой в отношениях с Османским, и даже с Могольским государствами. Даже Сефевидские правители в своих обращениях к Османскому султану так открыто не указывали на общие тюркские корни, как сделал это Надир шах [16, 186]. Эта политика Надира, направленная на сближение двух тюркских государств, основанных на их этнической общности, была совершенно новым на всем Ближнем Востоке [13, 126-127].

Еще в январе 1736 г. в Муганской степи, было решено созвать съезд – курултай, которому предстояло избрать нового шаха, при этом притязания Надира опирались на тюркскую традицию съездов, которые имели право передать власть новому более достойному предводителю. Исход выборов был предрешен, и после процедуры ритуального упрашивания Надир согласился принять на себя бремя власти. Есть сведения, что на курултае Надир отказался от шахского титула, предпочтя ему иное величанье – валинемат (благодетель, покровитель) [«И ходит молва, что он не желает, чтобы его называли шахом, а звание шаха вовсе отменил, и никто не может упомянуть [звание шаха] или называть шахом ни его, ни прежнего. Но повелел [он], чтобы его называли Валинематом». [20, 284]]. Возможно, подобный шаг Надира имел целью показать, что статус нового правителя выше прежнего, что превращало представителей прежней правящей династии Сефевидов из правителей в подданных могущественного благодетеля.

Еще один интересный момент что, послы Надир шаха Афшара, на аудиенции у российской императрицы Анны Иоанновны 3 (14) декабря 1739 года называли своего государя великим хаганом. «С того времени, как мы, обоих Государств рабы, с дружескою грамотою Его Величества Великого Государя и Великого Кагана и победоносца сени божия Государя Иранского, в свете славнейшего Надир Шаха...» [19, л. 46, 47-49об]. Известно, что этот древнетюркский титул наиболее часто использовали османские султаны, подчеркивая этим свое благородное

тюркское происхождение. Мотивы Надира провести по старинному тюркскому обычаю курултай избрания правителя именно в Азербайджане, на Мугани (а не в Исфахане), и его настойчивые попытки внедрить пятый – джафаридский мазхаб, чтобы сблизить тюркские государства региона, стали для шаха, прозванного Завоевателем Мира, основным делом жизни [В своей дипломатический переписке он использовал наряду с персидским и тюркский язык. Более того, в своих письмах к Османскому султану и Могольскому императору он часто указывал на общих тюркских предков. Согласно сведениям турецких источников, в письме, написанном лично Надиром на тюркском языке (азербайджанском) в ходе мирных переговоров главнокомандующему Османских войск Али Паше, он подчеркивая наличие общих корней между двумя народами, выражал надежду на скорейшее заключение мира. "Ecdad-I ba-isti' dad-ı mülük-i Osmaniyyeəden olup Vekayi-i Cengiziyye'de Turan zemini terk ve İran ve Rum'a hicret eden rü'esa-yi aşair-i Türkmaniyye ki, cümlesi bir devha şu'besi ve bir neseb nuhbesidirler. Ol vakt cedd-i a'laları hanedan-ı devlet-i ruzefzun canib-i Rum'a şedd-i hiram-ı azimet ve bizim ceddimiz İran ülkalarında ihtiyar-ı ikamet etmişler idi. Min-haysi'n-neseb çünki müştebik ü mültehim bulunuldu. Keyfiyyet ma'lum-ı hazret-i hüsrevane oldukda dermiyan olan musalaha meramına is'af-ı mülükane mebzul buyurulmak mes'üldür diye evvelinde meramını te'diye ve ahirinde kasd-i tevriye eylediği ma'lum oldukdan sonra ken¬düye sadr-ı müşarün-ileyh tarafından hakimane mektub u ka'ime tahrir olunmuş idi." [8, 25] Османский султан также в своих письмах замечает об общих тюркских корнях между ними. "Emmâ ba'dü, Sahrâ-yı Mugan'da vâki' Şurâ-yı Kübrâ'da İran ahâliləri nüvvâb-ı kâm¬yâb-ı sipihr cenâb-ı kahramân-ı dûdmân refî'ü'ş-şân-ı Türkmânî berk-ı hırmen-sûz-ı vücûd-ı serkeşân bi-te'yîd-i Sübhânî tâc-bahş-ı mülûk-i memâlik-i Hind və Turan dâvər-i Dârâ-yı arsa-i İran el-hakanü'l-a'zam və'l-kaanü'l-ekrem zıll-ı Sübhân şâh-ı şâhân-ı cihanü's-sultan Nadir Padişah hallədə'llâhu saltanatehû və şevketehû hazretlərindən saltanatı qəbul buyurmaların recâ vü istid'â eylədilər." [3]].

На основе обработанного материала можно с уверенностью сказать, что на всех известных нам официальных атрибутах и символах государственной власти Надир употреблял титулы султан, хаган. В то же время, есть свидетельства источников, что Надир запрещал называть себя шахом официально. Однако во всех практически первоисточниках, хрониках современников его называют Надир шахом, что свидетельствует о том, что возможно по традиции (обычаю) его окружение, двор, знать и т.д. продолжали называть его шахом.

**Литература:**


1. Azərbaycanda dövlətçilik və onun rəmzləri. Tərtib edəni və mətnin müəllifi Nailə Vəlixanlı, Bakı: Elm, 2000. 96s.
2. Azərbaycan bayraqları. Kataloq. Mətnin müəllifləri: N.Vəlixanlı, Z.Dulayeva, S.Əhmədov, R.Səfərova. Bakı: Elm, 2005. 85 s.
3. Başbakanlık Osmanlı Arşivi [BOA], Hatt-i Hümayiun [HAT.] 7/220.
4. Hanway J. An historical account of the British trade over the Caspian Sea: with the author's journal of Travels from England through Russia into Persia and back through Russia, Germany and Holland. Vol. I. London, 1753. 460p.
5. Ernest S.Tucker Nadir Shah's Quest for Legitimacy in Post-Safavid Iran. Florida, 2006. 151p.

6. Floor W. The rise and fall of Nader Shah, Dutch east India company reports, 1730-1747. Washington: Mage Publishers, 2009. 292p.
7. Nadir Şah Əfşarın məktublaşması. Nəşrə hazırlayan, ön sözün ve şərhlərin müəllifi: Rauf Şeyxzamanlı. Elmi redaktor: R. Mehdiyev. Bakı: Nurlan, 2015. 221s.
8. Koca Ragıp Mehmed Paşa. Tahkik ve Tevfik (Osmanlı - İran Diplomatik Münasebetlerinde Mezhep Tartışmaları). Istanbul: Kitabevi, 2010. 282s.
9. Lockhart L. Nadir Shah. A critical study based mainly upon contemporary sources. London: Luzac & Co, 1938. 344p.
10. Paghava I., S. Turkia, G. Janjgava, Some New Denomination Coins of Nadir Shah Minted in Georgia, Journal of Oriental Numismatic Society, 202, Winter 2010. p. 13-15.
11. Persian documents of the Matenadaran: decrees, volume IV: 1734-1797 by K. P. Kostikyan, Yerevan: “Nairi”, 2008. 387p.
12. Poole R. S. Catalogue of coins of the Shahs of Persia in the British Museum. London: Longmans & Co.1887. 336 p.
13. Saray Mehmet. Türk-İran ilişkileri. Ankara: Atatürk Araştırma Merkezi, 2006. 261s.
14. Shahbazi, Sh. A. (2009). Flags of Persia. Encyclopedia Iranica. http://www.iranicaonline.org/articles/flags-i
15. Topgapı Sarayı Arşivi [TS]. E 3299; TS 6630.
16. Uzunçarşılı İ.H. Osmanlı Tarihi, IV cilt, I bölum, 3 baskı. İstanbul, 1982. 687s.
17. Гезалов П.Ф. Знамёна азербайджанских ханств как источник в изучении истории государственности. Баку, 2010, 208 с. илл.
18. Гёзалова Н.Р. Англо-Российское противостояние и планы Надир Шаха Афшара по созданию военно-морского флота на Каспийском море.// Центральная Азия на перекрестке европейских и азиатских политических интересов: XVIII–XIX вв. Сборник научных трудов международного семинара. Алма-Ата, 19–23 августа 2019 г. / науч. ред. Д.В. Васильев. – М.: ОнтоПринт, 2019. с. 300-314.
19. Государственное казенное учреждение Астраханской области «Государственный архив Астраханской области». Фонд № Ф-394. Оп. 1 доп. Д. 13. Л.46, 47-49об.
20. Кретаци Абраам. Повествование. Пер. на рус. яз. предисл. с. 5-24 и коммент. Н. К. Корганяна. Ереван: Изд-во АН АрмССР, 1973. 189 с.
21. Курбанов Г.Н. Печати Бухарского ханства XIX – начала XX вв.: (Источниковедческое исследование), in History and Culture of Central Ася. Ed.by Babadjanov and Kawahara Yayoi. Tokyo: The University of Tokyo, 2012, p.85-116.
22. Персидские исторические документы в книгохранилищах Грузии. кн. I, вып. 4, текст подготовил к изданию Путуридзе В.С. Тбилиси: Мецниереба, 1961. 879 с.
23. Пахомов Е.А. Монеты Грузии. Тбилиси: Мицниереба, 1970. 378 с.
24. Путуридзе В.П. Тбилисская коллекция персидских фирманов. Т. 1. Кутаиси, 1955. 1127с.
25. Путуридзе В.С. Грузино-персидские исторические документы. Тбилиси, 1982. 1176 с.
26. Раджабли Али. Нумизматика Азербайджана Баку: Элм ве Хаят, 1997. 232с.
27. Российский Государственный Архив Военно-Морского Флота [РГАВМФ]. Материалы для Истории русского Флота, часть X, СПб.: Типография Морского министерства в Главном Адмиралтействе, 1883. 758 с.
28. Тбилисская коллекция персидских фирманов. Том 2 / Составители: М.А.Тодуа, И.К.Шамс; Тбилиси: [Б.и.], 1989. 1176 с.
29.- اسناد و مکاتبات تاریخی ایران (جلد اول) “دوره افشاریه" به کوشش: محمد رضا نصیری. جهاد دانشگاهی دانشگاه گیلان 1364
[Asnad ve Mokatebate-tarixiye-İran (celde-avvel). Doureye-Afshariyye. Be kusheshe Mahammad Reza Nesiri. Cehade-Daneshqahiye-Daneshqahe-Gilan-1364. 280p.]

***Ключевые слова:*** *Надир шах, Афшары, символы власти, фирманы, печать, монеты, флаг*

**Nigar Gözəlova**
*Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun “Beynəlxalq münasibətlər tarixi” şöbəsinin aparıcı elmi işcisi, tarix üzrə fəlsəfə doktoru, dosent*

## NADİR ŞAH ƏFŞARIN HAKİMİYYƏT SİMVOLLARI HAQQINDA

## XÜLASƏ

Nadir şah Əfşar dövlətinin hakimiyyət simvollarının tədqiqi sahəsində Səfəvilər və Qacarlar dövrləri ilə müqayisədə çox az iş görülmüşdür. Bu günədək Nadir şah Əfşar dövlətinin hakimiyyət simvollarının və dövlət atributlarının hərətərəfli tədqiqi aparılmamışdır. Bu məqalədə ilkin mənbələr əsasında böyük türk sərkərdəsi Nadir şah Əfşarın möhürü, bayrağı və pul sikkələri nəzərdən keçirilir. Müəllif bu dövlət atributlarının analizini apararaq, Nadir şah Əfşar dövlətinin hakimiyyət simvollarının nə dərəcədə özündən əvvəlki Səfəvilər dövlətinin hakimiyyət simvollarının təsiri altında olduğunu müəyyən etməyə çalışır. Nadir şah imperiyasını yaradarkən Səfəvilərin idarəetmə ənənələrini tamamilə təkrarlamış olsa da, dövlət rəmzlərində əsasən türk elementlərindən istifadə etmişdir. Bundan əlavə, biz Nadir şah taxta cıxmazdan əvvəl və sonra hakimiyyət simvollarının üzərindəki giriş mətnlərində baş vermiş dəyişiklikləri izləməyə çalışmışıq. Türk elementlərindən dövlət rəmzlərində istifadəsinə müəllif Nadir şahın öz hakimiyyətini qanuniləşdirmək cəhdləri kontekstində baxır.

***Açar sözlər:*** *Nadir şah, Afşarlar, hakimiyyət rəmzləri, fərmanlar, möhür, sikkələr, bayraq*

**Nigar Gozalova**
*Leading researcher of the Institute of History named after A.A.Bakikhanov of the Azerbaijan National Academy of Sciences, PhD in History, Associate Professor*

## STATES OF NADIR SHAH AFSHAR’S SYMBOLS OF POWER

## SUMMARY

Research into the symbols of the power of the state of Nadir Shah Afshar, in contrast to the Safavid and Qajar eras, are rather scarce. There is no comprehensive study Until now on the issue of the state symbols and attributes of the state of Nadir Shah Afshar. In this paper based on primary sources, for the first time, the seals, flags and coins of the great Turkic commander Nadir Shah Afshar.

The author seeks to analyze these attributes of power and determine to what extent the symbols of power of the state of Nadir Shah were influenced by the previous Safavid system of power. In addition, we tried to trace the changes in the introductory formulas on the symbols of power before and after the accession to the throne of Nadir Shah. Nadir Shah, creating his empire, although basically he completely repeated the Safavids in the traditions of management, however, in choosing his title he proceeded mainly from the Turkic element, which was reflected in state symbols. The use of Turkic elements on state symbols is considered in the context of his attempts to legitimize his own power.

***Keywords:*** *Nadir Shah, Afshars, symbols of power, firmans, seal, coins, flag*

# EKOLOGİYA
# ECOLOGY

UOT 502.22(1-21)

**ЖАННА АНДРЕЕВА**
**Доцент кафедры Информационные технологии в государственном управлении Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по техническим наукам**

## ЭКОЛОГИЧЕСКИЙ ДИЗАЙН ПОБЕРЕЖЬЯ КАСПИЙСКОГО МОРЯ В РАЙОНЕ БАКИНСКОЙ БУХТЫ

На сегодняшний день проблема экологии приобрела особую остроту и актуальность во всём мире. Экологический подход в дизайне явился реакцией на научно-техническую революцию. Это одно из направлений всемирного экологического движения, в задачи которого входит охрана и восстановление окружающей среды. Смысл экологического подхода в дизайне заключается в создании продукции, наиболее комфортной для пользователя и максимально совместимой с окружающей средой.

Термин «экологический дизайн» в настоящее время широко используется в повседневной проектной практике и в научной литературе. Проблематика экологического дизайна тесно соприкасается с различными сферами производства и научного знания, начиная от архитектуры, промышленного дизайна и прикладной экологии, заканчивая современными исследованиями в области философии, медицины, психологии, социологии и педагогики. Эта область проектирования объединяет в себе художественно-проектные основы, научно-философское осмысление степени влияния и последствий взаимодействия человека и окружающей среды. Формируется научный и методический инструментарий этого нового направления в дизайне.

«Экологический дизайн – вид проектной деятельности, существующий как осознанная или интуитивная реакция на природные изменения, проявленная в предметном и пространственном творчестве. Целью экологического дизайна является стабилизация отношений человека и окружающей среды… Объектом приложения методов экологического дизайна может быть как природа, опосредованно влияющая на человека, так и сам человек, его социальные, культурные и психологические потребности в их связи с экологической проблематикой… В настоящее время не существует четких границ, определяющих этот вид проектной деятельности, равно как нет и критериев, по которым можно отнести изделие к продукту экологического дизайна» [5, с.5].

Принципы экологического дизайна основываются на положениях ряда современных динамично развивающихся научных направлений. Основой системной проектной деятельности является теория и методология дизайна. Ее дополняют антропология, экологическая социология, экологическая этика и многие другие науки. Устойчивое развитие определяется организацией под названием «Всемирная комиссия по окружающей среде и развитию», целью которой является «удовлетворение потребностей нынешнего поколения, без ущерба для возможности будущих поколений удовлетворять свои собственные потребности» [2, с.102].

Современный дизайн, должен следовать природному принципу наименьшего усилия:

потреблять меньше, пользоваться вещами дольше и проявлять экономию при повторном использовании материалов. Принцип природопользования 3R: reduce, reuse, recycle – сокращать, повторно использовать, перерабатывать – органично включается в дизайн-проектирование [4].

Азербайджан вместе с остальными прикаспийскими государствами активно реализует Каспийскую экологическую программу, принятую в 1995 году. Весной нынешнего года президент Ильхам Алиев утвердил протокол о защите Каспия от загрязнения из наземных источников и в результате осуществляемой на суше деятельности, также была принята новая концепция развития «Азербайджан – 2020: взгляд в будущее», в которой особое внимание уделяется охране окружающей среды и вопросам экологии [1, разд.11].

Одной из основных целей концепции является достижение экологически устойчивого социально-экономического развития Необходимые меры по защите биоразнообразия, нейтрализации негативных воздействий топливно-энергетического комплекса на окружающую среду, устранению загрязнения моря и его акватории и их защите, восстановлению зеленых территорий и эффективной охране существующих ресурсов будут продолжены и в будущем.

Каспийское море, расположенное на стыке Европы и Азии, с давних пор известно как естественное место обитания 90% мировой популяции осетровых, редкого вида каспийских тюленей и множества других видов флоры и фауны, здесь открыты богатые месторождения нефти и газа, разработкой которых занимаются крупные транснациональные корпорации [3, с.150].

На сегодняшний день экологическая ситуация на Каспии, как свидетельствуют мониторинги последних лет, значительно улучшилась, на смену изношенной и морально устаревшей советской добывающей технике пришло более современное производство, технологии, применяемые в нефтегазовой промышленности, стали более совершенными. Существенные инвестиции вкладываются в реконструкцию и восстановление крупных очистных сооружений, что позволяет предотвращать загрязнение Каспийского моря.

В Бакинской бухте отмечается тенденция к снижению уровня загрязненности: по сравнению с 1990 годом вода в бухте стала значительно чище, хотя концентрация нефтепродуктов и тяжелых металлов в донных отложениях все еще остается довольно высокой.

В нашей стране за регулированием деятельности, связанной с экологией, охраной окружающей среды и использованием природных ресурсов отвечает созданное 23 мая 2001 года Указом Президента Гейдара Алиева Министерство экологии и природных ресурсов Азербайджана, под руководством профессора Гусейнгулу Багирова.

В ряду известных учёных Азербайджана, занимающихся проблемами экологии и охраны окружающей среды, следует особо отметить вице-президента НАНА, доктора геолого-минеральных наук, профессора Ибрагима Гулиева, удостоенного в 2017 году высшей награды международной экологической премии Ecoworld («Экомир») – ордена «За спасение жизни на земле»; ученого, имеющего мировую известность в области почвоведения и экологии, академика Гариба Мамедова; академика, действительного члена Нью-Йоркской академии наук, доктора химических наук, профессора, заслуженного деятеля науки, кавалера ордена «Шохрат» Рафигу Алиеву, долгое время возглавлявшую научно-исследовательскую лабораторию БГУ «Экологическая химия и охрана окружающей среды».

Азербайджан проводит жесткий контроль выполнения обязательств по соблюдению экологических стандартов международными нефтяными компаниями на всех этапах добычи углеводородных ресурсов, чтобы

максимально уменьшить риски, связанные с нефтедобывающей деятельностью. Для наиболее крупных морских месторождений нефтяными компаниями совместно с МЭПР и специалистами соответствующих НИИ разрабатываются собственные стандарты.

Примером регионального сотрудничества может служить осуществление прибрежными странами при поддержке международных организаций Каспийской экологической программы. Кроме того, за последние дватри года в пятистороннем формате подписаны такие значимые для защиты морской среды Каспия международно-правовые документы, как протокол о региональной готовности, реагировании и сотрудничестве в случае инцидентов, вызывающих загрязнение нефтью, протокол по защите моря от загрязнения из наземных источников.

Лидеры стран «каспийской пятерки» (Россия, Азербайджан, Туркмения, Казахстан и Иран) 12 августа 2018 года подписали конвенцию о правовом статусе Каспия. Работа над этим документом велась с 1996 г. Указанная конвенция является на сегодняшний день основным документом регулирования правового статуса Каспийского моря.

Согласно конвенции, водная поверхность Каспия остается в общем пользовании сторон, а дно и недра делятся соседними государствами на участки. Документ устанавливает правила, по которым сторонами будут вестись судоходство, рыболовство, научные исследования и прокладка магистральных трубопроводов. При реализации масштабных морских проектов в обязательном порядке должен учитываться экологический фактор. Кроме того, конвенция фиксирует положение о недопущении присутствия на Каспии вооруженных сил внерегиональных держав.

Возникшие проблемы по состоянию и загрязнению Каспия требуют срочного принятия мер по охране окружающей среды в регионе. Для оздоровления и восстановления экологической обстановке Каспийского моря решением правительств пяти прибрежных государств с 1998 г начала работать Каспийская Экологическая Программа (Тасис, ЮНДП, Всемирный банк) в рамках которой будет разработан Стратегический План Действий по оздоровлению экологической обстановке в регионе.

Отсутствие методов экономической оценки биоразнообразия и экологических услуг приводит к тому, что планирующие органы прикаспийских стран отдают предпочтение развитию добывающих отраслей и “аграрной индустрии” в ущерб устойчивому использованию биоресурсов, туризму и рекреации. Возможность восстановления экосистем Каспия во многом зависит от согласованных действий прикаспийских государств. До сих пор, при большом количестве принимаемых “экологических” решений и планов, отсутствуют системы и критерии контроля их результативности. Такая система выгодна всем действующим на Каспии хозяйственным субъектам, включая госструктуры, национальные и транснациональные корпорации.

Каспийское море – это межконтинентальный, международный, трансграничный бессточный водоем. Оно является терминалом крупнейших рек Волги, Урал, Терек, Кура, Сефидруд. Каспий чрезвычайно динамичен, в силу своего уникального поведения, а именно колебаний уровня, он требует не только научного изучения этих процессов и прогнозирования перспективы, но и проектно-инженерных решений, поскольку от этого зависит социально-экономическое развитие его прибрежной зоны.

Данная ситуация подтолкнула прибрежные страны к разработке различных проектов, которые были направлена на учет колебаний уровня Каспийского моря. Многие предлагаемые решения имели глобальный масштаб и не могли быть реализованы. К тому же разработчикам практически всех проектов были присуще непонимание, а





Бакинский бульвар

также недооценка процессов колебания уровня Каспийского моря и вызванных этим последствий. Многие предложения, связанные с освоением прибрежных территорий, привели к серьезным нарушениям в экологии, которые имели негативные последствия в последующие десятилетия.

В Азербайджане прекрасным примером развития и применения экодизайна, а также показателем успешной работы современных дизайнеров в области строительства, проектирования и ландшафтного дизайна может служить Бакинский бульвар.

Как известно, Национальный приморский бульвар является самым крупным парком не только в Азербайджане, но и на всем Южном Кавказе, при этом парк продолжает расти. Бульвар расширяется в обе стороны – в направлении проспекта Нобеля и поселка Биби-Эйбат. Строительные работы ведутся с большим размахом, бульвар преображается, становится более красивым, чистым, современным. На участке от Морского вокзала до строящегося отеля и возводящегося Дворца водных видов спорта идет посадка зеленых насаждений, устанавливается система освещения, устилается плиткой прогулочная часть, сносятся старые постройки.

После расширения бульвара его протяженность составит 15 километров. В рамках этого проекта дно моря будет очищено от различных отходов, здесь будут созданы все условия для времяпровождения и отдыха местных жителей.

При озеленении Бакинского бульвара ландшафтные дизайнеры с большим вниманием подходят к выбору деревьев и кустарников, например, для озеленения пешеходных зон, детских и спортивных площадок выбираются такие кустовые сорта, которые исключают колючки, токсичные вещества и аллергены.

В масштабных проектах реконструкции побережья Бакинской бухты широко применяются водные сооружения, на территориях, прилегающих к зданиям премиум или люкс класса, одним из креативных элементов



Развлекательный центр Caspian Waterfront.
Национальный Парк Приморский бульвар



Приморский бульвар
Восточного направления




Концепция развития Бакинского бульвара

стало создание декоративных фонтанов, водопадов и других искусственных водоёмов по принципу Фэн-шуй.

По мнению специалистов, при создании ландшафта, помимо обязательного учитывания особенностей местного климата, характеристик почвы и воды, следует уделять большое внимание национальным традициям. Например, трудно себе представить апшеронские дачи без деревьев инжира, граната, хурмы или виноградной лозы. Эксперты уверены, что национальные традиции сада должны быть ключевым звеном при создании ландшафтного дизайна побережья.

Бакинский бульвар в скором будущем будет выглядеть по-новому, разрабатывается концепция развития побережья Бакинской бухты, с учетом всех особенностей современных архитектурных направлений и ландшафтного дизайна и други парковыз зонах Баку и крупных городах Азербайджана.

В заключении необходимо отметить, несмотря на то, что экодизайн сегодня вызывает к себе разное, иногда достаточно противоречивое, отношение, это направление в дизайне становится популярным и интенсивно развивается. Экологический дизайн актуализировал проблему места и значения природного фактора в создании предметно-пространственной среды человека.

Экологический подход в дизайне необходимо осуществлять с большим вниманием для каждой отдельно взятой местности, кроме основополагающего природоохранного аспекта, должны учитываться все индивидуальные, атмосферно-климатические, общественные и культурные особенности.

В данной статье указываются основные концепции экодизайна Каспийского моря, существенно влияющие на положительную динамику развития инфраструктуры водной среды, флоры и фауны Каспия, а также на построение совершенной экосистемы побережья Бакинской бухты.

**Литература:**


1. Алиев И.Г. “О подготовке Концепции развития “Азербайджан-2020: взгляд в будущее", Баку, 2011, раздел 11.
2. Кузнецова Ю.А. Этапы формирования и развития концепции устойчивого развития // Молодой ученый. – 2013. – №5, т.2, 222с.
3. Мамедов Г.Ш. Экология, окружающая среда и человек. Баку: Элм, 2006, 608 с.

4. Панкина М.В. Принципы экологического дизайна / М.В.Панкина, С.В.Захарова // Современные проблемы науки и образования, 2014, №1, с.14-18
5. Уваров А.В.Экологический дизайн. История, теория и методология экологического проектирования. OZON.RU, 2015,192 с.

***Ключевые слова:*** *экология, экологический дизайн, экологическая безопасность, Каспийская экологическая программа, ландшафтный дизайн, Бакинский бульвар, концепция развития*

**Janna Andreeva**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət idarəçiliyində informasiya texnologiyaları kafedrasının dosenti, texniki elmlər üzrə fəlsəfə doktoru*

## BAKI BUXTASI RAYONUNDA XƏZƏR DƏNİZİ SAHİLİNİN EKOLOJİ DİZAYNI

### XÜLASƏ

Məqalədə, ümumdünya ekoloji hərəkatın istiqamətlərindən biri kimi, dizaynda ekoloji yanaşma nəzərdən keçirilir ki, bu yanaşma da Xəzər dənizinin su mühitinin, flora və faunasının inkişaf dinamikasına müsbət təsir göstərməyə imkan verir və eyni zamanda iqlim-atmosfer, fərdi, ictimai və mədəni amillər nəzərə alınaraq, Bakı buxtasının mükəmməl ekosisteminin qurulması üçün geniş imkanlar yaradır.

***Açar sözlər:*** *ekologiya, ekoloji dizayn, ekoloji təhlükəsizlik, Xəzər ekoloji proqramı, landşaft dizaynı, Bakı bulvarı, inkişaf konsepsiyası*

**Zhanna Andreeva**
*Associate Professor of the Department of Information Technologies in the State Administration Department of the Academy of the State Administration under the President of the Republic of Azerbaijan, PhD in Technical Sciences*

## ECOLOGICAL DESIGN OF THE CASPIAN SEA COAST IN THE BAKU BAY

### SUMMARY

The paper examines the ecological approach in design, as one of the directions of the global environmental movement, which allows to have a positive impact on the dynamics of the development of the infrastructure of the aquatic environment, flora and fauna of the Caspian Sea, expands the possibilities for building a perfect ecosystem of the Baku Bay, taking into account individual, atmospheric and climatic, social and cultural factors.

***Keywords:*** *ecology, ecological design, ecological safety, Caspian ecological program, landscape design, Baku Boulevard, development concept*

**B E Y N Ə L X A L Q  M Ü N A S İ B Ə T L Ə R**
**I N T E R N A T I O N A L  R E L A T I O N S**

UOT 327-027.21; UOT 327.5

**MƏHSƏTİ ƏLİYEVA**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının dosent əvəzi, siyasi elmlər üzrə fəlsəfə doktoru**
*e-mail: mehseti.aliyeva04@gmail.com*

# MÜASIR BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ MÜHARİBƏ VƏ SÜLH PROBLEMİ

Dövlətlərarası münasibətlər ən sadə formada dövlətlər, həmçinin, özlərinin müstəqilliklərinin tanınması uğrunda mübarizə aparan dövlətlər, millətlər və xalqlar arasında münasibətlərdir. Dövlətlərarası münasibətləri nəzərdən keçirən zaman, nəzərə almaq lazımdır ki, beynəlxalq hüquq normaları əsasən beynəlxalq münasibətlərin əsas subyektləri, yəni, dövlətlər arasındakı münasibətləri tənzimləyir. Lakin onu nəzərə almaq lazımdır ki, son dövrlərdə beynəlxalq münasibətlərin iştirakçılarının sıraları əhəmiyyətli dərəcədə genişlənmişdir. Bunun nəticəsində əvvəllər dövlətin daxili səlahiyyətləri çərçivəsində nəzərdən keçirilən münasibətlər dövlətlərin ümumi maraqları sferasına keçmişdir.

## Dövlətlərarası münasibətlərin mahiyyəti

Dövlətlərarası münasibətlərin mahiyyətini dəqiq dərk etmək üçün, hər şeydən öncə müvafiq istiqamətdə beynəlxalq hüquq sahələri haqqında təsəvvürlərə malik olmaq lazımdır. Məsələn, bariz nümunə kimi insan hüquq və azadlıqlarının təmin olunmasını göstərmək olar.

Beynəlxalq hüquqda aşağıdakı sahələr formalaşmışdır:

– beynəlxalq təşkilatlar hüququ;
– xarici əlaqələr hüququ;
– beynəlxalq müqavilələr hüququ;
– beynəlxalq təhlükəsizlik hüququ;
– beynəlxalq dəniz və kosmos hüququ;
– beynəlxalq cinayət hüququ;
– beynəlxalq iqtisadi hüquq;
– beynəlxalq humanitar hüquq;
– beynəlxalq ekoloji hüquq və s.

Bütün bu sadalanan istiqamətlər dövlətlərarası münasibətlərin müxtəlif sahələrini formalaşdırır. Bununla, beynəlxalq hüquq dövlətlərin qarşılıqlı fəaliyyətlərinin əsas məqsədlərini müəyyənləşdirir. Bu, həm də dövlətlərarası münasibətlərin beynəlxalq hüquqi tənzimlənməsini şərtləndirir. Beynəlxalq hüququn əsas prinsipləri içərisində aşağıdakıları xüsusi qeyd etmək lazımdır:

– dinc yanaşı mövcud olma prinsipi;
– sülhün və beynəlxalq təhlükəsizliyin qorunması və ya təmin olunması prinsipi;
– beynəlxalq əməkdaşlıq prinsipi;
– inanın, millətlərin və xalqların hüquqlarının qorunması prinsipi.

Qeyd edilən bu prinsiplər dövlətlərarası münasibətlərin müasir mərhələdə mahiyyətinin daha dərindən dərk edilməsini və bu münasibətlərin istiqamətləri haqqında təsəvvürlərin formalaşmasını şərtləndirir. Beynəlxalq hüququn kompleks prinsipləri elə normalar qrupunu müəyyənləşdirmişdir ki, dövlətlərin ondan hətta qarşılıqlı razılaşdırılmış şəkildə imtina etmək hüquqları mövcud deyildir. Müvafiq olaraq, beynəlxalq hüququn başlıca sosial-siyasi məqsədi mövcud beynəlxalq münasibətlər sisteminin normal fəaliyyətini təmin etməkdən ibarətdir [6, s.37].

Dövlətlərarası münasibətlərin mahiyyətini izah edərkən, bu münasibətlər üçün səciyyəvi olan bəzi məqamlara da diqqət yetirmək lazımdır. Hər şeydən öncə qeyd etmək lazımdır ki, reallıqda dövlətlərarası münasibətləri gərginləşdirən bir sıra ziddiyyətlər mövcuddur. Bu ziddiyyətləri ümumiləşdirilmiş şəkildə aşağıdakı kimi nəzərdən keçirmək mümkündür:

– bir tərəfdən beynəlxalq sənədlərdə dövlətlərin ümumi qəbul olunmuş formal bərabərliyi mövcuddur, digər tərəfdən isə, onların real qeyri-bərabərliyi mövcuddur. Bu qeyri-bərabərlik dövlətlərin təkcə böyüklüyündə, gücündə, iqtisadi və hərbi potensialında deyil, həm də hüquqi münasibətlərində müşahidə olunur. Beynəlxalq təşkilatlar iri dövlətlərin təsirləri altında olur. Əsasən də iri dövlətlərdən maliyyə asılılığı beynəlxalq təşkilatların tam sərbəst fəaliyyətini əngəlləyir;

– dövlətlərarası münasibətlər əsasən fraqmentar xarakter daşıyır. Belə ki, bütün münasibətlər dairəsini tənzimləyəcək genişmiqyaslı sistem mövcud deyildir. Dövlətlər arasındakı münasibətlər əsasən onlar arasında bağlanmış müqavilələrə əsaslanır. Lakin nəzərə almaq lazımdır ki, dövlətlər arasında bağlanmış müqavilələr real münasibətlərin yalnızca bir qismini tənzimləyirlər;

– dövlətlərarası münasibətlər sisteminin özü ümumilikdə eynicinsli deyildir. Bir çox hallarda siyasət birinci şəxslərin qarşılıqlı münasibətlərindən asılı olur. Yəni, bu zaman onlar arasındakı simpatiya və antipatiya həlledici rol oynayır. Bununla yanaşı onlar tərəfindən imzalanmış müqavilələrin parlamentdə ratifikasiyadan keçməsi tələb olunur ki, qarşılıqlı münasibətlər prosesinə müəyyən çətinliklər gətirir;

– müqavilələrin qeyri-stabilliyi dövlətlərarası münasibətlərin real problemi kimi nəzərdən keçirilir. Dövlətlər mövcud müqavilələri qüvvədən sala bilərlər, mövcud münasibətlər sistemini dəyişə bilərlər;

– hesab edilir ki, beynəlxalq hüquq və beynəlxalq təşkilatların zəifliyi mövcuddur. Dövlətlərarası münasibətlərin tənzimləyicisi olan beynəlxalq hüquq əsasən müqaviləli xarakter daşıyır. Bu da özünü onun tətbiqi səviyyəsində biruzə verir. Məsələn, 1928-ci ildə bütün müharibələri qadağan edən birgə razılıq əldə edilmişdir, az sonra isə, silahlı zorakılığın qadağan olunması haqqında qərar qəbul olunmuşdur. Bütün bunlara baxmayaraq, 1945-ci ildə və ondan sonra da müharibələr və silahlı zorakılıq davam etmişdir.

Yuxarıda qeyd etdiyimiz bütün məqamlar dünya dövlətlərinin qarşılıqlı şəkildə biri-birilərinə olan etimadı məhdudlaşdırır.

Qeyd etmək lazımdır ki, ümumiyyətlə, dünya siyasətinə iki əsas yanaşma tərzi mövcuddur. Birinci yanaşmanın əsasında beynəlxalq münasibətlərin əsas subyektləri rolunda dövlətlərin çıxış etməsi və dünya siyasi sisteminin dövlətlərarası münasibətlərdən ibarət olması haqqında təsəvvürlər dayanır.

İkinci yanaşmaya görə isə, münasibətlər sistemi əsasən Avropa dövlətləri arasındakı müqavilələrdə ifadə olunmuşdur. Belə yanaşmaya müvafiq olaraq, tarix ağalıq, ayrılma, sülhün möhkəmlənməsi və dövlətlər arasında balansın yaranması kimi dövrlərə bölünür. Dövlətlər arasında balanslaşmanı yaranması elə münasibətlər sistemini ifadə edir ki, bu zaman münasibətlər çoxtərəfli dövlətlərarası razılaşmalarda ifadə olunur.

Bir dövlətin gücünün artması digərilərinin adekvat olaraq güclənmək istiqamətində addımlar atmalarını şərtləndirir. Dövlətlər özlərinin iqtisadi potensiallarının əhəmiyyətli hissəsini silahlanmaya sərf edirlər. Dövlətlərin qarşılıqlı şəkildə gücləməyə meylli olmaları potensial rəqiblərdə xof yaratmağa hesablanmışdır. Bundan başqa, bu, öz növbəsində həm də qüvvələr balansı konsepsiyasının meydana gəlməsi zərurətini yaratmışdır. Bunun mahiyyəti ondan ibarətdir ki, potensial rəqiblər təxmini eyni gücə sahib olurlar. Qüvvələr balansının saxlanılması digər mütəffiq dövlətlərin də cəlb olunması ilə təmin olur [7, s.369].

Dövlətlərarası münasibətlər sistemi müəyyən struktura malikdir. Ümumi şəkildə dövlətlərarası münasibətlər sisteminin iyerarxik

şəkildə qarşılıqlı əlaqədə olan üç səviyyəsi göstərilir. Bunlar aşağıdakılardan ibarətdir:

– mərkəzçi güc səviyyəsi;
– ziddiyyətlər səviyyəsi;
– sistem-struktur üstqurum səviyyəsi.

Qeyd edək ki, bu səviyyələrin müəyyənləşdirilməsi şərti xarakter daşıyır. Bu şərtiliyə baxmayaraq, o, dövlətlərarası münasibətləri daha nizamlı şəkildə nəzərdən keçirməyə imkan verir [8, s.648]. Mərkəzçi güc münasibətləri strukturun əsas səviyyəsini səciyyələndirir. Belə ki, o, sistemin bütün tarixi vəziyyətlərinə aiddir və bu baxımdan, qanunauyğundur, təkrarlanandır. Sistemin inkişafının hər dövründə o, müəyyən dövlətlər arasında konkret tarixi formada ifadə olunur. Bu da diplomatik və xarici siyasi təcrübədə "güclü dövlətlər" adı altında təqdim olunur. İkinci Dünya müharibəsindən sonrakı dövrdə bu forma SSRİ ilə ABŞ arasında bipolyar struktur kimi müşahidə olunmuşdur. Qeyd etmək lazımdır ki, mərkəzçi güc münasibətləri son nəticədə dünya sosial-iqtisadi və siyasi proseslərin məcmusu ilə müəyyənləşir. Bu proseslər əsas təsirli rolun dünyanın aparıcı, güclü dövlətləri tərəfindən oynanılmasını şərtləndirir. Mərkəzçi güc münasibətləri ümumi sistem münasibətləri kimi sistemdə özünün müxtəlifliyini itirmir.

Sistem-struktur nöqteyi-nəzərindən ziddiyyətlər məkan müstəvisində dövlətlər arasında nisbətən məhdud əlaqələr kompleksidir. Bu əlaqələr kompleksinə daxil olan dövlətlərin münasibətlərin dayanıqlığı zəif olur. Bu zaman inkişafın böyük dinamikası, ziddiyyətlərin tez kəskinləşməsi, münasibətlərin inkişafının təhlükəliliyi və ümumiyyətlə qeyri-stabillik müşahidə olunur. Bir qayda olaraq belə hallar milli-azadlıq hərakatlarının, yeni dövlətçiliyin formalaşdığı, dərin daxili sosial-iqtisadi dəyişikliklərin olduğu yerlərdə müşahidə olunur. Bu əsasda meydana gəlmiş münasibətlər bir qayda olaraq dövlətlər arasında müxtəlif səbəblərdən yaranmış ziddiyyətləri ifadə edirlər. Ziddiyyətlər dövlətlər arasında münaqişə-böhran münasibətlərini ifadə edirlər və münasibətlər sistemində müvafiq olaraq onun rolu bununla müəyyənləşdirilir.

Mərkəzçi güc səviyyəsi ilə ziddiyyətlər səviyyəsi qarşılıqlı şəkildə sıx bağlıdırlar. Bunlar biri-birilərilə qarşılıqlı əlaqədə olmaqla hər tarixi inkişaf dövründə dövlətlərarası ziddiyyətli münasibətləri ifadə edirlər.

Struktur-üstqurum səviyyəsi. Dövlətlərin baza struktur münasibətləri beynəlxalq siyasi orqanların və təşkilatların, müəssisələrin, institutların, beynəlxalq hüquqi normalar sisteminin meydana gəlməsini şərtləndirir. Bütün bunlar məcmu halında baza münasibətləri üzərində siyasi üstqurumu formalaşdırırlar. Baza münasibətləri nə qədər mürəkkəb olursa, üstqurum da bir o qədər mürəkkəb olur. Bu, müasir dövlətlərarası münasibətlərdə özünü aydın şəkildə biruzə verir.

Ümumilikdə qeyd etmək lazımdır ki, ayrı-ayrı dövlətlərin sistemdə yeri və rolu bu və ya digər struktur səviyyəsinə aid olmaları ilə müəyyənləşir. Lakin yalnız məhdud sayda dövlətlər mərkəzçi güc münasibətlərin iştirakçısı rolunda çıxış edə bilirlər.

**Sülh və müharibə problemi**

Tarixi mənbələr sübut edir ki, dünyada saysız-hesabsız müharibələr baş vermişdir. Bu baxımdan, müharibə problemi daim insanların diqqət mərkəzində olmuşdur. Tarixdə müharibə probleminə dair ilk aydın fikri Fukidid söyləmişdir. O, ilk dəfə müharibə ilə siyasət arasındakı əlaqəni izah etməyə çalışmışdır. Platon və Aristotel müharibəni siyasət sənətinin bir hissəsi kimi nəzərdən keçirmişlər. L.Morqan, F.Engels hesab edirdilər ki, ibtidai dövrün müharibələri siyasi məzmuna malik deyildilər. Həmin dövrdə müharibə əmək fəaliyyətinin, həyatın özünün müəyyən forması, həyat tərzi idi [5, s.23].

Antik dövrün fəlsəfəsi ilə tanışlıq göstərir ki, müharibə və ordu sosial həyatın təbii daimi hadisəsi kimi nəzərdən keçirilmişdir. Quldarlıq cəmiyyətinin saxlanılmasının zəruri şərti kimi məhz müharibə qəbul olunurdu. Təbii ki, sülh

məsələsi də ciddi diqqət mərkəzində olmuşdur. Lakin sülh çağırışları antik dövrdə yalnız qədim yunan cəmiyyəti üçün edilirdi [3, s.39]. Demokrit yazırdı ki, müharibə hər şeyin atasıdır və hər şeyin çarıdır. O, daxili və xarici müharibələrin sərhədlərini müəyyənləşdirirdi. O, əsaslandırırdı ki, vətəndaş müharibəsi hər iki tərəf üçün məhvedicidir. Platon da iki növ müharibəni fərqləndirirdi. Daxili və xarici müharibələri fərqləndirən Platon xarici müharibəni əsl böyük müharibə hesab edirdi. O, müharibənin səbəblərini aydınlaşdırmağa çalışmışdır. Aristotel özünün "Politika" əsərində dövlətin və əsas struktur elementlərinin təbii mənşəyini əsaslandırır. Bu zaman o, həmçinin, ordunun və müharibənin də təbii mənşəyindən bəhs edir. Qulların əldə edilməsi və onların üsyanlarının dəf edilməsi üçün aparılan müharibəni Aristotel ədalətli müharibə hesab edirdi. Bu məqam sübut edir ki, antik filosoflar tərəfindən müharibə təbii hadisə kimi nəzərdən keçirilirdi. Bununla yanaşı quldarlıq dövrünün həm materialistləri, həm də idealistləri müharibənin əsli səbəbini varlanmaq həvəsində görürdülər. Bu, Platon və Aristotel tərəfindən dəstəklənən fikir idi. Daha sonra Epikür və Lukratsi də bu mövqeni dəsətkləmişlər. Feodalizm dövründə isə, hakim dini ideoloji fikir müharibənin səbəbini insanların törətdikləri günahlarda görürdülər. Hesab olunurdu ki, insanlar "Allah qanunlarından" kənara çıxdıqlarına görə onlar müharibə ilə cəzalandırılırlar. Müharibə xristianlıqda, xristian dünyasında "Allah sülhünün" bərqərar olunması vasitəsidir [2, s.34].

Feodalizm dövrünün materialist tendensiyası müharibənin baş vermə səbəbini feodalların nəfsində və dindarların siyasi hökmranlığa can atmasında görürdülər. Bu tendensiya daha qabarıq şəkildə M. Paduanskinin "Sülhün qoruyucusu" traktatında ifadəsini tapmışdır. Bildiyimiz kimi, kapitalın ilkin toplanışı avropa sivilizasiyası tarixində qanlı səhifə açmışdır. Bu dövrdə silah gücünə milli dövlətlər yaradılmışdır və koloniyalar əldə olunmuşdur. İlk kütləvi ordular yaranmışdır, hərbi koalisiyalar formalaşdırılmışdır və uzunmüddətli müharibələrə start verilmişdir. Bu baxımdan, intibah dövrünün mütəfəkkirlərinin fikirlərində müharibə və sülh mövzusu mərkəzi mövqe tutmağa başlamışdır. Bu zaman müharibənin baş verməsinin materialist səbəblərinin göstərilməsi tendensiyası da xeyli güclənmişdir. Yəni, artıq müharibənin səbəbləri göydə deyil, yerdə axtarılırdı. Bu, mahiyyət etibarilə naturalist yanaşma idi ki, özünü iki istiqamətdə biruzə verirdi. Birincisi elə naturalist konsepsiya idi, ikincisi isə, sosial naturalizm konsepsiyası idi. Naturalist konsepsiyanın tərəfdarları müharibəni şərtləndirən məqam kimi xalqların həyatındakı coğrafi və iqlim şəraitlərini göstərirdilər. Təbii resursların məhdudluğu, xalqların xarakteri, psixiki və fizioloji xüsusiyyətlər və s. müharibənin baş verməsini şərtləndirən mühüm amillər kimi nəzərdən keçirilirdi. T. Hobbs yazırdı: "Biz insan təbiətində müharibəyə səbəb olacaq üç əlaməti müəyyənləşdirə bilərik: 1. Rəqabət; 2. Etimadsızlıq; 3. Şöhrət hərisliyi. T.Hobbs "Leviafan" əsərində yazırdı: "Neçə ki, insanlar onları qorxu altında saxlayan ümumi hakimiyyət olmadan yaşayırlar, onda onlar müharibə adlanan bir vəziyyətdədirlər". Bu, hamının hamıya qarşı müharibəsi vəziyyəti kimi təqdim olunur. İnsanlar müharibə vəziyyətindən çıxmaq üçün öz aralarında ictimai müqavilə bağlamaq məcburiyyətində qalmışlar. Bu ictimai müqavilə əsasında dövlət özünün bütün orqanları ilə birgə yaranmışdır. Bunların içərisində müharibənin əsas aləti olan ordu da mərkəzi yeri tutmuşdur. Dövlət və silalı qüvvələri bütün insanların iradəsini daxili sülhə istiqamətləndirir və xarici düşmənə qarşı birləşdirir. Bununla da, dövlət ancaq daxili müharibələrə son qoymuş. Bu zaman xarici müharibələr toxunulmamış qalmışdır. Qeyd edək ki, T. Hobbs müharibəni özünəməxsus şəkildə, kifayət qədər geniş izah edir. Ümumi şəkildə T.Hobbs müharibənin səbəblərini ancaq yerlə əlaqələndirir.

Sosial naturalizm tərəfdarları müharibənin səbəbini insanın dəyişməz sosial təbiətində görürdülər. Müharibənin sosial-naturalist xarak-

teri haqqında N. Makiavelli, Ş.-L. Monteskyö, J.J. Russo və başqaları kifayət qədər dolğun fikirlər irəli sürmüşlər. N. Makiavelli hesab edirdi ki, qazanmağa can atmaq olduqca təbii və adidir. O, qeyd edirdi ki, zəruri olan müharibələr ədalətli müharibələrdir. Yəni, bu elə müharibələrdir ki, onlarsız keçinmək qeyri-mümkündür. N. Makiavelli yazırdı: "Siyasi kölələk zəncirini parçalayan silahdan zəruri nə ola bilər?" Ş.L.Monteskyö "Qanunların ruhu haqqında" əsərində müharibələrin meydana gəlməsini cəmiyyətin yaranması ilə əlaqələndirirdi. Bu zaman insanların birgə yaşayışlarının təbii forması itmişdir. Belə ki, insanlar artıq təbiət qanunları ilə yaşamaqdan imtina etmişlər. İnsanların cəmiyyətdə birləşməsindən sonralarda öz zəifliyini, aralarındakı qeyri-bərabərliyi dərk etmək hissi də itir və müharibə başlayır. Hər bir ayrıca cəmiyyət öz gücünü dərk edir. Bu da xalqlar arasında müharibələrin baş verməsini şərtləndirir. Hər bir cəmiyyətdə ayrı-ayrı şəxslər öz gücünü hiss etməyə başlayır və bu cəmiyyətin əsas resurslarını əlində cəmləşdirməyə çalışır. Bu da ayrı-ayrı şəxslər arasında müharibəyə səbəb olur. Monteskyönün mühüm xidmətlərindən biri də ondan ibarət olmuşdur ki, o, müharibəyə tarixi, ictimai bir hadisə kimi yanaşmışdır.

J.J. Russo da Monteskyönün xəttini davam etdirmişdir. Belə ki, o da hesab edirdi ki, yaranmış cəmiyyət sərt müharibələrin teatrına çevrilmişdir. Cəmiyyətdə mülkiyyət qeyri-bərabərliyi, "mülkiyyət ideyası" müharibənin başlıca səbəblərindən biridir. Həqiqətən də, Russo ilə yanaşı, digər əksər mütəfəkkirlər də müharibənin əsl səbəbini şəxsi mülkiyyətin meydana gəlməsində görürdülər. Lakin onların şəxsi mülkiyyətə baxışları müəyyən sərhəddi keçmirdi. Belə ki, onlar şəxsi mülkiyyəti istehsal alətləri və vasitələrində mülkiyyət kimi deyil, insanların təbii qeyri-bərabərliyi kimi izah edirdilər. Hertsen, Belinskiy, Çernışevskiy, Dobrolyubov əsaslandırırdılar ki, müharibə insanların daimi və təbii bələdçisi deyildir, o, konkret cəmiyyətlərə xas olan tarixi hadisədir. Belə cəmiyyətlərdə bir qayda olaraq istibdada məruz qalan insanlar olur ki, bu da gec-tez müharibəyə səbəb olur.

Daha dərin oturuşmuş fikir ondan ibarətdir ki, sosial-siyasi hadisə kimi müharibə siyasətin meydana gəlməsi ilə yaranmışdır. Onunla bərabər isə, dövlət meydana gəlmişdir. Müharibələr daha geniş yayıldıqca, qlobal sülhə olan ehtiyac özünü bir o qədər güclü biruzə vermişdir. Pozitivizmin banisi olan O.Kont əsaslandırırdı ki, onun dövründə müharibə anarxizm olmuşdur, ciddi və davamlı müharibələrin tamam yox olduğu zaman yetişmişdir. K.Marks yazırdı ki, insanlar tarixi yaratmaq üçün yaşamalıdırlar. Müharibə onlardan bu imkanı alır. Bu səbəbdən artıq XIX əsrin sonlarında F. Engels belə qənaətə gəlmişdir ki, müasir müharibə özünün quruculuq imkanlarını itirmişdir və heç bir halda inkişafa xidmət edə bilməz.

İstənilən müharibə elan olunmamışdan xeyli əvvəl başlayır. Müharibə başlamamışdan öncə xüsusi strukturlar tərəfindən əhali arasında ideoloji və psixoloji işlər aparılır. Bu zaman müharibənin zəruriliyi və qaçılmazlığı haqqında fikirlər aşılanır. Dövlətlər qarşılqılı şəkildə rəqiblərinin mənfi obrazını yaradırlar, özlərinin məqsədlərini ədalətli, rəqiblərininkini isə, ədalətsiz və əsassız kimi təqdim edirlər. Hərbi nəzəriyyəçi Karl fon Klauzevits hesab edirdi ki, müharibə müstəqil, ictimai inkişafdan asılı olmayan hadisə deyildir, o, ciddi siyasi aktı, siyasi məqsədlərə çatmağın ciddi vasitəsini ifadə edir. Müharibə siyasi vəziyyətdən qaynaqlanır və yalnız siyasi motivlər meydana gətirir. Klauzevits yazmışdır: "Müharibə sadəcə dövlət siyasətinin başqa vasitələrlə davam etdirilməsidir". [4, s.73]

Politologiyada müharibə sosial siniflər, millətlər, xalqlar və ya dövlətlər arasında təşkil olunmuş silahlı mübarizədir. Sosial münaqişənin silahlı mübarizə mərhələsinə keçməsi, öz ifadəsini onda tapır ki, tərəflərdən hər biri qarşılıqlı şəkildə öz iradəsini rəqibinə qəbul etdirməyə çalışır. Bu zaman rəqibin insani və maddi resurslarına dağıdıcı zərbələrin vurulması əsas addım kimi nəzərdən keçirilir. Təbii

ki, bu zaman iqtisadi, diplomatik, ideoloji və digər təzyiq vasitələri də nəzərdən keçirilir.

Müharibə siyasətin məqsəd və vəzifələrinin dəyişməsinə təsir edir, konkret sosial-siyasi sistemin həyat qabiliyyətini sınaqdan çıxarır, cəmiyyət həyatının bütün sahələrində ciddi dəyişiklikləri şərtləndirir və s. Müharibə sosial hadisə olmaqla, dövlətlər, xalqlar, millətlər, siniflər və sosial qruplar arasında ictimai ziddiyyətlərin dəstəklənməsi forması kimi çıxış edir. Bu zaman təbii ki, əsas vasitə rolunda silahlı zorakılıq çıxış edir. Müharibənin mahiyyəti ondan ibarətdir ki, o, siyasətin həqiqi silahı rolunda çıxış edir və onun silahlı zorakılıq vasitəsilə davam etdirilməsidir. Siyasət dövlətin və ya dövlətlər ittifaqının müharibəyə hazırlığının istiqamətini və xarakterini müəyyənləşdirir. Bu zaman həm də müharibənin məqsəd və vəzifələri, onun vasitələri və maddi bazası müəyyənləşir [1, s.42]

Beləliklə, istənilən tarixi dövrdə müharibə və sülh dövlətlərarası münasibətlərin səciyyəvi tərəfi kimi nəzərdən keçirilmişdir. Həqiqətən də, dövlətlər arasında ya müharibə, ya da sülh münasibətləri müşahidə olunur. Sosial münaqişənin bir forması kimi, müharibə dünya ictimaiyyətini bütün tarix boyu müşayiət etmişdir. Müasir dövrdə də vəziyyət demək olar ki, dəyişməz qalmışdır. Dünyanın simasını məhz silahlı toqquşmalar müəyyənləşdirmişdir. Bütün bunlar aydın sübut edir ki, beynəlxalq münasibətlərdə müharibənin mərkəzi yeri və rolu vardır.

**Ədəbiyyat:**


1. Бочарников И.В., Лемешев С.В., Люткене Г.В. Современные концепции войн и практика военного строительства. М., Эконинформ, 2013, 144 с.
2. Боброва И.А. Ильин И.А. О социальных и нравственных противоречиях войны // Известия Российского государственного педагогического университета им. А.И.Герцена: Аспирантские тетради: Научный журнал. СПб., 2007, №11(32), с.33-38
3. Война и мир в терминах и определениях // Под ред. Д.О. Рогозина. – М.: Вече, 2011, 635 с.
4. Клаузевиц К. О войне: В 2-х т. – М.: Государственное военное издательство, 1936, Т. 2, 576 с.
5. Тюшкевич С.А. Законы войны: сущность, механизм действия, факторы использования. − М.: Книга и бизнес, 2002, 357 с.
6. Kegley Ch. World politics: trend and transformation. Cengage Learning, 2007. Ch. Theories of world politics. P. 36 - 53.
7. Muller H. Security cooperation. /Handbook of international relations / Ed. by Carlsnaes W., Risse-Kappen Th., Simmons B. SAGE, 2002. P. 369 – 392.
8. Nye J. International relations – the relevance of theory to practice. // The Oxford handbook of international relations. / Ed. by Reus-Smit C., Snidal D. Oxford University Press, 2008. P. 648 – 663.


***Açar sözlər:*** *beynəlxalq münasibətlər, dövlətlər, müharibə, sülh, beynəlxalq hüquq, siyasət*

**Mehsati Aliyeva**
*Associate Professor of the Department of International Relations and Foreign Policy of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, PhD in Political Science*

## THE PROBLEM OF WAR AND PEACE IN MODERN INTERNATIONAL RELATIONS

### SUMMARY

The scientific article  examines the problem of war and peace in the modern international relations. First of all, the attention is paid to the interstate relations is paid. It is noted that the interstate relations differ in their own peculiarities. Since, relations between states have a complex structure. War and peace  are an integral element of the interstate relations. It is substantiated that war is the continuation of state policy by other means. This explains the nature and characteristic features of war. All these and other points comprehensively are considered in the submitted scientific article.

***Keywords:*** *international relations, states, war, peace, international law, politics*

**Мехсети Алиева**
*И.о. доцента кафедры Международных отношений и внешней политики Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по политическим наукам*

## ПРОБЛЕМА ВОЙНЫ И МИРА В СОВРЕМЕННЫХ МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЯХ

### РЕЗЮМЕ

В научной статье рассматривается проблема войны и мира в современных международных отношениях. Прежде всего обращается внимание на межгосударственные отношения. Отмечается, что межгосударственные отношения отличаются своей особенностью, так как, отношения между государствами имеют сложную структуру. Война и мир рассматриваются как неотъемлемые элементы межгосударственных отношений, обосновывается, что война – это продолжение государственной политики другими средствами. При этом объясняются природа и характерные черты войны, а также всесторонне рассматриваются другие моменты, связанные с проблематикой представленной статьи.

***Ключевые слова:*** *международные отношения, государства, война, мир, международное право, политика*

# GƏNC TƏDQİQATÇILAR
# YOUNG RESEARCHERS

# DÖVLƏT İDARƏÇİLİYİ
# PUBLIC ADMINISTRATION

UOT 328;342,5;352/354
UOT 338.24

**CEYRAN RƏHMƏTULLAYEVA**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət qulluğu və kadr siyasəti kafedrasının dissertantı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Sosial-mədəni fəaliyyət kafedrasının müəllimi**
*e-mail: ceyran_8@yahoo.com*

## SOSİAL XİDMƏT ANLAYIŞINA DAİR YANAŞMALAR VƏ ONUN PRİNSİPLƏRİ

Məlum olduğu kimi, əhaliyə sosial xidmət sisteminin inkişafı sosial müdafiənin mühüm istiqamətlərindən birini təşkil edir.

Sosial xidmətin mahiyyətindən danışarkən, ilk növbədə, "xidmət" anlayışına aydınlıq gətirmək lazımdır. Fransız iqtisadçısı F.Bastia hesab edir ki, xidmət kiminsə tərəfindən göstərilən istənilən şeydir [11].

Azərbaycan dilinin izahlı lüğətində «xidmət» sözünün ifadə etdiyi mənalar içərisində «adamların ehtiyaclarını, rahatlığını təmin edən təsərrüfat və ya başqa vasitələr sistemi» göstərilir [3, s. 219].

K.Marksın fikrincə, xidmət əmtəənin və ya əməyin istehlak dəyərinin faydalı təsiridir. Burada istehlak dəyəri dedikdə əmtəənin (əməyin) kompleks faydalı xüsusiyyətləri başa düşülür ki, onların köməyi ilə insanın və ya cəmiyyətin tələbatları təmin olunur [17].

Müasir iqtisad elminə görə, xidmət məqsədyönlü fəaliyyət kimi məhsuldar əmək nəticəsində yaranan faydalı təsirdir [8, s. 365].

Xidmət anlayışı geniş və dar mənada başa düşülür. Fiziki və hüquqi şəxslərin mənafeyi üçün həyata keçirilən hər cür fəaliyyət xidmətin geniş anlamda mənasını təşkil edir. Məsələn, ticarət xidməti, nəqliyyat xidməti, səhiyyə xidməti, sığorta xidməti, təhsil xidməti, hüquq məsləhətxanalarının (hüquq firmalarının) göstərdiyi xidmət və s. Dar mənada xidmət dedikdə isə, xidmət göstərilməsi üzrə mülki-hüquqi öhdəliklər başa düşülür (nəqliyyat öhdəlikləri, hesablaşma öhdəlikləri, sığorta öhdəlikləri və s.).

Xidmət, ilk növbədə, ictimai zərurətlə, insanların ehtiyacları ilə bağlıdır. Deməli, sosial xidmət cəmiyyət tərəfindən ehtiyacı olan şəxslərə (zəruri hallarda çatışmazlığı olan vətəndaşlara) pulsuz, yaxud haqqı qismən ödənilməklə təqdim olunur.

Sosial xidmətin məqsədi kimi əhalinin sosial rifah halını yaxşılaşdıran, keyfiyyətli və əlçatan sosial xidmətlərlə təmin edilməsi çıxış edir. Sosial xidmətin məqsədləri cəmiyyətin tələbatları ilə müəyyən edilir və bu məqsədlərin reallaşdırılması bir sıra amillərdən, xüsusən də siyasi, iqtisadi və sosial-demoqrafik faktorlardan asılıdır.

Sosial xidmətin prinsipləri, məzmunu və formaları hər zaman cəmiyyətin inkişafının sosial-mədəni və sosial-iqtisadi aspektləri, insanın tələbatları ilə müəyyən olunmuş və həmişə cəmiyyətdə sosial sülh və bərabərliyin qorunub saxlanmasını təmin etmişdir. Sosial xidmət açıq sistem olmaqla məhdud praktiki məqsədlərlə (konkret insana sosial yardım)

məhdudlaşmır. O sosial sahənin digər institutları ilə qarşılıqlı təsirdə olmaqla və bir tərəfdən ictimai tənzimləyici rolunu yerinə yetirməklə, digər tərəfdən, sosial sahəni və onun institutlarını zənginləşdirməklə sivilizasion əhəmiyyət kəsb edir. Sosial xidmət bütöv bir sistem kimi formalaşır və onun struktur-funksional təhlili kulturoloji, aksioloji və praksioloji yanaşmalardan istifadə edilməklə həyata keçirilir [13, s. 11].

Sosial xidmət institutunun yaradılmasının əsasını bir sıra həlledici tələbatlar təşkil edir:

– ictimai resursların yenidən bölüşdürülməsi;

– müxtəlif növ sosial xidmətlərin əldə edilməsi;

– qeyri-stabil sosial-iqtisadi vəziyyətdən qorunma;

– müəyyən qrup insanların qaydalardan kənara çıxan davranışına nəzarət;

– sosial işin həyata keçirilməsi zamanı sosial sahədə əməkdaşlıq modellərinin reallaşdırılması;

– ixtisaslı sosial xidmət kadrlarının yetişdirilməsi;

– cəmiyyətdə baş verən sosial təbəqələşmə proseslərinin kompensasiya edilməsi [22].

Sosial xidmət bəzən cəmiyyətin inkişafının hərəkətverici qüvvələrindən biri rolunda çıxış edir. Çünki əhaliyə sosial xidmət sisteminin fəaliyyəti normal istehlak səviyyəsini təmin edir. Bu onunla şərtlənir ki, sosial baxımdan zəif təmin olunmuş (xəstəlik, işsizlik və s. nəticəsində) əhali qruplarının istehlak səviyyəsinin aşağı düşməsi onların daha aşağı həyat standartlarına uyğunlaşmağa vadar edir. Sosial xidmət sistemi belə əhali qruplarına dəstək verməklə cəmiyyətdə normal istehlak səviyyəsinin yüksəlməsinə şərait yaradır [21, s. 32].

### Sosial xidmət anlayışına dair doktrinal yanaşmalar

Dünyanın heç də bütün ölkələrində "sosial xidmət" anlayışı eyni məna kəsb etmir. Məsələn, Finlandiyada sosial xidmət haqqında qanunvericilik onu sosial təminatlılığın möhkəmlənməsinə və ayrıca insanın, ailənin və cəmiyyətin inkişafına xidmət etməli olan sosial qulluq növlərinin, yaşayış vasitələri ilə dəstəyin, sosial müavinətlərin və bunlarla bağlı hərəkətlərin məcmusu kimi nəzərdən keçirir [14, s. 26].

Azərbaycan Respublikasında sosial xidmətin hüquqi tənziminə həsr edilmiş ilk qanunda, yəni artıq qüvvədən düşmüş olan "Ahıllara sosial xidmət haqqında" 22 iyul 2001-ci il tarixli Azərbaycan Respublikası Qanununda sosial xidmətə ilk dəfə olaraq leqal anlayış verilmişdir. Belə ki, həmin qanunun 1-ci maddəsinə görə ahıllara sosial xidmət ahılların sosial xidmətə olan tələbatlarının ödənilməsinə yönəldilən, onlara mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq sosial xidmət müəssisələrində evdə qulluq, iaşənin təşkili, tibbi, sosial, psixoloji, hüquqi və digər yardımların məcmusundan ibarət olan fəaliyyətdir [1, s. 3]. "Sosial xidmət haqqında" 2011-ci il 30 dekabr tarixli Azərbaycan Respublikası Qanununun 1-ci maddəsində isə sosial xidmətə çətin həyat şəraitində yaşayan şəxsin (ailənin) sosial problemlərinin aradan qaldırılması və ictimai həyatda digər insanlarla bərabər iştirak imkanlarının yaradılması istiqamətində həyata keçirilən kompleks tədbirlər kimi leqal anlayış verilmişdir. Qanunun 4-cü maddəsinə əsasən sosial xidmətin məqsədi vətəndaşların həyat səviyyəsini ağırlaşdıran, sosial-psixoloji vəziyyətini çətinləşdirən, cəmiyyətdən təcrid olunmasına gətirib çıxaran halların qarşısını almaqdan, çətin həyat şəraitinin əmələ gəldiyi hallarda ehtiyacı olan şəxslərə sosial xidmətin göstərilməsini təmin etməkdən ibarətdir [9].

Ümumiyyətlə, elmi ədəbiyyatda sosial xidmət kateqoriyasına dair vahid yanaşma formalaşmamışdır və onun anlayışı və mahiyyəti ilə bağlı fərqli fikirlər irəli sürülür. Məsələn, müxtəlif müəlliflər tərəfindən sosial xidmət:

– sosial işin müasir paradiqması;

– yüksək keyfiyyətli sosial texnologiya;

– sosial fəaliyyət;

– peşə fəaliyyəti;

– servis fəaliyyəti və s. kimi müəyyən olunur.

Elmi ədəbiyyatda təminatın bu növünün aşağıdakı meyarlara görə sosial adlandırılması göstərilir: birincisi, maliyyələşdirmə mənbəyinə görə təminatın bu növü dövlət büdcəsi hesabına maliyyələşdirilir: ikincisi, təminata aid olan şəxslərin dairəsinə görə – bu bütün vətəndaşlara deyil, ayrı-ayrı vətəndaşlara – əmək qabiliyyəti olmayanlara (qocalara, əlilliyi olan şəxslərə), ailə başçısını itirmiş şəxslərə, uşaqlara, qadınlara, ahıllara, məcburi köçkünlərə, veteranlara və s. aid edilir; üçüncüsü, təminatın təqdim edilmə şərtlərinə görə – bu qanunla nəzərdə tutulmuş hallar, yəni çətin həyati vəziyyət baş verdikdə təqdim edilir; beşincisi təminatın təqdim edilməsi məqsədinə görə – bu zaman əsas məqsəd kimi müəyyən kateqoriya vətəndaşların sosial vəziyyətini cəmiyyətin digər üzvləri ilə müqayisədə sosial cəhətdən bərabərləşdirmək çıxış etməlidir [20, s. 9-10].

Ş.B.Bayramovun fikrincə, sosial xidmət pulsuz, yaxud da tam və ya qismən cəmiyyətin vəsaitləri hesabına göstərilən xidməti özündə əks etdirir və bu xidmətin «sosiallığı» məhz buradan irəli gəlir [5, s. 99].

Müəlliflərin əksəriyyəti sosial xidməti servis fəaliyyətinin subyektlərinin hərəkətləri və qarşılıqlı əlaqələri nəticəsində yaranan və dəyişən mürəkkəb bir sistem kimi nəzərdən keçirirlər. Onun funksiyaları və strukturu sosial xidmətlərin təqdim edilməsi yolu ilə fərdlərin tələbatlarının harmonik şəkildə təmin edilməsinə yönəlmişdir.

Sosial iş nəzəriyyəçiləri sosial elmlərin və onların tətbiqi praktikasının formalaşması prosesini təhlil edərək göstərirlər ki, müasir şəraitdə sosial xidmət sosial işin paradiqmalarından və bu növ sosial fəaliyyətin təşkilati formalarından biri kimi çıxış edir. Praktikada sosial xidmət ayrı-ayrı şəxslərin, ailələrin və ya müəyyən qrup insanların adaptasiyasına, sosial reabilitasiyasına yönəlmiş sosial-humanitar fəaliyyət üsullarının sistemini özündə əks etdirir. Sosial xidmət ictimai institut kimi xarakterizə oluna bilər. İctimai institutlar, o cümlədən sosial xidmət institutu üçün ümumi funksiyalar xarakterikdir: təşkilati, inteqrativ, normativ, kommunikativ, adaptasion və sosial nəzarət funksiyaları. Sosial xidmət institutu üçün adaptasion və inteqrativ funksiyalar prioritet əhəmiyyət kəsb edir. Bundan başqa, o xüsusi funksiyalara malikdir: internalizasiya, sosial müdafiə və stratifikasiya [22].

Sosial xidmət sosial işin bir istiqaməti kimi xarakterizə olunur. Sosial xidmət çərçivəsində metod, sistem və strukturların qarşılıqlı əlaqəsi məsələləri ətraflı surətdə nəzərdən keçirilərək bu kateqoriyanın sistemli-struktur təhlili modeli, həyata keçirilməsi mərhələləri, xüsusiyyətləri qeyd olunur. Göstərilir ki, sosial xidmət cəmiyyətin sosial sahəsinin altsistemi, burada olan baza institutlara münasibətdə yardımçı institut, sosial müdafiə sisteminin əsas ünsürü kimi çıxış edir.

Sosial xidmət üçün aşağıdakı əlamətlər xarakterikdir:

– qanun normalarına əsasən müəyyən edilir;

– dövlət tərəfindən təminat verilir;

– çətin həyat şəraitində, yəni insanın həyat fəaliyyətini obyektiv surətdə pozan situasiyada (əlillik, ahıllıq yaşına görə özünə xidmət edə bilməmə, kimsəsizlik, nəzarətsizlik, aztəminatlılıq, işsizlik, müəyyən yaşayış yerinin olmaması, ailədə münaqişələr və sərt davranışlar, tənhalıq və s.) olan vətəndaşlar üçün təyin edilir;

– mülkiyyət formasından asılı olmayaraq sosial xidmətlər təqdim edən idarə və müəssisələr, habelə hüquqi şəxs yaratmadan sosial xidmət üzrə sahibkarlıq fəaliyyəti ilə məşğul olan vətəndaşlar tərəfindən göstərilir;

– sosial-məişət, sosial-tibbi, psixoloji-pedaqoji, sosial-hüquqi xidmətlər və maddi yardım, sosial adaptasiya və rebilitasiya formalarında həyata keçirilir;

– çətin həyat şəraitinin davam etdiyi müddətdə (və ya ömürlük) təqdim edilir;

– məqsəd dolğun həyat sürmələri üçün insanlara köməklik göstərməkdən ibarətdir.

Bu əlamətlərin ümumiləşdirilməsi əsasında sosial xidmətə sosial xidmət qurumları tərəfindən çətin həyat şəraitində olan insanların sosial dəstəklənməsi, onlara sosial-məişət, sosial-tibbi, psixoloji-pedaqoji, sosial-hüquqi xidmətlərin və maddi yardımların göstərilməsi, həmin şəxslərin sosial adaptasiya və reabilita-

siyalarının həyata keçirilməsi üzrə fəaliyyəti özündə əks etdirən sosial təminat növü kimi anlayış verilir [19].

Prof. M.N.Əliyev sosial xidməti özlərindən asılı olmadan hallarla əlaqədar onların həyat fəaliyyətini pozan və müstəqil surətdə (yaxud qanunla onlara baxmağa borclu olan şəxslərin köməyi ilə) aradan qaldıra bilmədikləri vəziyyətə düşmüş şəxslərə sosial adaptasiya və reabilitasiya üzrə müəyyən olunmuş dövlət standartlarına müvafiq surətdə tibbi, sosial, psixoloji, hüquqi və digər yardımların pulsuz, yaxud əvəzsiz göstərilməsi üzrə xüsusi təşkilatların qanunla müəyyən olunmuş fəaliyyət kimi xarakterizə edir [6].

P.D.Pavlenok sosial xidməti sosial yardıma ehtiyacı olan vətəndaşlara sosial yardımın göstərilməsi üzrə tədbirlər kompleksi kimi müəyyən edir. Bu tədbirlər sosial sağlamlığın qorunmasını və həyat fəaliyyətinin təmin olunmasını, böhranlı vəziyyətlərin aradan qaldırılmasını, özünütəminatın və qarşılıqlı yardımın inkişafını təmin edir [18].

R.Barkerin "Sosial iş lüğətində" sosial xidmət digər insanlardan asılı olan və özünə qayğı göstərə bilməyən insanların normal inkişafı üçün zəruri olan tələbatlarının təmin edilməsi məqsədilə konkret sosial xidmətlərin təqdim edilməsi kimi izah edilir [10, s. 376].

B.İ.Staşkiv sosial xidmət kateqoriyasını çətin həyat şəraitində olan və kənardan yardıma ehtiyacı olan şəxslərə onların normal həyat fəaliyyətini pozan halların qarşısının alınması və ya yumşaldılması məqsədilə pulsuz və ya güzəştli şərtlərlə sosial xidmətlərin təqdim edilməsi üzrə sosial xidmətlərin fəaliyyəti kimi müəyyən edir [23, s. 19].

M.A.Hacıyevanın fikrincə, sosial kateqoriya kimi sosial xidmət dedikdə, hüquqi dövlətin vətəndaşların ayrı-ayrı kateqoriyalarının müdafiəsi üzrə sosial risklərin yaranmasının qarşısının alınmasına və ya baş vermiş sosial halın nəticələrinin aradan qaldırılmasına yönəlmiş fəaliyyəti başa düşülməlidir [7, s. 184-188].

Q.V.Süleymanova və Li Su En əhaliyə sosial xidməti sosial təminatın istiqamətlərindən biri kimi qeyd edərək göstərirlər ki, sosial xidmət sahəsi sosial sahənin və sosial müdafiə sisteminin tərkib hissəsi kimi müstəqilliyə də malikdir və öz infrastrukturuna əsaslanır, sosial müdafiənin digər altsistemlərindən onunla fərqlənir ki, burada fərd həm obyekt (xidmətləri əldə edən), həm də şəxsi sosial potensialını reallaşdıran subyekt kimi çıxış edir. Sosial xidmət sosial müdafiə sistemindən müstəqil sahə kimi yalnız sosial sahələrin (təhsil, səhiyyə, mədəniyyət və s.) əsas subyektləri ilə qarşılıqlı əlaqədə fərqləndirilə bilər [16, s. 11].

Göründüyü kimi, sosial xidmət özünəməxsus bir sistemdir. Sistem kimi sosial xidmət dinamik inkişafda olan müəssisələrin sadə toplusunu deyil, aşağıdakı elementlərin məcmusunu özündə əks etdirir:

1. sosial xidmət orqanlarının və müəssisələrinin müəyyən qarşılıqlı fəaliyyət qaydası, idarələrarası qarşılıqlı fəaliyyət, bütün müəssisələrin əhalinin müxtəlif təbəqələrinin dəstəklənməsinə yönəlmiş ardıcıl və əsaslandırılmış fəaliyyəti;

2. sosial xidmət müəssisələrinin təşkilati fəaliyyət forması, ümumi məqsəd, vəzifə və funksiyalar ətrafında birləşmiş müəssisələrin müəyyən quruluş üsulu, nizamlı vəhdəti;

3. yerli sosial xidmət müəssisələrinin fəaliyyətinin maliyyə-iqtisadi və maddi-texniki təminatı;

4. yerli sosial xidmətlərin fəaliyyətinin çoxsəviyyəli elmi-metodiki və kadr təminatı;

5. sosial xidmətlərin təşəkkülü və inkişafı üçün şərait yaradan normativ hüquqi bazanın formalaşma dərəcəsi;

6. sosial xidmətlərin təşəkkül tapmasına yönələn səylərlə sosial xidmət sahəsində əldə edilən və ilk növbədə, müştərilərin məmnunluq dərəcəsində, sosial xidmətlərin səmərəliliyində ifadə olunan nəticələrin qarşılıqlı nisbəti [24].

**Sosial xidmətin prinsipləri**

Hər bir sosial-hüquqi institut kimi sosial xidmət institutu da müəyyən prinsiplərə əsaslanır.

Azərbaycan dilinin izahlı lüğətində prinsipə müəyyən nəzəriyyənin, təlimin, əqidənin,

dünyagörüşünün, elmin və s.-nin əsas müddəası, çıxış nöqtəsi, müəyyən işdə rəhbər ideya, əsas istiqamət, gözlənilməli şərt kimi anlayış verilir [2, s. 382].

Fəlsəfədə bu prinsipləri ilkin, rəhbər ideyalar, davranışın əsas qaydaları adlandırırlar [25, s. 329; 15, s. 477].

Müasir şəraitdə sosial xidmət institutunun formalaşmasının əsasında bir sıra prinsiplər dayanır ki, onlara əməl olunması sosial xidməti idarəolunan sistemə çevirir. Buraya aşağıdakı prinsiplər aiddir:

– sosial xidmətin milliyyətindən, cinsindən, yaşından və digər hallardan asılı olmayaraq vətəndaşlar üçün bərabər müyəssərliyi prinsipi;

– könüllülük prinsipi;

– sosial adaptasiyaya öz qüvvəsi hesabına dəstək verilməsi prinsipi;

– ünvanlılıq prinsipi;

– sosial təhlükəli və köməksiz vəziyyətdə olan vətəndaşlara yardımın prioritetliyi prinsipi;

– humanizm, xeyirxahlıq, konfidensiallığa əməl olunması prinsipi;

– profilaktik yönümlülük prinsipi;

– qanunçuluq və beynəlxalq standartların nəzərə alınması prinsipi [22].

V.P.Yudinin fikrincə, sosial xidmət fəaliyyətinin həyata keçirilməsi aşağıdakı prinsiplərə əsaslanmalıdır:

– yardım reinteqrasiya xarakteri daşımalıdır;

– yardım göstərilməsi zamanı müştərilərin sorğularına fərdi yanaşılmalıdır;

– sosial yardım subsidiarlıq prinsipi əsasında həyata keçirilməlidir;

– yardım alan müəyyən fəallıq nümayiş etdirməlidir;

– sosial yardım mexanizmləri bütün digər dəstək üsulları (psixoloji, mənəvi, müqavilə, qanunvericilik və s.) tükəndikdən sonra "işə düşür" [26, s. 74].

Xarici ölkələrin (məsələn, Almaniyanın, İngiltərənin və s.) qanunvericiliyində sosial xidmətin bir sıra maraqlı prinsipləri təsbit edilmişdir: sığorta prinsipi (sosial xidmətin sosial sığorta ödəmələri hesabına sosial xidmətin maliyyələşdirilməsi, sosial sığorta ödəmələri ilə sosial xidmət növlərinin həcmi arasında qarşılıqlı əlaqə), təminat prinsipi (vergilər hesabına maliyyələşdirilmə), himayəçilik prinsipi (büdcə hesabına maliyyələşdirilmə və fərdi ehtiyaclara yönəltmə), universallıq (sosial xidmətin ölkənin bütün əhalisinə şamil olunması), ümumilik (bütün sosial risk hallarını əhatə etməsi), idarəetmənin vahidliyi (sosial xidmətin idarə edilməsi İctimai dövlət xidməti tərəfindən həyata keçirilir), göstərilən xidmətlərin eyniliyi (onlar əlavələrə və vəziyyətə görə eyni olmalıdırlar və gəlirlərin məbləğindən asılı olmamalıdırlar). Bütövlükdə isə, əksər ölkələrdə sosial xidmət sistemi üçün dövlətin yalnız ictimai birliklərin müəyyən fəaliyyət göstərməsindən sonra sosial xidmət göstərilməsinə dəstək prinsipi, yəni bazar münasibətləri şəraitində funksional mərkəzsizləşmə haqqında danışmağa imkan verən dövlətin səlahiyyətlərinin bir hissəsinin könüllü fəaliyyət göstərən təşkilatlara, yerli hakimiyyətlərə verilməsi və bunun təkcə insan hüquqlarının təmin olunmasına deyil, həm də insanlara normal həyat şəraitinin təmin olunmasına aid olduğu halda əsas rolun və məsuliyyətin dövlətə keçməsi prinsipi xarakterikdir.

Respublikamızda əhaliyə sosial xidmət göstərilməsi sahəsində hüquqi tənzimetmə əsasən "Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanunu ilə həyata keçirilir. Göstərilən qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndinə uyğun olaraq, Azərbaycan Respublikasında çətin həyat şəraitində yaşayan şəxslərə sosial xidmət göstərilməsi sahəsində dövlət siyasətinin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir və bu sahədə yaranan münasibətləri tənzimləyir.

"Sosial xidmət haqqında" qanunun 5-ci maddəsinə əsasən sosial xidmət sahəsində dövlət siyasətinin əsas prinsipləri aşağıdakılardır:

1. insan hüquq və azadlıqlarına riayət olunması;

2. humanizm, könüllülük, məxfilik, tolerantlıq, ünvanlılıq, ədalətlilik və əlçatanlıq;

3. diskriminasiyaya və stiqmatizasiyaya yol verilməməsi;

4. çətin həyat şəraitində olan şəxslərin (ailələrin) sosial xidmətə götürülməsində bərabər imkanların təmin edilməsi;

5. sosial inteqrasiya və əhalinin yaşayış keyfiyyətinin yaxşılaşdırılması;

6. ictimai iştirakçılığın təmin olunması [9].

İnsan hüquq və azadlıqlarına riayət olunması prinsipindən danışarkən, ilk növbədə, qeyd etmək lazımdır ki, sosial xidmət həm də hüquqi kateqoriyadır. Hüquqi kateqoriya kimi sosial xidmətin xarakterik xüsusiyyətlərindən biri ondan ibarətdir ki, sosial xidmətə olan hüquq vətəndaşın hüquqi statusunun ayrılmaz elementləri sırasına daxildir. Təbii olmaqla, bu hüquq vətəndaşı doğulandan ölənə qədər müşayiət edir (layiqli dəfn də bura daxildir). Bu zaman vətəndaşın yaşı, milli, sosial və digər xüsusiyyətləri heç bir əhəmiyyət kəsb etmir – hər kəsin sosial xidmət almaq hüququ vardır. Belə hüquqa yalnız ictimai faydalı əməklə məşğul olan şəxslər deyil, həm də işsizlər, ahıllar, əlilliyi olan şəxslər, uşaqlar, müəyyən yaşayış yeri olmayan şəxslər, məhkumlar, qaçqınlar, miqrantlar və s. malikdir [21, s. 34]. Qüvvədə olan qanunvericiliyə görə sosial xidmət müəssisəsinə yerləşdirilən çətin həyat şəraitində olan şəxslərin (ailələrin) aşağıdakı hüquqları vardır:

– sosial xidmət göstərilməsinin mümkünlüyü, qaydası və şərtləri, sosial xidmətin forma və növləri, habelə öz hüquq və vəzifələri barədə məlumat almaq;

– sosial xidmətə olan tələbatın müəyyən edilməsində və qiymətləndirilməsində iştirak etmək;

– sosial xidmətə olan tələbatın xarakteri nəzərə alınmaqla, sosial xidmət göstərən müəssisəni seçmək (hüquq pozuntusu törədən uşaqlar istisna olmaqla);

– sosial xidmət göstərilməsinə razılıq vermək və ya sosial xidmət göstərilməsindən imtina etmək;

– sosial xidmət göstərən subyektlər tərəfindən şərəf və ləyaqətinə hörmət olunmasını və humanist münasibət bəslənməsini tələb etmək, habelə onların hərəkətlərindən (hərəkətsizliyindən) inzibati qaydada və (və ya) məhkəmə qaydasında şikayət etmək;

– sosial xidmət müəssisələrində sanitariya-gigiyena tələblərinə cavab verən şəraitlə təmin olunmaq;

– sosial xidmət müəssisələrində daxili intizam qaydalarını pozmamaq şərtilə dini ayinlərin icrası üçün ayrıca yerlə təmin olunmaq;

– kütləvi informasiya vasitələri ilə təmin olunmaq;

– şəxsi xarakterli məlumatların konfidensiallığının təmin olunmasını tələb etmək [4].

Ünvanlılıq prinsipi sosial xidmətin konkret şəxsə göstərilməsini ifadə edir. Belə şəxslərin məlumat bazası əlillərin, ahılların və s. bu kimi sosial xidmətə ehtiyacı olan şəxslərin yaşayış yeri üzrə sosial müdafiə orqanları tərəfindən tərtib edilməlidir. Kimsəsiz uşaqlar, tənha, çoxuşaqlı ailələrə dair məlumatlara təhsil idarələri, qaçqınlara dair məlumatlara miqrasiya xidməti, müəyyən yaşayış yeri olmayan şəxslərə dair məlumatlara daxili işlər orqanları da malik olur.

**Əlçatanlıq.** Sosial xidmət onun bu və ya digər növünə ehtiyacı olan hər bir vətəndaş üçün real xarakter daşıyır. Bu prinsip sosial xidmətin hər hansı maneə olmadan əldə edilməsi imkanını ifadə edir. Sosial xidmətlərin ödənişsiz və qismən ödənişli həyata keçirilməsinə təminat verilir. “Sosial xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 25.2-ci maddəsinə görə çətin həyat şəraitində olan şəxslərə (ailələrə) dövlət sosial xidmət müəssisələrində və evlərdə sosial xidmət zəmanət verilmiş həcmdə ödənişsiz göstərilir.

Bələdiyyə sosial xidmət müəssisələri gəlir əldə etmək məqsədi güdmür və sosial xidmət haqqı sosial xidmət göstərilməsi ilə bağlı xərclərin, əməkdaşların əmək haqlarının və digər cari xərclərin həcminə uyğun olaraq bələdiyyə tərəfindən müəyyənləşdirilir (“Sosial xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 25.5-ci maddəsi)

**Könüllülük.** Sosial xidmət vətəndaşın (çətin həyat şəraitində olan şəxs) özünün, onun maraqları çərçivəsində valideynlərinin, qəyyumunun, himayəçisinin, həmin vətəndaşın razılığı ilə digər şəxslərin könüllü müraciəti əsasında həyata keçirilir. Vətəndaş istənilən vaxt sosial xidmətdə imtina edə bilər.

**Humanizm.** Sosial xidmətlər göstərilərkən vətəndaşlar sosial xidmət müəssisələrinin işçiləri tərəfindən özlərinə qarşı hörmətli və humanist münasibət hüququna malikdir. Stasionar müəssisədə olan şəxslər cəzaya məruz qalmamaq hüququna malikdirlər. Cəza və ya personalın rahatlığı üçün dərman vasitələrindən, izolyasiya tədbirlərindən istifadəyə, bir qayda olaraq, yol verilmir. Bu cür əməllər hüquqi məsuliyyətə səbəb olur.

**Konfidensiallıq.** Sosial xidmətlərin göstərilməsi zamanı sosial xidmət işçilərinə məlum olmuş şəxsi xarakterli məlumatlar peşə sirrini təşkil edir. Belə məlumatların yayılmasında təqsirli olan işçilər qanunla müəyyən edilmiş qaydada hüquqi məsuliyyət daşıyırlar.

Hüquq ədəbiyyatında çətin həyat vəziyyətinə düşmüş yetkinlik yaşına çatmamış şəxslərə sosial xidmətlər göstərilməsində prioritetlik (üstünlük) prinsipinin olduğu da göstərilir [12, s. 131].

Bəzən sosial xidmətin prinsiplərindən biri kimi onun ömürlük göstərilməsi qeyd olunur. Özünün təbiəti etibarilə vətəndaşlara sosial xidmətin ömürlük göstərilməsi prinsipi sosial təminatın ümumiliyi prinsipi ilə sıx surətdə bağlıdır. Bununla yanaşı, bu prinsip həm də vətəndaşların sosial təminatında humanizmi ifadə edir. Vətəndaşlara sosial xidmətin ömürlük göstərilməsi prinsipində müxtəlif hüquqi prinsiplərin uzlaşması onun xarakterik xüsusiyyətini təşkil edir. Ömürlülük prinsipinə görə, vətəndaşlar özlərinin bütün həyatı boyu sosial xidmət müəssisələrində yerləşə bilərlər. Qanunvericilikdə nəzərdə tutulmuş sosial xidmətləri və yardımı əldə edən vətəndaş sonralar çətin həyat vəziyyətinə düşməsindən asılı olaraq ölümə qədər sosial xidmət üzrə hüquq münasibətlərinin subyekti qismində qala bilər.

Formal baxımdan sosial xidmət qarşılıqlı əlaqədə olan sosial xidmət müəssisələri tərəfindən həyata keçirilən sosial fəaliyyət növüdür.

Beləliklə, bu məqalədə qeyd edilənləri ümumiləşdirərək aşağıdakıları göstərmək olar:

1. Sosial xidmət cəmiyyətdə sosial münasibətlərin optimallaşdırılmasının və sosial gərginliyin aradan qaldırılmasının ən səmərəli üsullarından biri kimi çıxış edir. Sosial xidmətin məqsədi kimi əhalinin sosial rifah halını yaxşılaşdıran, keyfiyyətli və əlçatan sosial xidmətlərlə təmin edilməsi çıxış edir. Sosial xidmətin məqsədləri cəmiyyətin tələbatları ilə müəyyən edilir.

Sosial xidmət sisteminin yaradılmasında məqsəd ehtiyacı olan əhali kateqoriyaları ilə müxtəlif sosial iş formalarının onlarla birbaşa kontakt halında təşkil etməkdən ibarətdir. Sosial xidmət sisteminin yaradılması əhaliyə əlçatan, keyfiyyətli və səmərəli sosial xidmətlərin göstərilməsində dövlət orqanları ilə qeyri-hökumət təşkilatlarının səylərinin əlaqələn- dirilməsinə və uzlaşdırılmasına müsbət təsir göstərir.

2. Sosial xidmət sisteminin inkişafında regional faktorlar mühüm rol oynayır. Ona görə də sosial xidmət yalnız ümumdövlət səviyyəli deyil, həm də regional səviyyəli institut kimi nəzərdən keçirilə bilər.

3. Sosial xidmət üçün aşağıdakı əlamətlər xarakterikdir:

– qanun normalarına əsasən müəyyən edilir;

– dövlət tərəfindən təminat verilir;

– daimi, dövri və ya birdəfəlik qaydada, pulsuz, qismən ödənişli, yaxud əvəzsiz təqdim edilir;

– əsasən çətin həyat şəraitinin davam etdiyi müddəti əhatə edir (və ya ömürlük xarakter daşıyır);

– özlərindən asılı olmadan hallarla əlaqədar onların həyat fəaliyyətini pozan və müstəqil surətdə aradan qaldıra bilmədikləri vəziyyətə (əlillik, ahıllıq yaşına görə özünə xidmət edə bilməmə, kimsəsizlik, nəzarətsizlik, aztəminatlılıq, işsizlik, müəyyən yaşayış yerinin olmaması, ailədə münaqişələr və sərt davranışlar, tənhalıq və s.) düşmüş şəxslərə təyin edilir;

– sosial xidmətin məqsədləri cəmiyyətin tələbatları ilə müəyyən edilir;

– sosial risklərin yaranmasının qarşısının alınmasına yönəlir;

– mülkiyyət formasından asılı olmayaraq sosial xidmətlər təqdim edən idarə və müəssisələr, habelə hüquqi şəxs yaratmadan sosial xidmət üzrə sahibkarlıq fəaliyyəti ilə məşğul olan vətəndaşlar tərəfindən göstərilir;

– sosial-məişət, sosial-tibbi, psixoloji-pedaqoji, sosial-hüquqi xidmətlər və maddi yar-

dım, sosial adaptasiya və reabilitasiya formalarında həyata keçirilir;

– çətin həyat şəraitinin davam etdiyi müddətdə (və ya ömürlük) təqdim edilir;

– insanların normal inkişafı və layiqli yaşayışı üçün zəruri olan tələbatlarının təmin edilməsi məqsədi daşıyır.

– profilaktik xarakter kəsb etməklə, cəmiyyətdə sosial münasibətləri optimallaşdırır və sosial gərginliyi aradan qaldırır.

Qeyd edilən əlamətlərin ümumiləşdirilməsi nəticəsində sosial xidmətə özlərindən asılı olmadan hallarla əlaqədar onların həyat fəaliyyətini pozan və müstəqil surətdə aradan qaldıra bilmədikləri vəziyyətə düşmüş şəxslərə normal inkişaf və layiqli yaşayış üçün zəruri olan tələbatların təmin edilməsi və bu sahədə sosial risklərin yaranmasının qarşısının alınması məqsədilə əsasən çətin həyat şəraitinin davam etdiyi müddətdə (və ya ömürlük) təqdim edilən sosial adaptasiya və reabilitasiya üzrə müəyyən olunmuş dövlət standartlarına müvafiq surətdə tibbi, sosial, psixoloji, hüquqi və digər yardımların daimi, dövri və ya birdəfəlik qaydada, pulsuz, qismən ödənişli, yaxud əvəzsiz göstərilməsi üzrə xüsusi təşkilatların qanunla müəyyən olunaraq dövlət tərəfindən təminat verilmiş fəaliyyəti kimi anlayış vermək olar.

4. Sosial xidmətin prinsipləri onun təqdim edilməsinin rəhbər müddəalarını və ilkin başlanğıclarını ifadə edir.

Hesab edirik ki, “Sosial xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə sosial xidmətin aşağıdakı prinsiplərinin də artırılması məqsədəmüvafiq olardı:

– sosial xidmət sahəsində insan və vətəndaş hüquqlarına dövlət təminatı;

– sosial xidmətlərin vətəndaşların fərdi tələbatları nəzərə alınmaqla təqdim edilməsi;

– vətəndaşların sosial xidmət sahəsində hüquqlarının təmin edilməsinə görə müvafiq dövlət hakimiyyəti orqanlarının və vəzifəli şəxslərin məsuliyyət daşıması;

– sosial xidmətin ömürlük göstərilməsi prinsipi.

Özünün təbiəti etibarilə vətəndaşlara sosial xidmətin ömürlük göstərilməsi prinsipi sosial təminatın ümumiliyi prinsipi ilə sıx surətdə bağlıdır. Bununla yanaşı, bu prinsip həm də vətəndaşların sosial təminatında humanizmi ifadə edir. Vətəndaşlara sosial xidmətin ömürlük göstərilməsi prinsipində müxtəlif hüquqi prinsiplərin uzlaşması onun xarakterik xüsusiyyətini təşkil edir. Ömürlülük prinsipinə görə, vətəndaşlar özlərinin bütün həyatı boyu sosial xidmət müəssisələrində yerləşə bilərlər. Qanunvericilikdə nəzərdə tutulmuş sosial xidmətləri və yardımı əldə edən vətəndaş sonralar çətin həyat vəziyyətinə düşməsindən asılı olaraq ölümə qədər sosial xidmət üzrə hüquq münasibətlərinin subyekti qismində qala bilər.

5. “Sosial xidmət haqqında” Azərbaycan Respublikası Qanununda sosial xidmət göstərən subyektlərin aşağıdakı məzmunda vəzifəsinin nəzərdə tutulması əhəmiyyətli olardı: “vətəndaş sosial xidmətdən imtina etdiyi halda onun özünə və ya qanuni nümayəndəsinə bu qərarın mümkün nəticələrini izah etmək”.

6. Fikrimizcə, “Sosial xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 21-ci maddəsinə aşağıdakı məzmunda normanın əlavə edilməsi məqsədəmüvafiq olardı: “Stasionar müəssisədə olan şəxslər cəzaya məruz qalmamaq hüququna malikdirlər. Cəza və ya personalın rahatlığı üçün dərman vasitələrindən, izolyasiya tədbirlərindən istifadəyə, bir qayda olaraq, yol verilmir. Bu cür əməllər hüquqi məsuliyyətə səbəb olur”.

**Ədəbiyyat:**

1. “Ahıllara sosial xidmət haqqında” Azərbaycan Respublikasının 22 iyun 2001-ci il tarixli Qanunu. Bakı: Qanun, 2009, 20 s.
2. Azərbaycan dilinin izahlı lüğəti. II cild / A.Axundovun redaktəsi ilə. Bakı: Çıraq, 1999, 412 s.

3. Azərbaycan dilinin izahlı lüğəti. III cild. Bakı: Çıraq, 2000, 416 s.
4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 noyabr 2013-cü il tarixli 320 №-li Qərarı ilə təsdiq edilmiş "Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası". http://e-qanun.az/framework/27064
5. Bayramov Ş.B. Sosial təminat hüquq münasibətləri. Bakı: Adiloğlu, 2009, 152 s.
6. Əliyev M.N. Sosial xidmət sosial təminat hüququnun institutu kimi. Bakı: Təknur, 2008, 192 s.
7. Hacıyeva M.A. Sosial xidmətin dövlətin sosial fəaliyyəti ilə nisbəti / Azər-baycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problem-ləri. Elmi məqalələr məcmuəsi. 16-cı buraxılış. Bakı, 2006, s. 184-188
8. İqdisadi nəzəriyyə / Prof. T.S.Vəliyev və Ş.S.Qafarovun redaktəsi ilə. Bakı: Bakı Universiteti nəşriyyatı, 2002, 446 s.
9. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu. http://e-qanun.az/framework/23195
10. Баркер Р. Словарь социальной работы. М.: Логос, 1994, 645 с.
11. Бастиа Ф. Экономические гармонии. Избранное. М.: Издательство «Эксмо», 2007, 120 с.
12. Буянова М.О. Социальное обслуживание граждан России в условиях рыночной экономии (теоретико-правовой аспект). М.: Проспект, 2002, 240 с.
13. Воробьева Э.Л. Социетальное развитие сферы социального обслуживания: Опыт регионального исследования: Дисс. … докт. соц. наук. М., 2003, 435 с.
14. Законодательство зарубежных стран по социальному обслуживанию населения. М: Минсоцзащиты России, 1994, 210 с.
15. Кондаков Н.И. Логический словарь. М.: Наука,1975, 721 с.
16. Ли СУ Ен. Задачи и направления совершенствования системы социального обеспечения в России: Автореф. дисс. … канд. соц. наук. Москва, 1997, 21 с.
17. Маркс К. Капитал. М.: Изд-во Российская политическая энциклопедия, 2015, 664 с.
18. Понятие и особенности социального обслуживания населения в РФ. http://odiplom.ru/lab/ponyatie-i-osobennosti-socialnogo-obsluzhivaniya-naseleniya-v-rf-kak-vida-socialnogo-obesp echeniya.html
19. Понятие, принципы и формы социального обслуживания. https://studme.org/53738/pravo/sotsialnoe _ obsluzhivanie
20. Право социального обеспечения Росси. Учебник / Под ред. К.Н.Гусова. М.: Проспект, 2001, 328 с.
21. Савинов А.Н., Зарембо Т.Ф. Организация работы органов социальной защиты. М.: Академия, 2013, 75 с.
22. Социальное обслуживание населения – ведущее направление социальной защиты населения. https://studme.org/1667020629409/ sotsiologiya/sotsialnoe _obsluzhivanie_naseleniya_veduschee_napravlenie_sotsialnoy_zaschity_naseleniya
23. Сташків Б.І. Право соціального обслуговування. Навч. посіб. К.: Знання, 2007, 567 с.
24. Сущность социального обслуживания. http://geolike.ru/page/gl_7333.htm
25. Философский словарь/Под ред. М.М.Розенталя. М.: Политиздат, 1972, 496 с.
26. Юдин В.П. Социальная защита: понятие, сущность, границы. Казань, 2011, 628 с.


***Açar sözlər:*** *sosial təminat, sosial müdafiə, sosial xidmət, çətin həyat şəraiti, ahıllar, əlillər, sosial reabilitasiya, sosial xidmətin prinsipləri*

**Jeyran Rahmatullayeva**
*PhD candidate, Department of of Civil Service and Personnel Policy,*
*Academy of Public Administration under the President of the Republic of Azerbaijan,*
*Teacher of the department of socio-cultural activity,*
*Azerbaijan State University of Culture and Arts*

## APPROACHES TO THE CONCEPT OF SOCIAL SERVICE AND ITS PRINCIPLES

### SUMMARY

This paper analyzes the doctrinal approaches to the concept of social service and its principles. Social service is characterized as one of the most effective ways to optimize social relations and eliminate social tensions in society. The goals of social service are directly related to the needs of society. According to the author, social services can be considered not only at the national but also at the regional levels. The paper provides a comparative characteristic of the definitions of social services and on the basis of a generalized analysis of the data obtained, a distinctive definition of social service is revealed. The idea of establishing new principles new principles of social services in legislative mechanisms is proposed and justified. In order to improve the institution of social service, it is proposed to make other amendments to the Law of the Republic of Azerbaijan "On social services".

***Keywords:*** *social security, social protection, social service, difficult living conditions, the elderly, the disabled, social rehabilitation, principles of social service*

**Джейран Рахматуллаева**
*Диссертант кафедры Государственной службы и кадровой политики*
*Академии Государственного Управления при Президенте Азербайджанской Республики,*
*преподаватель кафедры социокультурной деятельности*
*Азербайджанского Государственного Университета Культуры и Искусства*

## ПОДХОДЫ К ПОНЯТИЮ СОЦИАЛЬНОЙ УСЛУГИ И ЕЕ ПРИНЦИПЫ

### РЕЗЮМЕ

В данной статье анализируются доктринальные подходы к понятию социальной услуги и ее принципы. Социальная услуга характеризуется как один из наиболее эффективных способов оптимизации социальных отношений и устранения социальной напряженности в обществе. Цели социальной услуги напрямую связаны с потребностями общества. По мнению автора, социальные услуги можно рассматривать не только на национальном, но и на региональном уровнях. Проводится сравнительная характеристика дефиниций социальных усслуг и на основе обобщенного анализа полученных данных дается выявляется отличительное определение социальной услуги. Предлагается и обосновывается идея законодательного установления новых принципов социальных услуг. С целью совершенствования института социальных услуг, в заключении данной статьи предлагается внести и другие дополнения в Закон Азербайджанской Республики «О социальных услугах».

***Ключевые слова:*** *социальное обеспечение, социальная защита, социальная услуга, принципы, социальная реабилитация*

G Ə N C T Ə D Q İ Q A T Ç I L A R
Y O U N G R E S E A R C H E R S

D Ö V L Ə T İ D A R Ə Ç İ L İ Y İ
P U B L I C A D M I N I S T R A T I O N

UOT 328;342,5;351/354
UOT 321:001.11

**VÜSAL QULİYEV**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət qulluğu və kadr siyasəti kafedrasının dissertantı**
*e-mail: vusal3006@gmail.com*

# ÖZƏL SEKTOR VƏ DÖVLƏTİN QARŞILIQLI FƏALİYYƏTİNİN ÖYRƏNİLMƏSİNƏ DAİR NƏZƏRİ YANAŞMALAR

Müasir cəmiyyətdə sosial-siyasi amillərin sosial-iqtisadi və siyasi institutlara dəyişikliklərə olan təsirinin nəzəri modelləşdirilməsi P.Burdyenin və digərlərinin tədqiqatlarına əsaslanır. Bu əsərlər institusional dinamikanın çoxfaktorlu təhlilinin metodoloji əsaslarını qoymuşdur. Sosial, iqtisadi, siyasi və digər məkanların institusionallaşmasında yeni dinamik və statik parametrlərin aşkarlanması üçün P.Burdye və D.Nortun yanaşmaları xüsusilə əsaslı rol oynayır. Bu metodoloji yanaşmaların tətbiqi bizə belə bir qənaətə gəlməyə imkan verir ki, özəl sektor və dövlət hakimiyyəti orqanları arasındakı münasibətlərin tədqiqinin predmet sahəsi təkcə formal institutların və publik praktikaların öyrənilməsindən ibarət deyil. İqtisadi kommunikasiyalar sferasının hakimiyyət kommunika-siyalarındakı dəyişikliklərə adaptasiyası prosesləri ilə bağlı olaraq bu sferanın daxilində baş verən struktur dəyişikliklərini kompleks şəkildə işıqlandırmağa imkan verən N.Lumanın sistem-nəzəri alətləri qloballaşma şəraitində özəl strukturların tarixi təkamül reallıqlarına münasibətdə perspektivli görünür.

Müxtəlif tipli sosial sistemlərdə özəl sektor və dövlət hakimiyyəti orqanlarının qarşılıqlı fəaliyyətinin struktur bağlılığı institusional olaraq müxtəlif cür təşəkkül tapa bilər. Lakin bir struktur bağlılıq çərçivəsində özəl sahənin rəqabətqabiliyyətliliyinə səbəb olmayan müəyyən institusional məhdudiyyətlərə baxmayaraq, digərində qəfil rəqabət üstünlükləri yarana bilər. Lumanın yaradıcılığını tədqiq edən A.V.Nazarçukun qeyd etdiyi kimi, "Luman politoloq, iqtisadçı və başqalarını sadəcə innovasiya tədqiqatları instrumentləri ilə deyil, həm də predmetə yeni baxışla təmin etməyə çalışmışdır" [11, s.136].

Sistem nəzəriyyəsi XX əsrin 60-cı illərinin əvvəllərində T.Parsons tərəfindən elmi dövriyyəyə daxil edilmiş "hakimiyyət" anlayışından istifadə edir [19, s.232]. O, hakimiyyəti kollektivdə öhdəliklərin yerinə yetirilməsinə nail olmağın ümumiləşdirilmiş imkanı (səmərəlilik) kimi nəzərdən keçirir və hakimiyyətə kommunikasiyanın rəmzi ümumiləşmiş vasitəsi tərifini verirdi. T.Parsons hakimiyyətin başlıca problemini kollektivdə qəbul edilmiş öhdəliklərin yerinə yetirilməsindən imtina halında neqativ sanksiyaların institusional tətbiqindən daha çox, kommunikasiyanın rəmzi ümumiləşmiş vasitəsi kimi hakimiyyətin özünün səciyyəvi xarakterində görürdü [19, s.237]. N.Luman qeyd edir ki, Parsons "rəmzi" anlayışı ilə mən və başqası (ego və alter) arasındakı fərqi, yəni sosial ölçünü göstərir... Bu fikir ondan ibarətdir ki, sosial həmrəyliyə yalnız o zaman

nail olmaq olar ki, özülü təşkil edən ümumilik bir deyil, daha çox şəraiti əhatə edən ehtiyata malikdir" [10, s.154].

Özəl sahə və hakimiyyətin qarşılıqlı fəaliyyəti anlayışına münasibətdə bu, o deməkdir ki, bu münasibətlər qarşılıqlı gözləntilərə arxalanır, ikitərəfli etimadın müəyyən səviyyəsini nəzərdə tutur. Təbiidir ki, ixtilaflar gözləntilərin uyğunlaşmamasından yaranır və bunu da həddən artıq yüksəlmiş, yaxud endirilmiş gözləntilər törədir. Bunun nəticəsində yaranan qeyri-müəyyənlik sosial sistemdə etimadın səviyyəsinə təsir edir.

Parsonsa görə, kollektivi formalaşdıran fərdlər üzərlərinə müxtəlif öhdəliklər götürürlər. Mümkündür ki, bəzi fərdlər onların maraqlarına cavab verməyən öhdəliklər götürə bilər və ya onların maraqları qəbul etdikləri öhdəliklərlə ziddiyyət təşkil edə bilər [18, s.340]. Lakin bizim üçün önəmlisi hakimiyyətdəkilərin və tabeçilikdə olanların müxtəlif maraqlarının yarandığı hallar deyil, kollektivdə öhdəliklərin məcburi sayılmasıdır. T.Parsonsun və N.Lumanın kommunikasiyaların rəmzi ümumiləşdirilmiş vasitələri nəzəriyyəsinə əsasən, hakimiyyət – sosial sistemdə fəaliyyətləri tənzimləyən kommunikasiyaların rəmzi ümumiləşmiş vasitəsi kimi başa düşülür [18, s.340]. Bu nəzəri tərif cəmiyyətdə hakimiyyət münasibətlərinin qeyri-sabitliyi və tərəddüdləri ilə bağlı hakimiyyət problemlərini daha məhsuldar təhlil etməyə imkan verir. Bundan fərqli olaraq ənənəvi kauzal nəzəriyyələrdə isə hakimiyyət – qarşılıqlı münasibətlərin fərdi və ya qrup kontekstlərində hakimiyyətdə olanların tabelikdə olanlara müəyyən təsir göstərmək kimi səciyyəvi xüsusiyyəti olaraq başa düşülür.

XX əsrin axırlarında inkişaf etmiş, sonradan isə inkişaf etməkdə olan ölkələrdə infrastruktur obyektlərinin inşası və idarəedilməsi tədricən özəl strukturlara verildi. Bu arada baza mülkiyyət münasibətləri əksər hallarda dəyişmirdi: dövlət özəl sektora yalnız istifadə hüququnu verirdi, obyektlərə sahiblik hüququnu isə özündə saxlayırdı. Eyni zamanda mərkəzi orqanlar və yerli idarəetmə strukturları infrastruktur obyektlərinin vacib həyati təminat sistemləri kimi xüsusi yerini nəzərə alaraq, özəl operatorların fəaliyyətinə tənzimləmə və nəzarət funksiyalarını gücləndirir, bunun üçün qanunverici və təşkilati-idarəetmə bazasını təkmilləşdirirdilər [3, s.71].

Apardığımız tədqiqatla bağlı çağdaş Rusiya cəmiyyətində özəl sektorun institusionallaşmasının nəzəri-metodoloji problemləri ilə bağlı Rusiya siyasi elminin araşdırmaları da maraqlıdır. M.H.Afanasyev, A.V.Kiva və başqalarının tədqiqatlarında müasir Rusiya cəmiyyətində özəl sektor fenomeninin konseptuallaşmasının variativliyi məsələlərini dəqiqləşdirməyə imkan verən nəzəri yanaşmalar ümumiləşdirilmişdir [9, s.18]. Lakin bu zaman baza anlayışlarının məzmununun və sahibkarlıq institutunun özünün təfsirində nəzəri konvensionallığın olmaması kifayət qədər aydın görünür. Sahibkarlıq fəaliyyətinin funksional parametrlərinin xüsusiyyətləri və motivasiya strukturu ilə tez-tez dəyişilən özəl birliklərin institusional səciyyəsinin təsvirində nəzəri çərçivələr dəqiq ifadə olunmamışdır.

Müasir siyasi sistemdə özəl sektor və dövlətin qarşılıqlı əlaqələrinin prinsipial olaraq bir-birindən fərqlənən iki modeli mövcuddur: plüralistik və neokorporatist. Həqiqətdə isə onların heç biri tam halda fəaliyyət göstərmir. Dünyada mövcud olan konkret nümunələr çox zaman hər iki modelin hansısa şəkildə qarışmasından və qovuşmasından ibarətdir. Lakin bütün hallarda bir modelin digəri üzərində üstünlüyünü müşahidə etmək olar. Hazırkı tədqiqat çərçivəsində funksional təmsilçilik konsepsiyası maraq kəsb edir. İki əsas modellə – maraqların irəliləməsində iki əsas yanaşmanı əks etdirən plüralistik və korporatist modellərlə ifadə olunan burada başlıca ayırıcı əlaməti dövlətin rolu təşkil edir. Alimlərin əksəriyyəti F.Şmitterin verdiyi göstəriciləri bu modellərin daha nüfuzlu tərifi hesab edirlər. Belə ki, onun fikrincə, plüralistik model "təmsilçilik maraqları sistemidir" [20, s.96]. Burada tərkibi müəyyən edən vahidlər qeyri-məhdud sayda müstəqil,

məcburi olmayan, bir-biri ilə rəqabət aparan, iyerarxik asılı və özünütəyinedən strukturlardan təşkil olunmuşdur. Onlar dövlət tərəfindən xüsusi şəkildə lisenziyalaşmır, tanınmır, subsidiya edilmir, yaradılmır və heç cür nəzarət altında olmurlar... və bu maraqların təmsil olunması üçün inhisara malik deyillər". Plüralistik model metodoloji olaraq ona əsaslanır ki, ictimai sistem və onun hissələri koordinasiya asılılığındadırlar və deməli, bütöv bir sistemin hansısa hissəsinin hakim rolu istisnadır.

Özəl sahə və dövlətin qarşılıqlı fəaliyyətinin plüralistik modeli aşağıdakı mədəni-tarixi xüsusiyyətlər kontekstində formalaşan ingilis-amerikan ənənələrinə əsaslanır: əhalinin əsas hissəsinin sosial-iqtisadi davranışının üstün prinsipi kimi – individualizm. Rəqabət inkişafın zəruri şərti və hərəkətverici qüvvəsi kimi nəzərdən keçirilir. Bütün iqtisadi agentlərin rəqabət aparması üçün şərait yaradılması işgüzar etikanın və tənzimləmə sisteminin əsası sayılır. Rəqabət özü isə iqtisadi inkişafın bazis prinsipi kimi nəzərdən keçirilir, gəlir bütün digər göstəriciləri ötüb keçərək onun uğurluluğunun əsas göstəricisi kimi qəbul olunur. "Dövlət kənar qüvvə kimi nəzərdən keçirilir, onun rolu işgüzar cəmiyyətin özünün öhdəsindən gələ bilməyəcəyi nizamlama qaydalarının, ixtilafların həllinin (özəl sektorla birgə) işlənməsindən və beynəlxalq bazarlarda milli biznesin dəstəklənməsindən ibarətdir" [6, s.106]. Dövlətin iqtisadi agent kimi iqtisadiyyata müdaxiləsi qətiyyən məqsədəuyğun sayılmır.

Beləliklə, özəl bölmə və dövlətin qarşılıqlı fəaliyyətinin plüralistik modelinin əsas elementləri bunlardır:

– siyasətə təsir göstərmək uğrunda öz aralarında rəqabət aparan çoxsaylı təzyiq qrupları;

– adekvat olaraq öz üzvlərinin reaksiyasını nəzərə alan təzyiq qruplarında liderlik;

– təzyiq qruplarından asılı olmayan dövlət.

Bu qruplar dövlətə öz təkliflərini irəli sürməkdə davam edə bilərlər və bu təkliflərdən bəziləri hətta institusionallaşa bilər. "Plüralistik modeldə dövlətə əhəmiyyətli dərəcədə passiv rol ayrılmışdır: o, hazırkı zamanda cəmiyyətin daxilində təzyiq qrupları arasındakı balansı əks etdirən qərarlarına uyğun olaraq məhdud ehtiyatların bir hakimiyyət olaraq bölüşdürülməsi ilə məşğul olur" [6, s.108].

Özəl sektorda ixtilafların həllində başlıca metodun əsas üsulu korporativ münasibət iştirakçılarının müxtəlif qrupları arasında məhkəmə çəkişmələri ilə üzləşmişdir.

Özəl sahənin və dövlət orqanlarının qarşılıqlı fəaliyyətinin korporatist və ya neokorporatist modeli aşağıdakı mədəni, iqtisadi, sosial və tarixi xüsusiyyətlər kontekstində formalaşmışdır: müxtəlif peşə və sosial qrupların tərəfdaşlığına və əməkdaşlığına doğru oriyentasiya (kooperasiya kapitalizmi), işgüzar etikanın əsasını rəqabət deyil, əməkdaşlıq təşkil edir. Əsasən əldə olunmuş həyat səviyyəsinin təminatına oriyentasiya, mümkün sarsıntı və itkilərin qarşısının alınması, özəl sahədə uğursuzluqlardan yaxa qurtarmaq cəhdi. Ayrıca şəxsiyyət və ya şirkətin uğuru deyil, bütövlükdə milli iqtisadiyyatın sabit və müvəffəqiyyətli inkişafının təminatı başlıca məsələ hesab edilir. Formalaşmış işgüzar etika şirkətin gəlirliliyinin təminatına biznesin son qəti hədəfi kimi deyil, bir şərti kimi baxır. Sosial öhdəliklər zəruri hallarda biznesin aparılmasında dəyişikliklər etmək üçün həddən artıq mühüm amil hesab edilir. Rəqabət inkişafın vacib şərti kimi nəzərdən keçirilir, lakin bütövlükdə iqtisadiyyatın maraqlarının təmin olunması üçün müəyyən hallarda onun məhdudlaşdırılmasının mümkünlüyü və zəruriliyi istisna edilmir.

Korporativ ənənədə dövlət ümumi oyun qaydalarının işlənməsini və onlara riayət olunmasını təmin edən mühüm iqtisadi agentdir [6, s.110]. Həmçinin, bütövlükdə cəmiyyət qarşısında böyük sosial öhdəliklər daşıyan və ona görə də özəl sektora qarşı müvafiq tələblər irəli sürmək hüququ olan qüvvə kimi nəzərdən keçirilir. İşgüzar sahədə ixtilaflar yarandığı təqdirdə onların həllinin daha əhəmiyyətli hesab edilən üsulu əsas maraq qrupları arasında razılaşmaya nail olunmasıdır. Məhkəməyəqədərki qərarlara nail olunmasında bütün üsullar

tükənəndə məhkəmə prosedurları ixtilafların həllinin ən son üsulu kimi nəzərdən keçirilir.

Korporativizm nəzəriyyəsi Qərb siyasi fikrində bir çox onilliklərdir ki, araşdırılır. Məsələn, G.Hegel ilk dəfə "korporasiya" terminini tətbiq edib. Onun fikrincə, korporasiya cəmiyyət və dövlət arasında bağlayıcı zümrə kimi çıxış edir və sadəcə şəxsi maraqları ifadə etməli deyil, həm də dövlətin və cəmiyyətin rifahı naminə xidmət etməlidir [7, s.343].

Lakin korporativizm nəzəriyyəsi məhz XX əsrdə əsaslı şəkildə inkişaf etmişdir. Maraqların təmsil edilməsinin korporativ modelinin F.Şmitterin tərifində isə təzahürün "giriş" parametrlərinə, hər şeydən öncə modelin təşkili və fəaliyyət göstərməsi prinsiplərinə əsas diqqət verilmişdir [16, s.15].

Lakin XX yüzilliyin 60-70-ci illərində Avropanın kiçik ölkələrində: Avstriya, Finlandiya, İsveç, Niderland və Norveçdə yeni korporativizm (neokorporativizm) formalaşdı. Neokorporativizmin ("liberal") özündən əvvəlki korporativizmdən fərqi ondan ibarətdir ki, maraq qruplarının bir növü kimi korporativ assosiasiyaların dövlətlə qarşılıqlı əlaqəsi könüllüdür, hərçənd ki, onlar dövlət strukturlarına "quraşdırılmışdır". Korporatist dövlət konsepsiyası dövlət strukturlarının həlledici rolu nəzərə alınmaqla, korporatist və dövlət strukturlarının sıx qovuşmasına əsaslanır.

F.Şmitter korporatist (neokorporatist) modeli "maraqların təmsilçiliyi sistemi kimi səciyyələndirir [16, s.16]. Onun tərkib hissələri liderlərin seçiminə, tələb və meyillərin artikulyasiyasına məlum nəzarət əvəzinə onların öz sahələrində təmsilçiliklərinə monopoliya xüsusiyyəti verən dövlət tərəfindən rəsmən tanınmış, yaxud icazə verilmiş (ya da sadəcə yaradılmış) bir neçə xüsusi, məcburi, rəqabətsiz, iyerarxik nizamlanmış, funksional olaraq müxtəlif dərəcələrdən (strukturlardan) təşkil olunmuşdur".

A.Kouson korporativizmi "səciyyəvi sosial-siyasi proses kimi təyin edir. Onun gedişində birləşmiş funksional maraqları təmsil edən təşkilatlar siyasi qərarlar hazırlamaq və qəbul etmək, sonradan isə onları gerçəkləşdirmək məqsədilə dövlət orqanları ilə qarşılıqlı əlaqələrə girirlər" [20, s.9].

C.Lembrux ölkələri korporativizmin inkişaf səviyyəsinə görə bölmüşdür. "Güclü" korporativizm ölkələri qrupuna Avstriya, İsveç və Niderland daxil olmuşdur. "Orta" korporativizmli ölkələrə Danimarka, Almaniya və Böyük Britaniya aid edilmişdir. Fransa zəif korporativizmlə fərqlənmişdir [20, s.51].

Yuxarıda deyilənlərə əsaslanmaqla, özəl sektor və dövlətin qarşılıqlı fəaliyyətinin korporativist modelinin əsas elementləri olaraq aşağıdakıları qeyd etmək olar:

– ayrı-ayrı fərdlərin deyil, maraq qruplarının mövcudluğu.

Bu qruplar bütövlükdə özəl sektoru təmsil edən güclü təşkilata malik müəyyən iyerarxik sistemdə təşkil olunmuşlar;

– bəzi assosiasiyaların imtiyazlı vəziyyəti və onların qərar qəbul edilməsinə təsir imkanları;

– dövlət ümumi oyun qaydalarının işlənməsini və bunlara riayət olunmasını təmin edir, eləcə də bütövlükdə cəmiyyət qarşısında böyük sosial öhdəliklər daşıyan və bu səbəbdən də özəl sektora müvafiq tələblər irəli sürmək hüququ olan qüvvə kimi nəzərdən keçirilir.

F.Şmitterin qiymətləndirməsinə görə, C.Lembrux özünün neokorporativizmə verdiyi – "əsasən iqtisadiyyat sahəsində dövlət siyasətinin hazırlanmasında iştirak edən və qruplararası kooperasiyanın yüksək səviyyəsi ilə fərqlənən böyük mütəşəkkil qrupların xüsusi tipi" tərifi ilə son nəticənin qiymətləndirilməsini, "çıxış"dakı təzahürlərin parametrlərini verir [20, s.16].

Neokorporativizm idarəçiliyin institusional formalarının mövcudluğunu nəzərdə tutur. Burada əsas iqtisadi maraqları təmsil edən təşkilatlar (adətən, bunlar həmkarlar ittifaqları və işverənlərin ittifaqlarıdır) cəmiyyətin idarə olunmasında dövlətə kömək etmək üzrə məsuliyyət və öhdəliklərin qəbulu əvəzinə, qanun layihələrinin və siyasi qərarların hazırlanmasında iştirak etmək üstünlükləri və imkanları qazanırlar.

E.A.Dmitriyevaya görə "Korporativizm adı altında ictimai həyatın təşkilinin elə bir modeli

başa düşülür ki, burada maraq qrupları və siyasi sistem arasındakı münasibətlər başlıca olaraq assosiasiyalar vasitəsilə gerçəkləşdirilir" [8, s.66]. Ona görə də belə hesab edilir ki, bütün korporasiyalar (bəzi ölkələrdə bu, hətta qanunla nəzərdə tutulub) biznes assosiasiyalarına məxsus olmalıdır. Biznes assosiasiyaları da öz növbəsində bütövlükdə özəl sektoru təmsil edən güclü təşkilata malik müəyyən iyerarxik sistemdə təşkil olunmalıdırlar.

Lakin F.Şmitterin təklif etdiyi model neoplüralizm konsepsiyasına əsaslanan dövlətə daha ciddi tənqidi yanaşmaları nəzərə almadan qeyri-mükəmməl olacaq. Robert Dal, Çarlz Lindblom və C.K.Gelbreyt kimi nəzəriyyəçilər belə bir qənaətə gəlmişlər ki, müasir industrial dövlətlər cəmiyyət tərəfindən təzyiqlərə qarşı klassik plüralizmin güman etdiyinə nisbətən daha mürəkkəb və daha az həssasdırlar. Məsələn, onlar iddia edirlər ki, bütün ictimai qruplar arasında liberal bazar iqtisadiyyatında ən çox nüfuzlusu biznes təmsilçiləridir. Biznes digər maraqlarla müqayisədə hökumət strukturlarının verdiyi imtiyazlardan daha çox istifadə edir və cəmiyyətin digər qruplarının heç biri onunla rəqabət aparmaq iqtidarında deyil [15, s.113].

Çarlz Lindblom özünün "Siyasət və bazarlar" kitabında biznesin başlıca işverən qüvvə və kapital qoyuluşlarının mənbəyi olaraq dövlət orqanlarına onların ideoloji təmayülündən və proqram bəyanatlarından asılı olmayaraq hər hansı şəraitdə çox güclü təsir göstərdiyini ətraflı təhlil etmişdir.

**Ədəbiyyat:**


1. Ələkbərov U.K. İnklüziv inkişafın idarə edilməsinin əsasları. Bakı: Təhsil, 2018, 216s.
2. Ələkbərov U.K. İnsan inkişafının əsasları. Ali Məktəblər üçün dərslik. Bakı, Aspoliqraf, 2016, 280 səh.
3. Həbibova Z.Z., Abdullayeva M.V. Dəyişikliklərin idarə olunması və dövlət idarəçiliyi. Bakı: Təhsil, 2018.
4. Rehimli R. Azerbaycan Devlet Personel Yönetimi (Azerbaycan dövlet qulluğu sistemi). Kültür Ajansı Yayınları, Ankara, 2011, 256s.
5. Dövlət idarəçilik nəzəriyyəsi. Dərslik - Bakı, Elm və təhsil, 2010.
6. Большаков С.Н., Большакова Ю., Институционализация отношений между государством и бизнесом: тенденции и приоритеты // «Человек и труд», № 5/2011
7. Гегель Г.В.Ф. Энциклопедия философских наук. В 3 т. Т. 3. Философия духа. – М. : Мысль, 1977
8. Дмитриева Е.А., Лоббирование корпоративных интересов в органах государственной власти России // Власть, 2004, №4
9. Кива А. В Российская олигархия: общее и особенное // Общественные науки и современность, 2000, №2.
10. Луман Н. Медиа коммуникации. Пер. с нем. А. Глухов, О. Никифоров. Москва: Логос, 2005.
11. Назарчук А.В. Теоретико-политические воззрения Никласа Лумана // Политические исследования. 2006. №3. Стр. 136
12. Олейник А.Н., Русская власть: конструирование идеального типа. // Политическая концептология № 1, 2010г.
13. Паппэ Я.Ш., Галухина Я.С. Российский крупный бизнес. Первые 15 лет. Экономические хроники, ГУ-ВШЭ 2009
14. Полтерович В.М., Институциональные ловушки: есть ли выход? Обществ. Науки и современность, 2004, №3
15. Хейвуд Эндрю, Политология: Учебник для студентов вузов / Пер. с англ. под ред. Г.Г. Водолазова, В.Ю. Вельского. — М.: ЮНИТИ-ДАНА, 2005. — 544 с. — (Серия «Зарубежный учебник»)
16. Шмиттер Ф., Неокорпоратизм // Политические исследования. – 1997. №2.

17. Luhmann N. Soziale Systeme. Grundriss einer allgemeinen Theorie. Frankfurt am Main: Suhrkamp Verlag, 1984;
18. Parsons T. On the Concept of Political Power // Sociological Theory and Modern Society. New York, London, 1967.
19. Parsons T. On the Concept of Political Power// Proceedings of the American Philosophical Society, Vol. 107, No. 3. (Jun. 19, 1963)
20. Schmitter Ph. Still in the Century of Corporatism?/ Trends towards corporatist intermediation and policy making. Eds. Schmitter P, Lehmbruch G. - Beverly Hills, CA: Sage, 1979.

***Açar sözlər:*** *özəl sektor, dövlət hakimiyyəti, qarşılıqlı fəaliyyət, funksional təmsilçilik*

**Vusal Quliyev**
*PhD candidate, Department of of Civil Service and Personnel Policy,*
*Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

## THEORETICAL APPROACHES TO THE STUDY OF PRIVATE SECTOR AND STATE MUTUAL ACTIVITY

### SUMMARY

The paper analyzes theoretical approaches to studying the interaction between the private sector and the state. It is noted that in the modern political system there are two fundamentally different models of interaction between the private sector and the state: pluralistic and neo-corporate. It is emphasized that in fact none of them are fully functional. The concrete examples that exist in the world are often a mixture of the two. However, in all cases, one can observe the superiority of one model over another. The concept of functional representation is of interest in this study.

***Key words:*** *private sector, government, interaction, functional representation*

**Вусал Кулиев**
*Диссертант кафедры Государственная служба и кадровая политика Академии*
*Государственного Управления при Президенте Азербайджанской Республики*

## ТЕОРЕТИЧЕСКИЕ ПОДХОДЫ К ИЗУЧЕНИЮ ВЗАИМОДЕЙСТВИЯ ЧАСТНОГО СЕКТОРА И ГОСУДАРСТВА

### РЕЗЮМЕ

В статье анализируются теоретические подходы к изучению взаимодействия частного сектора и государства. Отмечается, что в современной политической системе существуют две принципиально разные модели взаимодействия частного сектора и государства: плюралистическая и неокорпоративная, ни одна из которых фактически не является полностью работоспособной. Конкретные примеры, которые существуют в мире, часто представляют собой смесь двух моделей. Однако во всех случаях можно наблюдать превосходство одной модели над другой. Концепция функционального представительства представляет интерес в настоящем исследовании.

***Ключевые слова:*** *частный сектор, правительство, взаимодействие, функциональной представительство*

**G Ə N C T Ə D Q İ Q A T Ç I L A R**
**Y O U N G R E S E A R C H E R S**

**B E Y N Ə L X A L Q M Ü N A S İ B Ə T L Ə R**
**I N T E R N A T I O N A L R E L A T I O N S**

UOT 327; 339.9

**SHABNAM HASANOVA**
**PhD candidate, Department of International Relations and Foreign Affairs,**
**Academy of Public Administration**
**under the President of the Republic of Azerbaijan**
*e-mail: shabnam.hasanova@gmail.com*

# CHARACTERISTICS OF SOUTHERN GAS CORRIDOR PROJECT AND MAIN SEGMENTS OF IT

The Southern Caucasus region has always been a strategic location in the policy agenda of Europe. The main reason for it was transporting of fossil fuels in a way to increase Europe's natural energy sources and meet the overall natural gas demands of the region. Through the years, one of the main policies of EU has been to increase the import of the natural gas resources to prevent potential and expected insecurity of future gas consumption of Europe. One of the most important attempts of EU regarding with this purpose is the Southern Gas Corridor (SGC) project which has a more than 50 countries in an involvement or with indirect interest. The project simply lines up in the world's most substantial energy-related mega projects with approximately including more than $42 billion budget in its creation. The Southern Gas Corridor (SGC) is an international initiative of EU to pipe natural gas from the Caspian and Middle Eastern regions to Europe. The main goal for EU in the project is to ensure safe and affordable supplies of natural gas and diversify its energy sources to raise dependence of EU countries in the energy security. Especially, EU is more interested in decreasing its dependency on Russia in the energy supply.  In this paper, the author mainly intends to clarify basic characteristics of the Southern Gas Corridor Project, to make clear its main aspects and give a brief history of the project.

The initial history of the Southern Gas Corridor dates back to the 1990s when exactly European Commission realized the region of Caucasus as a major target of collaboration in the development of its energy supplies. Lately, these initiatives came to proposal in the Second Strategic Energy Review of the European Commission (EC) in 2008 through the collaboration with targeted countries such as Azerbaijan, Turkey, Turkmenistan, Iraq, Georgia, Kazakhstan and Mashreq. Behind that, in the long term, if the political conditions are available, it is noted that regions such as Uzbekistan and Iran will also be involved in the further energy supply operations. SGC holds four major pipeline projects that spread around roughly 3.375 kilometers with operating 5 primary countries: Azerbaijan, Georgia, Turkey, Greece, and Italy. More detailed, it includes namely "Shah Deniz 2", "South Caucasus Pipeline (SCPX)", "Trans Anatolian Pipeline (TANAP)", "Trans Adriatic Pipeline (TAP)" that will directly ensure natural gas to the millions of the people around the region. Aside from that the total project will cause the creation of more than 1,800 permanent jobs in

the long duration of its construction process. Moreover, the project relatedly initiates the further development of the Shah Deniz II gas fields in order to provide more substantial production of natural gas. Simultaneously, the project also holds the expansion of Azerbaijan's Sangachal gas terminal and expansion of gas transmission network of Azerbaijan with Italy.

The construction of pipelines for ensuring better and secure transmission of natural oil and gas sources across partner countries is the most substantial part in the implementation of overall project. In this regard, the South Caucasus Pipeline is intended to operate from Caspian shore of Azerbaijan to Georgia and Turkey, as well as the Trans-Anatolian Pipeline (TANAP) from Turkey to the Greece. Actually, TANAP can be considered the most important part of the Southern Gas Corridor, as Azerbaijan is the main shareholder and investor in it. The state and main oil company SOCAR have been tackled most of its costs and construction initiative for the sake of bringing more improvements in the relations with Turkey. Additionally, it is estimated that the volumes that come from TANAP will increase to 23 billion cubic meters (bcm) by the year of 2023 and to 31 bcm by 2026. (4) In addition, the main operation area of TAP pipeline is estimated to be from Turkish border with Greece to southern part of the Italy. Through the TAP pipeline, it will be possible to deliver Caspian gas to the European destinations.

The Southern Gas Corridor comprises the following four projects: (i) operation of Shah Deniz natural gas-condensate field ("SD1" project) and its full-field development ("SD2'" project), (ii) the operation of the South Caucasus Pipeline ("SCP" project) and its expansion ("SCPX" project), (iii) the construction of the Trans-Anatolian Natural Gas Pipeline ("TANAP" project) and (iv) the construction of the Trans Adriatic Pipeline ("TAP" project) (SD2, SCPX, TANAP and TAP collectively, the "Projects").

Southern Caucasus Pipeline's length is about 692 kms. It starts in Baku, passes through Azerbaijan, Georgia and finishes in the Georgian-Turkey border (South Caucasus Pipeline (SCP), 2020). Azerbaijan is the starting point of the Southern Gas Corridor and consequently the South Caucasus Pipeline as well, being the supplier of the gas to be transported to Europe. This makes Azerbaijan a player in the energy security of Europe, giving it a political leverage and also economically contributing to Azerbaijan, bringing in significant revenues.

Georgia is the second country the SCP passes through on its way to Turkey. For Georgia, SCP is of a huge political and economic importance. SCP ran along with the Baku-Tbilisi-Ceyhan oil pipeline. The construction of the SCP helped Georgia cement its energy security by decreasing its dependence on Russia for gas imports. Also, SCP and expansion of its capacity subsequently have benefitted Georgia. Georgia has benefitted from the transit revenues, opening of new jobs, investment in the economy, all of which have contributed to its economic growth.

Turkey is the finishing point of the SCP and the starting point of the TANAP. Trans Anatolian Pipeline stretches across Turkey running for about 2000 kms before ending in the Turkish-Greek border. It is fed with the gas from the South Caucasus Pipeline. Azerbaijan's SOCAR owns most of the shares of the pipeline with the rest of the shares owned by Turkey's BOTAS. The construction of the pipeline, which was completed in 2018 involved an investment of about 8 billion dollars. (1) TANAP thus brought in significant investment in Turkey but also more importantly it strengthened the position of Turkey as a critical energy corridor, a role Turkey had been assuming by being at the juncture of various oil and gas pipelines including the South Stream. The pipeline as part of the stream of other hydrocarbon transportation projects such as Baku-Tbilisi-Ceyhan oil pipeline further

strengthened Turkey's relations with neighboring Georgia and Azerbaijan. (6)

The Trans Anatolian Pipeline joins the Trans Adriatic Pipeline (TAP) in the Turkish-Greek border. TAP is the last segment of the Southern Gas Corridor. Its construction started in 2016 and is still ongoing. This is the segment of the gas corridor passing through the EU's territories. It starts in Greece, passes through Albania and then runs beneath the depth of the Adriatic Sea before submerging on the Italian coast of the Adriatic Sea. It will stretch for 878 kms. The length of the Greek section of the pipeline will be 550 kms. For Greece, the construction of the pipeline will bring investments into its economy and contribute to the growth of GDP. Through TAP, Greece gets a chance to receive the Azerbaijani gas at more affordable prices and get benefits from the transit revenues. The Greek section of the pipeline has already been completed. The Albanian section of the pipeline will be 215 km, while the Adriatic segment of the pipeline will stretch for 105 km. The economic impacts of the pipeline for Albania will be particularly high given that Albania is a low-income country receiving not a lot of investments. Albania therefore currently is benefitting from both the investment in the construction of the pipeline. However, additionally, Albania is benefitting from the spillover effects of the project. For example, due to the ongoing construction of the project there has been about 60 million dollars investment in the roads in Albania. Moreover, when the construction of the project is going to be completed, Albania looks forward to receiving the Caspian gas through the TAP at affordable rates but also benefit from the transit revenues from the project. The ending point for the pipeline is Italy. Italy was the hardest "knot" for the Southern Gas Corridor for some period. It was related to the environmental concerns about the construction of the TAP pipeline or more precisely about the place the pipeline would emerge from beneath the Adriatic Sea and would join the gas distribution grid of Italy. Eventually, the concerns could be addressed. Italy by receiving the Azerbaijani gas looks forward to diversifying its gas imports and thus strengthen its energy security. For Italy, the project will mean an additional source to get gas at more affordable rates but also a chance to further strengthen its role as a strategic energy corridor in Europe. (7)

In global affairs, energy security and energy diversification is an important task for states, therefore all try to have them, including Azerbaijan and its partners. As it is a fact, continental Europe, the key partner of Azerbaijan, is facing difficulties in terms of energy supply due to the fact that Russia is monopolizing its energy market. Therefore, diversification is an important task for the Union. No one can deny the importance of South Caucasus region for the Europe: lots of projects, pipelines have already been established to provide energy security. Southern Gas Corridor is one of the most important projects.

It is through this gas corridor that the EU energy market will obtain alternative energy sources from Azerbaijan. It is also proposed that Turkey's relationship with the European Union be defined as a new type of partnership in the context of the transit route. Thus, they will cover Azerbaijan, Turkey, which acts as an "energy bridge" between Central Asia and the Caspian Sea and European content. Implementation of the Southern Gas Corridor over huge geographical distances attracts the interests of the European Union, as well as the United States. The United States supports the energy route diversification policy of the European Union it is also showing an interest in the region as a result of economic, political, and social issues.

The Minister of Energy Parviz Shahbazov informed the US Department of State Bureau of Energy Resources' Deputy Assistant Secretary for Energy Diplomacy Kurt Donnelly about the completion of the southern gas corridor in

autumn 2020. He thanked the United States for its support in this project and added about the segments and advantages of the southern gas corridor.

Regarding the budget issues, according to the statistics by Southern Gas Corridor CJSC, a total of about $ 32 billion has been allocated for the Southern Gas Corridor project to transport Azerbaijani gas to Europe. About USD was spent. In response to a request from Finans.az, Southern Gas Corridor CJSC said that by the end of September 2018, $ 18.2 billion was spent on the Shah Deniz 2 project and $ 4.3 billion on the South Caucasus Pipeline Expansion Project. $ 5.7 billion spent on TANAP project and € 3.2 billion on TAP project. The total cost of the Shah Deniz-2 project is $ 22.7 billion. $ 4.5 billion from SCPX. USD, TANAP's 8 bln. USD, and TAP - 4.5 bln. euros. Azerbaijan's share of project costs in the Southern Gas Corridor is $ 11.4 billion. dollars. According to the CJSC, the development of equipment and facilities for the development of the second phase of the Shah Deniz gas condensate field within the Southern Gas Corridor project will reach 91.7% by the end of September 2018, as well as the overall development of the South Caucasus Pipeline expansion. , 5%. 97.6% of the work on the construction of TANAP and 80.7% of the work on the construction of TAP has been completed. 51% of the company's shares are state-owned by the Ministry of Economy and 49% by SOCAR.

TAP is the last segment of Southern Gas Corridor project and with the completion of it Azerbaijan will fully be able to transport gas to Europe. On June 9, the press service of the Trans Adriatic Gas Pipeline's (TAP) consortium announced that building of the 105-kilometer offshore segment of the TAP, aiming to transport Azerbaijani gas to Europe, has been completed. This phase comprised Castoro Sei's offshore deployment of 36-inch pipes, Saipem's semi-submersible pipelaying vessel, the above-water interface with onshore assets in Albanian territory, and also hydrotesting facilities to guarantee secure and operational readiness. Operations to link the Italian and Albanian coasts started on January 2020, with tubes being welded and checked on board Castoro Sei, subsequently installed in a steady stretch to the bottom of the Adriatic Sea, beginning from the Italian shores to Albania. (11) Before it, on 20 May 2020, the Trans Adriatic Pipeline (TAP) AG commenced delivering the first natural gas into a 4-km segment of the pipeline in Albania, between the Albanian-Greek border and up to the Bilisht, TAP metering station. This is the primary phase of the pipeline testing process, in accordance with national and global safety and functional requirements, which guarantees that the system is fully secure and available for services. After this first segment is authorized, gas will begin to be slowly integrated into other parts of the Albanian pipeline and beyond. (12)

TAP's agenda is exclusively associated with upstream improvements, implying that precise date will heavily rely on the progress of the Shah Deniz Stage 2 improvement. (13) According to Vitaly Baylarbayov, SOCAR Deputy Vice President for Investment & Marketing, Trans-Adriatic Gas Pipeline planned to take gas from Azerbaijan's Shah Deniz field to European markets is to be completed at the end of 2020 year. Baylarbayov also noted "The issues that have occurred in the previous years have been fixed. Twenty-five-year agreement has been signed with Italy for the supply of Azerbaijani gas from second stage of the Shah Deniz field, with supply volume of 8 billion cubic meters annually. Currently, no obstacles are expected." (14)

TAP is crucial, notably for South-East Europe, where energy sector depends heavily on fossil fuels for power generation. "Via links with the Greece-Bulgaria Interconnector (IGB) and presumably the Ionian Adriatic Pipeline (IAP), TAP will be able to supply another 10 billion cubic meters of gas annually in the

upcoming years. The 878km long pipeline TAP linking to the Trans Anatolian Pipeline (TANAP) at the Greek-Turkish border will pass Northern Greece, Albania and the Adriatic Sea before arriving ashore in Southern Italy to connect to the Italian natural gas network," says Luca Schieppati, TAP Managing Director. (15)

All customers are queued up, expecting supplies. TAP will fulfill Italy's expanding natural gas requirements. In the following 10 years, Italy will lack much more gas than they currently possess. From that perspective, the Southern Gas Corridor's potential and its TAP segment are high enough to cover most of this possible shortage.

One of the European Union's main energy projects TAP costs 5 billion euros. Its shareholding is comprised of main energy companies SOCAR (20 percent), BP (20 percent), Snam (20 percent), Fluxys (19 percent), Enagás (16 percent) and Axpo (5 percent) are specialized in the implementation of multiple complex tasks. (16)

On 28 June 2013, the consortium Shah Deniz publicly declared that it had selected TAP. The high-profile opening ceremony for the pipeline took place on May 17, 2016, in Thessaloniki, Greece. TAP project will fulfill 33% of Bulgarian gas demands, 20% in Greece and approximately 10.5% in Italy. (17)

TAP is the last and European segment of the Southern Gas Corridor project which also envisages following three projects: Shah Deniz 2, Expansion of South Caucasus Pipeline (Baku-Tbilisi-Erzurum), the Trans Anatolian Pipeline (TANAP). (18)

A Joint Declaration on the Southern Gas Corridor was signed between the European Union and Azerbaijan in Baku back in 2011. (19) As a result, Azerbaijan has found itself in a considerably stronger situation in its relations with the EU. If in the beginning Azerbaijan was seen a building site, currently it is becoming main player who will define the shape and the future of the Southern Corridor. It also means that pipelines will offer Azerbaijan more powers in their dealings with the EU.

Azerbaijan's progressively significant role in the world's energy system, its distinct place in transnational energy markets as well as its active participation in Europe's energy security have an important influence on its global, regional, geopolitical and geo-economic position. Taking into consideration all these factors EU also pays special attention to its relations with Azerbaijan.

What is more, the implementation, execution and realization of any pipeline strategies are quite complicated system acquiring keystone skills such as designing effective organization, high level technical skills, forging meaningful collaboration, attention to details, world-class expert knowledge, forging meaningful collaboration and cautious stakeholder consultation. Despite all these challenges and difficulties TAP has definitely progressed a significant way. At the moment TAP is moving further into the construction stage and continues to progress on schedule. At the end of April 2020, the TAP project was 95.1% completed. (20)

Consequently, with the completion of TAP Azerbaijan is almost ready to contribute European Union's energy security. TAP is aimed at the strengthening the energy stability of Europe and leading to decarbonisation and gas supply diversification. (21)

**References:**


1. Temizer, M., & Erdogan, H. (2018). Turkey: Historic TANAP gas pipeline project goes live. Retrieved from TANAP: https://www.tanap.com/media/news/turkey-historic-tanap-gas-pipeline-project-goes-live/
2. Azerbaijan and the Southern Gas Corridor to Europe. (2014, January). Retrieved from https://jamestown.org/wp-content/uploads/2014/02/Conference_Report_-_Azerbaijan_and_the_Southern_Gas_Corridor_-_FINAL_web_version.pdf
3. SOUTHERN GAS CORRIDOR: THE GEOPOLITICAL AND GEO-ECONOMIC IMPLICATIONS OF AN ENERGY MEGA-PROJECT. (2018, March). Retrieved from https://www-jstor org.ada.idm.oclc.org/stable/pdf/26539576.pdf?ab_segments=0%2Fbasic_SYC-5152%2Fcontrol&refreqid=excelsior:11d19301ccce67d05a878d019a4259d6
4. Foundation, T. J. (2013). Azerbaijan and the Southern Gas Corridor to Europe. Implications for U.S. and European Energy Security .
5. South Caucasus Pipeline (SCP). (2020). South Caucasus Pipeline . Retrieved from South Caucasus Pipeline (SCP): https://www.sgc.az/en/project/scp
6. TANAP. (2020). TANAP. Retrieved from TANAP: https://www.tanap.com/media/news/turkey-historic-tanap-gas-pipeline-project-goes-live/
7. TAP. (2020). TAP. Retrieved from TAP: Trans Adriatic Pipeline route
8. "Cənub Qaz Dəhlizi"nə xərclənən vəsait bəlli olub. (2018, November 13). Retrieved from https://finans.az/xeber/cenub-qaz-dehlizi-ne-xerclenen-vesait-belli-olub.html
9. Rafiqoğlu, A. (2020, February 29). Ukraynalı ekspert: "Cənub Qaz Dəhlizi Azərbaycan üçün olduqca vacibdir". Retrieved from https://report.az/energetika/cenub-qaz-dehlizi-azerbaycan-ucun-olduqca-vacibdir/
10. Southern Gas Corridor to be completed by autumn of 2020. (2020, February 27). Retrieved from https://www.azerbaycan24.com/en/southern-gas-corridor-to-be-completed-by-autumn-of-2020/
11. https://www.azernews.az/oil_and_gas/165908.html
12. https://www.tap-ag.com/news-and-events/2020/05/22/tap-introduces-first-natural-gas-into-the-albanian-section-of-the-pipeline-as-part-of-its-testing-phase
13. https://www.tap-ag.com/the-pipeline/project-timeline
14. https://www.azernews.az/oil_and_gas/161795.html
15. https://www.azernews.az/oil_and_gas/161133.html
16. https://www.azernews.az/oil_and_gas/165106.html
17. https://report.az/en/energy/tap-construction-completed-95-1/
18. https://www.azernews.az/oil_and_gas/161795.html
19. https://en.president.az/articles/33774
20. https://www.tap-ag.com/pipeline-construction/project-progress
21. https://azertag.az/en/xeber/TAP_pipeline_project_91_percent_completed-1396872


***Keywords:*** *Southern Gas Corridor, Shah Deniz 2, South Caucasus pipeline, Trans-Anatolian gas pipeline, Trans-Adriatic pipeline*

**Şəbnəm Həsənova**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının doktorantı*

# CƏNUB QAZ DƏHLİZİ LAYİHƏSİNİN XARAKTERİSTİKASI VƏ ONUN ƏSAS SEQMENTLƏRİ

## XÜLASƏ

Dövlətlərin milli təhlükəsizliyində enerji təhlükəsizliyi həlledici yerə və rola malikdir. Məsələyə bu kontestdən yanaşdıqda Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycan həlledici rola malikdir. Bu baxımdan Avropanın meqa layihəsi hesab edilən Cənub Qaz Dəhlizi layihəsinin təşəbbüskarı Azərbaycan Respublikası olmuşdur. Hal-hazırda sözügedən layihənin reallaşması istiqamətində son tamamlanma işləri başa çatmaqdadır. Məqalədə də bu prosesin detalları ətrafında elmi təhlillər aparılmış və müvafiq nəticələr çıxarılmışdır. Məqalədə Cənub Qaz Dəhlizi layihəsinin əsas kompenentləri olan "Şahdəniz-2", Cənub Qafqaz Boru Kəmərinin genişləndirilməsi, Trans-Anadolu Boru Kəməri (TANAP) vəTrans-Adriatik Boru Kəməri (TAP) haqqında məlumat verilmişdir. Eyni zamanda məqalədə göstərilir ki, Azərbaycanın enerji təhlükəsizliyi siyasəti heç bir halda üçüncü dövlətin əleyhinə yönəlməmişdir.

***Açar sözlər:*** *Cənub Qaz Dəhlizi, Şahdəniz-2, Cənub Qafqaz Boru Kəməri, Trans-Anadolu Boru Kəməri, Trans-Adriatik Boru Kəməri*

**Шабнам Гасанова**
*Докторант кафедры Международных отношений и внешней политики Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

## ХАРАКТЕРИСТИКА ПРОЕКТА ЮЖНОГО ГАЗОВОГО КОРИДОРА И ЕГО ОСНОВНЫЕ СЕГМЕНТЫ

### РЕЗЮМЕ

Энергетическая безопасность играет ключевую роль в национальной безопасности государств. С этой точки зрения, Азербайджан играет решающую роль в обеспечении энергетической безопасности Европы. Азербайджанская Республика была инициатором проекта Южного газового коридора, который считается мегапроектом в Европе. В настоящее время реализация проекта "Южный газовый коридор" близится к завершению. В этом контексте в статье проведен научный анализ деталей данного процесса и сделаны соответствующие выводы.

Автор дает обширную информацию по ключевым компонентам проекта Южного газового коридора как Шах Дениз-2, расширение Южно-Кавказского газопровода, Трансанатолийский газопровод (TANAP) и Трансадриатический газопровод (TAP), в то же время показывает, чтополитика энергетической безопасности Азербайджана никогда не была направлена против третьей страны.

***Ключевые слова:*** *Южный газовый коридор, Шах-Дениз-2, Южно-Кавказский газопровод, Трансанатолийский газопровод (TANAP), Трансадриатический газопровод (TAP)*

## G Ə N C  T Ə D Q İ Q A T Ç I L A R
## Y O U N G  R E S E A R C H E R S

## B E Y N Ə L X A L Q  M Ü N A S İ B Ə T L Ə R
## I N T E R N A T I O N A L  R E L A T I O N S

UOT 321:330.342.151; UOT 327-027.21

**FAZIL ZEYNALOV**
**PhD candidate, Department of International Relations and Foreign Affairs, Academy of Public Administration under the President of the Republic of Azerbaijan**
*e-mail: f.zeynalov12@gmail.com*

# STATE SOVEREIGNTY AND INTERNATIONAL RECOGNITION

The formation of a political entity – that possesses constitutive elements (territory, population and political authority) and claims state status – as a state makes it necessary to have sovereignty. Only sovereignty grants the state the right to make a final decision and transforms it to the subject of international law as well as to an actor of the international system. Sovereignty and recognition are two issues closely interlinked and condition each other. Sovereignty is a main parameter for the state recognition, while recognition is an approval of characteristic of State sovereignty. According to James Caporaso, "The idea of sovereignty ... provided the ideological justification for ultimate control within a specific territory at the same time that it provided a basis for recognition from other states" [2, p.1]. Stephen Krasner notes that recognition of political territorial units constitutes the foundation for their international legal sovereignty [8, p.87].

Recognition, as a unilateral expression of state-will, bears the meaning of recognizing concrete factor a situation, which the state considers legal [6, p.88]. Recognition is the sovereign privilege of all subjects of international law. And it means that states are free in making decisions, that's to say in free will of recognition of any political unit. They can realise this unilaterally or collectivelly. Absence of codified rules of regulatory characteristics of international law gives full freedom to the states. As newly established situation affects their interests in any form, the decision about recognition is usually considered "political act" [4, p.519], but at the same time within this decision conformity of principles and norms with international law also must be considered [11, p.21].

The issue of which political unit is recognized as a new state, i.e. turning into the sovereign actor still retains its topicality and remains crucial in terms of protection of international legality in the context of conflictual situations. In other words, the process of recognition should be at least carried out on the basis of certain parameters. Nevertheless, it shows that previous discussions on recognition of states in academic circles, more precisely, the role of recognition in establishing the state are becoming relevant again. Basically, there are two international law theories of recognition of states, the constitutive and declarative:

• According to the constitutive point of view, the establishment of a state is not a customarily formal process and does not limit by having statehood criteria of political entity. Recognition is viewed as a constituent factor in emergence of a new state (turning of a political entity to a state is related to be recognized by others);

• According to the declarative point of view, recognition does not take part in formation of a state and not a demand for its creation; otherwise it is an approval of presence of established state. In this case, the main essence is the end of process of political entity having statehood elements [5, pp.551-552].

However, as each of these approaches has covered the partial reality, they have not been neutrally met. According to the lawyers recognition embraces declarative and constitutive features. Declarative feature confirms the existence of the state and his possession of main elements (territory, population and political authority), but constitutive feature gives a legal basis to his existence. The presence of main state elements does not create the condition of direct recognition [7, p.968].

Recognition emerging out as an important factor issues rights and obligations to a new state, turns it into the equal member of international community. The pressure undergone by the state affects the exercise of its sovereign powers in one way or another, but does not prevent it from continuing its existence as a state ("states persist not because of state capacity to rule internally and to control borders, but because of the stabilizing force conferred by international recognition" [2, p.7]). The pressures may vary:

• Military confrontations between armed groups within the state cause the central government to limit the execution of its authorities, but do not put an end to legal presence of a state within the internationally recognised borders;

• Participation in the process of regional integration, transfer of some sovereign competences do not deprive it of the right to make final decision;

• Leasing of a part of state territory during a certain period of time for the sake of state' economic profit (or due to other reasons) does not mean transferring of its sovereignty. State maintains the sovereignty over the same territory;

• Occupation of a part of state territory by the other state using illegal force carries a temporary character, violates the principles and norms of international law and requires the restoration of territorial integrity and borders of the state recognized by international community but exposed to occupation.

Development of international law in 20th century forms the recognition as a factor which conditions the necessity of observing to international legality and protection of legal pyramid. This highlights the consistency of conditions for the establishment of the state with legal framework. In other words, having the statehood criteria of a political entity claiming state status should be corresponding to principles and norms of international law. Recognition of political entity existing de facto and contrasting international legality is rejected. In spite of this, different states can unilaterally carry out the recognition of illegal political entities putting forward their egoistic interests. These cases can be seen in practice; however such recognition does not condition them to access to the sovereign states' club and not make legality expose to erosion, but pose a threat to regional security and peace, may lead to creation of hostility relations and war.

In many cases, the emergence of a new state is linked to changing of a current status of a state. Some states that gained independence following the collapse of the USSR cannot be considered as new states. For example, having existed as an independent state during 23 months in 1918-1920, Azerbaijan maintained its autonomous feature as a subject of federation under the USSR, and restored its sovereign independence after the USSR's

collapse. The process carried out within the framework of principles and norms of international law and international community recognized Azerbaijan's independence within its existing borders. As it is seen, the establishment of a sovereign national state is directly linked to the factor of collapse of the empire. Nevertheless, the formation of a new state outside the empire is possible only on the account of threat of national state' integrity and /or its presence. But international law regulates the strict framework of these cases. If factual presence in establishment of a new state would be reasoned not depending on legal terms and whether it is recognised or not, serious contrasts may appear in view of stability and future of international law, including international relations and even world may return back to "jungle situation" and its rules.

The situation in the occupied areas of Azerbaijan is not acceptable in terms of neither legal, nor political, and nor historical view. Illegality of this situation is firstly reflected in being contrast to prohibition of the use of force reflected in 4th Clause of 2nd Article of UN Charter. The Puppet state had been created in the occupied areas as a result of military aggression. The international community rejected to acknowledge these situations and continues to do so. We can cite following key facts in this regard:

• Changing of borders of a current state by using the force is an illegal act, in other words, violates the fundamental principles and norms of international law. For this purpose, UtiPossidetisJuris principle of international law pursues to prevent such illegal cases. International Court of Justice testifies to its usefulness in border dispute between Burkina Faso and Mali. It notes that "Its obvious purpose is to prevent the independence and stability of new States being endangered by fratricidal struggles provoked by the challenging of frontiers" [3, p.565]. Arbitrage comission of European conference for peace in Yugoslavia mentions on his judgement No 3 that, pre-independence administrative limits gain the characteristics of borders protected by international law[11, p.14];

• Stimson doctrine which is connected with the name of statese cretary of USA rejected definitely Japanese occupation of Manchuria and establishment of puppet state in 1932. The state secretary on note sent to the japanese government declares that, USA doesn't intend to recognize the situation (contract and agreement signed) created by means which are contradictory to the engagements and obligations of Paris Pact (or Briand-Kellogg pact) approved in 1928. This doctrine denies the occupation of territory as a result of using illegal military force and the recognition of puppet state that turns up. The affirmation of doctrine on the resolution approved by the General Assembly of the League of Nations created a condition for it togain a universal feature [5, p.557].

• The same approach has also been observed within the framework of UN. It was noted in Resolution N-2625 of General Assembly on friendship relations between states dated 24 October 1970 that any area obtained by using force or threat will not be legally considered (A/Res 2625 (XXV), New York, 24 October 1970).

• On the eve of collapse of former USSR it is reported in the statement dated 16 December 1991, adopted by Foreign Ministers of European Community (in that time it was not called European Union) that "the Community and its member states will not recognise the states established as a result of aggression" [10]. Similar statements have been made by the other European Organizations [11, p.14].

• At the same time dependance of recognition on the implementation of defined conditions stimulated the policy of "conditionality" to come to the agenda again. European Union tied the recognition of new states in post Soviet Union and Yugoslavia to the inviolability of borders, obligation of disarmament and conformity with protection of rights of the ethnic groups [6, p.92]. This policy was realised by great countries for the recognition

of newly established states on 19th century, but afterwards it was left aside. Its reapplication changed the essence of recognition and turned it to the "legal sanction tool" [6, p.94].

The above-mentioned details show that, recognition of situation established by the use of illegal force is unacceptable and accordingly sovereign states as the subjects of international law carry obligation not to recognize such situations. Several points should be noted:

• First of all, the conditions resulted in this situation and their compliance with international law have been confirmed during 20th century. In the past effectiveness was considered main criterion for recognition, but now international legality is considered primary. Recognition of situation of any territory is tied with the legality of its creation conditions, but not with its effectiveness [6, pp.94-95]. Joe Verhoeven mentions that starting with Stimson Doctrine unrecognition of occupation and annexation of territory of any state is not discussed in modern practice [11, p.14];

• Secondly, sovereign states have obligation not to recognize which has been turned into the reality of modern time. According to lawyers, "feeling doubt against the existence of obligation not to recognize a new state or the other situation established by the illegal use of force is not possible" [5, p.558]. Joe Verhoeven confirms that unrecognition becomes an obligation on states not to be considered joint in breach of legal norms in a context [11, p.35] in which unrecognition of illegal situations is applied generally in modern practice. Despite of that recognition is a discretionary act deriving from the sovereign feature of a state [11, p.36], unrecognition of illegal situations "turns into a tool supporting the effectiveness of international law" [4, p.522];

• Thirdly, this obligation has been enshrined in a document of International Court of Justice. It underlines the obligation of othe rcountries not to recognize illegal occupied situations regarding the South Africa's continued presence in Namibia illegal on its consultative opinion related to "Legal Consequences for States of the Continued Presence of South Africain Namibia" approved in 1971: "States Members of the United Nations are under obligation to recognize the illegality of South Africa's presence in Namibia and the invalidity of its acts on behalf of or concerning Namibia, and to refrain from any acts and inparticular any dealings with the Government of South Africa implying recognition of the legality of, or lending support or assistance to, such presence and administration" [9, p.58];

• Fourth, in the case if the conditions of created situation are not legal, refusal of states on recognition of this has been reflected on documents of many international or regional organizations [5, p.558].

Considering all these factors, it should be noted that occupation of the territories of Azerbaijan by use of illegal forces and establishment of puppet state therein roughly violates the principles and norms of international law. The illegal military intervention of Armenia have been reflected on the documents of international organizations, especially on the judgement made by European Court of Human Rights on the issue of "Chiragov and the others against Armenia" [1, p.71-73]. And all this gives us grounds to say that states must refuse to recognize the situation which is contradictory to the principles and norms of international law according to their obligation of unrecognition.

**Reference:**


1. Affaire Chiragov et autres c. Arménie, Arrêt du 16 juin 2015, Cour Européenne des Droits de l'Homme (Strasbourg).
2. Caporaso J. A. Changes in the Westphalian order: territory, public authority, and sovereignty, International Studies Review, vol. 2, №2, 2000.
3. Case concerning the frontier dispute (Burkina Faso/Republic of Mali), Judgment of 22 december 1986, I.C.J., Reports of judgments, 1986.
4. Danic O. L'évolution de la pratique française en matière de reconnaissance de gouvernement, Annuaire Français de Droit International, vol. 59, 2013.
5. Dinh N. Q., Daillier P. et Pellet A. Droit international public, Paris, L.G.D.J., 6ème édition, 1999.
6. Dupuy P.-M. Droit international public, Paris, Dalloz, 2000.
7. Goldsmith J. Review: sovereignty, international relations theory, and international law, Stanford law review, vol. 52, №4, 2000.
8. Krasner S. D. Sharing sovereignty: new institutions for collapsed and failing states, International Security, vol. 29, №2, 2004.
9. Legal Consequences for States of the Continued Presence of South Africa in Namibia (South West Africa) notwithstanding Security Council Resolution 276 (1970), Adrisory Opinion, I.C.J. Reports 1971.
10. Lettre datée du 17 décembre 1991, adressée au Secrétaire général par le Représentant permanent des Pays-Bas auprès de l'Organisation des Nations Unies, A/46/804, le 18 décembre 1991.
11. Verhoeven J. La reconnaissance internationale, déclinourenouveau? Annuaire français de droit international, vol. 39, 1993.

***Keywords:*** *sovereignty, state, recognition, Stimson Doctrine, the principle of uti possidetis juris, puppet state.*

**Fazil Zeynalov**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının dissertantı*

## DÖVLƏT SUVERENLİYİ VƏ BEYNƏLXALQ TANINMA

### XÜLASƏ

Dövlətin təşkil edici elementləri sırasına daxil olan suverenlik tanınma vasitəsilə öz ifadəsini tapır. Tanınma siyasi ərazi vahidinin beynəlxalq hüququn subyektinə çevrilməsini şərtləndirir, onun bərabərhüquqlu suveren aktor kimi digər aktorlarla beynəlxalq münasibətlərin tənzimlənməsində iştirak etməsinə imkan verir. Akademik çərçivələrdə aparılan müzakirələr, tanınmanın konstitutif və deklaratif xarakter daşıması haqqında fikirlər və ideyalar tanınmanın əhəmiyyətini azaltmır. Siyasi ərazi vahidinin suverenliyinin tanınması beynəlxalq hüququn prinsip və normaları çərçivəsində dəyərləndirilməlidir. Qeyri-qanuni vəziyyətin qəbuledilməzliyi onun tanınmasını da qeyri-mümkün edir. Suveren dövlətin bu imtiyazdan müəyyən şərtlər daxilində istifadə etməsi beynəlxalq sülh və təhlükəsizliyin qorunması üçün mühüm əhəmiyyət kəsb edir.

***Açar sözlər:*** *suverenlik, dövlət, tanınma, Stimson doktrinası, Uti Possidetis Juris prinsipi, qondarma dövlət*

**Фазиль Зейналов**
*Диссертант кафедры Международных отношений и внешней политики Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

## ГОСУДАРСТВЕННЫЙ СУВЕРЕНИТЕТ И МЕЖДУНАРОДНОЕ ПРИЗНАНИЕ

### РЕЗЮМЕ

Суверенитет, относящийся к числу государствообразующих элементов, находит свое выражение посредством признания. Признание обуславливает превращение политическо-территориальной единицы в субъект международного права, позволяет ему как равноправному суверенному актору, принимать участие в регулировании международных отношений с другими субъектами. Дискуссии, проводимые в академических рамках, мнения относительно конститутивного и декларативного характера признания, не умаляют его значения. Признание суверенитета того или иного политико-территориального образования должно оцениваться в рамках принципов и норм международного права. Наличие нелегитимной ситуации делает невозможным факт признания. Использование суверенным государством этой привилегии в рамках определенных условий, имеет важное значение с точки зрения защиты международной безопасности и мира.

***Ключевые слова:*** *суверенитет, государство, признание, доктрина Стимсона, принцип Uti Possidetis Juris, марионеточное государство*

G Ə N C   T Ə D Q İ Q A T Ç I L A R
Y O U N G   R E S E A R C H E R S

B E Y N Ə L X A L Q   M Ü N A S İ B Ə T L Ə R
I N T E R N A T I O N A L   R E L A T I O N S

UOT 327

**ÖMÜR KERİM MEHMETŞAH oğlu İŞIK**
**Bakı Slavyan Universitetinin doktorantı**
*e-mail: omurkerim@hotmail.com*

# TÜRKİYƏ VƏ AZƏRBAYCAN ARASINDA İQTİSADİ TƏHLÜKƏZİSLİK SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞIN GENİŞLƏNDİRİLMƏSİNDƏ TİCARƏT ƏLAQƏLƏRİNİN ROLU

Araşdırmalar göstərir ki, ticarət əlaqələri Azərbaycan – Türkiyə iqtisadi əməkdaşlığında da mühüm yer tutmuşdur. Mövzunu təhlil etməzdən əvvəl tərəflərin iqtisadi gücünə diqqət yetirək.

Belə ki, 2017-ci ilin aprel ayında Dünya Bankının "Dünyanın iqtisadi görünüşü Hesabatı"ndakı məlumatlarına görə, Türkiyə 2016-ci ildə iqtisadi gücünə görə dünyanın 13-cü və Avropanın 5-ci ölkəsi sayılmışdır [16]. Azərbaycan və Türkiyə arasında illik ticarət dövriyyəsi Azərbaycanın illik xarici ticarət dövriyyəsinin 2009-2017-ci illərdə 15%-ə qədərini, Türkiyənin illik xarici ticarət dövriyyəsinin isə təxminən 0,6-0,8%-ni təşkil edir. Bu mənada iqtisadi potensialının təsnifatına görə, Azərbaycan kiçik, Türkiyə isə iri iqtisadiyyata malik ölkə səviyyəsində səciyyələndirilir. ATİB-in hesabatına görə, Azərbaycan öz xarici ticarət əlaqələrində Türkiyəyə bir bazar kimi təmərküzləşdiyi halda; Türkiyə təbii olaraq daha iri iqtisadiyyata malik olduğu üçün daha iri regional və kontinental bazarlarda təmərküzləşib [11].

Azərbaycan-Türkiyə ticarət əlaqələri və sərmayə qoyuluşu ölkələrimizin, xüsusilə Azərbaycanın iqtisadi təhlükəsizliyinin təmin edilməsində mühüm yer tutmuşdur. Fikrimizi nə ilə əsaslandıra bilərik? Müstəqilliyin bərpasından sonrakı ilk illərdə keçmiş sovet respublikaları və sosialist ölkələr ilə iqtisadi bağların qırılması, Ermənistan tərəfindən münbit və qabaqcıl sənaye obyektlərinə malik torpaqların işğalı, neft və qeyri-neft sektorunun çökməsi, maliyyə böhranı və hiperinflyasiyanın tüğyan etməsi, həyat şəraitinin pisləşməsi gənc Azərbaycan Respublikasını çətin duruma salmışdı. Vəziyyəti yoluna qoyacaq və yeni iqtisadi sistemə kiçidi təmin edəcək daxili maliyyə potensialı ortaya çıxanadək kreditə, xarici kapital qoyuluşuna və sərmayə yatırımına ehtiyac vardı. Əlverişli investisiya mühiti və öhdəlikləri yerinə yetirə bilən etibarlı tərəfdaş imici olmadan xarici investisiyaları ölkəyə cəlb etmək, beynəlxalq iqtisadi əlaqələr qurmaq asan iş deyildi. Üstəlik Prezident B.Yeltsin postsovet məkanına Rusiya Federasiyasının "təbii" həyati mənafeyi zonası kimi baxaraq" [14, s.32] xarici dövlətlərin gənc respublikalar ilə geniş əlaqələr qurmalarını öz milli təhlükəsizliyi üçün başlıca hədəflərdən biri kimi qiymətləndirməsi, "Moskvanın iqtisadi maraqlarına zərbə kimi qiymətləndirməsi" [14, s.33] və buna əngəllər törətməsi də vəziyyəti

daha da mürəkkəbləşdirmişdi. Məhz belə bir situasiyada Türkiyənin Azərbaycana mal ixracını artırması, kredit verməsi, idxal-ixrac sərmayələr yatırtması, müştərək müəssisələrin qurulması istiqamətində ciddi səy göstərməsi və s. Azərbaycanın bazar iqtisadiyyatına keçidinə, yeni iqtisadi sistemə transformasiyasına təkan vermiş, bugünkü iqtisadi nailiyyətlərinin və iqtisadi təhlükəsizliyinin özəyi olmuşdur.

Statistik rəqəmlər göstərir ki, Azərbaycanın idxalında əsas tərəfdaşlarının siyahısında Türkiyə xüsusi çəkisinə görə 1992-ci ildə 9,24 %-lə 3-cü, 1995-ci ildə 21,05 %-lə, 1996-cı ildə 22,51 %-lə və 1998- ci ildə 20,4 %-lə 1-ci yeri [13], 2000-cı ildə 11,0 %-lə 2-ci yeri [13] tutmuşdur. Azərbaycanın ixrac tərəfdaşları arasında Türkiyə xüsusi çəkisinə görə 1992-ci ildə 8,46 %-lə 5-ci, 1995-ci ildə 4,15%-lə 9-cu, 1996-cı ildə 6,19 %-lə 4-cü, 1998- ci ildə 22,1 %-lə 1-ci yeri [4], 2000-cı ildə 6,0 %-lə 4-cü yeri [13] yeri tutmuşdur.

Türkiyənin postsovet türk cümhuriyyətlərindən ibarət ixrac tərəfdaşları arasında Azərbaycan xüsusi çəkisinə görə 1992-ci ildə 55,3%-lə 1-ci, 1993-cü ildə 38,3%-lə 2-ci, 1994-cü ildə 15,1%-lə 3-cü,1995-ci ildə 29,6%-lə, 1996-cı ildə 32,1%-lə, 1997-ci ildə 35,2%-lə, 1998-ci ildə 39,2%-lə, 1999-cu ildə 43,2%-lə və 2000-cı ildə 40,5%-lə 1-ci yeri tutmuşdur [15].

Türkiyənin postsovet türk cümhuriyyətlərindən ibarət ixrac tərəfdaşları arasında Azərbaycan xüsusi çəkisinə görə 1992-ci ildə 39,3%-lə 1-ci, 1993-cü ildə 17,9%-lə 3-cü, 1994-cü ildə 4,7%-lə 4-cü,1995-ci ildə 7,6%-lə 4-cü, 1996-cı ildə 12,9%-lə, 1997-ci ildə 14,6%-lə, 1998-ci ildə 11,2%-lə 2-ci, 1999-cu ildə 9,6%-lə 4-cü və 2000-cı ildə 15,2%-lə 3-cü yeri tutmuşdur [15].

Bu illərdə Türkiyədən Azərbaycana ən çox ixrac edilən mallar buğda unu, kimyəvi saf sükroz, marqarin, elektrik enerjisi, yumurta, telekommunikasiya qurğuları, bitki yağları, donorlar, sabunlar və taxıl üyüdən qurgulardır [1].

İndi isə 2001-2010-cu illərdə iki ölkə arasındakı idxal-ixrac əməliyyatına dair statistik rəqəmlərə diqqət yetirək. Belə ki, Azərbaycan – Türkiyə əmtəə dövriyyəsi dinamik inkişaf tempi ilə yüksələrək təxminən 7-8 dəfə artmışdır. Türkiyə ilə Azərbaycan arasında ticarət dövriyyəsi 2001-ci ildə 216 milyon ABŞ dolları olduğu halda, 2005-ci ildə 589 milyon ABŞ dolları, 2010-cu ildə isə 942 milyon ABŞ dolları təşkil edib. Ən yüksək göstərici 2007-ci ildə 1,7 milyard ABŞ dolları təşkil etmişdir. Bu ticarət dövriyyələri Azərbaycanın ümumi xarici ticarət dövriyyəsinin müvafiq olaraq 2001-ci ildə 3,7 milyard ABŞ dollarının 5,8%-ni, 2005-ci ildə 8,6 milyard ABŞ dollarının 7%-ni, 2010-cu ildə isə cəmi 28,0 milyard ABŞ dollarının 3,3%-ini təşkil etmişdir. 2001-ci ildə Azərbaycanın idxal əməliyyatlarının 2001-ci il üzrə 10,4%-i [3, s.634], 2005-ci il üzrə 7,43%-i [3, s.692], 11,7 %-i [7, s.642] Türkiyə ilə aparılan əməliyyatların payına düşmüşdür. Azərbaycanın idxalında əsas tərəfdaşlarının siyahısında Türkiyə xüsusi çəkisinə görə 2001-ci ildə 10,4%-lə 3-cü, 2002-ci ildə 9,4%-lə 2-ci [4, s.717], 2003-cü ildə 7,4%-lə 3-cü, 2004-cü ildə 6,4%-lə 4-cü, 2005-ci ildə 7,4%-lə 4-cü, 2006-cı ildə 7,3%-lə 4-cü, 2007-ci ildə 10,9%-lə 2-ci yeri [1, s.592], 2008-ci ildə 11,2%-lə, 2009-cı ildə 14,8%-lə [3, s.635] və 2010-cu ildə 11,7%-lə 2-ci yeri [7, s.642] tutmuşdur. Beləliklə, 2007-2010-cu illərdə Azərbaycanın idxalında əsas tərəfdaşlarının siyahısında Türkiyə xüsusi çəkisinə görə 2-ci yeri tutmuşdur.

2001-ci ildə həmçinin, Azərbaycanın ixrac əməliyyatlarının 2,9 %-i [14, s.634], 2005-ci ildə 6,35 %-i [4, s.692], 2010-cu ildə 0,8 %-i [5, s.643] Türkiyə ilə aparılan əməliyyatların payına düşmüşdür.

Azərbaycanın ixrac tərəfdaşları arasında Türkiyə xüsusi çəkisinə görə 2001-ci ildə 2,9 %-lə 7-ci, 2002-ci ildə 3,8 %-lə 6-cı [4, s.718]. 2003-cü ildə 4,1 %-lə 6-cı, 2004-cü ildə 5,1 %-lə 5-ci, 2005-ci ildə 6,3 %-lə 4-cü, 2006-cı ildə 6,1 %-lə 3-cü, 2007-ildə 17,4 %-lə 1-ci yerləri tutmuşdur. Statistik göstəricilər 2007-ci ildə Azərbaycanın xarici ticarət dövriyyəsin-

dəki payına görə Türkiyənin Rusiyanı da qabaqlayaraq birinci yeri tutduğunu göstərir [5, s.593]. 2009-cu ildə 0,7 %-lə [6, s.636] və 2010-cu ildə 0,8%-lə [7, s.643] 22-ci yeri tutmuşdur.

2001-2010-cu illərdə idxal-ixrac əməliyyatlarının saldosu Azərbaycan üçün mənfi olmuş, idxal ixrac ilə müqayisədə üstünlük təşkil etmişdir. İxrac həcminin neft və təbii qaz hesabına genişlənməsi nəticəsində 2006-cı və 2007-ci illər müsbət saldo ilə diqqəti cəlb edir.

Qeyd etməliyik ki, dövlət və hökumət başçılarının siyasi iradələri iki ölkə arasında iqtisadi-ticarət əlaqələrinin inkişaf etməsində mühüm rol oynamışdır. Ticarət əlaqələrinin genişləndirilməsi yüksək səviyyələrdə keçirilən görüşlərdə ciddi müzakirə mövzusu olmuşdur. Məsələn, Türkiyə Respublikası Prezidenti Abdulla Gül 2007-ci il noyabrın 6-8 tarixlərində Bakıda rəsmi səfərdə olarkən iki ölkə arasında "Sərbəst hərəkət və sərbəst ticarət" haqqında və "Uzunmüddətli iqtisadi əlaqələr" haqqında müqavilələrin imzalanması sonrakı illərdə ticarətin inkişafına müsbət təsir etmişdir.

Bu illərdə idxal-ixrac üzrə Türkiyənin Azərbaycana yönəlik ixracatının 85.6 %-i sənaye məhsulları, 10.96%-i isə kənd təsərrüfatı mallarıdır [2].

DSK-nın statistik göstəricilərinə görə, konkret olaraq Türkiyənin Azərbaycandan idxal etdiyi başlıca mallar arasında neft, dizel, benzin, polietilen mallar, xam dəri, pambıq, külçə, alüminium, müxtəlif bitkilər, şəkər çuğunduru və s. adlarını çəkmək olar. Azərbaycanın Türkiyədən idxal etdiyi mallar sırasında isə başlıca olaraq toyuq əti, yumurta, un, meyvə-tərəvəz, kərə yağları, marqarin, şəkər, şirniyyat məmulatları, sabun və yuyucu vasitələr, plastikdən hazırlanmış müxtəlif məhsullar, plastik və alüminium profillər, kağız, tekstil və toxuculuq məmulatları, mərmər, tikinti daşı, inşaat vasitələri, mebel, elektronika məhsulları – soyuducular, qızdırıcılar, nəqliyyat vasitələri, hesablayıcı maşınlar, telefon və rabitə vasitələri, radio və televiziya yayımı cihazları, elektrik kabelləri və ötürücülər, minik avtomobilləri və digər məhsulların adını çəkmək olar. Göründüyü kimi, adları çəkilən məhsullar iqtisadiyyatın demək olar ki, bütün sahələrində istifadə olunur və bu bir daha iki ölkə arasında ənənəvi ticarət münasibətlərinin əhəmiyyətini göstərir.

2011-2017-ci illərdə Azərbaycan Respublikası ilə Türkiyə arasında ticarət əlaqələrinin inkişaf dinamikasının təhlili iqtisadi əməkdaşlıq və mal dövriyyəsinin ildən-ilə artdığını və böyük potensiala malik olduğunu göstərir. Belə ki, 2011-2017-ci illərdə Azərbaycan-Türkiyə ticari əlaqələri ardıcıl inkişaf dinamikasına malik olaraq, əvvəlki mərhələdə olduğu kimi yüksələn xətlə davam etmişdir. Məsələn, ticarət dövriyyəsinin həcmi 2011-ci ildə 1,7 milyard, 2013-cü ildə 1,9 milyard, 2017-ci ildə 2,6 milyard ABŞ dollarına bərabər olmuşdur. Statistik göstəricilərin hesablanması əsasında belə bir qənaətə gəlmək olar ki, bu ticarət dövriyyələri Azərbaycanın ümumi xarici ticarət dövriyyəsinin müvafiq olaraq 2011-ci ildə 36,2 milyard ABŞ dollarının 5 %-ni, 2013-cü ildə 34,7 milyard ABŞ dollarının 5,7 %-ni, 2017-ci ildə isə 22,6 milyard ABŞ dollarının 11,5 %-ini təşkil etmişdir. Statistik rəqəmlərdən görünür ki, Azərbaycanın ümumi idxal əməliyyatlarının 2011-ci il üzrə 13,4 %-i [7, s.623], 2013-ci ildə 13,7 %-i [9, s.617], 2017-ci ildə 14,5 %-i [10, s.642] Türkiyə ilə aparılan əməliyyatların payına düşmüşdür. 2011-2017-ci illərdə Azərbaycanın idxalında əsas tərəfdaşlarının siyahısında Türkiyə 2-ci yerə sahib olmuşdur.

Eyni zamanda, AR-nin ümumi ixracatı içində Türkiyənin payı 2011-ci ildə 1,7 %-ni [8, s.624], 2013-cü ildə 2,2%-ni [9, s.618], 2017-ci ildə 9,9 %-ni [10, s.643] təşkil etmişdir. Azərbaycanın ixracında əsas tərəfdaşların siyahısında Türkiyə 2011-ci ildə 13-cü yeri tutmuşdursa, 2013-cü ildə 11-ci və 2017-ci ildə isə 2-ci yerə yüksəlmişdir. Bu statistik göstəricilər 2011-ci ildən Azərbaycan-Türkiyə ix-

rac əməliyyatlarında bir dönüş baş verdiyini, inkişaf dinamikasının yaşandığını faktiki olaraq təsdiqləyir.

Yuxarıdakı statistikaya nəzər salsaq, ticarət dövriyyəsinin diqqəti cəlb edən cəhətlərə malik olduğunu görərik. Belə ki, Türkiyə ilə Azərbaycan arasında ticarət dövriyyəsi əvvəlki dövrlərlə müqayisədə daha yüksək olmuş, ilbəil artaraq 2,6 milyard ABŞ dollarını ötmüşdür. Başqa bir cəhət ondan ibarətdir ki, son üç ildə (2015, 2016, 2017-ci illərdə) ixrac idxal ilə müqayisədə üstünlük təşkil etmiş və nəticədə idxal-ixrac əməliyyatlarının saldosu Azərbaycan üçün müsbət olmuşdur. Buradan belə bir nəticə çıxartmaq olar ki, son illərdə Türkiyənin iqtisadi və enerji təhlükəsizliyində Azərbaycanın rolu artmaqdadır.

AR Dövlət Gömrük Komitəsinin 2018-ci ilin yanvar-noyabr aylarında xarici ticarət əlaqələri haqqında məlumatlarına əsasən ixracın 31,0%-ni İtaliyaya, 8,7%-ni Türkiyəyə, 6,2%-ni İsrailə, 4,6%-ni Çexiyaya, 4,2%-ni Hindistana, 4,1%-ni Almaniyaya, 4,0%-ni Tayvana (Çinin əyaləti), 3,3%-ni Rusiyaya, 3,2%-ni Kanadaya, hər biri 3,0% olmaqla İndoneziya və Portuqaliyaya, hər biri 2,5% olmaqla Gürcüstan və Fransaya, qalan 19,7%-ni isə digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil etmişdir.

Ölkəmizə 2018-ci ilin yanvar-noyabr aylarında idxal olunmuş məhsulların ümumi dəyərinin 16,2%-i Rusiya, 14,0%-i Türkiyə, 10,2%-i Çin, 5,7%-i Almaniya, 4,9%-i İsveçrə, 4,6%-i ABŞ, 4,0%-i Ukrayna, 3,6%-i İran, 3,5%-i Yaponiya, 3,0%-i İtaliya, 2,4%-i Birləşmiş Krallıq, 27,9%-i isə digər ölkələr ilə aparılmış idxal əməliyyatlarının payına düşmüşdür [2].

2018-ci ilin yanvar-noyabr aylarında ixracat-idxalat məhsulların ümumi dəyərini yuxarıda əks etdirən DGK-nın statistikası açıq-aydın göstərir ki,Türkiyə həm idxal, həm də ixrac üzrə əsas tərəfdaş ölkələr arasında 2-ci mövqeni tutur. Bu rəqəmlər Türkiyənin Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyində tərəfdaş ölkələr arasında mühüm yer tutduğunu və əhəmiyyətli rol oynadığını faktiki olaraq sübut edir.

Təbii ki, ixracatda xam neft, dizel yanacağı, yağlar və sürtkülər, qaz və neft-qaz məhsulları başlıca yer tutmuşdur.

Əvvəllərdə olduğu kimi, son illərdə də ticarət sahəsində əməkdaşlığın genişləndirilməsi yüksək səviyyələrdə keçirilən görüşlərdə ciddi müzakirə mövzusu olmuşdur. Azərbaycan və türk sahibkarları arasında ikitərəfli ticarət əlaqələrinin inkişafında Biznes forumlarının və Hökumətlərarası Birgə Komissiyanın fəaliyyəti də xüsusi əhəmiyyət kəsb etdiyini qeyd etmək lazımdır.

Qeyd edək ki, son illər Azərbaycan Ümumdünya Ticarət Təşkilatına üzvlüyü çərçivəsində də Türkiyə ilə əməkdaşlığı uğurla davam etdirir. Azərbaycan Milli Məclisində müzakirə edilən yeni Gömrük Məcəlləsinin həmmüəllifləri arasında Türkiyə ekspertləri də var. Bu sənəd ölkənin gömrük sisteminin və tətbiq edilən gömrük rejimlərinin təkmilləşməsini nəzərdə tutur. İndiki mərələdə iki ölkə arasındakı mövcud gömrük qanunvericiliyi, gömrük statistikası və gömrük hesabatlarının unifikasiyasına da ehtiyac duyulur [12, s.70].

Azərbaycan-Türkiyə ticarət əlaqələri problemlərdən xali deyildir. İki ölkə arasında ticarət həcminin artmasına mane olan ən böyük əngəl gömrük rüsumları və vergi yükünün ağırlığıdır. Gürcüstanla Türkiyənin tətbiq etdiyi "ticari imtiyazlara dair dövlətlərarası anlaşma" ("intercountry adoption agreement on trade preferences") bu problemdən çıxış yoludur. Türkiyəyə idxal edilən Yunanıstan istehsalı olan polietilen Avropa Birliyi ilə Türkiyə arasındakı gömrük birliyi anlaşması əsasında gömrük rüsumundan azad olunduğu halda, Azərbaycandan idxal edilən polietilenden gömrük rüsumu tutulur. Eynı şəkildə, Azərbaycana idxal edilən Rusiyada istehsal olunmuş sement gömrük rüsumundan azad olunduğu halda, Türkiyədən idxal edilən sementdən gömrük rüsumu alınır. Amma iki ölkə arasında yuxarıda

qeyd olunan anlaşma baş tutarsa, qarşılıqlı ticarət həcmi ən azı 2-3 dəfə artar, hətta gömrüklərdəki ləngidici prosedurlar böyük ölçüdə aradan qalxar. Gömrük rüsumları ilə yanaşı, gömrük rəsmiləşdirməsi, gömrük rejimlərinin seçimi və gömrük anbarlaşmasında da güzəştlərin tətbiq edilməsi məqsədəuyğun olardı [12, s.72-73].

Naxçıvan-İqdır sərhəd bölgəsində azad iqtisadi zonanın formalaşdırılması istiqamətində iki ölkənin müvafiq qurumları arasında dialoq başlanmalıdır. Bu, Naxçıvanın inkişafı ilə yanaşı, Türkiyənin depressiv iqtisadi rayonları hesab edilən Qars və İqdır şəhərlərinin də inkişafına dəstək verər. Yeri gəlmişkən, Ermənistanla sərhədlərin açılmasının tərəfdarlarının əsas arqumentlərindən biri budur ki, bu proses Türkiyənin şərq rayonlarının inkişafına gətirib çıxaracaq. Məhz buna görə Ermənistanla həmsərhəd olan Türkiyənin Qars və İqdır şəhərlərinin iqtisadi problemlərinin həllində Azərbaycan qardaş ölkəyə dəstək verməlidir [12, s.73].

Ümumiyyətlə, şərti mərhələlər üzrə aparılan müqayisələr iki ölkə arasında xarici ticarət dövriyyəsinin dinamik olaraq artdığını göstərir. Azərbaycan və Türkiyə arasında ticarət dövriyyəsi müstəqilliyin ilk illəri ilə müqayisədə köklü şəkildə artaraq, 1992-2017-ci illərdə, demək olar ki, 13 dəfə artıb və hazırda ildə 2,6 milyard dollar təşkil edir. Türkiyə Azərbaycanın beynəlxalq iqtisadi əlaqələrində ilk beşlikdə yer almaqdadır.

Azərbaycan və Türkiyə arasındakı ticarətin əmtəə quruluşuna gəldikdə onun başlıca olaraq ərzaq və neft (neft məhsulları) olmaqla iki hissəyə ayrıldığını görürük. Böyük iqtisadi gücə malik Türkiyədən Azərbaycana idxalın strukturu daha genişdir.

Rusiya və İranla müqayisədə Azərbaycanın Türkiyə ilə quru yolla bağlantısının olmaması, eləcə də Gürcüstanın qoyduğu yüksək vergilər və İranın gətirdiyi tonaj məhdudiyyətlər tərəflərin iqtisadi və ticarət əlaqələrini çətinləşdirmişdir. Lakin bütün bunlara baxmayaraq, Azərbaycanın Türkiyə ilə ticarət əlaqələrinin ildən-ilə inkişaf etdiyinin şahidi oluruq.

Türkiyə idxal və ixrac üzrə əsas tərəfdaş ölkə olaraq Azərbaycanın iqtisadi təhlükəsizliyinin, xüsusilə qida təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.

Sonda belə bir nəticə çıxarmaq olar ki, Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Türkiyə siyasi-hərbi təhlükəsizliyi kimi, iqtisadi təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynamışdır. Azərbaycanın Türkiyədən ixrac etdiyi mallar arasında ilk sıranı qida maddələri tutduğuna görə, respublikanın qida təhlükəsizliyinin təmin edilməsində qardaş ölkə əvəzsiz rol oynamış və bu gün də bu sahədə xüsusi çəkiyə malikdir.

**Ədəbiyyat:**

1. Alagöz M., Yapar S., Uçtu R. Türk Cumhuriyetleri ile İliskilerimize Ekonomik Açıdan Bir Yaklasım. Selçuk Üniversitesi SBE Dergisi (12), 2004, s.59-74.
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Xarici ticarət əlaqələri haqqında/ https://www.stat.gov.az/news/index.php?id=4091
3. Azərbaycanın Statistik Göstəriciləri 2002. Statistical Yearbook of Azerbaijan 2002. Bakı: "Səda" nəşriyyatı, 2002, 766 s.
4. Azərbaycanın Statistik Göstəriciləri 2005. Statistical Yearbook of Azerbaijan 2005. Bakı: "Səda" nəşriyyatı, 2005, 870 s.
5. Azərbaycanın Statistik Göstəriciləri 2008. Statistical Yearbook of Azerbaijan 2008. Bakı: "Səda" nəşriyyatı, 2008, 774 s.
6. Azərbaycanın Statistik Göstəriciləri 2010. Statistical Yearbook of Azerbaijan 2010. Bakı: "Səda" nəşriyyatı, 2010, 840 s.

7. Azərbaycanın Statistik Göstəriciləri 2011. Statistical Yearbook of Azerbaijan 2011. Bakı: "Səda" nəşriyyatı, 2011, 848 s.
8. Azərbaycanın Statistik Göstəriciləri 2012. Statistical Yearbook of Azerbaijan 2012. Bakı: "Səda" nəşriyyatı, 2012, 816 s.
9. Azərbaycanın Statistik Göstəriciləri 2014. Statistical Yearbook of Azerbaijan 2014. Bakı: "Səda" nəşriyyatı, 2014, 812 s.
10. Azərbaycanın Statistik Göstəriciləri 2018. Statistical Yearbook of Azerbaijan 2018. Bakı: "Səda" nəşriyyatı, 2018, 808 s.
11. Azərbaycan-Türkiyə dostluğu, qardaşlığı əbədi və sarsılmazdır. İstanbulda Türkiyənin iş adamlari ilə görüşdə Azərbaycan Respublikasinin prezidenti Heydər Əliyevin nitqi. 19.10.2002. https://azertag.az/xeber/
12. Azərbaycan-Türkiyə əlaqələri son 20 ildə: uğurlar və imkanlar (məqalələr toplusu), s.73.
13. Hacıyeva Ş.Ş. Türkiyə-Azərbaycan iqtisadi əlaqələri (1990-2010) // Bakı Universitetinin Xəbərləri (Humanitar elmlər seriyası) 2012, №2, s.119-125.
14. Qasımov M. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı: Mütərcim, 1997, 124 s.
15. Turan F., Özdemir A. Türkiye-Türk Cumhuriyetleri Ticari ve Ekonomik İlişkileri Hakkında Değerlendirme. http://foreigntrade.gov.tr/ead/dtdergi/ocakozel2002/fatih.htm
16. Türk Ekonomisinin Genel Görünümü // http://www.mfa.gov.tr/turk-ekonomisindeki-son-gelismeler.tr.mfa

***Açar sözlər:*** *Türkiyə, Azərbaycan, iqtisadi təhlükəsizlik, ticarət əlaqələri, ikitərəfli əməkdaşlıq*

**Omur Kerim Ishik Mehmetshah**
*Baku Slavic University, a postgraduate student*

# THE ROLE OF TRADE RELATIONS IN STRENGTHENING COOPERATION IN THE FIELD OF ECONOMIC SECURITY BETWEEN TURKEY AND AZERBAIJAN

## SUMMARY

The paper is devoted to the role of trade relations in the field of economic security between Turkey and Azerbaijan. It is noted that trade relations between the two countries began to develop strongly after the independence of Azerbaijan.

First of all, capital investments in the economy are specified, the problems of financial investments are considered from the point of view of economic benefits and the lifting of the blockade on those sections of the oil and gas pipeline through which oil is pumped too many regions of the world. It is noted that the biggest obstacle to expanding trade between the two countries is customs duties and tax burden. The article is complicated by data, accompanied by the calculation of specific financial investments in certain projects. Their economic returns are shown. The article analyzes the prospects for the development of Azerbaijani-Turkish political and economic relations.

The development of mutual economic relations largely depends on the state of transport links. Currently, existing air and road communications are economically disadvantageous, therefore, other possible options are being considered. In this sense, the development of the Kars-Tbilisi railway line project is of great importance. The implementation of this project will increase the volume of goods directly passing through the TRACECA corridor, which can then also be transported to Turkey.

At the present historical stage, Turkey and Azerbaijan have a lot in common in the field of strategic partnership. So, in Azerbaijan and on the vast territory of the South Caucasus in recent years there have been such fateful geopolitical and economic events, the consequences of which have a positive effect on the implementation of trans-regional projects.

Studies show that the prospect of mutual trade transactions between Azerbaijan and Turkey can be realized on the basis of a single currency space (manat-lira) without the use of third-party currencies. There is also a need to make payments directly in manat-lira in order to reduce transaction and exchange costs to ensure economic security.

***Keywords:*** *Turkey, Azerbaijan, economic security, trade relations, bilateral cooperation*

**Омур Керим Ишык Мехметшах оглу**
*Докторант Бакинского славянского университета*

# РОЛЬ ТОРГОВЫХ ОТНОШЕНИЙ В УКРЕПЛЕНИИ СОТРУДНИЧЕСТВА В ОБЛАСТИ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ МЕЖДУ ТУРЦИЕЙ И АЗЕРБАЙДЖАНОМ

## РЕЗЮМЕ

В статье, где отмечается торговые отношения между Турцией и Азербайджаном стали сильно развиваться после приобретения независимости Азербайджаном, прежде всего уточняются капиталовложения в экономику, проблемы финансовых инвестиций рассматриваются с точки зрения экономических выгод, таможенных пошлин и налоговое бремя на нефть и газ,которые транспортируются во многие регионы мира. Проводится подсчёт конкретных финансовых вложений в те или иные проекты, показывается их экономическая отдача, а также анализируются перспективы развития азербайджано-турецких политических и экономических отношений.

Развитие взаимных экономических отношений во многом зависит от состояния транспортных связей. Существующие в настоящее время воздушные и автомобильные пути сообщений являются недостаточно выгодными с экономической точки зрения, поэтому рассматриваются другие возможные варианты. В этом смысле большое значение имеет развитие проекта железнодорожной линии Карс-Тбилиси. Реализация этого проекта позволит увеличить объём товаров, которые непосредственно проходят через коридор ТРАСЕКА и в дальнейшем могут транспортироваться также в Турцию.

Между Турцией и Азербайджаном на современном историческом этапе много общего в области стратегического партнёрства. Так, в Азербайджане и на обширной территории Южного Кавказа в последние годы происходят такие судьбоносные геополитические и экономические события, последствия которых позитивно сказываются на реализации транскультурных проектов.

Исследования показывают, что перспектива взаимных торговых сделок Азербайджана с Турцией может быть реализована на основе единого валютного пространства (манат-лира) без использования валют третьей страны. Потому что также повышается и необходимость осуществлять платежи непосредственно в манатах-лирах, чтобы снизить операционные и обменные издержки для обеспечения экономической безопасности.

***Ключевые слова:*** *Турция, Азербайджан, экономическая безопасность, торговые отношения, двустороннее сотрудничество*

# GƏNC TƏDQİQATÇILAR
# YOUNG RESEARCHERS

# SOSİAL PROBLEMLƏR
# SOCIAL PROBLEMS

UOT 316

**AYŞƏM BALAYEVA**
**Bakı Dövlət Universitetinin Sosiologiya kafedrasının doktorantı**
*e-mail: ayshembalayeva@gmail.com*

## AVROPA ÖLKƏLƏRİ VƏ AZƏRBAYCANDA CƏZA ÇƏKMƏKDƏN AZAD OLUNMUŞ ŞƏXSLƏRİN SOSİAL ADAPTASİYA TƏCRÜBƏSİ

Məhkumluğun uzun müddət davam edən neqativ təsirlərinin aradan qaldırılması, cəza çəkməkdən azad olunma mərhələsinə hazırlıq və şəxsin cəmiyyətə adaptasiya olunması üçün sosial və tibbi reabilitasiya tədbirləri mühüm rol oynayır. Həyata keçirilən tədbirlər şəxsin məhkumluğu dövründə, eləcə də cəza çəkməkdən azad edildikdən sonra davam etdirilir. Uğurlu reabilitasiyanın həyata keçirilməsi üçün məhkumun müdaxilə ilə bağlı müəyyən mövqeyi və bacarıqlarının olması əsas şərtlərdəndir.

Məhkumlar üçün tətbiq olunan proqramlar ölkələr üzrə müxtəlif istiqamətlərdə həyata keçirilsə də onları birləşdirən bir sıra ümumi xüsusiyyətlər də var. Həyata keçirilən proqramlar əsasən terapiya proqramlarını, təhsil, təlim və əmək fəaliyyətinə aid proqramları əhatə edir. Bununla yanaşı, şəxsi inkişaf, aqressiyanın idarə olunması, təhlükəsizlik və s. proqramlar da icra olunur. Proqramlar çərçivəsində məhkumlara fərdi və qrup terapiyalarında iştirak etmək imkanı yaradılır.

Proqramların digər iştirakçıları məhkumlarla çalışan mütəxəssislər və məsul işçilər olduğu üçün həmin şəxslərin öz fəaliyyətini peşəkar səviyyədə və etik prinsiplərə uyğun icra etməsi işin keyfiyyətinə birbaşa təsir edir. Belə ki, məhkumlara qarşı ayrı-seçkilik və hər hansı digər neqativ münasibət fərdin cəmiyyətə adaptasiyasını daha da çətinləşdirir.

Azərbaycanda müstəqillik əldə edildikdən sonra cəmiyyətdə kriminogen durum müsbətə doğru dəyişmişdir. Buna baxmayaraq, müxtəlif motivli cinayətlər törədilməkdədir. Cinayətlər bir çox hallarda keçmiş məhkumlar tərəfindən törədilir. Bu baxımdan cəza çəkməkdən azad olunanların sosial adaptasiyasının təşkili dövlətin prioritet fəaliyyət istiqamətlərinə aiddir. Bu məsələlərin tənzimlənməsi müvafiq qanunlar qəbul olsa da, onların icra mexanizmində müəyyən çatışmazlıqlar mövcuddur.

Cəza çəkməkdən azad edilən şəxslərin reabilitasiyası və sosial adaptasiyası prosesi ölkələrin yerli qanunvericilik aktları, eləcə də beynəlxalq hüquqi sənədləri əsas tutulmaqla həyata keçirilir. Avropa Şurasına üzv ölkələr əsasən Avropa Penitensiar Qaydalarının tələblərini əsas tutaraq fəaliyyət göstərir. Qaydalarda məhkumların reabilitasiyası və cəmiyyətə adaptasiyasını təmin edən bütün vacib müddəalar yer alır. Azərbaycan Respublikasında da penitensiar xidmət müvafiq milli və beynəlxalq hüquqi sənədlərin tələbləri əsas tutulmaqla icra olunur.

Dünya təcrübəsində penitensiar xidmət, məhkumların reabilitasiyası və reinteqrasiyası ilə bağlı müxtəlif tədqiqat işləri həyata keçirilib.

Azərbaycanda isə cəza çəkməkdən azad olunanların sosial adaptasiyası məqsədilə hüquqi baza və praktik fəaliyyət son bir neçə ildə formalaşdığı üçün bu istiqamətdə elmi araşdırmalara məhdud sayda rast gəlinir. Məqalədə müqayisəli təhlil metodu ilə inkişaf etmiş ölkələrdə və Azərbaycanda çəkməkdən azad olunanların sosial adaptasiya fəaliyyəti nəzərdən keçirilərək həm ölkəmizdə, həm də digər ölkələrdə olan çatışmazlıqlar müəyyən edildi.

Məqalədən penitensiar müəssisələrin əməkdaşları, məhkumlar və cəza çəkməkdən azad olunan şəxslərlə çalışan mütəxəssislər, bu sahədə elmi tədqiqat həyata keçirənlər istifadə edə bilər. Eyni zamanda ölkədə cinayətlərin qarşısının alınması və sosial adaptasiya prosesinin təkmilləşdirilməsi üçün hüquqi islahatların keçirilməsinə müsbət təsir edə bilər.

Avropa Penitensiar Qaydalarında məhkumların cəmiyyətə adaptasiyası ilə bağlı əsas müddəalar və praktik problemlər. Məhkumların cəmiyyətə adaptasiyası üçün nəzərdə tutulan proqramlar, qeyd olunduğu, kimi milli və beynəlxalq sənədlərin tələblərinə uyğun şəkildə icra olunur. Bu mənada Avropa Şurasına üzv ölkələr Avropa Penitensiar Qaydalarının tələblərini əsas tuturlar. Qaydalarda məhkumların sağlamlığının qorunması, başlıca ehtiyaclarının müəyyən edilməsi, zərərli vərdişlərin aradan qaldırılması prioritet məsələlərdəndir. Tibbi problemlər məhkumların həyatının müxtəlif aspektlərinə təsir göstərdiyi üçün bu da reabilitasiya prosesinin əsasını təşkil edir. Avropa Penitensiar Qaydalarında qadınların sanitar-gigiyenik ehtiyaclarına təminat verilsə də praktikada bu həmişə əksini tapmır [3, s.18].

Həbsdə qidalanma prosesi isə həkimlər tərəfindən müəyyən edilən pəhriz proqramına uyğun həyata keçirilməlidir. Lakin Avropada qida çatışmazlığı və keyfiyyətin aşağı səviyyədə olması ilə bağlı şikayətlər artmışdır. Eləcə də məhkumların dini, etnik mənsubiyyəti, fiziki vəziyyəti, mədəni dəyərləri və s. xüsusiyyətləri baxımından da ayrı-seçkilik müşahidə olunur. Müxtəlif illərdə Avropa ölkələrində baş verən intihar və ölüm halları fiziki və psixoloji sağlamlığın aşağı səviyyədə olduğunu göstərən amillərdəndir. Qaydalarda həm də hər həbsxanada ən azı bir ixtisaslı həkimin olmasının vacibliyi də qeyd olunur [21, m.41.1-41.5]. Həbsxanalarda yoluxucu xəstəliklərin yayılmasının nəzarət altına alınması vacib məsələlərdəndir. Yoluxucu xəstəliklərlə bağlı şübhəli bilinən məhkumlar izolyasiya edilməli, daha ciddi xəstəlikləri olan və psixi problemlərdən əziyyət çəkən məhkumlar isə ixtisaslaşdırılmış həbsxanalarda tibbi nəzarətə götürülməlidir. Lakin Avropa ölkələri həbsxanalarında yoluxucu xəstəliklər artmaqda davam edir. Narkotik asılılığı olanlar və cinsi azlıqlar arasında infeksion xəstəliklərə olduqca çox rast gəlinir. Bütün Avropa ölkələrində narkotik asılılığı olan şəxslərə müalicə proqramları fərqli formalarda tətbiq olunsa da əsas məqsəd asılılığın və zərərlərinin aradan qaldırılmasıdır. Zərərin azaldılması proqramları üzrə ən yüksək göstəricilər isə İspaniyada müşahidə olunur [29, s.12-28].

Məlumatlılıq və təhsil imkanları cinayətlərin qarşısının alınmasında mühüm rol oynayır. Həyata keçirilən empirik tədqiqatlar isə göstərir ki, məhkumların təhsil göstəriciləri aşağı səviyyədədir [4, s.1100-1138]. Avropa Penitensiar Qaydalarında qeyd olunur ki, təhsil proqramları məhkumların istəkləri və fərdi ehtiyacları nəzərə alınaraq mümkün qədər əhatəli formada həyata keçirilməlidir [21, m.28.1]. Təhsilin bütün səviyyələri üzrə məhkumların təhsil almaq hüquqları olsa da bəzən resurs çatışmazlığı səbəbindən bu hüquqlar təmin edilmir. Əsasən bir çox inkişaf etmiş Avropa ölkələrində məhkumların ibtidai səviyyədə təhsil almasına şərait yaradılır. Məhkumların proqramlara qatılma səviyyəsi və proqramı müvəffəqiyyətlə bitirmə faizi də ölkələr üzrə dəyişir. Məhkumların distant təhsil imkanlarının olması da ölkədən ölkəyə fərqlənir. İngiltərə, İspaniya, Fransa və Portuqaliyada məhkumlar bu proqramdan istifadə edə bilirlər. Bəzən proqramın ödənişli olması, bəzən isə marağın olmaması məhkumların proqramdan istifadəsinə mane olur [1, s.29-38].

Məhkumlarda empatiya və özünü qiymətləndirmə hissinin inkişaf etdirilməsi üçün formal təhsillə yanaşı onların mədəni fəaliyyətlərə də cəlb edilməsi mühüm əhəmiyyət kəsb edir. Qaydalarda məhkumların həm istirahəti, həm də məlumatlanması məqsədilə kitablar və digər müvafiq vasitələrlə təmin olunması da nəzərdə tutulur [21, m.28.5-28.6]. Lakin kitabxanaların bəziləri tam şəkildə ehtiyacları təmin etsə də bir çoxu bu baxımdan yetərsiz qalır. Bəzi həbsxana kitabxanalarında isə köhnə kitablara rast gəlinir. Nəzərə alsaq ki, həbsxanalarda digər ölkələrin vətəndaşı da ola bilər. Bu isə fərqli dillərdə kitablara və digər zəruri vasitələrə ehtiyacın olduğunu göstərir. Eləcə də audio və video materiallara da əlçatanlıq hər zaman mümkün olmur. Bu daha çox kompüterlərdən istifadəyə icazənin olmamasından irəli gəlir. Kitabların az istifadəsinə səbəb olan digər amillər də kitabxanaların müəyyən saatlarda açıq olması və eyni cəza evinin fərqli bölmələrində olan məhkumların qarşılaşmamasıdır. Bəzi məhkumlar isə ümumiyyətlə müraciət vasitəsilə kitabları əldə edə bilirlər [3, s.27].

Məhkumların böyük əksəriyyəti həbs olunana qədər işsiz olur və müəyyən peşəyə sahib olmurlar. Məhkumlar çox vaxt həbsdə olarkən iş tapmağı əsas hədəf olaraq müəyyən edirlər. Cəzaçəkmə müəssisələrində müəyyən bir peşə öyrənilməsi məşğulluq imkanlarını da artırır. Bütün bunlar isə məhkumların cəza çəkməkdən azad olunduqdan sonra əmək fəaliyyətinə uyğunlaşmasında müsbət təsirə malikdir [2, p.89-93]. İşgəncənin Qarşısının alınması üzrə Assosiasiyanın yanaşmasına əsasən (APT) məhkumların məşğulluğa cəlb edilməsi cəza məqsədi daşımamalı və bunun müqabilində ödəniş təyin edilməlidir. Eləcə də həbsdə olan iş saatları normal iş saatlarına uyğunlaşdırılmalı, məhkumların sağlamlıq və təhlükəsizliyi təmin edilməlidir [25, s.56]. Avropa Penitensiar Qaydalarında qeyd olunur ki, cəzaçəkmə müəssisələrində məsul şəxslər məhkumların faydalı işlə məşğul olmaları üçün bütün vacib tədbirləri həyata keçirməyə çalışmalıdır [21, m.26.2]. Eləcə də məhkumlar həm cəzaçəkmə müəssisələri, həm də özəl şirkətlər üçün fəaliyyət göstərə bilərlər. Təbii ki, bu proses iş imkanlarının olmasından asılı olaraq formalaşır və iqtisadi böhran buna neqativ təsir edir. Ümumiyyətlə, cəzaçəkmə müəssisələri ilə özəl şirkətlərin məşğulluq üzrə əməkdaşlığına çox nadir hallarda rast gəlinir. Lakin bu fəaliyyət Birləşmiş Krallıqda inkişaf etdirilib. Bəzi şirkətlər isə əməkdaşlığı sadəcə yazılı olaraq həyata keçirsə də təcrübədə daha az işçi qüvvəsi cəlb olunur. İşçilər isə aşağı gəlirlə daha uzun müddət işləməyə məcbur edilir [27].

İş tapmaq imkanlarını artıran peşə kursları xüsusilə gənc məhkumlar üçün nəzərdə tutulmalıdır [21, m.26.5]. Eləcə də məhkumlar istədikləri fəaliyyət növünə uyğun peşə kursu seçmək imkanına malik olmalıdırlar [21, m.26.5]. Qaydalarda və bir sıra hüquqi sənədlərdə peşə təhsilinin reabilitasiya üçün vacibliyi qeyd olunsa da praktikada peşə təhsilinə nadir hallarda rast gəlinir. Həyata keçirilən fəaliyyətlər əsasən cəzaçəkmə müəssisələrində gündəlik ehtiyacları (təmizlik, yemək bişirilməsi, paylanılması və s.) qarşılamağa xidmət edir. Yaradıcı işlər isə sadə olur və xüsusi bacarıq tələb etmir. İngiltərə və İspaniyada məhkumların peşə təhsili almaq imkanları daha genişdir. Bu ölkələrdə kurslar həm də müxtəlif sahələri əhatə edir. Məhkumların bir qismi də polislərlə iş birliyinə cəlb edilir və onların başlıca vəzifəsi informasiya ötürülməsi olur [3, s.29].

Qaydalarda göstərilir ki, cəzaçəkmiş şəxslər üçün təklif edilən işlər standart metodlar üzrərində qurularaq onların normal həyat tərzinə uyğunlaşmalarına xidmət etməlidir [21, m.26.7]. Cəzaçəkmə müəssisələrində olan iş şəraiti sosial həyatdakı bənzər fəaliyyətlərdən fəqrlənir. İşin keyfiyyəti isə qeyd etdiyimiz kimi olduqca aşağı səviyyədə olur və xüsusi qabiliyyət tələb etmir. Nəzəri olaraq işlərin bir qismində bənzərlik olsa da cəzaçəkmə müəssisələrində praktikada çatışmazlıqlar (məs. mətbəxdə gigiyena qaydalarına əməl edilməməsi) olduqca çoxdur. Bir çox məhkumun hüquqları hər

zaman qorunmur, onlara aksiya etməyə və sosial birlik yaratmağa icazə verilmir. Cəzaçəkmə müəssisəsi daxilində və xaricində təklif edilən işlər əmək haqqına görə də fəqrlənir. Hətta bəzi məhkumlar ən aşağı ödənişlə işlədilirlər. Lakin qaydalarda qeyd olunur ki, məhkumlara ödəniş ədalətli şəkildə edilməlidir [21, m.26.10]. Qaydalarda məhkumların qazanclarının bir qisminin özləri tərəfindən istifadə edilməsi, bir qisminin isə ailələrinə verilməsi də nəzərdə tutulur [21, m.26.11]. Eləcə də gəlirlərinin bir qismini öz ehtiyaclarını qarşılamağa və cəza çəkməkdən azad olunduqdan sonra istifadə etmələrinə icazə verilməlidir [21, m. 26.12]. Lakin istənilən halda məhkumlar maaşlarını tam olaraq almaq imkanına malik deyil və gəlirin bir qismi qida və cərimələrin ödənməsində istifadə olunur. Bununla da məhkumların gəlirlərinin böyük hissəsi bloklanmış hesablarında saxlanılır və azad olunduqda istifadəsinə icazə verilir [26, s.7].

Məhkumların sağlamlıq və təhlükəsizliyi məsələsi də qaydalarda lazımi səviyyədə nəzərə alınır və qeyd olunur ki, bu tədbirlər cəzaçəkmə müəssisələri xaricindəki tədbirlərdən heç bir xüsusiyyəti ilə fərqlənmir. Eləcə də istehsalat qəzaları və peşə xəstəlikləri səbəbindən əmək qabiliyyətini itirənlərə kompensasiya verilməsi, təhlükəsizlik qaydaları məhkumlara da şamil olunur [21, m.26.13-26.14]. Ümumiyyətlə, hüquqi sənədlərdə əmək fəaliyyəti ilə məşğul olan bütün şəxslərin hüquqları eyni dərəcədə bərabərdir. Lakin praktikada bu istiqamətdə çatışmazlıqlar müşahidə olunur. Eləcə də bir çox hallarda hesabatlarda qeyd olunan tövsiyələr yerinə yetirilmir. Portuqaliyada əmək fəaliyyəti zamanı risklərin qarşısının alınması qanunvericiliklə nəzərdə tutulsa da məhkumlar əmək sığortası, təhlükəsizlik qaydaları və lazımi qoruyucu vasitələrlə təmin olunmurlar. Fransada Əmək Müfəttişliyinin cəzaçəkmə müəssisələrinə müdaxilə hüququ olsa da buna nadir hallarda rast gəlinir.

Qaydalarda məhkumların sosial təminatının reallaşdırılması nəzərdə tutulsa da bəzi ölkələrdə (Latviya, Litva və s.) bu hüquqlar da təmin olunmur. Eləcə də İngiltərə, Portuqaliya kimi ölkələrdə cəza çəkməkdən azad olunanlar milli təhlükəsizlik sistemində fəaliyyət göstərmək məqsədilə qəbul edilmirlər. Məhkumlar fəaliyyət göstərdikləri üçün onların pensiya təminatı da reallaşdırılmalıdır. Məhkumlara verilən maaş minimum əmək haqqından olduqca aşağı olduğu üçün onlar bu hüquqlarını da çox vaxt reallaşdıra bilmirlər. Hətta sosial təminat sistemində qeydiyyata alınan məhkumların da çox az qismi hüquqlarından faydalana bilir [5, s.27-64].

Avropa ölkələrində məhkumların reabilitasiyası ilə yanaşı, cəzaçəkmə müəssisələrində prioritet məsələlərdən biri də təhlükəsizliyin təmin edilməsidir. Təhlükəsizlik tədbirləri həm məhkumlar, həm də işçi heyət üçün nəzərdə tutulur. Qaydalarda qeyd olunur ki, təhlükəsizlik tədbirləri bütün mümkün vasitələrlə təmin edilməli, məhkumlar cəzaçəkmə müəssisələrindən qaçmağa cəhd göstərdikləri təqdirdə özlərinə və cəmiyyətə yarada biləcəkləri təhlükə nəzərə alınmalıdır [21, m.51.1-51.4]. Ümumiyyətlə, məhkumlara fiziki nəzarət həyata keçirilir, hücrələrdə axtarış aparılır və xüsusi ayrılmış hissədə qalanlar digərlərindən izolyasiya edilir. Bu, bütün məhkumların, işçi heyətin, ziyarətçilərin təhlükəsizliyi və hər hansı qeyri-qanuni halın baş verməməsi üçün nəzərdə tutulur. İnsanlar üzərində axtarış yalnız həmcinsləri tərəfindən aparılmalı və bu prosesdə onların şərəf və ləyaqətləri alçaldılmamalıdır. Qeyd etməliyik ki, fiziki nəzarət tədbirləri istənilən vaxt, hətta sosial reabilitasiya prosesində də həyata keçirilə bilər. Axtarış tədbirləri qanunla müəyyən edilmiş qaydalarda aparılır. Qeyd edilənlərlə yanaşı, video nəzarət, başqa kameraya göndərilmə, narkotik vasitələrdən istifadə ilə bağlı test edilmə kimi digər nəzarət növlərindən də istifadə edilir. Cəzaçəkmə müəssisələrində vəfat edən şəxslərin yoxlanılması isə sadəcə tibb işçilərinə həvalə edilə bilər. Ümumiyyətlə, nəzarət tədbirlərinin lazımi səviyyədə həyata keçirilməsi təhlükəsizliyin təmin olunmasında ilkin şərtdir və müsbət təsir edir. Fərdin özünü aktuallaşdırmasında

da təhlükəsizlik amili mühüm rol oynayır. Cəzaçəkmə müəssisələrində digər məhkumların təhlükəsizliyini təmin etmək məqsədilə məhkumların bir qismi tək kameralarda izolyasiya edilməklə saxlanılır. Təcrid olunmuş məhkumlar üçün reabilitasiya tədbirləri hər zaman mümkün olmur. İzolyasiya olunan məhkumlar tək olduqları üçün ehtiyac anında bəzən dəstək ala bilmirlər. Çox hallarda təcrid olunan məhkumlar özlərinə zərər verir və ya intihar edirlər. Amnistiya Təşkilatının və İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsinin hesabatında məhkumlarla pis rəftar edilməsi və işgəncə verilməsi ilə bağlı hesabatlar yer alır [20, s.23-47].

Cəzaçəkmə müəssisələrində intizam və cəza tədbirlərinin tətbiqi bütün ölkələrdə rast gəlinir. Bu tədbirlər müxtəlif situasiyalarda (məsələn, qadağan olunan əşyalar tapıldıqda, işçi heyətə qarşı təhqir işlətdikdə və s.) həyata keçirilir. Məhkumların cəzalandırılması bəzi hallarda haqlı səbəblərdən reallaşsa da bəzi hallarda da qeyri-qanuni olur. Qaydalarda qeyd olunur ki, məhkumlara verilən cəza milli qanunvericiliyə uyğun olmalıdır [21, m.60.1]. Lakin insanların şərəf və ləyaqətini alçaldan qeyri-insani cəzalar bütün hallarda qadağandır. Təcrübədə müxtəlif intizam üsullarından (istirahət hüququndan məhrum edilmə, bir neçə gün kameradan çıxmağın qadağan edilməsi, telefon danışıqları, ziyarətçi qəbulunun qadağan edilməsi və s.) istifadə edilir. İtaliyada istifadə edilən digər intizam üsulu isə məhkumluq müddətinin azaldılmasını ləğv etməkdir [30, s.10]. Qaydalarda qeyd olunur ki, məhkumlar onlara verilən intizam tədbirlərinə görə etiraz da etmək hüququna malikdirlər. Eləcə də cəzaçəkmə müəssisəsi əməkdaşları qaçmağa təşəbbüs göstərilməsi və fiziki müqavimət olduğu halda qanunla müəyyən olunmuş qaydada özlərini müdafiə etmək məqsədilə əks müqavimət göstərə bilərlər. Ümumiyyətlə, məhkumlara qarşı sərt cəzalar hüquqi sənədlərdə əsasən dəstəklənmir [21, m.61].

Cəza çəkməkdən azad olunduqdan sonra yaranan sosial adaptasiya problemləri. Avropa Penitensiar Qaydaları və BMT-nin Minimum Standartlarında nəzərdə tutulan müddəalar məhkumun azadlığa çıxdıqdan sonra normal həyat şəraitinə qayıtmasına xidmət edir. Bu səbəbdən müddəalarda həm məhkumluq müddətində, həm də cəza çəkməkdən azad olunduqdan sonra nəzərdə tutulan sosial adaptasiya tədbirləri yer alır [21; 32, s.9-12].

Ölkələrin siyasi fəaliyyəti beynəlxalq normaları əsas götürsə də bir çox ölkələrdə keçmiş məhkumlar məşğulluq, mənzil təminatı, maddi yardım verilməsi və səsvermə zamanı cəmiyyətdə ayrı-seçkiliklə qarşılaşır [22]. Bu problemlər arasında ən çox rast gəlinən işsizlik və evsizlik olur. Hətta, məhkumluq dövrünə qədər evi və işi olanlar da azad olunduqda bu imkanlarını itirə bilərlər. İşsizlik və evsizlik bir-birindən asılı olaraq formalaşır. Eləcə də bu problemlər motivasiyanın aşağı düşməsinə gətirib çıxarır. Çox vaxt cəza çəkməkdən azad olunanlar əvvəl yaşadıqları ərazilərə qayıtmaq istəmirlər. Bu prosesdə onlara dəstək göstərilmədikdə təkrar cinayətlərin törədilməsi hallarına da rast gəlinir. Bəzi ölkələrdə müvafiq qurumların qarşılıqlı əməkdaşlığı ilə keçmiş məhkumların mənzil problemləri həll olunur. Norveçdə “Qayıdış zəmanəti” proqramı məhkumun həbsdən sonra sosial adaptasiya ilə bağlı ehtiyaclarını təmin edir. Lakin keçmiş məhkumlar proqramda aktiv iştiraka maraq göstərməsələr istənilən nəticə əldə edilə bilməz [28, s.12-13].

ABŞ-da hər 3 yetkin şəxsdən birinin məhkumluğu vardır. Məhkumluğun olması isə insanın hər hansı bir sahədə fəaliyyətinə mane olur. 2014-cü ildə məhkumların qarşılaşdığı məşğulluq problemi təhsil səviyyəsi və bilik-bacarığın aşağı olması ilə əlaqələndirilirdi [18].

Məhkumluğa qədər və məhkumluqdan sonra işsizlik səviyyəsi ölkələr üzrə fərqlənir. Finlandiyada məhkumluğa qədər işsiz olanlar azad olunduqda da eyni problemlə qarşılaşır və onlar 75% təşkil edir. Qeyd edək ki, bir çox ölkələrdə məhkumluğun əsas səbəbi işsizlik olur [31, s.70]. İngiltərədə “Mavi Səma” sosial adaptasiya proqramı vasitəsilə parklar, bağçalar və bələdiyyələrə məxsus açıq məkanların

mühafizəsi işinə yalnız keçmiş məhkumlar cəlb olunur. Onlar dörd və ya altı nəfərdən ibarət kiçik qruplar şəklində fəaliyyət göstərirlər [19, s.9]. Şotlandiyada həyata keçirilən "Pasport" proqramı isə fərdi ehtiyacları nəzərə alaraq həyata keçirilir. Proqramın məqsədi təlim və təhsil vasitəsilə keçmiş məhkumların məşğulluq imkanlarını artırmaqdır. Uğurlu fəaliyyətin səbəbi isə proqramın professional şəkildə hazırlanması və icra mexanizminin işlək olması ilə bağlıdır [24].

Məhkumların qaşılaşdığı əsas problemlərdən biri də sosial təcriddir. Bəzi hallarda məhkumlar öz bioloji ailələrinə qayıda bilmirlər. Keçmiş məhkumların ailədə və ümumilikdə cəmiyyətdə qəbul edilməməsi cinayətlərin sayını artırmaqla yanaşı, həm də onların normal vətəndaş kimi formalaşmalarına mane olur. İngiltərə və Uelsdə hökumətin 2010-cu il üzrə olan hesabatında bildirilir ki, məhkumluq dövründə insanların üçdə biri evini, üçdə ikisi isə işini itirir [31, s.85]. Qeyd edək ki, ailələr keçmiş məhkumların normal həyata qayıtmasında əsas dəstək rolunu oynayırlar.

Məhkumluğun ailələr və uşaqlar üçün də iqtisadi təsirləri olur. Belə ki, məhkumluq dövrünə qədər müşahidə olunan işsizlik, narkotik asılılığı, yoxsulluq problemi sonrakı mərhələlərdə də davam edir. Xüsusilə, valideynləri məhkumluq yaşayan uşaqlar həm iqtisadi ehtiyaclarını ödəyə bilmir, həm də cəmiyyətin müəyyən sahələrində ayrı-seçkiliklə qarşılaşırlar. Valideynlərin həbs olunması uşaqlarda psixoloji travmalar yaradır və bunun təsirləri bir ömür davam edə bilir. Travmalar uşaqların zehni fəaliyyəti, fiziki sağlamlığına da neqativ təsir edərək dərslərində müvəffəqiyyətin aşağı düşməsinə gətirib çıxarır. Valideynlər cəza çəkməkdən azad olunduqdan sonra bənzər problemlərin yaşanması mümkündür. Bu amil uşaqların gələcəkdə cinayətə meylli olmasına səbəb ola bilər [31, s.87]. Məhkumların qarşılaşdığı digər problem isə səsvermə hüququndan məhrum olmaları ilə bağlıdır. Nümunə üçün qeyd edə bilərik ki, ABŞ-ın Virciniya, Florida və Kentukki ştatlarında keçmiş məhkumlar uzun müddət səsvermə hüququna malik olmayıb [6, s.281-310]. Hazırda isə ağır cinayət işləyənlər məhkumluq müddətində bu hüquqa malik olmasalar da cəzalarını tamamladıqdan sonra səsvermə hüququna malik olurlar. İtaliyada ağır cinayət törətmiş şəxslər səsvermə hüququnu itirirlər. Almaniyada isə siyasi cinayət işləyənlər xaric, digər şəxslərin həm məhkumluq müddətində, həm də azad olunduqda səs verməde iştirakına icazə verilir.

Birləşmiş Krallıqda keçmiş məhkumlar bir sıra hüquqlardan da məhrum olurlar. Bunların sırasına sürücülük vəsiqəsi əldə etmək (xüsusilə təhlükəli şəkildə avtomobil idarə edərək birinin ölümünə səbəb olubsa), uşaqlarla işləmək (xüsusilə cinsi əsaslı cinayət törədibsə), Birləşmiş Krallıqda yaşamaq (vətəndaş deyilsə), məhkumluq müddətində səsvermədə iştirak etmək daxildir [23].

Azərbaycanda cəza çəkməkdən azad olunan şəxslərin sosial adaptasiyasının təşkili. Azərbaycan Respublikasında penitensiar xidmət zamanı aşağıdakı milli və beynəlxalq hüquqi sənədlərin prinsiplərinə əsasən təşkil olunur:

– Azərbaycan Respublikasının Konstitusiyası;

– BMT-nin Məhbuslarla davranışın minimal standart qaydaları (Nelson Mandela Qaydaları);

– BMT-nin Məhbuslarla rəftarın əsas prinsipləri;

– Avropa Penitensiar Qaydaları;

– Azərbaycan Respublikasının Cəzaların İcrası və Cinayət-Prosessual məcəllələri;

– "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanunu;

– "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu;

– Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə";

Qeyd olunan hüquqi sənədlərlə bərabər, Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər beynəlxalq müqavilələr, Azərbaycan Respublikasının digər normativ hüquqi aktları,

həmçinin Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi kollegiyasının qərarları, Nazirlik üzrə əmr və sərəncamlar da penitensiar xidmətin fəaliyyətində nəzərə alınır.

Azərbaycanda cəzaçəkmə müəssisələrindən azad olunmuş şəxslərin reabilitasiyası və sosial adaptasiyası prosesi 2007-ci il 31 may tarixində qəbul edilmiş "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən həyata keçirilir. Qanun cəza çəkməkdən azad olunan şəxslərin hüquq və vəzifələri, müvafiq qurumların səlahiyyəti və əsas vəzifələri, bu şəxslərə edilən sosial yardımların başlıca prinsipləri, xüsusilə məşğulluq imkanları, tibbi, hüquqi və s. xidmətlərdən istifadə imkanlarını müəyyən edir [13].

Cəza çəkməkdən azad edilmiş, tibbi və sosial yardıma ehtiyacı olan şəxslərə birdəfəlik müavinətin təyin edilməsi prosesi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) tərəfindən həyata keçirilir. Qeyd edilən kateqoriyaya aid olan şəxslərə müvafiq günlərdə tələb olunan sənədlərin təqdim edilməsi ilə birdəfəlik müavinətin verilməsi təmin edilir. Bu prosesə ölkədə 2010-cu ildən başlanılıb. Dövlət Statistika Komitəsində olan rəsmi məlumata əsasən 2017-ci ildə penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş 5268 nəfər, 2018-ci ildə 7248 nəfər şəxs birdəfəlik müavinətdən faydalana bilmişdir [11]. Təyin olunan müavinətlərin məbləğində hər il artım olduğu müşahidə olunub. Belə ki, müavinətlərin məbləği minimum əmək haqqının 4 misli məbləğində hesablandığı üçün 2019-cu ildə cəza çəkməkdən azad edilən şəxslər üçün 1000 manat məbləğində birdəfəlik müavinət təyin edilmişdir. Qeyd edək ki, 2018-ci ildə birdəfəlik müavinət müvafiq olaraq 520 manat məbləğində müəyyən edilmişdir [10, 12].

2008-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 138 nömrəli qərarı ilə "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiya mərkəzlərinin yaradılması haqqında" Əsasnamə təsdiq edildi. Əsasnamədə sosial adaptasiya mərkəzlərinin ƏƏSMN-nin nəzdində yaradılması, mərkəzlərin və cəza çəkməkdən azad olunan şəxslərin hüquq və vəzifələri, mərkəzlərin strukturu, işin təşkili prinsipləri əksini tapıb. Əsasnamə Azərbaycan Respublikasının Konstitusiyası və digər müvafiq hüquqi sənədlərə uyğun olaraq tərtib edilib [13].

Mərkəzlərin yaradılması ilə bağlı Əsasnamə 2008-ci ilə təsdiq edilsə də bu istiqamətdə fəaliyyət göstərəcək yeganə mərkəz 2017-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 434 nömrəli qərarına əsasən Qobustan şəhərində yaradıldı [17].

Buna baxmayaraq əvvəlki illərdə də cəza çəkməkdən azad olunan şəxslərə yardımlar edilib. Qobustan şəhərində yaradılan Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün Sosial Adaptasiya Mərkəzi ƏƏSMN yanında Dövlət Sosial Müdafiə Fondunun nəzdində fəaliyyət göstərir. Mərkəzin fəaliyyətə başladığı dövrə qədər cəza çəkməkdən azad olunan şəxslərin sosial adaptasiyası istiqamətində tədbirlər həyata keçirilmişdir. Belə ki, bu fəaliyyəti ƏƏSMN Sosial Müdafiə Mərkəzləri həyata keçirirdi. 2018-ci ildə 34 nəfər cəza çəkməkdən azad olunan şəxs özünüməşğulluq proqramına, eləcə də cəza müddətinin bitməsinə az qalmış 239 nəfər məhkum isə peşə kursuna istiqamətləndirilib. Ümumilikdə isə 2014-2018-ci illər ərzində 545 nəfər işlə təmin olunub, 65 nəfəri özünüməşğulluq proqramına, 894 nəfər isə peşə kurslarına cəlb olunub [7, 8, 9, 16].

"Cəzaçəkmə müəssisələrində 2020-ci ildə görüləcək işlərə dair Tədbirlər Planı" Ədliyyə Nazirliyi ilə ƏƏSMN tərəfindən birgə hazırlanıb. Sənədə əsasən cəzasının sonuna üç ay qalmış məhkumların qeydiyyatı aparılır və ehtiyaclarından asılı olaraq təhsil, tibbi yardım, məşğulluq, yaşayış yeri, əlillik dərəcəsinin müəyyən olunması və s. ilə əlaqədar dəstək verilir. Bu məqsədlə məhkumlarla bağlı məlumatlar Nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun şöbələrinə göndərilir. Xüsusilə, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olan yetkinlik yaşına çatmayan şəxslərin internat

müəssisələrinə yerləşdirilməsinə şərait yaradılır [15].

2008-ci ildə Nazirlər Kabineti tərəfindən təsdiq edilən 91 saylı Qərarda Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin yaşayış yeri ilə təmin olunma, eləcə də müvəqqəti yaşayış yerində qalma müddətinin uzadılma şərtləri müəyyən olunmuşdur. Qeyd edək ki, cəza çəkməkdən azad olunan şəxslərin yaşayış yeri olmadıqda onlar bir il müddətinə müvəqqəti yaşayış yeri ilə təmin edilir. Hamiləlik dövrü və doğuş, fövqəladə halın olması, himayəsində iki və daha artıq 14 yaşına çatmayan uşağın olması, ağır xəstəlik, müharibə veteranı və məcburi köçkünlük kimi hallar müvəqqəti yaşayış yerində qalma müddətinin bir il də artırılmasına imkan yaradır. Ümumilikdə, ölkədə bu istiqamətdə ayrı-ayrı fəaliyyətlər həyata keçirilsə də hələ də çatışmazlıqlar müşahidə olunur. Xüsusilə, xidmətlərin vahid sistemdən idarə olunaraq bütün ölkəni əhatə etməsi, eləcə də bu istiqamətdə fəaliyyət planının tərtibi və icrasına ehtiyac duyulur [14].

Beləliklə, bir çox ölkələrin təcrübələrindən də göründüyü cəmiyyətin ümumi təhlükəsizliyi və cinayətlərin qarşısının alınmasında məhkumların sosial proqramlara cəlb edilməsi mühüm rol oynadığı üçün bu tədbirlərə diqqət artırılmaqdadır. Ölkələr daxili resursları çərçivəsində spesifik strategiyalardan istifadə edərək daha uğurlu proqramlar icra etməyə çalışır. Bu proqramlara əsasən məşğulluq, təhsil, yaşayış sahəsi ilə təmin olunma, tibbi, psixoloji və digər istiqamətlərdə terapiyaların həyata keçirilməsi daxildir. Proqramların təhlili göstərir ki, təkmilləşdirilmiş və sistemli şəkildə həyata keçirilən tədbirlər təkrar cinayətlərin qarşının alınmasında və keçmiş məhkumların cəmiyyətə qazandırılmasında müsbət təsirə malikdir. Lakin bəzi hallarda çatışmazlıqlar və neqativ hallar da müşahidə olunur. Proqramlarda müvəffəqiyyətin aşağı olması onun tərtibi və icrasındakı bir sıra problemlərlə bağlıdır. Xüsusilə, məhkumlarla etik qaydalara uyğun rəftar olunmaması, təhsil və məşğulluq imkanlarından tam olaraq yararlana bilməmələri, qeyri-qanuni və sərt cəzaların olması, kitabxanalarda kitab çatışmazlığı və istifadə imkanlarının məhdud olması və digər bu kimi ayrı-seçkiliklər uğursuz proqramların icrasına gətirib çıxarır. Qurumlararası əməkdaşlıqların düzgün qurulmaması da müşahidə olunan əsas problemlərdəndir. Bəzi hallarda isə proqramların çox az qismi icra olunur. Bu da sosial adaptasiya üçün yetərli olmur. Bu problemlər inkişaf etmiş ölkələrin təcrübəsində də daim rast gəlinir. Beynəlxalq təşkilatlar həmin ölkələrdə bu istiqamətdə olan nöqsanların aradan qaldırılması və fəaliyyətin təkmilləşdirilməsi məqsədilə daim tövsiyələr irəli sürür.

Azərbaycan Respublikasında penitensiar xidmət müəssisələrinin fəaliyyətləri milli və beynəlxalq hüquqi sənədlərin prinsiplərinə əsasən təşkil olunur. Həmçinin, cəza çəkməkdən azadlığa çıxmış şəxslərin sosial adaptasiyasının effektiv təşkili üçün qanun qəbul olunmuş, müvafiq tədbirlər həyata keçirilmişdir. Məhkum olmuş şəxslərin sosial adaptasiyası istiqamətində olan fəaliyyətlərlə yanaşı, bəzi məsələlərdə təkmilləşməyə ehtiyac var.

Fəaliyyətin sistemli şəkildə həyata keçirilməsi, qurumlararası əməkdaşlığın möhkəmləndirilməsi və sosial reinteqrasiya mərkəzlərin sayının artırılması uğurlu reabilitasiya və adaptasiyaya dəstək verən əsas amillərdir. Bu istiqamətdə inkişafa nail olmaq üçün beynəlxalq sənədlərdə irəli sürülən müddəaların yerinə yetirilməsi də əhəmiyyətlidir.

Cəza çəkməkdən azadlığa çıxmış şəxslərin sosial adaptasiyasının təşkilinin effektivliyinin artırılması üçün aşağıdakı təkliflər faydalı ola bilər:

– Cəza çəkməkdən azad olunan şəxslərin sosial adaptasiyasını təmin etmək üçün iş təklif edən müəssisə və təşkilatlarda qanunvericiliklə müəyyən olunmuş kvotaların tətbiqinə diqqətin daha da artırılması;

– Fəaliyyətin vahid mərkəzdən sistemli şəkildə həyata keçirilməsi üçün qurumlararası əməkdaşlığın gücləndirilməsi;

– Ölkədə bu sahədə aparılan elmi tədqiqat işlərinin əhatəsinin daha da genişləndirilməsi;

– Məhkumların sosial reabilitasiyasını təkmilləşdirmək üçün xidmət göstərən mütəxəssislərin və işçilərin yerli və beynəlxalq təlimlərə daha geniş cəlb edilməsi;

– Keçmiş məhkumlara qarşı ayrı-seçkiliyin müxtəlif formalarının aradan qaldırılması məqsədilə "İcma iştirakçılığı" proqramlarının hazırlanması və icrası;

– Cəza çəkməkdən azad olunan şəxslərin (xüsusilə qadınların) ailələrinə inteqrasiya olunmalarına dəstək göstərilməsi formalarının genişləndirilməsi.

**Ədəbiyyat:**

1. Costelloe A., Langelid T. Prison education and training in Europe - a review and commentary of existing literature, analysis and evaluation. Brussels: European Commission, 2011, 107 p.
2. Coyle A. Human Rights Approach to Prison Management. International Centre for Prison Studies. London: Foreign and Commonwealth Office, 2009, 169 p.
3. Maculan A., Ronco D. Prison in Europe: overview and trends. Francesca: Vianello, 2013, 62 p.
4. Morgan, R. and Liebling, A. 'Imprisonment: An Expanding Scene'. Oxford: Oxford University Press, 2007, 1185 p.
5. Murdoch J., Jiricka V. Combating ill-treatment in prison. France: Council of Europe, 2016, 90 p.
6. Uggen C., Manza J., Thompson M. Citizenship, Democracy, and the Civic Reintegration of Criminal Offenders. Evanston: Institute for Policy Research at Northwestern University, 2006, 548 p.
7. "Azərbaycanda cəza çəkməkdən azad edilmiş 3 550 nəfər şəxs birdəfəlik müavinətlə təmin edilib" // https://azertag.az/xeber/Azerbaycanda_ceza_chekmekden_azad_edilmis_3_550_nefer_sexs_birdefelik_muavinetle_temin_edilib-803396, 2014
8. "Cəza çəkməkdən azad edilmiş şəxslər üçün Sosial Adaptasiya Mərkəzi yaradılıb" // https://apa.az/az/sosial_xeberler/xeber_ceza_cekmekden_azad_edilmis_sexsler_ucun_-489443, 2017
9. "Cəza çəkməkdən azad edilən 34 nəfər özünüməşğulluq proqramına cəlb olunub" // http://xalqqazeti.com/az/news/2090, 2018
10. "Cəza çəkməkdən azad edilmiş 5 mindən artıq şəxsə birdəfəlik müavinət ödənilib" // https://az.trend.az/azerbaijan/society/2843703.html, 2018
11. İşləməyən əhaliyə dövlət tərəfindən verilən sosial müavinətlər // https://www.stat.gov.az/source/healthcare/
12. Müavinətlər // http://sosial.gov.az/m%C3%BCavin%C9%99tl%C9%99r
13. Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiya mərkəzlərinin yaradılması haqqında Əsasnamə // http://www.e-qanun.az/alpidata/framework/data/14/f_14953.htm, 2008
14. "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin müvəqqəti yaşayış yeri ilə təmin olunma qaydası və həmin müvəqqəti yaşayış yerlərində yaşamaq müddətinin artırılmasının müstəsna halları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı // http://e-qanun.gov.az/alpidata/framework/data/14/f_14216.htm, 2008

15. “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilənlərin sosial adaptasiyası məqsədilə görüləcək birgə tədbirlər müəyyən edildi” // http://sosial.gov.az/3248?fbclid=IwAR2Teog4HDcnAocIodgV0c9a-8c8cB9OFMzG2T-csXuKNAfQWjy9i1Hvo_4, 2020
16. “Son 5 ildə iş üçün müraciət edənlərin 545 nəfəri işlə təmin olunub” // https://sputnik.az/life/20190407/419948462/Kecmis-mehkumlarin-problemi-issizlik.html, 2019
17. “2020-2026-cı illərdə Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair Milli Strategiyanın”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // http://sosial.gov.az/uploads/images/image_750x_5d2c2a78da75f.pdf, 28 s.
18. Barriers to Work: People with Criminal Records // https://www.ncsl.org/research/labor-and-employment/barriers-to-work-individuals-with-criminal-records.aspx
19. Blue Sky, Blue Sky Annual Review // http://www.blueskydevelopment.co.uk
20. European Committee for the Prevention of Torture and Inhuman or Degrading Treatment or Punishment // https://rm.coe.int/16809e80e1, 2019, 99 p.
21. European Prison Rules // https://search.coe.int/cm/Pages/result_details.aspx?ObjectID=09000016805d8d25
22. House of Commons of the United Kingdom // https://en.wikipedia.org/wiki/House_of_Commons_of_the_United_Kingdom
23. Loss of rights due to conviction for criminal offense // https://en.wikipedia.org/wiki/Loss_of_rights_due_to_conviction_for_criminal_offense
24. Passport Polmont // https://accesstoindustry.co.uk/services-for-young-people/passport-polmont/
25. Preventing Torture. An Operational Guide for National Human Rights Institutions. Association for the Prevention of Torture // https://www.ohchr.org/Documents/Publications/PreventingTorture.pdf, 2002, 116 p.
26. Prison conditions in the Member States: selected European standards and best practices // https://www.europarl.europa.eu/RegData/etudes/BRIE/2017/583113/IPOL_BRI(2017)583113_EN.pdf, 2017, 12 p.
27. Prison life // https://www.gov.uk/life-in-prison/education-and-work-in-prison
28. Punishment That Works – less crime – a safer society: Report to the Storting on the Norwegian Correctional Services // http://www.kriminalomsorgen.no/getfile.php/757321.823.pysuvuxtrf/engelsk.pdf, 2011, 19 p.
29. Systematic review on active case finding of communicable diseases in prison settings // https://www.emcdda.europa.eu/system/files/publications/6579/Systematic-review-on-communicable-diseases-prison-settings.pdf, 2017
30. The Charter of Prisoners and Internees Rights and Duties // https://www.giustizia.it/resources/cms/documents/Carta_dei_diritti_inglese.pdf, 2013, 45 p
31. The Social Reintegration of Ex-Prisoners // http://www.qcea.org/wp-content/uploads/2011/05/rprt-reintegration-full-en-may-2011.pdf, 2011, 156 p.
32. UN Standard Minimum Rules for the Treatment of Prisoners https://www.unodc.org/pdf/criminal_justice/UN_Standard_Minimum_Rules_for_the_Treatment_of_Prisoners.pdf , 1977, 14 p.

***Açar sözlər:*** *cinayət, cəza, sosial adaptasiya, qanunvericilik, dünya təcrübəsi, Azərbaycan təcrübəsi*

**Aysham Balayeva**
*PhD candidate, Department of Sociology, Baku State University*

## THE EXPERIENCE OF SOCIAL ADAPTATION OF PERSONS RELEASED FROM PUNISHMENT IN EUROPEAN COUNTRIES AND AZERBAIJAN

### SUMMARY

The paper discusses the key principles of programs that serve the rehabilitation and social adaptation of people released from prison. The practical application of the requirements and shortcomings of local and international legal documents were analyzed as well. Moreover. It was found that the weak mechanism for the implementation of legal documents, the systematic management of activities from a single center, the lack of initiative of the parties are the main factors that negatively affect the social adaptation of people released from prison. On the other hand, drug addiction, isolation, lack of personal interest, and life imprisonment of prisoners also impede rehabilitation.

Programs for prisoners and people released from prison in developed countries were reviewed by using the comparative analysis method. It was determined that in most countries, programs started from the first stage of incarceration. The programs cover areas such as education, employment, medical and psychological therapy. Having said that, depending on the need, the person is still involved in the programs after release. However, since the implementation of programs in different countries does not have the same characteristics, the results are not equally effective.

The same principle was applied to the social rehabilitation programs provided for prisoners in Azerbaijan and the situation of the Social Adaptation Center. The analysis demonstrated that the social adaptation of people released from prisons in the country is slowed down by practical factors, especially due to the non-functioning of the Social Adaptation Center. In addition, for many years, the social adaptation of the liberated was carried out by the Social Protection Centers operating under the Ministry of Labor and Social Protection of the Population of Azerbaijan. In this case, lack of systematic action are factors that prevent former prisoners from fully utilizing the programs and returning to their normal life. These problems not only impede the social adaptation of those released from prison but also lead to the spread of crime in society. The isolation of ex-prisoners from society is also a violation of human rights. To ensure public safety and human rights, the social adaptation of ex-prisoners should be among the priority actions of the state.

***Keywords:*** *crime, punishment, social adaptation, legislation, world countries experience, Azerbaijani experience*

**Айшам Балаева**
*Докторант кафедры Социологии*
*Бакинского Государственного Университета*

## ОПЫТ СОЦИАЛЬНОЙ АДАПТАЦИИ ЛИЦ, ОСВОБОЖДЕННЫХ ОТ НАКАЗАНИЙ В ЕВРОПЕЙСКИХ СТРАНАХ И АЗЕРБАЙДЖАНЕ

### РЕЗЮМЕ

В статье рассматриваются общие принципы программ, которые служат реабилитации и социальной адаптации лиц, освобожденных из мест лишения свободы. В этом контексте проанализированы практическое применение и требования соответствующих местных и международных правовых документов, установлены факторы, негативно влияющие на социальную адаптацию лиц, освобожденных из мест лишения свободы, а также препятствующие реабилитации заключенных.

С использованием метода сравнительного анализа были рассмотрены программы для заключенных и освобожденных заключенных в развитых странах, которые в большинстве стран программы начаты с первой стадии лишения их свободы. Программы охватывают такие области, как образование, занятость, медицинская и психологическая терапия, однако, так как реализация программ в разных странах не имеет одинаковых характеристик, результаты не бывают эффективны в равной мере.

По тому же принципу были рассмотрены предусмотренные законом программы социальной реабилитации для заключенных в Азербайджане, и положение Центра Социальной Адаптации. Проведенный анализ показал, что в стране социальная адаптация лиц, освобожденных из мест лишения свободы, замедляется из-за наличия некоторых практических факторов, и в этом смысле требуется усиление систематических действий, позволяющих бывшим заключенным в полной мере использовать программы и вернуться к нормальному образу жизни. Ибо возникающие проблемы могут препятствовать социальной адаптации лиц, освобожденных из мест заключения, способствовать распространению преступности в обществе. Для обеспечения общественной безопасности и прав человека, социальная адаптация бывших заключенных должна иметь место среди приоритетных действий государства.

***Ключевые слова:*** *преступление, наказание, социальная адаптация , законодательство, мировой опыт, Азербайджанский опыт*

# DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASINDA

### *Dövlət İdarəçilik Akademiyasında dərslər onlayn formada davam etdirilir*

Koronavirus epidemiyasının yayılmasının qarşısının alınması üçün orta və ali məktəblərdə tədris prosesinin aprelin 20-dək dayandırıldığı nəzərə alınaraq Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında təhsilin davamlılığını təmin etmək məqsədilə dərslər distant tədris olunur.

Tələbələrin tədrisdən geri qalmaması, təhsil proqramlarının mənimsənilməsi məqsədilə onlayn platformalar üzərindən dərslər davam etdirilir. "Zoom call" proqramı ilə tədris olunan distant dərslərə bütün fakültə və ixtisaslar üzrə əyani təhsil alan bakalavr və magistrlər cəlb olunur. Ümumilikdə isə bütün bakalavr tələbələrin distant təhsilə cəlb olun-ması nəzərdə tutulur. Dərslər növbəli şəkildə saat 08:00-dan 20:20-dək tədris edilir.

Yaxın günlərdə akademiyanın ixtisasartırma pilləsində təhsil alan müdavimlər üçün də onlayn dərslərə başlanacaq.

### *Dövlət İdarəçilik Akademiyasında distant tədrislə bağlı hesabat dinlənilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) Elmi Şurasının onlayn şəkildə iclası keçirilib. İclasda DİA-da distant tədrisin vəziyyəti müzakirə edilib.

Onlayn iclası açan DİA-nın rektoru, akademik Urxan Ələkbərov ölkədə COVID-19 pandemiyasının yayılmasının qarşısının alınmasına yönəlmiş tədbirlərin əhəmiyyətindən danışıb. Rektor bu sınaq dövründə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın hər bir vətəndaşa həssas münasibətini, xalqa ünvanlanan fərqli, səmimiyyət və qayğı dolu çağırışlarını xüsusi qeyd edib. Akademik Azərbaycan Prezidentinin rəhbərliyi ilə ölkədə həyata keçirilən operativ tədbirlər sayəsində pandemiyanın miqyasının nəzarətdə saxlanıldığını, bu proses çərçivəsində həssas təbəqəyə aid vətəndaşların qorunması ilə bağlı önəmli addımlar atıldığını vurğulayıb. Qeyd edib ki, bu dönəmdə DİA-nın üzərinə düşən vəzifə tələbələrin tədrisdən geri qalmaması, təhsil proqramlarının mənimsənilməsidir. Bu məqsədlə akademiyada onlayn platformalar üzərindən dərslər davam etdirilir. Distant dərslərə bütün fakültə və ixtisaslar üzrə əyani təhsil alan bakalavr və magistrlər cəlb olunur. Yaxın günlərdə akademiyanın ixtisasartırma pilləsində təhsil alan müdavimlər üçün də onlayn dərslərə başlanılacaq.

Onlayn iclasda distant tədrisin gedişatı ilə bağlı problemlər müzakirə edilib, bunun üçün əlavə olaraq "Microsoft Teams" və digər platformaların istifadə imkanları dəyərləndirilib, tədris materialları, dərs cədvəllərinin yükləndiyi diqqətə çatdırılıb. Həmçinin distant təhsilin idarəedilməsi üzrə işçi heyətin formalaşdığı, bakalavr və magistrantlar üçün bütün dərslərin məsafədən davam etdirilməsi üçün lazımi işlərin tamamlandığı qeyd edilib. Qiyabi təhsil alan müdavimlərin imtahanlarının distant təşkili, yay məktəbinin də distant formada keçirilməsinə hazırlıq, eləcə də operativliyin təmin edilməsi məqsədilə dekanlıqların onlayn işinin təkmilləşdirilməsi üçün tapşırıqlar verilib.

Onlayn iclasda struktur rəhbərləri görülən işlərlə bağlı hesabatla çıxış ediblər.

Prorektorlar – professor Əlikram Abdullayev, hüquq üzrə fəlsəfə doktoru Cəfər Eyvazlı, dekanlar, professor Xatirə Hüseynova, professor Elçin Əhmədov, dosent Elmira Zeynalova, professor Gülnarə Qurbanova, kafedra müdirləri – dosent Fəxrəddin Nağıyev, dosent Yusif Ağayev, şöbə müdirləri – professor Ziyafət Həbibova, dosent Rəcəb Rəhimli və başqaları çıxış edərək tələbələrlə onlayn platformalarda

tədrisin əhəmiyyətini vurğulayıb, qarşıda duran bəzi problemlərin həlli yollarını müzakirə ediblər.

Qeyd olunub ki, bu günlərdə tələbələrin və əməkdaşların yeni təhsil texnologiyalarını mənimsəmələri üçün onlara dəstək göstərilməlidir.

### *Onlayn dərslərin nəticələri və yeni həllər müzakirə edilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası "Dillər kafedrası"nın onlayn iclası keçirilib. Onlayn iclasda DİA-nın Dillər kafedrası üzrə keçirilən fənlərin distant platformaya inteqrasiyası, dərslərin nəticələri, daha da səmərəli keçirilməsi yolları və informasiya kommunikasiya texnologiyaları vasitəsi ilə yeni həllərin tətbiqi müzakirə edilib.

Onlayn iclası açan DİA-nın "Dillər kafedrası"nın müdiri f.ü.f.d. dosent Yusif Ağayev ölkədə COVID-19 pandemiyasının yayılmasının qarşısının alınmasına yönəlmiş tədbirlərin əhəmiyyətindən danışıb. Dosent Yusif Ağayev qeyd edib ki, 2020-ci il dünya üçün sınaq ili olaraq başlayıb. Koronavirus (COVID-19) qlobal problemə çevrilərək dünyanı vahiməyə salıb. Koronavirus epidemiyası gündəlik həyatın ritmini dəyişib, yeni idarəetmə və münasibətlər sistemi formalaşdırıb. Bu virusun dünyada yayıldığı ilk gündən Azərbaycan Prezidenti İlham Əliyevin qəbul etdiyi çevik və doğru qərarlar, risklərin düzgün idarə edilməsi istiqamətində verdiyi qəti göstərişlər əhali arasında xəstəliyin geniş yayılmasının ciddi şəkildə qarşısını alır. Bununla yanaşı Nazirlər Kabineti yanında Operativ Qərargahın yaradılması və onun çevik fəaliyyəti xəstəliklə mübarizədə daha hazırlıqlı mövqedə olmağımızı təmin edir.

Onlayn iclasda kafedra üzrə distant tədrisin gedişatı ilə bağlı məsələlər müzakirə edilib, "Microsoft Teams" və digər platformaların istifadə imkanları dəyərləndirilib. Eləcə də onlayn dərslərin operativliyini təmin edilməsi, daha da keyfiyyətli, nəticəyönümlü olması üçün tövsiyələr verilib.

Onlayn iclasda kafedranın müəllimləri indiyədək keçirilən dərslərlə bağlı vəziyyəti məruzə ediblər.

Aydın Məmmədov, Məlahət Osmanova, Könül Abdurrəhimova, Tamella Hüseynova, Aynur Fərmanova, Solmaz İsmayılova, Məryam İsgəndərli, Gülsərən Ömərova, İradə Əsədova, Gülxanım İsmixanova, Günay Maqsudova, Zenfira Əhmədova, Nigar Gözəlova, Adilə Əsədova, Fidan Abdurrəhmanova, Nabat Həsənova, Aygün Rzayeva, Nərmin Sadıqova və başqaları çıxış edərək tələbələrlə onlayn platformalarda tədrisin əhəmiyyətini vurğulayıb, keçirilən dərslərdə tələbələrin daha da fəal iştirakını təmin etmək üçün həllər müzakirə edilib, gələcək dərslərin daha da səmərəli keçirilməsi yolları ilə əlaqədar fikir mübadiləsi ediblər.

### *Dövlət İdarəçilik Akademiyasında növbəti onlayn müşavirə keçirilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) növbəti onlayn müşavirə keçirilib. Onlayn müşavirədə mövcud vəziyyətin təhlili, DİA-da distant tədrisin davamlılığının təmin edilməsi və digər məsələlər müzakirə edilib.

Onlayn müşavirəni açan DİA-nın rektoru, akademik Urxan Ələkbərov ölkədə COVID-19 pandemiyasının yayılmasının qarşısının alınmasına yönəlmiş tədbirlərin əhəmiyyətindən danışıb. Rektor Azərbaycan Prezidentinin rəhbərliyi ilə ölkədə həyata keçirilən operativ tədbirlər sayəsində pandemiyanın miqyasının nəzarətdə saxlanıldığını, bu proses çərçivəsində həssas təbəqəyə aid vətəndaşların qorunması ilə bağlı önəmli addımlar atıldığını vurğulayıb. Qeyd edib ki, bu dönəmdə DİA-nın üzərinə düşən vəzifə tələbələrin tədrisdən geri qalmaması, təhsil proqramlarının mənimsənilməsidir.

Onlayn müşavirədə təhsil alanların imtahanlarının distant təşkili, yay məktəbinin distant formada keçirilməsinə hazırlıq, eləcə də operativliyin təmin edilməsi məqsədilə dekanlıqların onlayn işinin təkmilləşdirilməsi ilə bağlı tapşırıqlar verilib.

Onlayn müşavirədə struktur rəhbərləri görülmüş işlərlə bağlı hesabatla çıxış ediblər.

Prorektor professor Əlikram Abdullayev, professor Elçin Əhmədov, professor Xatirə Hüseynova, dosent Elmira Zeynalova, professor Gülnarə Qurbanova, professor Ziyafət Həbibova, dosent Fəxrəddin Nağıyev, dosent Rəcəb Rəhimli və başqaları çıxış edərək tələbələrlə onlayn platformalarda tədrisin vacibliyini vurğulayıb, gələcək fəaliyyət istiqamətini müzakirə ediblər.

***Dövlət İdarəçilik Akademiyasında Ümummilli lider Heydər Əliyevin xatirəsi anılıb***

Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr edilmiş "Heydər Əliyev və Azərbaycanın milli inkişaf strategiyası" adlı onlayn elmi konfrans keçirib.

Konfransda DİA-nın rektoru, akademik Urxan Ələkbərov açılış nitqi ilə çıxış edib. Akademik, ümummilli lider, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətlərini xatırladıb. Qeyd edib ki, Azərbaycanın müasir tarixində Heydər Əliyevin müstəsna xidmətləri, onun irsi hələ uzun illər tədqiqatçıların diqqət mərkəzində olacaq, Azərbaycan adı yaşadıqca, o da daim xalqımızın yaddaşında, ürəklərdə yaşayacaqdır. Rektor U.Ələkbərov Heydər Əliyevin ölkəmizin uğurlu inkişafı sahəsində başladığı nəhəng işlər, möhtəşəm layihələrin bu gün onun layiqli davamçısı ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla və yaradıcılıqla davam etdirildiyini diqqətə çatdırıb.

Onlayn konfransda Milli Məclisin deputatı Dövlət İdarəçilik Akademiyasının "Siyasi Araşdırmalar İnstitutu"nun direktoru, siyasi elmlər doktoru, professor Elman Nəsirov "Həydər Əliyev irsi və müasirləşən Azərbaycan", Milli Məclisin deputatı Məzahir Əfəndiyev "Müasir Azərbaycanın beynəlxalq ictimaiyyətə inteqrasiyasının əsası ulu öndər tərəfindən qoyulmuşdur", Dövlət İdarəçilik Akademiyası Siyasi idarəetmə fakültəsinin dekanı, siyasi elmlər doktoru, professor Elçin Əhmədov "Heydər Əliyev – Azərbaycanın milli maraqlarını hər zaman uca tutan dahi lider", adlı məruzə ilə çıxış ediblər.

Məruzələrdə ulu öndər Heydər Əliyevin zəngin həyat yolu və fəaliyyətindən, demokratik, hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu islahatlardan danışılmış, onun parlaq zəkası, dövlətçilik təcrübəsi, yenilməzliyi və cəsarəti ilə müstəqil Azərbaycan dövlətini məhvolma təhlükəsindən qoruyub saxlamasını, Ümummilli lider Heydər Əliyevin vətən və xalq qarşısında xidmətləri xatırlanmışdır.

***Dövlət İdarəçilik Akademiyasının Tələbə Elmi Cəmiyyəti Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 97-cı ildönümünə həsr olunmuş onlayn elmi konfrans keçirmişdir***

10 may 2020-ci il tarixində DİA Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş "Heydər Əliyevin siyasi kursu müstəqil Azərbaycanın sürətli inkişafının təməli kimi" mövzusunda onlayn elmi konfrans keçirilmişdir.

Konfransı Akademiyanın rektoru, akademik Urxan Ələkbərov giriş sözü ilə açaraq, Ümummilli lider, bütün dünyada tanınan görkəmli siyasətçi və dövlət xadimi Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin inkişafı yolunda misilsiz xidmətlərindən geniş söhbət açmış, onun zəngin dövlətçilik irsini böyük

müvəffəqiyyətlərlə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın sürətli inkişafını nüfuzlu beynəlxalq təşkilatların məlumatlarına isinad edərək arqumentli şəkildə səciyyələndirmişdir. Rektor Tələbə Elmi Cəmiyyəti tərəfindən onlayn formatda təşkil olunmuş elmi konfransın Akademiyanın tələbə və magistrantlarının müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin dövlətçilik irsinə böyük maraq göstərdiklərini təsdiq etdiyini və belə tədbirlərin keçirilməsinin təqdirəlayiq olduğunu qeyd etmiş, elmi konfransın işinə uğurlar arzulamışdır.

Sonra DİA Tələbə Elmi Cəmiyyətinin sədri, dosent Sevil Məmmədova Ümummilli liderimiz Heydər Əliyevin müstəqil Azərbaycan dövlətçiliyinin inkişafı naminə yorulmaz fəaliyyəti ilə bağlı ətraflı məruzə etmiş, Ulu Öndərin qoyduğu möhkəm təməl üzərində onun layiqli siyasi varisi Azərbaycan Prezidenti İlham Əliyevin reallaşdırdığı ardıcıl siyasət nəticəsində olkəmizin sürətli sosial-iqtisadi inkişafa nail olduğunu və dünya birliyində özünə layiqli yer tutduğunu əsaslı şəkildə diqqətə çatdırmışdır. Məruzə ətrafında “Heydər Əliyevin Sovet dövründə Azərbaycanın gələcəyinə hesablanmış siyasəti”, “Heydər Əliyevin milli inkişaf strategiyası”, “Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin banisidir”, “Heydər Əliyevin neft strategiyası fəaliyyətdədir”, “Heydər Əliyevin xarici siyasət strategiyası”, “Heydər Əliyev və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli problemi”, “İlham Əliyev Ulu öndər Heydər Əliyevin layiqli siyasi varisidir”, “Azərbaycan Prezidenti İlham Əliyevin sürətli sosial-iqtisadi inkişaf strategiyası”, “Müasir mərhələdə Azərbaycan diplomatiyasının uğurları”, Azərbaycan Respublikasında çoxpartiyalı sistemin formalaşmasında Heydər Əliyevin rolu” və digər mövzularda maraqlı çıxışlar dinlənilmiş və geniş fikir mübadiləsi aparılmış, Ümummilli lider Heydər Əliyevin zəngin dövlətçilik irsinin bütün sahələr üzrə dərindən tədqiq edilməsinə əminlik ifadə olunmuşdur

### *Dövlət İdarəçilik Akademiyasında “Dövlət idarəçiliyində islahatların yeni mərhələsi” mövzusunda onlayn elmi-praktiki konfrans keçirilib*

Mayın 14-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında doktorant və dissertantların Ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş “Dövlət idarəçiliyində islahatların yeni mərhələsi” mövzusunda onlayn elmi-praktiki konfrans keçirilib. Elmi təşkilat və beynəlxalq əlaqələr şöbəsinin təşkilatçılığı ilə keçirilən konfrans DİA-nın “Trueconf” platformasında reallaşıb.

Konfransı giriş sözü ilə açan rektor, akademik Urxan Ələkbərov tarixi nöqteyi-nəzərdən Azərbaycanın müstəqilliyinin bərpasından çox vaxt keçməsinə baxmayaraq, ölkədə iqtisadi, sosial və humanitar inkişafda yüksək göstəricilər qazanıldığını vurğulayıb. U.Ələkbərov bu uğurların qazanılmasında müasir Azərbaycanın əsasını qoymuş Ümummilli Lider Heydər Əliyev önəmli xidmətləri olduğuna da diqqət çəkib. Akademik 2003-cü ildən bu yana Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda yeni tarixin yazıldığını deyib. Rektor bildirib ki, yüksək siyasi idarəçilik və liderlik keyfiyyətlərinə malik ölkə Prezidenti cənab İlham Əliyevin prioritetləri düzgün müəyyənləşdirmək və hadisələri önləmək bacarığı, həmçinin tətbiq etdiyi unikal idarəçilik texnologiyaları və dəqiq planlaşdırılmış inzibati və iqtisadi islahatlar, ölkənin inkişaf strategiyasının həyata keçirilməsi üçün seçilən çevik mexanizm sayəsində Azərbaycan bir çox sahələrdə, o cümlədən davamlı inklüziv inkişaf sahəsində qlobal və regional liderə çevrilib. Beynəlxalq qurumların da birmənalı şəkildə təsdiqlədiyi bu uğurlar eyni zamanda ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən uğurlu sosial

siyasət və sosial-humanitar layihələrin məntiqi nəticəsidir.

Konfransın işində iştirak edən natiqlər "İslahatlar siyasi institutlaşmanın mühüm mərhələsi kimi", "Dağlıq Qarabağ münaqişəsinin həllində beynəlxalq mediatorların iştirakı və Ümummilli lider Heydər Əliyev vizyonu", "Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında Heydər Əliyevin rolu", "Post-sosializm mərhələsi: keçidi şərtləndirən amillər", "Azərbaycan Respublikasında davamlı inkişafın təmin edilməsinin siyasi aspektləri", "Sivilizasiyaların toqquşması" 25 il sonra", "Dövlət–özəl tərəfdaşlığı: nəzəri və tarixi aspekt", "Qloballaşma şəraitində hərbi münaqişələrin yaratdığı humanitar problemlər", "Klasterləşmənin sənayedə rolu", "Qlobal informasiya cəmiyyəti konsepsiyalarının nəzəri əsasları", ""Breksit" və səbəbləri" və s. aktual mövzularda məruzələr ediblər.

Yekunda təqdimatlar ətrafında fikir mübadiləsi aparılıb.

### *Dövlət İdarəçilik Akademiyası onlayn video konfransda iştirak etmişdir*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə Azərbaycan Respublikasının Diasporla iş üzrə Dövlət Komitənin birgə onlayn video konfranslar təşkil edilmişdir.

Xarici ölkələr üzrə təşkil olunmuş onlayn video konfransda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov "Azərbaycan Respublikasının davamlı inklüziv inkişafın idarəedilməsi sahəsində dünya liderliyini təmin edən innovativ dövlət idarəçiliyi texnologiyaları" mövzusunda məruzə ilə çıxış etmişdir.

Növbəti onlayn video konfransda İsveçrənin Friburq Universitetinin Beynəlxalq hüquq bölümünün tədqiqatçısı Ramil Dursunov "Sosial sistemlər nəzəriyyəsinə giriş", Şimali Karolina Universitetinin Konfliktologiya bölməsinin direktoru, Amerika Azərbaycan Alimləri şəbəkəsinin direktoru Əli Əskərov "İqtisadi inkişaf və dövlət quruculuğunda neftin rolu" mövzusunda məruzə ilə çıxış etmişlər.

Onlayn konfransda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbələri aktiv iştirak etmişlər.

### *Dövlət İdarəçilik Akademiyasında onlayn elmi konfrans keçirilib*

Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) Azərbaycan Xalq Cümhuriyyətinin 102 illiyinə həsr edilmiş onlayn elmi konfransı keçirilib.

Onlayn konfransın açılışında çıxış edən DİA-nın rektoru, akademik Urxan Ələkbərov Azərbaycan Xalq Cümhuriyyətinin dünya tarixinin ən demokratik dövlət qurumlarından biri olduğunu söyləyib. Cümhuriyyətin XX əsrin əvvəllərində olduqca mürəkkəb beynəlxalq şəraitdə yarandığını deyən U.Ələkbərov müsəlman Şərqində ilk demokratik respublikanın məhz Azərbaycanda yaradılmasının əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, tarixin ən çətin, ən mürəkkəb dövründə yaranan Azərbaycan Xalq Cümhuriyyəti demokratik ənənələrə malik idi. Cümhuriyyətin yaranması tarixi bir hadisə idi. Azərbaycan Xalq Cümhuriyyəti dünya tarixində öz demokratikliyi ilə seçilirdi. Rektor vurğulayıb ki, Ümummilli lider Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə, ölkəmizlə bağlı həqiqətlərin üzə çıxarılmasına və dünyaya çatdırılmasına hər zaman böyük diqqət yetirib. Prezident İlham Əliyevin Sərəncamı ilə 2018-ci ilin ölkəmizdə "Azərbaycan

Xalq Cümhuriyyəti İli" elan edilməsini, bu sahənin elmi araşdırılması və cümhuriyyəti quran aydınlarının xatirələrinin əbədiləşdirilməsinə olan diqqəti, xalqımızın həyatında mühüm hadisə kimi dəyərləndirən rektor vurğulayıb ki, bu, müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinə verilən tarixi yüksək qiymətdir.

Onlayn konfransda Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının müdiri, dosent Firdovsiyyə Əhmədova, Siyasi idarəetmə fakültəsinin dekanı, professor Elçin Əhmədov, Hüquq kafedrasının dosenti Rahib Əkbərov məruzə ilə çıxış edərək 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tariximizdə silinməz izlər qoyduğunu söyləyiblər. Diqqətə çatdırılıb ki, Cümhuriyyət xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə ölkəmizin gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlayıb, müsəlman xalqlarına müstəmləkəçilikdən xilas olmağın yolunu göstərib. Qısa müddətdə tarixi bir missiyanı yerinə yetirən Azərbaycan Xalq Cümhuriyyəti genişmiqyaslı demokratik islahatlar həyata keçirib. Avropanın bir çox ölkələrindən xeyli əvvəl qadınlara seçib-seçilmək hüququ verən Cümhuriyyət bununla bütün dünya demokratiyasına böyük töhfə verib. Azərbaycan Xalq Cümhuriyyəti dövründə xalqımızın taleyinə ciddi təsir edə biləcək qanun və qərarların qəbul olunduğu vurğulayıblar.

## *Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının yaz imtahan sessiyası və Yekun Dövlət Attestasiyası ilə bağlı qərarı*

Yaz imtahan sessiyasında:

– İmtahan sessiyasına mövcud akademik təqvimdə ayrılan həftələrin sayı 4 həftə müəyyən edilsin və 16 iyun – 13 iyul tarixlərində keçirilsin. Bütün imtahanlar distant formada keçirilir (test və şifahi olmaqla);

– İmtahan sessiyasında iştirak edə bilməyən və ya qeyri-müvəffəq qiymət almış tələbələr avqust – sentyabr aylarında təkrar distant imtahan verə biləcəklər. Əlavə olaraq tələbə hər bir semestrdə mühazirələri yenidən dinləmədən akademik borcu əvvəlki semestrlərdə yaranmış iki fənn üzrə (hər fənndən bir dəfə olmaqla) də imtahanda iştirak edə bilər (tələbələrin müraciəti əsasında).

– Təkrar imtahanlar ödənişsizdir.

– Test və şifahi imtahan sualları imtahana 10 gün qalmış təhsilalanlara göndəriləcəkdir.

– İstər iyun-iyul aylarında, istərsə də avqust-sentyabr aylarında keçiriləcək sessiyalarda iştirak edən tələbələr təqaüd müsabiqəsində iştirak edəcək və təqaüd almaq hüququ olan tələbələrin siyahısı sentyabr ayında müəyyən ediləcək. Yaz imtahan sessiyasında təqaüd müəyyən edilən zaman bərabər bal toplamış tələbələrdən təhsil müddətində ümumi orta müvəfəqiyyət göstəricisi (ÜOMG) yüksək olanlara üstünlük veriləcək.

– Bakalavr və magistratura səviyyəsi üzrə əyani təhsil alan tələbələrin hər iki formada (test və şifahi) cavablarının qiymətləndirilməsi aralıq qiymətləndirmə üzrə 100 ballıq sistemlə aparılır. Test imtahanı zamanı fənn üzrə verilmiş test bazasından hər biri 2 bal qiymətləndirməklə 50 test təqdim olunur.

Buraxılış kursları üzrə:

– Buraxılış kursları üçün əvvəlki semestrlərdən yaranmış akademik borclar üzrə təkrar imtahanlar yaz imtahan sessiyası başlayanadək, Yekun Dövlət Attestasiyası isə 5 iyul 2020-ci il tarixinədək təşkil ediləcəkdir.

– Əvvəlki semestrlərdən qalan akademik borclar üzrə təkrar imtahanlarda iştirak edən bakalavr və magistrantlar üçün akademik borcun yaranmış semestrdəki cari qiymətləndirmə nəticəsi əsas götürülür və təkrar olduğu imtahanlar distant formada test və ya şifahi üsul ilə təşkil olunur.

Təcrübələr üzrə:

– Bakalavriat və magistratura səviyyəsi üzrə əyani və qiyabi təhsil alan buraxılış kurs tələbələrinin təcrübələr üzrə qiyməti 100 bal olaraq müəyyən edilir.

Yekun Dövlət Attestasiyasiyası üzrə:

– Bakalavriat və magistratura səviyyəsində buraxılış işini (magistr dissertasiyası) yerinə yetirən tələbələrin buraxılış işləri elektron formada, elmi rəhbərin rəyi və referat ilə birlikdə ixtisas kafedralarına göndərilir, müdafiə komissiyaları tərəfindən baxıldıqdan sonra tələbənin ÜOMG nəzərə alınmaqla qiymətləndirilir. Yekun qiymətləndirmənin nəticəsi ilə razı olmayan bakalavrlar və magistrların müraciətləri əsasında, onlar üçün Yekun Dövlət Attestasiyası distant formada 5 iyul tarixinə qədər təşkil edilir.

### *Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası “Qlobal fövqəladə şəraitdə innovativ dövlət idarəçiliyi texnologiyaları: Azərbaycanın təcrübəsi” adlı təlim keçirib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA) Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birgə Kürdəmir “ASAN xidmət” mərkəzi əməkdaşları və könüllüləri üçün növbəti onlayn təlim keçirib.

“Qlobal fövqəladə şəraitdə innovativ dövlət idarəçiliyi texnologiyaları: Azərbaycanın təcrübəsi” mövzusunda keçirilən təlimdə DİA-nın rektoru, akademik Urxan Ələkbərov bildirib ki, Azərbaycan Respublikası müstəqilliyini yalnız 29 il öncə bərpa etməsinə baxmayaraq, qısa dönəmdə inklüziv və davamlı inkişaf sahəsində nəzərəçarpan uğurlara imza atıb. Bu uğurlar beynəlxalq qurumlar və müstəqil ekspertlərin hesabatlarında öz əksini tapıb. Məruzədə beynəlxalq təşkilatların 2019-cu ildə dərc edilmiş rəsmi statistik bilgiləri təhlil olunub. Eyni zamanda, Davos Dünya Forumunun təsisçisi və fəxri prezidenti, professor Klaus Martin Şvabın hazırladığı qlobal hesabat nəzərdən keçirilib. Bildirilib ki, həmin hesabatda Azərbaycan dünyanın ən səmərəli sosial siyasət həyata keçirən ölkəsi kimi xarakterizə olunub. Qeyd edib ki, Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Prezident İlham Əliyevin uğurla inkişaf etdirdiyi innovativ idarəetmə texnologiyalarının nəzəri əsaslarının işlənilməsi, onların təcrübədə tətbiqi nəticəsində bir sıra iqtisadi və sosial göstəricilərinə görə müasir Azərbaycan Respublikası hazırda yüz illik tarixi olan və dünya liderləri sayılan ölkələrlə rəqabət aparmaq durumundadır.

Təlim iştirakçıları Azərbaycanda tətbiq edilən və dünya miqyasında ilk dəfə işlənilmiş sinergetik, komplimentar və kompensasion texnologiyaların mahiyyəti barədə məlumatlandırılıb. Sözügedən texnologiyaların işlənilməsi və həyata keçirilməsi prosesində ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xüsusi rolu olduğu diqqətə çatdırılıb.

Onlayn təlimdə çıxış edən Milli Məclisin deputatı Məzahir Əfəndiyev dünyada və regionda yeni təhlükəsizlik mühitinin formalaşmasına Azərbaycan Respublikasının töhfəsindən danışıb. Natiq çıxışında qloballaşma dönəmində təhlükəsizlik anlayışının daha geniş məna kəsb etdiyinə diqqət çəkib. Eyni zamanda, məruzəçi ictimai rəyin getdikcə artan təsiri və dünya dövlətlərinin bir-birindən asılılığı şəraitində müdafiə obyektinin coğrafi genişlənməsi problemini dünya təhlükəsizliyi üçün önəmli fenomen kimi qeyd edib. Eyni zamanda, diqqətə çatdırıb ki, Azərbaycan Respublikasında dövlət orqanlarının fəaliyyətinin təşkilinə ən vacib konseptual innovativ yanaşma dövlət qulluğu sisteminin təkmilləşdirilməsinin bir çox istiqamətlərini özündə cəmləşdirən nəticəyönümlü idarəetmə prinsip və qaydalarının bu sahədə tətbiqidir.

Təlimin sonunda iştirakçıların sualları cavablandırılıb.

## *Dövlət İdarəçilik Akademiyasında Milli Qurtuluş Gününə həsr olunmuş onlayn elmi konfrans keçirilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası 15 iyun – Milli Qurtuluş Gününə həsr olunmuş onlayn elmi-praktik konfrans keçirib.

Tədbirdə DİA-nın rektoru, akademik Urxan Ələkbərov çıxış edərək müasir müstəqil dövlətimizin memarı və qurucusu, Ulu öndər Heydər Əliyevin müstəsna tarixi xidmətlərindən, zəngin dövlətçilik təcrübəsindən danışıb. Rektor 1993-cü ildə xalqın təkidli tələbi ilə dahi şəxsiyyət Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkəmizin bəlalardan xilas olaraq böyük inkişaf yoluna çıxdığını söyləyib. Dahi rəhbər Heydər Əliyev tərəfindən əsası qoyulmuş Azərbaycanın inkişaf strategiyasının uğurlu nəticələrindən bəhs edən rektor Ulu Öndərin ideyalarının Prezident İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirildiyini bildirib. Ölkənin inkişafında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xüsusi rolunu vurğulayıb.

Milli Məclisin deputatı DİA-nın Siyasi Araşdırmalar İnstitutunun direktoru professor Elman Nəsirov, Siyasi idarəetmə fakültəsinin dekanı professor Elçin Əhmədov, Hüquq kafedrasının müdiri dosent Fəxrəddin Nağıyev və digər çıxış edənlər də Ümummilli lider Heydər Əliyevin böyük xilaskarlıq rolundan, siyasi irsinin əhəmiyyətindən, ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu islahatlar haqqında çıxış ediblər.

## *Dövlət İdarəçilik Akademiyasında "İdarəetmədə yeni yanaşmalar" mövzusunda onlayn poster konfrans keçirilib*

Iyun ayının 19-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "İdarəetmədə yeni yanaşmalar" mövzusunda onlayn poster konfrans keçirilib.

Konfransda DİA-nın rektoru akademik Urxan Ələkbərov müasir dövrdə cəmiyyətin inklüziv inkişafının əhəmiyyətini vurğulayaraq, bu prosesdə gənclərin oynadığı mühüm rolundan danışıb. Rektor qeyd etdi ki, Azərbaycanda müşahidə edilən inklüziv inkişafın nəticələrini bütün vətəndaşların öz həyatlarında hiss etmələri əsası hələ XX əsrin sonlarında Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən idarəçilik strategiyasının innovativ xarakteri ilə birbaşa bağlıdır. Bu strategiyanın davamlı olması isə gələcək nəsillərin və xüsusən də indiki gənc nəslin üzərinə böyük məsuliyyət qoyur.

Konfransda İnzibati idarəetmə fakültəsi üzrə "Davamlı inkişafın idarəedilməsi", "Dövlət və bələdiyyə idarəetməsi", "Menecment", "İqtisadiyyat" və "Kompüter elmləri" ixtisaslarında təhsil alan tələbələr aktiv iştirak etmişlər. Posterlərin mövzuları aktuallıq kəsb etməklə maraqlı təqdimatlarla yadda qalmışdır.

## *DİA-da "Yerli özünüidarəetmədə gender bərabərliyinin təmin olunması: nailiyyətlər və müsbət təcrübə" mövzusunda onlayn ixtisasartırma kursu keçirilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında iyun ayının 19-da "Yerli özünüidarəetmədə gender bərabərliyinin təmin olunması: nailiyyətlər və müsbət təcrübə" mövzusunda onlayn formatda ixtisasartırma kursu keçirilib. Onlayn kursa yerli özünüidarəetmə orqanlarından 25 nəfər bələdiyyə sədr və müavinləri cəlb olunmuşlar.

Kursun əsas məqsədi "Qlobal fövqəladə şəraitdə innovativ dövlət idarəçiliyi texnologiyaları: Azərbaycanın təcrübəsi", "Dövlət qadın siyasəti və yerli özünüidarəetmədə gender bərabərliyi", "Bələdiyyələrin təşkilatı fəaliyyə-





tinin əsas aspektləri", "Pandemiya dövrünün gender aspektləri: beynəlxalq və milli təcrübə", "Bələdiyyələrin hüquqlarının müdafiəsi istiqamətində assosiasiyaların rolu" və s. problemlərlə bağlı biliklərin dinləyicilərə çatdırılması və onlar ilə fikir mübadiləsinin aparılması idi.

Kurs ərzində "Yerli özünüidarəetmədə gender bərabərliyinin təmin olunması: nailiyyətlər və müsbət təcrübə" mövzusunda onlayn formatda ixtisasartırma kursu üzrə – Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova və sədr müavini Sədaqət Qəhrəmanova, İnformasiya və analitik araşdırmalar şöbəsinin müdiri Elgün Səfərov, Hüquqi-təminat şöbəsinin müdiri Taliyə İbrahimova, İnformasiya və analitik araşdırmalar şöbəsinin baş məsləhətçisi Aynur Veysəlova, Azərbaycan Şəhər Bələdiyyələri Milli Assossasiyasının icra katibi Tofiq Həsənov, Dövlət İdarəçilik Akademiyasının İnzibati idarəetməsi fakültəsinin dekanı professor Xatirə Hüseynova müxtəlif mövzularda mühazirələrlə çıxış etmişlər.

### *DİA-da təhsil alan dövlət qulluqçuları üçün disssertasiya müdafiəsi təşkil edilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında təhsil alan dövlət qulluqçularının magistr dissertasiya işlərinin müdafiəsi onlayn təşkil edilib.

Qeyd edək ki, ölkədə Koronavirus (Covid-19) epidemiyasının yayılmasının qarşısının alınması məqsədi ilə mart ayının 3-dən bütün təhsil müəssisələrində, o cümlədən DİA-da ənənəvi tədris dayandırılıb və onlayn təhsilə start verilib. Ona görə də tələbələrin imtahana sessiyası və bakalavriatura və magistratura səviyyəsində müdafiələr də onlayn formatda təşkil olunub. Müdafiələr əvvəlcədən tərtib olunmuş cədvələ uyğun olaraq keçirilib. "Dövlət və bələdiyyə idarəetməsi" ixtisasının "Dövlət qulluğunun təşkili və idarə edilməsi", "Regional idarəetmə", "Elektron idarəetmə" və "Davamlı inkişafın idarə edilməsi" ixtisasının "Davamlı inkişafın planlaşdırılması" ixtisaslaşmaları üzrə təhsil alan magistrlər və İxtisaslaşdırılmış Elmi Şura üzvləri onlayn rejimdə sistemə qoşulub və canlı dialoq formatında magistrlərin təqdimatlarını dəyərləndiriblər.

Qeyd edək ki, "Rəhbər kadrların yenidən hazırlanması" fakültəsi üzrə 4 qrupda dövlət və bələdiyyə idarəçiliyi, davamlı inkişafın planlaşdırılmasının aktual problemlərinə dair 75 magistr işi müdafiəyə buraxılıb və müvəffəq qiymətlə qiymətləndirilib.

MÜNDƏRİCAT

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətinin qısa xronikası**............7

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qəbulları**.............................13

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səfərləri**........................................23

Şamaxı rayonuna səfər ........................................................................................23
Qaradağ rayonuna səfər .......................................................................................25
Tərtər rayonuna səfər ..........................................................................................31
Ağcabədi rayonuna səfər......................................................................................38
Gəncə şəhərinə səfər............................................................................................44
Samux rayonuna səfər .........................................................................................50
Mingəçevir şəhərinə səfər ....................................................................................52

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları və müsahibələri**..........................................................................................59

İlin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində keçirililən müşavirədə İlham Əliyevin giriş nitqi ........................................................59

İlin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində keçirililən müşavirdə İlham Əliyevin yekun nitqi ......................................................63

"Azərenerji" ASC-nin yenidən qurulan Baş idarəetmə, elm, tədris və laboratoriya kompleksinin açılışında İlham Əliyevin nitqi..............................................................65

Qoşulmama Hərəkatının Təmas Qrupu formatında keçirilən Zirvə görüşündə İlham Əliyevin nitqi.......................................................................................................67

İlham Əliyev "Mir" televiziya kanalına müsahibə verib ............................................69

Modul tipli ilk xəstəxana kompleksinin açılışında İlham Əliyevin nitqi....................................71

İlham Əliyev Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana eksklüziv müsahibə verib..................................................75

Rusiyanın nüfuzlu "Natsionalnaya oborona" ("Milli müdafiə") jurnalının may buraxılışında İlham Əliyevin müsahibəsi dərc olunub ..........................................................................83

"Gilan Tekstil Park" MMC-in tibbi maska fabrikinin və qoruyucu kombinezonların istehsalı müəssisəsinin açılışında İlham Əliyevin nitqi ...............................................87

İlham Əliyevlə "Microsoft" şirkətinin vitse-prezidenti və digər nümayəndələri arasında videokonfrans keçirilib ...........................................................................................90

İlham Əliyevlə Dünya Bankının yeni vitse-prezidenti və digər nümayəndələri arasında videokonfrans keçirilib ....................................................................................................92

Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında sammitində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı ...................................................97

İlham Əliyev və Ümumdünya Turizm Təşkilatının Baş katibi arasında videokonfrans keçirilib ....................................................................................................98

## DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ

**Vüqar Kərimov.** Abşeron yarımadasında ətraf mühitin idarə edilməsində yaşıllaşdırma layihələrinin rolu ...............................................................................101

## BEYNƏLXALQ MÜNASIBƏTLƏR

**Hikmət Məmmədov, İlyas Hüseynov.** Azərbaycan və Yunanıstan arasında siyasi və iqtisadi münasibətlərin inkişaf etdirilməsində Prezident İlham Əliyevin rolu ...........117

## SOSİAL FƏLSƏFƏ

**İlham Məmmədzadə.** Mədəniyyətlərarası kommunikasiyanın bəzi fəlsəfi problemləri...........125

**Etibar Nəcəfov.** COVİD-19 pandemiyası və multikulturalizm ...............................................133

## DÖVLƏT İDARƏÇİLİYİ

**İbrahim Məmmədov.** Azərbaycan pandemiya dövründə (2020-ci il, yanvar-iyun) Koronavirusla mübarizə: müstəqil dövlətin yeni təcrübəsi........................................................147

**Rəcəb Rəhimli.** Dövlət idarəçiliyinin rəqəmsal gələcəyi: dünya trendləri və müasir dövlət qulluğu ...................................................................................................173

## DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ

**Khatira Huseynova.** Perspectives of innovative public administration in the digital era in Azerbaijan ...........................................................................................187

**Nigar Valiyeva.** The Activities of the Heydar Aliyev Foundation for the sake of a Modern Multicultural and Healthy Society's Development .....................................................195

## KONSTİTUSİYA HÜQUQU; İNZİBATİ HÜQUQ

**Əli Rzayev.** İdarəetmə qərarı: anlayışı və məzmunu ...............................................................205

**Elvin Talışınski.** Qloballaşan dünyada dövlət informasiya siyasətinin əhəmiyyəti .................213

**DÜNYA İQTİSADİYYATI**

**Gülarə Süleymanova.** Qloballaşma prosesinin Azərbaycan iqtisadiyyatına təsiri və iqtisadi perspektivlər ....221

**VƏTƏN TARİXİ**

**Sahibə Budaqova.** Azərbaycan ərazisində ermənilərin törətdikləri qırğınlar (1918–1921-ci illər) ....231

**Aqil Əhmədov.** Heydər Əliyevin milli inkişaf siyasətində miqrasiya prosesləri ....239

**Нигяр Гезалова.** О символах власти государства Надир шаха Афшара ....249

**EKOLOGİYA**

**Жанна Андреева.** Экологический дизайн побережья Каспийского моря в районе Бакинской бухты ....257

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR**

**Məhsəti Əliyeva**. Müasir beynəlxalq münasibətlərdə müharibə və sülh problemi ....263

**GƏNC TƏDQİQATÇILAR**

**DÖVLƏT İDARƏÇİLİYİ**

**Ceyran Rəhmətullayeva.** Sosial xidmət anlayışına dair yanaşmalar və onun prinsipləri ....271

**Vüsal Quliyev.** Özəl sektor və dövlətin qarşılıqlı fəaliyyətinin öyrənilməsinə dair nəzəri yanaşmalar ....281

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR**

**Shabnam Hasanova.** Characteristics of Southern Gas Corridor Project and Main Segments of it .... 287

**Fazil Zeynalov.** State sovereignty and international recognition.... 295

**Ömür Kerim Mehmetşah oğlu İşık.** Türkiyə və Azərbaycan arasında iqtisadi təhlükəzislik sahəsində əməkdaşlığın genişləndirilməsində ticarət əlaqələrinin rolu ....301

**SOSİAL PROBLEMLƏR**

**Ayşəm Balayeva.** Avropa ölkələri və Azərbaycanda cəza çəkməkdən azad olunmuş şəxslərin sosial adaptasiya təcrübəsi ....309

**Dövlət İdarəçilik Akademiyasında** ....321

## “Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə” jurnalına məqalələrin təqdimolunma qaydası

1. Məqalə Azərbaycan, ingilis və rus dillərində qəbul edilir.
2. Məqalənin adı, müəllif(lər)i, müəllif(lər)in elmi dərəcəsi, vəzifələri, ad və soyadları, çalışdıqları qurum və elektron poçt (e-posta) ünvanları yuxarıda sağ tərəfdə göstərilir.
3. Məqalənin həcmi 8 səhifədən az olmamalı (Microsoft Word formatında), 1,5 (bir tam onda beş) intervalla, Times New Roman 12 şriftilə yazılmalı, A4 formatında və elektron daşıyıcıda təqdim olunmalıdır.
4. Məqalədə xülasə (Azərbaycan, İngilis və Rus dillərində), açar söz (Azərbaycan, İngilis və Rus dillərində, ən çox 6 söz) qeyd olunmalıdır.
5. Məqalənin xülasəsi məqalənin məzmununa uyğun olmalı, 150-200 sözdən çox olmamalı, tədqiqatın məqsədini, əhəmiyyətini və elmi dövriyyədəki yerini, istifadə edilən metodları, tətbiq dairəsini göstərməlidir.
6. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. aydın şəkildə qeyd olunmalıdır.
7. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir. Məqalədə istinad olunmuş mənbələr ədəbiyyat siyahısında əlifba sırası ilə yazılmalı və nömrələnməlidir. İstinad olunmuş mənbənin ədəbiyyat siyahısındakı nömrəsi və səhifə nömrəsi mətndəki istinaddan sonra kvadrat və ya adi mötərizədə göstərilir. Məsələn (39, s.127-128), [27, s.237] və s.
8. Məqalələr orijinal olmalı və əvvəllər başqa yerli və ya beynəlxalq jurnallara, konfranslara təqdim edilməməlidir.
9. Məqalələr gizli rəyçilərin rəyindən sonra redaksiya heyətinin qərarı ilə çapa tövsiyə edilir.

## Procedure for Submitting Articles to the Journal “Public Administration: Theory and Practice”

1. The article is accepted in Azerbaijani, English and Russian languages.
2. The title of the article, the author (s), author’s (s’) academic affiliation, titles, names and surnames, workplace and electronic mail address (e-mail) addresses should be displayed above on the right side.
3. The content of the article should be no less than 8 pages (in Microsoft Word format), 1,5 space, Times New Roman 12 fonts and must be submitted electronically in A4 format.
4. The article should contain summary, (English, Russian and Azerbaijani languages), keyword (English, Russian and Azerbaijani languages, no more than six words)
5. The summary of the article must be in line with the content of the article, should not exceed 150-200 words, must indicate the purpose and importance of the research, the methods that used as well as the scope of the study.
6. At the end of the scientific article, the scientific originality and the importance of the emprisicm should be clearly stated in accordance with the character of the scientific field and article.
7. The article should contain references to scientific sources. The scientific articles, monographs and etc.that have been written for the last 5-10 years should be preferred. The sources referred in the article must be listed in an alphabetical order in the reference list. The number and page number of the referred article in the reference list should be displayed in parantheses or brackets after the reference in the text. For instance, (39, p.127-128), [27, s.237] and etc.

8. The articles should be original and should not be previously submitted to other local or international journals and conferences.
9. The articles are recommended to publication by the decision of journal's editorial board after the opinion of peer reviewers.

**Правила предоставления статей для публикации в журнале «Государственное управление: теория и практика»**

1. Статья принимается на азербайджанском, английском и русском языках.
2. Название статьи, автор(ы), ученая степень автора(ов), занимаемая должность, имя и фамилия автора(ов), организация, где они работают, адрес электронной почты указываются в верхнем правом углу.
3. Объем статьи не должен быть менее 8 страниц (в формате Microsoft Word), с междустрочным интервалом – 1,5 (полуторный), размером шрифта – 12 пт в формате А4 и должен предоставляться на электронном носителе.
4. В статье должны быть указаны резюме (азербайджанском, английском и русском языках), ключевые слова (на азербайджанском, английском и русском языках, не более 6-ти слов).
5. Резюме статьи должно соответствовать содержанию статьи, и не превышать 150-200 слов, должны быть указаны цель, значимость и место в научном обороте исследования, используемые методы, сфера применения.
6. В конце научной статьи в соответствии с областью науки и характером статьи должны быть чётко сформулированы научная новизна работы, значимость её внедрения и др.
7. В статье должны быть ссылки на научные источники, преимущественно на научные статьи, монографии и др. за последние 5-10 лет. Источники, на которых были ссылки в статье, должны быть пронумерованы и включены в список литературы в алфавитном порядке. Номер источника и страницу, на которую была сделана ссылка, в тексте следует указать в квадратных или обычных скобках. Например, (39, s.127-128), [27, s.237] и т.д.
8. Статья должна быть оригинальной и ранее непредставленной в местные или международные журналы, конференции.
9. Статья рекомендуется к публикации по решению редколлегии после получения отзыва от тайных (неразглашаемых) рецензентов.

# Dövlət idarəçiliyi:
## nəzəriyyə və təcrübə

***Elmi-nəzəri jurnal***

**2020, №2(70)**

Azərbaycan Respublikasının Prezidentinin fəaliyyətini
əks etdirən bölməni *siyasi elmlər doktoru, professor E.Nəsirov,*
*siyasi elmlər doktoru, professor E.Əhmədov*,
*psixologiya üzrə fəlsəfə doktoru, dosent B.Haqverdiyev*
və müəllim *F.Şammədov*
AZƏRTAC-ın materialları əsasında hazırlamışlar.


Redaktoru *Günay Maqsudova*
Kompüter dizayneri *İradə Təhməzova*
Korrektoru *İradə Təhməzova*

*Lisenziya: AB № 022732,*
*Qeydiyyat № b 532, 08.04.2003-cü il.*
*Redaksiyanın ünvanı:*
*Bakı, Az-1001, Lermontov küç., 74*
*(Dövlət İdarəçilik Akademiyası).*
E-mail: publishing@dia.org.az
*Telefonlar: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

**«Aspoliqraf LTD» MMC-nin**
mətbəəsində çap olunmuşdur.
Sifariş 115. Tiraj 500.

# Journal of Public Administration: Theory and Practice

***Scientific and theoretical journal***

## 2020, №2(70)

The section covering activities the President of the Republic of Azerbaijan
is prepared on the basis of AZƏRTAC materials and is compiled by
*E.Nasirov, Dr. of political sciences, professor;*
*E.Ahmadov, Dr. of political sciences, professor;*
*Dr. B. Hagverdiyev, Ph.D. in Psychology, assistant professor*
and *F.Shammedov,* lecturer, all from Academy of Public Administration.

Editor *Gunay Maqsudova*
Computer designers *Irada Tahmazova*
Correctors *Irada Tahmazova*

*License: AB No. 022732*
*Registration No. b 532, 08.04.2003*
*Address of Publisher:*
*Baku, Az-1001, Lermontov st., 74*
*(Academy of Public Administration)*
*E-mail: publishing@dia.org.az*
*Phone: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

Printed at the printing-house of the
**«Aspoliqraf LTD»**
Order 115. Number of copies printed 500.